F. Ağasıoğlu

Doqquz Bitik

Azərbaycan Türklərinin İslamaqədər Tarixi

I
Bitik

«**Doqquz Bitik**» sırası

- **I Bitik.** Tarixi qaynaqlar (2014)
- **II Bitik**. Tarixi coğrafiya
- **III Bitik.** Azərbaycanda qurulan qədim dövlətlər
- **IV Bitik.** Tarixi etnoqrafiya
- **V Bitik**. Mifologiyada tarix
- **VI Bitik**. Ədəbiyat və folklorda tarix
- **VII Bitik**. Azər (türk) dilinin tarixi
- **VIII Bitik.** Tarixi onomastika
- **IX Bitik**. Azərbaycan türklərinin soykökü

Firudin Ağasıoğlu

Doqquz Bitik

AZƏRBAYCAN TÜRKLƏRININ İSLAMAQƏDƏR TARIXI

I Bitik

TARİXİ QAYNAQLAR

Bakı - 2014

Elmi redaktor: *AMEA-nın Müxbir üzvü Prof. Dr. Vəli Əliyev,*
Prof. Dr. Süleyman Əliyarlı

Redaktor: *Prof. Dr. Ramiz Əskər, Həlimə Rzaquliyeva*

Firudin Ağasıoğlu. Azərbaycan türklərinin İslamaqədər tarixi. (Doqquz Bitik). I Bitik: Tarixi qaynaqlar. Bakı, 2014, «...», 337 s.

Türkologiya elmində analogiyası olmayan doqquz cildlik «Azərbaycan türklərinin İslamaqədər tarixi» (9 Bitik) əsəri bu sahədə müəllifin apardığı 30 illik tədqiqatın nətcəsi kimi ortaya çıxmışdır. Türk xalqlarının tarixi bu əsərdə yeni konsepsiya ilə yazılmış, «Altay» nəzəriyəsinin əksinə olaraq, yazarın gündəmə gətirdiyi yeni "Urmu" nəzəriyəsilə Ön Asiya türk etnosunun yarandığı ilkin coğrafi məkan kimi müəyyənləşmişdir. Tarixi qaynaqlar, tarixi coğrafiya, Azərbaycanda qurulan qədim dövlətlər, tarixi onomastika, tarixi etnoqrafiya, həmçinin folklor və mifologiyada tarix, azər türkcəsinin tarixi və azər türklərinin soykökü ayrı-ayrı bitiklərdə verilmişdir.

«Tarixi qaynaqlar» adlanan I Bitikdə milli və yabançı qaynaqlara yeni baxış və yeni konsepsiyanın metodları şərh olunur. Azər türklərinin tarixinə aydınlıq gətirən antropoloji, arxeoloji və daş bəlgələr, qayaüstü rəsmlər, yazıöncəsi işarələr, damğalar və yazının yaranması digər türk xalqlarının tarixilə əlaqəli şəkildə tədqiq olunur və türk etnosunun formalaşma tarixindən başlayaraq İslamaqədərki 10 minillik bir dövrü əhatə edən zaman daxilində gözdən keçirilir. Türkologiyada ilk dəfə İslamaqədər qonşu xalqlar və dövlətlərlə olan əlaqələr verilmiş, tarixi faktlarla türklərin ilkin Atayurdunun Ön Asiyada olması göstərilmişdir. Bu isə böyük öndər Atatürkün uzaqgörənliklə "Anadoluda 7 minil öncə də türklər vardı" deyiminin gerçəkliyini açığa çıxardı.

(Müəllif hüquqları agentliyi. Şəhadətnamə № 5797)

© Ağasıoğlu

© «…» nəşriyatı, 2000

BAŞLIQLAR

Önsöz……..…….……..……..6
Giriş……..……..7
Məsələnin qoyuluşu…….……..7
Metodologiya…….……..……..18
Qaynaqlara baxış…….……..…….26
Milli qaynaqlar……..…….……....27
Yabançı qaynaqlar……..……...27
1. Antropologiya…….……..... 43
2. Arxeologiya……..…….……... 53
Erkən daş dövrü…….…… 54
Orta daş dövrü…….……..…… 59
Yeni daş dövrü…….……..... 63
Mis-daş dövrü……..……..……..... 66
Tunc dövrü……..…….…… 78
Dəmir dövrü……..…….... 95
3. Daş bəlgələr……...…….……..... 114
Gil-daş fiqurlar…….……..…… 114
Daş adam fiqurları ……...…….…… 115
Daş heyvan fiqurları…….…… 121
Qaya rəsmləri…….…… 124
4. Yazıöncəsi işarələr……...……...…….... 129
Piktoqram…..……...……...……..… 130
Damğa…..……..……...……. 134
5. Yazı……...……...……...……..… 140
Mixi yazı .....…….……..…… 144
Runik yazılar ……..…….…… 149
6. Qonşu xalqlar və dövlətlərlə əlaqə..... 171
Güney və Güney-Batı qonşular……...…….…. 174
Batı və Quzey-Batı qonşular……...……... 222
Quzey və Quzey-Doğu qonşular…….……..… 298
Doğu və Güney-Doğu qonşular…….……...… 325
Ədəbiyat……..…….…… 342

ÖN SÖZ

Azərbaycanın tarixinə aid çoxlu kitablar yazılmış, burada yaranan dövlətlərin tarixi, coğrafi sınırları, ölkənin mədəni və sosial durumu geniş təsvir olunmuşdur. Lakin bu ölkədə yaşayan, burada dövlətlər quran, minillər boyu etnik-mədəni dəyərləri nəsildən-nəsilə ötürən insanların tarixi kölgədə qaldığından, bugün sayı 50 milyonu aşan Azər türklərinin tarixi haqqında indiyəcən əlimizdə tutarlı bir əsər yoxdur. Halbuki, son illərdə bir neçə alimin bu yöndə apardığı tədqiqatlar öncə bəlli olmayan və ya bəlli olsa da, bilərəkdən əhəmiyət verilməyən çoxlu tarixi qaynaqlar, gərəkli bəlgələr ortaya çıxarmışdır. Bu ölkənin möhtəşəm tarixini yaradıb, onu günümüzəcən yaşadan Azər türklərinin tarixini bugünkü nəsilə çatdırmaq amacı ilə qələmə aldığım bu kitabın ərsəyə gəlməsində 1975-dən başladığım araşdırmalarda damla-damla toplanan tarixi bəlgələrlə yanaşı, başqa alimlərin bu yöndə apardığı araşdırmalar da yararlı olmuşdur.

Elmdə yeni konsepsiyanın özü ilə yeni terminologiya gətirməsi doğaldır, çünki artıq çoxmənalı sözə çevrilmiş bəzi terminlər yeni anlam yükünü daşıya bilmir. Bu baxımdan, göz-qulaq alışanacan istəkli oxucunun dözümünə sığınaraq *tayfa, qəbilə, xalq, dövlət* sözləri ilə yanaşı *uruq, boy, budun, ellik, el*, həmçinin ilk səhifədən qulağımız alışmadığı *bitik* (kitab) kimi bir çox sözün dilimizə xeyir verəcəyinə inanaraq, onlardan istifadə etmişəm. Çünki yarandığı dövrün siyasi-sosial durumunu əks etdirən ***el*** (xalq-dövlət) sözündə olduğu kimi, bir sıra tarixi terminlərin türkcə olan leksik mənasında da tarix üçün gərəkli informasiyalar yatır, hər elin gerçək tarixi onun öz dilində daha aydın görünür.

Kitabın çapa hazırlanmasında mənim üçün ən yorucu iş buradakı şəkil, sxem və xəritələrin çəkilməsi idi, texniki işləri də öz əlimlə görmək nə qədər ağır olsa da, yazılan hər səhifəni başa vurduqca tapdığım rahatlığı və aldığım zövqü də vurğulamalıyam. Mənə milli dəyərləri sevməyi öyrədən xocalarıma, öyrəndiklərimi qələmə almaqda mənəvi dayaq olan məsləkdaşlarıma, bitikləri nəşr edən dostlara və mənə bu kitabı yazmaq üçün evdə illərboyu şərait yaradan doğmalarıma da minnətdar olduğumu özəlliklə qeyd etməliyəm.

Ən qədim dövrlərdən başlayaraq, islamlaşma çağlarında ilk ərəb istilaları dövrünü də əhatə edən və yeni *Urmu* nəzəriyəsinin elmi əsaslarını ortaya qoyan bu əsər antropologiya, arxeologiya, tarixi coğrafiya və onomastika, dövlət qurumları, mədəniyət, etnoqrafiya, dil, folklor, mifologiya, etnogenez bəlgələri əsasında 9 kitab (*Doqquz bitik*) şəklində yazılmışdır. İnanıram ki, Azər xalqının İslamdan sonrakı zəngin tarixini də bu yeni konsepsiya ilə yazanlar olacaqdır. Bunu da vurğulamaq gərəkir ki, bu bitiklərdə prototürk çağı və üç minil öncəyə qədərki çağ bütün türk xalqlarına aid ümumtürk tarixi kimi, sonrakı çağlar isə protoazər və azər türklərinin tarixi kimi qələmə alınmışdır.

Bakı - Xızı, 2000

GİRİŞ

Bir Tañrı qutuna alqış!

Məsələnin qoyuluşu

Dünyada ilk insan əcdadlarının yarandığı azsaylı antropogenez bölgələrindən biri olan Azərbaycan yerləşdiyi geosiyasi ərazinin təbii şəraitinə görə ən qədim çağlardan davamlı yaşayış məskənləri ilə də ətraf bölgələrdən seçilmişdir.[1] Qədimdən İslam öncəsi dövrlərəcən bu ölkə batıdan doğuya, doğudan batıya, güneydən quzeyə və əksinə hərəkət edən ayrı-ayrı köç axınlarının dörd yol ayrıcına çevrilsə də, burada gəlmə xalqların tutumlu etnik dəyişmələrə səbəb ola biləcək kütləvi yerləşməsi olmamışdır. Arxeoloji, mifoloji, etnoqrafik, onomastik, yazılı qaynaqlara görə, son beş minildə Azərbaycana və sərhəd bölgələrə, qonşu ölkələrə gəlib yerləşən və ya gəlib buradan keçən sumer, sami, het, hay, hurri-urartu, iran, qafqaz və monqol dilli xalqların *regiona gəlmə tarixi* bəllidir. Ancaq qonşu bölgələrdə elam, hat və qafqazdilli boylar, Doğu Anadolu və Azərbaycanda isə prototürklər yerli xalq olduğundan onların bura gəlmə tarixi yoxdur. Ümumtürk və azər tarixinə bu yöndən yanaşanda indiyə qədər regionun etnik tarixinə aid yazılmış əsərlərdə yanlış şərhlərin, deyilmiş fikirlərdəki ziddiyətlərin səbəbi aydın görünür, indiyəcən ortaya çıxan suallara gerçək cavabların verilə bilməməsi də problemə yanlış yanaşmanın sonucudur.

Burada qarşıya qoyulan məqsəd Azərbaycan tarixçilərinin indiyə kimi getdiyi elmi yolun yanlış olması ilə bağlı son illərdə aparılan bəsit və mənasız polemikanın davam etdirilməsi deyil. Məqsəd türk etnosunun Ön Asiyada yarandığını, prototürk dilinin məhz burada ərsəyə gəldiyini, doğuya türk kulturunu buradan aparan bəzi türk boylarının zaman-zaman Azərbaycana qayıtdığını, buradakı dövlətlərin yaranmasında türk boylarının rolunu, azər xalqının kultur dəyərlərini və etnogenezini aydınlaşdıran İslamaqədərki qaynaq və tarixi bəlgələri ortaya çıxarmaqdır. Bu yöndə aparılan tədqiqatda təkcə tarix elminin deyil, tarixi coğrafiya, etnologiya,

[1] Doğrudur, *Azərbaycan* xoronimi (ölkəadı) orta əsrlərdə daha geniş əraziləri əhatə etmişdir, lakin burada işlətdiyimiz *Azərbaycan* adı bugünkü siyasi-inzibati mənada deyil, ərəb istilası çağlarında azər boylarının yaşadığı Dərbənd-Borçalı-İrəvan-Mosul-Kərkük-Həmədan-Xəzər boyu ilə sınırlanan bir etnik-coğrafi bölgə anlamındadır.

mifologiya, folklor və dilçilik elminin verdiyi bilgilərə söykənən kompleks metodikadan istifadə olunmuşdur. Tədqiqatın mövzusundan kənarda qalan digər türk xalqlarının tarixi haqqında ayrı-ayrılıqda geniş fikir söyləmək imkanı olmasa da, azər xalqı türk toplumunun bir parçası olduğundan bəzi ümumtürk məsələlərinə də burada yer ayrılmışdır.

Elmi ədəbiyatda Doğu (Şərq) və Batı (Qərb) mədəniyəti deyilən bir anlayış dərin kök salmışdır. Lakin nəzərə almaq lazımdır ki, Misirdən Çinə qədər uzanan Qədim Doğu mədəniyəti üç fərqli mədəniyət regionuna ayrılır. Orta mövqedə yerləşən İkiçayarası-Orta Asiya bölgəsi batıda mərkəzi Misir olan, doğuda isə mərkəzi Çin olan Doğu mədəniyətlərindən köklü şəkildə fərqlənir. Bu fərq, təkcə etnik faktorla deyil, həm də arxeoloji xüsusiyəti, sosial durumu və özəl kultur nümunələri ilə görünür.[2]

Türk etnosunun formalaşdığı orta regionun tarixi bura gəlmə xalqların tarixinə əsasən yazıldığı üçün proto-azər və azər tarixi üzərinə qara pərdə çəkilmiş, bu regionun ortasında olan Azərbaycanın etnik tarixi öyrənilməmişdir. Bunun səbəblərindən biri türklərin Atayurdunu Orta Asiyadan batıda deyil, doğuda axtaran qondarma «Altay nəzəriyəsi» olmuşdur. Bir başqa səbəb isə Ön Asiyanın qədim etnik tarixinə batılı müəlliflərin qərəzli baxışı və türkoloqların bu məsələlərə etinasız münasibətidir. Ona görə də, Doğu mədəniyətinin hər iki ucda doğu və batı qanadlarını formalaşdıran etnoslardan fərqli olaraq, orta qanadı yaradan etnoslar sırasında türklərin qədim dünya sivilizasiyasına verdiyi kultur dəyərləri hələ obyektiv qiymətini almamışdır.

Türk etnosu Ön Asiyada doğulub buradan ətraf bölgələrə dağılmış, türk dili buradan bütöv Avrasiyaya yayılmışdır. Antropoloji, arxeoloji, mifoloji bəlgələrdə aydın görünən bu durum dil faktları ilə də təsdiq olunur. Lakin Avropa alimlərinin son əsrlərdə türkoloqlara təlqin etdikləri «Altay nəzəriyəsi» türklərin Ata yurdunu Ön Asiyada deyil, Mərkəzi Asiyada axtarmağa məcbur etmişdir. Fəqət hansı konkret arxeoloji kultura söykəndiyi bilinməyən bu ocağın yeri isə orada bugünəcən tapılmamışdır.

[2] Burada *mədəniyət* və *kultur* sözləri fərqli anlamda işlənir: sənət, yazı, mətbəx, geyim, davranış, yaşam tərzi, arxeologiya kimi onlarla konkret sahələrdə yaranmış milli dəyərləri bildirmək üçün keçən əsrin ortalarınacan işlətdiyimiz beynəlxalq *kultur* termininin yenidən dilimizə qaytarılması dünya xalqlarının yaratdığı kultur dəyərlərin qarşılıqlı əlaqəsi ilə formalaşıb ümumbəşəri mahiyət daşıyan çoxmənalı *mədəniyət* (sivilizasiya) terminini əlavə məna yüklərindən azad edir. Terminlər nə qədər təkmənalı olursa, onun elmi informasiya aydınlığı bir o qədər yüksək olur.

Halbuki türk-monqol-tunqus dillərinin sübut olunmayan qohumluğu üzərində qurulan bu nəzəriyə ortalığa çıxan bir çox suala cavab verə bilmir.

Son illərdə bu nəzəriyənin yanlış olduğunu yazan, türk-monqol dil paralellərinin etnogenetik deyil, sonrakı əlaqə nəticəsində yarandığını elmi metod və bəlgələrlə sübut edən G. Clauson, V. Kotviç, B. A. Serebrennikov, Q. D. Sanjeyev, G. Dörfer, F. R. Zeynalov, A. M. Şerbak kimi tanınmış komparativist və türkoloq alimlərin sayı artmaqdadır.[3] Bu yöndə aparılan tədqiqatların nəticələri artıq dünya türkoloqlarının ali məclisi olan son bir neçə türkoloji qurultayda gündəmə gətirilmişdir.

Nə üçün türk bəlgələri m.ö. IV-I minillərdə Ön Asiyada, m.s. I minillikdə isə Orta Asiyadan doğuda ortaya çıxır? Nə üçün avropoid türk boylarında monqoloid cizgilər batıdan doğuya getdikcə çoxalır? Bu kimi suallara cavab tapmayan Altay nəzəriyəsi etnogenez məsələsində elmdən uzaq daha bir yanaşma metoduna yol açmış olur: bu metoddan istifadə edənlər təkcə azərləri deyil, əksər türk xalqlarını «*türkləşmiş xalq*» kimi qələmə verirlər. Bugün yer üzündə elə bir türk xalqı yoxdur ki, ona «türkləşmiş xalq» damğası vurulmasın.[4]

Türk etnosunu yerli xalq saymayan «gəlmə türklər», «türkləşmə» konsepsiyası Azərbaycan tarixçiliyində çoxdan dərin kök salmışdır. İlk dəfə bu konsepsiyaya qarşı dövlət səviyəsində akademik-katib M. Cəfərovun

---

[3] Котвич, 1962; Зејналов, 1981, 6-7; Дёрфер, 1972, 1981.

[4] «Krım tatarları türkləşən german əsilli qotlar-tavrlardır» (Богушь, 1806, 93, 282); «Tatar, başqord xalqları türkləşmiş uqor və ostyaklardır» (ПСДК, 190); «Qaraqalpaqlar türkləşmiş irandilli tayfalardır» (ЭИАСА, 1979, 154); «Xakaslar avropoidlərlə monqoloid türklərin qarışığıdır» (ПСДК, 197); «Azərbaycan və Anadolu türkləri türkləşmiş xalqlardır» (Алексеев, 1986); «Balkarlar türkləşmiş osetinlərdir» (Калоев, 130); «Tuvalar türkləşmiş samodilərdir» (Этнонимы, 1970, 219); A.Karimulin yazır ki, hətta qədim bulqarları da B. Florinski, D. İlovayski türkləşmiş slavyan, Q.Tsenov frak, V. Sirotenko, A.Smirnov irandilli sarmat-alan hesab etmişlər (Каримуллин, 1976, 22-23).

XIX əsrdən başlanan bu üsul Azərbaycanda İ. Əliyevin başçılığ ilə yazılan tarix kitablarında geniş istifadə olunur (AT, 1998). Bu konsepsiyaya görə Yer üzündə «yeri olmayan» (*bəlkə, göydən zənbillə düşüblər?!*) türk xalqlarının etnogenezinə qərəzli münasibəti aydın göstərən belə misalların sayını xeyli artırmaq olar. Lakin bu «elmi» konsepsiyada bir şey aydın deyil: görəsən, bütöv Avrasiyaya yayılmış bu qədər «türk olmayan xalqlar» hansı möcüzəli texnika ilə türkləşiblər? Necə olub ki, o boyda azərlər türkləşib, amma son minildə onların içində yaşayıb öz dilini saxlayan azsaylı xalqlar o «texnika»nı görməyib? Bu da qəribə haldır ki, əsasən islamlaşma dövrünə aid edilən «kütləvi dildəyişmə oyunu» niyə İslam dinini yayan dillə «ərəbləşmə» yox, məhz «türkləşmə» olayı ilə nəticələndi?

rəhbərliyi altında Azərbaycan Elmlər Akademiyasında dilçi-tarixçi alimlərin birgə keçirdiyi elmi-nəzəri müşavirədə (1984) kəskin münasibət bildirilərək, mövcud qüsurlu konsepsiyanın islah edilməsi təklif olunmuş, Azərbaycanda yerli və bura qayıdan türk boylarının qovuşması ilə m.ö. I minilliyin ortalarında azər-türk dilinin formalaşması konsepsiyası irəli sürülmüşdür.[5] Bu haqda informasiyanın dövlət mətbuatında dərc olunması azər türklərini aborigen sayan, bu sahədə dəyərli əsərlər yazan alimlərdə daha dərin axtarışlara baş vurma ovqatını artırmış, ayrı-ayrı elm və tədris ocaqlarında etnogenezə dair elmi seminarlar keçirilmişdir.[6] Əgər 1984-də mənim də iştirak etdiyim müşavirədə bizim əlimizdə çox az fakt vardısa, indi bu sahədə əldə olunan elmi dəlil və sübutlar böyük bir sistem təşkil edir. Bu yöndə başqa türk xalqlarının da tarixini araşdırıb dəyərli əsərlər yazan alimlər vardır.[7]

Kökündən ayrılıb yad mühitə düşən xalqlar yeni yurdda əriməmək üçün ya əski yurdları ilə əlaqələri qırmamalı, ya da getdikləri ölkədə yerli xalqdan sayca çox olmalıdırlar. Azərbaycandan doğuya köçən boyların türk dilini mühafizə etməsinin səbəblərindən biri məhz qədim türk yurdu Orta Asiyanın ortada körpü rolunu oynaması idi. Dünya tarixində 100-dən artıq bənzəri olmayan dövlət və imperiya qurmuş türk toplumunun özə-

---

[5] «Бакинский рабочий» гяз., 20 апрел 1984; «Коммунист» гяз.,15 май 1984.

[6] Bu konsepsiyanın dərinləşib təkmilləşməsinə xidmət edən tanınmış dilçilər - Ə. Dəmirçizadə, F. Zeynalov, T. Hacıyev, A. Məmmədov, E. Əlibəyzadə, N. Xudiyev, Ə. Tahirzadə, A. Rəhimov, tarixçilər - Y.Yusifov, S. Əliyarlı, M. İsmayılov, arxeoloqlar - M.Hüseynov, V. Əliyev, F. Mahmudov, mifoloq və folklorçular - M. Seyidov, A. Acalov, B. Abdullayev, Ə. Əsgər, M.Tantəkin, şərqşünaslar - Ə. Elçibəy, M. Zehtabi, M. Mahmudov, Ə. Səfərli, etnoqraflar - Q. Qeybullayev, X. Xəlilov və digər sahə alimləri B. Budaqov, X. Məmmədov, Nurəddin Rzayev, Nəsir Rzayev, H. Həsənov, Y. Oğuz, B. Tuncay, R. Hüseyinov, Q. Hümbətov və başqa ziyalıların araşdırmaları müxtəlif elmlərin işığında Azər türkləri tarixinin görünən özəlliyinə aydınlıq gətirmişdir.

Həsən Həsənov «*Türkşünaslığın bəzi problemləri*» adlı məqaləsində türklərin müxtəlif çağlarda Azərbaycanda məskunlaşması haqqında ayrı-ayrı alimlərin irəli sürdüyü fikirləri beş versiya üzrə qruplaşdırmış, bunlardan dördündə türklərin müxtəlif çağlarda Ön Asiyaya, həmçinin Azərbaycana gəlmə xalq olması fikrinin irəli sürüldüyünü və yalnız Ağasıoğlunun (F.Cəlilovun) yazılarında əks olunmuş beşinci versiyanın türklərin burada yerli xalq olması fikrinə dayandığını göstərmişdir (Həsənov, 2002, 143-144).

[7] Kırzıoğlu, 1953, 1965, 1992; Yavuz, 1968; Togan, 1981; Koşay, 1984; Günaltay, 1987; Ayda, 1987, 1992; Kafesoğlu, 1989; Tuna, 1990; Memiş, 2002; Mirşan, 1970, 1997; Karatay, 2000, 2003; Антонов, 1970, 1984; Мусаев, 1975, 1984; Закиев, 1995, Zəkiev, 1998; Амонжолов, 1971, 1974, 1978; Сулейменов, 1975; Бекмырадов, 1987; Мизиев, 1986, 1990; Фəттах, 1990 və başqaları.

yində doğulan azərləri «türkləşmiş xalq» adlandırmaq Azərbaycan tarix elminə başucalığı yox, utanclı ayıb gətirər. Türkləşmə olayı o vaxt gerçəkləşir ki, yaddilli tayfa kiçik qruplar şəklində türk yurduna gəlir. Xilafət çağında hərbi qarnizon yaratmaq məqsədilə Azərbaycana köçürülən azsaylı ərəb tayfaları sonralar burada azər xalqına qarışıb türkləşdiyi kimi, yad mühitə düşən türklər də yerli xalqların içində zaman-zaman ərimişlər. Tuna bulqarları Balkanda dövlət qursa da, xristianlaşaraq çoxsaylı yerli slavyan toplumu içində əriyib dilini itirdi. Dalbadal Güney Rusiya çöllərinə köçən hun, xəzər, peçeneq, kuman boyları orada zaman-zaman əridi, az bir qismi yəhudi (*karaim*) və islam (*karaçay-balkar*) dininin gücünə, çoxsaylı İtil bulqarları isə (*tatar-başqord*) digər türklərlə əlaqəni kəsmədiyi üçün assimilyasiyadan qurtara bildi. Avropada saqa, as, etrusk, hun, avar boyları da yad mühitdə dilini itirib ərimişlər.

Ortaq ünsiyət vasitəsi kimi azər-türk dili Qafqaz və İranda yaşayan başqa dilli xalqların ikinci dili olmuşdur. Bu dilin regionda uluslararası ünsiyət dili olduğunu bura gələn səyyahların əksəriyəti yazmışdır.[8] Belə ikidilli durum (*bilinqvizm*) rusların Qafqaza gəlişinə qədər daha geniş coğrafiyada davam etmişdir.[9] Rus hegemonluğu burada artdıqca bilinqvizm durumunda azər dilinin yerini rus dilinin tutması çox da uzaq tarix deyil. Keçən əsrin əvvəlinə qədər Qafqaz gimnaziyalarında türk-azər dilinin tədrisi vacib sayılırdı.[10] Qafqaz canişinliyindən maarif nazirinə göndəri-

---

[8] Sonrakı bölmələrdə izahını verəcəyim bu yazılarda *türki, azəri, tatar, oğuz, müsəlman, xəzər, aran, muqal, alban dili* kimi ayrı adlarla təqdim olunmasından asılı olmayaraq, söhbətin azər-türk dilindən getməsi tekstoloji təhlildə bəlli olur. Hətta, XV əsrdə Hindistana qədər gedib çıxan Afanasi Nikitinin hansı dildə danışdığını bilmək üçün onun yazısında tez-tez işlənən *kaçma, yaxşı, yük, yatır, yatmadım, ulu kurban baqram* kimi ifadələrlə yanaşı bütöv və yarımçıq cümlələrə baxmaq kifayətdir:

Tanqrıdan isteremen, Ol saklasın! … tan tanqrısen, xudo sensen! … ketmıştır i men uruç tuttım; Qospodine, tı namaz kılaresen, men de namaz kılaremen, tı beş namaz kılarsiz, men de 3 kılaremen, men qarip, a sen inçay; Hindistanda kakpa çoktur a uçyuzeder, bulara dostor, a kul-karavaş uçyuz kapkara (…) kiçi - xoş; (seks) *ilersen du jitel bersen, dostur avrat çoktur; A Rus yer tanqrı saklasın, ollo sakla, xudo sakla! Bu donyada beqleri akoy tugil. Urus yer abadan bolsın!* (Хожение за три море Афанасия Никитина,14, 20, 24, 26-27).

[9] XIV əsrin sonunda Quzey Qafqazda olan xalqları (*yunan, erməni, zik, qot, tat, volyak, rus, çərkəz, lək, as, alan, avar, qazıkumux*) sadalayan xristian yepiskop qeyd edir ki, bunların hamısı tatarca (*azərcə*) danışırdı: «…и **почти все** они говорят на татарском языке» (Галонифонтибус Иоанн де, 15).

[10] Калмыков, 1974, 17-18.

lən (1855) məktubda deyilir ki, «gürcü dili yalnız Tiflis və Kutais quberniyasının müəyyən yerlərində çinovniklər üçün əlverişli ola bilər, tatar (*azər*) dili isə bütöv Qafqaz ölkəsində yararlıdır».[11]

Quzey Qafqaz-Dağıstan xalqlarının rəsmi yazışmalarından böyük bir qismi azər dilində olduğunu Muradxan Cahangirov arxiv sənədlərində ortaya çıxarmışdır.[12] Qafqazda olmuş A.A.Bestujyev-Marlinski, M.Y.Lermontov və başqaları qeyd etmişlər ki, Avropada fransız dilini bilmək nə qədər vacibdirsə, Asiyanı başdan-başa gəzmək üçün də tatar (azər) dilini bilmək o qədər zəruridir.[13] 1683-də fransız səyyah Baltasar de Lauziere Azərbaycanı gəzəndən sonra Şamaxıda latın qrafikası ilə çox dəyərli bir kitab olan azər dilinin «Söz türki» adlı qramatikasını yazmışdır.[14] İslamaqədərki çağlara doğru qədimə getdikcə geniş bir regionda ortaq ünsiyət vasitəsi kimi azər dilindən istifadə olunduğunu görmək olur. Yalnız XIX əsrdən başlayaraq, Qafqazda rus dili azər dilinin uluslararası işlənmə funksiyasını əvəz etmişdir.

Başqa-başqa dillərdə danışan avtoxton və gəlmə xalqların çoxdan doğma yurduna çevrilmiş Azərbaycanın gözəlliyi bu xalqların özəlliyində daha yaraşıqlı görünür, sayından asılı olmayaraq hər bir dilin daşıyıcıları gözəlim Azərbaycan bağının ayrı-ayrı ətirli güllərdir. Hər bir azərbaycanlıya yönələn «*haralısan*» sualına verilən «*Azərbaycanlıyam*» cavabı bütün vətəndaşlara yakışır. Ancaq hər bir azərbaycanlıya xalqının, millətinin, dilinin adını öyrənmək üçün verilən suala alınan cavablar sırasında «*Azərbaycan milləti*», «*Azərbaycan dili*» ifadələri doğru deyil. Bu cavablar min illərlə Azərbaycanda yaşayan talış, ləzgi, avar, kürd, budux və onlarla başqa xalqların adını, dilini düzgün ifadə etmədiyi kimi, Azərbaycan türklərinin də adını (*azər*) və dilini (*türk, azər*) ehtiva etmir.

Xalqların böyük-kiçiyi olmur, uzaqbaşı sayı az, ya çox olur. Mənim düşüncəmə görə, ən az saylı xalq daha böyük qayğı və hörmətə layiqdir. Təkcə Xınalıq kəndində danışılan *xınalıq dili* nəinki Azərbaycanın, bütün Yer kürəsinin bənzərsiz nemətidir. Azərbaycanda saxur, xınalıq, haput, udi,

---

[11] Акты, т. ХЫ, 1988, 720.

[12] Ъащанэиров, 1978, 30-35.

[13] Марлинский, 1847, 114; Лермонтов, 523-524.

[14] Heydər Qaraçal İsveç kitabxanalarının birində tapıb üzünü köçürdüyü əlyazmanı on il əvvəl mənə göndərmişdi. Qısa vaxtda çapa hazırladığım həmin əsərin nəşrinə sponsor tapmadığımdan əlyazma hələ işıq üzü görməyib. Bir neçə il əvvəl «Söz türki» çapa hazırladığını mənə danışan prof. Lars Johanson da onu hələ nəşr etdirməmişdi.

qırız, budux kimi onlarla nadir dili qoruyub yaşatmaq dövlətin milli siyasətində ədalətli olaraq önəmli yer tutur.

Azərbaycanda azsaylı xalqlarla yanaşı, çoxsaylı azər xalqı da var ki, onun dili ümumxalq danışıq dili, həm də rəsmi dövlət dilidir. Lakin dilin adı 1936-dan başlayaraq qondarma «Azərbaycan dili» şəklində işlədilir. Bugün Azərbaycanda *xalq* və *dil* sözlərinin qarşısında azsaylı xalqların adını deyib-yazmaq (*udi xalqı - udi dili* və b.) olur və elmi gerçəkliyi bildirən bu ədalətli münasibət təbiidir. Lakin bu elmi prinsipi 50 milyonluq xalqa şamil edə bilmirik; bugün *türk//azər xalqı, azər//türk dili* deyiminə qeyri-rəsmi ədalətsiz «yasaq» vaxtilə komunistlərin kəmsavad ideoloqu Stalinin göstərişilə rəsmi status qazanmış yasağın acı nəticəsidir.[15]

Ulu kultur tarixi, zəngin ədəbiyatı, görkəmli dahiləri, tarixi şəxsiyətləri və bəşər tarixinə, dünya mədəniyətinə verdiyi töhfələrilə seçilən Azər xalqının dünya xalqları sırasında özəl yeri vardır. Bu xalqın obyektiv tarixini yazmağı boynuna götürən hər bir alim bu şərəfli işin məsuliyətini də dərk etməlidir, çünki tarix göstərir ki, siyasi sifarişlə yazılan tarix əsərlərinin ömrü o qədər də uzun olmur. Burada qarşıya qoyulan məqsəd azər türklərinin tarixini araşdırmaq olduğundan, tədqiqat mövzusundan kənarda qalan bir çox problemin yetişməkdə olan tarixçi alimlər tərəfindən yaxın gələcəkdə tədqiq olunacağına quşqu yoxdur. İslamaqədər Azərbaycanın iç və sınır bölgələrinə nə vaxt gəlməsindən asılı olmayaraq, azər xalqının kultur tarixi dairəsindən kənarda qalmayan başqa dilli xalqların, o cümlədən azər türkləri ilə qaynayıb-qarışan, qohumlaşan və azər xalqının yaranmasında iştirak edən boyların tarixi öyrənildikcə regionun etnolinqvistik və etnokultur dəyərlərinin evolyusiya tutumundakı diaxroniya daha aydın görünəcəkdir. Azərbaycan mədəniyətinin formalaşmasında

[15] *Azərbaycan xalqı, Azərbaycan dili, azər xalqı, azər dili, türk dili* terminlərinin və elmdən uzaq *Ermənistan (Gürcüstan, Dağıstan) azərbaycanlıları* və ya *ermənistanlı azərbaycanlı* və ya *gürcüstanlı azərbaycanlı* ifadələrinin geniş açımı «Azər dilinin tarixi» bölməsində (VII Bitik) verildiyindən, burada yalnız düzgün işlədilməyən terminin törətdiyi fəsadlara diqqəti yönəltmək lazım gəlir. Əgər bugün elmi dayağı olmayan «*Azərbaycan xalqı*» ifadəsi özündə azərbaycanlı vətəndaşları birləşdirən humanist baxış mayası saxlayırsa, ayrı-ayrı ölkələrdəki soydaşları bildirən «Azər xalqı» ilə bərabər bu deyimin işlənməsinə dözüm göstərmək olar. Lakin Dağıstan, Borçalı, İrəvan azər türklərinə xalqın adı anlamında vətəndaşlıq bildirən bir terminlə «Azərbaycanlı» deyilirsə, bu termin onların yerli olmadığını «sübut» etməyə can atan qüvvələrə gözəl fürsət imkanı yaradır. Tarix, dilçilik, etnoqrafiya, etnogenez və türkologiya elmində yalnız dolaşıqlıq yaradan «Azərbaycan dili» termininin isə tarixi kökü, elmi əsası və perspektivi yoxdur.

azsaylı xalqların rolunu qətiyən azaltmadan, deyə bilərik ki, azər türklərinin tarixini öyrənməklə Azərbaycanda yaşayan başqa dilli xalqların tarixinə də aydınlıq gətirən faktlar ortaya çıxır. Bu faktlar Azərbaycandan kənarda formalaşan başqa türk xalqlarının tarixinə də işıq tutur.

Azərbaycan tarixçiliyində xeyli uğurlu tədqiqat işləri vardır. Özəlliklə arxeologiya sahəsində gərəkli araşdırmalar aparılmış, milyon ildən artıq bir dövrün maddi-mədəni abidələri öyrənilmişdir. Lakin ibtidai icma quruluşundan ailə-qəbilə-tayfa və xalq qurumuna qədər sosial-siyasi inkişaf mərhələlərini yaşayan əhalinin etnik mənsubiyətinə ötəri toxunulmuş, yanlış fikirlər söylənmişdir. Arxeoloji və dialektoloji bəlgələr isə aydın göstərir ki, burada daş və tunc dövrünü arxada qoyan əhali dəmir dövrünə keçid çağında artıq Azər xalqı kimi formalaşa bilmiş, protoazər boylarının dörd dialekti əsasında bugünkü azər dilinin qədim forması yaranmışdır.

Türk boylarının Ön Asiyadan Avrasiyaya yayılmasını göstərən elmi dəlillərdən biri də buradan gedən boyların (e*miqrantların*) özü ilə apardığı tarixi onomastik etnonim, hidronim, oykonim və digər toponimlərin, tarixi izoqlosların gedilən ərazilərdə yenidən ortaya çıxmasıdır.[16] Tarixi onomastika və areal izoqlosları həm türk boylarının miqrasiya yönünü, köç tarixini, həm də onların yayılma arealını, tarixi coğrafiyasını müəyyən etməyə imkan açır. Başqa dildən azər dilinə, azər dilindən qonşu dillərə keçən etnoqrafik terminlərin etnolinqvistik informasiyası dillər arasındakı kontaktın zamanını və söz alan xalqla söz verən xalqın kultur sahələrdəki səviyə fərqini göstərir. Azər dilindən qonşu xalqların dilinə keçən savaş, yeyəcək, geyim və heyvandarlıqla bağlı etnoqrafik terminologiyanın təhlilində azər kulturunun üstünlüyü aydın görünür. Azərbaycanda və qonşu ölkələrdə yaşayan başqa dilli xalqlardan çoxunun adı da (*etnonim*) türkcədir, onlar bugünəcən azərlərin onlara verdiyi etnonimlə tanınır.

---

[16] Sistem halında təkrar olunan belə faktların elmi ədəbiyatda yanlış izahının əsas səbəbi türklərin batıya miqrasiyası fikrini «formalaşdıran» Altay nəzəriyəsidir. Belə qeyri-elmi izahlardan tipik bir nümunəyə baxmaq kifayətdir ki, əksər türk dillərində işlənən sözə qədim Ön Asiya qaynaqlarında rast gələn alimlər necə çaş-baş qalır:

Ölü dillər üzrə tanınmış mütəxəssis Vyaç.Vs. İvanov het yazılarında rast gəldiyi «ruh», «can» anlamındkı *kut* sözünün hat dilindən alınma söz olduğunu və bu stabil terminin qədim türk dilində qaldığını yazır, lakin «*3-4 min il əvvəl Anadoluda hat dilində işlənən bu söz Sibir türklərinə hansı dildən keçib*?» sualına məlum tendensiya zəminində «*bu türk sözünü doğuya türklərin özü aparıb*» deyə bilməyən İvanov «*yəqin ki, qədim türk dilinə* ***ölü yenisey*** *(?!) dillərinin birindən keçib*» cavabını verir: «skoree vseqo, odnoqo iz mertvıx eniseyskix» (Иванов, 1985, 44).

İcma quruluşu dövründə yaranıb müasir çağlara qədər davam edən etnik proseslərin son illərdə yeni metod və yeni baxış bucaqlarından öyrənilməsi *etnos* və *etnogenez* probleminə baxışda elmə bir sıra yeniliklər gətirmişdir.[17] Antropologiya elmində də yeni elm sahələrinin tətbiqi üçün geniş imkanlar açılmışdır.[18] İnsan anatomiyasının öyrənilməsində istifadə olunan bioloji, fizioloji biliklərə son illərdə genomalogiya sahəsində əldə olunan bilgilər də əlavə olunmuşdur. Xalqın genefondunda yaşam tərzi və mühitində yaranmış genefonlardan fərqli olaraq, ata-anadan alınan genomların nəzərə alınması, qan tərkibinin, *talassemiya* kimi xəstəliklərin etnik köklə əlaqəsini göstərən faktların öyrənilməsi azər xalqının soykökünə aydınlıq gətirən bazis və periferiya əlamətlərin gerçək tərəfini açıb göstərir. Eyni durum qlottogenez elmində də özünü göstərir: sonralar yaranmış və ya alınmış periferik sözlərdən fərqli olaraq, prototürk dilindən qalma bazis sözlər türk xalqlarının qohumluğunu dil baxımından sübut edən vasitəyə çevrilmişdir. Türk və monqol xalqlarının genetik baxımdan qohum olmadığı məhz bazis sözlərin etimologiyası və statistik təhlili ilə sübut olunmuşdur.[19]

Antropologiya elminin verdiyi bilgiyə görə, avropoid irqin aralıqdənizi tipinə aid olan Azərbaycan əhalisinin quzey bölgələrdə zəif kavkasion çalarları da vardır. Miladdan öncəki minillərdə özünü göstərən bu durumun kiçik lokal fərqlərlə davam etməsi Azərbaycanda əhalinin etnik tərkibinin dəyişmədiyini bildirir. Vaxtilə Azərbaycandan gedib, sonralar qayıdan boylar da buradakı fiziki görkəmdə dəyişiklik yaratmamışdır. Buradan doğuya miqrasiya edən boyların isə Mərkəzi Asiyada minillər boyu iç-içə yaşadığı monqoloid irqlə qarışması türk xalqlarında batıdan doğuya getdikcə monqoloid cizginin artmasına səbəb olmuşdur.

Göstərilən dil və antropoloji məlumatları arxeologiya və etnoqrafiya elminin verdiyi bilgilər də təsdiq edir. Doğu mədəniyətinin Orta qolunu təşkil edən Ön Asiya mədəniyətinin göbəyində yaranmış prototürk arxeoloji kulturu, Azərbaycanda protoazər və azər boylarının lokal kulturları arasındakı tipoloji yaxınlıq qırılmadan davam etmiş, sənətkarlıqda,

---

[17] Schermerhorn, 1970; Этнос, 1982; Бромлей, 1983; Арутюнов, 1989.

[18] Antropoloji baxımdan azər türkləri üzərində əvvəllər aparılan yarımçıq tədqiqatlarda söylənmiş qüsurlu fikirləri sadalayan Qəhrəman Hümbətov onların elmdən uzaq «türkləşmə» konsepsiyası ilə ortaya çıxdığını geniş şərhlə vermişdir (Гумбатов, 1998, 53-86).

[19] Дёрфер, 1981.

əkinçilikdə, heyvandarlıqda eyni kultur dəyərlər cüzi fərqlərlə bütöv bir mədəniyətin mayasını təşkil etmişdir.[20] Etnoqrafik tədqiqatlar göstərir ki, heyvandarlığa önəm verən prototürk toplumunun bir qismi eneolit çağından yaylaq-qışlaq yaşamını üstün tutmuş, şəhərləşmə kulturuna meyli az olmuşdur. Belə yaşam tərzini seçən türk boyları daha təpərli olduğundan getdikləri yad ölkələrdə diri tərpənib çoxlu dövlətlər qura bilmişlər. Protoazərlərin qonşuluğunda m.ö. III-II minillərdə Anadolu, Sumer, Elam və Güney Türkmənistanda böyük məbədlər salınmasına baxmayaraq, Mana dövləti çağına qədər Azərbaycanda şəhərləşmə müdafiə qala-şəhərləri şəklində oxşar inkişaf yolu keçmişdir.

Ön Asiyaya gəlmə xalqların politeizmindən fərqli olaraq, varlıq qutlarına (iyələrə) inamla yanaşı Bir Tanrıya tapınma, Dünyanın yaradılışı, Nuh tufanı, Türk şəcərəsi, qam-şaman dünyagörüşü azər xalqının mifoloji qaynaqlarında mühüm yer tutur. Prototürk çağından İslamaqədərki dövrü əhatə edən mifik və ədəbi-bədii süjetlər, qəhrəman obrazları, folklor janrları qaynağını Ön Asiyadan alır. Çox-çox sonralar toplanıb qələmə alınmış «Koroğlu», «Oğuznamə» dastan süjetlərinin tarixi coğrafiyası Ön Asiyada yerləşir, Dədə Qorqud boylarının İçoğuz-Dışoğuz savaşları, m.ö.VIII-VI əsrlərdə saqa boylarının Ön Asiyada apardığı savaşlarla, burada oğuz bəylərinin at oynatdığı ərazilər də saqa-qamərlərə aid arxeoloji abidələrin Azərbaycanda yayıldığı bölgələrlə üst-üstə düşür. Bu paralelliyi aydın görmək üçün Güney Qafqazda arxeoloqların aşkar etdiyi saqa (skit) abidəlirinin xəritəsinə baxmaq kifayətdir.[21]

Xalqın xronoloji tarixində ölkəyə gələnlərlə (*imiqrantlarla*) bağlı ayrı-ayrı dini görüşlər ortaya çıxsa da, aborigen və ölkədən gedən türk boylarının mifoloji yaddaşında ilişib qalan dünyagörüş, Azərbaycanda İslamaqədər Tanrıçılıq, Zərdüşt, Mani, Xristian və Yəhudi dinlərinin xalq arasında yayılma əhatəsi və dərəcəsi azərlərin etnogenezində iştirak edən boyların soykökünü öyrənməyə yardım edən vasitədir. Zərdüştilik, Manixeizm daha çox Azərbaycandakı farsların, Tanrıçılıq, Xristianlıq, Yəhudilik isə azər türklərinin arasında yayılmışdı. Herat tərəfdən m.ö.VIII-VI əsrlərdə İranın güney bölgələrinə gəlib yerləşən fars boyları Azərbaycan ərazilərinə sızdıqca onların tapındığı dinlər burada görünməyə başlamış-

[20] Arxeoloq prof. V. Əliyev düzgün olaraq, m.ö. VI-I minilliklər boyu Azərbaycanda bir-birini ardıcıl əvəz edən neoloit, eneolit, tunc və ilk dəmir dövrü arxeoloji kulturların yerli zəmin əsasında bir-birindən törəyib təkamül etdiyini yazır (Əliyev, 1989).

[21] Есаян - Погребова, 1985.

dır. Hay-erməni toplumu içində xaçpərəstliyi yayan Qriqor isə hay dilini bilmədiyindən xristianlığı çox güman ki, təhsil aldığı yunan dilində və ya regionda ortaq dil kimi işlənən azər dilində yayırmış.[22] Ərsaqların təsiri güclü olan Alban dövlətində başda türksoylu albanlar olmaqla xristian dininə tapınan azər boyları İrəvan, Borçalı, Qarabağ (*Ərsaq*), Şəki, Aran və başqa bölgələrdə xristian məbədləri tikmiş, onların azər türkcəsi ilə olan adları xalq arasında uzun müddət yaşamışdır. İslamaqədər Alban vəngləri kimi tanınan bu tapınaqlar hayların inhisarına İslamdan sonra keçmişdir. Sami peyğəmbərlər iyerarxiyasına yad olub, azərlərin inanc sistemində möhkəm yer tutan Xızır peyğəmbər, monoteizm görüşünü aparıb çoxallahlı yəhudilərin içində ilk yayan aran boyundan Azərin oğlu İbrahim peyğəmbər də hələ protoazər çağlarından Azərbaycanla bağlı idi. İslamlaşma çağlarında ərəb mənbələrində azər boylarına Qantura oğulları (*bəni-qantura*) deyilməsi də İbrahim peyğəmbərin şəcərəsi ilə bağlı idi.

Bugün dünyada müxtəlif sistemli dövlət quruluşları olduğu kimi, İslamaqədərki çağlarda da ayrı-ayrı etnosların milli gələnəyinə köklənən fərqli dövlət qurumları yaranmışdı. Azərbaycan və yaxın qonşu bölgələrdə protoazər və azər boylarının İslamaqədər qurduğu Subar, Aratta, Qut, Lulu, Turuk, Kuman, Mana, Bars, Sanqi (Zəngi), Saqa, Suvar, Mada, Atropaten, Alban, Xəzər, Gögər və sair bəylik, ellik və el qurumlarının qonşu Sumer, Elam, Het, Akad-Asur, Urartu dövlətləri ilə, müəyyən çağlarda Azərbaycanda hakimiyətdə olan farssoylu Əhəməni, Sasani və prototürkmən Ərsaq (parth) sülalələrinin qurduğu dövlətlərlə, həmçinin Göy Türk xaqanlıq sistemi ilə müqayisəli öyrənilməsi qədim türk dövlət (*el*) quruluşu sistemini aydınlaşdırmağa yardım edir, azərlərin özəl dövlətçilik gələnəyini anlamaq üçün gərəkli faktlar verir. Azər xalqının formalaşmasında Azərbaycanda qurulan el, ellik və bəyliklərin böyük rolu olduğu kimi, xalqın soykökünü təşkil edən türk boylarının konsolidasiyası önəmli olmuşdur. Azər xalqının etnogenezi indiyə qədər ənənəvi üsul halını almış yanaşmalarla təsvir olunduğundan bu gərəkli sahənin İslamaqədərki gerçəkliyi qaranlıq pərdə altında qalmışdır.[23]

---

[22] Qriqor (239-325) Türkmənistandan gəlmiş türk-ərsaq soylu Anak bəyin oğlu idi.

[23] Hətta, *azər* və *xəzər* etnoniminin ayrı-ayrı xalqlara aid edilməsi elmdə dərin kök salmışdır. Bunları bir-birindən ayırmaqla, *Azərbaycan* adının bugünəcən türkmənlərdə *Xəzərbecan* olmasına, Azərbaycanı gəzən Yaqut əl-Həməvinin bəzi bölgələrdə *azər* etnoniminin həmzəli deyilişinə (*xəzər*) rast gəlməsi haqda qeydinə və beləliklə, *azər* və *xəzər* adlarının yalnız dialekt fərqi olduğuna fikir verilməmişdir. Halbuki etimoloji tədqiqata görə, azər boylarının bir başqa dialektdə formalaşmış adı da *kaspi* etnonimidir.

Göründüyü kimi, burada qarşıya qoyulan məsələlər çoxşaxəlidir. Lakin eyni obyektdə müxtəlif baxış bucağından görünən cəhətləri nəzərə alan tədqiqatın yönü əldə olunmuş bilgilərin toparlanıb ümumiləşdirilməsini, bütöv obyektin tam qavranılmasını təmin edir. Beləliklə, burada irəli sürülən tezislərin ayrı-ayrı bölmələr üzrə geniş elmi açımı ortaya doqquz bitik-kitab çıxarmış oldu; ayrı-ayrı bitiklərdə alınan nəticələrin IX bitikdə qarşıya qoyulan məqsəd yönündə ümumi biliyin konturlarına çevrilməsi ilə yeni konsepsiyanın artıq elmi əsaslara söykənən gerçək üzü bir daha aydın göründü.Aydın oldu ki, türk etnosunun Atayurdu Ön Asiyanın gözəl guşəsi olan Azərbaycandır. Buradan doğu yönə köçən türklər Türküstan və Altayı ikinci Atayurda, quzeyə köçən türklər də İtil-Azaq arasını üçüncü bir Atayurda çevirmişlər. Beləliklə, türklərin ilkin doğum yeri Azərbaycan olsa da, onların sonrakı yaşam yerləri Avrasiyanın daha geniş bölgələrini əhatə edir.

Metodologiya

Hər hansı bir məsələnin mahiyəti o vaxt obyektiv açıla bilir ki, onun öyrənilməsinə ayrı-ayrı baxış bucaqlarından yanaşma imkanı olsun. Bu baxımdan Azərbaycanın qədim tarixini tədqiq edən tarixçilərin türkologiyadan və bu mövzuya baş vuran türkoloqların da tarix elmindən uzaq düşməsi, üstəlik, mifoloq, dilçi və etnoqrafların həmin tarixdə yalnız öz sahələrinə aid mövzuları araşdırması eyni durumun müxtəlif yozumuna və ziddiyətli şərhlərinə səbəb olmuşdur. Bunun nəticəsi kimi, Azərbaycan tarixşünaslığında dərin kök salan belə bir yanlış fikir yaranmışdı ki, guya qeyri-müəyyən dillərdə danışan Azərbaycan əhalisi türk dilində XI əsrdə səlcuqların gəlişindən sonra danışmağa başlamışlar. Bu elmdən uzaq fikri irəli sürənlər son illərdəki araşdırmalarda Azərbaycanda qədim türklərlə bağlı faktlar ortaya çıxdıqca «türkləşmə» tarixini addım-addım geri - öncə IX, sonra VII, daha sonra isə II əsrə qədər qədimə çəkməli oldular. Bəziləri isə m.ö. VII-II əsrlər arasında da burada turkcə danışan boyların olduğunu qəbul etdilər. Lakin daha qədim qaynaqlardakı bəlgələr fikrini vaxtaşırı dəyişən tarixçilərin hələ də yanlış yolda olduğunu göstərir.[24]

Hər hansı bir elmdə tədqiq olunan mövzudan asılı olaraq, münasib axtarış metodu seçmək imkanı olur. Bu prosesdə tədqiqatçının hazırlıq də-

[24] Bu barədə məlumat üçün bu qaynaqlara baxmaq olar: АФМ, I-III т; Гукасян - Асланов, 1986; Сумбатзаде, 1990; Гейбуллаев 1991; Azər xalqı, 2000; Həsənov, 2002.

rəcəsi, bilik səviyəsi, eridusiyası, məqsədi, məsələni hansı tutumda qoyma bacarığı və müxtəlif metodlarla tanışlığı böyük rol oynasa da, mövzunun xarakteri müəyyən metodların istifadəsini zəruri edir. Bizim mövzu konkret bir xalqın tarixilə bağlı olduğundan *etnos* problemini müxtəlif yönlərdən öyrənən etnoqrafiya, tarix, arxeologiya, kulturologiya, antropologiya, genetika, sənətşünaslıq, filologiya, psixologiya, sosiologiya, demoqrafiya, ekonomika elmlərinin müəyyən bölmələri və etnolinqvistika, etnobiologiya, etnoantropologiya, etnogenetika, etnocoğrafiya, etnopsixologiya kimi yeni elmlərarası sahələr və artıq sınaqdan çıxıb formalışmış etnologiya, etnogenez elmlərinin verdiyi bilgiləri nəzərə alaraq, Azər tarixinə müxtəlif elmlərdə istifadə olunan diaxronik, retrospektiv, deduktiv, tipoloji, tarixi-müqayisəli, qlottogenez, areal metodlarından istifadə etməklə bütövlükdə mövzunun öyrənilməsinə kompleks metodologiya tətbiq etmək lazım gəlir.

Etnos problemi çoxşaxəli olduğu qədər də çox mürəkkəb atributlarla gerçəkləşən bir anlamdır. Bu səbəbdən, *etnos* termini yarandığı antik dövrdən bugünəcən çox müxtəlif mənada işlənmişdir.[25] Məşhur etnoqraf S. M. Şirokoqorov (1887-1939) etnos terminini eyni dildə danışan, eyni kökdən yarandığına inanan, yiyələndikləri adət-vərdiş kompleksini yaşam tərzində saxlayan gələnəksəl təlim-tərbiyə ilə başqa toplumdan fərqlənən insan toplusu - xalq anlamında işlətmişdir.[26] Onun etnosla bağlı irəli sürdüyü fikirlərə bu problemlə məşğul olan alimlər tərəfindən yüksək dəyər verilmişdir.[27] Əgər Avropa alimləri etnos terminini əvvəllər daha çox «etnik qrup» anlamında azsaylı topluma şamil edirdilərsə, artıq get-gedə bu terminin rus elmindəki kimi «xalq» anlamında işləndiyini görmək olur. Biz də *etnos, xalq, budun* terminlərini sinonim sözlər kimi işlədirik. Lakin etnos termini həm də tarixi kateqoriya mahiyətli prototürk, protoazər kimi təyinlərlə işlənəndə qədimə doğru getdikcə budundan kiçilən boy, uruq, soy qurumlarını da əhatə edir.

Hər bir adamın avtobioqrafiyası (kimliyi) onun doğum yeri, doğum ili və ailəsinin kimliyindən başladığı kimi, hər hansı bir xalqın etnogenezi də onun haçan, harada, hansı etnik soydan yarandığını göstərən bəlgələrlə yazılmalıdır. Kimlik məsələsinin orta yaşdan sonrakı dövrləri yazılanda gerçəklik itir. Azər xalqının da kimliyi ilkin mərhələlər üzrə deyil, yalnız orta çağdan sonra, özü də faktsız-sübutsuz, birdən-birə «türkləşmiş xalq»

[25] Бромлей, 1983, 7-19; Этнос, 1982; Арутюнов, 1989.

[26] Широкогоров, 1923, 122.

[27] Mühlmann, 1964, 58.

damğası ilə yazılmışdır. Etnogenez kimi mürəkkəb və ciddi bir sahə bu metodla yazıla bilməz, bir adamın qafasına sığmayacaq qədər tutumu böyük olan Azər tarixi-azər xalqının kimliyi yazılanda üç min il əvvəl türk etnosunun bağrından qopmuş subar, kəngər, saqa, qamər, azər (xəzər), gögər, alban kimi onlarla ayrı-ayrı oğuz-qıpçaq boylarının qovuşması ilə ərsəyə gəlmiş bir xalqın etnogenezi xronoloji ardıcıllıqla prototürk çağından üzübəri qələmə alınmalıdır.

Azər tarixinə «türklərin gəlmə olması», «türkləşmə» konsepsiyaları ilə yanaşanların yazılarındakı ziddiyət və məntiqsizlik aydındır, ancaq azər türklərini yerli xalq sayanlardan bir qisminin də «Altay dil ailəsi» görüşündən əl çəkməməsini anlamaq olmur. Buradakı məntiqsizlik daha qabarıqdır, çünki bir əldə iki qarpız tumaqla, protodilin bir-birindən uzaq regionlarda yarandığını iddia etmək ciddi elmdən uzaqdır.[28] Bəzi filoloqlar bir tərəfdən monqolları, digər tərəfdən də sumerləri türklərlə qohum sayır. Adi dilçilik elminə bələd olan şəxs belə məntiqsiz yanaşma üsuluna yol verə bilməz, çünki tipoloji yaxınlığı genetik bağla qarışıq salmaq qlottogenez elmini inkar etməkdir. Bunun nəticəsidir ki, hələ də qədim asur dilində yazılmış mətnləri, qədim fars dilində yazılmış Avestanı azər-türk dilində «oxuyanlar» tapılır. Sumer, asur, monqol dillərində türk, Avestada azər sözlərinin olması təbiidir, çünki bu dillərin hamısından daha qədim və daha zəngin olan türk dilindən alınma sözlər bütöv Avrasiya xalqlarının dilində vardır. Lakin bu əsas vermir ki, dilçilik elminin ən adi qanunlarını tapdayıb türk dil ailəsinə daxil olmayan dilləri türk dili sayaq.

Azərbaycanın arxeoloji kulturu Avropa, Misir, Sumer, Monqolustan kulturundan qədim olduğu kimi, türk dilinin tarixi də sumer, asur, monqol dillərindən qədimdir. Başqa dil ailələrindən fərqli olaraq, türk dil ailəsində protodil çağı inkişaf və təkmilləşmə dövrünü tam başa vurandan, dilin quruluşunda yaranan mükəmməl mexanizm tam sistemə oturandan

[28] Hər bir protodili formalaşdıran etnos bunu eyni regionda gerçəkləşdirə bilir. Necə ki, protohindavropa etnosu Avropanın mərkəzində, protofinuqor etnosu Uralda, protosami etnosu Ərəbistan yaylasında, protomonqol etnosu Mərkəzi Asiyada öz protodillərini yaradıb, eləcə də, prototürk dili Ön Asiyada ərsəyə gəlib. Bir adam eyni və ya müxtəlif anda iki ayrı yerdə doğula bilmədiyi kimi, bir etnosun da özü və yaratdığı protodil Monqolustan və Azərbaycan kimi bir-birindən uzaq iki müxtəlif regionda yarana bilməz, lakin doğulan uşaq böyüyüb Ata ocağından başqa yerə köçə bildiyi kimi, bir etnos da etnos kimi formalaşandan sonra Ata yurdundan uzaqlaşa bilər. Əlbəttə, burada etnosaqədər dövrdəki insanabənzər məxluqdan yox, etnosun yaranma dövründən söhbət gedir.

sonra ilk böyük miqrasiyalarla ayrı-ayrı bölgələrə dağılmışdır. Qlottogenez metodikası ilə əldə olunan bilgi geologiya elmi ilə də təsdiqini tapır. Sumer ərazisində əvvəllər insan yaşamadığı kimi, Latviyada da ilk insan izinin tarixi 10 min ildən o yana keçmir.[29] Azərbaycan arxeoloji kulturu çiçəklənəndə Avropa hələ buzlaşma dövrünü yaşayırdı.

Dil ailələri yetkin çağına çatmamış parçalananda ayrılmış dillərdə ortaq sözlərin sayı az olur. Bunu müxtəlif dil ailələrinə aid tədqiqatlar aydın göstərir. Son tədqiqatını prototürk dilinə həsr edən amerikalı alim D. Gyula ural və hindavropa dillərinin yazıöncəsi dövrünü tədqiq edib, bu dil ailələrinin qədim çağlarına aid ayrı-ayrı kitablar yazmışdır.[30] Onun «Prototürk dili» adlı kitabında göstərilir ki, 5-6 minil əvvəl protohindavropa dilindəki 2400, protofinuqor dilindəki 1200 və protoural dilindəki 500 sözə qarşı prototürk dilində 3400 söz durur və bu sözlər sırasında *arpa, üzərlik, buğday (buğda), qaz, at, öküz, ordu, süngük, ok, temir (dəmir), bakır* kimi bitki, heyvan, savaş və metal bildirən onlarla söztermin türk etnosunun qədim tarixinin qaranlıq səhifələrinə işıq salır.[31]

Başqa dillərlə türk dilini müqayisə edərkən tipoloji metodun ortaya çıxardığı fərqlər, tarixi-müqayisəli metodun verdiyi nəticələr göstərir ki, 5-6 əsrdə tanınmaz dərəcədə dəyişən flektiv quruluşlu hindavropa dillərindən fərqli olaraq, türk dili iltisaqi quruluşundakı daxili mükəmməl mexanizmi, sinharmonizmi ilə minillər boyu özəlliyini saxlaya bilib. S.Malovun dediyi kimi, son 25 əsrdə türk dillərində bəlli tərkib və konstruksiyalar dəyişməmişdir.[32]

Tarixi-müqayisəli metod mifoloji, etnoqrafik, kultur gələnəklərini tədqiq etmək üçün də olduqca gərəklidir. Ümumiyətlə, XXI əsrdə oturub İslamaqədərki tarixi araşdırmaq üçün retrologiya elmində istifadə olunan metodlardan yararlanmaq lazım gəlir. Tarixin hər hansı bir zaman kəsiyini sinxron planda araşdırıb, faktları deduktiv metodla sistem halına gətirmək və bu sistemi müxtəlif zaman kəsikləri zəncirində davam etdirmək artıq diaxronik metodun öhdəsinə düşür. Əgər sinxron qatlar arasında qaynaqbəlgə yoxdursa, onda tarixi baxımdan bir-birindən aralı düşən bəlgələri

[29] История Латвийской ССР, 5.
[30] TD, №594, 619-620.
[31] Décsy, 1998.
[32] Малов, 1952, 135-136.

müqayisə etmək olar.[33] Sadəcə, bu üsulda anaxronizmə aparan təsadüfi elementləri istisna edib, xronoloji ardıcıllığın bərpasına yardım edə bilən bəlgələr sistemini ortaya çıxarmaq lazımdır.

Ölkə tarixindən fərqli olaraq, etnos tarixində bir neçə xronoloji zaman ölçüsü olur. Burada il, əsr, era təqvim tarixi ilə yanaşı nağıl, qan və nəsil yaddaşı kimi milli etnik xalq yaddaşının təxmini xronologiya illəri də vardır. Belə ki, ata-oğul əvəzlənməsi soy ilə, baba-nəvə əvəzlənməsi nağıl ötürmə ilə, «yeddi arxa» deyiminə köklənən qan yaddaşı ölçüsü də yeddi soy əvəzlənməsi ilə hesablanır və bir əsr (yüzil) 3 nəsil-soya, 2 nağıl ötürmə ilinə bərabər tutulur, qan yaddaşı üçün isə 210 il normal sayılır. Beləcə, yüz soy yaddaşına 5 minillik bir dövr sığır. Bəzən mifik sayılan belə zaman ölçüsünə xalq yaddaşı baxımından yanaşanda müəyyən tarixi gerçəklik görünür.[34]

Ay və Günəş təqvim illərilə yanaşı, bir çox qədim xalqlarda olduğu kimi, türk etnosu da əkin-biçin və maldarlıqla bağlı ilin fəsillərini bildirən yaz-yay-küz-qış bölgülərini ayırmışdır. Eyni zamanda, oniki aylı təqvim illəri oniki dövrəli heyvan (añ) adları ilə bildirilmişdir.Añ təqvimi monqollara da XIII əsrdə uyğurlardan keçmişdir.[35] Qədim Azərbaycanda baş verən olayların rəsmi təqvim tarixi astronomiya elminin müəyyən etdiyi m.ö.763-də 15 iyun güntutulmasına əsasən dəqiq verilir. Lakin həmin tarixdən qədimə getdikcə XV əsrə qədər ±10 il fərq yaranır. Ondan qədimə isə 64 il fərqilə «orta» və «qısa» xronologiya nəzərə alınır. Tarix elmində daha çox burada istifadə etdiyimiz orta xronologiya işlənir və bunun üçün çıxış nöqtəsi kimi Hammurapinin hakimiyət illəri (m.ö. 1792-1750) əsas götürülür.[36]

Türk dillərində gün, ay, fəsil adlarının, vaxt-zaman ölçülərini bildirən terminologiyanın etnoqrafik baxımdan öyrənilməsi üçün astroloji dünyagörüşü araşdırmaq böyük əhəmiyət daşıyır. Məsələn, «Saman yolu»

---

[33] O.N.Trubaçev haqlı olaraq, orta-keçid mərhələyə aid yazılı abidə olmayanda qədim və sonrakı bəlgələr arasında müqayisə aparmağı mümkün sayır (Трубачев, 1981,7).

[34] Məsələn, Herodot və Siciliyalı Diodora görə, saqa (skit) rəvayətində soybaşı Tarqitay Yunan-İran savaşından (m.ö.512) min il əvvəl Araz yaxasında doğulmuşdur. Deməli, 35 soy yaddaşında qalan m.ö.1500-lərdə yaşamış Tarqitay soyu artıq min il sonra Azaq dənizi yaxalarında idi və bu tarix orta tunc dövrünün sonlarında arxeoloji qaynaqlara görə Azərbaycandan quzey və doğu yönlərə başlayan böyük köçlərin tarixi ilə uyğun gəlir.

[35] Kotwicz, 1928, 128.

[36] ИДМ, I т. 1982, 23-24; Заблоцка, 94-96.

ifadəsinin yayılma arealını və hansı dillərdə işlənməsini araşdırmaq bu ifadəni hərfi tərcümə - kalka yolu ilə işlədən başqa dilli boyların türk kultur çevrəsinə daxil olduğunu müəyyən etməyə imkan yaradır.

Ümumiyətlə, ovçu, heyvandar, əkinçi, dəmirçi, dulusçu, xalçaçı və sair peşə-sənət sahələri, eləcə də, qohumluq terminləri üzrə etnoqrafik sözlüyün öyrənilməsi azər tarixi üçün milli qaynaqlar sisteminin qurulmasına yardım edir. Təkcə atçılıq və at kultu ilə bağlı qaynaqlar türk etnosunun əsl tarixinə aydınlıq gətirən bəlgələrlə doludur. Bu sahələrin araşdırılmasında özünü göstərən pərakəndəlik, ayrı-ayrı sahələr üzrə alınan nəticələr arasında dialektik bağın öyrənilməməsi səbəbindən, bugün arxeoloq yerin dərin qatlarından tapıb çıxardığı çox qiymətli informasiya tutumlu əşyanın formasını, ilini, hazırlanma yerini və texnologiyasını elmi metodlarla dəqiq müəyyən edir, lakin əlində tutduğu bu əşyanın hansı etnik boya mənsub olduğunu, onu yaradanın kimliyini deyə bilmir, çünki Azərbaycan arxeoloji kulturunun etnik əsaslarını açа bilən etnoloji metod hələ formalaşmayıb.

Tarixi qaynaqlar üzərində aparılan araşdırmada lokal fərqləri üzə çıxaran sinxroniya və bütöv təkamül mərhələlərini əhatə edən diaxroniya metodları ilə əldə olunan arxeoloji, filoloji və etnoqrafik bilgilərin verdiyi informasiya bir-birini tamamlayırsa, bunların əsasında irəli sürülən konsepsiyanın elmi tutumu artır. Bu baxımdan, türk etnosunun Ön Asiyada yaranması və buradan başqa bölgələrə miqrasiya etməsi konsepsiyasını ortaya qoyan Urmu teoriyasının bəlgələri sırasında müxtəlif elmlərin verdiyi informasiyalar durur. Arxeoloqların Azərbaycanda müəyyən etdikləri inqumasiya, bükülü və qırmızı oxralı ölü bastırma gələnəyi, kurqan kulturu; qramatologiya elminin müəyyən etdiyi piktoqram-damğa-yazı təkamülündə üçüncü mərhələni mixi əlifba deyil, runik əlifba, onun xalı-xalça sənətində əks olunması; tarixi onomastika elminin göstərdiyi paralel toponim və etnonimlərdən qədiminin Ön Asiyada, sonrakı tarixə aid olanın isə kənarda ortaya çıxması; analoji halın mifoloji süjet və obrazlarda, etnolinqvistik bəlgələrdə, etnoqrafik gələnəklərdə təkrar olunma tezliyi tutarlı faktoloji qaynaqlardır.

Belə faktların yazılı qaynaqlarda üzə çıxarılması isə mətnşünaslıq elminin metodlarına söykənir. Təəssüf ki, hələlik Azərbaycanda tekstologiya elminin azər etnosu ilə bağlı uğurlarından danışmaq olmur. Az-çox ərəb-fars dilli mətnlər azər dilinə tərcümə edilmişdir, gərəkli sumer, elam, akad-asur, yəhudi, suriya, yunan-latın, çin, hay, gürcü dilli qaynaqlara isə

toxunulmamışdır. Halbuki milli qaynaqlarla yanaşı, yabançı qaynaqlarda da azər tarixi haqqında qiymətli bəlgələrin yeni Urmu teoriyası işığında tekstoloji təhlili çox gərəkli elmi sonuclar verir.

Özəl diqqət tələb edən tekstoloji təhlil üsullarından biri də mətnin ayrı-ayrı nüsxələri üzərində qarşılaşdırma və müqayisə yolu ilə dəqiqləşmə aparılmasıdır, əgər belə nüsxələr varsa. Bəzən nüsxələrin birində buraxılan bircə söz həmin qaynaqdakı böyük bir informasiyanın gerçək tutumunu heçə endirir. Azərbaycan mətnşünaslığında bunun örnəkləri çoxdur və ən acınacaqlı budur ki, belə hallar məhz azər xalqının tarixinə işıq tuta bilən söz və cümlələrdə özünü göstərir. Belə ki, Şirvan-Dərbənd tarixinə aid mətndəki *kafir xəzərlər* ifadəsini «nevernıx qruzin» şəklində tərcümə etməklə xəzərlərin,[37] əl-Məsudinin əsərində «ayrı-ayrı türklər»[38] ifadəsini buraxmaqla türk boylarının izi yaşadığı bölgələrdə, iştirak etdiyi olaylarda itirilmişdir. «Alban tarixi» azər dilinə çevrilərkən «hay çarı Paruyr Skayordi» ifadəsi *erməni çarı Paruyr* şəklində tərcümə edilmiş, Parur bəyin hay dilində etnik soyunu bildirən *skayordi* (saqaoğlu) sözü verilməmiş,[39] Yaqut əl-Həməvinin əsərinin tərcüməsində *Azərbaycan* adının kökündə *azər* etnoniminin durması, dialekt variantında bunun ilk səsinin həmzəli (*xəzər*) deyilməsi kimi çox gərəkli izahlar verilən böyük bir abzas buraxılmışdır.[40] Tekstoloji təhlildə üzə çıxan yüzlərlə belə faktlardan

---

[37] V. F. Minorski mətndəki الخزرية الكغرة (B nüsxəsi) ifadəsinin bir nüsxədə **X.r.riya**, digərində **Xūziya** kimi yazıldığını qeyd etsə də, belə qəribə bir mövqe tutur: «Я думаю, **Джурзийа* более вероятно, чем **Хазарийа*, если только не имееся в виду какая-нибудь местная колония хазар (Кабала?)» (Минорский,1963, 58).

[38] əl-Məsudinin əsəri Paris nüsxəsindən (1863) deyil, Qahirə nüsxəsindən (1885) tərcümə edildiyindən mətndə *alanlar* boyundan sonra gələn «ayrı-ayrı türklər» ifadəsi buraxılıb (Вялиханлы, 1974, 51).

[39] «Alban tarixi» abidəsinin ayrı-ayrı əlyazmalarında (I kitab, III bölmə) hay-qrabar dilində *Paroyr, Patur, Patuur* şəklində yazılan bu ad «hayoğlu deyil» (hayca *çik ordi haykay*) və «saqaoğlu» (hayca *skayordi*) epitetləri ilə verildiyi və hay olmayan bu türk-ərsaq (*saqa*) soylu Barur və ya Batur hayca nəşr olunan qaynaqda «Paruyr ordi Skayorduy, takavor hayots» (*Kalankatlı,* 1983,7), rusca tərcümədə «tsar armyanskiy Paruyr, sın Skayordi» (Каланкатуаци, 1984, 24) şəklində yazıldığı halda azər dilinə tərcümədə «erməni çarı Paruyr» kimi verilmişdir (Алб.Т, 1993,16).

[40] Йакут ал-Хамави, 1983, 7;

Z.Bünyadov-P.K.Juzenin tərcüməsində buraxılan həmin abzası ərəbşünas Nərgiz Əliyeva tam tərcümə etmişdir. Bərpa olunan abzasda *Azərbaycan* adının *azər* etnonimindən (*Azər-bi-qan*) yarandığını, *azəri* formasının isə isim deyil, nisbə (sifət) olduğunu deyən ərəb dilçilərinin fikri verilmişdir. Buradan həm də aydın olur ki, Azərbayzan adının *Atropaten* sözü ilə heç bir əlaqəsi yoxdur (Əliyeva, 1999, 123-124).

bir-ikisinə baxmaq kifayətdir ki, tərcümə olunan qaynaqlarda bilərəkdən və ya bilmədən (?!) azər xalqının etnik soykökünü təşkil edən məhz türk boyları adının aradan çıxarıldığını görmək olsun.

Belə nöqsanlardan biri də etnonim terminologiyasına aiddir. Avropa elmində XIX yüzildən intensivləşən bu üsula görə, yazılı qaynaq harada tapılıbsa, onun dili həmin bölgənin adı ilə verilir və bu ad elmi əsərlərdə bir-birinə ötürmə ilə yayılıb dərin kök salır. Məsələn, Sakastan (Sistan), Xotan, Toxarıstan bölgələrində koloniya halında yaşamış bir irandilli tayfanın danışdığı dialektdə yazı tapılanda yanlış olaraq onlara *xotan-sak dili*, *sak dili* və *toxar dili* adları verilmiş və bununla həmin bölgələrin əsas xalqı, bölgəyə adı verilən və qədim qaynaqlarda adı keçən əsl türk boyları saqa, kotan və tokarların tarixinə qara pərdə çəkilmişdir. Belə qüsurlu üsul tarixi gerçəkliyi itirməklə yanaşı, elmdə «dərəbəylik» mühitinə böyük yol açır. Onlarla belə yanlış adların törətdiyi fəsadlara dünya alimləri toplaşan qurultaylarda dəfələrlə tanıq olmuşam: deyəndə ki, bunlar türk boylarının adıdır, deyirlər yox, Avropa alimlərinin kitablarında bunlar irandilli xalqdır, bu (!) dildə yazıları da var. Yanlış advermə metodu bəzən elmdə elə dolaşıqlıq yaradır ki, onu düzəltmək istəyəndə daha böyük xətaya yol verilir, necə ki, *hat-het* adlarına *protohet* terminilə düzəliş verib, bunu hat=protohet şəklində islah edəndə qaş qayırmaq əvəzinə vurub gözü də çıxarmışlar.[41]

XX əsrdə humanitar elmlərin daxili bölmələr üzrə diferensiallaşma dəbi klassik şərqşünas, tarixçi, filoloq, türkoloq alimlərin sayını get-gedə azaltdı. Elmlərin ayrılması bir tərəfdən öz daxili bölmələrinin dərindən tədqiqi sayəsində dilçilik, tarix, mifologiya, ədəbiyat, türkologiya elmlərinin uğurlu inkişafı ilə, digər tərəfdən yarımbölmə üzrə ixtisaslaşan alimin «cırlaşması» ilə nəticələndi. Ona görə də, indi bir neçə humanitar elmin işığında aparılan tədqiqat əsərləri yox dərəcəsindədir. Güman edirəm ki, Urmu teoriyası baxımından burada istifadə etdiyimiz kompleks metodika

---

[41] Дьяконов, 1967, 166-167; Герни, 1987; Маккуин, 1983, 18-21; Kınal, 1987, 82-83.

Anadoluya gəlib yerli hatların yaratdığı kultura, Hat ölkəsinə, Hattusas paytaxt şəhərinə sahib çıxan hindavropa dilli *nesit* (nesili) boyları burada yerli *hattili* dilindən fərqli bir dildə danışıb-yazmalarına baxmayaraq, onların ***het*** (yunanca ***Χεταίοι,*** rusca ***xeteyane,*** almanca ***Hethiter,*** ingiliscə ***Hittites,*** türkcə ***Hitit***) adlandırılması elmdə böyük dolaşıqlıq yaratmışdır. Sonralar əsl hatları hetlərdən (nesitlərdən) fərqləndirmək üçün elmi ədəbiyatda hatlara ***protohet*** (?) deyilmişdir ki, bu da ikinci bir dolaşıqlıq yaradır.

Yeri gəldikcə, subar, kuman, qut, turuk, azər, ərmən, saqa, qamər, gögər və başqa türk etnonimlərinin başına gətirilən oyunlardan da söhbət açacağıq, burada yalnız etnonimika elminin adi prinsiplərini pozan metodun gerçək elmə vurduğu ziyana ötəri toxunduq.

Azərbaycan arxeologiya elmində etnik atributlar sisteminə söykənən yeni etnoloji metodun formalaşmasına da yardım edə bilər.

Müxtəlif elm sahələrinin baxış bucağı altında görünən bəlgələrin dialektik əlaqəsi yönündə Azər tarixinin kompleks metodologiya ilə öyrənilməsi irəli sürülən konsepsiyanın elmi əsasa oturmasına, qarşıya qoyulan məqsədin gerçəkləşməsinə imkan verir. Bu metodikanın uğuru milli və yabançı qaynaqların hansı tutumda tədqiqata cəlb olunmasından da çox asılıdır.

Qaynaqlara baxış

Ölkə, dövlət tarixindən fərqli olaraq, xalqın tarixini öyrənmək üçün tədqiqatçı həmin xalqın tarix boyu gəldiyi yolla geri qayıtmalı olur. Keçmişin izi təkcə keçmiş mənbələrdə yox, çağdaş qaynaqlarda da var: etnik atribut və stereotipləri saxlayan etnoqrafiyada, xalq yaddaşında, dildə və dialektlərdə, mifologiya və folklorda, onomastikada keçmişə işıq tutan bəlgələr milli qaynaq kimi öyrənilir. Milli qaynaqlarla yanaşı, yabançı dillərdə yazılmış mənbələrdə azər etnosuna aid bəlgələr də gərəkli qaynaq sayılır. Bəzi türksoylu yazar yabançı dildə, yabançı yazar da türkcə yazdığından yazılı qaynaqların təsnifatında milli qaynağa türk və başqa dildə, yabançı qaynağa isə yalnız yabançı yazarların başqa dildə olan bəlgələri daxil edilir.

Azər türklərinin İslamaqədər tarixi haqqında əsas yazılı məlumatlar Azərbaycana olan işğalçı yürüşlərlə bağlı təcavüz edən tərəfin dilində yazılan sənədlərdədir. Bu qaynaqlarda bizim xeyirimizə olan bəlgələrin az yer tutması, ölkəyə-xalqa düşmən münasibətin qabarıq verilməsi təbiidir. Yunan-latın, urartu, asur-ərəb, hay-fars və başqa dilli mənbələrdə bunu aydın görmək olur. Nə qədər paradoksal olsa da, biz həmin yabançı yazarlara minnətdar olmalıyıq ki, Azərbaycan haqqında nadir məlumatları onların yazılarında tapırıq. Özəlliklə sumer və akad mətnlərində qədim Azərbaycana olan yürüşləri təsvir edən sənədlər çox qiymətlidir. Burada verilən bəlgələrə görə, o çağlarda Azərbaycanda yaşayan boyların adını, bu boyların qurduğu dövlətlərin tarixini öyrənmək olur. Qədim asur yazıları m.ö.XIX-XVIII əsrlərdə asur-türk (turuk) savaşlarını təsvir etməklə yanaşı, ilk dəfə *türk* adlı boylardan bəhs etməklə olduqca əhəmiyətli bilgi verir. Yabançı dillərdə yazılmış tarixi-coğrafi əsərlərdə Azərbaycanın bir çox bölgə və şəhərlərinin adı çəkilir, hətta bu şəhərlər arasındakı məsafə də qeyd olunur. Bu əsərlərə görə, ölkənin tarixi coğrafiyasını, hüdudlarını mü-

əyyən etmək olur. Beləliklə, Altay teoriyasından fərqli olaraq, yeni Urmu teoriyası Ön Asiyada qədim türk bəlgələrinin öyrənilməsinə imkan açır.

İctimai münasibətlər prosesində insanların müxtəlif yönlü fəaliyəti nəticəsində yaranan tarixi informasiyanın material daşıyıcısı *tarixi qaynaq* hesab olunur.[42] Tarixi informasiya tutumlu bəlgəni milli və yabançı qaynaq üzrə öyrənmək mənbəşünaslıq üçün gərəkli olsa da, burada müəyyən məsələ haqqında hər iki qaynağın verdiyi bir-birini tamamlayan bilgidən eyni məqamda istifadə olunur. Yabançı qaynaqların geniş şərhini ayrı-ayrı bitiklər üzrə vermək imkanı olmadığından burada onların qısa təsnifatını aparmaq lazım gəlir. Milli qaynaqların tədqiqi isə ayrı-ayrı bitiklər üzrə aparıldığından, hər sahəyə aid özəlliklər uyğun bölmələrdə verildiyindən, burada həmin məsələlər üzərində təkrar dayanmağa lüzum yoxdur.

Milli qaynaqlar

Hər bir xalqın tarixi onun dilində saxlanır, yaddaşında qalır, mifologiya və etnoqrafiyasında görünür. Bütün etnosların ümumi cəhətləri var, lakin bu ümumi atributların etnoslar üzrə fərqli əlamətləri də vardır. Etnosların hamısının dili, tapınağı, kultları, davranışı, geyim-kecimi, təsərrüfatı, ev-eşiyi, yeyəcəkləri və yaşam tərzini şərtləndirən digər ümumi əlamətləri olsa da, məhz bu əlamətlərin ayrı-ayrı etnoslar üzrə fərqlənən özəlliyi, fərqli cəhəti imkan verir ki, həmin fərqləndirici bəlgələr sistemi ilə bir etnos başqa etnosdan fərləndirilə bilsin. Bu baxımdan, milli qaynaq üzərində araşdırma azər etnosunu başqa etnoslara yaxınlaşdıran və başqa etnoslardan ayıran etnik atributları üzə çıxarır. Belə təyinedici atributlar isə antropologiya, arxeologiya, tarix, onomastika, etnoqrafiya, mifologiya, filologiya elmlərinin metodları ilə üzə çıxarılıb sistemə salına bilir.[43]

Yabançı qaynaqlar

Yabançı qaynaqlarda Azərbaycanla birbaşa və dolayı əlaqəsi olan bəlgələr sırasında əsas yeri yazılı mənbələr təşkil edir. Bunların içində vaxtilə bura gəlmiş səyyah və dövlət elçilərinin məlumat qeydləri, tarix və coğrafiya mövzusunda yazılmış kitablar, müharibə səhnələri və diplomatik əlaqələrdən bəhs edən yazılar mühüm yer tutur. Həmin əsərlərdəki yer-yurd adları, şəxs və boy adları,

[42] Аласания, 1986, 21.

[43] Milli qaynaqlara aid nəzəri ədəbiyat, bu sahədə tədqiqat aparan antropoloq, arxeoloq, etnoqraf, mifoloq, türkoloq, tarixçi, dilçi alimlərin fikri və onların əsərləri "9 Bitik" boyu uğyun bölmələrdə verilmişdir.

etnoqrafik məlumatlar, tarixi hadisələrin xronologiyası haqqındakı bəlgələr azər türklərinin etnik tarixini müəyyənləşdirməyə yardım edir.

Azərbaycan tarixşünaslığında «türklərin gəlişi» İslamdan sonrakı dövrlərdə arandığı üçün azərlərin tarixi ərəb-fars dilli qaynaqlara əsasən yazılmışdır, halbuki qədim farsdilli və ərəblərin də daxil olduğu qədim samidilli (akad-asur, aramey, yəhudi) qaynaqlar nəzərə alınmamışdır. Eyni durum qafqazdilli qaynaqlara münasibətdə də təkrar olunmuşdur. Belə ki, qədim gürcü mənbələrindəki bəlgələrdən istifadə edilsə də, daha qədim hurri-urartu dilli qaynaqlara fikir verilməmişdir. Qaynaqlara belə qüsurlu mənbəşünaslıq metodu ilə yanaşma yanlış mülahizələrə yol açdığı kimi, ortaya çıxan sualları cavabsız buraxmağı da adi hala çevirmişdir.

Başqa dillərdə yazılmış qaynaqların bir qismi batı, bir qismi də doğu türklərin tarixinə aid bilgilər verir. Azərbaycan haqqında birbaşa məlumat verməsə də, doğu türk boylarına aid qiymətli bəlgələri olan Monqol, Çin, Tibet, Hind qaynaqları həm azər boylarının daxil olduğu ümumtürk etnosunun tarixinə aydınlıq gətirir, həm də doğu türklərin Azərbaycandan apardığı milli atributlarla Ata yurddakı analoji atributların müqayisə edilməsinə imkan verir. Tibet miflərində *Odiqun* və *Asar* adları ilə bağlı motivlər, *Qeser* haqqındakı əfsanələrdə adı keçən *druqu* xalqı, monqol folklorunda Qeserlə bağlı süjetlərin *bayat* boyu ilə əlaqəsi, Hind mənbələrində doğuya köçən saqa boylarına aid bilgilər, çindilli qaynaqlarda türklərlə bağlı tarixi-etnoqrafik bəlgələr gərəkli, tutumlu informasiya daşıyır. Tibet, monqol, hind, çin dillərində olan qaynaqlardan fərqli olaraq, sumer-elam, akad-asur, latın-yunan, gürcü-hay, fars-ərəb dilli qaynaqlarda birbaşa azər türkləri ilə bağlı zəngin bəlgələr vardır.

Yabançı qaynaqlar sırasında mühüm həlqələrdən biri də vaxtilə Azərbaycandan gedib yad ölkələrdə əriyən boylar haqqındakı bəlgələrdir. Həmin bəlgələrdə Azərbaycandan aparılmış onomastika, mifoloji süjet və folklor motivləri, azər dilinin sözləri vardır. Təkcə Avropa ölkələrinin yerli xalqları içində əriyib dilini itirən *as, etrusk, saqa-qamər, bulqar, peçeneq, kuman* və sair onlarla türk boyu haqqında xeyli məlumatlar vardır və həmin məlumatların ümumtürk kontekstində öyrənilməsi, Azərbaycanla bağlı məqamların çeşidlənməsi olduqca gərəklidir. Qəribdir ki, əriyən türk boylarından bir qisminin etnik adı içində əridiyi xalqın adına çevrilir, *bulqar* etnonimi slavyan bolqarların adında qaldığı kimi. Yad mühitdə əriyən boyların bir qismi də etnik atributlarını itirərək içində əridiyi xalqın yalnız dilində dərin iz buraxır: vaxtilə Azərbaycandan Avro-

paya gedib german boylarına qarışaraq İslandiyaya köçən *aslar*, gedib Amerika hindularına qarışan bir türk boyu, həmçinin latınların içində əriyən *etrusklar* belə ərimə taleyini yaşamışlar. İsland, hindu, latın dillərində özünü göstərən qədim türkizmlər həmin olayın yadigarıdır.[44] Macar və german dillərində bugün macar-türk, german-türk paralelliyi kimi diqqəti çəkən qramatik forma və sözlər məhz qədim *as, saqa*, sonralar isə *hun, bulqar, sekel* boyları ilə olan sıx əlaqələrin və qaynayıb-qarışmaların nəticəsidir.[45]

1. Sumerdilli qaynaqlar. Dünya mədəniyəti tarixinə əvəzsiz töhfələr vermiş sumerlərdən türk və protoazər tarixi üçün də gərəkli qaynaq qalmışdır. Sumerdilli qaynaqlar üç min illik bir dövrü əhatə etsə də, onun loqoqram yazı dövrü bizim mövzumuz üçün o qədər də maraqlı deyil.[46]

Miladdan öncə 2800-2500-ci illər arası dövrdə dərslik və təsərrüfat məzmunlu yazılarla, azacıq da hüquq və tikinti sənədləri ilə xarakterik olan mətnlər arxaik sumer dilindədir. Əski sumer dili dövrü də (2500-2300) təsərrüfat və tikinti mövzularındadır. Yeni sumer dilinə keçid dövründə (2300-2200) isə akad istilası çağı olduğundan sumercə mətnlər lap azdır, çünki dəftərxana işləri akad dilində aparılmışdır.[47]

Yeni sumer dilinin (2200-2000) inkişaf çağı ilk yüzillikdə olmuşdur ki, bu da sumerlərin qut-türk dövlətinə (2200-2109) tabe olduğu illərdir. Sumer mədəniyətinin renesans dövrü olan bu çağda zəngin incəsənət, tikinti, elm və ədəbiyat abidələri yaranmışdır. Bu dövrdən sumer dilində tikinti, təsərrüfat məzmunlu mətnlərlə yanaşı, çoxlu poetik və nəzmlə yazılmış dini-poetik əsərlər qalmışdır. Sumer dilinin son dövrü (2000-dən sonrakı çağlar) məişət-təsərrüfat, hüquq, sözlük, himn, mahnı və epik

---

[44] Türk-hindu, türk-island, türk-etrusk paralelləri bu kitablarda verilmişdir: ВТЯ, 1976, 129-143; Ъялилов, 1988, 105; Ayda, 1987; 1992; Azər xalqı, 13-14, 149-153; Ağasıoğlu, 2011.

[45] Əlbəttə, burada belə qaynaqlardan istifadə olunmuşdur, lakin bu qədər geniş və zəngin qaynaqlardan tam yararlanmaq bir tədqiqatçının fiziki imkanı xaricindədir. Biz bu sahədə öndərlərin açdığı cığırı yalnız yola çevirə bildik, bu yolu başacan keçmək isə böyük bir tədqiqat institutunun, xüsusi elmi hazırlığı olan uzmanlar ordusunun işidir.

[46] Bu çağın yazıları əsasən təsərrüfata aid olduğundan, yalnız bir sıra sumer ideoqramının türkmən-azər damğalarına bənzəməsi faktı (bu məsələyə *Yazı* bölməsində qayıdacağıq) və «qoyun» mənasında işlənən UDU ideoqramının yazılışı maraq kəsb edir. Belə ki, bu ideoqramın *dib, dip, tib, tip, dab* şəklində fonetik oxunuşu eyni işarənin türk runik yazısında da *d/t* səsini bildirməsi diqqəti çəkir (Дьяконов, 1967, 41; SDVG, 115, №260).

[47] Дьяконов, 1967, 44-45; Канева, 1996, 7.

əsərlərlə xarakterikdir, 1600-dən sonralar isə dini, elmi, ədəbi, epik əsərlər yazılmış, əvvəlki dövrlərə aid bəzi epik əsərlərin üzü köçürülmüşdür. Əslində, sumer dili artıq danışıq dili kimi aradan çıxmışdı, yalnız məktəblərdə yazı dili kimi tədris olunurdu.

Sumerdilli qaynaqlar türk və protoazər tarixi üçün bir neçə baxımdan gərəkli material verir. Diqqəti çəkən məqamlardan birincisi, prototürk boyunun bölgəsinə gəlib yerləşən sumerlərin sonralar özlərini «kəngərli» və «kəngər ölkəsinin adamı» adlandırmasıdır,[48] ikincisi, sumer dilində çoxlu türk sözlərinin işlənməsidir.[49] Üçüncüsü də, Güney Azərbaycanın Aratta bölgəsindən bəhs edən bir neçə sumer epik əsəri qalmışdır: *Luqalbanda və Hurrum dağı. Enmerkar və Ensuxkeşdanna* (mətn nəşr olunmayıb). *Enmerkar və Aratta kahini*. *Luqalbanda və Enmerkar*.

Sumerlərin «Bilqamıs» eposunda bir sıra süjet və motivlər türk-azər dastanları ilə üst-üstə düşür. Dirilik suyu axtarışı, ölümdən qaçma və ölüb-dirilmə motivləri, Oğuz, Qorqud, Koroğlu obrazlarının prototipləri sumer epik əsərlərində vardır.[50] Bir çox məqamda bu paralelliklər tipoloji oxşarlıqdan çıxıb genetik əlaqə xarakteri alır ki, bu da türk xalqlarının tarixi üçün gərəkli qaynaqlardan sayılır. Bu səbəbdən, əlinizdəki kitabda türk və protoazər tarixinə işıq tutan sumerdilli qaynaqlardan imkan daxilində istifadə olunmuşdur. İkiçayarası arxeoloji kulturun Sumer dövrü yaxşı öyrənilmişdir.[51] Bu sahəyə aid elmi qaynaqlarda sumerlərin quzey-doğu və quzey qonşusu prototürk-protoazərlərin arxeoloji kulturu ilə müqayisələr aparmaq üçün xeyli material vardır.

2. Elamdilli qaynaqlar. Prototürk boylarının güney qonşusu olan elamların dilində xeyli yazı nümunələri vardır, lakin bunların çoxu oxunmayıb və az bir qismi nəşr olunub. Elam dilində təsərrüfat, tikinti, hüquq, müqavilə və dəftərxana mətnləri Əhəməni sülaləsi çağına qədər davam edən 2500 illik böyük bir dövrü əhatə edir. Əvvəllər loqoqram yazıdan istifadə edən elam xalqı (protoelam dili) sonralar şümerlərdən mixi yazı sistemini mənimsəmişdi. Elam ərazilərinə gəlib yerləşən ari (pers) boylarından Əhəməni sülaləsi də hakimiyətə keçəndən sonra dövlətin paytaxtı Persida şəhərində elam dili və elam yazı sistemindən istifadə etmişdir.

---

[48] Канева, 1996, 8.

[49] Prof. O.N. Tuna 200-ə yaxın türk-sumer paraleli ortaya çıxartmışdır (Tuna, 1990).

[50] «Билгамыс дастаны», 83-89 (*Son söz.* Sumer dünyasına açılan pəncərə); Celilov, 1985.

[51] Белицкий, 1980; Мунчаев, Мерпет 1981; Ллойд, 1984; Массон, 1989; Оппенхейм, 1990; Дьяконов, 1990; Кленгель-Брант, 1991; Крамер, 1991.

Keçən əsrin 30-cu illərində buradakı arxeoloji qazıntı minlərlə elam dilli tabletlər ortaya çıxardı ki, bunların da əsas hissəsi m.ö.V əsr yazılarıdır.

Elam mətnlərində xeyli türk sözləri vardır. Bu mətnlərdə türkcə olan bəzi yer-yurd, şəxs və boy adları o çağın türk onomastikası haqqında gərəkli bəlgələrdir. Bu baxımdan, Ran Zadokun elam mətnlərindən toplayıb nəşr etdiyi «Elam onomastikası» kitabı və başqa elamşünasların Elamla bağlı əsərləri türk-elam izoqloslarının açımına yardım edir.[52]

Vaxtilə prof. Ə. Dəmirçizadə elam dilindəki türkizmlərdən çıxış edərək üçdilli Büsutun yazısındakı elam mətnini qədim azər dilində oxumağa səy göstərmiş, lakin sonrakı tədqiqatlarında bu yanlış yoldan əl çəkmişdir.[53] Elam dili daha çox dravid dillərinə yaxınlığı ilə diqqəti çəkir və bu yöndə elam-türk dil əlaqələrinin öyrənilməsi qədim dravid-türk əlaqələri kimi əhəmiyət kəsb edir. Beləliklə, Elam mətnləri həm prototürk çağına, həm də qədim dil əlaqələrinə işıq tuta bilən qaynaqlardandır.

3. Kassidilli qaynaqlar. Elamlarla azərlər arasında böyük bir bölgədə yaşayan və elamlarla birlikdə dravid dilli xalqlardan sayılan kassi boyları Azərbaycanın güney bölgələri və İkiçayarasında hakimiyəti ələ alıb (m.ö.XVII-XII) beş əsrə qədər burada hökmranlıq etmişlər.[54] Kassi dilində sənədlər yox dərəcəsindədir, yalnız kassi onomastikası və ikidilli (kassi-akad) bir yazıda kassi-türk izoqlosları azər türkləri ilə bağlı bilgi verir, Kassi çağında yazılmış akaddilli sənədlərdə də Azərbaycanla bağlı bəzi məlumatlara rast gəlmək olur.[55]

4. Çindilli qaynaqlar. Bu qaynaqlarda Azərbaycandan doğuya miqrasiya edib Çinin yaxın qonşuluğunda yerləşən türk boyları, onların yaşam tərzi, etnoqrafiyası, siyasi durumu haqqında xeyli bəlgələr vardır. Buradan zaman-zaman geri qayıdan saqa, avar, hun və sair boylara aid məlumatlar olduqca əhəmiyətlidir. Lakin çinlilər m.ö. III əsrə qədər Orta Asiya və batı ölkələr haqqında formalaşmış təsəvvürə malik deyildilər. Həmin dövrə qədərki altı-yeddi əsrin xronoloji tarixləri az-çox həqiqətə uyğun gəlirsə də, ondan əvvəlki olaylar sonrakı sələnəçilərin mövcud miflərə uyğunlaşdırdığı mifik məlumatlardır. Yalnız Çin imperatoru Udi (m.ö.140-87) Çjan Tsyan adlı elçisini batı ölkələrə göndərəndən

[52] Zadok, 1984; Köniq, 1965; Hinz, 1964; Юсифов, 1968.

[53] Дямирчизадя, 1947.

[54] Balkan, 1954; Мирзоев, 1997, №1-2.

[55] Celilov, 1997; Azər xalqı, 2000, 119-121.

sonra çinlilər bu bölgələrdə yaşayan əhali haqqında bilgi əldə edə bilmişdilər. Həmin elçinin məlumatı və yol qeydləri sonralar tarixçilərdən Sım Tsyan (m.ö.145-90) tərəfindən yazılan məşhur «Şitszi» (*Tarixi qeydlər*) əsərində, Ban Qu'nun (32-92) «Xanşu» (*Xan tarixi*) əsərində istifadə olunmuşdur.

Türk elbəyi Tuman və oğlu Baqatur (*Maotun~Mətə*) çağında İpək yolu ilə Batı qapıları çinlilərin üzünə açılır, Batı haqqında məlumatlar çoxalır və həm də dəqiqləşir. Çinli Syuan-Tezan sonralar uygur dilinə də tərcümə olunan geniş məlumatlı «Qeydlər» əsərini 17 il (629-645) batı ölkələrdə yüzdən artıq bölgəni gəzəndən sonra yazmışdır.[56] Bu məlumatlar sırasında VII əsrdə doğu türk boylarının dövlət quruluşu, yaşayış məskənləri barədə qiymətli bilgilər vardır.

Xeyli çin qaynağı avropa, rus və türk dillərinə tərcümə edilmişdir.[57] Bunların sırasında N.Y. Biçurinin tərcümə etdiyi m.ö.II əsrdən m.s. IX əsrə qədərki dövrü əhatə edən qaynaqlar öz dəyərini bugün də saxlamışdır. Burada hunlarla bağlı daha qədim mifik bəlgələr də vardır.

Çin heroqlifləri türk sözlərinin səslənməsini dəqiq əks etdirməsə də, mətndaxili anlam onların tanınmasına yardım edir. Çin qaynaqlarını rus dilinə çevirən N.Y. Biçurinin əsərində titul, etnonim, antroponimlərin yazılışında bunu aydın görmək olur: [58]

kexan - xaqan	*qudulu - kutluq*	*moxedu - baqadur*
katun - xatun	*be - bəy*	*tutsişi - türqeş*
dınli - tenqri	*biya - bilgə*	*qelolu - karluk*
daqan - tarkan	*tutun - tutuk*	*tukuye (tuqyu) - türk*
dele - tekin	*şa - şad*	*Asilan - Arslan*
şexu - yabqu	*moxe - baqa*	*Tsinxay - Xəzər*

Əsasən monqol tayfaları və Çingiz xan haqqında qiymətli qaynaq olan «Monqol-tatarların tam təsviri» (XIII əsr) adlı əsərdə türklərlə bağlı maraqlı bilgi və şato boylarının keçmiş tarixi haqqında bəlgələr vardır.[59]

5. Monqoldilli qaynaqlar. Azər türklərinin tarixinə aid qaynaqlar sırasında elə bir əhəmiyət daşımayan monqoldilli yazılar daha çox türk-monqol əlaqələri baxımından yararlıdır. Xüsusilə, türk-monqol dil əlaqə-

---

[56] Тугушева, 1991.

[57] Eberhard, 1942; Mau-tsai Liu, 1958; Mackerras, 1972; Ögel, 1988, 1991; МПИКНК; Бичурин, 1950-1953; Малявкин, 1981; 1989; Пуллиблэнк, 1986 вя б.

[58] Бичурин, 1950, I.XLVIII -Л.

[59] Мен-да бэй-лу, 1975.

ləri ilə bağlı bəlgələrin tarixi-müqayisəli tədqiqi üçün əski monqoldilli yazılar qiymətlidir. Çünki bu əlaqələrin sürəkli davamı və intensivliyi xeyli ortaq dil elementlərinin yaranmasına səbəb olmuş, hətta altayşünaslıqda bu dillərin tipoloji yaxınlığını və ortaq vahidlərin çoxluğunu görüb, türk və monqol dilini yanlış olaraq qohum hesab etmişlər.[60]

Azərbaycandan 4-5 minil əvvəl Mərkəzi Asiya yönündə doğuya gedən prototürk boyları sonra orada monqoldilli monqoloidlərlə qaynayıb qarışmış, çox-çox sonralar isə onların cüzi bir qismi Azərbaycana artıq monqoloid cizgiləri ilə qayıtmışlar. Bu cür gedib-qayıtma olayı fonunda gerçəkləşən azər-monqol ilişkiləri monqol mifologiyası və folklorunda qabarıq görünür. Monqol alimi S. Ş. Çaqdurov «Geseriadanın yaranışı» adlı kitabında *bayat* adlı monqol boyunun Urmu gölü hövzəsindən çıxdığını, Geserlə bağlı əfsanələrin buradan Monqolustana aparıldığını geniş bəlgələrlə ortaya qoymuşdur.[61]

Monqol-buryat boylarının «Altan Tobçi», «Canqar», «Alamci Mergen» kimi bir sıra epik əsərlərində, «Monqolların gizli tarixi» kitabında türklərlə bağlı xeyli məlumatlar olmaqla yanaşı, Monqolustanın arxeoloji kulturu üzrə tədqiqatlarda qədim Azərbaycandan aparılma kulturun izləri aydın görünür. Batı Monqolustanda əldə olunan arxeoloji, antropoloji və daş bəlgələr, piktoqrafik rəsmlər tarixi-müqayisəli araşdırmada gərəkli faktor olduğundan, monqol qaynaqları protoazər tarixinin bərpasında müqayisəyə cəlb olunan yardımçı vasitəyə çevrilə bilir.[62]

6. Finuqordilli qaynaqlar. Finuqor xalqları miladdan öncəki minilliklərdə Xəzərin quzeyində, İtil hövzəsi - Ural dağları ətəklərində yaşadıqları üçün buradan batıya keçən türk, doğuya keçən hindiran boyları ilə təmasda olduğundan onların dilində qədim türkizm, iranizm elementləri mühüm yer tutur. Ural dil ailəsi dağılandan sonra finuqor və samodi protodilləri ayrılmışdır. Finuqor uruqlarının əsas kütləsi Atayurda yaxın bölgələrdə qalmış, bir qismi (fin, eston, karel) quzeyə, macarlar isə

---

[60] Turklərin monqollarla dolaşıq salınması münasibəti ilə prof. Bahəddin Ögəlin hunlara aid kitabında söylədiyi iradı burada yada salmaq lazım gəlir: «Türk tarixini çeşitli spekulasyondan qurtarmaq üçün nə qədər vəsiqə varsa, bir araya gətirib incələmək gərəklidir. Yeni bir vəsiqə bulanlar əlbəttə ki, danışa biləcək, bəlgəsi olmayanlarsa kəndi hisslərinə görə Moğolu Türkə, Türkü Moğola qarışdırmaya haqları olmayacaqdır» (səh. 266).

[61] Чагдуров, 1980.

[62] Потанин, 1881; Членова, 1967, 1989; Новгородова, 1989; Палеолит и неолит Монгольского Алтая, 1990.

m.s.V əsrdə Etelközə və oradan Karpat istiqamətində batıya çəkilmişlər.[63] Batı boylar bura gələn türklərlə qaynayıb qarışmış, sonralar Mərkəzi Avropada məskunlaşmışlar. Finuqor dilli macar xalqının böyük bir qolunu onların içində əriyən *hun, bulqar, sekel, kuman* türk boyları təşkil edir. Macardilli qaynaqlar, runik türk əlifbasından törəyən Sekel yazıları türk tarixi üçün gərəkli bəlgələrdir. Bu dillərdə XII əsrdən sonrakı yazılı qaynaqlar saxlanmışdır. Qədim çağlardan ayrı-ayrı türk boyları ilə kontaktda olmuş finuqor xalqlarının dilində qədim yazılar olmasa da, onların dilində, folklorunda keçmiş əlaqələri əks etdirən istənilən qədər bəlgə qalmışdır.[64]

Bəzi finuqor boylarının vaxtilə saqa-hun axınlarına qoşulub Azərbaycana gəlməsi haqqında yazılı qaynaqlar qalmasa da, Quzey Qafqazda *uqor, macar* etnonimləri bəllidir. Qədimdə türk boylarının Azərbaycandan apardığı yer-yurd adları, özəlliklə, bir çox türk dillərində olmayan azərcə *meşə* sözünün finuqor dillərində *metsë* şəklində işlənməsi açıq göstərir ki, miqrasiya Azərbaycandan quzeyə olmuşdur. *Kür* çayının da adı finuqor boylarının məskunlaşdığı onlarla bölgədə üzə çıxır.[65]

7. Qafqazdilli qaynaqlar. Prototürk, protoazər və azərlərin əzəli qonşusu olan Qafqaz xalqları ilə tarixi əlaqələr haqqında söhbət II bitikdə gedəcək, burada isə yalnız mövcud qaynaqları yada salmaq lazım gəlir. Üç qrupa (batı, doğu və güney) ayrılan qafqaz dillərinin qruplararası qohumluğunun hələ sübut olunmadığını qeyd edən qafqazşünasların əksəriyəti bu dillərin tipoloji yaxınlığı məsələsində həmrəydirlər.[66] Belə tipoloji yaxınlığın hurri və urartu dillərində də olduğunu görən uzmanlar həmin ölü dilləri də qafqazdilli sayırlar. Bugün sayı 40-dan artıq olan Qafqaz dillərinin əksəriyətində yazılı qaynaqlar yalnız son əsrlərə aiddir. Lakin *hurri, urartu* və *kartvel* (gürcü) dilində qədim yazılı qaynaqlar vardır.

Azərbaycanın quzey bölgələrində azər türkləri ilə iç-içə yaşayan qafqazdilli xalqların dilində, folklor, mifologiya və etnoqrafiyasında türk tarixi üçün qiymətli bəlgələr vardır. Kür-Araz kulturu çağlarından bəzi qafqazdilli boyların Azərbaycanın quzey bölgələrinə gəlib yerləşməsi qədim protoazər-qafqazdilli izoqlosların, ortaq etnoqrafik dəyərlərin, xüsusilə türkizmlərin çəkisini bu dillərdə xeyli artırmışdır. Bugün çeçen-

[63] Енико Сий, 1981.

[64] Dilçilərə görə, «şübhəsiz, protofinuqor dili dağılana qədər türk dillərilə sıx əlaqədə olmuşdur, bunu hər iki qrup dillərdə ümumi sözlərin varlığı göstərir» (ЯН СССР , т. III. 10).

[65] Кобычев, 12.

[66] Климов, 1986.

inquş, avar, ləzgi, rutul, udi, saxur, xınalıq, buduq və bu kimi onlarla Doğu Qafqaz dillərində qədim türkizmlərin daşıdığı etnolinqvistik informasiya olduqca önəmlidir. Bu boylardan bəzisinin etnik adı da türkcədir: *xınalıq, avar, çeçen, buduq* və s. Quzey Qafqazda adları türkcə olan *adıq, çərkəz, kabarda* kimi qafqazdilli boylarla Azərbaycandan kənarda saqa, bulqar, hun, xəzər, peçeneq, kuman-qıpçaq boylarının əlaqələri olmuşdur.

Azərbaycanın mərkəzi bölgələrinə birinci olaraq gələn qafqazdilli boylardan ***hurrilər*** buradakı türk boyları matienlərlə konfederasiya təşkil edib İkiçayarasının quzeyində m.ö. II minilin ortalarında böyük Mitan dövlətini qurmuşlar. Bu dövlət Azərbaycan sınırlarından batıda qurulsa da, onun bəzi koloniyaları Kərkük bölgəsinə qədər uzanmışdır. Hurri dilində mixi yazı ilə bizə gəlib çatan sənədlər içində onomastik material daha çox maraq kəsb edir. Belə ki, Azərbaycandakı yer-yurd və şəxs adları sırasında hurri-türk əlaqələri baxımından türkizmlər böyük əhəmiyət daşıyır. XIV əsrin əvvəlində hurri çarı Tuşrattanın Misir fironu III Amenxotepə yazdığı geniş mətnli məktubu qalıb, onun ilk 7 sətri akad, sonrakı 490-a qədər sətri isə hurri dilindədir.

Van gölü hövzəsinə qafqazdilli boyların ikinci böyük sızması hurri hegemonluğu bitəndən bir neçə əsr sonra başlandı. Bura yerləşən qafqazdilli ***urartu*** boyları Ön Asiyanın qüdrətli dövlətlərindən (m.ö.IX-VII) birini qura bildilər.[67] Əsasən, azər torpaqlarını zəbt edən urartu çarlarının çoxlu yazıları qalıb.[68] Türk boylarının m.ö. VIII-VII əsrdəki tarixi çoğrafiyasını bərpa etməyə yardımçı olan urartudilli yazılardakı yer-yurd, şəxs və boy adlarını bildirən onomastik material və urartu dilinə keçən türk sözləri gərəkli qaynaqdır.[69]

Çeşidli mövzuları əhatə edən ***gürcüdilli*** qaynaqlarda Azər tarixi üçün gərəkli bəlgələrdən indiyə kimi az-çox istifadə olunmuşdur.[70] Gür-

[67] Urartu dili daha çox qafqazdilli udilərin dili ilə müqayisə olunmuşdur (Паязат, 1936), lakin İrəvan-Naxçıvan regionundakı toponimlərlə Çeçenistan onomastikası arasında olan paralellik - Vedi-Vedeno, Arqu-Arqun, Naxçıvan-naxçı boyu və sair adlar, udilərdən çox, urartu-çeçen ilişkisini ortaya qoyur.

[68] Bu yazıların əksəriyəti türk yurdlarında tapılıb.Yazılar tapılan bəzi toponimlər sonradan *Karmir-blur* (Qırmızıtəpə), *Arin-berd* (Qanlıtəpə) şəklində dəyişdirilsə də, əksəri qalır: *Topraxkala, Mxer-qapısı, Taştəpə, Yazılıdaş, Xotanlı, Dəlibaba, Başbulaq, Ördəkli, Daşkörpü, Qızılqaya, Adıyaman, Topuzava* və b.(АВИИУ, 1951; Мещанинов, 1978).

[69] Cəlilov, 1988, 40-41.

[70] Гукасян - Асланов, 1986.

cüstanda tapılan yazılar V əsrə qədər yunan-aramey, sonrakı əsrlərdə isə qədim və yeni gürcü dillərindədir. Bu zəngin yazılı qaynaqlar içində əsas yeri mövzumuz üçün maraqlı olmayan dini ədəbiyat tutur, lakin dövlətə, ayrı-ayrı boylara, tarixi şəxslərə, tarixi xronologiya və tarixi olaylara aid abidələrdə türk-azər tarixi üçün qiymətli bəlgələr vardır. Belə qaynaqlar sırasında Gürcüstan (Kartli) əhalisinin xristianlaşması haqqında VII əsrin ortalarına qədərki tarixi əhatə edən «Moktsevay Kartlisay» abidəsi, öncə VIII əsrə qədərki qədim tarixdən bəhs edən, sonralar isə daha minillik bir dövrün tarixi (XVIII-ə qədər) əlavə olunaraq, müxtəlif dövrlərə aid tarixi əsərlərin toplusuna çevrilən «Kartlis sxovreba» abidəsi və Leonti Mrovelinin (XI əsr) «Kartli çarlarının həyatı» adlı əsəri mühüm yer tutur.

«Amiran-Darecaniani», «Rusudaniani», «Bars dərili bahadır» kimi gürcü epik əsərlərində, mifologiya, nağıl və folklorda və ən əsası, kartvel dillərindəki qədim türkizmlər, azər-kartvel ortaq Qafqaz izoqlosları, etnolinqvistik bəlgələr İslamöncəsi tarixə işıq salır.[71] Azər türkcəsi güney-doğu kartvel toplumu içində o qədər yayğın olmuşdur ki, hətta Sulxan Saba Orbeliani 1685-dən başlayaraq otuz ilə tamamladığı gürcü dilinin izahlı lüğətində («Kartuli leksikoni») bir çox gürcü sözünün mənasını türkcə olan qarşılığı ilə izah etmək məcburiyətində qalmışdır.[72]

8. **Hindavropadilli qaynaqlar**. Bunları şərti olaraq, batı, quzey və doğu dillər üzrə ayırmaq olar: Batı dillər - *het, yunan, latın, hay* (*erməni*); quzey dillər - *slav, german, baltik*; doğu dillər - *hindiran.* Avropanın göbəyində formalaşan protohindavropa toplumu dağılanda müxtəlif yönlərə miqrasiya edən boyların zaman-zaman türklərlə qarşılaşması və belə təmasların izi dillərində əksini tapmışdır. Batıda prototürklərlə kontaktı olan hindavropa dilli boylar Balkanlardan Anadoluya gələn hetlər, daha sonralar isə yunan, friq və haylar idi. Bu baxımdan, Anadoluda olan türk boylarının tarixinə aid birbaşa və dolayı məlumat verən hetdilli qaynaqlar böyük maraq kəsb edir.

İ. M. Dyakonov doğru olaraq qeyd edir ki, elmi ədəbiyatda qəbul olunan «het» və «hat» terminləri böyük dolaşıqlıq yaradır.[73] Hindavropa

[71] Багратиони, 1848; Джавахишвили, 1939; Меликишвили, 1959; Джапаридзе, 1976; Мровели, 1979; Шанидзе, 1983; Аласания, 1986; Арвеладзе, 1996.

[72] Абуладзе, 1964.

[73] Дьяконов, 1967, 166. Yuxarıda dedik ki, bu terminlərin ikisi də bəzi tədqiqatçıların qafqazdilli hesab etdiyi yerli *hat* boylarına aiddir. Lakin bura gələn hindavropa dilli

dilli olmayan hatlar yerli, hindavropa dilli hetlər (əslində *nesitlər*) isə gəlmə xalqdır. Hetdilli mətnlərdə rast gəldiyimiz hat sözləri sırasında xeyli türkizmlər vardır ki, bunlar o çağlarda yaxın qonşu olan qaşqay dilindən alına bilərdi. Het dilində m.ö. XV-XII əsrlərə aid xeyli heroqlif və mixi yazılı qaynaqlar vardır.[74] Bu qaynaqlarda onomastik material, het-hat, het-qaşqay, het-hurri əlaqələri, protoazər boylarının batı qonşuluğunda baş verən müharibələr, dövlətlərarası münasibətlər haqqında olan bəlgələr o dövrün tarixi çoğrafiyasını bərpa etməyə və arxeoloji kulturda görünən əlaqələrin yazılı qaynaqlarda axtarılmasına yardım edir.

Yunan dilində olan qaynaqlar m.ö.VIII əsrdən İslamaqədərki dövrü əhatə edir. Homerdən üzübəri əldə olan epik, mifik, epiqrafik, yol qeydləri, bioqrafik, fəlsəfi, tarixi və coğrafi əsərlərdə bu və ya digər türk boyu haqqında xeyli material vardır. Eyni durum latındilli qaynaqlarda da mövcuddur. Əlbəttə, bu qədər zəngin olan ***yunan-latın dilli*** mənbələrin hamısından bəhrələnmək ayrıca tədqiqat mövzusudur, burada yalnız istinad edib adını çəkdiyim müəlliflərin məlumatları nəzərə alınmışdır.[75]

Azər xalqının İslamaqədərki tarixinə aydınlıq gətirən qaynaqlar sırasında ***haydilli*** (erməni) mənbələr müstəsna əhəmiyət daşıyır. İslamaqədərki *haydilli* qaynaqlarda tarix üçün qiymətli bəlgələr olduğu kimi, hay dilindəki qədim türkizmlərin, etnolinqvistik bəlgələrin, mifoloji və folklor motivlərinin təhlili də əski hay-erməni, hay-türk əlaqəsinin vaxtını müəyyənləşdirməyə yardım edir.[76]

---

nesit boyları hatlara *hattili* dediyi halda, çağdaş alimlərin həmin nesitlərə *het* adı qoyması və onları hatlardan fərqləndirmək üçün əsl hatların *protohet* adlandırılması absurddur.

[74] Дунаевская, 1969, 19-21; Маккуин, 1983; Герни, 1987.

[75] Antik dövr və Bizans müəllifləri sırasında daha çox Hekatey Miletli, Esxil, Hellanik Miletli, Herodot, Fukidid, Hippokrat, Apolloni Rodoslu, Polibi, Apollodor, Nikola Dəməşqli, Strabon, Diodor Siciliyalı, Pompey Troq, Pomponiy Mella, Kvint Kurtsi Ruf, İosif Flavi, Qay Plini Sekund, Plutarx, Korneli Tasit, Dionisi Perieget, Arrian, Klavdi Elian, Klavdi Ptolemey, Ammian Martsellin, Feofilakt Simokatta, Konstantin Porphirogenitus və sair müəlliflərin tərcümə edilmiş bütöv əsəri və ya bir hissəsi istifadə olunmuşdur. Bu baxımdan, yunan-latın dilli mənbələri tam olmasa da, rus, alman və sair dillərə tərcümə edən və ya bir yerə toplayan V.V. Latışyev (Латышев, 1947-1949; 1952), K. Əliyev (АИПИА), V. M. Atalikov (АИОСК), G. Moravcsik (БИЗАНТИНОТУРЪИЪА) və başqa tədqiqatçıların tərtib etdiyi əsərlər də diqqətə alınmışdır.

[76] İslamdan sonrakı əlaqələr mövzumuz xaricində olduğundan azər dilində yazıb-yaradan hay yazarlarının əsərləri, qıpçaq türkcəsində danışan xristian türklərin hay əlifbası ilə yazdığı sənədlər burada qaynaq kimi alınmamışdır. Bu sahədə müəyyən araşdırmaların

Balkan yarımadasından hindavropa mənşəli haylar m.ö.VIII əsrdə Kiçik Asiyaya gəlib burada bir əsr Friqiya dövlətinin koloniyası şəklində yaşamış, bu dövlət dağılandan sonra Suriyanın quzey əyalətlərinə səpələnmişlər. Buradan indiki Muş-Diyarbakır arası ərazilərə keçən hay tayfaları burada m.ö.VI-I əsrlərdə hurri-urartu tayfa qalıqları ilə qaynayıb-qarışmış, xristianlığın yayıldığı çağlarda isə əski türk ölkəsi olan Ərmən bölgəsinə sızmışlar. Fərat çayının yuxarı yaxalarında yerləşən Ərmən bölgəsindəki türk-hay əlaqələri hay qaynaqlarında çoxlu türkizmlərin və qədim ərmən türkləri tarixi haqqında bəlgələrin yer tutmasına səbəb olmuşdur. Haydilli qaynaqlar hay əlifbası (V əsr) yaranandan sonra yazılmağa başlansa da, onların yalnız İslamdan sonrakı çağlarda üzü köçürülmüş variantları qalmışdır. Köçürmə nüsxələrdə nə qədər dəyişmə, zamana uyğunlaşdırma əməliyatı, redaktə aparılmasına baxmayaraq, tekstoloji təhlil türk tarixi üçün xeyli bəlgə ortaya çıxarır. İslamaqədər hayların, hay sülalələrinin, hay ölkəsinin və din xadimlərinin tarixləri mövzusunda yazılmış əsərlərdəki «hay» adı İslamdan sonrakı çağlarda çox vaxt «erməni» adı ilə əvəz olunmuşdur. Qədim subar türklərindən olan ermən boylarına, saqa-türkmən boylarından olan ərsaqlara aid bəlgələri «Hay-erməni tarixi» adlı kitablardan çıxanda əsl *hay tarixi* çox aydın cizgilərlə görünür.

Əski haydilli qaynaqların gərəkli cəhətlərindən biri də budur ki, hay tarixçi-yazarlar qədim Babil, Yunan, Aramey arxivlərində bu dillərdə yazılmış əsərlərdən, çoxu sonralar itib-batan sənədlərdən istifadə etməklə həmin qaynaqlardakı bəlgələri də bizə çatdıra bilmişlər. Çox acınacaqlı haldır ki, bugünə qədər bir nəfər türkoloq-tarixçi İrəvanda qədim əlyazma mətnləri saxlanan Matenadaranın zəngin qaynaqlarından istifadə etməyib. Ona görə də biz hay və başqa dillərdə yalnız nəşr olunmuş qaynaqlardan istifadə etmək məcburiyətindəyik. Hay və rus dillərində çap olunmuş qaynaqların özü də kifayət qədər bilgi verir.[77] Aqatangelos, Moisey Xorenatsi,

---

mövcud olmasına baxmayaraq (Сейидов, 1954, 1976; Рамазанов, 1977; Йереванлы, 1974; Аббасов, 1977; Мяммядов, 1986; Мамедов, 1977; Дашкевич, 1962; Документы на половецком языке XBЫ в.; Zeynalov, 2001 və b.), bu yöndə tədqiqatların davam etdirilməsi sonrakı türk-hay ilişkilərinin öyrənilməsi baxımından gərəklidir.

[77] Армянская география ВЫ века по Р.Х. СПб.1877; Историа Арменіи Моисея Хоренскаго. Москва,1858; История Армении Фавстоса Бузанда. Ереван,1953; *Киракос Ганзакеци*. История Армении. М. 1976; *Мовсэс Каланкатуаци*. История страны Алуанк. Ереван 1984; *Aqatangełay*. Patmutun Hayots. Tphłis, 1909; *Aqatangełos.* Hayots patmutyun.Yerevan,1983; *Movsısı Xorenatsoy*. Patmutun

Sebeos, Favstos Buzand, Yegişe, Movses Kağankatuklu, Lazar Parpetsi və başqa tarixçilərin əsərlərinə yazılmış şərhlər və mətnlərin tekstoloji təhlili də müəyyən nəticənin əldə olunmasına yardım edir.[78]

Hindiran dilli qaynaqlar ari tayfalarının prototürk və azər boyları ilə olan ilk kontaktından üzübəri dövrləri əhatə edir. Qaradənizin yuxarı hövzəsində m.ö. II minilin əvvəlində protoslavyan boylarından ayrılıb, İtil-Ural arasında protofinuqorların ərazilərindən keçərək Orta Asiyaya enən bu maldar köçərilər artıq həmin minilliyin sonlarında Herat (Areya) bölgəsində məskunlaşmışdı. Onların bir qismi sonralar Elam ərazisindəki Pars bölgəsinə (İranın güneyinə), bir qismi də dravidlərin yaşadığı indiki Hindistana köçdü və beləliklə, arilər ***irandilli*** və ***hinddilli*** boylara ayrıldı. Areyada qalan digər irandilli boylar isə Parfiyada, bir qismi də Sistanda (Sakastanda) yerləşdi. Qədim iran dillərində türkizmlər olduğu kimi, qədim hind qaynaqlarında və sanskrit dilində də türk sözlərinə rast gəlmək olur.[79]

Qədim hind dilində, hind epik əsərlərində doğu türklərlə bağlı rast gəldiyimiz məlumatlardan fərqli olaraq, xeyli irandilli qaynaq doğu türklərlə (Turanla) yanaşı, azər boylarının tarixi üçün də gərəkli faktlar ortaya qoyur. Fars, oset, tat, talış, kürd, tacik və sair müasir iran dillərində qalan qədim türkizmlər etnolinqvistik baxımından əhəmiyət daşıyır. Məsələn, oset dilinin *iron* dialektindən fərqli olaraq, «Nartlar» dastanında və *diqor* dialektində türk sözlərinin daha çox olması qədim *dügər* boyları ilə olan əlaqəni göstərir. İslamaqədərki irandilli qaynaqlar isə qədim türk boyları, o cümlədən azərlər haqqında bilgi verir. Bu qaynaqlar m.ö.VI-IV əsrlərdə mixi yazı ilə başlayıb, 6-7 əsrlik aravermədən sonra Sasani dövləti çağında (m.s. III-VII) aramey əlifbasından törəyən pəhləvi və manixey əlifbaları ilə orta fars dilində yazılmış dini-epik, epiqrafik, ədəbi və zərdüştiliklə bağlı mövzuları əhatə edir. Yalnız İran tam islamlaşandan sonra IX əsrdən üzübəri ərəb əlifbası ilə yeni fars dilində (*zəbane farsi*) əsərlər vardır.[80]

Hayots.Tphłis, 1913; *Łazaray Pharpetsoy.* Patmutun Hayots ev Tułt ar Vahan Mamikonean. Tphłis, 1904; Sebeosi yepiskoposi patmutyun. Yerevan,1939; *Movses Kałankatvatsi.* Patmutyun Ałvanits aşxarhi. Yerevan, 1983; *Phavstos Buzandatsoy.* Patmutun Hayots.Venetik, 1933.

[78] Адонц, 1971; Акопян, 1987; Мамедова, 1986; Тер-Мкртичян, 1979, 1985; Алб.Т. 1993; Мамедов, 1993 вя б.

[79] Баррoу, 1976; Неру, 1981; Елизаренкова, 1982, 1987; Бархударов, 1988.

[80] Маковелский, 1960; Фрай 1972; Луконин, 1969, 1987; Бойс, 1987; Короглы, 1983; ОИЯ, 1979, 1981; Эдельман, 1986; Оранский, 1988; Abrahamyan, 1965; Karnamaq, 1987;

Qətran Təbrizi, Nizami Gəncəvi, Mücirəddin Beyləqani kimi bir çox azər yazarları bu dildə yazıb-yaratmışlar. Azərbaycanda fars dilinin regional üstünlük qazanması Əhəməni çağından başlansa da, uzun müddət ara verəndən sonra Sasani çağında daha böyük vüsət alır və bu dilin təsir dairəsinə düşən yerli boylar bilinqvizm şəraitinə uyğun doğma və gəlmə dildə danışmalı olurlar. Get-gedə doğma dilini itirənlərin danışığı isə fars dilinin bir neçə qırıq-pozuq yeni ləhcələrini ortaya çıxardır.

Dilindəki arxaik qata görə «Avesta» ən qədim irandilli mətn hesab olunur. İlkin qaynağını yerli miflərdən alıb, yerli Asar (*Ahura*) tanrısı ilə bağlı əfsanələr üzərində formalaşan, «persləşmə» mərhələsini Əhəməni dövləti çağında keçirən zərdüştilik dini görüşləri Sasani çağında m.s. IV əsrdə qələmə alınmış, kitab şəklində isə yalnız XIII əsrdə üzü köçürülmüş nüsxəsi ilə gəlib bizə çatmışdır. Buna qədər dəfələrlə yenidən yazılaraq, müəyyən əlavələrlə redaktə olunan «Avesta» get-gedə anti-türk ovqatı ilə yoğrulsa da, yarandığı dövrün sosial, dini, geosiyasi durumunu əks etdirdiyi üçün maraq kəsb edir. Dini-epik mövzuda olan Bundaxişn abidəsində də yerli türk boylarına qarşı barışmaz münasibət onların «div» obrazında verilməsində görünür: *az boyu* - Az div, *ağacəri boyu* - Aqaş div, *kuman boyu* - Akuman div, *bud* (tayfa) - But div, *polad boyu* - Polad div, *zəngi boyu* - Zəngiyab div və b.

Orta və yeni fars dilində olan Xudaynamə, Şahnamə, Rüstəmnamə, İskəndərnamə, Karnamaq, Artaviraknamaq, Ayatkar Zareran kimi qədim fars-pəhləvi qaynaqlarının verdiyi informasiya ortaq epik süjetlər, türk-iran dil əlaqələri baxımından böyük əhəmiyət daşıyır.

9. **Samidilli qaynaqlar**. M.ö. IV minilliyin ortalarından başlayaraq, Ərəbistan çöllərindən qalxıb İkiçayarasına üz tutan sami tayfaları Ərəb istilasına qədər müxtəlif çağlarda dəfələrlə Azərbaycan bölgələrinə girib işğalçı siyasəti yürütmüşlər. Zaman-zaman Azərbaycana bir-birinin ardınca gələn akad, asur, aramey, ərəb boyları regionun etnik simasını dəyişdirə bilmişlər. İkiçayarasında subar türklərini sıxışdırıb çıxaran, güneydə Sumer şəhər-dövlətlərini zəbt edən akad-asurlar sumerlərin mixi yazı sistemini mənimsəyib akad dilində çoxsaylı yazılı abidələr, arxivlər yaratmışlar. Belə arxivlərdən ən böyüyü sonuncu Asur çarı Aşşurbanapalın (668-627) topladığı və Mosul bölgəsindəki Ninevə şəhərində saxladığı gil lövhələr (tabletlər) kolleksiyasıdır. Vaxtilə ətraf bölgələrdən asurların toplayıb arxivə yığdığı həmin tarixi qaynaqlar indi Britaniya muzeyində saxlanır.

Azər xalqının tarixi üçün ***akaddilli*** qaynaqlar, akad dilinin asur dialektində yazılan mənbələr böyük önəm daşıyır. «Azər xalqı» kitabında subar, qut, turuk (türk), zəngi, kuman və sair qədim türk boyları haqqında verilən məlumatların çoxu məhz akad-asur yazılarından götürülmüşdür. Mari şəhərinin xarabalığında tapılan ***asurdilli*** qaynaqlar asur-türk savaşlarını geniş əks etdirir.[81] Özəlliklə, buradakı bəlgələr türk savaş taktikası haqqında ilk yazılı qaynaq sayıla bilər.

Akad-asur mixi yazılarından fərqli olaraq, samit hərfli yazı növü ilə formalaşan aramey əlifbası sami dilləri üçün daha münasib olduğundan sürətlə yayıldı və aramey yazısı ilə aramey dili də dövlət dəftərxanalarına daxil oldu. Bütün regionda ***arameydilli*** yazılar ortaya çıxdı. Xristianlığın yayıldığı ilk çağlardan başlayaraq, missionerlərin yaydığı ***suriyadilli*** yazılar isə daha çox, dini təbliğat ədəbiyatı idi.[82] Bunların içində Babil, Təbriz, Marağa və sair şəhərlərin kitabxanasından istifadə edib, müxtəlif mövzuda 30 kitab yazan suriyalı Qregori Əbül-Fərəcin (Bar Hebraeus) azər xalqının tarixinə aydınlıq gətirən çox qiymətli «Xronoqrafiya» əsəri də vardır.[83]

İslamlaşma çağlarından başlayaraq ərəb yazılı qaynaqları Azərbaycanla bağlı daha çox bilgi verir, həm də ***ərəbdilli*** qaynaqlar VIII əsrdən sonra təkcə ərəbsoylu yazarların deyil, ərəbcə yazan türk və fars soylu müəlliflərin əsərlərini də əhatə edir.[84] Tarixi adların düzgün yazılışı üçün nisbələrin imlasına aid «Kitab ül-ənsab» kimi əsərlər də əhəmiyətlidir.[85] Yaqut əl-Həməvinin «Mu'cəm əl-buldən» əsərində ölkə, bölgə və şəhər adlarının əvvəlki qaynaqlarda yazılışı verilmiş, bu barədə alimlərin fikri, adın düzgün deyiliş-yazılış variantı şərh edilmişdir.[86] Etnoqrafik məlumat və onomastik informasiya baxımından ərəb dilində yazılmış əsərlər böyük əhəmiyət daşıyır, Azərbaycanda islamlaşma çağlarında yaşanmış tarixi olaylar, ictimai-siyasi və etnik durum haqqında bu əsərlərdən geniş bilgi

---

[81] Azər xalqı, 2000, 34-46, 58-59, 123-134.

[82] Михаил Сириец, 1960; Пигулевская, 1941; Гусейнов, 1964.

[83] Бар-Эбрей, 1960; Abû'l-Farac Gregory, 1987.

[84] Malik Mahmudov ərəbcə yazan azərsoylu şair və ədiblər sırasında *İsmayıl ibn Yəsar, Mənsur Təbrizi, Xaqani, Əbu-l-Ə'la Gəncəvi, Şibahəddin Sührəvərdi, Mücirəddin Beyləqani, Fələki Şirvani, Eyn əl-Quzat, Yusif Tahiroğlu Xoylu* haqqında geniş məlumat vermişdir (Mahмудов, 1983).

[85] Бейлис, 1989, 53-54.

[86] Əliyeva, 1999; Özəlliklə, *Azərbaycan* adının Quranda *(v)əzarabiy* şəklində keçməsi və ərəb qaynaqlarında şərh olunması gərəkli bəlgələrdir.

əldə etmək olur.[87] Azərbaycanla bağlı digər başqa dilli mənbələrə nisbətən ərəbdilli qaynaqların xeyli hissəsi bütöv və parçalarla avropa, rus, azər və türk dillərinə tərcümə olunub nəşr edilmişdir.[88]

Samidilli qaynaqlar sırasında qədim Ebla və Uqarit arxivlərindən tapılan yazıların onomastik qatı, qədim Bibl yazılarının qrafik sistemində runik hərflər də müqayisə aparmağa yardım edən faktlar verir. Yəhudilərin ibrani (ivrit) dilində yazılan qaynaqlar sırasında isə ən önəmli yeri Tövrat və İncil qutsal kitabları (Bibliya) tutur. Dünya xalqlarından çoxunun dilinə tərcümə olunmuş Bibliyada verilən Ön Asiya xalqlarına aid bilgilər sonralar akad, uqarit, misir, het yazıları oxunanda təsdiqini tapdı, yalnız buradakı «*xalqların şəcərəsi*» yunan və hay-erməni dillərinə tərcümələrdə redaktə olunmuşdur. Yəhudi-türk əlaqələrini açıqlaya bilən qaynaqlarla yanaşı, xəzər-azər xalqının soykökü, xəzərlərin yəhudi dinini qəbul etməsi baxımından Azər tarixi üçün ***ivritdilli*** qaynaqlar sırasında daha əhəmiyətli olanı Xəzər xaqanı İosifin X əsrdə yəhudi dilində yazdığı məktubdur. [89]

Beləliklə, yabançı dillərdə olan yazılı qaynaqların bu kiçik təsnifi də göstərir ki, azər xalqının tarixini öyrənmək üçün kifayət qədər mənbə vardır. Bura milli qaynaqları da əlavə edəndə Ön Asiyada türklərinin islamaqədər tarixi coğrafiyası, etnik kulturu, etnogenezi haqqında istənilən bilgini əldə etmək olur, təki istək olsun. Adı çəkilən qaynaqlardan 1975-ci ildən damla-damla topladığım bəlgələr toplusunun daşıdığı informasiya artıq Ön Asiya türklərinin tarixini Urmu teoriyası baxımından konseptual şəkildə təqdim etməyə imkan verir. Dil, tarix, coğrafiya, siyasi qurumlar, etnoqrafiya, mifologiya bəlgələrilə yoğrulub «türklərin soykökü» bölməsində ümumiləşən bu yeni konsepsiya bütöv türk etnosunun tarixinə işıq tutub türklərin gerçək ilkin Atayurdunu bizə göstərir.

---

[87] VIII-XII əsr müəllifləri: *Yəqub əl-Kufi, əl-Cahiz, əl-Xarəzmi, Qudama ibn Cəfər, İbn Xordadbeh, İbn Fədlan, ət-Təbəri, əl-Yaqubi, İbn əl-Fəqih, İbn Rusta, əl-Bəlazuri, əd-Dinəvəri, əl-İstəxri, İbn Havqəl, əl-Məsudi, İbn ən-Nədim, Əbu Dülәf, əl-Fərqani, əl-Müqəddəsi, Suxrab (İbn Sarabi), əl-Biruni, əl-İdrisi, əl-Qərnati, Yaqut əl-Həməvi, əl-Battani;* XIII əsrdən sonrakılar: *İbn əl-Əsir, əl-Umari, İbn Ərəbşah, İbn Bəttutə* və s.

[88] İstifadə olunmuş mənbələr sonda «Ədəbiyat» bölməsində verilmişdir. Bundan başqa, ərəbdilli mənbələri rus və azər dilinə tərcümə edib şərh verən alimlərin tədqiqatlarından da geniş istifadə olunmuşdur (ВИПИД; АПИОТН; Калинина, 1988; Бцнйадов, 1989; Вялиханлы, 1974; Асадов, 1993; АТГ, 1989; Ялийева, 1999 və b.).

[89] Коковцов, 1932; Сэмюэлс, 1991; Golden, 1980; Kuzgun, 1993.

“Doqquz Bitik” üçün 2000-də yazılan bu Giriş bölməsində mövzu ilə bağlı son illərdə ayrı-ayrı yazarların çap olunmuş dəyərli əsərlərindən istifadə etmək və ya münasibət bildirmək imkanı olmadı. Lakin sonrakı illərdə basılan Urmu teoriyası yönümlü bəzi kitablarımda (Türk elləri, 2006; Tanrı elçisi İbrahim, 2007, 2009; Etrusk-Türk bağı, 2011) imkan daxilində həmin dəyərli əsərlərdən istifadə olunmuşdur.

1. ANTROPOLOGİYA

Müasir insan (*Homo sapiens*) tipinin bundan 35-38 min il əvvəl formalaşdığını nəzərə alsaq, *monqoloid, avropoid, neqroid* tipi kimi üç əsas irqin məhz həmin çağlarda ortaya çıxdığını düşünmək olar.[1] Qədim dünyada ilk insan məskənləri o qədər də çox deyildi. Azıx mağarasında 350 min il yaşı olan azıxantropun çənə sümüyünün tapılması aydın göstərdi ki, belə məskənlərdən biri də Azərbaycan olmuşdur. Buradakı insanlar indiki görkəmini alana qədər arxantrop, paleantrop və müasir insan tipi kimi evalüsyon antropogenez mərhələləri keçmişdir.

Bəzi antropoloqlar *Homo sapiensin* bir bölgədə, bəziləri isə bir neçə bölgədə yarandığını söyləyirlər. Monosentristlər Aralıq dənizinin doğu bölgələrində avropoid irqin yarandığını, buradan Afrikanın güney, Avropanın quzey-batı bölgələrinə yayıldığını, hətta Sakit okeana qədər doğuya getdiyini yazırlar. Polisentristlər isə avropoid irqin Ön Asiyada, monqoloid irqin Çində yarandığını deyirlər.[2] Hər iki halda Azərbaycan da daxil olmaqla Ön Asiya ilk insan tipinin və ilk avropoid irqinin formalaşdığı bölgəyə düşür. Nəzərə alaq ki, ilk heyvandarlıq və əkinçilik də m.ö.VIII-VII minillikdə burada yaranmış, sonradan başqa bölgələrə yayılmışdı. Həmin minillikdə isə mütəxəssislərin yazdığına görə, insanların sayı Yer kürəsində cəmi 10 milyon imiş.[3]

İnsanlarda ***irq*** əlaməti ***irsi*** faktor sayılır.[4] Nəsildən-nəsilə keçən bəlli fiziki əlamətləri irsi olaraq daşıyan insan toplumu bu və ya digər

---

[1] Алексеев 1978, 167.

[2] Чебоксаров - Чебоксарова, 151.

[3] Bəzi tədqiqatçılar isə 9 minil öncə Yer üzərində aşağı-yuxarı 2,5 milyon əhali olduğunu qeyd edir (ИПО, 314-315); Yer kürəsində 7 minil öncə 30 milyon insan yaşayırdı, 2 minil əvvəl isə bu say 230 milyona çatmışdı və bunların çoxu da Asiyada yerləşirdi.

irqə aid olur. Eyni ocaqdan-soydan törəyənlərdə bənzərlik daha aydın sezilir, uşağın bəzən ata-anasına deyil, babalarından birinə bənzəməsi, «yeddi arxa» deyimi irsi genlərin nəsildən-nəsilə ötürülməsi ilə bağlıdır. Əksər insanlar xarici görünüşünə görə bir-birindən fərqləndiyi kimi, xalqlar arasında da belə fərqlər vardır və bu fərqlər hələ qədim çağlardan səyyah və tarixçilərin nəzərini cəlb etmişdir. Qədim yazılı qaynaqlarda fiziki görkəmə aid məlumat etnoantropogenez üçün böyük əhəmiyət daşıyır. Belə ki, 4200 il bundan əvvəl Azərbaycanda dövlət quran qutların akad yazılarında ağbəniz (*namruti*) əlaməti ilə verilməsi onların avropoid irqin aralıqdənizi tipinə aid olduğunu göstərir.[5] Buradan doğuya köçən saqa (oğuz) türkləri də Çin-Tibet qaynaqlarına görə göyköz, ağbəniz idi.

Bugün yer kürəsinə səpələnmiş insanlar fiziki əlamətlərin ölçü və rəng çalarına görə bir-birindən fərqlənir. Belə fərqləndirici əlamətlər sırasında yumşaq, cod, düz, qıvrım *saçları*; yaşıl, göy, qara, qonur rəngli, ala, qıyıq, badamı *gözləri*; böyük, kiçik *çənəni*; enli, dar, iri, xırda, uzunsov və ya girdə *sifəti*; qalın və ya seyrək tüklü *bədəni*; yumru, yastı, uzun, böyük, xırda *başı* (qafatası); uzun, gödək, orta *boyu;* ağ, sarı, qara *dərini* nəzərə alan *antropologiya* elmi oxşar əlamətlərin daşıyıcısı olan toplumları əsasən beş irq üzrə təsnif edir: *avropoid, monqoloid, neqroid, avstraloid, amerikanoid.* Son iki irqin Avstraliya aborigenlərinə və Amerika hindularına aid olması və bəzi antropoloqların hinduları da monqoloid irq sayması bizə imkan verir ki, mövzumuzla bağlı yalnız türk-azər etnosu ilə əlaqəsi olan *avropoid* və *monqoloid* əlamətlər üzərində dayanaq.

Antropologiya elmi inkişaf etdikcə fərqləndirici əlamətlərin sayı və çeşidləri də artmışdır. Son vaxtlar yuxarıdakı əlamətlərdən başqa, əl və barmaq dərisinin izi, burun, qulaq və dodağın əlamətləri, qan qrupu, dişlərin quruluşu kimi fərqləndirici əlamətlər də antropoloji tədqiqatlarda öyrənilir. Lakin keçmiş çağlarda bu əlamətlər qeydə alınmadığından etnogenezin dinamikası baxımından müqayisə aparmaq imkansızdır. Ona görə də etnik tarixdən danışarkən klassik göstəricilər daha çox önəm daşıyır.

Belə fərqli fiziki əlamətlərin elmi şərhinə XVIII əsrin ortalarında başlanmış və irqi fərqlər dərinin rənginə görə təsnif edilmişdir. Əvvəllər asiyalıları *sarı,* avropalıları *ağ,* afrikalıları *qara* irqə ayırmaq prinsipi formalaşmış, sonralar isə neqroid qara, monqoloid sarı, hindular qırmızı,

---

[4] Semitcənin ***irs*** sözü ilə eyni kökdən olan ***rasa*** termini rus dilində *irq* anlamındadır.

[5] Дьяконов, 1956, 118 (qeyd 6).

kavkasion və avropoidlər də ağ dərili kimi verilmiş, təsnifata Avstraliya-Malaziya tipi də əlavə edilmişdir. Sonralar hər irqin öz daxili bölgüləri aparılmışdır. Avropoid irqin braxikefal və dolixokefal tipləri üzrə xeyli lokal çeşidləri verilmişdir: doğu-baltik, alp, dinarid, turanidlər *braxikefal*, teuto-nordik, mediterran, dalo-nordik, taurid, indid *dolixokefal* tiplər sayılmışdır. «Deniker turanid irqə *turko-tatar*, Haddon isə *turki* adı vermişdir».[6] Əlbəttə, haqlı olaraq, belə yanlış bölgülər müasir elmdə qəbul edilmir. Antropoloji tipə dil ölçüsü ilə yanaşmaq olmaz; ayrıca sami irqi, finuqor irqi, hindavropa irqi olmadığı kimi, ayrıca türk irqi də yoxdur. Bu baxımdan, türk etnosu bir çox dünya dillərində danışan toplumların da daxil olduğu *avropoid* irqə, Azər xalqı da avropoid irqin *kaspi* çalarlı *aralıq-dənizi* tipinə aiddir.[7]

Müasir insan üzərində aparılan çoxçeşidli antropoloji tədqiqatdan fərqli olaraq, torpaq altından çıxarılan məhdud göstəricili insan skeletinin informasiya verimi az olur. Nəzərə alanda ki, əvvəllər bəzi boylarda ölüyandırma gələnəyi də olmuşdur, onda müqayisəyə cəlb olunan materialın da tam olmadığını qəbul etməliyik. Qədim çağların antropoloji materialı *paleoantropologiya* metodları ilə öyrənilir və *antropogenez* üçün ümumi nəticələr çıxarmağa yardım edir. Qabarıq nəzərə çarpan fərqləndirici əlamətlərdən biri qafatasının ölçüləridir və bu ölçülərə görə qafatası *dolixokefal, mezokefal, braxikefal* tiplərə ayrılır.[8] Antropologiya elmində qafatası ölçüsü müəyyən metodla 70-88 rəqəmi arasında hesablanır: 76-dan aşağı dolixokefal, 76-81 arası mezokefal, 81-dən yuxarı braxikefal sayılır.[9]



[6] Rasonyi, 8;

[7] «Bu antropoloji tipin yerli mənşəli olması şübhəsizdir. Həmin tip Azərbaycan vilayətlərində hələ qədim zamanlarda geniş yayılmışdı. Buna görə də belə zənn edirlər ki, Azərbaycan xalqının qədim əcdadlarından birini Ön Asiya xalqları arasında axtarmaq lazımdır» (AT 1998, 127); Quzey adamı *Homo Nordikus*, Alp adamı *Homo Alpinus* adlandığı kimi, Ağdəniz adamı da *Homo Meridionalus* adlanır (Kınal 1987, 33).

[8] Yunanca *kefalon* «qafa», *braxos* «gödək//qısa», *dolixos* «uzun», *mezos* «orta» sözüdür.

[9] Чебоксаров - Чебоксарова, 104.

Qafatası ölçüsü müasir etnik qrupun və ya bütöv etnosun antropoloji tipini müəyyənləşdirməyə kömək edir. L. Rasonyi «Tarixdə türklük» adlı bitikdə yazır ki, turanid irqi Ön Asiyaya bağlayan antropologiya uzmanı Bartucz hesab edir ki, türklərdə monqoloid irqin zəif cizgiləri sezilir.[10] Orta və Doğu Anadoluda əksər braxikefal tip daşıyıcılarının gəlmə olduğunu düşünmək yanlışdır, çünki burada hələ eneolit və tunc dövrlərində dolixokefal ilə yanaşı braxikefal tip də vardı.[11] Anadolu türkləri üzərində aparılan antropoloji tədqiqlərə əsaslanan Kamuran Gürün yazır: «Böyük bir gənəlliklə boy ortadan azca uzun, vücud yapısı makroskel, böyük çoğunluqla brakisefal, burun leptorrhinien, göz və saçların rəngi gənəlliklə orta, dəri rəngi açıq və ya ortadır».[12]

Bu isə o deməkdir ki, qafqazdilli, haydilli və irandilli xalqlardan fərqli olaraq, azər xalqı Güney Qafqaz, Doğu və Güney-Doğu Anadolu, Güney Azərbaycanın qədim aralıqdənizi tipli dolixokefal əhalisinin - türk etnosunun davamçılarıdır. Bu hipotezi təkcə kəllə (qafatası) göstəricisi yox, qan qrupu, qan tərkibində Q-6-FD fermenti, talassemiyanın genocoğrafiyası, barmaq izi, diş quruluşu kimi müxtəlif sahələr üzrə alınmış bilgilər də təsdiq edir. Bir daha bəlli olur ki, türk etnosu aralıqdə-

[10] Kişilər ortaboylu (166-167 sm), yuvarlaq qafataslı, yüksək, yumuru, geniş alınlı, orta tüklü, hərəkətli və gözəl vücudlu, qısa, lakin bəzi Ön Asiya tiplərindən fərqli olaraq yastı yox, sıx, yuvarlaq ənsəli, aşağıya tərəf ensizləşən sifətli, almacıq sümüyü azca çıxıq, nisbətən kiçik, düz və qaqa burunlu, kiçik və möhkəm çənəli, kiçik və yatıq qulaqlı, göz yuvası nisbətən dar (lakin monqoloid pərdəsiz), kiçik qara gözlü olurlar. Qadınların gözü daha parlaq və canlıdır. Bu təsviri L.Rasonyi daha geniş vermişdir (Rasonyi, 8-9).

[11] Alacahöyük və Alişarın Het təbəqəsindən çıxan qafaların əksəri braxikefaldır (Kınal, 34).

[12] Türkiyədə 1937-də aparılmış tədqiqat doğu və güney bölgələrdə əhali arasında dolixokefal, Orta Anadoluda isə braxikefal tipin % hesabı ilə geniş yayıldığını ortaya çıxarmışsa, bütöv Qafqazda aparılan tədqiqatlar da başqa dilli xalqların (gürcü, ləzgi, udi, hay və b.) braxikefal, türk-azərlərin isə daha çox dolixokefal olduğunu göstərmişdir (Gürün, 54-55);

Q.Hümbətov bu sahədə müxtəlif antropoloqların apardığı tədqiqatın nəticələrini geniş şərh etmiş, konkret bölgələr üzrə - Gədəbəy, Cəlilabad, Dəvəçi, Göyçay, Ağsu, Bərdə, Goranboy, Dağıstan və Gürcüstan azərlərinin, Əfqanıstandakı qızılbaş-azərlərin ümumi qafatası göstəricisinin 75-81 arasında, xınalıq, gürcü, inqloy, ləzgi, udi, hay-erməni, avar, saxur, talış xalqlarında isə bu göstəricinin 82-87 arasında dəyişdiyini konkret rəqəmlərlə göstərmişdir (Гумбатов, 1998, 53-86).

nizi antropoloji tipinə, onun bağrından qopan türkmən-azər boyları da həmin tipin kaspi çalarına mənsubdur.

Təəssüf ki, Azərbaycanda antropologiya elmi zəif inkişaf etmiş, burada Q. F. Debets, R. D. Muğanlinski kimi alimlərin apardığı tədqiqat işləri yarımçıq qalmışdır. Antropoloq R. Qasımova isə eyni soylu Güney və Quzey Azərbaycan türklərini iki ayrı antropoloji tipə ayırmaq məqsədilə quzeydə «gəlmə monqoloid tipli türklər» axtarmaqla məşğul olmuş, lakin burada monqoloid türk tapa bilməmişdir. Hətta Dağıstanda yaşayan azərlərin də antropoloji baxımdan oradakı qafqazdilli xalqlardan köklü şəkildə fərqləndiyi bəllidir.[13]



Avropoid irqin Aralıqdənizi tipi:
Solda **Azər türkü**, sağda **Türkmən**

Azər folklorunda boynuyoğun (hərfi mənada), gödərək, ortaboylu, uzundraz, azman, qalınqaş,

[13] Гаджиев 1975, 81; E.Resler, Q.F.Debets, R.D.Muğanlinski, O.Babakov, M.Q.Abduşelişvili, L.V.Oşanin, V.V.Qinzburq və başqa antropoloqlar Güney Qafqaz və Türkmənistan əhalisinin ən qədim çağlardan müasir dövrə qədər eyni antropoloji tipin daşıyıcıları olduğunu yazmışlar (Гумбатов, 61-85); Analoji fikri Güney Azərbaycan əhalisi haqqında yabançı antropoloqlar da söyləyir. U.Həşimova diş quruluşuna görə azərlərin eyni antropoloji tipə aid olduğunu yazır (Гашимова, 1979, 145); L.Q.Xit Qafqazda barmaq izlərini, A.A.Voronov Güney Qafqazda talassemiya problemini, onunla birlikdə A.Y.Lısenko, N.İ.Neyulin qan tərkibində qlükoza-6-fosfat dehidrogenez fermenti çatışmazlığı məsələsini tədqiq edib analoji nəticəyə gəlmişlər (Гумбатов, 64-66). Hətta, bu son tədqiqatda Q-6-FD gen tezliyi gürcülər üzrə 0,3, haylar üzrə 1, azərlər üzrə isə 11 faiz göstərici əldə olunmuşdur ki, bu da azər etnosu əcdadlarının subtropik qurşaqda doğulduğunu bildirir.

çatmaqaş, enlisifət, yastıbaş, yekəbaş (hərfi mənada), qaba gökslü, tüklü, kosa, seyrəkdiş, tumgöz, alagöz, göygöz, qaragöz, dikburun, fındıqburun, yastıburun, sarışın, ağbəniz, qaraşın və bu kimi çoxlu əlamət-epitet işlənir ki, bu da antropoloji fərqləndiricilərdir.

Xalq dilində işlənən «oğuz ölüsü kimi uzanmaq» deyimi qədim oğuz qəbirlərinin uzunluğu və dolayısı ilə oğuzların hündürboylu olması ilə bağlı yaranmışdır.[14] Xorasan türklərinin görkəmini onların öz dilindən verən ərəb alimi Cahiz (VIII-IX əsr) yazır: «*Biz cüssəli, iri bədənli, uzun, gur saçlı, böyük qafalı, geniş omuzlu, geniş alınlı, qalın boyunlu, uzun qollu kimsələrik. Biz ən çox erkək cocuq meydana gətirən, ən çox nəsil yetişdirən, qalın kəmikli, gürbüz, ən azı ekiz cocuq dünyaya gətirən, nəsli ən təmiz, əsəbləri ən qüvvətli, kəmikləri ən mükəmməl kimsələrik*».[15]

İ. M. Dyakonov Güney Azərbaycanda *Göytəpə* (m.ö. III-II minil) və *Təpə-Hisar, Təpə-Siyalk* kulturu sahibləri olan Mada əhalisi ilə müasir Azərbaycan və Xorasan əhalisinin eyni antropoloji tipə aid olmasını qeyd edir.[16] Yazar Azərbaycanda yaşayan qədim lulu boylarının aralıqdənizi tipi olduğunu söyləyir və eyni antropoloji tipdən olan qutların da müasir Qarabağ (Şuşa) azərlərinə bənzəməsi fikrini irəli sürən fransız antropoloqu E.T. Hami'yə istinad edir.[17] Son illər İtaliya genetika uzmanları 3 min il öncə Anadoludan İtaliyaya köçən etrusklar ilə batı türkərin DNH göstəricilərində böyük uyğunluq olmasını sübut etmişlər. Bu isə türklərin ilkin Ata-yurdunu Ön Asiyada müəyyənləşdirən Urmu teoriyasının doğruluğunu bir daha təsdiq edən amillərdən biridir. "Etrusk-Türk bağı" (2011) bitiyində bu məsələ geniş şərh olunmuşdur.

---

[14] Sağlam həyat tərzi və yaxşı qidalanma boy artımına səbəb olur. Skandinaviyada keçən əsrin ortalarında orta boy 164-165 *sm* idisə, indi orta boy 10 *sm* artaraq 173-174 *sm* olmuşdur (Чебоксаров - Чебоксарова, 161); Qərbi Azərbaycanın qədim Gögər elindəki Cuci kəndində yaşlı çoğrafiya müəlliminin mənə danışdığına görə, əsrin ortalarında kəndin qədim qəbirlərindən çıxan qafatasının çox iri olması hamını heyrətə salırmış. O, bunlardan qlobus düzəldib dərs keçirmiş. İndi də bəzi qazıntılarda boyu 2 m olan skeletlər üzə çıxır.

[15] Cahiz, 48.

[16] «Что касается Мидии и нагорья Ирана, то здесь древнейшим антропологическим типом также являлся тип смуглого, длинноголового европеоида-средиземноморца, распространенный в Хорасане и в Азербайджане и ныне» (Дьяконов, 1956, 97).

[17] Дьяконов, 1956, 104 (qeyd 1); 116.

Antropologiya elminə yaxından bələd olmayan tarixçilərin bir qismi bəzi türk boyları ilə yanaşı, bütöv türk etnosunu avropoid irq hesab edir, bir qismi isə bəzi müasir boylarla birlikdə qədim türkləri də monqoloid irq sayır.[18] Türk boylarını yalnız monqoloid və ya yalnız avropoid saymaq metodoloji baxımdan düzgün deyil, hər bir konkret türk boyuna aid fiziki görkəmi, lokal antropoloji tipi bütöv türk xalqlarına aid etmək gələnəyi bəzən siyasi səbəblərdən, bəzən naşılıqdan ortaya çıxır. Türk boylarının yanlış olaraq, monqoloid sayılması daha bir yanlış nəticənin etnogenez elmində formalaşmasına yol açmış, avropoid cizgili müasir türk xalqlarının əksəriyəti «türkləşmiş» etnos hesab olunmuşdur.[19] Azərbaycanlı antropoloq R. M. Qasımova bu yanlış konsepsiyanın qurbanı olduğundan apardığı tədqiqatların nəticəsini ona uyğunlaşdırmaq istəmişdir. Halbuki onun əldə etdiyi elmi nəticələr özünün də yazdığı kimi, azər xalqının yerli etnos olduğunu təsdiq edir, lakin müəllifin bu yerli etnosun türk deyil, mütləq «türkləşmiş bir xalq olmalıdır» qənaəti onu daha yanlış yozum vermə qarşısında qoymuşdur: Güya Azərbaycan əhalisi quzeydə türkləşmiş qafqazdilli, güneydə isə türkləşmiş irandilli xalqdır, hər ikisini bura gələn monqoloidlər türkləşdirib, özləri də dərhal yoxa çıxıb.[20] Əlbəttə, elmdə bu cür manipulyasiya ciddi sayıla bilməz.

Doğrudur, elə etnik qruplar var ki, onlar müxtəlif millətlərin içində yaşamağından asılı olmayaraq, özünəməxsus antropoloji görkəmini nisbətən saxlaya bilmişlər, necə ki, min il əvvəl Hindistandan çıxıb dünyanın müxtəlif bölgələrinə yayılan qaraçılar etnik əlamətlərlə yanaşı, fiziki tipi də saxlamışdır. Lakin məsələyə qlobal yanaşanda aydın olur ki, dünyada qatışığı olmayan, saf irqi təmsil edən etnos yoxdur. Bir uşaq iki adamın (ata-ananın) törəməsi olduğu kimi, hər hansı bir etnos da ən azı iki irqi qatışıqdan yaranmışdır. Hətta neqroid irqin öncə Afrikada deyil, Avropada yarandığını deyənlər var. L.V. Qumilov qeyd edir ki, etnosların çarpazlaşması bəzən yeni davamlı forma verir, bəzi çarpazlaşma isə tamam yeni

[18] Bartucz, L.Rasonyi əksər türkləri, Q.F.Debets azər və türkmənləri, K.Ş.Şahniyazov türkmən-qıpçaqları avropoid irqə, Z.V.Togan, V.V.Bartold, S.İ.Vaynşteyn və M.V. Kryukov isə qədim türkləri monqoloid irqə aid etmişlər (Bartucz, 414-416; Дебец, 1956, 139; Rasonyi, 7; Шаниязов, 419; Togan, 1981; Вайнштейн - Крюков, 178).

[19] «Əski Çin və İslam müəllifləri qırğızların qumral saçlı, mavi gözlü və uzun boylu olduğunu söyləmişlər; bəzi çağdaş alimlər isə türkləri monqoloid irqə aid etdikləri üçün onların türkləşmiş bir qövm olduğu hökmünü çıxarmışlar» (Turan, 1998, 26-27).

[20] Касимова, 1975;

fərqli formanın yaranmasına səbəb olur. Onun fikrincə, velikorus xalqı uqor, alan və türklərin qarışığından törəmişdir.[21] Çeboksarovlar yazırlar ki, «*yer kürəsinin böyük bölgələrində hələ qədim çağlardan irqi metisləşmə zonaları olmuşdur*».[22] Avropanın doğusu ilə Sibirin batısı, Asiyanın ortası, güneyi və güney-doğusu belə bölgələrdən sayılır. Ən qədim tarixdən başlanan metisləşmə olayı bugün də davam edir.

Son bir-iki əsrdə azərlər, kütləvi halda olmasa da, ləzgi, budux, udi, rus, hay (son vaxtlara qədər), fars, talış, tat, kürd və başqa belə etnik qruplarla evlənmiş, qafqaz, hindavropa, irandilli etnoslarla calaşma nəticəsində xeyli *iqdış* (metis) nəsil törəmişdir. Bu xalqlardan çoxunun azərlərlə 3-4 min il iç-içə yaşadığını nəzərə alanda, bu qarışıq ailələrdən törəyən nəsillərin də az olmadığını düşünmək lazım gəlir. Ərəb qaynaqları iqdışları «*ətrak ül-müvəllədin*» termini ilə vermişdir. Faruk Sümər yazır ki, «*hətta böyük səlcuq şəhərlərində iqdışlar adlanan, başlarında iqdışbaşılar duran zümrələr də vardı*».[23] Ümumiyətlə, ekzoqamiya gələnəyinə üstünlük verən türk etnosu başqa millətlə evlənmə məsələsinə çox da qısqanc yanaşmamış, daima içində kənar boylara yaşamaq imkanı vermışdır. Böyük türkçü Mahmud Kaşğari hələ min il əvvəl «*Tatsız türk bolmaz, Başsız börk bolmaz*» atasözünü bu münasibətlə işlətmişdir.

Qədim türklərin fiziki tipi təkcə yazılı və arxeoloji qaynaqlarda deyil, həm də qayaüstü rəsmlərdə, barelyef və daş heykəllərdə əks olunmuşdur. Qədim türk kurqanları yanında qoyulmuş daş heykəllərin fiziki görkəmini tədqiq edən antropologlar onların bəzisində avropoid, bəzisində isə monqoloid cizgilərin üstünlük təşkil etdiyini vurğulamış və bu nəticəyə gəlmişlər ki, «daş heykəllər qarışıq fiziki tipə malikdir».[24]

Türk xalqları hələ qədim çağlardan Avrasiyada geniş ərazilərə yayıldığı üçün türk etnosunun protoazərlər kimi batıda qalan boyları tam avropoid tipini saxlamış, Altay çevrəsinə miqrasiya edənlər monqoloid irqlə qarışıq (iqdış) tipə çevrilmiş, daha doğuya çəkilib əsas kökdən ayrı düşənlər isə tam monqoloid (yakut-saxa) irqi kimi formalaşmışlar. Monqoloid cizgisi sezilən bəzi boylar sonradan geri dönmüşlər. Tanınmış rus antropoloqları avropoidlərin geri - batıya qayıdışını saqa (skit) və hun ça-

[21] Гумилев, 1990, 59.

[22] Чебоксаров - Чебоксарова, 111.

[23] Сцмяр, 17.

[24] Вайнштейн - Крюков, 179.

ğına aid edirlər.Tədqiqatlar göstərir ki, saqa boylarına nisbətən hun boyları monqoloid qarışığa daha çox məruz qalmışdır, onların monqoloid cizgiləri daha qabarıqdır.[25]

Monqoloid pərdəli epikantus əlaməti indi özünü qazaxlarda çox (25 %), Volqaboyu tatarlarda isə az (6,5-7 %) göstərir. Bəzi arxeoloqlar yazır ki, «neolit və tunc dövründə avropoidlərin Doğuda monqoloidlərlə ilk kontaktı olan bölgədə avropoid irqinin braxikran variantı yaranmışdır».[26] Lakin avropoid irqinin braxikefal tipi hələ qədimdə «Kiçik Asiya, Quzey İran, Güney Qafqaz da daxil olmaqla bir-birilə kontaktda olan Yaxın Şərq tayfaları içində yayılmışdı».[27] Azərbaycanda dolixokefal tiplə yanaşı, braxikefal-mezokefal tiplərin yayıldığını adi müşahidə ilə sezmək olur. Hələ orta daş çağında Qobustan sakinləri içində braxikefal və dolixokefal tip vardı.[28] Körpəni beşikdə saxlamaq gələnəyi braxikefal əlaməti artıran səbəblərdən biri olmuşdur. Qərbi Azərbaycan antropologiyası üçün xarakterik cəhət neolit dövrünə aid (*Şenqavit*), Göycə gölünün güney yaxasında tunc dövrünə aid (*Ördəkli, Sevan*) böyük qafa, enlisifət, braxikefal avropoid tipinin və həm də dolixokefal (*Crarat*) avropoid tipinin olmasıdır.[29] Müasir azərlərin antropoloji tipi Mingəçevir abidələrindən çıxan skeletlərin tipindən fərqlənmir.[30]

Protoazər boylarının yayıldığı ərazilərə və qonşu bölgələrə kənar etnosların gəlməsi burada yad antropoloji tiplərin görünməsinə səbəb olmuşdur. Belə ki, güney-batıdan IV minildə başlayıb ərəb istilasına qədər davam edən sami axınları burada asuroid və quzey-doğudan hindiran arilərinə məxsus avropoid tiplərinin regionda yayılması həmin miqrasiyalarla bağlıdır. Antropologiya uzmanlarının fikrincə, Orta Asiyanın bütöv güney bölgələrinə m.ö.II minilin ortalarında gələn protoavropoid tipi, yerli xalqlar isə aralıqdənizi tipi idi.[31] Arxeoloji bəlgələr təsdiq edir ki, qədim

---

[25] Алексеев - Гохман, 56-63.

[26] Eyni qaynaq, 70; Hətta Qazaxıstanın avropoid əhalisində monqoloid cizgilərin artması son monqol istilası ilə başlanmışdır (Исмагулов, 1982, 169).

[27] Абдушелишвили, 1966; Гамкрелидзе - Иванов, 956.

[28] AT, 1998, 58.

[29] Алексеев - Гохман, 15-16.

[30] Касимова, 1975, 52.

[31] ЭПИЦАД, 41-42; Xakas ölkəsində (Minisunsk çuxuru) əhalinin çoxu hələ m.ö.VII-IV əsrlərdə avropoid idi. Taştık kulturu dövründə (m.ö.III - m.s.V əsr) burada monqoloid və qarışıq tiplərin olduğunu görmək olur. Zəif monqoloid cizgili taştıklılara

türk yurduna gələn bu protoavropoidlər hindiran tayfaları idi. Məhz o çağda bəzi türk boylarının daha doğu bölgələrə üz tutmasına həmin arilərin axını səbəb olmuşdur.

Antropoloji araşdırmalar aydın göstərir ki, qədim aralıqdənizi tipin kaspi çalarını daşıyan azər-türkmən boylarının xalis saqa (skit) boyları ilə eyni görkəm cizgiləri vardır. Bunu hər üç xalqı təmsil edənlərin antropoloji tipində aydın görmək olur. Bütövlükdə isə yuxarıda deyilənlər bu nəticələri ortaya qoyur: 1) Azərbaycan ilk antropogenez bölgələrindən biridir; 2) Ön Asiya avropoid irqin aralıqdənizi tipinə aid olan türk etnosunun Atayurdudur. Bu yurdun hüdudları Güney-Doğu Anadolu ilə başlayıb, Bağdad-Həmədan xətti ilə Türkmənistsnın güney bölgələrini, Xəzər boyu ilə Dağıstan, Borçalı bölgələrini əhatə edir və Doğu Anadolu ilə qapanır; 3) Bu Atayurdun ortasında yerləşən Azərbaycanın yerli sakinləri - azər xalqı türk etnosunun aralıqdənizi tipinin kaspi çalarlı davamçıları idi və ən qədim çağlardan davamlı olaraq burada yaşamışlar; 4) Son illər DNH üzrə tanınmış uzmanların apardığı araşdırmalar da türk etnosunun Ön Asiyada yarandığını təsdiq etdi və Urmu teoriyasının elmi dəyərini artırdı.

Beləliklə, antropoloji qaynaqlar qədimdə prototürk etnosunun və protoazər boylarının antropoloji tipini müəyyənləşdirməyə imkan açan bir sıra bəlgələr ortaya qoyur. Bu bəlgələrdə ilk insan məskənlərindən biri Azərbaycanın həm də yeni neolit çağında avropoid irqin formalaşdığı regiona düşməsi, protoazərlərin avropoid irqin aralıqdənizi tipinə aid olması bəlli olur. Antropoloji bəlgələr bəzi müasir türk xalqlarında özünü göstərən monqoloid cizgilərin səbəbini aydınlaşdırmağa yardım edir. Belə ki, Urmu teoriyasına görə, Ön Asiyadan IV-II minillərdə iki böyük dalğa ilə doğuya miqrasiya edən prototürk boyları oradakı monqoloid irqlə qarışmış, onlarda monqoloid cizgilər yaranmışdır. Sonralar zaman-zaman həmin monqoloid cizgili türklərin bir qismi Azərbaycana qayıtmışlar. Geri

---

nisbətən belə cizgilərin artdığını əks etdirən müasir xakasların fiziki tipi onların hələ m.s. VII-X əsrlərə qədər «tibetlilərə və monqollara bənzəməyən sarısaç, göygöz insanlar» olduğunu Çin və Tibet qaynaqları qeyd etmişdir (ПСДК,199); Minusinsk çölü Güney Sibir, Tuva, Kuznetsk çuxuru, Dağlıq Altay və Doğu Qazaxıstan türklərinin X-XII əsrlərə aid antropoloji tiplərini tədqiq edən rus alimləri yazır: «*Bütün sadalanan qruplar bir-birinə maksimum yaxın olub, eyni morfoloji kompleksə aiddir; braxikran, uzun, enli və horizontal baxımda xəfif yastılanmış sifət, az qabarıqlı burun*» (БТВ, 1988, 158); Güney Türkmənistanla kelteminar kulturlu Xarəzm əhalisi m.ö.V-III əsrlərə aid qafataslarına görə avropoid irqin doğu-aralıqdənizi tiplərindən idi və burada dolixokefal ilə yanaşı mezokefal çalarlar vardı (ЭИАСА, 10-14).

qayıdan bu boylar protoazər türkləri ilə yenidən qaynayıb qarışmış və burada braxikefal tiplərin artmasına səbəb olmuşdur. Belə geriqayıtma olayları dış oğuz (saqa-qamər) boyları ilə başlasa da, ayrı-ayrı dövrlərdə son oğuz-səlcuq axınlarına qədər davam etmişdir.

2. ARXEOLOGİYA

Bəşər tarixinin öyrənilməsində *arxeoloji kulturun* önəmli yer tutması tarix elminin bu sahəsini son əsrdə xeyli irəli aparmış, onun digər elm sahələrilə əlaqəsi və metodologiyası da inkişaf etmişdir. Ən qədim çağlardan tutmuş son dövrlərə qədər insan yaşamının formalarını öyrənə bilmək üçün minillərlə torpaq altında qalan bəlgələri ortaya çıxarıb bəşəriyətin keçdiyi inkişaf mərhələlərini sistem şəklində öyrənən axeologiya bu mərhələləri əmək alətlərinin hazırlanma texnologiyasına və növünə görə *daş* və *metal* dövrləri üzrə təsnif edir. Daş və metal dövrü üç əsas mərhələyə, bunlar da daxili bölgülərə - alt, orta, üst qatlara ayrılır. Daş dövründən sonra metal dövrü başlanır, lakin metalla yanaşı daş alətlərdən istifadə hələ bir müddət davam edir.

DAŞ DÖVRÜ	Paleolit dövrü (erkən daş)	2 milyon il əvvəl
	Mezolit dövrü (orta daş)	12 min il əvvəl
	Neolit dövrü (yeni daş)	10 min il əvvəl
METAL DÖVRÜ	Eneolit dövrü (mis – daş)	8 min il əvvəl
	Tunc dövrü	6 min il əvvəl
	Dəmir dövrü	3 min il əvvəl

Erkən daş (paleolit) dövrünün alt mərhələsi 2 milyona yaxın bir zamanı əhatə edir. Orta paleolit 100-80 min il əvvələ qədər, üst paleolit isə 40-12 min il əvvələ qədər davam etmişdir.[33] Məhz *neandertal* dövrünü

[33] Arxeologiya elmində paleolitin ilk mərhələsi *şelə qədər* adlanır və bu 400 minil əvvələ qədər davam edir. 400-300 minil əvvələ qədər *şel*, 300-100 minil əvvələ qədər *aşel*, 100-40 minil əvvələ qədər isə *mustye* adlanır. Mustyedən sonra üst paleolit gəlir və bu da 40/35-12 minil əvvəli bildirir. «Paleolit mərhələlərinin dövrü barədə müxtəlif fikir-

başa vurub paleolitin üst mərhələsinə *Homo sapines* («gəlişmiş insan») formasında daxil olan toplumlar içində artıq üç əsas irq yaranmaqda idi. Bu mərhələdə irqlərin formalaşması başa çatır, ailədaxili qan qohumluğu ekzoqamiya ilə soy qurumunu, bu da öz növbəsində bəsit ibtidai icma quruluşunun ortaya çıxmasına, lokal kulturlar isə gələcək etnik toplumların yaranmasına yol açır.

Göründüyü kimi, paleolitin üst qatı bəşər tarixində ictimai münasibətlərin dəyişdiyi mühüm bir mərhələdir. Əslində, biz prototürk boyları və prototürk dilinin, protoazər dialektlərinin yaranma tarixinin ən alt qatlarını tədqiq etməyi üst paleolitdən başlaya bilərdik, lakin həmin boyların formalaşdığı bölgələr və miqrasiya yönləri barədə mövcud elmi konsepsiyalara obyektiv yanaşmaq üçün tarixin daha alt qatlarına enməyi lazım bildik. Nəzərə alaq ki, prototürk etnosunun formalaşdığı Ön Asiya regionunun əsas hissəsi məhz bu əraziyə düşür. Kür, Araz, Zəngi, Yuxarı Fərat, Dəclə, hər iki Arpa çaylarının, Göycə, Urmu və Van göllərinin hövzəsi insan əcdadları üçün münasib bölgələr idi, çünki bu ərazilərin həm doğal şəraiti, həm də bol flora və faunası vardı. Ona görə də «Azərbaycanda daş dövrü özünün bütün inkişaf mərhələlərni keçmişdir».[34]

Erkən daş dövrü (paleolit)

Quzey Azərbaycanın batı və quzey bölgələrində arxeoloji qazıntı çox aparıldığından buralarda xeyli paleolit düşərgələr üzə çıxarılmışdır. Güney Azərbaycanda isə belə axtarışlar az olduğundan paleolit düşərgələrin qeydə alınması hələ ki, ürəkaçan olmasa da, daş dövrünə aid xeyli kultur izləri burada da vardır. Azərbaycanla müqayisədə ətraf qonşu bölgələrin də erkən paleolit abidələri azdır və ya heç yoxdur. Qədim Azərbaycan sınırının batı və güney-batı qonşuluğundakı bölgələrdə erkən paleolit abidələri qeydə alınmamışdır. Ola bilsin ki, gələcəkdə Anadolunun doğu və güney-doğusunda aparılan qazıntılar erkən daş dövrünə aid məskənləri ortaya çıxarsın, lakin hələlik orta və üst paleolit abidələri Ankara civarında (*Çubuksu*), Kiçik

---

lər vardır: erkən paleolit - 2,7, 2,5, 2 və 1,7 milyon il; orta paleolit - 150, 100, 75 minil; üst paleolit - 40, 37, 35 minil» (Мартынов, 21). Ümumiyətlə, bu tarixi bölgülər dünyanın müxtəlif bölgələri üzrə dəyişir. Azərbaycanda erkən paleolit 2 milyon il əvvəl başlanır, Rusiya ərazisi üçün isə 600-300 minil arasındadır. Bəzi arxeoloqlar Azərbaycanda mustye dövrünün 140-150 minil davam etdiyini yazırlar (Эюйцшов, 16).

[34] Эюйцшов, 14.

Asiyanın güney-doğusunda Antalya, Xatay bölgələrində (*Beldibi, Altıntəpə, Belbaşı, Musa dağı, Karain mağarası, Tıkalı mağara* və b.) ortaya çıxarılmışdır.[35] İkiçayarası (Mesopotamiya) ərazisində isə nəinki erkən, heç orta paleolit düşərgələri də qeydə alınmamışdır.[36] Elam daş abidələri də erkən dövrü əks etdirmir. Əgər Azərbaycanla Elam sınırında yerləşən üst paleolitə aid Xürrəmabad civarındakı *Yafte, Pa-Sanqar* və *Arceş* düşərgələrini nəzərə alsaq, onların da Zaqros daş kulturunun lokal variantı olduğunu qəbul etməliyik.[37] Azərbaycanı güney və güney-doğudan əhatə edən qonşu bölgələrdə orta paleolit açıq düşərgə şəklində deyil, qayaaltı düşərgə (*Fars, Duzlu-çöl*) və mağara (*Kunci*) şəklindədir. Azərbaycanın doğu sınırları dışında qalsa da, sonrakı prototürk boylarının formalaşdığı bölgələrdən olan Xorasanda erkən paleolit qalıqları da tapılmışdır.[38] Azərbaycanın quzey-batı sınırına yaxın bölgələrdə Tbilisi-Kutaisi-Kazbek üçbucağındakı Trialeti, Suram və Raçin dağ silsilələri arasında xeyli orta və üst paleolitə aid düşərgə və mağaralar aşkar edilmişdir ki, bu da Qafqazın qədim insan məskənlərindən biri olduğunu sübut edir.[39]

Beləliklə, Azərbaycan ən qədim çağlarda paleolit dövrünün arxeoloji abidələrini az-çox əks etdirən qonşu bölgələrlə əhatə olunmuşdur. Azərbaycanıın özündə isə erkən paleolitdən tutmuş üst paleolitə qədər xeyli abidə vardır. Quzeydə Dərbənd civarında, Balakəndən batıda Qanıx-Qabırrı çayları arasında, quzey-batıda Borçalı, Axıska, Göycə gölü, Qazax bölgələrində, batıda Göycə-İrəvan arasında, Zəngi çayı hövzəsində, Ağrı ovalığı və Ələyəz dağının ətəklərində arxeoloji qazıntılar aparılmış, burada çoxlu paleolit düşərgələri ortaya çıxarılmışdır. Azərbaycanın orta bölgələrində *Azıx, Tağlar, Qazma* (Şərur) və *Buzeyir* (Lənkəran) paleolit abidələri aşkar edilmişdir. Güney Azərbaycanın paleolit dövrü az tədqiq olunduğundan bu sahədə Quzey Azərbaycandakı kimi tam təsəvvür yaranmasa da, hər halda əldə olunmuş bəzi məlumatları ümumiləşdirmək mümkündür. Burada paleolitin aşeləqədər qatına aid abidə hələlik tapılmamışdır,

[35] Kınal, 10-11; Заблоцка, 20; АЗА, 20.

[36] Заблоцка, 22.

[37] АЗА, 22.

[38] Заблоцка, 20; Türkmənistanın güneyindəki Anau abidəsi sonrakı mərhələlərə aiddir. Xəzərin o biri tərəfində (*Yanqaça I-II, Tomçi-su, Kaskır-Bulak, Beq-Arslandaq*) və Amudəryanın sağında qalan *Teşik-taş* kimi paleolit abidələr isə Azərbaycan sınırından uzaqdır (Палеолит СССР, 136).

[39] Палеолит СССР, 45-70.

yalnız Kərkük-Süleymaniyə yolundakı dağlıq yerdə aşel çağına aid *Barda Balka* düşərgəsi vardır. Güney Azərbaycanda paleolit, əsasən, mustye (orta paleolit) çağını əhatə edir və düşərgələr açıq yerlərdə yox, qayaaltı və mağara tipli sığınacaqlardadır. Belə düşərgələr Xəzərin güney-doğusunda (*Ke Aram-1*), Girmanşah civarındakı *Varvasi* qayaaltı abidəsində, Həmədan-Girmanşah yolundakı Bisutun və bura yaxın *Kare-xar* mağaralarında, Luristandakı *Kunci* mağarası və başqa abidələrdə aşkar edilmişdir.[40]

Zaqros dağlarının batı ətəklərində xeyli mustye abidələri qeydə alınmışdır. Mustye çağı insanları Süleymaniyə civarındakı *Xazar-Merd* mağarasında davamlı olaraq yaşamışlar. *Zarzi* mağarası da bura yaxındır. Polyak alimi Y.Zablotska buranı Ön Asiyadakı dörd qədim arxeoloji kultur mərkəzindən biri hesab edir və Urmu gölünün batı tərəfində İraqın quzey dağlıq bölgəsindəki mustye və üst paleolit abidəsi olan *Şanidar*



[40] ИИ, 21 22 Zəqəpi, Soyuqlıq, 20, Aşağı Asıklı, 22-23.

mağarasının yaşını 100 min il əvvələ aid edildiyini yazır.[41]

Şanidar mağarasında 50-40 minil əvvəl yaşayan neandertallara aid yeddi böyük və iki uşaq skeleti tapılmışdır. Burada ilk ölübastırma gələnəyi aydın görünür: «çuxur formalı qəbrin dibindəki gül və cır moruq tozları göstərir ki, onları qəbirə ölünü basdırmadan öncə qoymuşlar. Burada basdırılan şanidarlı neandertallardan biri hələ gənc yaşlarında sağ qolunu itirmiş 50 yaşlı kişidir. Görünür, dişləri iç tərəfdən sürtülmüş bu əlil kollektiv əməkdə iştirak etmək üçün nəyisə gücü çatan qədər dişlərinin köməyilə daşıyırmış».[42] Bu detal göstərir ki, şanidarlılar birgə əmək fəaliyətində əlil yoldaşlarına qayğı ilə yanaşaraq, onları ac qoymamış, öləndə isə ilk «insani» əxlaq nümunəsi göstərib «şərəflə» torpağa gömmüşlər.

Beləliklə, Bütöv Azərbaycanda insan tarixinin paleolit çağını əks etdirən abidələrin coğrafiyası əksər bölgələri əhatə edir. Bu abidələrin ən möhtəşəmi isə Azıx mağarasıdır. Quruçayın sol sahilində ümumi sahəsi 8000 m^2, çöküntünün ümumi qalınlığı isə 14 metr olan və paleolitin əksər mərhələlərini özündə əks etdirən Azıx mağarasının 10 arxeoloji təbəqəsi vardır. Azıx abidəsini açmaqla dünya şöhrəti qazanmış arxeoloq Məmmədəli Hüseynov burada 1960-cı illərdən başladığı tədqiqatı ömrünün axırına qədər otuz il davam etdirdi. O burada qatbaqat qədimə enərək III qatda mustye, V-VI qatda aşel, VII-X qatda isə bir milyon ildən artıq davam etmiş Quruçay kulturunu açdı. Arada IV təbəqədə yaşayış izinin olmaması, görünür, buzlaşma vaxtı adamların mağaranı müvəqqəti tərk etməsi ilə bağlıdır. M. Hüseynov mağaranın V təbəqəsindən 350 minil əvvəl yaşamış gənc bir azıxlı qadının çənə sümüyünü tapdı və bu, elmi kataloq və ensiklopediyalarda «azıxantrop» adı ilə dünya tarixinə düşdü. Şanslı arxeoloq V qatda dünyanın ən qədim ocağını, VI qatda isə daha bir neçə ocaq yeri ortaya çıxartdı.[43]

Azıx mağarasında təbəqələrin ardıcıllığı onu göstərir ki, burada yaşayış davamlı olmuşdur. Belə sürəkli yaşayış Azıxa yaxın ərazidə olan Tağlar mağarasında da görünür; 6 kultur təbəqəsi olan mağaranın mustye çağında 40 minil davamlı yaşayış olmuşdur. Daş alətlərin təkmilləşmə mərhələlərini ən yaxşı əks etdirən bu cür davamlı yaşayış məskənləridir. Əgər ilk Azıx sakinləri kobud biçimli 4-5 kiloluq qəlpələnmiş daşdan

[41] Заблоцка, 20-26.

[42] AZA, 21.

[43] Гусейнов, 1985; Палеолит СССР, 42-71; Cəfərov, 1994; AT, 1998, 60-67.

istifadə edirdilərsə, sonrakı dövrlərdə bu daş alətlərin həcmi get-gedə kiçilir, onların hazırlanma texnologiyası da təkmilləşir. Tağlardakı daş alətlər belə təkmilləşməni və yeni-yeni növlərin ortaya çıxmasını tam əks etdirir və bu baxımdan ***Tağlar*** arxeoloji ədəbiyatda Ön Asiyada əvəzi olmayan bir abidə kimi qeyd olunur.

Paleolit dövründə daş alətlər bitkilərin kökünü eşib çıxarmaqda, müxtəlif heyvan, balıq və quş ovunda, heyvan dərisini soymaqda və sair əmək fəaliyətində istifadə olunmuşdur. Mustye dövründə qəlpələnmiş çaxmaq daşından, «dəvəgözü» adlanan vulkanik şüşədən, ağacdan, iti sümükdən müxtəlif biçimli əl çapacağı, qaşovlar, biz, qarmaq, süngü, iti-ağızlı və itiuclu kəsici silahlar və digər alətlər hazırlanmışdır. Bu çağın sonunda artıq ağac saplaqlı kobud daş baltalar vardı.

Paleolit dövrünün orta və üst çağlarına aid abidələrin əksərində özünü göstərən kül-ocaq qalıqları vardır. Azıx mağarasında tapılmış kül və ocaqlar göstərir ki, buranın sakinləri yarım milyon il bundan əvvəl süni od əldə etməyi və ən önəmlisi, onu saxlamağı öyrənmişdilər. Bəşər tarixində odun kəşfi ən böyük hadisələrdən biri hesab olunur. Od təkcə soyuqdan qorunmaq üçün yox, həm də ocaq qurmaq, ocaqda ət bişirmək, sonrakı çağlarda isə metal əldə etmək üçün imkan verən bir tapıntı idi.

Paleolit dövrü arxeoloji qaynaqlara görə, bütöv Azərbaycan ərazisində böyük tipoloji kultur sahəsi vardır və bu sahə fonunda kiçik lokal qruplar da yaranmışdır.[44] Nəzərə alsaq ki, aşel, mustye və üst paleolit buzlaşma və istiləşmə dövrləri idi, onda bəzi yerdəyişmə olayını təbii saymaq lazım gəlir. Hələ erkən paleolit insanlarının isti iqlim şəraitində Ön Asiya dağlıq hissələrinə qalxması və Güney Qafqazda geniş yayılması buzlaqlar arası çağlarda havaların istiləşməsi ilə bağlı olmuşdur.[45] Bu da lokal kulturlar arasında tipoloji oxşarlıqların ortaya çıxması ilə nəticələnmiş, Arazın sağ və solunda oxşar kulturlar yaranmışdır.

---

[44] Hətta Borçalı-Qazax-Allahverdi rayonlarının kəsişdiyi kiçik bir bölgədə üç lokal tip formalaşıb: *Tsopi* (şarant); *Qədirdərə, Yuxarı Salahlı, Qoçəskər, Daş-Salahlı* (tipik-mustye); *Çaxmaqlı, Gilik* (dişli-mustye). Lakin paralellik daha geniş sahələrdə nəzəri cəlb edir. Arazın hər iki sınırında oxşar aşel və mustye tapıntısına rast gəlinir; tipoloji aşel alətləri İrəvan, Cavaxetiya, Kars və Güney Azərbaycanda özünü göstərir. Luristan, Zaqros mustye kulturu paralell Tağlar kulturuna uyğun gəlir (Палеолит СССР, 65, 69).

[45] Butzer, 1975.

Arxeoloqlar Azıx abidəsinin alt təbəqələrindən tapılan bəsit yöntəmli daş alətlərlə birgə müxtəlif və nəsli kəsilmiş heyvan sümüklərinin qalığı toplusunun yerli xüsusiyətini nəzərə alaraq, bunu Azıx arxeoloji kulturu kimi dəyərləndirmiş, Quruçay vadisində formalaşan bu kulturu ***«Quruçay mədəniyəti»*** adlandırmışlar. Quruçay kulturu dünya arxeoloji abidələri sırasında, bəlkə, ən uzunömürlü olub, davam etdiyi sürəcə isti iqlimlə müşayət olunmuş, 700 min il öncə isə ömrünü başa vurmuşdur. Quruçay kulturu Ön Asiya tarixində əvəzsiz bir mərhələdir.

Azərbaycan 2 milyon ildən bəri insanların fasiləsiz məskunlaşma ərazisi olduğu üçün burada əldə edilmiş erkən, orta və üst paleolit abidələrinin qısa xülasəsi bəzi ümumiləşdirmələr aparmağa imkan verir. Belə ki, burada əksər antropogenez mərhələlərini keçirmiş paleolit insanları bəzi örtülü və açıq düşərgələrdə müəyyən zaman kəsiyində, bəzilərində isə davamlı yaşamış, yeməli bitki, çır meyvə yığımı və müxtəlif heyvan ovu ilə yaşamlarını təmin etmək üçün düzəltdikləri primitiv daş alətləri zaman-zaman təkmilləşdirərək güzəranlarını yaxşılaşdırmış, bu sahədə xeyli irəli getmişlər. Dünyada ilk davamlı yaşayış məskəni və ilk ocaq (*Azıx*, *Tağlar*), ilk qəbir (*Şanidar*) burada aşkar olunmuşdur. İnsan fəaliyətinin mümkün növləri, icma özəyinin ilkin təşkili orta paleolit dövrünə düşür, orta və üst paleolit qovuşuğunda bəsit icma qurumu, bu qurum daxilində ilk vəzifə bölgüləri, ölübasdırma adəti, dəri geyimi, təbiət, ocaq, heyvan və ov kultları, nitq ünsiyəti, primitiv qaya cizgi rəsmləri ortaya çıxır. Ən önəmlisi isə, daş dövrünün bu çağında irq və *Homo sapiens* formalaşmasının başa çatmasıdır. Beləliklə, ilkin daş dövrünü sürü şəklində başlayan bəsit insan artıq bu dövrün sonunda tam formalaşmış insan görkəmini almışdı.

Orta daş dövrü (mezolit)

Azərbaycanda mezolit m.ö. X minildə, yəni 12 minil bundan əvvəl başlanır. Arxeoloji ədəbiyatda mezolit dövrünün başlanma və bitmə tarixi barədə mübahisə hələ davam etməkdədir. Yuxarı qurşaq buzlaqlarının əriməsi ilə mezolit dövründə isti iqlim artımı həm təbiətin, ətraf mühitin, həm də heyvan və bitki çeşidlərinin Azərbaycanda az da olsa, dəyişməsinə səbəb olmuşdur. Mezolit dövründə quş, balıq və heyvan ovu, yığım texnikası xeyli təkmilləşdi; yeni qarmaq tipləri, düzmədişli kəsici və karandaşvari nukleuslar artdı və daş dövrü üçün böyük olay kimi tarixə düşən *yay-ox* və *qayıq* yarandı.

Bəşər tarixində inqilabi mərhələ sayılan ərzaq istehsalı mezolit dövründə baş verdi, hazır məhsulu mənimsəmə ilə yanaşı, məhsul istehsalı forması ortaya çıxdı. Bu dövrdə həm də əkin və maldar təsərrüfatın başlanğıcı qoyuldu. Göründüyü kimi, orta daş dövründə insan əməyində bir sıra mühüm dəyişikliklər ortaya çıxır, ona görə də, bu dövrün arxeologiyasını dərindən öyrənməyə ehtiyac vardır.

Bu dövrün abidələri həm Güney, həm də Quzey Azərbaycanda az öyrənilmişdir, lakin müəyyən təsəvvür yarada biləcək qaynaqlar da əldə oluna bilmişdir. Güney Azərbaycanda mezolit dövrü daha erkən başlayıb. Mellart Zaqrosdakı bəzi mezolit abidələrinin tarixini m.ö. XIII-IX minilə aid edir.[46] Hər hansı bir bölgədə mezolit dövrünün hüdudları çox vaxt müxtəlif elmi ədəbiyatda dolaşıq salınır.[47] Güneydə *Qənc-dərə, Paliqavr* və əvvəlcədən davam edən *Şanidar* düşərgələri, Xəzərin güney yönündə *Əlitəpə, Damdamçeşmə, Qara-Kamarbənd, Cəbəl, Xotu,* Girmanşaha yaxın *Qarasu* düşərgələri vardır. Bu abidələrdə mezolitə aid çeşidli bəzəklər və daş alətlər qeydə alınmışdır. Xəzərin güneyində düşərgə sakinləri müxtəlif ov heyvanları ilə yanaşı, suiti ovlamağı da öyrənmişdilər.

Güney Azərbaycanın batısındakı Şanidar mağarasının mezolit mərhələsi xüsusi əhəmiyət daşıyır. Buranın sakinləri hələ üst paleolit çağlarında (m.ö. XIII-XI minilliklər) yayda çay vadilərinə, Zavi-Çemi-Şanidar sahələrinə enib, iribuynuzlu heyvanlar ovlayırdılar. Onların düşərgələrində, zooloqların qənaətinə görə, qoyuna aid qalıqlar vardır ki, bu da dünyada əhliləşən ilk qoyun izləridir. Artıq mezolit dövründə burada qoyunçuluq təsərrüfatının yaranması doğal idi. Əgər mezolit dövründə ilk əhliləşən keçi izinə Suriya-Anadolu ərazisində rast gəlinirsə, qoyunun da batı Azərbaycanda əhliləşdiyini görürük.[48] Quzey Azərbaycanın quzey-batısında paleolit vaxtından davam edən Avey dağındakı *Damcılı* mağarası və Qarabulaq çayı kənarındakı *Zurtaki* mağarası, mezolitdən başlayaraq orta əsrlərə qədər yaşayış məskəni olmuş Qobustan düşərgələri (*Ana-zağa, Ceyranlar, Kənizə, Qayaarası, Öküzlər, Firuz* və s.) mezolit abidələridir. Bütün bu düşərgələrdə yeni kiçik daş alətlərin meydana çıxması özünü

[46] Mellart, 283.

[47] «Azərbaycan tarixi» (I c.) kitabının müəllifləri yazır ki, «*mezolit dövrü təxminən e.ə. XIII-X minillikləri əhatə edir*», lakin həmin kitabda «*üst paleolitin 35-12 minilliklər arasında mövcud olduğu*» da deyilir (AT, 1998, 69, 80 və 84). Əgər üst paleolit 12 min il əvvəl başa çatıbsa, deməli, mezolit həmin tarixdən başlamalı idi.

[48] Berger - Protsch, 42, 214.

göstərir. Ağac və ya sümükdə açılmış yarığa kiçik daş qəlpə dişlərin düzülməsi ilə hazırlanan kəsici alətlərə mezolit öncəsi tək-tük rast gəlmək olurdusa, artıq mezolit dövründə belə pərçimli düzmədişli alətlər çoxalır. Bu da dənli bitkilərin biçilmə texnikasının artdığını bildirir. Xəzərin güneyi, Zaqros və Qobustan bölgələrində yabanı buğda-arpa bitdiyini arxeoloji bəlgələr aydın göstərir. Zaqros bölgəsi Ön Asiyada m.ö.VIII minillikdən başlanan dörd əsas əkinçilik mərkəzindən birinə çevrilmişdi.[49]

Dənli bitkilərin yığımı artdıqca əkinçiliyə yol açıldısa, ov qaydalarının dəyişməsi də heyvandarlıq üçün təkan verdi. Əvvəllər iri heyvanları qurulmuş bərəyə, tələyə və ya uçurum qırağına doğru qovub vurmaq üçün sürək olayında çoxlu ovçu iştirak edirdisə, artıq yay-ox meydana çıxandan sonra ova az adam lazım olurdu. Düşərgədə qalanlar isə əkinbiçin, heyvandarlıq və sair sahələrlə daha çox məşğul olmaq imkanı əldə edirdi. Belə durum, bir tərəfdən bütün fəaliyətini yemək əldə etmək üstə quran əkinçi-maldarın həyat şəraitini yaxşılaşdırır, digər tərəfdən, silah-yaraq, iş alətləri və geyim-kecim hazırlanması ilə yanaşı, onların mənəvi-estetik yönlü gəlişmələri üçün də şərait yaradırdı. Bu baxımdan, Qobustan abidələri əvəzsiz örnəklər ortaya qoyur.

Qobustanda yaşayış 13-12 minil bundan əvvəl başlayıb.[50] Xəzər sahilində 15 km uzunluğunda böyük ərazini əhatə edən Qobustan kompleks abidələri paleolitin sonundan tutmuş orta əsrlərə qədər davam edən böyük bir arxeoloji kulturdur. Qobustan kulturu qatbaqat öyrənildikcə yeni-yeni bilgi bəlgələri açılır. Bu kultur yaxın bölgədən gəlmiş mezolit insanları tərəfindən yaradılmış, nəsillər əvəzləndikcə burada kultur qatları da dəyişmişdir. Qobustanın mezolit təbəqəsində sümük və daşdan bəzək əşyaları, kiçik daş alətlər, ocaq yerləri və ən önəmlisi, qayaüstü rəsmlər aşkara çıxarılmışdır.[51]

Burada keçi, ceyran, öküz və sairə heyvan şəkilləri ilə yanaşı, o dövrün etnoqrafik-mifoloji durumunu əks etdirən çox qiymətli yallı rəqsi və ov səhnələri, Günəş qayığı kimi nadir rəsmlər vardır. Yazılı təpədə pir üçün qurbanlıq keçi rəsmi kimi əsərlər, Günəş qayığı ilə o biri dünya yolçuluğu təsəvvürü artıq maqik və kosmoqonik düşüncənin yaranmasını göstərir. Yallı rəqsi ilə ritmik musiqi duyumlu qobustanlı insanın digər

[49] Заблоцка, 30; АТ, 1998, 82; АЗА, 24-26.

[50] Рцстямов, 1994, 145.

[51] Cəfərzadə, 1999.

çağdaşlarından nə qədər irəli getməsi aşkar olur. Qobustan abidələrində müqəddəs pir-ocaq yerlərinin çox olması, burada bir neçə tapınaq yerinə mezolit kulturu qatında rast gəlinməsi onu göstərir ki, sonrakı prototürk dilinin gəlişmə çağlarında belə tapınaq yerlərindən biri «Tanrı Dağı» anlamında *Cingir Baba* (Dingir-dağ) adlanmışdır. Sonrakı çağlarda İkiçayarasına gəlib yerləşən sumerlər də öz tanrılarına *Dingir* deyirdilər.

Bu dövrdə Azərbaycan əhalisinin nitqində böyük irəliləyiş vardı. Artıq mezolit insanı *Homo sapiens* mərhələsinə qədəm qoyandan sonra təfəkkürün inkişafı ilə əlaqəli yaranmağa başlamış nitq ünsiyətinin gəlişmə çağını yaşayırdı. Nitq inkişaf etdikcə sistemə düşən dil vahidlərinin quruluşu formalaşırdı. Mezolit çağında prototürk dilinin *monosillabik* (təkhecalı) və müxtəlif semantik yüklü *sinkretik* sözlərində ad və feil kateqoriyaları üzrə ayrılma artıq başlanmışdı, söz dağarcığı omonimlərlə zənginləşirdi.[52]

Bu dövrün icmaları düşərgə ətrafı ərazilərin sahiblərinə çevrilir, icma daxilində soy qurumu möhkəmlənirdi. Artıq qohum və yaxın icmalararası uruq (qəbilə) qurumunun cücərtiləri görünürdü. Ölübasdırma getgedə sistemə düşür, icma üzvləri özünəməxsus silah, bəzək əşyaları ilə birlikdə torpağa gömülürdü. Mezolitin sonuna aid Firuz düşərgəsindəki qəbirdə 11 insan skeleti aşkar edilmiş, bunların içində dolixokefal və brakikefal tiplərin olması müəyyənləşmişdir.[53] Deməli, Qobustan sakinləri arasında qarışma olayı daha qabaqlar gerçəkləşmişdi.

Mezolit çağında istehsal yeni əmək sahələrini ortaya çıxardı. İcma daxilində əkinçi, maldar, ovçu, balıqçı və başqa sənət çeşidləri artdıqca təsərrüfat böyüyür, icmanın parçalanıb bölünməsinə səbəb olurdu. Arxeoloji qaynaqlar göstərir ki, zağa, mağara və qayaaltı sığınacaqla yanaşı, açıq düşərgələrdə qurulan qazma, yarımqazma və komalarda yaşayan insanlar toplumu 30-100 nəfərlik icmalardan ibarətdir. İcmaların artması ilə mağaradan çayqırağı ovalara, dağ ətəklərinə enib yeni ərazi axtarışına

[52] Bu barədə Azər dilinin mənşəyi bölməsində geniş məlumat verildiyndən burada yalnız mezolit çağına qədər yaranmış sait (**V**okal) və samitlərdən (**C**onsonant) ibarət dörd CV, CVC, V, VC heca quruluşu olduğunu və bugünəcən *sıx* (feil) - *sıx* (sifət), *ac* (feil) - *ac* (isim-sifət) kimi leksemlərdə sinkretik əlaməti saxlamış əksər sözlərin müxtəlif nitq hissələrinə aid yük daşıdığını yada salırıq.

[53] AT 1998, 85; *Qəbir, məzar* kimi alınmalarla yanaşı tuva dilində *Bazırıq* adlanan yerdə saqalardan qalma *Pazırıq kurqanı* adındakı ***basırıq*** sözünü işlətməyi faydalı sayıram.

çıxmaq, yeni düşərgələr salmaq mezolit insanlarının yerdəyişmə hərəkətinə bir intensivlik gətirmişdi.

Dünyanın hər yerində mezolit dövrü abidələrin az tapılmasından şikayət edən arxeoloqlar bunun səbəbini həmin dövrdə miqrasiyaların artmasında görürlər. Belə miqrasiyalar müxtəlif bölgələrdə yaranmış kulturların əlaqəsində özünü göstərir. Vaxtaşırı bir bölgədən digərinə sızmalar, yem ehtiyatının tükənməsi və quraqlıqla bağlı münasib düşərgə üçün əlverişli yer axtarışları kiçik miqrasiyalara təkan verirdi. Mezolit boyunca Azərbaycan daxilindəki yerdəyişmələr kultur gələnəyin inteqrasiyasına, müxtəlif bölgələrdə tipoloji paralellərin artmasına, prototürk dil strukturunun sistemə oturmasına səbəb olmuşdur. Maraqlıdır ki, mezolit dövrü Qafqaz (Qaradəniz sahili, İmeret, Trialet və s.) abidələri içində bir neçə lokal kultur mərkəzi seçilir. Azərbaycan sınırlarından kənarda qalan abidələrin arasında sıx əlaqə olduğu halda, Trialet (Borçalı) kulturu onlardan fərqlənir.[54] Burada *Zurtaketi, Barmaqsız* və bu bölgəyə yaxın *Damcılı* düşərgələrində at və qulan ovu Azərbaycanın digər bölgələri ilə uyğunluq təşkil edir. Görünür, etnik-dil fərqi ilə yaranan təbii sınırlar artıq mezolit dövründə xarakterik hal alır. Ümumiyətlə, Azərbaycan sakinlərinin həyatında mezolit dövrü mühüm yeniliklər epoxasıdır. Təkcə Qobustan və Şanidar kulturu orta daş dövrünun şah əsərləridir. Mezolit dövrü öyrənildikcə prototürk etnosunun mənşəyinə işıq tutan bəlgələr qaynağı daha da zənginləşəcəkdir.

Yeni daş dövru (neolit)

Azərbaycanda neolit dövrü m.ö. VIII-VII minillikləri əhatə edir. Bu dövrün arxeoloji abidələri həm Güney, həm də Quzey Azərbaycanda xeyli yayılmışdır.[55] Bu çağın arxeoloji kulturunda daş alətlərin təkmilləşməsi, onların cilalanıb deşilməsi, pardaxlı düzmədiş ağızlı oraq dişlərinin, daş çəkic və cilalı baltaların artması, deşici, iskənə, iynə, biz, burğu və bıçaqların çoxalması xarakterik hal alır. Gil qabların yaranması «saxsı» epoxasının

[54] Мезолит СССР, 103.

[55] Güneydə Urmu yaxasında *Firuztəpə,* Təbrizə yaxın *Yanıqtəpə,* Qəzvindən güneydə Saqzabad yaxınlığında *Təpə-Zağa*, Luristan ətrafında *Təpə-Quran*, *Əbdül-Hüseyn,* Zaqros dağlarında *Carmo, Tell-Şemşar*, Mosulda *Xasun,* Arazdan yuxarıda Naxçıvan, Qarabağ neolit abidələri, *Şuşa* mağarası, *Mingəçevir* düşərgəsinin alt təbəqəsi, Gəncə ətrafında *Gillidağ, Gəncəçay* düşərgəsi neolit çağında davam edən *Damcılı* və Qobustanda bir neçə düşərgə son daş dövrünü əks etdirən arxeoloji qaynaqlardır.

başlandığını xəbər verir. Bunlarla yanaşı istehsal məhsullarının artması, maldarlıq, əkinçilik və toxuculuq sahələrində yüksək irəliləyiş görünür.

Əvvəllər mövcud olan işlərin neolitdə yeni formaları ortaya çıxır. Artıq heyvanın əti ilə bərabər, onun sümüyündən, dərisindən və piyindən geniş istifadə olunur, sümük və buynuzdan alət, bəzək əşyaları, bağırsaqdan bağ, dəridən geyim, çarıq, papaq hazırlanır, piydən boyaqda və alətlərin cilalanmasında, kətan kimi yabanı bitkilərdən toxuculuqda istifadə olunur. Yeni tipli məişət əşyaları sırasına səbət, qab-qacaq, kisə-torba daxil olur, ərzaq saxlanması üçün imkan artır. Bu çağ üçün dəri işləmə, tor hazırlama, paltar tikmə, gil qab düzəltmə yeni sənətlər idi.

Neolit çağının ən önəmli kəşflərindən olan gil qablar *dulusçu* sənətinin ortaya çıxmasına səbəb olmuş, bu da sonralar əl çarxının yaranmasına gətirib çıxarmışdır.[56] Gildən əvvəllər kiçik fiqurlar qayırmada və ocaq qurmada, divar tikmədə suvaq kimi istifadə olunmuş, sonralar ondan su-ərzaq qabları düzəldilmişdir. İlk qablar qarışıq gildən alaçiy bişirilirdi və geniş ağızlı, dibi konusvari olurdu. Girmanşah yaxınlığında m.ö.VIII minilin ortalarından VII minilin əvvəlinə qədərki dövrü əhatə edən *Gəncidərə* abidəsi bu inkişafı aydın əks etdirir. Burada gildən düzəlmiş kiçik insan və heyvan fiqurları, sonrakı qatda qara və qəhvəyi rəngli kiçik kasa və böyük qablar çıxmışdır. Qabarıq kərpic və daşdan qalınlığı 1 *m* olan gillə suvanmış divar aşkar edilmiş, kərpic hörülü damdan qalınlığı 4 *sm* olan böyük bir gil qab tapılmışdır. «Bu gil qab Ön Asiyada ən qədim qablardan biri hesab olunur».[57]

Heyvanların əhliləşməsi mezolit çağında başlansa da, bu proses neolitdə artıb kütləvi hal almışdır. Ev heyvanlarının çoxalması ilk maldar təsərrüfata keçid şəraiti yaratdı. Artıq Azərbaycanın əksər bölgələrində qoyun-keçi və qaramal saxlanması yeni yaşam tərzi ortaya çıxartmışdı. Əkin daha çox oturaq həyat tərzi tələb edirdisə, heyvandarlıq üçün də ətrafda örüş yerlərinin olması lazım idi. Mal-heyvanı qışdan salamat çıxarmaq da böyük zəhmət tələb edirdi. Bütün bu şərtlər daxilində formalaşan təsərrüfat münasibəti icmada qadın əməyini önəmli yerə çıxarmış, əkinbiçin, yığımla məşğul olan, əppək-xörəklə ocaq başına keçən qadın icma üzvləri arasında bərəkət simvoluna çevrilmişdi. Neolit dövründə gildən

[56] Əl çarxını sonrakı eneolit dövründə alt və üst çarxları oxla birləşən və ilk sadə texniki qurğu olan ayaq çarxı əvəz etmişdir. Belə dulusçuluq çarxından indiyə qədər istifadə olunur.

[57] ИИ, 1977, 13.

düzələn kiçik qadın fiqurlarının çoxalması artıq Ana kultunun yaranmasından xəbər verir. Amerikalı arxeoloq R. Breydvud tədqiq etdiyi Carmo kulturunun 10 minil əvvəl başlandığını radiokarbon analizlə müəyyən etdi. Burada «ilk əkinçi toxalarının çıxartdığı səs demək olar ki, gerçək sivilizasiya fundamenti qoyulmasının xəbərini verdi».[58]

Prototürk ocaqlarından biri olan Kərkük bölgəsində palıd meşəli vadidə 15 təbəqəli 7 *m* çöküntü qalığı olan *Carmo kulturu* m.ö. VII minilin ortasında artıq daş bünövrəli, ağac qapılı, çiy kərpicdən tikilmiş evlərə malik idi. Burada 150-200 adamlıq 20-23 yaşayış yerinin olması göstərir ki, qoyun, keçi, onaqr (çöl eşşəyi), it-pişik kimi ev heyvanı saxlayan bu icma oturaq məskən salmışdır. Arxeoloqlar burada kiçik qadın, it-pişik fiqurları, boyaqla çəpinə çəkilmiş cizgiləri olan saxsı qab və mərcimək, arpa qalıqları tapmışlar. Bu kultur təkcə Carmo məskənini deyil, bütöv bölgəni əhatə edir.

Carmo kulturu *Tell-Şimşar*, alp çəmənli *Təpə-Sorab* və onun güneyində (Luristanda) yerləşən Təpə-Quran düşərgələrində, həmçinin batıda Sincar ovasında *Tell-Maqzali* və digər məskənlərdə özünü göstərir. Mosulun güneyində m.ö.5800-cü illərdə formalaşan *Tell-Xasun* əkinçi kulturu cəmi üç əsr sonra naxışlı saxsı qablar istehsal edir və Xalaf kulturunun əsasında durur. Əkin alətləri təkcə Carmo kulturu yayılan məskənlərdə deyil, Azərbaycanın digər bölgələrində də daş toxa, dən daşı, biçin alətləri aşkar edilmişdir. Qobustanda dənli bitkidən istifadə olunmuş, Damcılıda ocaq yeri, naxış-bəzək üçün tünd qırmızı piyli oxra, kiçik daş (mikrolit), ox ucu, enli uzunsov lövhə ilə yanaşı, biçin üçün qurama pərçimli oraqvari alət də tapılmışdır.

Azərbaycanın qonşu bölgələrində də xeyli neolit abidələri vardır. Quzeydə Qafqaz neolit abidələri Qaradəniz sahili, Abxaz və Gürcüstan ərazilərinə düşür.[59] Lakin burada əhali hələ ovçuluq edir, qoyun, keçi, donuz yalnız neolitin sonunda ev heyvanı kimi görünür. Orta Asiyada neolit yerli mezolit kulturu üzərində davam etmiş, yalnız Aşqabadın quzeyində Kopet-daq və Qaraqum arasındakı ensiz zolaqda m.ö.VI minildə məşhur *Ceytun kulturu* yaranmışdır.

Xəzərin güney-doğusunda Azərbaycan oykumeni əkinçiliyi ilə əlaqəsi olan prototürk tayfaları tərəfindən yaranıb inkişaf edən həmin əkin

[58] A3A, 26-29.

[59] Bunlar m.ö. V-IV minillərin abidələridir: *Adler, Kistrik, Odişi* və s.

kulturu sonralar bütöv Orta Asiya üçün örnək oldu. Azərbaycanın güney qonşuluğunda *Deh-Luran* neolit düşərgəsi Xuzistanda, Zaqros kulturu təsiri altında olan *Ali-Koş* neolit məskəni isə İkiçayarasının doğu sınırındadır.[60] Anadolunun neolit abidələri əsasən mərkəzdə, Konya civarında qeydə alınmışdır. Bu kulturu yaradanlar Van ətrafı bölgələrlə sıx əlaqədə olmuşlar.[61] Ancaq son illərdə Şanlı Urfa yaxınlığında aşkar olunan və qazıntıları hələ davam edən dünyanın ən qədim *Göbəklitəpə* tapınağının yaşı 12 minil sayılır ki, bu da tarix elminin meqalit dikilidaşlarla bağlı qəbul olunmuş xronoloji ölçülərinə sığmır.

Ön Asiyanın son daş dövrü abidələrini təhlil edən mütəxəssislər bunları doğu və batı kulturlara ayırır, ox ucluqlarının batıda çox, güneydə az yayıldığını, ilk mərhələdə batıda ağac qabların, doğuda isə daş qabların olduğunu, kiçik geometrik daş alətlərin batıda tez, döğuda gec aradan çıxdığını, batıda saxsı qabların qumlu, dırnaq naxışlı, doğuda isə samanlı, dekorativ boyaq cizgili, naxışlı olduğunu qeyd edirlər. Azərbaycanda neolit kulturun doğu variantının lokal çalarları da yaranmışdır.

Beləliklə, Azərbaycanda paleolit, mezolit və neolit dövrlərinə aid arxeoloji qaynaqlar göstərir ki, antropogenez mərkəzlərindən biri olan bu ölkədə daş dövrü boyunca Quruçay, Şanidar, Qobustan, Carmo və digər kulturlar yaranmış, bu kulturlar arasında əlaqələr olmuş və dünyada ilk *davamlı yaşayış* məskəni, *azıxantrop*, ilk *ocaq*, ilk *saxsı*, ilk *basırıq*, ilk *Günəş qayığı* Azərbaycanda ortaya çıxmış və ilk maldar-əkinçilik mərkəzlərindən biri burada yaranmışdır.

Mis-daş dövrü (eneolit)

Azərbaycanda m.ö.VI-V minillərə aid eneolit dövrü ilk metal əşyaların ortaya çıxması, yaşayış və oturaq həyat üçün zəruri olan evlərin tikilməsi, dulusçuluq, heyvandarlıq və əkinçiliklə yanaşı digər sənətlərin də formalaşıb inkişaf etməsi, yaxın-uzaq bölgələr arasında əlaqələrin artması, pro-

[60] Arxeoloji ədəbiyatda bu düşərgənin birinci mərhələsi *Bas-Mordex* (m.ö.7500-6750), ikinci mərhələsi isə *Ali-Koş* (m.ö.6750-6000) adlanır.

[61] Burada m.ö.VIII minilin ortalarında yaranmış *Asıklıhöyük*, hər məhəllədə bir məbədi və 20-dən artıq əkinçi təsərrüfatı olub m.ö.VII minilin ortalarında formalaşan məşhur *Çatalhöyük* və *Çayönütəpəsi* (m.ö. 7250-6750) neolit məskənləri vardır.

totürk etnosunun formalaşması, prototürk dilinin gəlişməsi kimi mühüm tarixi hadisələrlə xarakterizə olunur.[62] Azərbaycanın əksər bölgələrini əhatə edən eneolit abidələri oxşar arxeoloji kulturla prototürk etnosunun yayıldığı İkiçayarasından ta Orta Asiyanın güney bölgələrinə qədər böyük bir regionda özünü göstərir.

Dağlıq ərazilərdə məhsulun bolluğu və ya qıtlığı hava şəraitindən asılı olurdu. Elə ki, erkən əkinçi-maldarlar münbit çay qırağına endilər, durum sürətlə dəyişdi. Məhsul artımı əkin-biçin və maldarlıqla məşğul olan insanları yeni sivilizasiyanın qapısına gətirdi. Dağlarda ləngiyən inkişaf, çay vadilərində çiçəkləndi. Eneolitdə Dəclə-Fərat, Kür-Araz kimi böyük çayların və onlara qovuşan kiçik çayların hövzələri yaşayış məskəninə, bu çayların adı isə ümumişlək oronimlərə çevrildi.[63] Prototürk uruqlarının boya-başa çatıb yetişmə bölgələrindən olan Dəclənin sol yaxalarına yaxın dağlardan enən erkən əkinçilər çay qırağını vətən saymış, «dağ adamı»ndan (dağlıdan) fərqli olaraq gün-güzərənı çay yaxasında keçən, həyatını suyla bağlayan bu uruqlara «çay adamı» (sub-ər) mənasında ilk prototürk etnonimlərindən biri olan ***subar*** adı verilmişdir.[64]

Axar suların, daşan çayların vadilərindəki asan becərilən və bol məhsul verən münbit torpaqlar əkin üçün yararlı oldu, belə vadi və ovalıqlara yaxın yerlərdəki təpəliklərdə eneolit məskənləri salındı. Belə məskənlərdə ilk dairəvi evlər gilli palçıqdan, çiy kərpicdən tikilirdi və bir-birinə yaxın bu cür dairəvi evlərə xırda təsərrüfat daxmaları bitişirdi. Bəzi yerlərdə dairəvi evlərlə yanaşı, dördkünc tikililər vardı. Bu durum artıq oturaq həyat tərzinə keçid idi və belə yaşayış məskənlərində həyatın min illərlə davam etməsi aparılan arxeoloji qazıntılarda üzə çıxan çoxtəbəqəli kultur qalıqları ilə aydın olur. Yaşayış məskəni bəzən tərk edilsə də, müəyyən müddətdən sonra onun yerində yeni həyat canlanmağa başla-

---

[62] Əslində, azər dilində bu dövrün adı «Bakır çağı» adlanmalıdır, çünki bugün də dilimizdə *pas* anlamında işlənən «*paxır bağlamaq*», «*paxırı açıldı*» kimi ifadələrdəki qədim *bakır* sözü prototürk dilində misdən istifadə olunan ilk dönəmlərdə yaranmışdır.

[63] İkiçayarasında Fəratın sol qolu *Balıq* (Balıx), *İtiqla* (Dəclə), Dəclənin sol qolu *Turna* (Diala), *Sub-Ana* (Subnat), Ninevə civarında *Sulu*, Azərbaycanda *Qızıl-özən*, *Kur* (Kür), *Araz, Arpa, Kasax* və sair çay adlarının prototürk dilində eneolit və tunc çağlarında yaranması barədə sonrakı fəsillərdə bəhs olunacaqdır. (Digər qaynaq: Azər xalqı,136).

[64] Azər xalqı, 136, 154; Qədim yazılı qaynaqlarda adı çəkilən *Aratta* dağlıq ölkəsi Güney Azərbaycanda idi, *Subartu* isə İkiçayarasında subar boylarının yayıldığı Bağdaddan yuxarı ərazilər idi. Aratta və Subartu yazılı qaynaqlarda ən qədim prototürk toponimidir.

mışdır. Dağlıq və dağətəyi yerlərdəki çayqırağı məskənlərə nisbətən aşağı bölgələrdəki vadilərdə yaşayış məskənləri çox inkişaf etmiş, kiçik qəsəbələr bəzi yerlərdə böyüyüb şəhərə çevrilmişdir. İlk şəhər kulturu eneolitin sonunda İkiçayarasının güneyində yaranmağa başladı və bura gələn yeni etnos (sumerlər) şəhərsalma gələnəyini inkişaf etdirdi.

Eneolit boyunca bütöv Azərbaycanda erkən əkinçi-maldar kulturu Borçalı-Qazax, Qarabağ-Şirvan, Mil-Muğan-Naxçıvan, Ağrı-Ələyəz arası vadilər, Urmu hövzəsi, Xəzərin güney bölgələri və Dəclənin sol yaxalarını əhatə edən geniş ərazilərə yayılmışdı. Bu kultur inkişaf edib İkiçayarasının aşağı bölgələrinə də keçmiş və burada daha sürətlə gəlişmişdi. Bütöv bu geniş regionda lokal kultur variantlarının yaranması və təsərrüfatda əldə olunan hər hansı bir yeniliyin ətrafa yayılması təbii idi. Dəclə hövzəsində dalbadal yaranan Xasun, Xalaf, Ubeyd, Uruk lokal kulturlarının geniş yayılması sıx əlaqələr və kiçik köçlərlə gerçəkləşirdi. Eneolit dövründən sonra m.ö. IV minillikdə isə böyük miqrasiyalar başlandı.

Eneolit dövrünün erkən çağında Mosuldan 25 km güneydə hələ neolit çağından yaşayış məskəni olan *Xasun* və *Ninevə* (alt təbəqə), Sincar (*Yarım-təpə* I) və Cəzirə yaylası, Ərbil və yaxın çevrədəki yağmurlu qış suyu hopan, sel daşqınları ilə suvarılan münbit yerlərdə oxşar kultur formalaşırdı.[65] **Xasun kulturu** adlanan bu gəlişmə ilə eyni çağlarda Bağdaddan 120 km quzeydə Dəclə yaxasında *Savan*, onun quzey qonşuluğunda Abbasilər sülaləsinin paytaxtı olmuş *Samara* yaşayış məskənlərində formalaşıb dağətəyi (*Matara, Çoqa-Mami*) bölgələrə, orta Dəclə və Fərat çayına qədər (*Baquz*) yayılan kultur bir az da irəli getmiş, burada ilk süni suvarma üsullarından istifadə olunmuşdur. Qazıntılar burada dörd buğda növü, altıcərgəli mutant arpa, kətan toxumu aşkar etmişdir.[66]

Samara arxeoloji kompleksi çiy kərpic evlər, alt qatda dördayaqlı qablar (*Savana* m.ö.5600), təkmilləşmiş simmetrik cizgili rəsmləri olan boya naxışlı saxsı qablar və irigözlü qadın fiqurları ilə seçilir. Keramika

[65] Burada aparılan qazıntılar kiçik ərazili məskənlərdə dördküncvə dairəvi (*Xasun I-də*) gil evlər, həyətdə dairəvi təndirlər, metal əşyalar, qara-qırmızı cizgilərlə geometrik naxış boyalı qısa boğazlı girdə saxsı qablar, kasa və bardaqlar, daş alətlərin deqradasiyası, xırda və iribuynuzlu ev heyvanı sümükləri, firuzə, əqiq daşlarından muncuqlar ortaya çıxarmışdır. Xasun abidələrində ölülər qəsəbə daxilində, kiçik uşaqlar isə evin döşəməsi altında basdırılırdı. Alt qatı m.ö. 5800-cü illərə aid olan Xasun kulturunda boyalı qablar m.ö.5500-dən görünməyə başlayır.

[66] АЗА, 48; Заблоцка, 47-50.

üzərində əvvəllər kobud cızma, sonralar isə zərif çəkmə naxışlar, tək və dörd heyvan şəkilli dinamik hərəkət kompozisiyası üsulları göstərir ki, samaralılar artıq real varlıqların simmetrik stilizə olunmuş simvollarını verməyi də bacarırdılar. Təsadüfi deyil ki, sonralar sumer kulturu gəlişmiş samara kulturu üzərində quruldu. Samara-Xasun lokal kulturları sinxron planda paralel inkişaf edirdilər. Bu kulturun daşıyıcıları eyni dildə danışan prototürk uruqları idi. Xasun abidəsinin III qatından çıxan samara saxsı qabı bu uruqların yaxın əlaqəsindən xəbər verir. İkiçayarasının lap güneyində Eredu abidələri Xasun kulturunun lokal variantı kimi xarakterizə olunur. Xasun kulturu ilə tipoloji paralellik təkcə orta və aşağı İkiçayarası bölgələrdə deyil, quzey (*Tilkitəpə*) və hətta quzey-batı bölgələrdə də (*Xalaf*) özünü göstərir. Xasun uruqlarının geniş ticarət əlaqələri Anadolunun bəzi bölgələrində boyasız saxsı qablarla yanaşı, boyalı qabların da (*Mersin*) ortaya çıxmasına səbəb olmuşdur.[67]

Xasun kulturunun əhatə dairəsinə düşən İkiçayarasının quzeyində boyasız qabdan boyalı qablara keçidlə bu kultur yeni mərhələyə qədəm qoydu. Əvvəlki gələnəklərin davamı kimi formalaşıb yeniləşən və *Xalaf* adlanan yeni kultur yarandı. Əslində, bu kulturun yaranma impulsu *Arpaçıdan* başlanmışdı, lakin İkiçayarasının quzey-batısında Xalaf qazıntısında ortaya çıxdığı üçün arxeoloji ədəbiyatda belə adlanır. Bu kultur m.ö.VI minilliyin sonunda yaranıb V minillikdə çiçəkləndi və onun təsiri daha geniş ərazilərdə özünü göstərməyə başladı.[68] Xalaf keramikası sarı-narıncı rəngli saxsı üzərində qırmızı-qəhvəyi rənglə çəkilmiş şəkillərlə xarakterikdir. Arpaçı (V-VI qat) abidəsində naxışlar çoxrənglidir. Qab üzərində stilizə edilmədən çəkilən xallı bars, maral, balıq, quş şəkilləri və daha yayğın öküz başı natural kompozisiya ilə verilmişdir.

İkiçayarasında m.ö.VI minil və V minilin ortasına qədər Xasun, Samara, Eredu kulturunda əkinçi-maldarlığın çiçəklənməsi, m.ö.V minilin sonu IV minilin ortalarına qədər isə əkinçilikdə yeni süni suvarmanın gəlişdiyi, arx və kanalların çəkildiyi dövrdür. Burada kanal adları içində bugün əksər türk dillərində işlənən *arıq* «arx», *sub* «su» (*Arax-tu, Zub-i*) sözləri vardır. Artıq bu çağlarda İkiçayarasının yuxarısı ***Subar***, Bağdaddan

---

[67] Kınal, 14; Заблоцка, 41-42.

[68] Mosul-Ərbil civarında - *Xasun, Arpaçı, Yarım-təpə II, Təpə-Qavar* yaranıb Sincar ovalığına, orta Dəcləyə (*Çoqa-Mami*) yayılan bu kulturun izinə Quzeydə Van gölünə yaxın *Tilki-təpə*, batıda Habur çayı hövzəsində *Tel-Barak, Çaqar-Bazar*, Aralıq dənizi tərəfdə *Uqarit III* və doğuda bəzi Azərbaycan abidələrində rast gəlmək olur.

aşağısı isə ***Kiengir*** adlanırdı. Sonralar bura köçən sumerlər də özlərinə ölkənin sakini anlamında Lu-en-Ki-en-gi-r «kəngər adamı» demişlər.

Samara kulturu İkiçayarasının yuxarı bölgələrinə yayıldığı kimi, aşağı bölgələrə də sızır. Buradakı Eredu yaşayış məskəni həmin kulturun təsiri altında olsa da, əslində, onun m.ö.VI-V minilliyin qovuşuğuna aid təbəqələri Xasun kulturunun lokal variantına uyğun gəlirdi. Sonralar burada formalaşmağa başlayan Ubeyd kulturunda (m.ö. 4300-3500) sumerlərin gəlişiylə bəzi dəyişmələr baş verir, ölülər yerli prototürk gələnəyi ilə bükülü deyil, uzadılmış yöndə basdırılır, yanına gildən qayıq fiqurları qoyulur. **Ubeyd kulturu** Kəngər körfəzi yaxasından başlayıb üzüyuxarı Eredu, Uruk, Ur, Kiş bölgələrini bürüyürdü. O zamanlar üçün möhtəşəm sayıla biləcək binalar, məbədlər tikilir, keramikada tısbağa formalı uzunboğaz qablar ortaya çıxır, sonrakı mərhələdə dulus çarxları yaranır, sənət işi yüksəlir, ayrı-ayrı sənətlərlə məşğul olan ustalar artır, zərif zərgər işi kimi silindrik möhürlər hazırlanır, təsərrüfatda əməyin təşkilini əlinə alan böyük tutumlu məbədlər tikilir, sosial təbəqələşmə yaranır, mal-mülk bölgüsü diferensiallaşır, yazı ortaya çıxır və «çar» qəbirləri görünməyə başlayır. Bu cür gəlişmələrin çoxu İkiçayarasının guneyi Sumerdə Ubeyd kulturu üzərində yaranmış *Uruk* (m.ö.IV minilin 2-ci yarısı) və *Cemdet-Nəsr* (m.ö.3000-2800) kulturları çağında görünür.

Sumerlərin simasında bura yeni etnosun gəlməsi yerli uruqların yuxarı çəkilməsinə, bu da yuxarı İkiçayarasında quzey Ubeyd kulturunun ortaya çıxmasına səbəb olmuşdu. Əgər sumer dilində yüzlərlə türk sözü olduğunu nəzərə alıb, prototürk uruqları (*kəngərlər?*) ilə protosumerləri İkiçayarasının güneyində Ubeyd kulturunun yaradıcıları hesab etsək, onda m.ö.V min ilin sonunda quzey Ubeyd kulturunu yuxarıdakı subarların aşağıdan gəlmiş soydaşları ilə birgə ərsəyə gətirdiyini düşünmək olar. Quzey Ubeyd kulturu İkiçayarası bölgələrdən Urmu hövzəsinə də yayılmışdı. Hələ 7 minil bundan əvvəl Urmu yanında (*Hacı Firuz*) erkən əkinçiliklə yanaşı, boya naxışlı qab vardı, m.ö. IV minilin ortasında Urmu gölündən güney-batı bölgələrdə dağətəyi yerlər erkən maldar-əkinçilər tərəfindən məskunlaşmışdı. Burada mis əşya, sümük və daş alətlər, əllə hazırlanmış açıq-qırmızı və sarı-narıncı rəngli keramika üzərində tünd-qəhvəyi naxışlar quzey Ubeyd kulturuna aid idi. Bu kulturun lokal variantı

Urmiya şəhərinə yaxın *Göytəpə* abidəsinin alt və sonrakı «M» qatında görünür.[69]

Urmu hövzəsində eneolit məskənləri çoxalmışdı. Qedar çayı qıyısında *Hasanlu*, Təbrizə yaxın *Yanıqtəpə*, Sulduz ovasında *Püştəlitəpə*, *Dəlmətəpə* erkən əkinçi-maldarların dağdan axarsu yaxalarına enib kərpic evlərdə məskunlaşdığı ərazilərdir. Sadə geometrik ornamentə, torlu üçbucaq və üfiqi dalğalı xətlərlə boyanmış keramikalı *Göytəpə* kimi abidələr də quzey Ubeyd kulturunu əks etdirir.

Eneolit düşərgə-məskənləri Xəzərin güney hövzəsində Elbars dağı ətəklərinə, Damqan, Qurqan, Tehran, Qəzvin, Qum və Kəşan ətrafına, Urmu hövzəsinə yayılmışdı. Hələ neolit dövründə *Carmo* əkinçi-maldar kulturu ilə Girmanşah civarındakı analoji kultur arasında genetik yaxınlıq vardı və bu yaxınlıq eyni etnik uruqların erkən əkinçiliklə bağlı dağətəyi ərazilərə enməsinin nəticəsi idi. Girmanşah bölgəsi insanların qədimdən məskunlaşdığı və minillər ötdükcə məskənlərin çoxaldığı bölgələrdəndi. *Təpə-Sorab*, *Asiab* belə qədim düşərgələrə aiddir. Bu ərazilərdən güneydəki prototürk sınırlarından aşağıda, sonrakı Elam dövlətinin ərazilərində də eneolit məskənləri çoxalmışdı. Xuzistanda, Fars əyalətində m.ö.VI-V minillərdə üç kultur növü bir-birini əvəz etdi. Həmin çağların sonunda Girman bölgəsində məskunlaşma başlandı. Bu çağların sonunda *Bakuntəpədə* (Persepol) boyalı keramika sənəti çiçəklənmişdi. Artıq eneolitin sonunda Fars, Xuzistan, Bəluc bölgələri protoelam və olsun ki, protokassi uruqlarının etnik coğrafi ərazilərinə çevrilmişdi. Sumerdə olduğu kimi, burada da əkinçi-maldar kulturu sivilizasiya mərhələsinə daxil olmuşdu. Bəlucistanda bugün *braqui* boyları dravidköklü dillərini saxladığından, o çağlarda elam-kassi uruqlarının da dravidmənşəli olduğunu düşünmək olar, çünki sonralar prototürk sınırlarından kənarda qalan Xuzistan və Farsda ölülərin uzadılmış şəkildə basdırıldığı görünür.

Kəşan civarındakı Sialk təpəsi m.ö.VI-IV minillər arası yaşam tərzini əks etdirir.[70] Burada gil palçıqlı bəzi evlərin içərisi qırmızı boya ilə boyanmış, həmin boyaqla boyanmış ölüləri yaşayış məskəni daxilində

[69] Güney Azərbaycan eneolit abidələri iki mərhələyə ayrılır. Dulusçu çarxının hələ ortaya çıxmadığı, mis külçəsini əritmədən soyuq döymə ilə işləndiyi *Sialk I, Sialk II, Təpə-Qiyan* abidələri dövrü (m.ö. 5500-3800) və dulusçu çarxının yarandığı, peşələrin ayrıldığı, tökmə metal işlətmə dövrü (m.ö.3800-3300-də *Püştəlitəpə, Göytəpə, Sialk III* və sair abidələr).

[70] Burada yaşayış uzun müddət ara verəndən sonra m.ö.II-I minillərdə yenidən başlayır.

basdırmışlar. *Sialk I*-də mis əşyalar, daş bilərzik, daş alətlər, ən çox üçbucaq naxışlı boyalı saxsı qablar aşkar edilmişdir. *Sialk II*-də soyuq döymə ilə hazırlanmış sancaq, nizə ucluğu, iynə, biz kimi mis əşyalar artır. Diorit, əqiq, firuzə kimi qiymətli daşlardan hazırlanmış muncuqlar içində lazurit mineralının olması göstərir ki, bu qiymətli daşın Bədəxşandan Azərbaycana ötürülməsində bura tranzit məntəqələrdən biri olmuşdur. Orta Asiya-Sialk əlaqələri bu kulturun get-gedə doğu istiqamətdə artımı ilə də görünür, m.ö.V minillikdə Sialk-Türkmənistan arasında səlcuqların paytaxtı olmuş Rey yanında *Çeşmə-Ali*, Damqanda *Təpə-Hisar*, Xəzərin güneyində *Şahtəpə* və Tehran, Qəzvin, Qum civarında eneolit məskənlərinin yayılması buna əsas verir. Azərbaycan-Türkmənistan arasında eneolit dövrün əlaqələrini Qorqandakı böyük *Turəngtəpə* abidəsi aydın göstərir. Burada yaşayış Ceytun kulturu ilə başlanıb Sialk II kulturu ilə davam edir.

Orta Asiyanın güney bölgələrində qeydə alınan eneolit abidələri, əsasən m.ö.VI minillikdə mövcud olmuş *Ceytun kulturu* üzərində formalaşmışdı. Ona görə də, Türkmənistan eneoliti m.ö.V-IV minili əhatə edir.[71] Buranın erkən eneolit abidələri Aşqabad yaxınındakı *Anau (I A)* və *Namazqatəpə I* sayılır, burada boyalı keramika gələnəyi Azərbaycandan gəlmə hesab olunur. Orta Asiya eneolit abidələri ilə Güney Azərbaycan-İkiçayarası abidələri arasında ikitərəfli əlaqə olsa da, «batı kulturunun» doğuya təsiri açıq görünür, m.ö.IV minilin ortalarından abidələrin sinxron qatları arasındakı oxşarlıqların artması başlanır.[72]

Artıq m.ö. IV minilin ortalarında İkiçayarası əhalisi içindən Azərbaycana, buradan da Türkmənistana olan miqrasiya nəticəsində arxeoloji kulturda oxşar cəhətlər görünməyə başlanmışdı.[73] Buradakı *Moncuqlu-*

---

[71] Енеолит СССР, 14.

[72] R.Daysona görə, Sialk III, 5-7 kompleksi m.ö. 3500-3000, Sialk IV isə m.ö. 3000-ci illərdən başlanır (Dyson, 225-237).

[73] *Namazqa III* erkən eneolit abidəsinin Azərbaycandakı *Sialk III*, 4-7 ilə sinxron olduğunu nəzərə alan V. M. Masson arxeoloqların batıdan doğuya «təsir» edən İkiçayarası lokal eneolit kulturların «hərəkətində gecikmə effekti» gördüyünü təsdiq edir (Массон 1964, 224);

Anau I təbəqəsindən çıxan skeletlərin tədqiqi göstərir ki, burada əvvəlki dövrdəki kimi Azərbaycan əhalisindən fərqlənməyən doğu Aralıq-dənizi avropoid tipi ilə yanaşı, dravidoid tip də vardır və onun burada üzə çıxması güneydən də (Elamdan?) gəlmələr olduğunu bildirir (Энеолит СССР, 20).

[74] Сарианиди 1970, 24.

təpə məskənində Sialk və hətta Xasun kulturunun izləri vardır.[74] Quzey Azərbaycanın yuxarı sərhədləri dışında qalan ərazilərdə eneolit düşərgələri barmaqla sayılası qədər azdır. Halbuki, Güney Qafqazda 150-dən artıq eneolit məskəni aşkar edilib.[75] Bunların əksəri də Azərbaycanın tarixi-coğrafi sınırları içindədir və hələlik onların yalnız bir qismi tam tədqiq edilmişdir. Bu abidələrin öyrənilməsi Ön Asiyada formalaşan prototürk etnosunun və protoazər uruqlarının tarixi coğrafiyası barədə tutarlı bəlgələr ortaya çıxarır. Daha çox Kür-Araz vadilərində, Marneuli-Qazax, Zakatala-Şəki, Mil-Muğan, Dərbənd-Şirvan, Qarabağ-Naxçıvan-İrəvan və Güney Azərbaycan bölgələrində yayılan eneolit kulturu üzərində sonra tunc dövrünün möhtəşəm Kür-Araz kulturu formalaşmışdır.

Quzey Azərbaycan eneolit kulturunun təsiri sonralar Dağıstana və Qafqazın yuxarı bölgələrinə, indi çeçen-inquş, qaraçay-balkar xalqlarının yaşadığı ərazilərə də yayılırdı. Qərbi Azərbaycan sınırlarına qonşu bölgə və ərazilər yuxarı İkiçayarası kulturu dairəsində idi. Van gölü yanında *Tilkitəpə* abidəsinin alt qatındakı boyalı, pardaxlı keramika Xalaf kulturu ilə, eneolitin sonuna aid qatındakı üstü dalğalı boya naxışlı qırmızı qablar da Urmu abidələri (*Göytəpə*) ilə eynidir. Belə qablar Muş ovasında da tapılmışdır. Ərzurum yaxınlığındakı qara keramikalı *Karaz-höyük* abidəsi bir az fərqlidir. Orta Anadoludan batıda olan bölgələr tamam ayrı kultura sahibdir. Burada bəzi abidələrdə Xasun, Xalaf, Ubeyd kulturuna aid zəif izlər görünsə də, bu genetik yaxınlığın yox, mal dəyişmənin, alış-verişin nəticəsi ola bilər. Orta Anadoluda isə bu əlaqələr daha sıx olmuşdur. Tunc çağında hat və prototürk dil paralelləri bu əlaqələrin artmasını göstərir.

Quzey Azərbaycanda tədqiq olunmuş eneolit abidələri axarsu qıraqlarında salınmış yaşayış məskənləridir.[76] Erkən əkinçi-maldar olan məs-

[75] AT, 1998, 94; Araqvi çayı hövzəsində bir neçə abidə, Tbilisi civarında, Qara-dəniz kənarı Abxaziyada *Maçar, Quad İxu,* və Nalçik qədim qəbiri, Dağıstanın dağlıq bölgəsində Qinçi çayı kənarında *Qinçi* düşərgəsi kimi bir neçə eneolit abidələri qeydə alınmışdır (Энеолит СССР, 100-137).

[76] Quzey-batı eneolit məskənləri Kür çayına qovuşan Alget, Xram, Debet, Tovuz, Akstafa, Şəmkir və sair çayların kənarında salınmışdır. Kür çayı hövzəsi *Arıxlu, Şulaveri, İmiri, Qaçağan, Danqreuli, Gidaçrili, Şomutəpə, Baba-Dərviş, Qarğalartəpə, Rustəpə, Töyrətəpə, Keçili* və sair məskənləri əhatə edir. Mil-Qarabağ zonasında *Leylatəpə, İlanlıtəpə, Çalağantəpə, Xantəpə, Günəştəpə, Kültəpə, Qaraköpəktəpə, Kamiltəpə, Şahtəpə, Rəsultəpə,* Muğanda *Əliköməktəpə, Qurudərə I, Mişarçay,* Naxçıvanda *Kültəpə,* Araz yaxası Ağrı vadilərində *İqdır, Maştos, Şenqavit, Texut, Adablur (Adatəpə), Xatunarx* və digər abidələr vardır. Bu abidələr görkəmli arxeoloqlar *O. H. Həbibullayev, A. A. İessen,*

kunlar bu yeni yaşam tərzini yaratmaqla çox irəli getdilər. Belə ki, həm əkinçilikdə, maldarlıqda, həm də ev tikmə və sənətkarlıqda yeni mərhələ üfüqü açıldı. Eneolit əkinçiləri artıq mədəni taxılçılıq yolunu tapmışdılar, onlar yumşaq və bərk buğda, iki və çoxcərgəli arpa, çovdar, noxud, mərcimək və hətta üzüm də (*Şomutəpə*) yetişdirə bilirdilər.[77] İlk vaxtlar dəmyə əkinçiliyə üstünlük verən insanlar sonra süni suvarma ilə məhsul artımını gerçəkləşdirə bildilər. Sumerdə kanallar çəkildiyi kimi, burada da kiçik kanallardan istifadə olunurdu. Belə arx və kanal yerləri Borçalı elində *Arıxlu,* Mil düzündə *Şahtəpə* və İrəvan çuxurunda aşkar edilmişdir.[78]

Bu çağın əkinçiləri hələ xışdan istifadə etməyi öyrənməmişdilər, əkin yerini iri heyvan sümükləri və maral buynuzundan qayırdıqları toxa ilə becərirdilər. Biçində sümük və iti daş qəlpələrindən düzmədiş-yığma oraqdan istifadə edir, yığılan məhsulu daş həvəng, daş dəstə, dən daşı və sürtgəc alətləri ilə emal edir, böyük saxsı qablara, küplərə yığırdılar. Taxılçılıqda işlənən belə məişət əşyalarına az-çox tipoloji fərqlərlə əksər eneolit abidələrdə rast gəlmək olur.

Əkinçiliklə yanaşı, hələ ev ətrafı otlaqlarla keçinən maldarlıq da inkişaf edir, cins heyvan çeşidləri artırdı. Quş, balıq, ceyran və digər çöl heyvanlarını ovlayıb ətindən istifadə etdikləri kimi, evdə bəslənən davar və qaramaldan da əsasən ətlik heyvan kimi istifadə olunurdu (hər halda, eneolit çağına aid abidələrdə süd məhsullarına işıq tutası bəlgələr hələlik yoxdur). Lakin bu dövrdə iribuynuzlu heyvanların çoxalması, bəzi qoyun, öküz, digər ev heyvanı içində çeşidli cinslərin yaranmasına aid bəlgələr vardır. Ən önəmlisi isə atın əhliləşdirilməsi və bu olayın məhz ilk dəfə Muğan bölgəsində (*Əlikömək təpə*) gerçəkləşməsidir. Burada iki at cinsinə aid sümüklərin tapılması arxeologiyanın böyük uğuru idi, «bu, nəinki Qafqaz, hətta bütün Avrasiyada ev atı haqqında ən qədim məlumatdır».[79]

Eneolit çağının şah əsəri, əlbəttə, metaldır. İlk metal kimi misdən istifadə olunmuşdur. Əvvəllər mis külçəsindən soyuq döymə ilə bıçaq, biz kimi kəsici, deşici alətlər qayırılırdı. Sonralar metal əritmə üsulu ilə daha mükəmməl alət və bilərzik, sırğa, üzük, sancaq kimi bəzək əşyaları hazırlamaq mümkün oldu. Artıq metaltökmə qəlibləri ortaya çıxmağa baş-

---

M. M. Hüseynov, İ. H. Nərimanov, F. R. Mahmudov, Q. S. İsmayılov, A. İ. Cavaxişvili, T. V. Kiquradze, R. M. Torosyan və başqaları tərəfindən tədqiq edilib öyrənilmişdir.

[77] Энеолит СССР, 133.

[78] Eyni qaynaq, 132-133.

[79] Энеолит СССР, 135; AT, 1998, 97.

ladı. Metal işi filiz yataqları ilə reallaşa bilərdi. Belə yataqlar isə Xorasan, Qaradağ, Qafan, Daşkəsən, Gədəbəy bölgələrində vardı. Ancaq ilk metal əşyalar bu ərazilərdə yox, Anadoluda m.ö.VII-VI minillərin qovuşuğunda, İkiçayarasında VI, Misirdə V minillərdə görünməyə başladı. Bəzi müəlliflər Quzey Azərbaycanda metal əşyaların birdən peyda olmasını, mis emalının hazır şəkildə ortaya çıxması kimi, yəni Kiçik və ya Ön Asiyadan bura miqrasiya edən uruqların hazır texnologiya ilə gəldiklərini iddia edirlər.[80] Lakin həm Güney (*Sialk I*), həm də Quzey Azərbaycanda (*Kültəpə I, Texut*) eneolit abidələrin alt qatında mis əşyalar m.ö.VI minildə tək-tük də olsa, vardı. O çağın texniki proqresi sayılan metal əritmə texnologiyasının sürətlə yayılması təbii idi. Azərbaycan mis ölkəsi, metal ticarəti regionu olduğundan bu texnologiyanı tez mənimsəyə bilərdi. Buna yüksək istilik əldə edən dulusçu kürələrini qurma təcrübəsi də imkan verirdi. Azərbaycanda filiz yataqları bol idi, barter ticarəti qurmağa və bununla geniş əlaqələr yaradıb tranzit yollara nəzarət etməyə də imkan açılmışdı.

Eneolitdə insanların eyni məskəndə davamlı oturaq həyat tərzinə keçməsi yaşayış evlərinin tikilməsi ilə nəticələndi. Belə evlər adətən çiy kərpic və gildən düzbucaqlı və ya dairəvi planda tikilirdi. Bəzi evlər daş bünövrə üzərində, bəziləri içi suvanıb boyanmış şəkildə olurdu. Köməkçi təsərrüfat daxmaları bu evlərə bitişdirilirdi. Bir-birinə yaxın ərazilərdə yaşayan uruqların tikinti planı üst-üstə düşür, bəzən də fərqlənirdi. Hətta Naxçıvanda Kültəpə abidəsinin ayrı-ayrı qatlarında düzbucaq və dairəvi tikililər bir-birini əvəz etmişdir. Lakin Borçalıdan tutmuş İkiçayarasına qədər dairəvi evtikmə gələnəyinin uzun müddət davam etdiyini sezmək olur. Görünür, düzbucaq evlərin inşasında iki sıralı kərpic hörgü çox material tələb etdiyi üçün yuxarısı



VI-IV minillərə aid Qarabağda *İlanlı-təpə*, Qazaxda *Şomu-təpə*, Göycə gölünün güneyində *Basar-keçər* və Naxçıvanda *Kül-təpə* abidələri. (Prof. D. Axundovun rekonstruksiya eskizləri)

[80] Авдусин 1977, 76.

konusvari baca ilə bitən dairəvi evlərə daha çox üstünlük verilmişdir.

Bu dövrdə toxuculuq sahəsində də inkişaf olmuşdur. Artıq hər evdə iylərin olması əyiricilik, toxuculuq sənətinin geniş yayılmasından xəbər verir, bu da eneolit insanların geyim kulturuna yiyələndiyini açıq göstərir. Toxuculuqla yanaşı dulusçuluq da inkişaf edir və xüsusi sənətə çevrilirdi. Ayrıca dulusçu emalatxanası qalığının və saxsı qabların bişdiyi kürələrin tapılması bu sənətin də geniş yayıldığını göstərir. Azərbaycanın hər yerində dulusçu çarxı ilə hazırlanmış qab üzə çıxmışdır. Keramik qabların böyük ustalıqla hazırlanması, boyalı naxışlarla bəzənməsi geniş yayılmışdı. Kür çayı hövzəsində bəsit, Araz çayı hövzəsində sarı rəngli, bəzən rəsmli təkmil, Dəclə qıyılarında isə mükəmməl naxışlı, bəzəkli saxsı qablar istehsal olunurdu. Güney Azərbaycanda m.ö. V-IV minilin ortasına aid keramika üzərindəki boyalı naxış cizgiləri, bəzək çeşidləri artır, insan və heyvan şəkillərində real görkəm stilizə olunur, tətbiqi incəsənət nümunələri ortaya çıxırdı. Keramika üzərində (*Sialk III*) yallı tutanların yanlarını bir tərəfə burcutma ilə eyni durumda çəkilməsi, buradakı dinamikanın diriliyi insanı valeh edir. Qobustan-Sialk yallı rəsmlərini sənət tarixinin şedevri saya bilərik. Bu dövrdə dulusçuluqla paralel gil, daş və misdən kiçik plastik heyvan (quş, bars, keçi, ilan və s.) fiqurları və möhür-damğa qayırmaq dəbə düşmüşdü. Sənətkarlıq artıq xüsusi peşələr üzrə ayrılma mərhələsinə çatmışdı.

Eneolit dövrü abidələri artıq ölübasdırma gələnəyinin formalaşdığını, *basırıq* kulturunun etnik göstəriciyə çevrildiyini əks etdirir. Kür yaxalarında əsasən qəsəbə kənarında, güney bölgələrdə isə qəsəbə daxilində özünü göstərən basırıqlarda ölüləri adətən tək, bəzən kollektiv basdırmışlar. Bir çox hallarda uşaqlar evlərin döşəməsi altında həsirə bükülü və ya qabın içində dəfn edilmişdir. Basırıqda bükülü şəkildə tapılan skeletlərin yanında məişət və ölənin şəxsi əşyaları vardır. Kültəpə I təbəqəsində ölünün başına yaxın kasa qoyulmuşdur. Bu örnək sonrakı türk toplumu içində yayılmış basırıq kulturunun əlamətlərindən biri kimi diqqəti çəkir. Nəzərdən keçirdiyimiz bəlli çoğrafi ərazidə əksər eneolit abidələri ölü üzərinə qırmızı oxra səpilməsinin, onun boyanmasının artıq bir atributa çevrildiyini göstərir. Eneolit abidələri prototürk sınırlarında, xüsusilə güneydə ölülərin bükülü deyil, uzadılmış şəkildə basdırıldığını göstərir ki, bu da artıq həmin ərazilərdə prototürk etnosundan fərqlənən protosumer, protokassi, protoelam uruqlarının varlığını ortaya qoyur.

Eneolit dövründə Dərbənd, Borçalı, Van, Mosul, Bağdad, Kəşan, Xorasan, Aşqabad boyunca keçən sınırlar içində yaranmış bütöv eneolit kulturu və onun lokal variantları arasında əlaqələr olmuşdur. Ona görə də Urmu ətrafına sızan erkən əkinçilərin İkiçayarasının quzey bölgələrindən gəlməsi ehtimalı da böyükdür. Güney və Quzey Azərbaycana Ubeyd kulturunun təsiri m.ö. IV minilin ortalarına yaxın artmışdır.

Xasun-Samara-Ubeyd arxeoloji kulturunu müqayisəli təhlil edən tarixçi Y. Zablotska Uruk kulturuna qədər İkiçayarası və Azərbaycan (İran) əhalisini qohum tayfalar sayır. Analoji eneolit kulturunu daşıyan Güney və Quzey Azərbaycan öz əmək alətləri, tikililəri, keramikası ilə Ön Asiya, xüsusilə yuxarı İkiçayarası erkən əkinçilik kulturu ilə yaxınlıq təşkil edir.[81] Kulturdaxili təmas və əlaqələr Sialk III ilə Təpə-Hisar arasında olduğu kimi, digər lokal kulturlarda da özünü göstərir. Lokal kulturlar arası əlaqələr isə həm yaxın, həm də uzaq məsafələr arasında görünür. İki boğazlı qablar, boğazlarında üfüqi gözlər olan küpələr, dulusçuluq kürələri, dulus məmulatı, memarlıq formaları ilə qonşu abidələrdən fərqlənib, lakin həmin əlamətlərlə Yarımtəpə III arxeoloji kulturunu təkrar edən Leylatəpə abidəsində paralelliyi müşahidə edən Azərbaycan arxeoloqları bundan doğru nəticə çıxarırlar: «Belə vəziyət isə eramızdan əvvəl IV minilliyin birinci yarısında Qarabağ düzənliyində bina salmış qəbilələrin Mesopotamiyadan köçməsinə şübhə yeri qoymur».[82]

Kiçik yerdəyişmə, köç, barter dəyiş-düyüşü formalarında gerçəkləşən əlaqə-təmaslar m.ö. IV minilliyin ortalarına doğru intensivləşərək böyük miqrasiyalarla nəticələnmişdir. Bu miqrasiyalar iqlim dəyişməsilə bağlıdır, çünki ilk minillikləri rütubətli iqlimlə keçən eneolitdə meşələrin artması nəticəsində yaranmış münbit əkin yerləri, mal-heyvan üçün məskənətrafı otlaqlar maldar-əkinçilərə bəs edirdi, lakin eneolitin son minilliyi ortalarında yaranmış quraqlıq böyük köçlərə səbəb oldu. Quraqlıqla bağlı Quzey Azərbaycanda bir sıra eneolit məskənlərinin boşalması, yaşayış yerlərinin tərk edilməsi arxeoloji ədəbiyatda qeyd olunmuşdur.[83]

Eneolit çağında davamlı oturaq yaşam tərzi icma qurumunda bəzi önəmli dəyişmələrə səbəb oldu. Əmək bölgüsü yarandı. Tikilən yaşayış yerinin daxili tutumuna görə bir ailəli evlər olması göstərir ki, ər-arvad

[81] Абибуллаев, 37; Мартынов, 83; АЗА, 106; Заблоцка, 66; Энеолит СССР, 127.
[82] AT, 1998, 100.
[83] Eyni qaynaq, 94.

qoşa nigahı artıq formalaşmışdı. Arakəsmələr, yardımçı tikililər məhsulun ocaqlar (ailələr) üzrə adambaşına görə bölünməsini bildirir. Basırıqlarda varlı-kasıb fərqi sezilmir. İcma üzvləri ilə icma başçısı arasında elə bir fərq hiss olunmur. Yalnız bərəkət rəmzi qutsal Qadın fiqurları Qobustan qaya rəsmləri sırasında və basırıqlar içində görünür. İcma qurumu özünün əsl «komunizm» dövrünü yaşayır. Basırıq içinə qoyulan əşyalar yaşamın o biri dünyada davam etməsinə inam kultunun yayıldığını büruzə verir. Ümumiyətlə, erkən əkinçi-maldar uruqların astral, təbii olaylar, totemlər üzrə çoxlu kultları yaranmışdı.

Prototürk dialektlərində danışan uruqlar m.ö.VI minillikdə Orta Asiyadan İkiçayarasına, Dərbənd-Borçalıdan Xuzistana qədər yayılan oxşar erkən əkinçi-maldar arxeoloji kulturun daşıyıcıları idi. Bu kulturun lokal çeşidləri kimi, erkən protodilin də lokal dialektləri formalaşmışdı. Eneolitin orta (V minil) çağında bölgələrarası əlaqə-təmaslar artdıqca bir neçə dialektarası koyne üzərində təmərküzləşən dialektlərin sayı azaldı, daha sonra lokal koynelərarası əlaqələr genişləndikcə prototürk dili öz zirvəsinə çatdı.

Sonra gələn m.ö. IV minillik böyük miqrasiya dövrünə düşdüyündən prototürk dili iki böyük qola parçalandı. Azərbaycanda qalan uruqlarda prototürk dilinin batı qanadı, Orta Asiya və oradan daha doğuya gedən uruqlarda bu dilin doğu qanadı formalaşdı. Sonralar doğuya belə böyük axın bir də m.ö. II minilin ortalarında təkrar olundu. İndi Aralıq dənizindən Uzaq Doğuya qədər yayılmış türk dilləri arasında sonrakı qarşılıqlı alınmalar istisna olmaqla, nə qədər ortaq söz və şəkilçi varsa, onların əksəri prototürk dövründən qalmışdır. [84]

Prototürk dili dağılandan sonra qədim Azərbaycanın bəlli sınırları daxilində qalanlar şərti olaraq *protoazər* uruqları sayıla bilər və bundan sonrakı dövrlərdən danışarkən protoazər adı altında batı prototürkləri,

[84] Ubeyd kulturunun gəlişmə çağında İkiçayarasına gələn sumerlərin dilindəki prototürk alınmaları sırasında məhz o çağın yaşamı ilə bağlı yeni yaranmış sözləri görmək olur: toxuculuqla bağlı *tuku* «toxumaq», ev tikmədə qapı ilə bağlı *qeşik* «eşik», əkinçiliklə bağlı *aka-* «əkmək», *agar* «sulanan əkin yeri», metalla bağlı *tibira* «metal», *bal* «balta», dulusçuluqla bağlı *kab-kagag* «qab-qacaq» sözləri bunu aydın əks etdirir.

Buradan doğuya gedənlər də özləriylə buranın yer-yurd, çay-dağ adlarını (*Samara, İtiqla-İtil, Subar-Sibir, Balıq* və b.), eneolit çağında ümumişlək sözə çevrilmiş əkinçi-maldarlıq terminlərini və sair sözləri aparmışlar. Ən ucqar doğuda yaşayan saxalar (yakutlar) *bıs*-«biç-», *oğus tiriitə* «öküz dərisi», *ınax* «inək», *altan* «mis», *kıhıl-kömüs* «qızıl-gümüş», *timir* «dəmir» kimi o çağın sözlərini hələ də işlədirlər.

doğu miqrasiyalarına qoşulanları isə doğu prototürkləri kimi ayırmaq lazım gəlir.

Beləliklə, eneolitin sonunda bəlli tarixi-coğrafi sınır içində proto-azər boylarının kökündə dayanan uruqlar güney sınırında protokassi-proto-elam və güney-batı sınırında protosumer, quzey sınırında protoqafqaz, doğuda isə digər protoürk soydaşları tərəfindən çevrəyə alınmışdı. Bu tarixi etnolinqvistik coğrafi durumla dilini gəlişdirmiş, tikintiyə öyrəşmiş, dulusçu, toxucu sənətinə yiyələnmiş, metalı mənimsəmiş əkinçi-maldar prototürk uruqları tunc dövrünə qədəm qoydu.

Tunc dövrü

Azərbaycanda bu dövrün hüdudları m.ö. IV minilin ortalarından m.ö. II-I minillərin qovuşuğuna qədər davam edir, lakin tunc kulturuna aid bir sıra xüsusiyətlər bəzi bölgələrdə daha əvvəllərə aid ola bilər. Tunc dövrünün III minilin son rübünə qədər davam edən *erkən çağı* arxeoloji ədəbiyatda ***Kür-Araz kulturu*** adlanır, bundan sonrakı II minilin ortasına qədərki dövr *orta çağ*, bu minilliyin ikinci yarısı isə *son çağ* hesab olunur. Tunc dövründə metal işləmə, əkinçilik, maldarlıq, tikinti və digər sənət sahələrində irəliləyiş olmuş, dəvəçilik, atçılıq kimi yeni sahələr ortaya çıxmışdır. Bu çağda kurqan kulturu yaranmış, təkər-araba icad edilmiş, ibtidai icma quruluşu dağılmış, prototürk uruqlarının birləşməsilə boylar yaranmış və dövlət qurumları formalaşmışdır.

Azərbaycanda IV minilliyin ortalarından formalaşmağa başlayan Kür-Araz kulturu III minilliyə ərsəyə çatmış şəkildə daxil olub, onun son rübünə qədər davam etdi. O.H.Həbibullayevə görə, yerli eneolit kulturu üzərində yaranan bu kulturun ilkin özəyi Arazın orta hövzəsi olmuş, ətraf bölgələrə buradan yayılmışdır.[85] Bu kultur Urmu-Van və Kür-Araz höv-

[85] Абибуллаев,190-195; Kınal, 29; ИДВ, 1988, 36-37; Doğrudur, bir çox arxeoloq və tarixçilər Anadolu-Fələstin bölgələrində bu kulturun görünməsini Qafqazdan gələn köçlə əlaqələndirmiş, Leonard Vulley isə bu köçü Qafqazdan Anadoluya gələn hetlərlə bağlamaq istəmişdir (Woolley, 32-35), lakin bu fikirlərlə razılaşmaq çətindir, çünki göstərilən bölgələrə Kür-Araz kulturunu daşıyan Van civarındakı batı prototürklər idi. Hetlər Anadoluya Qafqazdan deyil, batıdan gəlmişlər, ikincisi də, Ərzurum civarına və Fələstinə bu kulturu daşıyan uruqlar Qafqazdan deyil, Van gölünün güneyindən çıxanlar idi, çünki bu çağlarda sami uruqları İkiçayarasının quzey bölgələrinə gəlib, buradakı subar boylarını batı və quzey yönlərə çəkilməyə məcbur etmişlər. Bu yerdəyişmə yazılı qaynaqların da mövcud olduğu zamanda gerçəkləşdiyi üçün əlavə

zələrindən Dağıstan və Quzey Qafqaz bölgələrinə, hətta III minilin ortalarından sonra Orta Anadolu və Fələstinə qədər gedib çıxmışdır. Ərzurum bölgəsində *Karazhöyük* keramiki əllə yapılmış, qabartma spiralvari naxış, şəkil və texnoloji baxımdan Fələstindəki *Kirbet-kerak* kulturu ilə eyni olub Kür-Araz kulturunu bir əsr (2300-2200) davam etdirən lokal variantlardan biridir.

Kür-Araz kulturu m.ö. III minilin ortalarında Qafqaz dağlarını aşan uruqlarla Quzey Qafqazda da yayılır. Həmin minilliyin ikinci yarısında burada yaranan *Maykop kulturu* yerli gələnəklə yanaşı, bir sıra əlamətlərinə görə Güney Qafqaz arxeoloji abidələrini təkrar edir.[86] Əgər Anadoluda hat dilində batı prototürk uruqlarının dilindən alınma *kut* «ruh» kimi onlarla söz ortaya çıxırsa, analoji durum Qafqazın quzeyində prototürk-protoqafqaz əlaqələri ilə gerçəkləşir. Orta Anadolu və Quzey Qafqaza prototürk (protoazər) dilinin ilk örnəyini Kür-Araz kultur dairəsində olan uruqların apardığı anlaşılır. Sonrakı çağlarda həmin bölgələrə belə köçlər protoazər boyları tərəfindən dəfələrlə təkrar olunmuşdur.

Bugünki coğrafi adları ilə desək, Kür-Araz hövzələri ətrafında Dağıstanın mərkəz bölgəsindən tutmuş Güney Gürcüstan, Yuxarı Fərat-Muradsu vadiləri, Van-Urmu-Xəzər yaxaları boyunca əhatəyə alınan bir çevrə daxilində yayılmış Kür-Araz kulturunu yaradıb inkişaf etdirən prototürk uruqları güney qonşuluqda yaranan Sumer-Elam dövlətləri qədər monumental tikinti, dərin sosial təbəqələşmə, yazı gələnəyi sahələrində inkişaf etməsə də, metalişləmə və heyvandarlıq sahəsində xeyli irəli gedə bilmişdilər. Metallurgiyanın inkişafı ilə xarakterik olan tunc dövründə gümüş, qızıl, mis və tuncdan müxtəlif əşyalar hazırlanırdı. Misə nisbətən aşağı temperaturla əldə olunan tunc daha möhkəm idi, tuncdan hazırlanan nizə, xəncər kimi silahlar misdən bərk olduğu üçün analoji mis-daş silahlar azaldı, davamlı əmək alətləri və bəzək əşyaları getdikcə çoxaldı. Metalişləmənin tunc mərhələsi soba və kürələrin təkmilləşməsinə, sonralar qəlibtökmə texnikasının yaranmasına gətirib çıxartdı.[87]

---

mübahisəyə ehtiyac qalmır, çünki akad mətnləri sami tayfaların yuxarı İkiçayarasına məhz həmin dövrdə gəlməsini ortaya qoyur.

[86] Авдусин, 96.

[87] Daşdan çoxişlənən, gil və mumdan isə birdəfəlik qəliblər hazırlanırdı. Lazım olan alətin fiquru mumdan hazırlanır, üzərinə duru gil tökülür, gil suvaq qalın qata çatanda deşik açılır və odda qızdırılan bu nəsnənin mumu əriyib tökülür, bərkimiş gil qəlibinin

Misə mərgümüş, sürmə, arsen, sink, nikel və qalay ərintiləri qatmaqla yeni keyfiyətli tunc metalın əldə olunması o dövrün böyük uğuru idi, lakin belə ərinti verən filiz mədənləri çox vaxt ayrı-ayrı bölgələrdə olur; birindən mis, digərindən misə qatılan bu və ya digər filiz çıxır. Ona görə də metalişləmə həm bölgə, həm də ölkələrarası əlaqələrin genişlənməsinə səbəb olurdu.Tunc əldə etmək üçün ən uzaq ölkələrdən gətirilən qalay istisna olmaqla, digər filiz mədənləri Gədəbəy, Daşkəsən, Qafan, İrəvan mahalı (*Şamluq, Çamluq, Sisimədən, Nəzəryurdu, Çubuxlu, Axtala*), Qaradağ, Binəmar, Xorasan, Dəclənin yuxarı hövzəsi daxil olmaqla, Azərbaycanın bir çox bölgələrində vardı. Bu səbəbdən m.ö. III minildə Azərbaycan metallurgiya ölkəsinə çevrilmiş, onun ətraf bölgələrlə əlaqəsi genişlənmişdi.[88] Çatal-höyük, Çayönütəpəsi qazıntılarının metallurgiya tarixini m.ö.VII-VI minillərə apardığını yazan Y. N. Çernıxa görə, Quzey Qafqaz və Doğu Avropada ilk metalişləmənin inkişafına təkanı Güney Qafqazın erkən tunc dövrü metal ustalarının mis məmulatı vermiş və bu təsir m.ö. II minilin ortasına qədər davam etmişdir.[89]

Metalişləmədə yaranan dönüş əkinçilik sahəsinin inkişafına səbəb oldu. Metal oraq və xış əkinçi üçün geniş imkanlar açdı. Əkin yerləri toxayla yanaşı, yeni şum aləti olan xışla əkilir, bunun üçün qoşqu heyvanı at və öküzdən isifadə olunur, cütə qoşma əkinçiliyi yaranırdı. Tunc dövrü yaşayış məskənlərində arxların artması suvarma işinin geniş yayıldığını, buğda, arpa, darı çeşidləri və quyu formalı taxıl anbarlarının varlığı da taxıl məhsulu artımını göstərir. Tunc dövründə xırda və iribuynuzlu heyvanların artması, ev atı, ulaq və yeni əhliləşən dəvələrin bu təsərrüfata qatılması kəmiyət artımı yaratdı, bu da heyvandarlıqda keyfiyət dəyişməsi ilə nəticələndi. Məskən ətrafı otlaqlar daha həcmi böyümüş maldarlıq üçün kifayət etmirdi, yaz aylarından dağlıq və dağətəyi otlaqlara çıxan maldarlar artıq dağ-aran yollarında yarımköçəri mövsüm yaşamına başladılar. Beləliklə, Azərbaycanda yeni yaranan ***yaylaq kulturu*** maldarlığı

---

içi lazım olan formanı alırdı. Bura tökülən metal ərintisi qəlibin içində soyuyandan sonra gil qabıq qırılır içindən hazır fiqurlu tunc alət çıxırdı.

[88] Suriya bölgələrini IV-III minillərdə Güney Qafqaz metalla təmin edirdi (Иессен, 6).

[89] Черных, 47-57; Azərbaycan arxeoloqları da metaləritmə işinin kənardan gəlmədiyini yazırlar: «Son zamanlar Güney Qafqazda, xüsusilə I Kültəpədə çoxlu sayda tökmə-qəlib və metal əşyaların üzə çıxması metallurgiyanın bura kənardan gəlməsi fikrini tamamilə inkar edib, onun yerli mənşəli olmasını sübur edir» (Абибуллаев, 194).

əkinçilikdən ayırmış oldu.[90] Güney və Quzey Azərbaycanda, Ərmən dağlarında m.ö. III minillikdə xırda davarın artması arxeoloji bəlgələrlə ortaya çıxmışdır. Tunc dövrünün orta çağlarında Orta Asiya və Güney Azərbaycan bölgələrində əhliləşən ikihürgüclü dəvələrdən bu dövrün sonunda dəvəçilik təsərrüfatı və yükdaşıma karvanları formalaşmışdı. *Qobustan* qaya rəsmlərində, *Qaraköpəktəpə, II Kültəpə* və sair abidələrdə izi qalan ev atları sonralar ilxıçılıq təsərrüfatının yaranmasına gətirib çıxartdı.

Tunc dövrünün ayrı-ayrı mərhələsində təkcə maldarlıq, əkinçilik deyil, həm də silah, alət, bəzəklə bağlı metalişləmə - dəmirçi peşəsinin, toxucu və dulusçu sənətinin də ayrıldığını görmək olur. Arxeoloji qazıntılar sənətkarlıq, xüsusilə dulusçu emalatxanaları üzə çıxartmışdır. Öncə boyasız, sonralar isə qara, qırmızı boyalı həndəsi fiqur, heyvan şəkilli müəyyən kompozisiya ilə naxışlanan qulplu, cilalı, parıltılı saxsı qablar çoxalır. Güneydə daha çox qara, quzeydə isə qırmızımtıl rəngli saxsı qablar yayılmışdı. Bu çağda bəzək əşyaları, silah-yaraq və möhürdamğalar hazırlanması xeyli artır.

Erkən tunc dövründə ilk ***təkərli araba*** meydana çıxdı. *V. G. Childe, T. S. Piggott, Y. A. Şer* və başqa mütəxəssislər ilk təkər və arabanın m.ö. IV minildə Urmu-Van gölləri arasında yaranıb III-II minillərdə buradan dünyanın digər bölgələrinə yayıldığını yazırlar.[91] Kosmik uçaq kəşfinin XX əsrdə verdiyi effekt kimi, o çağda da arabanın icadı bəşəriyət üçün böyük texniki tərəqqi idi. İlk təkərlərin hazırlanması üçün lazım olan bərk ağac və metal Azərbaycanda bol idi, Kür-Araz kulturu və orta tunc dövrünə aid basırıqlarda xeyli araba modelli fiqurlar, hətta bütöv araba tapılmışdır. Bu çağda təkər qutsal hesab olunduğu üçün bir çox basırıqlarda təkər fiqurlarına rast gəlmək olur.[92]

---

[90] Əvvəllər atdan qoşqu və yük heyvanı kimi istifadə olunmuşdur, m.ö.II minilin ortalarında isə ilk ata minən protoazər dəliqanlısı bütün dünyada ilk dəfə atçılıq, süvarilik kulturunun başlanğıcını qoydu.

[91] Шер 1980; ДА, 1985, 195-198; Кожин,176; Гамкрелидзе - Иванов,733-736, 950.

[92] Təkər-araba və cəng arabası modelinə tunc dövrü boyunca Azərbaycanın hər guşəsində rast gəlmək olur: Dəclə-Urmu arası bölgələrdə *Təpə-Qavra, Hasanlu, Asu*r, Xəzər hövzəsində *Təpə-Hisar,* Astarada *Telmankənd kurqanı*, Qazaxda *Baba-Dərviş*, Dağıstanda *Vəlikənd, Çemikənd,* Naxçıvanda *Kültəpə*, İrəvan mahalında *Lori-berd, Şenqavit, Ariç, Ördəkli* abidələri. Hətta Borçalıda bütöv araba tapılmışdır (ДА, 1985, 195-198;

Təkər-arabanın ilk dəfə türk boyları tərəfindən yaranması faktı türk eposlarında orta əsrlərəcən davam etmişdir. Fəzlullah Rəşidəddin türk boyadları tarixini yazarkən ***qanqlı*** etnonimi barədə deyir: «*Ona qədər təkər yox idi, ona görə də arabanı ilk düzəldən onlar oldular.Gərək olan yükləri, qənimətləri bu arabalara yükləyib apardılar və bu səbəbdən Oğuz onlara* ***Kanqlı****, yəni arabaçılar****, arabası olanlar*** *adı verdi*».[93]

Tunc dövründə tikinti işləri də yeni çalarlarla fərqlənir. Daş özül üzərində çiy kərpicli dairəvi ev tipləri, nal şəkilli ocaqlar çoxalır. Dairəvi və düzbucaqlı evlərlə yanaşı, tapınaq yerləri, pir-ocaq, istehkam qalaları tikilir, yaşayış məskəni divarlarla dairəyə alınırdı. Belə qala və qalaçalar bəzən orta tunc dövründə çox böyük daşlarla tikildiyi üçün *siklop* «təpə-göz» tikilisi adlanır. Uzun basırığa «*oğuz qəbiri*» deyilməsi də maraqlıdır. Kurqanaltı basırıqların üstünü içəridən qatbaqat bir-birinə yaxın qoyulan daşlarla *yığma tağbənd* şəklində bağlanması da yayğındır. Belə tikililərə ***oğuz evi*** deyilməsi gələnəyi erməni dilində hələ də davam edir.[94]

Kurqan gələnəyi tunc dövründə xeyli gəlişdi. Basırıq əşyalarının qıt və ya zəngin olması artıq III minilin başında özünü göstərir. Adi basırıq-dan böyüklüyü və içindəki qiymətli əşyaların zənginliyinə görə seçilən basırıqların ortaya çıxması icma quruluşundakı dəyişiklikdən xəbər verir; icma patriarxı, onun ailə üzvü torpağa dəbdəbəli törənlə tapşırılır. Göycə gölü yaxınlığında bir başçı ilə birlikdə 11 nəfərin də dəfni aşkar olunmuş, belə basırıqlarda uruq başçısı ilə yanaşı onun qulluqçularının da basdırıl-

---

Кожин, 191; Мащмудов,16; Абибуллаев, 139; Деведжян, 28-29).

[93] Ряшидяддин, 13;

Sumerdən quzeyə qalxıb, IV minilin ortalarına yaxın İkiçayarasının quzeyində Ubeyd kulturunu gəlişdirən kəngərləri (*kiengi*) və təkər-arabanın məhz həmin çağda, həmən bölgədə (Van-Urmu arasında) ortaya çıxdığını xatırlasaq, Rəşidəddinin qələmə aldığı «*Oğuznamə*»də arabaya «*kanq*», arabalı boya «*kanqlı*» deyilməsini nəzərə alsaq, təkər-araba icad edənin kimliyi aydınlaşar. Akad və het dillərində yüngül arabaya hansı dildən alındığı bilinməyən *xulu-kanni, xulu-kannum* deyilir (Qamkrelidze, İvanov,733). Burada *kann* sözunün **kanq* «araba» ola biləcəyi və *cəng~kanq* eyniliyi ehtimalı vardır.

[94] «Doma Oquzov» ifadəsi erməni arxeoloji əsərlərində geniş işlənir. Bu çağın tikililərində istifadə olunan yığma tağbənd azər boylarına məxsus tikmə üsulu kimi erməni dilində ***azaraşen*** «*azər* tikməsi» adlanır (Деведжян, 23-24); ***Azaraşen*** üsulu Urartu çağından öncəki tikililərdə də istifadə olunmuşdur (Martirosən, 24); Görkəmli arxitektor Cəfər Qiyasi bu barədəki söhbətimizdə qeyd etdi ki, gürcü arxitektorları da *darbazi* terminini azər üsulu olan tağbəndi konusvari *daralan baca, dar başlı* anlamında işlədir.

dığı aydınlaşmışdır. Kür-Araz kulturu çağından basırığa əmək, məişət alətləri, silah və bəzək əşyaları ilə yanaşı, kult və inancla bağlı araba, təkər fiqurları, tısbağa, ölünün baş tərəfinə cam, kasa qoyulması gələnəyi artır. Prototürk uruqları ölülərini qıvrılmış, bükülü formada basırığa qoyur, üzərinə qırmızı oxra tökürdülər. Bütün bu etnik adətlər bütövlükdə prototürk uruqlarının ***basırıq kulturu*** gələnəyini formalaşdırmış və onlar bu kulturu miqrasiya etdikləri regionlara daşımışlar.

Qazma torpaq (xəndək), ölünün ətrafını daşlarla və ya ağac tirlərlə (kəsmə) bağlamaq və belə qurulan basırıqların üstünə torpaq, daş və ya daşla torpaq birlikdə yığılır, belə qabarma basırıqlar kiçik təpəcikdən böyük təpələrə qədər müxtəlif hündürlükdə olur ki, bunlara da ***kurqan*** deyilir. Bəzi kurqanların ətrafına dairəvi düzümdə böyük daşlar - kromlex, basırığa yaxın daş heykəl - nişandaş qoyulur. Kür-Araz kulturu ilə başlayıb 3-4 min il davam edən bu gələnəklərin Orta Asiya-Güney Sibir və Quzey Qafqaz-İtil-Tuna ovalıqlarına Azərbaycandan (Ön Asiya) köçən uruqların apardığı heç kimdə şübhə yaratmır.[95]

Erkən və orta tunc dövründə kurqan kulturunun protoazər uruq və boylarına aid özəlliyi onun altındakı basırıqda tək, bəzən çox sayda qırmızı oxralı skeletin ayaq və qollarının bükülü olmasıdır. Digər atributlar isə aşağı-yuxarı kiçik fərqli əlamətlərlə protoazər uruqlarının dialektlər üzrə məskunlaşdığı lokal bölgələrdə saxsı qablar, əmək alətləri, silah, bəzək əşyalarında ortaya çıxır ki, buna da təbii baxmaq lazımdır. Tipoloji

---

[95] Yalnız İsmayıl bəy Miziyev bu miqrasiyanın əks istiqamətdə baş verdiyini, Kurqan kulturunun yaranma özəyinin isə İtil-Ural arası olduğunu yazır (Мизиев, 1990, 26-32). Lakin ruhunu incitmək istəmədiyim mərhum İsmayıl bəyin bu fikrilə razılaşmaq mümkün deyil, çünki Qafqazdan yuxarı bölgələrdə ortaya çıxan bu arxeoloji abidələr basırıq gələnəyi və metal əşyaları ilə Ön Asiyadan gəlmə idi və bunu əks etdirən bəlgələr elə İsmayıl bəyin hər iki kitabında kifayət qədərdir (Мизиев, 1986, 30-33; 1990, 13-14). Kür-Araz kulturuna qədər də mövcud əlaqənin yönü elmi ədəbiyatda güneydən quzeyə verilir.

Əksər Avropa alimləri kimi, T.V.Qamkrelidze və V.V.İvanovun birlikdə yazdığı fundamental əsərdə də kurqan-basırıq kulturunun Quzey Qafqaz - Güney Rusiya çöllərinə Ön Asiyadan getməsi indiyə qədər əldə olunmuş çox zəngin arxeoloji bəlgələrlə sübut olunur (Гамкрелидзе, Иванов 1984). Lakin miqrasiyanın yönünü düzgün verən bu müəlliflər həmin kulturu aşağıdan yuxarı daşıyanları haqsız olaraq, protohindavropa uruqları kimi təqdim etməyə çalışmışlar. Ancaq geniş elmi müzakirələrə səbəb olan bu fikir ciddi akademik-elmi dairələrdə tarixçilər tərəfindən qəbul olunmadı, çünki «bu ehtimal dil, tarix və arxeoloji baxımdan aşılmaz çətinliklə qarşılaşır» (ИДВ, 1988, 38).

yaxınlığını saxlamaqla, belə kiçik fərqlərin yaranması Azərbaycan sınırları dışına çıxan prototürk uruqlarının arxeoloji abidələrində daha qabarıqdır. Bu da təbiidir, çünki mərkəzi ocaqdan uzaqlaşdıqca, yeni-yeni etnoslarla qarşılaşdıqca etnoqrafik innovasiyaların, yerli gələnəklə çulğalaşmanın örnəkləri arxeoloji kulturda özünü büruzə verməlidir. Kurqan kulturu və qədim türkcə olan *kurqan* sözü bir müddət prototürk və türk boylarının «pasportu» kimi qalsa da, sonralar başqa etnosların da kultur gələnəyinə daxil olmuşdur. Orta tunc çağında az da olsa, bəzi kurqanlarda ölüyandırma adəti də görünür, Azərbaycanda bəzi basırıqların içində tonqal qalanması halları qeydə alınmışdır.

Kurqan kulturu atributlarından biri də daş heykəl və atdır. Daşdan düzələn qadın heykəlciklərinin Qobustanda hələ mezolit dövründən bəlli olduğunu qeyd edən Firuzə xanım Muradova buradakı Kür-Araz kulturunun son çağlarına aid 3 №-li kurqanda tapdığı daş insan heykəlinin bütöv Ön Qafqazda ilk örnək olduğunu yazır.[96] Belə daş heykəllərin tunc dövründən sonra basırıq yanında nişandaş kimi qoyulması doğu və batı prototürk saqa, alban, hun, xəzər, kuman, qıpçaq boyları içində geniş yayıldığı kimi, kurqanaltı basırıqlara at gömülməsi də türk etnosunun arxeoloji kulturunda əsas atributlardan birinə çevrilmişdir.[97]

Kültəpə, Qaraköpəktəpə, Göytəpə kimi bir sıra abidələrdə həyatın III minil boyu davam etməsi göstərir ki, Kür-Araz kulturu dövründə protoazər uruqlarının stabil yaşayış məskənləri olmuşdur. Lakin elə bölgələr də var ki, orada stabillikdən danışmaq olmur, yanğın izləri, yaşayış məskəninin tərk edilməsi və yenidən məskunlaşma, qonşu ölkələrdən olan basqınlar artıq erkən tunc dövründə toqquşma və lokal savaşların başlandığını bəlli edir. Belə qarşıdurmalara səbəb çay-su və quru tranzit yollarına nəzarət, meşə ağacı, mineral qaş-daş, metal, mal-heyvan qəniməti əldə etmə və əsiralma, yeni otlaqlar davası, ərazi genişləndirmə olayları idi. Bu durum uruq başçılarına yeni statuslar gətirdi. Onsuz da maldarlığın ayrılması ilə kişi kultu üstün mövqeyə çıxırdı və soy başçıları içindən

---

[96] Мурадова, 1979, 39-41.

[97] Kurqan ətrafına daş hekəllərin, at və qoç daşların qoyulması sonrakı çağlarda yayılsa da, kurqanaltı basırığa daşdan at fiquru qoyulmasının ilk örnəyi m.ö.III minilliyin ortasına aid Telmankənd (Astara) kurqanında üzə çıxmışdır. Bu kurqanı açan tanınmış arxeoloq Fərman bəy burada araba fiquru ilə yanaşı, ucunda at başı yonulmuş uzunsov bir daş tapmışdır (Мащмудов, 1987).

daha döyüşkən olanı uruq başçısı seçilirdi. Əvvəllər kiçik, lokal döyüşlərə uruq başçıları səviyəsində rəhbərlik kifayət edirdisə, artıq böyük iddialar qarşısında iki və daha artıq uruq birləşməsi ilə yaranan boya yeni statuslu başçı lazım idi.

Kür-Araz kulturunun orta çağlarına qədər Azərbaycanın bir çox bölgəsində belə boylar və boy başçıları ortaya çıxmışdı. Sumer yazılı eposu «En-Merkar və Aratta bəyi» bu barədə tutarlı bəlgələr verir. Hətta Kür-Araz kulturunun sonunda Urmu hövzəsi ilə İkiçayarasında böyük Qut dövləti yaranır. Prototürk uruqları m.ö. III minillik boyunca ibtidai icma quruluşundan boy qurumuna qədər ictimai-siyasi evolyusiya keçmiş, bu minilliyin son əsrlərində ilk dövlətlərini qura bilmişlər.

Kür-Araz kulturu dövründə prototürk uruqları boya çevrilmiş və onların dilində yeni ictimai-siyasi terminlər yaranmışdır; əvvəllər ***ur** sözündən *uruq* «qəbilə» yarandığı kimi, bu dövrdə də ***bod** sözündən dialektlər üzrə *bod~but~boy* fonetik variantlı *boy* «tayfa» termini, ***baq** sözündən *baq~beg* fonetik variantları ilə yeni anlam kəsb etmiş *bəy* sözü işlənməyə başlamışdır. Uruqlar birliyi olan boy qurumunun başçısı olan bəy hakimiyətinin simvolu ***yay*** idi, ***oq*** «ox» isə boyun tərkibindəki uruqların simvolu olub, *üç-oq, beş-oq* şəklində onların sayını bildirirdi. Bu çağlarda *subar, kanqar, qut, as, lulu, turuq* kimi çoxlu protoazər boyadı vardı və *Aras, Asar, Kuar, Baq* (bağa), *Qut, Qam, Al* (al anası) və sair bu kimi mifik dünyagörüşlə, inancla bağlı *iyə* adları işlənir, *Tenqer* (tanrı) ilə bərabər bu iyələr də qutsal sayılırdı. Ocaq, su, dağ, daş kimi təbiət kultları əvvəlki çağlardan vardı, sonra bu sıraya metal, at, qılınc kimi kultlar əlavə olundu. Bütün bu inanc sistemi, ictimai-siyasi, sosial durum inkişaf edib gəlişdikcə protoazər dili də cilalanıb zənginləşir, cəmiyətlə birgə dildə də həmin inkişaf mərhələləri əks olunurdu.

Erkən tunc çağında qaya rəsmləriylə yanaşı, piktoqram - şəkilli yazıdan da istifadə olunmağa başlanmışdı. Prototürk uruqları kimi, onların güney qonşuları sumer və elamlar da piktoqramlardan istifadə edirdilər, lakin şəkilli yazıdan simvolik işarə - ideoqramlara keçən bu etnoslardan yalnız sumerlər həmin ideoqramları mixi yazıya çevirə bildilər. Elamlar və İkiçayarasına gəlib yerləşən sami akadlar həmin sumer yazısına uyğun özəl yazılarını formalaşdırdılar. Qaya rəsmləri, piktoqram və ən çox da uruq-boy damğalarını uzun müddət davam etdirən protoazər boyları isə Aralıqdənizi tərəflərdə yaranan yarı heca-yarı hərfli runik yazını mənim-

sədilər. Həmin dövrə aid yazı hələ tapılmasa da, sonrakı çağlarda onun izinə daş-qaya üzərində və xalı-xalça sənətində rast gəlmək olur.[98]

Azərbaycanın erkən tunc kulturunu Dağıstan və Qafqaz aşırımları ilə Quzey Qafqaza daşıyan uruqlar kimi, əks yöndə miqrasiya edən uruqların da olması təbii idi. Azərbaycanın quzey bölgələrinə sızan uruqlar əsasən protoqafqaz etnoslarının doğu qolunu təşkil edən protohurri uruq və boyları olub, bir qismi ana yurdlarına yaxın Qafqazın güney ətəklərində oturdu, bir qismi də Van hövzəsinə qədər irəli getdi. Kür-Araz kultur məkanına düşən bu gəlmə etnos öz etnik gələnəyini, doğu protoqafqaz dilini mühafizə edə bildi. Erkən və orta tunc dövründə Azərbaycanın quzeyində iki etnosun yaşaması arxeoloji kulturda elə bir köklü dəyişmə yaratmadı, yalnız lokal kultur variantların adda-budda ortaya çıxması da bunu göstərir. Həmin protoqafqaz boylarının törəmələri olan *ləzgi, udi, çeçen, inquş, buduq, saxur, avar, qırız, xınalıq* kimi boyların azər boyları ilə yalnız dil fərqi vardır, digər etnoqrafik göstəricilərin çoxu üst-üstə düşür. Çox güman ki, *udi, avar, xınalıq, çeçen* adları onlara qonşu azər boylarının dilindən yadigar qalmışdır, *buduq* adının isə boy qurumu yaranan erkən tunc dövründə ortaya çıxması şübhə doğurmur, çünki yad etnik uruğun protoazər boy federasiyasına qoşulmasu **bud-uq* «boya qoşulan uruq» adında aydın görünür. Buduq boyu o çağda *bəy* sözünü də hansı formada almışsa, indiyə qədər həmin fonetik formada (*baq*) işlədir.

Protoazər boylarının Quzey-Qafqazla əlaqəsi quzeyə olan kiçik köçlər, III minilin ortalarından sonra orada yaranan *Maykop kulturu* və onun üzərində yaranıb, II minil boyu davam edib genişlənən digər Quzey Qafqaz arxeoloji kulturlar tunc dövrünün sonuna qədər Ön Qafqazla əlaqənin kəsilmədiyini göstərir. Maykop kulturu və sonrakı lokal kulturlar Ön Qafqaz maldar boylarının quzeyə köçməsi ilə yaranmışdı.[99] Ora kurqan kulturu aparan boylar bir müddət bükülü gömmə gələnəyini saxlamış, sonra tədricən yerli ölünü uzatma adəti üstün mövqeyə çıxmışdır, bu da gəlmə-

[98] Elam piktoqramlarına bənzəyən yazılar Azərbaycanın güney bölgələri Təpə-Yəhya, Sialk IV, Qodintəpə abidələrində, ideoqram yazılar Şamaxı-Xızı bölgələri arasındakı Quşçu, Altıağac, Göylər, Udulı kəndlərində üzə çıxmış, qayaüstü rəsmlər isə Azərbaycanın əksər bölgələrində - Abşeron, Qobustan, Armudlu (İrəvan mahalı), Kəlbəcər, Kəmərli, Gəmiqaya və sair abidələrdə vardır (Фитуни, 1927, 185; Щямзя Вяли, 1998; Рзайев, 1984, 93-94; 1985; Ялийев, 1992; Ъяфяров, 1999).

[99] Авдусин, 1977, 96; История Дагестана, 83.

lərin assimilyasiya olunduğunu göstərən bəlgədir. Güman ki, prototürk boyların IV minillikdə başlanıb Kür-Araz kulturu boyu davam edən quzey köçlərində iştirak edən uruq və boylar *qaraçay-balkar* və *kumuq* xalqının ulu babaları protobalkar və protokumuqlar olmuşdur.

Qədim kartvel-türk dil paralelləri göstərir ki, protoazər boylarının güney protoqafqazdilli boylarla da təması olmuşdur. Belə təmas nöqtələri Borçalı-Axıska ilə Kiçik Asiyanın quzey-doğu bölgələri və sonrakı Kolxida kulturunun yayıldığı ərazilər arasındakı sınır bölgələri idi. Arxeoloqlar III minillikdə Kiçik Asiyada 10-dan artıq kulturun olmasını qeyd edirlər.[100] Həmin minilin sonunda burada *hat, azzi* boylarının yaşaması yazılı qaynaqlarda əks olunsa da, arxeoloji kultur çeşidlərinə görə burada ən azı 5-6 müxtəlifdilli etnik toplumun varlığı şübhəsizdir. Onların sırasında prototürk dilinin parçalanma çağlarında bura gəlib yerləşmiş batı prototürk uruqlarından olması da mümkündür, II minilin başlarından isə burada batıdan gələn hindavropadilli boylar görünür və Van yaxasından yuxarı qalxan *qaşqay* boyları ilə burada prototürkcə sözlər ortaya çıxır.

Göytəpə saxsı qablarında cızma-basma naxışlar bütöv Kür-Araz kulturu yayılan ərazilərdə göründüyü kimi, *Göytəpə*, *Hasanlu* abidələrindəki böyük saxsı qablar üzərində yapma spiralvari naxışlar da Borçalı-Qazaxda, Ağrı ətəyi abidələrdə, Ərzurum civarında *Karaz*, Elazığ civarında *Xəzərtəpə*, Van civarında *Yaycı* kimi abidələrdə təkrar olunur.[101] Beləliklə, Anadolu protoqafqaz, protohindavropa dillərində danışan boylarla yanaşı, bəzi prototürk boylarının da məskəninə çevrilir. Kür-Araz kulturu basırıqları yaşayış məskənlərindən kənara çıxmışdı, Anadoluda isə məskəndaxili küp və sənduqə basırıqlarda ölünü arxasıüstə uzatmaq, çömələmiş halda gömmək, ölüyandırma gələnəyi davam edirdi.[102]

Bu çağlarda Anadoluda *Turova* (Troya), *Alacahöyük* kimi şəhərtipli yaşayış məskənləri çoxalırdı. Kayseri civarındakı Kaniş şəhərində asur tacirlərinin ayrıca məhəlləsi (*karum*) vardı, burada m.ö. XIX əsrin ortalarından başlayaraq 150 il davam edən *Kültəpə* yazıları ticarət sənədləri olsa da, bəzi yer-yurd adları ilə yanaşı, burada *Aquz, Saklı, Dada, Ata, Azu, Panak, Tarxun, Tuman* kimi prototürk şəxs adları da əks olunmuşdur.[103] Bu çağlarda *hat* boyları Qızılırmaq hövzəsində, *qaşqay* boyları isə

[100] ИДВ, 1988, 32.

[101] Исмаилов,1977, 48-50; Kınal, 1987, 48-49.

[102] Kınal, 1987, 80.

[103] КТИК, 1968.

onlardan yuxarıda Qaradənizin güney-batı bölgələri istiqamətində yayılmışdı, II minilin başlarından gəlib hat bölgələrini zəbt edən hindavropa dilli hetlər burada böyük Het dövlətini qurdular. Bu dövlət m.ö.1200-cü illərə qədər Kiçik Asiyada hegemonluğu əldə saxlaya bildi.

Güney Azərbaycanda, Urmu hövzəsi ilə Dəclənin sol yaxaları arasında m.ö. IV minilin sonunda xırdabuynuzlu heyvanın artmasıyla bağlı maldar uruqların dağlıq bölgələrə qalxması yeni-yeni yaşayış məskənləri salınmasına səbəb olmuşdu. Luristan qazıntıları III minilə qədər əkinçi-maldar sakinlərin çoxaldığını, lakin həmin minildə bir tərəfdən *Çiqa-Paxan* kimi böyük sahəli abidələrin boşaldığını, digər tərəfdən onların ətrafında təbii mühafizəsi olan yeni kiçik yaşayış məskənləri salındığını göstərir.[104] Bu bölgələrə səpələnən *lulu, qut, turuk* və sair protoazər boyları güney qonşuları kassi-elam, güney-batı qonşuları akad-sumerlər ilə müəyyən ilişkilər qurmuşdular. Bu ilişkilər bəzən barış içində ticarət əlaqələri, bəzən də savaş içində ərazi davası şəklində davam edirdi. Hələ prototürk çağının sonunda, IV minilin ikinci yarısında *Bars* əyaləti boşalmış, sonra burada elam uruqları yerləşmişdi. Əvvəlki sakinlərin geyimi ilə ilgili yaranmış bölgənin adı isə bugünə qədər yaşayır.[105] Erkən tunc çağının sonuna doğru Elam sınırına yaxın *Qiyan IV* abidəsi hələ bükülü basırıq adətini, həmin çağın elam abidələri isə uzadılmış ölü basırığı gələnəyini əks etdirir. Zaqros dağları və onun ətəklərində *Çiqa-Sabza, Təpə-Badxur, Çiqa-Kabud, Bataki, Çiqa-Bala* kimi abidələr arxeoloji baxımdan geniş tədqiq olunmayıb, buradakı *Təpə-Cəmşidi* abidəsi *Qiyan* ilə eyni xarakterlidir. Luristan qazıntıları burada gəlişmiş kultur üzə çıxarmışdır. Bağdad-İran yolunda Sari-Pula yaxın Padir dağında lulu bəyinin qaya-üstü rəsmi və akadca yazı həkk olunmuşdur. Lakin elam yürüşləri qarşısında lulu boylarının davam gətirmədiyi, yuxarı Urmu hövzələrinə çəkildiyi ehtimal olunur. Elam çarı Kutik-İnşuşinak m.ö.XXII əsrin əvvəlində qutlar üzərində qələbə çaldığını qeyd etmişdir. Elam arxeoloji qazıntıları göstərir ki, *Qiyan* abidəsindən aşağıdakı ərazilərdə, bütöv Xuzistan bölgəsində böyük inkişaf olmuş, evlər artmış, qəsəbələr böyümüş, şəhərsalma, məbədtikmə, dulus və metalişləmə yüksək səviyəyə qalxmışdır. Artıq

[104] ИИ, 21.

[105] Buradakı uruq başçıları çiyinlərinə bars dərisi atdığı üçün onların ərazisi Bars bölgəsi adlanmışdır. Eyni adlı bölgə Urmu gölü hövzəsində də vardı. Bu güney bölgəyə tunc dövründən sonra gəlib elamlara qarışan ari boyları artıq bu ərazinin əhalisi kimi *pars* adlanmışdır. Yuxarıdakı *Bars* bölgəsində isə *barsil* türk boyu yaşayırdı.

burada *boy* (bod) qurumundan *budun* (bodun) qurumuna keçid, dövlət quruluşu, hökmdar basırığı və piktoqram yazılar görünməyə başlayır. Elam təsiri Azərbaycanın güney-doğu bölgələrinə də sirayət edir. Sialk IV-də silindrik möhürlər, protoelam piktoqramlarına bənzəyən yazıların ortaya çıxması bunu aydın əks etdirir. Q. Çayld bu təsiri «*lazurit yolunu nəzarət altına alma*» kimi qiymətləndirir, güman ki, burada elam tacirlərinin məhəlləsi varmış.

Erkən tunc çağlarında Azərbaycanın güneyində bir-birilə rəqabət aparan Elam və Sumer kimi iki dövlət yaranmışdı. Sumerdə öncə Kiş, sonra Uruk şəhər-dövlətə çevrildi. Bu şəhər-dövlətlər arasında hegemonluğu ələ almaq üçün savaşlar olurdu. M.ö. 2700-cü illərdə Kiş şəhərinin çarı *En-Menbaraqesi*, sonra oğlu *Aqanın* güneydəki Uruk şəhərinin baş kahini və çarı *Bilqamıs* ilə vuruşması sumer yazılarında əks olunmuşdur. Sonrakı Uruk çarlarından biri *En-Merkar* da Urmu civarında olan Aratta bölgəsinin bəyi ilə gah dostluq, gah da savaş münasibətlərində olmuş və dəfələrlə Arattaya qasid göndərmişdir. Bu əlaqələrdən geniş bəhs edən sumer mətnləri Güney Azərbaycanın erkən tunc çağı durumuna aid qiymətli məlumatlar verir. Bəlli olur ki, protoazər boyları bu dağlıq bölgədə dəmyə əkin və maldarlıqla məşğul olur, burada boy başçısı bəy hökmdar sayılır, saray elitası içində baş kahinə hörmət edilirdi. Arattada ilk türk bəylik qurumunun formalaşdığı aydın olur. Burada qiymətli mineral və metalişləmə sahəsində bacarıqlı ustaların yetişməsi, Sumer kimi gəlişmiş bir ölkədə tikilən məbədin bəzək işlərində arattalı ustalara ehtiyac olması Azərbaycanda sənətkarlığın inkişafını göstərən yazılı sənədlərdir.

Hələ m.ö.IV minildən İkiçayarasına başlanan sami axınları bütöv tunc dövrü boyunca dalğa-dalğa davam etmişdir. Ərəbistan çöllərindən gələn bu axınların öncülləri akadlar idi. Onlar quzeydən Sumerə daxil olub buraları zəbt edəndən sonra akad sülalələrinin hakimiyəti get-gedə genişlənir və Azərbaycanın güney-batı sınırları dəfələrlə onların hücumu qarşısında qalır. Bu durumda protoazər boylarını birləşdirən *qut* boyları önə çıxır, akad qoşunlarını məğlub edib, ilk böyük türk dövlətini qurur, İkiçayarasının orta və güney bölgələrini də öz hakimiyətləri altına alırlar. Bir əsr davam edən Qut dövləti dağılır, protoazər boyları yenidən ayrı-ayrı bəyliklərə parçalanır. Erkən tunc dövrünün son əsrlərində baş verən bu olaylar Azərbaycanın bəzi bölgələrində şəhərsalma, qala və qalaça tikmə işlərinə təkan verir. Naxçıvanda şəhər tikili qalıqlarının üzə çıxarıl-

ması bunu aydın göstərir. Erkən tunc dövründə əhali artımı da yeni-yeni məskənlərin salınmasına səbəb olmuşdur.

Erkən tunc dövrü protoazər boylarının quzey, batı və güney sınırlarında yaranmış durumu gözdən keçirdik. Doğu qonşuluqda və Xəzərin güney-doğusunda yerləşən bölgələr də eneolit əkinçiliyi üzərində inkişaf edirdi. Türkmənistanın güneyindəki *Altıntəpə, Namazqatəpə IV, Anau III* abidələri, Özbəkistanın güneyindəki *Sapallı* kompleksi erkən tunc dövrünü əks etdirir. Bu abidələrdə ilk dulus çarxlarından istifadə, dulusçu emalatxanasının ortaya çıxması, boyalı keramikadan nazik divarlı, cilalı və bir rəngli saxsı qablara və toxadan xış əkinçiliyinə keçmə, metalişləmə və maldarlığın inkişafı görünür. Ən önəmlisi isə Orta Asiyada şəhərsalma kulturu Azərbaycanı xeyli qabaqlamışdı. Burada saman qarışıqlı gil evlər böyük divarlarla əhatə olunmuş sahələrdə tikilirdi. Çoxotaqlı evlər və dövrünə görə möhtəşəm məbədlər (*Altıntəpə*) şəhər tipli yaşamın ilk örnəkləri idi. *Namazqatəpədə* 27 otaqlı bina qalıqlarının üzə çıxarılması da göstərir ki, burada tikinti işi çox irəli getmişdir.[106]

Protoazər boylarını doğu prototürk bölgələri ilə bağlayan, həm də zaman keçdikcə dilləri bir-birindən uzaqlaşan bu iki qol arasında körpü rolunu oynayan Orta Asiya prototürkmənləri tunc dövrünün erkən çağını stabil inkişaf, orta və son çağlarını isə bu ərazidən keçən böyük miqrasiya olayları fonunda keçirmişlər. Aral yaxası Amu-dərya deltasında isə Anau əkinçi kulturundan fərqlənən *Tazabaqyab* kulturu yaranmışdı. Azərbaycanın güney-doğu bölgələrindən gələn boylar burada *Suyarqan* əkinçi-maldar kulturunu formalaşdırmışdı. Xarəzm-Azərbaycan ilişkilərinin ilk örnəklərindən biri olan Suyarqan kulturu *Canbas-6, Gökçə-2, Bazar-2* abidələrində qeyd olunmuşdur.[107]

Orta tunc dövrünün sonunda Əfqanıstanın quzey, Orta Asiyanın güney, Azərbaycanın güney-doğu və Xorasan bölgələri ari boylarının axınlarına məruz qalır. Bunlar Qaradənizin quzey bölgələrindəki Ata yurdlarından qopub doğuya gedən hindavropa boyları idi, onlar artıq m.ö. II minilin ortalarında Aral hövzəsinə gəlib çatmışdılar. Sonrakı əsrlərdə isə qeyd etdiyimiz ərazilərə səpələnmiş, sonra buradan iki qola (iran, hind) ayrılıb,

[106] Авдусин, 1977, 98-99; Мартынов, 1982, 94-95; Шишкин, 1981, 163-170.

[107] Мартынов 1982, 96.

biri Hindistana, digəri Elama getmişdir. Bu yeni etnik miqrasiya arxeoloji kulturda dərin iz qoymuşdur.

Arazdan quzeydə olduğu kimi, Güney Azərbaycanda da Kür-Araz kulturu sona qədər davam etmişdir. Daş özül üzərində tikilisi olan və əllə düzəlmiş spiralvari naxışlı, qulplu qara cilalı saxsı qablar, çoxlu mis əşyalar aşkar edilən *Göytəpənin* «*K*» layında kultur təbəqə 6,6 metr olub, bütöv III minilliyi əhatə edir. Təbrizə yaxın *Yanıqtəpədə* isə iki mərtəbəli evin qalıqları üzə çıxarılmışdır. Kür-Araz kulturu III minilin sonunda inkişafla bağlı keyfiyət dəyişmələrinə uğrasa da, onun «yayıldığı ərazilərin tarixi inkişafı II minildə də üzvi şəkildə davam etmişdir».[108]

Ancaq bu ərazilərdən kənarda qalan *Təpə-Hisar, Turəngtəpə, Xurab, Şahtəpə, Çeşme-Ali* kimi avtoxton abidələrdə kultur inkişaf ləngiyir, erkən tunc dövrünün sonlarına doğru buradakı boyalı şəkilli saxsı qablar aradan çıxır, yerini boz və qara cilalı, pardaxlı qablar tutur. *Hisar III* «*B*» qatında yanğın altında qalmış çox qiymətli qab-qacağın tapılması burada bəy evi olmasını göstərir. Xəzər dənizinin güney hövzəsində olan abidələrin çoxu Orta Asiyadakı *Namazqatəpə* abidəsi kimi eyni vaxtda, m.ö. II minilin birinci yarısında boşalır. Əhalinin kütləvi surətdə bu bölgələri tərk etməsi orta tunc dövründə at və dəvənin artması, atçılığın inkişafı, arabaların geniş yayılması ilə mümkün olmuşdur. Birinci böyük köç prototürk dilinin dağıldığı dövrdə olmuşdu, bu isə ikinci böyük köç idi və buradan çıxanlar Xəzərin hər iki sahili boyunca yuxarı qalxmış, böyük bir kütlə də Orta Asiyadan keçərək, Qazaxıstan-Güney Sibir və Türküstan tərəflərə getmişdir. Zaman-zaman doğuya miqrasiya edən prototürk boyları oraya metalişləmə, atçılıq və qoyunçuluq sənətlərini apararaq, böyük kulturlar qurmuş, orada türklərin ikinci Atayurdunu yaratmışlar.

Kür-Araz kulturundan sonra Azərbaycanın sınırlarında yaranmış başqa etnik kulturların əhatəsində batı prototürk boylarının tarixi-coğrafi konturları xeyli daraldı. Azərbaycan sınırları dışında başqa etnik toplum içində qalan prototürk boyları çox yerdə dilini itirib assimilyasiya olundu, lakin protoazər boylarının məskunlaşdığı Urmu-Göycə və Kür-Araz hövzələrində eyni etnik kultur orta tunc çağında da davam etdi. Oturaq yaşam əkinçilik, tikinti, metalişləmə, dulusçuluq, toxuculuq, ticarət sənətlərinin yeni keyfiyətlər qazanmasına imkan açırdı. Əkinçilər tarla bitkilərindən əlavə bostan tərəvəzi və ərik, badam, heyva, alma, armud, şaftalı, nar

[108] ИДВ, 1988, 38.

kimi cır meyvə ağacları əkib-becərməklə bağçılıq kulturuna yol açırdılar. Üzüm çeşidlərini artırıb, şərabçılıqla məşğul olur, taxıl döymədə artıq vəldən istifadə edirdilər.Yun-keçə toxucu məmulatı artır, polixron çeşidli boyalı qablar çoxalır, döymə və lehimləmə üsulu ilə hazırlanmış bəzəklər geniş yayılır. Tuncdan hazırlanan qazan, balta, xəncər, iskənə, biz, bıçaq, ox-nizə ucluqları metalişləmə sənətinin inkişafını göstərir. Bu çağda böyük ustalıqla hazırlanmış Luristan metal əşyaları ətraf bölgələrə və sınır dışına yayılır.

Orta tunc dövrü protoazər boylarının həyatında maldarlığın ən məhsuldar mərhələyə çatması ilə xarakterikdir. Damazlıq heyvan, keçi, qoyun cinslərinin artması, cins mal-qara ilə yanaşı dəvə və atların da çoxalması, süd məhsulundan geniş istifadə maldarlığı səmərəli peşəyə çevirmiş, çoban, ilxıçı və dəvəçi sənəti üstün mövqeyə çıxmışdı. Xüsusilə atçılıq sənəti Urmu hövzəsində, Qarabağ və Xəzərin güney bölgələrində misilsiz nailiyətlər əldə etmiş, burada yetişdirilən at cinsləri Orta Asiya, İkiçayarası və Kiçik Asiya istiqamətində aparılan ticarətdə bir nömrəli mala, Azərbaycan isə bütöv Ön Asiya ölkələri üçün atçılıq bazasına çevrilmişdi. Bu da bəllidir ki, hər yerdə yük və qoşqu heyvanı kimi istifadə olunan atdan ilk dəfə Azarbaycanda minik heyvanı kimi istifadə olunmuş, dünyada ilk süvarilik burada yaranmışdır.

Orta tunc çağında əvvəlki dairəvi evlər aradan çıxır, düzbucaqlı və 2-3 otaqlı evlərin daş özül üzərində divarı çiy kərpicdən, bəzi yerlərdə möhrə, gillə suvaqlı çubuq, bəzi yerlərdə də çay daşından tikilir, mühafizə divarları və qalalar artır, tikililər sistemə düşür. Bəzi bölgələrdə qala içində sənətkarlıq məhəllələri, şəhərtipli məskənlər salınır, küçələrə daş döşənir (*II Kültəpə*). Azərbaycanda möhtəşəm müdafiə qalaları tikilsə də, Sumer-Elam, Anadolu və Türkmənistanın tikinti kulturundan geri qalır.

Son tunc dövründə Azərbaycanın ayrı-ayrı bölgələrində bir neçə lokal kultur yaranır ki, bu da protoazər boylarının ayrı-ayrı dialektlərini və boy birləşmələrini gerçəkləşdirən durumun yaranmasından xəbər verir. Bunların sırasında *Xocalı-Gədəbəy*, *Naxçıvan* və *Talış-Muğan kulturu* adlanan lokal arxeoloji kulturlar seçilir. Birinci kultur Gəncə-Qarabağ zonasını və Kürün sağ hövzəsini əhatə edir və saxsı məmulatı (qabarıq küp, darboğaz, təkqulplu qab, cam) və daşdan düzəlmiş kuzə, qapaqlı və enliağız qablar ilə seçilir. Burada saxsı nehrələr də üzə çıxarılmışdır. Ən çox Qazax-Gəncə ovalığında qeydə alınmış bu lokal kultur Gədəbəy və Daşkəsəndə dağlıq, dağətəyi və yaylaq yerlərindəki siklop tikililəri

ilə fərqlənir. Başqalaça, Böyükqalaça, Pirqalaçası, Pirqalaqapısı, Çobandaşı kimi adlar daşıyan belə siklop tikililəri sırasında *Azorqalaçası* adındakı *azor* etnonimi qədim azər boylarından yadigar qalmışdır. Əkin-biçin və maldarlıqla məşğul olan əhali dulus çarxından istifadə edir, bəzəkli nəsnələr düzəldir, metalişləmə sənətini davam etdirirdi. İki-üç əsr sonra bu geniş ərazilərdə, Göycə hövzəsi, Ağrı-Ələyəz ovalıqlarında yaşayan boyların adını biz urartu yazılarında görəcəyik.

Arxeoloji ədəbiyatda Naxçıvan və ya Qızılvəng mədəniyəti adlı arxeoloji abidələr **boyalı** qabları ilə seçilir. Əslində, boyalı qablar orta və son tunc dövrlərində, həm də təkcə Naxçıvan bölgəsində deyil, bütöv Arazboyu və Urmu ətrafı bölgələrdə üzə çıxarılmışdır ki, bu da müəyyən dialekt koynesi ətrafında sıx əlaqəsi olan boyların arxeoloji kulturudur. Buradan Xəzər tərəfə getdikcə, Muğan düzənliyindən başlayıb Lənkəran ovalığı-Talış dağlarına qədər digər bir lokal kulturun yayıldığını görmək olur.

Dağətəyi və düzənlik yerlərdə əkinçilik, bəzək-düzək, metalişləmə, dulusçu sənəti, yaylaqlarda isə maldarlıqla məşğul olan kaspi boylarının bu kulturu qara cilalı saxsı qabları, Ön Asiya tipli xəncər və silindrik möhürləri ilə fərqlənir. Son tunc çağı lokal kulturlar sırasında Abşeron-Qobustan, Şəki-Zaqatala, Quba-Xaçmaz və Dağıstanda yerli boylarla protokumuq boylarının birgə Qayakənd-Xoroçoy abidələri də vardır. Bütün bu lokal abidələr eyni basırıq kulturu fonunda yalnız regional dialektlər üzrə bir-birindən fərqlənir.[109]

Son tunc dövrü basırıqlarında əvvəlki çağların daş qutu, xəndək, kurqan, kromlex gələnəyi davam edir, bəzi abidələrdə atla birgə gömmə (Gəncə, Xaçbulaq, Naxçıvan, Qarabağ, Talıs) özünü göstərir, tək-tək hallarda fərqli etnik adət kimi ölüyandırma, parçalama, uzanıq gömmə özünü göstərsə də, əksər basırıqlar bükülü gömmə adətini təkrar edir. Son tunc dövrünü protoazər dialektlərinin gəlişmə çağı hesab etmək olar, çünki

[109] Azər dilinin dialekt və şivələri həmin lokal arxeoloji kulturların regionlar üzrə yayılmasını aydın əks etdirir. Dialektlərin coğrafi prinsiplə dörd qrup üzrə təsnifini akad. Məmmədağa Şirəliyev vermişdir (Ширялийев 1968, 16-17): 1) **Batı qrupu**. Qazax, Qarabağ, Gəncə dialektləri və Ayrım şivəsi - *Xocalı-Gədəbəy arxeoloji kulturu*; 2) **Güney qrupu**.Naxçıvan, Ordubad, Təbriz dialektləri və İrəvan şivəsi - *Qızılvəng arxeoloji kulturu*. 3) **Doğu qrupu**. Quba, Şamaxı, Bakı dialektləri, Muğan və Lənkəran şivələri - *Quba, Şamaxı, Abşeron və Talış-Muğan arxeoloji kulturu.* 4) **Quzey qrupu**. Şəki dialekti və Zaqatala-Qax şivəsi - *Zaqatala-Şəki arxeoloji kulturu*.

dialekt və şivələr lokal arxeoloji kulturların formalaşdığı bölgələrdə hələ bir neçə əsr məhəlli xüsüsiyətini saxlamaqla inkişaf yolu keçib söz-qopuz ustalarının dilində durulaşacaq, Quzey Azərbaycana urartu boylarının hərbi təcavüzünə, saqa-qamər axınlarına qədər protoazər boyları stabil inkişafla yaşayacaqlar. Lakin Güney Azərbaycanın güney bölgələri Diala çayının yuxarı axarlarına qədər orta tunc dövrünün sonlarında kassi boyları tərəfindən zəbt olunur və burada protoazərlər gəlmə etnik əhali ilə iç-içə yaşamalı olur və çox güman ki, bir qismi də Urmu hövzəsinə və doğu bölgələrə çəkilir. Erkən tunc dövrünün sonlarında Van yaxasından Böyük Zab çayının yuxarı axarlarına, Kərkük bölgəsinə sızan bəzi hurri boyları son tunc çağında Musasir bölgəsində məskunlaşmış və sonrakı çağlarda bəzi Urartu çar sülaləsi buradan meydana çıxmışdı.

Azərbaycanın Dəcləyanı bölgələri isə orta və son tunc çağlarında da vaxtaşırı basqınlara məruz qalmışdır. İkiçayarasında dalbadal yaranan Asur, Mitan-Hurri, Kassi sülalələri hakimiyəti Dəclə ilə Urmu arası bölgələri dəfələrlə zəbt etmiş, burada özlərindən asılı olan qısa və uzun müddətli vilayətlər yaratmışlar. Minil davam edən bu durum qarşısında protoazər boylarının xeyli hissəsi Urmu hövzəsinə və Quzey Azərbaycana çəkilmiş, bir hissəsi də buralardan Orta Asiya və Quzey Qafqaz tərəfə miqrasiya etmişlər. Bu durum protoazər boylarının kulturunda stabil oturaq şəhər yaşamı inkişafını ləngidən faktora çevrilsə də, sənətkarlıq və maldarlıq-ilxıçılıq sahələrində xeyli irəliləmə olmuşdur.

Hələ Kür-Araz kulturu dönəmində formalaşmağa başlayan folklor örnəkləri tunc dövründə genişlənmiş, mifik qəhrəmanlar, alp-ərənlər haqqında yaranan qoşma-dastan gələnəyi erkən dəmir çağında protoazər boylarının dilində xeyli gəlişmişdi. Qanadlı at, Misri qılınc kimi mifik dastan ünsürləri son tunc çağındakı yaşam tərzinə, yadelli basqınlar qarşısında duruş gətirə bilmək ovqatına uyğun süjetlərlə söz-qopuz ustalarının dilində cilalanır, geniş xalqın mənəvi ruhunu öləziməyə qoymurdu. «Koroğlu», «Oğuz» motivləri, at-qılınc kultu qonşu etnosların da folklor və mifoloji yaradıcılığına sirayət edir, eyni süjetlər başqa ölkələrdə yerli özəlliklə mayalanıb fərqli çalar qazanırdı. Luristan bölgəsi və Urmu hövzəsində son tunc çağına aid qazıntılarda artıq silah-yaraq, yəhər-yüyən və digər əşyalar üzərində «an üslubu» cizgisi görünməyə başlayır.

Dəmir dövrü

Azərbaycan ərazisində dəmir dövrü m.ö. IX-IV əsrlərə aid edilir.[110] Əlbəttə, belə bölgü şərtidir və Mana dövlətinin meydana gəlməsi ilə Alban və Atropaten dövlətlərinin qurulması arasındakı dövrü əhatə edir. Əslində, dəmir dövrü m.ö. XI əsrdən, Mana bəyliklərı çağından başlanır. Əgər erkən dəmir çağından İslamaqədərki dövrü (m.ö. I - m.s. I minillər) əhatə edən iki minillik zaman kəsiyini müxtəlif çağın mühüm siyasi-sosial hadisələri - Zərdüşt, Xristian, İslam dininin yaranması, Mana-Mada, Saqa-Qamər, Alban-Atropaten, həmçinin Əhəməni, Selevki, Ərsaq, Sasani, Xəzər dövlətlərinin qurulması ilə mərhələlərə bölsək, arxeoloji kultur gələnəyindəki davamlılığı izləmək xeyli çətinləşər, çünki siyasi qurumlar qurulub-dağılır, arxeoloji kultur isə özəlliyini saxlayır.Ona görə də, erkən dəmir dövründən sonra tarixi ədəbiyatda işlənən *Qədim* və ya *Antik dövr* və *Erkən Orta əsrlər* bölgüsü arxeoloji kulturun diaxronik təsnifatı üçün də məqbuldur.

Dəmir çağının əsas əlaməti metalişləmədə yeni metal növü olan dəmirin əldə olunmasıdır. Dəmirdən düzələn əkin-biçin alətləri, məişət əşyaları və ən əsası da silah çeşidləri protoazər boylarının həyat tərzini xeyli dəyişdi. Bu çağlarda metalişləmə Azərbaycanın əksər bölgələrində iz qoymuşdur. Erkən dəmir çağında Azərbaycanın əksər bölgələrində əvvəlki yaşayış məskənləri genişlənir, həm də yeniləri salınırdı. Bu dövrün abidələri böyük mühafizə qurğuları ilə diqqəti çəkir. İstər təbii müdafiə istehkamı, istərsə süni qurğular ətraf boyların basqını, qonşu ölkələrdən olan hücumların qarşısını almaq məqsədi güdürdü. Azərbaycanda boylar arasında ərazi savaşı, yağmalar adi hala çevrilir, boy birlikləri isə «hərbi demokratiya» qurumunun tələblərinə uyğun yaşam tərzi seçirdi.

Erkən dəmir çağında qala tikililəri xeyli artır.Qərbi Azərbaycanda siklop qalalar Göycə gölü yaxalarında (*Astxi-blur*, *Tmbadir*, *Berdadeğ*), Şəmşədində (*Noraşen*), Eçmiədzində (*Qrampa*) erkən dəmir çağına aid tikililərdir, lakin bunların adı son vaxtlar haylaşdırılıb. Naxçıvanda yekə daşlardan hörülən *Oğlanqala* diqqəti çəkir. Mil düzündə *Qaratəpə* kurqanın hündürlüyü 14 metrdir. Burada m.ö.VII-VI və V-I əsrlərə aid iki kultur təbəqə və çiy kərpicdən tikilmiş yaşayış məskəni vardır. Əldə olunan bəzi cilalı, naxışlı və boz, qara, qırmızı, çəhrayı rəngli çeşidli qablarla bə-

[110] Эюйцшов, 1986, 57.

rabər, qoyun başı formasında çoxlu gil fiqurun tapılması göstərir ki, qala sakinləri *qoyun kultuna* tapınmışlar. Bu dövrün abidələri Gəncə-Qazax zonasında daha sıx və sayca çoxdur. Burada əvvəllər mövcud olan *Baba-Dərviş, Töyrətəpə, Şomutəpə* və sair yaşayış məskənləri erkən dəmir çağının sinxron abidələri ilə yaxındır, m.ö. XI əsrdən davam edən *Sarıtəpə* isə m.ö.VII əsrdə yanğına məruz qalmış, sonra burada çay daşından tikilən evlərdə həyat davam etmişdir. Həmin qatda tuncdan asma at fiquru və üzərində «dönərgə»(Z) damğalı çoxlu sayda möhürlərin tapılması göstərir ki, qədim türk yazılarında «z» hərfinin işarəsi olub *Az* şəklində oxunan bu damğa ayrıca bir ailənin deyil, bütöv soyun və ya boyun bəlgəsi imiş. Cəlilabadda m.ö.VIII-VII əsrə aid Uzuntəpə abidəsində üzə çıxarılan müxtəlif ölçülü, çoxçeşidli tunc və dəmir xəncər-qılınclar, tunc bilərzik və üzüklər, qara və qırmızı rəngli saxsı qablar əvvəlki *Talış, Qızılvəng, Xocalı-Gədəbəy* kulturunu təkrar edir. Ümumiyətlə, dəmir dövrü abidələrinin böyük bir qismi *Muğan kulturu* kimi qeyd olunur ki, bu da dövrün gerçək üzünü - müxtəlif dialektlər üzrə lokal bölgələrdə məskunlaşan protoazər boylarının kənardan gələn dağıdıcı axınlara qarşı boylararası konsolidasiyasını göstərir.

Vaxtilə Azərbaycandan gedən saqa-qamər boyları m.ö.VIII əsrin ortalarından sonra yenidən bura qayıtdılar.[111] Əlbəttə, saqa-qamər boyları bura qayıdana qədər bir ucu Altay, bir ucu Azaq (Azov) yaxalarınacan uzanan böyük bozqır boyunca müxtəlif bölgələrdə olmuş, müxtəlif dilli boylarla qaynayıb-qarışmış, Urmu hövzəsindən apardığı heyvandar, ilxıçı və metalişləmə, «an üslubu» cizgi-bəzək gələnəyini daha da gəlişdirmiş, keçən bir neçə əsr içində özləri də xeyli dəyişmişdir. Quzeydən Azərbaycana girən saqa-qamər boylarıının tərkibində başqa diribaş etnosların da olması təbii idi, çünki qarşıda böyük və uğurlu yağma olayları vardı.

Protoazər boyları erkən dəmir çağında üç od arasında qalmışdı: quzeydən saqa-qamər axını, batıdan urartu, güney batıdan da asur basqınları. Onsuz da, Asur çarları elə əvvəllər də Azərbaycan torpaqlarını zəbt etmək niyətini dəfələrlə etdikləri hücumlarla gerçəkləşdirmək istəmişdilər. Bu durumda Mana, ardınca Mada dövlətlərinin yaranması da mərkəzləşmiş qaydada əhalini qorumaq məqsədi daşıyırdı. Azərbaycanın quzey, quzeybatı bölgələri taleyin ümidinə və yağma ehtirası ilə qayıdan protoazər soylu saqa-qamər bəylərinin insafına qalmışdı. Bir əsrə qədər Azərbay-

[111] Техов, 1980, 17; Azər xalqı, 2000, 89-90.

canın müxtəlif bölgələrində yerləşib Dağıstandan İrəvan və Ərzuruma qədər at oynadan saqa-qamər bəyləri burada ayrıca dövlət də qurdular. Lakin iki-üç nəsildən sonra onların bir hissəsi geri, Azaq yaxalarına qayıtdı. Bütün bu olaylar Azərbaycanın arxeoloji kulturunda dərin iz buraxmışdır, bəzi yerdə yanğın və dağıntı qalığı, bəzi yerdə də basırıq kulturunda dəyişmə görünür. Son tunc çağında dialektlər üzrə lokallaşmış bölgələrə yeni müdaxilə dildə, folklorda da öz təsirini göstərmişdir. Saqaların Azərbaycana qayıdışı bura bir bozqır, çöl kulturu ovqatı gətirdi.

Erkən dəmir çağında quzeydə olduğu kimi, güney bölgələrdə də çoxlu qalalar inşa edilmişdir. Mərənd yaxınlığında protoazər *zəngi* boylarının bölgəsinə düşən *Livar* təpəsində yanğın izini saxlamış qala urartu keramikası və daş evi ilə xarakterikdir. İqdıra yaxın *Sərəncqaladan* divar qalıqları qalıb. Hələ Kür-Araz kulturu dövründən yaşayış məskəni olmuş Şapur şəhərinə yaxın *Həftavantəpədə* m.ö.VIII əsrdən sonrakı təbəqədə urartu tikilisi var. Ərdəbil tərəfdəki *Ağqalada* erkən dəmir çağında yaşayış olmuşdur, Tehrandan quzey-batı istiqamətində yerləşən *Xurvin* abidəsi isə m.ö.XIII-IX əsrlərə aid təbəqəni əks etdirir. Erkən dəmir dövrünə aid olan Mana və Mada qalaları barədə Asur barelyefləri əvəzsiz qaynaq rolunu oynayır. Əksəri təpələr üstündə təsvir olunmuş bu qalalar möhtəşəm arxitekturası ilə diqqəti çəkir. Belə qala şəkillərindən biri də Urmu gölünün güney hövzəsində tikilmiş *Qarqar* qalasıdır. Asur yazılarına görə, ondan yuxarıda yerləşən qala da *Qarqari-hundur* adlanır, bu isə protoazər *qarqar* boyunun çoxsaylı olmasını göstərir.[112] Urmu hövzəsində həmin çağa aid eyni adlı iki *Alinza* (Alınca) qalası da vardır. Bu dövrdə Urmunun quzey bölgələrini işğal edən urartular orada bir neçə qala tikmişlər. Belə qalalardan biri «Rusanın kiçik şəhəri» adlanır. Bir başqası isə Ordubad tuşunda zəngi boylarının ərazisində urartu əsgərləri üçün qarnizon qalası kimi tikilmiş «*Sardurixurda*» adlı qaladır ki, bu da yerli zəngi boylarının urartu çarı Sardurinin ordası, ordugahı kimi tanıyıb *Sardurix-orda* şəklində bu qalaya verdiyi addır.

Urartular düşmən saydıqları protoazər boylarının (*az//aza*) yaşadığı İrəvan çuxurunda da *Erebuni* (İrəvan), *Arqiştixinili* (Qəmərli), *Teyşebaini* (Karmir-blur) adlı qalalar tikmişlər. Urartular həm Az ölkəsində, həm də Urmu quzeyində kanal və arxlar da çəkmişlər. Bu regionda süni suvarma qurğulardan hələ tunc çağında istifadə olunmuşdur. Naxçıvanda *Fərhad*

[112] Azər xalqı, 115-118.

arxı, *Qalacıq arxı* və Qarabağlar kəndindəki arx orta tunc dövrünə aiddir. Dəmir dövründə bu cür kanal-arxların çəkilməsi metaldan qazma alətlərin təkmilləşməsi ilə xeyli asanlaşmışdı, bol su isə bağ-bostan, əkin yerlərinin artması üçün lazım idi. Bu çağda üzüm becərmə geniş yayılmış, şərabçılıq ön sıralara çıxmışdı. Erkən dəmir çağında bütün bu təsərrüfat gəlişməsi arxeoloji qazıntılarda əmək alətlərinin, anbar-quyuların, saxsı qab-qacağın və böyük çaxır küplərinin artımında özünü göstərir.

Urmu gölünün yaxalarını, xüsusilə, quzey bölgələri Urartu dövləti zəbt etsə də, burada urartu kulturu yerli gələnəyi dəyişə bilməyib, yalnız qazıntılarda urartusayağı silah-yaraq, keramika qalıqları görünür. Xəzərin güney-batı bölgələrinə sızan irandilli boylar Mada dövləti qurulana qədər Qızılüzən çayı hövzəsinə gəlib çatmamışdı. Burada protoazər *qızıl* boyları yaşayırdı, böyük bir bölgə onların adı ilə *Qızıl-bud* (qızıl-boyu) adlanırdı. Çayın aşağı axarında yerləşən *Marlik* təpədə üzə çıxan erkən dəmir çağına aid (m.ö. IX əsr) atlı basırıqda atçılıq əşyaları da vardı. Abidəni tədqiq edən Ə. O. Negahbana görə, Marlik kulturu Mazandaran, Gilan, Talış və İranın quzey-batı sinxron abidələri ilə yaxındır.[113] Marlikə yaxın erkən dəmir çağı abidəsi *Qaluraz* da qızıl boylarının ərazisində idi. Urmu hövzəsinin güney bölgəsində *Ziviyə* yaxınlığında üzə çıxan dünya şöhrətli *Saqqız* dəfinəsi (IX-VIII əsrlər) saqa kulturunda «*añ üslubu*» adlanan motivlərin erkən mərhələsini əks etdirdiyindən R. Girşman *Saqqız* adının *saqa* boylarından qaldığını, A. Qodar isə «añ üslubu» motivlərinin Manada yarandığını, onu buradan Azaq yaxalarına saqaların apardığını qeyd edir. Bu ehtimalı bir çox alimlər də dəstəkləyirlər.[114]

Urmu yaxasında erkən dəmir çağı abidələri eyni kulturu əks etdirir. Kür-Araz kulturu çağından başlayıb İslamaqədər davam edən, 8 təbəqə çöküntü qalığı olan *Göytəpə* abidəsi bölgədəki sinxron abidələrlə, Suldus vadisinə açılan və bu vadidəki təpəliklərdə *Qalatgah*, *Hasanlu*, eneolit dövründən davam edən *Hacı Firuz*, çəhrayı və qəhvəyi rəngli gözəl keramikalı *Dəlmətəpə*, *Dinha II*, *Püştəlitəpə* abidələri eyni etnik kulturdan məlumat verir. Püştəlitəpə ilə sinxron yaxınlığı olan Təbriz bölgəsindəki *Yanıqtəpə* m.ö. I minilin əvvəllərinə aid boz gil məmulatı ilə eyni çağın

---

[113] Negahban, 1964; Gədəbəy arxeoloji abidələrində ıldə etdiyi əşyaları Almaniyaya göndərən Valdemar Belkin «Qalakənd» kolleksiyasında kəmər üzərindəki rəsmlər də «añ üslubu»nun prototipləridir (Nagel-Strommenger, 1985, 20, 41, 43 №-li tablolar).

[114] Членова, 1981, 80-92; Техов, 1980, 17; Azər xalqı («Saqa elatı» bölməsi), 63-108.

Hasanlu saxsıları ilə uyğunluq təşkil edir. Hasanlunun bu çağa aid təbəqəsində üzə çıxan bina qalıqları içində üç mixi yazılı əşya tapılmışdır. Bunlardan biri daş qab üzərində olan «*İdi ölkəsi (hökmdarının) Bauri sarayı*» yazısı böyük əhəmiyət kəsb edir, çünki yazının protoazər dilində açımı ***idı*** «qut» (qutsal) və ***bauri*** «börü» sözləri ilə gerçəkləşir: *İdı elbəyi Börü sarayı.* Yəni «Qutsal ölkə bəyi Bozqurdun sarayı».[115]

Hasanlu kulturu m.ö.VIII əsrdə Urartu işğalı ilə dağıdılmışdır. Ona görə, də B. B. Piotrovski bu dəfinəni VII əsrin sonu VI əsrin əvvəlinə aid edir.[116] Lakin buradakı digər iki yazıda m.ö. XIV əsrin əvvəli və ortasında yaşamış iki tarixi şəxsiyətin adı vardır: *Kadaşman-Enlil* adlı kassi çarının və *Aşşuruballit* adlı asur çarının adı. Bu səbəbdən həmin dəfinənin tarixi daha əvvələ, son tunc-erkən dəmir çağına aid ola bilər.

Erkən dəmir çağı Güney Azərbaycanın arxeoloji kulturunda saxsı məmulatı və metalişləmə sahəsində müəyyən dəyişikliklər özünü göstərir ki, bu da quzeydən urartu, sonra saqa-qamər, batıdan asur qoşunlarının ölkəyə soxulması, doğudan da irandilli boyların yavaş-yavaş sınır bölgələrdən ölkənin içinə sızması ilə baş verirdi. Saqa-qamər boylarının axınla quzey bölgələrə dolmasına qədər Quzey Azərbaycanın arxeoloji kulturu lokal dialeklərin formalaşdığı regionlar üzrə yekcins idi və bölgələrarası tipoloji eynilik vardı. Basırıqlarda özünü göstərən kiçik istisnalar böyük əraziyə yayılmış protoazər etnosunun xarakterik cəhətlərini dəyişmək iqtidarında deyildi. Hətta saqa-qamər boylarının burada bir əsr davam edən hegemonluğu da arxeoloji kulturda köklü dəyişmələrə səbəb ola bilmədi. Onların bir qismi Azaq yaxalarına qayıtdı, qalan hissəsi isə protoazər boylarına qarışdı və onlardan bir sıra yeradları qaldı.

Koban kulturu Güney Qafqazdan gedən boylarla yaranmışdı. Bu boyların Gürcüstan-Azərbaycan sınır bölgələri ilə əlaqəsi son tunc çağında zəif olsa da, Koban kulturu daşıyıcılarının həmin bölgələrə geri axını m.ö.VII-VI əsrlərdə artdı. Bu çağlarda Qara-dəniz yaxasından doğu yöndə Kolxida kulturu Araqvi çıyına qədər irəliləyir, həmin çağda Gürcüstanın güney bölgələrində azacıq da olsa, urartu kulturu görünür, doğu

[115] Yaxud «Ölkə bəyinin kutsal Bozqurd məbədi». Asur çarı III Salmanasarın vaxtında (m.ö.IX) yaxındakı Allabriya ölkəsinin bəyi «*Allabriyalı yanzi Buri-yaş*» adlanır.Urmu hövzəsində *Bari-qalası* (Til-Bari, Bit-Bari) da məlumdur (Дьяконов 1956, 156-157).

[116] Пиотровский, 1959, 255.

bölgələrinə isə saqa boyları ilə gələnlər yerləşir.[117] Görünür, protokartvel boylarının formalaşmasında VII-VI əsrlərdəki olaylar mühüm rol oynamışdır. T. K. Mikeladzeyə görə, Gürcüstanın batısında qədim mənbələrin Kolxida kimi qeyd etdiyi ərazilər - Çorox-Rion hövzəsi və Kürün yuxarı axarında orta tunc çağından formalaşıb, m.ö. IV əsrə qədər davam edən avtoxton kulturu zandilli boylara aid edilir.[118] Kvemo-Kartlinin qədim adı *Qoqarena* (Γωγαρηνη) - *Quqark* toponimi m.ö.VII əsrdə Güney Qafqaza gələn saqalarla bağlanır.[119] Doğrudan da, *qoqar* (gögər) boyları saqaların içində gəlib Borçalı-Axıska bölgələrində oturan batı türk boyu idi.

Azər xalqının etnokulturunda quzey bölgələrin arxeoloji yozumu düzgün aparılmadığı üçün bu regionun dəmir dövrü abidələri üzərində bir az geniş dayanmaq lazım gəlir. Bu bölgələrin Quzey Qafqazla əlaqəsi tunc dövrü boyunca davam etmişdir və m.ö.XI-VII əsrlərdə Koban kulturunun yaranmasında Güney Qafqaz boylarının təsiri aydın görünür. Gürcüstanın quzey bölgələri (Osetiyanın güneyi, Svanetiyanın bir hissəsi) Koban kulturu, batı bölgələri də Kolx kulturu dairəsində idi. Dağıstanla bu kultur dairəsinə düşən bölgələr arasında əlaqə isə hələ Kür-Araz kulturu dövründə vardı və bu əlaqə İslamaqədər davam etmişdir. Tuncdan dəmirə keçid dövründə *Dağbaş* (İçkeriya), *Muqərqan* (Məhərrəmkənd), *Karabudaq-kənd* və sair yaşayış məskənlərində ortaya çıxan yeni tipli xəncər, dəmrən, gəm və sair əşyalar Güney Qafqaz kulturunu əks etdirir.[120] Saqa köçündə bəzi boyların Dağıstanda oturması da mümkün idi.

Quzey Qafqazda m.ö.VIII əsrdən başlanan dəmir metalişləmə sonrakı əsrlərdə geniş vüsət aldı. Bu çağda Dağıstan və İçkeriyanın güney bölgələrində yaranmış Qayakənd-Xoroçoy kulturu *Şahsəngər, Arkas, Maki, Urtsek* yaşayış məskənləri və *Zandak, Muqərqan, Yamansu, Balansu, Yalxoy-moxk* basırıqlarında qeydə alınmışdır. Quzey Qafqazın mərkəzi və batı bölgələrində müdafiə divarları olmayan və yalnız təbii müdafiə relyefli yerdə və açıqlıqda salınmış yaşayış məskənlərindən fərqli olaraq, Qayakənd-Xoroçoy kulturu yayılan ərazilərdə səngər-qala tikintisi VIII əsrdən vardı.[121] Buranın əhalisi Azərbaycanla sıx əlaqədə olduğu üçün

[117] Погребова, 1984, 34-35.

[118] Микеладзе, 1969, 26-27.

[119] Есаян - Погребова, 10.

[120] История Дагестана, 89.

[121] ИНСК, 66.

dağətəyi terraslarda dəmyə əkinçiliklə yanaşı, çayyaxası ovalıqlarda artıq süni suvarma üsulundan da istifadə edir, evlər çaydaşı və gildən, Tarqu və Urtsekdə isə qala divarları içində tikilirdi. Qızıl-gümüş, mis-tunc əşyalarla bərabər, artıq dəmir-polad nizə ucluğu, ox dəmrəni, xəncər, digər yaraq-yasaq və xış ucluğu, bıçaq-oraq kimi alətlərin hazırlanması, metaləritmə kürə-sobaları, filiz külçə qalıqları yerli metalişləmə və dəmirçilik sənətinin yüksək səviyəyə çatdığını göstərir. Bu çağlarda Arazın sağında olan Qaradağ bölgəsində *polad* adlı protoazər boyunun əldə etdiyi dəmir filizi və dəmirişləmə yuxarı bölgələrə yayıldığı üçün «***polad***» sözü Dağıstan vasitəsilə protoqafqaz dillərinə keçir və sonralar əksər Qafqaz etnoslarının folklorunda dəmir kultu ilə bağlı şəxs adlarında geniş yayılır. Güney Qafqaz dulusçuluğu təsiri ilə Qayakənd-Xoroçoy kulturunda dulusçuluq çarxı və böyük küp çeşidləri ortaya çıxır, lakin burada dulusçu, dəmirçi, toxucu, dabbağ, dülgər sənətləri inkişaf etsə də, m.ö. I minilin ortalarında əməyin bölünməsinə qədər hələ ev sənətkarlığı səviyəsində qalmış, ayrıca istehsal sahələri kimi ayrılmamışdı.

Azaq yaxası və Tuna (Don) çayı hövzəsindən qalxıb Böyük Qafqaz dağlarını aşan, böyük bir hissəsi də Dağıstandan keçib Azərbaycana girən saqa boylarının axınları Dağıstanda da xırda boyların birləşməsinə, boy birliklərinin «hərbi demokratiya» yaşamına keçməsinə təkan verdi. Xəzər yaxalarında Tarqu, Kumuq, Tabasaran, Kubaçi bölgələrində yaranan lokal kulturların artıq bu çağlardan güney protoqafqaz və batı prototürk boylarının dialektləri üzrə formalaşdığını düşünmək olar. Sonrakı sarmat axınları isə Quzey Qafqazın batı və mərkəzi bölgələrinə nisbətən İçkeriya-Dağıstan bölgələrinə zəif sızmalar şəklində olmuşdur ki, bu da bəzi basırıqlarda uzanıq gömmə, güzgü qırığı, sarmat tipli silahlarla üzə çıxır. Alban dövlətinin yarandığı m.ö.IV əsrdən İslamaqədərki dövrəcən Dağıstan *hun, subar, gögər, avar, barsil, azər-xəzər, maskut* və sair türk etnoslarının müvəqqəti və daimi düşərgələrinə çevrilmiş, burada *Tarqu, Dərbənd* kimi şəhər-qala, *Beləncər, Səməndər, Şamşaxar, Urtsek, Aşağı Siqitma, Andrey-aul, Əski-yurd, Oxlu, İstisu* kimi yaşayış məskənləri salınmışdır. Artıq İslamın yayıldığı çağlarda ərəb-xəzər ordularının savaş meydanına çevrilən bu bölgələrdə m.s.VIII əsrdə Lakz, Tabasaran, Sarir, Kubaçi, Kaytak, Kumuq bəylikləri vardı. Maskut bəyliyi isə Dərbənddən güneydə IX əsrə qədər davam etmişdir. Dağıstanda da Quzey Azərbaycanda olduğu kimi, İslamaqədər Alban dövləti boyunca xristian, yəhudi dinlərini qəbul edən bəzi nax-dağıstan və türk boyları olmuşdur.



Güney-Qafqazda Saqa arxeoloji kulturu
(Есаян, Погребова, 1985, 20)

Saqa-qamər boylarının Azərbaycana qayıdışı bir çöx bölgələrdə iz qoymuşdur. Arxeoloq S.Yesayan və M.Poqrebovanın birlikdə yazdığı «Zaqafqaziyada skif abidələri» adlı kitab məhz bu mövzuya həsr olunmuşdur. Kitabın 20-ci səhifəsində verilən xəritədə aydın görünür ki, bu abidələrin çoxu Tbilisi-İrəvan arasındakı zolaqda yerləşir.[122] Qanıx-Qabırrı çayları arasında, Zəngi-Kasax-Arpa çayları və Kürün orta axarları boyunca səpələnən bu basırıqlarda tapılan saqa (skit) silah növü və xüsusilə ox ucluğu-dəmrənlər, atçılıq nəsnələri, «an üslubu» ilə süslənmiş əşyalar tək-tük halda Abşeron, Ağcabədi (Kiçik kurqan), Gəncə, Mingəçevir, Gədəbəy, Xankəndi və Naxçıvanda tapılmışdır. Bu arxeoloji bəlgələr göstərir ki, Saqa-qamər boylarının qurduğu *dövlət-Ellik* Kür-Araz arasında Göycə gölü hövzəsini əhatə edən ərazidə yerləşmişdir. Saqa-qamər qoşunları öncə urartuları məhz bu regiondan qovub çıxartmışdı. İndi Ermənistan adlanan qədim azər yurdunda qurulan Saqa dövləti Herodota görə 28 il, Bibliya və asur qaynaqlarına görə isə daha uzun müddət bütöv Asiyanı lərzəyə salmış, yaxın bölgələrdə siyasi-inzibati ərazilərin dəyişməsinə təkan vermişdir.

Saqa-qəmər boylarından Abşeron və Qobustan bölgələrində *Şağan*, *Pirşağa*, *Pirsaqat* adları, quzey-batı bölgələrdə *Sakaşen* (Şəki), *Zaqatala*, *Qımırlı*, *Qomareti* (Dmanisi), *Kumıs* (Qardabani), *Aqsaqa* (Axıska) adları yadigar qalmışdır. Belə adlar Kürün yuxarı axarlarında *Alget-çayı*, *Beştaşeni*, Borçalı və Allahverdidə iki *Qaçağan* kənd adında, İrəvan bölgəsində *Sakat* çuxuru, *Kemrü* və *Qəmərli* adlarında da özünü göstərir.

[122] Есаян - Погребова, 20.

Bu adı çəkilən yerlərin əksərində saqa basırıqları olduğu kimi, saqalarla gələn *duvan* boylarının oturduğu *Dvani* (Gürcüstan), *Dvin* (İrəvan) yaşayış məskənlərində də saqalara məxsus əşyalar tapılmışdır. Məncə, axtarılsa Qobustan yaxınlığındakı Duvanlıdan da belə nəsnələr tapıla bilər. Saqa-qəmər çağından yadigar qalan yeradları (*Sahatlı, Kəmərli* və b.) Güney Qafqazda çox yayılmışdır. Maraqlıdır ki, «Dədə Qorqud» boylarında adı keçən *Aq-saqa, Şirak düzü, Tuman qalası* (Dmanisi), *Göycə gölü*, xüsusilə *Qan-Abqaz eli* (Abxaziya) bölgələrində saqa-qamər abidələri çoxdur. Bu dastandakı bəzi motivlərin saqa-qamər çağında yaranması şübhəsizdir.

Saqa dövründən sonra da *hun, bulqar, subar, xəzər* və sair türk boylarından başqa, digər dilli etnik boyların Quzey Azərbaycana kütləvi axını olmadığı üçün son tunc çağında dialektlər üzrə formalaşmış lokal arxeoloji kultur Alban çağı boyunca İslamaqədərki dövrəcən yerli zəmin üzərində cəmiyətin inkişafı ilə bağlı müəyyən dəyişmələrlə davam etmişdir. Saqa dövru basırıqlarda ölügömmə əvvəlki gələnəklə bükülü şəkildə davam edir, lakin tək-tük hallarda uzanıq gömmə və kremasiya halları da özünü göstərir. Bu müxtəliflik saqa boylarına qoşulub gələn boylara aid basırıqlarda daha qabarıqdır. Belə ki, Kiçik kurqan, Dvani, Abşeron basırıqları bükülü gömməni əks etdirirsə, Mingəçevir, Sarıtəpə (Qazax) və Qabırrı-Qanıx çayları arasındakı basırıqlarda *uzanıq* gömməyə rast gəlmək olur.[123] Xaçınçay yaxasındakı hündür kurqanaltı basırıqda 4 skeletdən birinin uzanıq, üçünün isə oturaq şəkildə olması burada gəlmə boy və ya əsgəri dəstə başçısının üç qulluqçu və ya əsirlə dəfn olunduğunu bildirir. Daha çox sadə torpaq basırıqlarda üzə çıxan uzanıq gömmə, qırmızı zoomorfik formalı qablar, tunc və dəmir silahlar, qızıl, gümüş və tunc bəzək, tökmə tunc damğalar ilə yanaşı, saqa dəmrənləri göstərir ki, saqa axını ilə bura müxtəlif etnik kulturlu boylar da gəlmişdir. Kollektiv basırıqda oturaq gömülən bükülü qoyulmuş ölüyə qurban verilənlərdir. Belə basırıqlar (3-27 arası) ən çox İrəvan bölgəsində üzə çıxmışdır. «Kurqanlı və kurqansız basırıqlar əvvəlki proporsiya ilə davam edir; ölügömmə əsasən *bükülü* haldadır, lakin *azbükülü* və *uzanıq* formalar da vardır».[124]

T. S. Xaçatryana görə, Güney Qafqazda tam və yarımçıq kremasiya m.ö. II minildən bəlli olsa da, az yayılmışdır.[125] Ümumiyətlə, m.ö.XV-VI əsrlər boyu Azərbaycanda ölüyandırma adətinə nadir hallarda rast gəlmək

[123] Есаян - Погребова, 21-37.

[124] Погребова, 1984, 28.

[125] Хачатрян, 1975, 95.

olur.[126] Alban dövründə artıq tək-tək basırıqların içində tonqal qalanması, sonra ölünü külün üstünə yenə də əvvəlki kimi bükülü qoyulması adəti ortaya çıxır.[127] Eyni vəziyət Göycədən batıda Misxana çayının sol yaxasındakı *Loruqala* basırığında özünü göstərir, burada kremasiya və bükülü gömmə vardır.[128] Görünür, zərdüşt inancı (ölünü torpaqdan ayırma) Atropatendə küp basırıqların ortaya çıxmasına səbəb olduğu kimi, artıq m.ö.VI əsrdən İrəvan-Alban torpağına da gəlib çıxmışdı. Mingəçevir küp qəbirləri buradakı basırıqların üçdə birini təşkil edir.[129] Belə küp basırıqlar Mingəçevirə yaxın Yevlax, Xaldan, Zaqatala, Şəki, Qax, İsmayıllı rayonlarında olduğu kimi, Qazax, Qarabağ, Laçın, Ağdaş-Ucar, Muğan və Naxçıvanda da tapılmışdır. Maraqlıdır ki, Güney Qafqaz ölkələrində küp basırıq yayıldığı halda Quzey Qafqazda görünmür. Deməli, bu gələnək güney ölkələrdən gəlmişdir. Quzey Azərbaycanda küp və saxsı təknə basırıqları kənar etnik boyların deyil, protoazər boyları içində atəşpərəstliyi təbliğ edən maqların fəaliyətinin nəticəsiydi. Eyni durum sonrakı çağlarda xristianlığı qəbul etmiş albanların xristiansayağı torpaq, daş qutu və daş sənduqə basırıqlarında uzanıq və əlləri sinədə çarpaz şəkildə gömmə adətinin yayılmasında özünü göstərir.[130] Hər halda, küp basırıqla yanaşı, *Yaloylutəpə kulturu* adlanan abidələrdə bükülü gömmə gələnəyi davam etmişdir, hətta küp-təknə basırıqların çoxunda bükülü gömmə gələnəyi uzun müddət saxlanmışdır.

Protoazər boylarının basırıq kulturunda *bükülü gömmə* ilə yanaşı bir neçə etnik atributlar vardır ki, onların üzərində dayanmaq lazım gəlir. Bunlardan biri *kurqan* kulturudur, biri *atlı* gömmə, biri basırığa *bağa* və *kasa* qoyma, biri *daş heykəl*, biri də *riton*-ayaqdır. Bu atributların hamısı Azərbaycanda ortaya çıxandan sonra ətraf bölgələrə yayılmışdır. Kurqan kulturu çeşidli əlamətlərə malikdir, onun ətrafına dik daşların dairəvi düzülməsi - kromlex adəti hələ Kür-Araz kulturundan əvvəl dairəvi evlərlə bağlı yaranmışdı.[131] Kromlexli basırıqlar son tunc çağında Güney Qafqazda

---

[126] Погребова, 1984, 29.

[127] Халилов, 1984, 74-75.

[128] Деведжян, 1981, 61.

[129] Газыйев, 1960, 7; M. N. Poqrebova yazır ki, Gürcüstanın batı bölgəsində üzə çıxan qabda ölü basdırmaq gələnəyinin bu ərazidə qədim yerli kökü olmuşdur (Погребова, 30).

[130] Эюйцшов, 1986, 122-123.

[131] Мартиросян, 1954, 46.

geniş yayılmışdır.[132] Ölənin o dünyada da dairəvi evdə yaşaması inamı ilə yaranmış kromlex adətinin artıq dairəvi evlər tikilməyən çağlarda da davam etməsinə səbəb məhz «səbəbi unudulmuş» vərdişin **etnik gələnək** atrubutuna çevrilməsidir. Azərbaycanda son tunc-erkən dəmir çağından atlı basırıq gələnəyi (*Şahtaxtı, Marlik-təpə, Yeni Bayazid, Loruqala*) formalaşmışdı. Burada bəzi kurqanlarda çoxlu sayda atın qurban verilməsi (*Sarıçoban* kurqanı -16, *Borsunlu* - 8) ölən şəxsin böyük nüfuz sahibi və varlı olmasından xəbər verir. Əlbəttə, Altaya gedən saqa boynun daha çox ilxıya, ölən bəyin isə böyük nüfuza malik olması *Arjan* kurqanında (m.ö.VIII-VII əsr) 160 at qurbanı ilə ortaya çıxır.Vaxtilə atlı basırıq etnik atributu ilə Azərbaycandan gedən saqa-qamərlərin qayıdışı m.ö.VII-VI əsrlərdə atlı basırıq gələnəyinin daha geniş yayılmasına səbəb oldu və bu çağacan belə gələnəyi olmayan Gürcüstana da keçdi.[133]

Basırığa bağa (tısbağa) qoyulması gələnəyi hələ prototürk çağında yaranmış *bağa kultu* ilə bağlı idi və prototurk uruqlarının əksəri deyil, bir qismi buna tapınırdı. Möhtəşəm qədim türk yazılı daşlarını bağa heykəli üzərində dikəldən, bu inamı Altaya aparıb Türk xaqanlığını quran boyların əcdadı Azərbaycandan getmiş doğu prototürklər idi. Ata yurdda qalan bəzi protoazər boyları da bağanı basırığa qoyur və bu gələnəyi Alban çağı boyunca davam etdirir. Ölənin başına yaxın kasa qoyulması da qədim dünyagörüşlə bağlı olub, minillər boyu davam etmişdir. İlk dəfə Güney Azərbaycanda m.ö.XI-IX əsrlərdə yaranan at, qoç və digər heyvan başlı riton-ayaq içki qabı buradan Quzey Qafqaz və Orta Asiya (*Koykırılqankala*) istiqamətində yayılmışdır. Basırıq yanında dikinə qoyulan daş adam heykəllərin də ilk örnəkləri Azərbaycan (*Qobustan*), Güney Azərbaycan və Doğu Anadoluda (*Hakkari*) tapılmış, bu gələnək Alban çağında da davam etmişdir.[134] Buradan gedən prototürk boyları bu adəti bütöv *bozqır kulturuna* çevirmişlər. «Ölənin görkəmini əks etdirən» daş heykəlin basırıq yanında qoyulması haqqında çin qaynaqları da məlumat verir.[135] Göründüyü kimi, *at-bağa, kurqan-kromlex, kasa-ayaq, daş heykəl* və başqa etnik basırıq atributlarını Altaya və Azaq yaxalarına daşıyan prototürk boyları bu gələnəkləri minillər boyu mühafizə etmişlər.

---

[132] Погребова, 1984, 28.

[133] Мартиросян, 1954, 98; Погребова, 1984, 30.

[134] Мурадова, 1979, 37; Халилов, 1984, 66. Belə bəngüdaşlardan IV Bitikdə danışılır.

[135] ПСДК, 282.

Prototürklər eneolit çağından basırıqları yaşayış yerindən qırağa çıxarmış, ölünü bükülü-qıvrılmış şəkildə basırığa qoyub, üzərinə qırmızı qan rəmzi kimi oxra səpmişlər.Azərbaycanda Xalaf, Ubeyd, Kür-Araz kulturu və sonrakı çağlar boyunca davam edən bükülü basırıq insanın *ana bətnində olduğu vəziyətdə o dünyada yenidən doğulacağı* inamı ilə bağlıdır. Bükülü hal Alban çağında davam etdiyi kimi, Güney Azərbaycanda da *Təpə-Sialk III* kimi abidələrdə qabarıq əks olunmuşdur. R. Daysona görə, Urmu yaxasında 10 kultur təbəqəli Hasanlu abidəsinin m.ö.XII-XI əsrlərə aid IV qatında özünü göstərən bükülü basırıq əvvəlki ənənəni davam etdirmişdir.[136] Prototürk boyları bu gələnəyi getdiyi yerlərə aparmışlar. Türkmənistanda (*Anau, Moncuqlutəpə, Qaratəpə, Namazqatəpə*) bükülü basırıq eneolit çağından bəllidir.[137] Saqa-qamər bükülü basırıqları Quzey Qafqazda da özünü göstərir.[138] İbn Fədlanın təsvir etdiyi xəzər xaqanlarının basırığı saqa bəylərinin basırıq gələnəyini təkrar edir.[139]

Göründüyü kimi, Azərbaycanda erkən dəmir dövrü basırıq kulturu yeni çalarlar qazansa da, əvvəlki gələnək itməmişdir. Arxeoloji qaynaqlar minillərlə davam edən etnik atributları əks etdirdiyi üçün Azərbaycan əhalisinin tərkibində gəlmə yad ünsürlərin cüzi olduğunu göstərir. Saqa-qamərlərin Azərbaycana axınını sonralar təkrar edən hun, subar, bulqar, xəzər və sair boylar da protoazərlər kimi türk etnosları olduğu üçün buranın arxeoloji kulturunda qabarıq dəyişiklik olmamışdır. Quzey bölgələrdə yaşayan qafqazdilli boylar Kür-Araz kulturu çağından protoazər boyları ilə eyni mədəni mühitdə olduğundan hər iki etnosun yaşam tərzi oxşar inkişaf zəminində təşəkkül etmişdir. Sasanilər çağında Xəzərboyu zolaqda məskunlaşan əhalinin bir qismi bura köçürülən irandilli boylarla qarışmış, ərəb istilası dövründə Azərbaycana köçürülən azsaylı ərəblər isə bir-iki nəsildən sonra assimilyasiya olunmuşlar. Saqa-qamər dövründə Quzey Azərbaycanda iki etnos - əksər bölgələrdə azər, quzey bölgələrdə isə güney və doğu protoqafqaz boyları vardı. Lakin Güney Azərbaycanın güney və güney-doğusunda artıq protoazər boyları ilə yanaşı, pers və digər irandilli boylar, güney-batısında isə samidilli boylar məskunlaşmışdı.

Saqa-qamər çağından sonra Quzey Azərbaycanda çoxlu bəyliklər ortaya çıxdı. Əhəməni dövləti dağılandan sonra isə alban bəylərinin baş-

[136] Халилов, 1984, 56; Гашгай, 1993, 18.

[137] Энеолит СССР, 20.

[138] Виноградов, Дударев, Рунич, 1980,184-199.

[139] İbn Fadlan, 77.

çılığı ilə burada Alban dövləti quruldu, lakin bu dövlətə Selevkilərdən asılı olan batı bölgələrdə yaşayan subar, qaşqay, ərmən, gögər və digər protoazər boyları daxil edilmədi. Güneydə isə Kiçik Mada kimi tanınan ərazilərdə müstəqil siyasət yürütməyə çalışan Atropaten dövləti yarandı və müəyyən çağlarda bu dövlətin İrəvan və Gögər-Borçalı ərazilərinəcən hökmü yürüdü.

Bu çağlarda Atropaten və Alban bölgələrində böyük şəhərlər salındı, məbədlər tikildi. Quzey bölgələrdə bişmiş kərpicdən tikilən bəzi evlərin damı kirəmitlə örtülürdü. Bütöv Azərbaycanda şəhərləşmə dövrü başlanmışdı, sənətlər inkişaf edir, ticarət qaydaya düşürdü, artıq Alban çarlarının yerli gümüş sikkələri dövrəyə buraxılmışdı.[140] Burada sənətkarlıqla yanaşı, maldarlıq və əkinçilik də inkişaf edirdi, təsərrüfat üçün yeni olan pambıq becərmə sahəsi ortaya çıxırdı.

Atropaten-Alban çağından İslamaqədərki dövrlər Selevki, Ərsaq, Sasani, Xəzər, Bizans, Rum və Ərəb dövlətlərinin Azərbaycanla bağlı apardığı siyasət, dövlətlərarası müharibələrə azər boylarının cəlb olunması haqqında yazılı qaynaqlar olduğundan arxeoloji bəlgələr üzərində geniş dayanmağa ehtiyac yoxdur, sonrakı bölmələrdə yeri gəldikcə bəzi arxeoloji faktlardan istifadə olunacaqdır. Lakin burada doğuya gedən prototürk boyları və Ata yurd problemi ilə bağlı arxeoloji qaynaqların verdiyi məlumatı gözdən keçirməyə ehtiyac vardır. Prototürkləri Altay dil ailəsinə bağlayan tədqiqatçılar türklərin Atayurdunu Mərkəzi Asiya bölgələrində yerləşdirmək istəyirlər. Ona görə də Monqolustanın quzey və quzey-batı bölgələrindən tutmuş Minusinsk çökəkliyində, Altay-Sayan bölgələrində, Yeniseyin orta və yuxarı axarlarında, bir sözlə, qədim türk yazılarının ortaya çıxdığı və doğuda erkən orta əsrlərdə Türk bəyliklərinin, Türk xaqanlığının yarandığı ərazilərdə, xüsusilə Güney Sibirdə ortaya çıxan arxeoloji kulturu ötəri də olsa, gözdən keçirək.

Baxmayaraq ki, Güney Sibirdə neolit çağı Azərbaycandan 4 minil sonra başlanır, hətta həmin dövrə aid də arxeoloqların axtarışı cəmi bir basırıq, bir yaşayış məskəni və bir neçə düşərgə ortaya çıxarda bilmişdir. Burada eneolit dövrü də (m.ö.XXV-XVIII əsrlər) Azərbaycan və Orta Asiyaya nisbətən çox gecikmişdi və yalnız bu çağda Minusinsk ovalıqlarında maldar Sibir boylarının məskunlaşması ilə *Afanasyevo kulturu* başlayır. Neolit dövründə yerli Sibir uruqlarının maldarlıqla məşğul olma-

[140] Бабаев, 1990.

dığı arxeoloji ədəbiyatdan məlumdur. Güney Sibirə də maldarlığı afanasyevolular hazır şəkildə gətirmişdi. Afanasyevo kulturunun Altayın batısında formalaşıb Minusinsk çökəkliyinə gəldiyini deyən tədqiqatçıların bir qismi bu kulturu daşıyanların arxeoloji və antropoloji (avropoid) əlamətini əsas götürüb, onların Volqa-Ural arasından gəldiyini iddia edirlər. Afanasyevo kulturu A. O. Okladnikova görə, Sibir mühiti üçün yad idi.[141] Ətraf bölgələrin əhalisi qarışıq və monqoloid olduğu halda, gəlmələrin avropoid olması, yerli uruqların ovçuluqla, gəlmələrin isə maldarlıqla məşğul olması faktlarını nəzərə alan və gəlmələrin Orta Asiya mənşəli olduğunu istisna etməyən S.V. Kiselyev bu miqrasiyanı Altayın dağlıq və ovalıq bölgələrindən Yeniseyə və Monqolustan çöllərinə keçdiyini qeyd edir.[142]

Afanasyevo kulturu III minilin sonu II minilin əvvəllərində Güney Sibirdə düşərgələr salmış varlı-kasıb bölgüsü olmayan heyvandar uruqların çayqırağı ovalıqlarda buraxdığı kurqanlardakı eyni qaydalı basırıqlarda aydın görünür.Tək və kollektiv (8-ə qədər) basırıqlarda silah və əmək alətləri deyil, yalnız üzərindəki taxma bəzək əşyaları ilə dizi bükülü və arxası üstə uzanıq, oxralı skeletlərin yanında saxsı və taxta qablar qoyulmuşdur. Basırıq nəsnələri göstərir ki, afanasyevolular ağac və mis, qızılgümüş metalişləmə sənətini bilirdi. Sonralar uruq başçılarına aid böyük kurqanların yaranması burada sosial gəlişmənin reallaşdığını göstərir.

Afanasyevo kulturu yayılan ərazilərdə sonralar *Okunyevo kulturu* görünməyə başlayır və arxeoloqlar 35 il öncə müəyyən edilən bu kulturun daşıyıcılarını Sibirin batı ərazilərindən gələn protosamodi boyları olduğunu düşünürlər. Afanasyevoluların maldar avropoid, okunyevoluların isə əsasən ovçuluqla məşğul olan qarışıq monqoloid olması və fərqli basırıq kulturu bunların arasında genetik əlaqə olmadığını göstərir. Lakin sonralar bu iki etnik qrup arasındakı fərqlər azalır, bir-birinə qovuşan boylar qarşılıqlı asimilyasiyaya uğrayır. Bunlar yaşayan bölgələrin orta qurşağında artıq Andronovo kulturu görünməyə başlayır. Okunyevo kulturu yuxarı bölgələrdə m.ö.XIII əsrə qədər, güney bölgələrdə isə Qarasuk kulturu çağına qədər (m.ö.XI) davam edir. Güney Sibirin, xüsusilə Sayan dağları ilə əhatə olunmuş Yenisey vadilərinin əlverişli təbii şəraiti, bol otlaqlar, yuxarılarda alp çəmənliyi, buradakı filiz yataqları müxtəlifdilli et-

[141] КСИИМК, 1941, вып. 9. 5-14.

[142] Киселев 1951.

nosları çəkib Minusinsk çökəkliyinə gətirirdi, gələnlər də burada bir-birinə qarışırdı. Tunc dövründə Mərkəzi Asiyanın qərb bölgəsi «Tuva və Xakasda avropoid irqin xüsusi növü olan braxikran tipi formalaşırdı».[143]

Əvvəllər *Andronovo kulturunun* Yenisey hövzəsində yarandığını güman edirdilər, çünki bu kultura aid bəlgələr ilk dəfə burada tapılmışdı. Lakin qıpçaq çölü tədqiq olunduqca həmin fikir dəyişdi və Minusinsk ovalığının quzeyi Andronovo kulturunun ən az yayıldığı, həm də bu kulturun ən doğu lokal bölgəsi olduğu aydınlaşdı. Bu maldar-ilxıçı boyların kurqanları adətən otlaq yerlərində üzə çıxır. Yeniseydəki Andronovo kurqanlarında kromlex, daş qutuda bükülü gömmə gələnəyi eynən Azərbaycandakı basırıqları təkrar edir. Bəzən Orta Asiyanın çöl zolağındakı Andronovo kulturunu ari boylarına aid etməyə cəhd edirlər, lakin bunun «ari (hindiran) tayfalarına aid olmadığını» söyləyənlər də var.[144] Batı Sibir və Altay çöllərindən keçib m.ö. XIV-XIII əsrlərdə Minusinsk ovalığına girən andronovolular burada Qarasuk kulturu dövrünəcən üzdə idi.[145]

Andronovo kulturuna oxşayan və antropoloji cəhətdən okunyevlilərlə eyni olan boyların əsasən Minusinsk ovalarında məskunlaşdığı yerlərdə formalaşan *Qarasuk kulturu* Dağlıq Altay, Tuva və Monqolustanda yayılmamışdı. Qarasuk kulturu çağında (m.ö. XI-VII) Minusinsk ovalığında tuncdan hazırlanan əşyalar xeyli çoxalır. Bu kulturun yaranmasında iki braxikefal etnosun iştirak etməsi kromlexlərin andronovo sayağı dairəvi və dördkünc düzülməsində, ölünün həm ayaqları yarımbükülü uzanıq, həm də tamam uzanıq qoyulmasında özünü göstərir. Basırıq inventarı içində qab, çoxlu bıçaq ağzı, ölənin daşıdığı və geyiminə taxılan bəzək əşyaları vardır.[146]

Minusinsk ovalığında m.ö.VIII-III əsrlərdə yayılan *Taqar kulturu* bu çağlarda digər regionlarda özünü göstərən «saqa» kulturu ilə yaxınlıq təşkil edir. Bəzi arxeoloqlar Taqar kulturunu VI-V əsrlərə aid edirlər.[147] Taqar

---

[143] Алексеев - Гохман, 42.

[144] Сарианиди, 1977, 149; Гамкрелидзе - Иванов, 918.

[145] Вадецкая 1986, 47; Andronovo basırıqları Aşpıl gölü, Kadat, İnqol (İn-göl), Ujur, Orak, Qarasuk, Bateni, Yarki, Erba çayı, Tepsey təpəsi və sair yerlərdə aşkar olunmuşdur.

[146] Мартынов, 1982, 104-106.

[147] Вадецкая, 1986, 79; Əslində isə Karasuk kulturu üzərində formalaşan Taqar kulturu m.ö.XI-I əsrlər boyu müəyyən mərhələlərlə davam etmişdir (Боковенко, 2000, 519)

kulturunda Azərbaycanın güney bölgələrində atçılıqla bağlı yaranmış at şəkilli əşyalar, eyni yüyən-gəm tipləri görünməyə başlayır və «añ üslubu» geniş yayılır. Son tunc-erkən dəmir çağlarında Mazandaran və Luristan abidələrindəki atçılıq nəsnə tiplərini təkrar edən Taqar kulturu daşıyıcıları atdan istifadə etsələr də, atçılıqla məşğul olmurdular, həm də «añ üslubunda» ayaqlarını altına yığmış maral motivi Yeniseydə yalnız m.ö. V əsrdə ortaya çıxır.[148] Bu səbəbdən onlar birbaşa Azərbaycandan gələn boylardan deyil. Sadəcə, taqarlıların artıq o dövrlərdə Altayda olan saqalarla alış-veriş əlaqəsi ola bilərdi. Öncə cüzi monqoloid cizgili avropoid tip kimi görünən taqarlılarda bu cizgilər sonralar artır.

A. Q. Kozintsev yazır ki, «taqarlı antropoloji tipi Altay (sak) və Qazaxstan (afanasyevo-andronovo) tiplərinə yaxındır».[149] V.V. Bunak isə afanasyevo-andronovo kulturu daşıyıcıları ilə müasir türkmən-azər boyları arasında antropoloji baxımdan yaxınlıq görür.[150] Ümumiyətlə, taqarlıların etnik mənşəyi çox dolaşıqdır; yarımqazma və yerüstü daxmalarda yaşayan, maldarlıq və primitiv əkinçiliklə məşğul olan, boy başçılarına böyük kurqanlar quran, tək və çoxlu kollektiv basırıqlarda ölünü uzanıq gömən, tərkibində həm antropoloji, həm də basırıq müxtəlifliyi olan bu boyları da vahid etnik toplum saymaq çətindir. Bu da mümkündür ki, Taqar kulturu çağında Qazaxıstandan dalğa-dalğa keçib Yenisey yaxasına gələnlər buradakı boylara qarışmışdır. Hun çağına (m.ö. III) qədər davam edən Taqar kulturu Kemerova bölgəsində miladacan yaşadı.

Hunların çağında Minusinsk ovalığında yeni tipli Taştık kulturu ortaya çıxır. Basırıqda ölüyandırma adəti görünür, ölənin maskası düzəldilir, məişətdə çin əşyaları artır. Hun çağına qədər müəyyən ehtimalla Orta Yenisey çöllərində prototürk arxeoloji kulturuna bənzər m.ö. XXV-XVIII əsrlərin Afanasyevo kulturunu saymaq, Andronovo kulturunu (m.ö. XIII-XI) isə yaxın hesab etmək olar. Bunu da nəzərə almaq lazımdır ki, hər iki kultur yerli mənşəli olmayıb, batıdan gəlmədir və bunları gətirənlərin isə doğu prototürk boyu və ya prototürklərlə sıx kontaktda olmuş başqa etnos olması aydın deyil, hələlik bu məsələ açıq qalmışdır. Hunlardan asılı olan bu bölgələrdə türk boylarının sonralar oturduğunu da düşünmək

[148] Членова ,1981, 80-93.

[149] Козинцев, 1977, 67.

[150] Бунак, 1956, 103.

olar. Eyni durum Monqolustanda da özünü göstərir, hun çağına qədər burada prototürk arxeoloji kulturu sayıla biləcək bəlgəyə rast gəlmək olmur.

Batı Monqolustanda ilk tunc alətlər Afanasyevo kulturunun gəlişi ilə göründü. «*Monqolustanda tunc əşyaların yayılması m.ö. II minilliyin yarısından sonra başlandı*».[151] Bu da Qarasuk kulturu ilə bağlı idi. Monqolustanın batı və quzey-batı bölgələrində görünməyə başlayan ilk kurqanlar Altay-Sayan arxeoloji kulturu ilə eyni olub, m.ö. I minilin əvvəlində burada dəmir dövrünə keçid çağlarına aiddir. Çandaman dağında dəmir dövrü qazıntılarında (m.ö.VII-VI) tapılan qafatasılar avropoid irqə məxsus olsa da, artıq onlarda monqoloid cizgilər görünürdü.[152] Monqolustanda iki böyük etnik toplum olan *xunnu* və *dunxu* boybirləşmələri m.ö.V-III əsrlərdə formalaşmışdı. Görünür, hun çağına qədər Monqolustanın quzey və quzey-batı bölgələrində qabarıq şəkildə prototürk izi olmayıb.

İlk doğu prototürk abidələri m.ö. VIII əsrdən başlayaraq, Tuva ərazisində Aldıbel və Saqlıda qabarıq şəkildə üzə çıxır. Xemçik çayının Yeniseyə qovuşuğunda erkən saqa çağına aid yaranmış *Aldıbel kulturu* təmiz prototürk xarakteri daşıyır. Burada bir-birinə söykənən iki dairəvi kurqan altında 1-dən 7-yə qədər basırıqlar yayılıb. Tək daş qutuda və ya kəsmə ağac basırıqda əsas şəxs ortada sol böyrü üstə bükülü gömülmüşdür. Basırıq inventarı içində qab, yüyən və sair atçılıq nəsnələri, güzgü, xəncər, «an üslubu» ilə süslənmiş əşyalar vardır. Uyuk dərədə *Arjan kurqanı* isə (m.ö.VIII-VII əsr) böyük elbəyin basırığıdır və burada 160 at qurban verilmişdir. Aldıbel kulturunun yerində m.ö. V-III əsrlərdə *Saqlı kulturu* formalaşmışdır.[153] Burada da ətrafı dairəvi tikili daş-torpaq kurqanda kollektiv basırığa və «an üslublu» yüksək zövqlü sənət əsərlərinə rast gəlmək olur.

Doğu prototürk arxeoloji qaynaqları ilə bağlı bu qısa xatırlamada aydın olur ki, prototürk etnosunun ilkin Ata yurdunu Mərkəzi Asiyada yerləşdirməyə arxeoloji əsas yoxdur. Əsl prototürk arxeoloji kulturu Altayın batı bölgələrinə m.ö. I minilliyin başlarında gəlib çıxmışdı, bunun ilk nümunələrini Tuva ərazisində izləmək olur. Daha erkən çağlarda Güney Sibirə gələn Afanasyevo və Andronovo kulturu prototürk emiqrantların ilk doğu kultur çevrəsindən çıxan başqa dilli etnoslar ola bilər.

---

[151] АЗА, 248.

[152] Eyni qaynaq, 249-250.

[153] Грач, 1983, 248.

Paleolit çağından İslamaqədərki dövrəcən nəzərdən keçirdiyimiz davamlı arxeoloji qaynaqların qırılmayan gələnəklər ardıcıllığı ilə bir-birinə bağlı yerli evolyusiya zənciri, bu qaynaqların verdiyi ardıcıl bəlgə toplusu aydın göstərir ki, prototürk etnosunun yarandığı region, ilkin Ata yurdu İkiçayarası ilə Orta Asiya arasında olan ərazidir. Azərbaycandan Orta Asiyaya keçib oradan ətraf bölgələrə yayılan doğu prototürklərin ilk böyük miqrasiyası m.ö. IV minilliyin ortalarında, ikinci böyük miqrasiyası isə m.ö. II minilliyin ortalarında baş vermişdir. Altay dil ailəsi ilə eyni kultur dairədə yaranan doğu prototürklərin ikinci Ata yurdu Mərkəzi Asiyada deyil, Orta Asiya ilə Altay Arasında formalaşa bilərdi. Bu miqrasiyalarda körpü olan Türkmənistan ərazisi isə ilkin Atayurdun doğu sınırına yaxın idi.

*
* *

Bura qədər deyilənlər, Azərbaycan və qonşu Dağıstan-Gürcüstan, Türkmənistan, İkiçayarası, Anadolu arxeoloji qaynaqlarının verdiyi bilgi aydın göstərir ki, Azər xalqının formalaşdığı region prototürk etnosunun yaşadığı İkiçayarası-Qafqaz-Orta Asiya arasındakı ərazilərdir. Bu region daxilində **Quruçay kulturu** ən qədim və dünyada ən uzunömürlü arxeoloji kultur olub, ilkin antropogenez dairəsinə düşür. İlk davamlı yaşayış məskəni olan Azıxda ilk ocaq qalıqları 400-350 min il öncəyə aiddir, burada çənə sümüyü tapılan azıxantrop «xanım» 350 min il əvvəl həmin ocaq qırağında qızınmışdır. Burada mustye çağında Tağlarda 40 min il davamlı yaşayış olmuşdur. Üst paleolit çağında hələ yenicə *Homo sapiens* şəklini almağa başlayan insanoğlu dünyada ilk **basırıq** kulturunu Urmunun güney-batısında Şanidar mağarasında gerçəkləşdirmişdir. İlk dəfə qoyun bu bölgədə ev heyvanına çevrilmişdir. İlk qoyunçuluğun da burada yaranması ehtimalı böyükdür. Ön Asiyada ən qədim böyük saxsı qab Azərbaycanda (*Gənci-dərə*) tapılmışdır.Azərbaycan Ön Asiyada ilk əkinçilik mərkəzlərindən biridir. Süni suvarmanın tarixi burada çox qədimlərə gedib çıxır. Eneolit çağında Azərbaycanın ən ucqar güney və quzey bölgələrində çəkilmiş kanal-arxlar *Araxtu* (Sumer), *Arıxlı* (Borçalı) adını daşıyır.

Xasun və Xalaf kulturu prototürk uruqları içində yaranıb ətraf bölgələrə yayılmışdır. Xalaf kulturu üzərində yaranan Samara və Ubeyd kulturu Dəclə yaxalarında yaşayan prototürklərə məxsusdur. Bu kultur yarananda sonra Kəngər (Bəsrə) körfəzi yaxalarına gələn yeni etnos burada *sumer* adı ilə, onlardan sonra İkiçayarasına gəlib subar ərazisində

məskunlaşan samilər də *akad* adı ilə tanındı. Yuxarı çəkilməyə məcbur qalan prototürk kəngər-subar boyları Ubeyd kulturunu burada gəlişdirdi və bu kultur Azərbaycanın iç bölgələrinə yayıldı. Arxeoloji qaynaqlar göstərir ki, Ubeyd kulturu çağında formalaşan bükülü basırıq gələnəyi Azərbaycanda İslamaqədər davam etmişdir. Prototürk sınırları dışında oturan etnoslarda isə (sumer, elam, het) bu gələnək görünmür.

Eneolit çağında Azərbaycanın əksər bölgələrində məskunlaşma olmuşdur. Bölgələr arasındakı əlaqə lokal dialektlərin yaxınlaşması, prototürk dilinin sistemə düşüb inkişaf zirvəsinə çatmasına səbəb olmuşdur. Lakin m.ö. IV minilin ortalarında başlanan ilk böyük miqrasiya nəticəsində prototürk dili batı və doğu qollara ayrılmışdır. Həmin çağda doğu yöndə olan miqrasiyanı Türkmənistan arxeoloji qaynaqları sübut edir. Kür-Araz kulturu çağında Azərbaycanda qalmış batı prototürk boyları içində artan təmaslar protoazər boylarının formalaşmasına təkan vermişdir.

Atın əhliləşməsi (*Əliköməktəpə*), ilxıçılığın yaranması, yaylaq kulturunun gəlişməsi əkinçi-maldar protoazər boylarının həyatını xeyli dəyişdi, heyvandarlıq önə çıxdı, şəhərləşmə gecikdi. Azərbaycan dünyanın atçılıq mərkəzinə çevrildi, ən əsası isə, hər yerdə yük və qoşqu heyvanı olan atı ilk dəfə ram edib minən protoazər dəliqanlısı oldu. Bəlkə də, bu dəliqanlı protoazər-subar boyundan imiş, çünki ərəb-fars dillərinə keçən *süvari* sözü bu boyadına bənzəyir. İlk təkər-araba da Azərbaycanda protoazər-kəngər boyları içində yaranmışdır. O dövrdə dulus çarxı, araba-təkər kəşfi çağdaş «kosmik gəmi» ixtirası kimi bir şey idi.

Gözdən keçirilən arxeoloji qaynaqlar saqa-qamər çağına qədər Azərbaycanın iç bölgələrinə başqa etnosların kütləvi miqrasiyası olmadığını ortaya qoyur. Lakin Azərbaycandan getmələr haqqında xeyli bəlgə vardır. Saqa-qamər çağında isə Azər xalqı formalaşmışdı. Bu isə o deməkdir ki, antropoloji bəlgələr kimi, arxeoloji qaynaqlar da Azər xalqının etnogenezini təşkil edən protoazərlərin Azərbaycanda ən qədim çağlardan yaşayan prototürk boylarından olduğunu sübut edir.

3. DAŞ BƏLGƏLƏR

Görkəmli arxeoloq Q. Çayldın «neolit inqilabı» adlandırdığı əkinçi-maldar təsərrüfatına keçid çağlarında qışda yatıb, yazda oyanan torpağın verdiyi məhsulla yaşamlarını sürdürən əkinçilərdə torpağın *ölüb-dirilməsi* inamı yaranmışdı. Hələ süni suvarmadan istifadə edilməyən bu çağda əkinçilərin əldə etdiyi taxıl məhsulunun bolluğu təbiətdən asılı olduğundan quraqlıq qıtlığın, yağış isə bol məhsulun rəmzinə çevrilmişdi. Əvvəlki yaşamlarında odun, ocağın, ovun «yiyəsi» (iyə) olduğu kimi, əkinçilik çağında da torpağın, suyun, taxılın və başqa varlıqların iyəsi olması təsəvvürü yaranırdı. İyələr istəyəndə Günəş torpağı qızdırır, yağış suvarır, o da oyanıb (dirilib) taxıl bitirir, iyələr istəməyəndə isə quraqlıq olur, aclıq yaranır. Hətta prototürk boylarının mifologiyasında yaranmış yağış yağdıra bilən «yada daşı» inamı son əsrlərə qədər bir sıra türk xalqlarında olduğu kimi, azər türkləri içində də yaşayırdı. Daşdan yonulmuş fiqurlar uyğun olaraq burada *daşqoç, daşat, sığındaş, sındaş*, *balbal, daşbaba, daşnənə* (*daşana*), *bəngüdaş* kimi adlarla adlanır.

Gil-daş fiqurlar

Neolit çağında yaranan «ölüb-dirilmə» inamı ilə bağlı bitib-artma, doğub-törəmə və bütövlükdə ***bərəkət*** simvolu kimi gil qadın fiqurları düzəldilmiş və bəzi bölgələrdə bu gələnək tunc və dəmir çağı boyunca, hətta Alban dövründə də davam etmişdir. Qonşu Anau kulturunda da 7 min il əvvəl başlanan bu gələnək dörd minil yaşamışdır.[154] Arxeoloji ədəbiyatda *terrakot* adlanan bu kiçik qadın fiqurlarının rəmzi barədə erotik simvoldan tutmuş tanrıca simvoluna qədər müxtəlif fərziyələr irəli sürülsə də, onun bolluqla, bərəkətlə bağlı olması fikri daha geniş yayılmışdır. Azər dilində *tarla, diri* (tiri), *torun* (nəvə), *torum, törəmək, turuq* sözlərindəki *t-r* səsdüzümü doğub-törəmə və artımla, çuvaş dilində isə *tur* (tanrı) yaradıcı ilə bağlıdır.

Carmo kulturu çağından başlayaraq, Arxeoloji qazıntılarda gildən düzəldilmiş kiçik qadın fiqurları Azərbaycanın müxtəlif bölgələrində üzə çıxmışdır.[155] Bu qadın fiqurları ayaq üstə və ya oturaq şəkildə, həm də müxtəlif görkəmdə hazırlanmış, çeşidli naxışlarla süslənmişdir. Naxışlar müxtəlif simvolları (Günəş, yağış, sünbül və s.) bildirən dalğavari, həndəsi

[154] Антонова, 1990, 149.

[155] Eyni qaynaq, 137-149.

xətlər və damğalardır. Güney-batı Azərbaycanda neolit dövrünə aid basırıqlarda belə qadın fiqurları çoxdur. Tək-tək hallarda qadın fiqurları ilə bərabər, «əkən» törədici erkək-kişi fiqurları da ortaya çıxmışdır. Yarımtəpə II-də qadın fiqurlu bərəkət iyəsi qab formasında da hazırlanmışdır. Carmo, Xasun kulturunda daha çox gildən hazırlanan bu fiqurlar Samara kulturunda əsasən alebastr və mərmərdəndir. Arpaçı abidəsində tapılan qadın fiquru da daşdan düzəldilmişdir.

Min illər boyu Azərbaycanda davam edən bərəkət simvolu gələnəyi Təpə-Sarab, Şahtəpə, özəlliklə gildaş qadın fiqurları çox olan Türəngtəpə abidəsində özünü göstərir və bunların əksəriyəti İkiçayarasındakı analoji fiqurlarla tipoloji yaxınlığa malikdir.[156] Azərbaycanda davam edən bu gələnəkdə stilizə olunmuş çeşidlər də yaranmışdır.



1 2 3 4

BƏRƏKƏT İYƏLƏRİ

1. *Jарымтəпə II.* Antropomorf gil qab (Мунчаев, Мерперт, 252);
2. *Samara kulturu.* Daş fiqur (Антонова,175);
3. *Alban çağı.* Gil fiqur (Халилов, 263);
4. *Anau kulturu.* Gil fiqur (Массон, Сарианиди, 301).

Daş adam heykəlləri

Türk xalqlarının yaşadığı ərazilərdə çoxlu daş adam heykəlləri vardır. Bu heykəllər kurqan-basırıq olan yerlərdə özünü göstərir. Savaş daşı (*çaa-tas*), daşbaba, daşnənə, balbal, bəngüdaş, bədiz və sair adlarla tanınan belə daş heykəllərin Azərbaycanda m.ö. III-II minillərə aid qədim nümunəsi Qobustanda, Abşeronda (*Dübəndi*), Astarada (*Asxanakəran*) və Meşkində (*Şəhəryeri*) tapılmışdır.[157] Güney Anadoluda bir neçə il öncə aparılan Hakkari qazıntı-

[156] Массон - Сарианиди, 56-58.

[157] Qobustanda 3 №-li kurqanı tədqiq edən arxeoloq F.Muradova həmin heykəlin şəklini çəkmiş və 1,4 m olan bu daş heykəlin qalınlığını, baş və çiyin ölçülərini göstərmişdir (Muradova, 1979, 37); Arxeoloq C. Rüstəmovun mənə dediyinə görə, buradakı daş karxanasının işçiləri ekskavatorla həmin daş heykəli məhv etmişlər. Füzuli rayonunda tapılan

larında üzə çıxan daş heykəllər isə tuncdan dəmir çağına keçid dövrlərinə, m.ö. II minilin sonu - I minilin əvvəllərinə aid edilir.[158] Həmin çağdan başlayaraq Azərbaycandan kənarda saqa-qamər, kuman-qıpçaq və başqa türk boylarının yayıldığı ərazilərdə belə daş heykəl gələnəyi geniş yayılmışdır. Daş heykəllərin yayılma coğrafiyası türk boylarının miqrasiya yönlərini əks etdirirsə, bu heykəllərin görkəm tipologiyası Urmu teoriyasına görə etnogenez araşdırmalarında etnik atribut kimi əsaslı tutalqalardan sayılır.

Azərbaycandan başlayıb Qıpçaq çöllərinə, Azaq-Qara dəniz yaxalarına və Orta Asiya, Türküstan, Tyan-Şan, Altay, Güney Sibir ovalıqlarına qədər yayılan daş heykəl gələnəyi əksər türk boylarına deyil, yalnız bəzi türk boylarına məxsus olduğundan onun izinə hər türk bölgəsində rast gəlmək olmur. Ona görə də daşbaba yalnız həmin kultu yaşadan türk boylarının məskunlaşdığı müəyyən lokal bölgələrdə aşkara çıxır.

Daşbaba (Qurğuşəli)

Azərbaycanda da, görünür, daşbaba gələnəyi daha çox Şirvan-Qarabağ və Savalan bölgələri üçün xarakterik olmuşdur. Burada bir maraqlı məqamı xatırlatmaq yerinə düşər. İkiçayarasının quzeyindəki Hakkari bölgəsində m.ö. II-I minillərdə yaşamış kuman boylarının «güvənc yeri olan *Xunus* kəndi vardı».[159] Həmin minilliklərin qovuşuğuna aid

belə daş heykəllər isə «toplanıb bir təpənin altında basdırılmışdır» (Эюйцшов, 1986, 107).

[158] Güney-Doğu Anadoluda m.ö. II-I minilliklərdə yaşayan kuman boyları məhz indiki Hakkari ərazilərində idi (Azər xalqı, 39-46). Ona görə də, həm Hakkaridə tapılan, həm də sonralar Güney Rusiya bozqırlarında üzə çıxan kuman-qıpçaq daş heykəlləri arasında bir tipoloji yaxınlıq görünür. Hakkaridə bu yaxın vaxtlarda tapılan daş heykəl barədə məlumatı və şəkili mənə göndərən dostum prof. Mustafa bəy Önərə təşəkkür edirəm. Bu bəlgəni bura əlavə edəndən bir neçə il sonra Hakkari daşbabaları haqqında arxeoloq Vəli Sevinin çox dəyərli "Hakkari daşları" (2004) kitabı çap olundu. O haqlı olaraq, bu daşların tarixini m.ö. II minilin ortalarına aid edir.

[159] Kuman bölgəsində m.ö.XII əsrdə *Saka* adlı iki kənd də vardı (Azər xalqı, 41, 64).

daş heykəllərin kuman boyuna aid olması və Alban dövrünə aid daş heykəllərin Şamaxı yaxınlığındakı *Xınıslı* adlı kəndin basırığında ortaya çıxması, həm də Güney Rusiya çöllərində aşkar edilən m.ö. I minilliyə aid saqa və X-XIII əsrlərə aid kuman-qıpçaq daş heykəlləri göstərir ki, daşbabalar bu gələnəyi Azərbaycandan həm quzeyə, həm də doğuya aparan saqa və kuman boylarına aid basırıq-kurqanlarda geniş yayılmışdır. Ona görə də azər xalqının soykökünü təşkil edən boylardan danışarkən *kuman, saqa* boylarının həmin sıraya daxil edilməsi üçün daşbaba atributu mühüm önəm daşıyır. N.Gəncəvi "İskəndərnamə" əsərində bu gələnəyin *qıpçaq* (kuman) boylarında yayğın olduğunu qeyd etmiş, XIII əsr səyyahları Plano Karpini və Vilhelm de Rubruk da kuman daşbabaları haqqında bilgi vermişlər.

Göytürk yazılarında daşbaba gələnəyinə aid verilən bilgidən bəlli olur ki, ölənin heykəlinə *bədiz*, onu düzəldən heykəltəraşa isə *bədizçi* deyilir. Yazılı qaynaqdan aydın olur ki, 731-də ölən Kültiginin bədizi artıq yuğ törənində hazır imiş.[160] Belə türk gələnəyini Çin qaynağı da qeyd edir. Türklərin əsas etnoqrafik bəlgələrindən olan *daşbaba* gələnəyi elmi ədəbiyatda uzun müddət yanlış yozulmuşdur. Doğudakı daşbaba gələnəyinə isə hətta monqolları da şərik qoşanlar var. Halbuki, L. R. Kızlasov doğru olaraq yazır ki, monqolların basırıqlarında daş heykəl qoyulması haqqında bəlgə yoxdur.[161] Arxeoloji-etnoqrafik və yazılı qaynaqlar daşbaba gələnəyinin türklərə aid olduğunu aydın göstərsə də, prototürklərin atayurduna Altay teoriyası ilə baxan bəzi yazarlar bu daş heykəllərin də Avropada qədimini irandillilərə, sonrakıları isə türklərə aid edir, halbuki kurqan və at basırıqlı saqa boyları Altaya Avropadan deyil, Ön Asiyadan gedən avropoid prototürklərin bir qolu idi. Cəvahirlə Nehrunun sözlərilə desək, "saqalar türklərin böyük köçəri boylarından idi".[162]

Daşbaba gələnəyinin qaynağı və onun yayılma yönləri Urmu teoriyası işığında aydınlaşa bilir. Bu yöndə aparılan araşdırmadan aydın olur ki, Güney Avropa və Güney Sibir bozqır və yaylalarına aparılan daşbaba gələnəyi Ön Asiyadakı prototürk bölgələrindən m.ö. IV minilin ortalarından başlanan miqrasiyalarla bağlıdır. Ona görə də daşbabalara ancaq türk boylarının yerləşdiyi bölgələrdə və həmin bölgələrdə yaşadığı çağlarda rast gəlinir. Basırıq yanında adam heykəli qoyulması gələnəyinin İslamaqə-

[160] Orkun, 1994, 52.

[161] Кызласов, 1964, 32.

[162] Неру Дж., I. 1981, 129.

dər minil boyu davam etməsi onun çeşidli görkəm almasına səbəb olmuş, bu heykəllərin rəmzi mənası barədə elmdə müxtəlif yozumlar yaranmışdır. Bəzi alimlər bu daşbabaların ölmüş soy-boy başçılarının heykəli, bəzi alimlər ölən adamın öldürdüyü düşmənlərinin heykəli, bəziləri basırıq törənində iştirak edənin heykəli olması, bəziləri də saqa daş heykəllərində onların ulu babası Tarqitayın təsvir olunduğu fikrini irəli sürmüşlər.[163]

Bütün heykəlləri yalnız bir rəmzə bağlamaq doğru deyil, çünki dikilidaşların içində qadın heykəlləri də vardır, bəzi basırıqda isə bir deyil, çoxlu daş bədizlərin olması da bir gerçəklikdir. Burada müxtəlif adət və səbəblərin olması mümkündür. Lakin bütün bu heykəlləri birləşdirən cəhətlər də mövcuddur; onların çoxunda kişilər sağ əlində içki bardağı tutub, sol əlini isə qılınc-xəncər asılmış kəmərin altına salmışdır.[164] Bu kanonik poza isə minillər ərzində dəyişməmişdir:

Bəzi daşbaba bədizi üzərindəki yazının (epitafiyanın) türkcə olması da aydın göstərir ki, daşbaba yalnız türklərə aid gələnəkdir. Xakas elində bulunan bu daşbaba üzərində türk damğası və göytürk yazısı örnəyində bunu görmək olur. Türgiş elində bu yaşlı *Ezgene* bəyin 26 yaşında ikən Karaxanın yanında görəv alması bədizin arxasındakı epitafiyada göytürk yazısı ilə sağdan sola belə yazılmışdır:

"Kara kan içreki ben Ezgene altı otuz yaşıma erti. Ben öltim. Türgiş el içində beg ben, biçig".[165]

[163] Войтов, 92-96; Мартынов, 106; САКИЗВ, 40-60; ПСДК, 282; Кубарев, 1984, 67.

[164] Tyan-Şan dağlarında, İsık-kul qıyılarında, Altay-Xakas ovalıqlarında sovet arxeoloji ekspedisiyalarının aşkar etdiyi daş heykəllərin ümumi görkəmi belə təsvir olunur: «*Daş heykəl tipləri kanonikdir: dirsəkdən bükülü sağ əldə köksünə sıxılı qab var, dirsəkdən bükülü sol əl isə qılınc dəstəyinə yapışıb*» (ПСДК, 282).

[165] Orkun, 1994, 580; Daşbaba gələnəyinin türklərə aid olması haqqında IV Bitikdə və basıma hazır olan ayrıca "Daşbaba" bitiyində geniş qaynaq və bilgi verilmişdir.

Daş heykəllərin üzərində qabarıq verilmiş detallar (balta, qılınc, xəncər, kəmər, bardaq, fallos) və ümumi görkəmin semantik açımı barədə elmdə hələ son söz deyilməmişdir. Ancaq aydındır ki, ilk daş heykəllər sağlığında qəhrəmanlaşmış alp, ərən, boybaşı kimi şəxslər öləndə onların basırığı yanında ucaldılmışdır. «Bilqamıs» dastanı bu gələnəyin sumerlərdə də olduğunu ortaya qoyur. Dostu Enkidu öləndə Bilqamıs belə deyir:

«*Dostum, sənin boyunu və görkəmini əks etdirən elə heykəl yapacağam ki, indiyə qədər heç kim dostu üçün beləsini düzəltməyib*».[166]

Əgər sumerlərdə daşbaba tarixi 4-5 minildirsə, Sumer çağında və ondan da əvvəl İkiçayarasının quzeyində yaşayan *subar* adlı türk boylarının qədim bölgələrindən olan Şanlı Urfada torpaq altından çıxan bu şəkildəki bədizin tarixini uzmanlar sumer uyqarlığından daha neçə minil qədim olduğunu qeyd edirlər. Ümumiyətlə, təkcə bu daşbaba bədizi deyil, Şanlı Urfada torpaq altından tapılan və hələ qazıntısı davam edən *Göbəklitəpə* dikilidaş tapınağı da tarix uzmanlarını əməlli-başlı şok etmişdir, çünkü karbon analizləri tapınağın 12 minil yaşı olduğunu göstərir, bu isə tarix elminin qəbul olunmuş gələnəksəl xronoloji ölçülərini tamamilə alt-üst edir. Dünyanın ən qədim bu tapınağında qazıntı işləri başa çatandan sonra, yəqin ki, uzmanlar bir uzlaşma dəyərləndirməsi yapacaqlar.

Çin qaynaqlarına görə, türklər ölənlərini sağlığında istifadə etdiyi əşyalarla və atla birlikdə basdırır, basırığın yanında *ölənin görkəmini* əks etdirən daş heykəl qoyulur, bəzən də savaşlarda göstərdiyi qəhrəmanlıq bu daşa yazılırdı. Savaşlarda öldürdüyü düşmənlərin sayı qədər adam fiquruna bənzər daşlar basırıq ətrafında dikinə qoyulurdu. Ölənin öz görünüşünü əks etdirən daş bədizlər qadın və kişilərə aiddir, öldürülən düşmən heykəlləri isə qədim türk yazılarında *balbal* adlanır. Çin mənbələri bəzi xaqan basırıqlarında yüzlərlə, hətta minə qədər balbal dikəldiyini də qeyd etmişdir.[167]

Sonrakı tədqiqatlar bu bilginin doğru olduğunu göstərmişdir. Belə ki, Ak-Tale basırığında 66 balbal aşkar

[166] Эпос о Гильгамеше, 55.

[167] Бичурин, I. 1950, 230.

olunub, Bilgə kağan və Kültigin anıt kompleksindəsə balbalların düzümü 3 km uzanır.[168] Belə balbalların xakas dilində *çaatas* (savaş daşı) adlanması da göstərir ki, keçmişdə bəzi türk boyları içində basdırılan ərənin savaşda öldürdüyü adamların sayı qədər basırıq ətrafına daş bəlgə qoymaq adəti varmış. Görünür, ölənin fiziki görkəmini və müəyyən detalları qabarıq əks etdirən memorial daş heykəllərdən fərqli olaraq, balballar sadəcə azacıq yonma-oyma cizgilərlə insan fiquru alan və öldürülmüş düşmən sayını bildirən kobud yöntəmli, mengir tipli daşlardır. Bəlgə daşlar sırasında daşnənə (*kamennıe babı*) adlananlar isə qadın fiqurları olub, basdırılan xanımın memorial abidəsidir:

Daşnənə (kuman)

Belə daşnənə//daşanalar zaman keçdikcə qutsallaşıb soyanası simvoluna çevrilir. Yunan qaynaqları (Ktesi, Siciliyalı Diodor) qeyd edir ki, saqa boylarından birində özlərinin qadın hökmdarı Zarinaya eni 3 stadiya (470 m) olan özül üzərində qurulan kurqanda qızıldan onun böyük heykəlini qoymuşlar.[169] Əlbəttə, qızıldan heykəl məsələsi mifik olsa da, hər halda bu tarixi qaynaqda saqa boyları içində ölən soylu bir qadına kurqanda bədiz qoyulması gələnəyinin varlığı qeyd olunmuşdur. Qızıl məsələsi isə bəzi daş heykəllərin qızıl rəngli naxışlarla boyanması ilə bağlı ola bilər.

Beləliklə, Azərbaycanda yaranan Kür-Araz kulturunda ortaya çıxan kurqan basırıqlarında özünü göstərən dikilidaş gələnəyilə formalaşan daşbaba və daşnənə bədizləri türklərin daş yaddaşı kimi minillər boyu türk etnoqrafiyası üçün davamlı etnik göstərici olmuşdur. yaşamışdır. Türk boyları kurqan kulturu

[168] CEBƏC, 35-36.

[169] Массон 1953, 27.

ilə daşbaba gələnəyini də m.ö. IV minilin ortalarından başlanan köçləri ilə Avrasiyanın bəzi bölgələrinə Azərbaycandan aparmışlar.

Daş heyvan fiqurları

Qədim türk inanışına görə, *bağa* (tısbağa) qutsal varlıqdır. Yerin bağa üzərində durması inamı onun «yer iyəsi» və ya «yerin simvolu» olması təsəvvürünü formalaşdırmış, bu inamla yaranmış *bağa kultu* azər türklərinin mifologiyasında dərin iz buraxmışdır. Bəzi azər boyları bağa olan həyətə epidemiyanın yaxın düşmədiyinə inanırlar, bu heyvanı öldürmək və ya arxası üstə çevirmək günah sayılır. Amaras-Ağoğlan və Mingəçevir basırıqlarında aparılan qazıntılar da bağa çanaqları ortaya çıxarmışdır.[170] Mənşəyi prototürk çağına gedib çıxan bağa kultu qazıntılarda üzə çıxan keramik qablardakı bağa rəsmində görünür. Bağa kultunun prototürk toplumu içində çox qədim zamanlardan işlənməsi *bağa* sözünün bir çox dillərə keçməsində özünü göstərir. Rusca *çerepaxa* (*çerep-bağa) sözü də kumuk dilindəki *takalıbaka* (qafalı-bağa) ifadəsinin kalkasından başqa bir şey deyildir.

Prototürk boylarının doğuya miqrasiyası bağa kultunun monqol mühitində yayılmasına səbəb olmuş, monqolca *melxey* (tısbağa) yeni anlamlar qazanmışdır. Monqolşünas S. Ş. Çaqdurov *bağa* sözünün türklərə aid olduğunu deyir və monqol dillərində melxeyin həm də *Yer Ana* simvolu olduğunu qeyd edir.[171] Qədim türk yazılarında tez-tez rast gəldiyimiz «*Kanım Bağa tanrıikən… Çulu Bağa* (Göytürk xaqanı), *Mən Qutluğ Bağa Tarkan ögə buyuruğu mən*» kimi ifadələrdə *bağa* sözünün qutsal anlamı şübhə doğurmur. Kültigin abidəsində olduğu kimi, qədim türk xaqanları üçün qoyulan bəngüdaşların özülü bağa fiqurunda idi. bağalar böyük daşlardan yonulub hazırlanır, bəlgə daşı bağa fiqurunun üstündə açılan oyuğa pərçim edilirdi. Çu hövzəsi və Monqolustanda əski türk kurqanlarından xeyli bağa özülü tapılmışdır. [172]



Azər türklərinin etnogenezinə işıq tutan xeyli bəlgə ortaya çıxara bilən *bağa* sözündən törəyən *muğ, baq* (maq) və sair sözlərin kompleks

[170] Arxeoloqlar basırıqda bağa üçün ayrıca arakəsmə ayrıldığını qeyd edir (Зеймаль, 46).
[171] Чагдуров 1980, 192.
[172] СЕВЭС, 35.

tədqiqinə böyük ehtiyac vardır.[173] Qədim Azərbaycanda *bağa* kultu o qədər yayğın və aktual olmuşdur ki, artıq Mada dövləti qurulana qədər Yer iyəsinin adı (*Baqa*, *Baq*) teonim, antroponim və toponimlərin (xüsusilə təpə adlarının) başında geniş işlənmişdir. Qədim adlarımızdan *Baqatur* adında olduğu kimi, epik qaynaqlarda adı keçən Mada hökmdarı *Arbaq* (Ərbaq) adında, madasoylu tanrı elçisi İbrahimin ulu babası *Arbakşatın* (Ərbaq-şad) adında da *baq* sözü vardır. Mana eli çağında Musasir bölgəsi baş tanrıcanın adı *Baq-bartu* (^{d}ba-ag-bar-tu) idi.[174]

Altay və Doğu Türküstanda tele boyları öz hökmdarlarına «*baqa kaqan*» titulu verirdilər. Oğuz boylarının dilində «Qarayer səni alsın» və «Qarayerə gedəsən» kimi qarğış-deyimlərdə Yerin epiteti olan *qara* sözü torpaq və yer anlamında işlənir. Belə ki, *Yerin iyəsi* modelindəki *Qarabağ*, *Qarabağlar* adlarının əski çağda «Yer iyəsi», «Torpaq iyələrinin yeri» anlamında olmasını düşünmək olar.

---

[173] Azər xalqı, 241-243.

[174] Меликишвили 1954, 161; *Tanrıverdi* (Tanrıberdı), *Xudaverdi*, *Allahverdi* adlarında olduğu kimi, burada da *Baq-bartı* modeli vardır. Eyni modellə, lakin ikinci sözü slavyan dillərinə aid *Boqadan, Boqdan* adları slavyanlar içində geniş yayılmışdır. O çağlarda batı prototürk boyları ilə kontaktda olan bir çox xalqın, o cümlədən qədim farsların dilinə də bu söz (*bağa*) tanrı anlamında keçmişdir. Slavyan dillərinə keçən *boq* (boğ) sözü də bağanın fonetik variantıdır. «Olimp» kimi, Büsutun dağının adı tanrıların yaşadığı yer anlamında məhz o çağda türk-fars calaq sözü *Baqa-stan* ilə yaranmışdır, Persopol elam yazılarında isə *Baqa-qaya* adı keçir («Этимология 1965», 30).

Çox yayğın olan *Qara-bağ* toponimi və *Kaya-bağ* (Tunceli-Pertek) adında da həmin *baq~baqa* sözü vardır. Türk dillərində bağa sözünün əvvəlində *muynuz* (buynuz), *çanak, tıs, tos, tas, kaplum, takalı* sözləri işlənir. V. Əyyub tosbağadakı *tos* elementinin «başlanğıc» anlamı olduğunu yazsa da, sonrakı söhbətimizdə həmin fikirdən daşındığını dedi. Ramiz Əskər isə *tos* sözünün «ayaqlarını qarnına sıxıb üzüstə yatmaq» anlamında *tos-balmaq* feilində qaldığını deyir. Görünür, bu anlam bükülü gömmə ilə bağlı olmuşdur.

Basırıqlarda rast gəldiyimiz *at* və *qoç* daş heykəlləri Azərbaycanın müxtəlif bölgələrində özünü göstərir.[175] Hələ ən qədim çağlardan basırıq içinə kiçik qoç, öküz, at fiqurları şəklində qoyulan bu gələnək sonralar basırıq dışına qoyulan böyük daş heykəl formasını almış, türk boyları məskunlaşan ərazilərdə *daşqoç* və *daşat* bəlgələri yayılmışdır. İlk daşat heykəlləri orta əsrlərə aiddir. Əvvəllər ölən adamın o dünyaya at üstündə gedə bilməsi üçün basırığa at qoyulurdu. Basırıq dışına at-uyuq qoyulması gələnəyinin saqa boyları içində yayğın olmasını antik müəlliflər yazmışlar. Bu gələnəyin oğuzlar içində olmasını da İbn Fədlan qeyd etmişdir.[176]



Daşqoçlar

1. Göytəpə (3000)
2. Sumer (5000)
3. Altay (1500)
4. Anadolu (1000)
5. Lerik (1000)

«*Məlikməmməd sıçrayıb ağ qoça mindi, ağ qoç onu qara qoçun üstünə atdı, qara qoç onu qaranlıq dünyaya apardı*» şəklində verilən süjetə görə, nağıllarda qoç üstündə «dünya dəyişmək» motivi olsa da, yaz-yay kultunun simvolu *təkə* olduğu üçün *qoç* da dirilik və dirilmə simvolu kimi tanınmışdır.

Xakas qazıntılarında qədim türklərə aid basırıqda ağacdan yonulmuş qoçun bədəni mis-gümüş, boyun-başı isə qızıl təbəqəsi ilə örtülmüşdür. Qoç fiqurunun belə bəzənməsi yalnız kultla izah oluna bilər. Kiçik qoç fiqurları Sumer abidələri üçün də xarakterikdir. Beyləqanda Qaratəpə II abidəsində (m.ö.V-I əsr) on qoyun, iki inək başı şəklində gildən düzəlmiş fiqurlar ortaya çıxmışdır. Güney Azərbaycanda Göytəpə qoçlarının tarixi isə (m.ö.X əsr) daha qədimdir. Ziviyədə tapılan m. ö. VIII əsrə aid içki qabı da qoçbaşı formasında hazırlanmışdır.

Azərbaycan folklorunda qoç və at kultu barədə xeyli bəlgələr vardır ki, bu barədə kultlar bölməsində geniş söhbət açacağıq. Burada yalnız at və qoç kultunu əks etdirən daş plastikanın Azərbaycanda qədim kökü olması

Atdaş (Tovuz, Gəncə)

[175] «Azərbaycanın daş plastikası» kitabında müxtəlif dövrlərə aid xeyli daş bəlgə, bəngüdaş, daşqoç, daşat şəkilləri verilmişdir (Расим Эфенди, 1986).

[176] Бурада юлянин миняъяйи гурбанлыг щейванлардан эениш бящс олунур (Ибн Фадлан, 36-37).

faktına diqqət çəkilir. Türk boylarına aid daşat, daşqoç bədizləri onların yayıldığı ərazilərdə üzə çıxır.

Azər boyları yaşayan bölgələrin qədim basırıqlarında belə bədizlərin olması, bu gələnəyin orta əsrlərdə daha geniş yayılması etnik atributlardan sayıla bilər.[177] Hələ islamdan öncə Doğu Anadoluda xristian türklərin üzərində xaç işarəsi olan qoçdaşları bəllidir və Azərbaycanda başqa türk elləri ilə müqayisədə atdaş ilə qoçdaş daha geniş yayılmış gələnəkdir.[178]

Daş qaynaqlardan danışarkən bunu da vurğulamaq lazım gəlir ki, fiquru düzəldilən, heykəli yonulan heyvanlar təkcə basırıqlarda deyil, gil qablar üzərində boyalı rəsmlərlə də verilmiş, qayalar üzərində şəkilləri çəkilmiş, sonralar bu gələnək xalça sənətinə də keçmişdir. Ona görə də, azər xalqının etnogenezini araşdıranda, xüsusilə saqa-oğuz boylarından bəhs edəndə bağa, at və qoç heykəlləri diqqətə alınmalıdır.

Əgər Azərbaycanda daş plastika 4-5 minillik bir dövrü əhatə edirsə, son əsrlərə qədər davam edən qayaüstü cizgi rəsmlərinin tarixi 10-15 minilə gedib çıxır. Prototürk, protoazər və sonralar da azər boylarının yaradıcılığı olan qaya rəsmləri - petroqliflər Azərbaycanın müxtəlif guşələrində tapılmışdır.[179]

Qaya rəsmləri

Boyalı-boyasız və cızma-döymə kimi müxtəlif texniki üsullarlara çəkilmiş qayaüstü rəsmlər müxtəlif zərurətdən doğan çeşidli tematika sərgiləyir. Burada adi məişət xarakterli şəkillərlə yanaşı, estetik və ritual mahiyətli rəsmlərə də rast gəlmək olur. Qut və lulu,

---

[177] Ведидя бир нечя гядим гябиристанлыг варды. Бунлардан бири Паски мящяллясиндя иди вя биз ушаг икян бурадакы гоч дашларла яйлянярдик. Гоъалар бунларын гядимдя даща чох олдуьуну, лакин дашгочun ичиндя гызыл ахтаранлар тяряфиндян даьыдылдыьыны данышардылар.

[178] Чай 1990, 42.

[179] Эцней Азярбайъанын бир сыра бюлэяляриндя олдуьу кими, Гузей Азярбайъанын да Эюйчя, Армудлу, Кялбяъяр, Шамахы, Гобустан, Абшерон (Артйом), Дярбянд, Ордубад бюлэяляриндя гайацстц рясмляр вардыр вя бунларын хейли щиссяси гейдя алыныб илкин тядгигата ъялб олунмушдур. Бу сащядя алим вя айдынларымыздан Исаг Ъяфярзадя, Нясир Рзайев, Ъяфяргулу Рцстямов, Вяли Ялийев, Гардашхан Асланов, Щямзя Вяли, Ящмяд Оьуз вя башгалары дяйярли иш эюрмцшляр.

elbəyilərinin barelyef və yazıları, azər boylarının qədim qala şəkilləri və Abşeron qabartmaları kimi daş bəlgələr qaya rəsmləri sırasında azlıq təşkil etsə də, ov səhnələri, qoç, öküz, at, ilan, bars və sair heyvan rəsmləri, müxtəlif simvolik işarələr, boy damğaları, piktoqramlar, ayrı-ayrı süjetli kompozisiyalar özəl tədqiqat mövzularına çevrilə biləcək qədər boldur. Təkcə Qobustan rəsmləri üzərində aparılan yarım əsrlik tədqiqatı bu sahədə hələ başlanğıc mərhələ hesab etmək olar. Qayaüstü rəsmlərə dünyanın müxtəlif yerlərində rast gəlinsə də, onlar türk boyları, özəlliklə, yaylaq kulturu yaşayan boyların yayıldığı ərazilər üçün daha xarakterikdir.

Azərbaycandan getmə prototürk boyları da qaya rəsmlərində eyni süjet və motivləri, hətta eyni üslubu Güney Sibir yörələrinə qədər daşımışlar. Dağlıq Altayda Yelanqaş sahillərində minlərlə adam, heyvan və simvolik işarələrin tarixi m.ö. III-II minillərdən başlayıb keçən əsrə, XX yüzilliyə qədər davam etmişdir. Qayaüstü rəsmlərdə qam (şaman) oyunu, ovçuluq, sürü otarma, təbiət simvolu kimi «ölüb-dirilən» heyvan, dağ-daş kultu, bərəkət, baba kultu motivlərini əks etdirən kompozisiyalar vardır. Yelanqaş (Qızıl-göl) qaya rəsmləri ilə bərabər Yenisey sahilindəki Muqur-Sarqol rəsmləri də tunc dövründən günümüzə qədər insanların yaşatdığı düşüncə tərzini, həyata baxışını və mifoloji yaddaşı əks etdirir.[180]

QAYAÜSTÜ RƏSMLƏRDƏ QOÇ-TƏKƏ

1-2. Qobustan
3-4. Güney Azərbaycan
5-6. Dağıstan, Kara
7. Güney- Azərb. Sialk III
8-9. Gəmiqaya, Qapıcıq dağı
10. Samaqaltay
11.Soyuqbulaq-Armudlu
12. Ərzurum, Cunni mağ.
13. Altayda geniş yayılmış bu təkə-damğa Kültiqin abidəsində də vardır
14. Qızıl-göl
15. Sarqol

(ДД, 303; Koşay 1984, 53; Дэвлет, 241; Окладников - Окладникова, 116, 133).

Burada ölüm və qış simvolları olan qurd-quş, bars şəkillərinə qarşı qoyulub, «*təkə daşı*» adlanan rəsmlərdə qoç-təkə, maral rəsmləri daha yayğın olub, bahar-yaz və həyat simvollarını bildirir. Qayaüstü rəsmlərdə özəlliklə təkə şəkili ən yayğın motivdir. Türk etnosunda etnoqrafik tutumu olan təkə rəsmi azər boyları üçün də doğma motivdir və bir sıra boyların bəlgəsinə çevrilən təkə-damğa işarəsinin yayğınlığı bununla bağlıdır.

[180] Дэвлет 1980; Окладников - Окладникова 1985, 8.

A. D. Qraçın verdiyi sxemdəki təkə rəsmlərinin əksəri soy, boy və kağan damğalarıdır. Lakin stilizə olunmuş bu təkə-damğa işarələri yaranana qədər qoç-təkə rəsmləri uzun inkişaf yolu keçmişdi. Azərbaycanın əksər bölgələrində, özəlliklə Qobustan, Gəmiqaya, Sialk III və başqa qeydə alınmış petroqliflər sırasında qoç-təkə şəkilləri geniş yayılmışdır. Qoş-təkə qayaüstü rəsmlərinə Anadolunun ayrı-ayrı bölgələrində də rast gəlmək olur. Ümumiyətlə, belə durumu geniş sərgiləyən Ön Asiya təkə rəsmləri qədim tarixə malikdir.

Stilizə olunmuş forma Taqar kulturu çağından Mərkəzi Asiyada görünməyə başlayır və artıq Göytürk çağında daha çox damğa kimi işlənir. Bu inkişaf xətti və batıdan doğuya aparılan təkə rəsminin xronologiyası yuxarıda verilən sxemi M. X. Mannay-ool və A. D. Qraçın tərtib etdikləri sxemlərlə müqayisə edəndə aydın görmək olur:



GÖYTÜRK ÇAĞINA AİD PETROQLİF VƏ DAMĞA

I - Kağan damğaları
II - Monqol eli;
III - Tuva eli;

Qobustan rəsmlərində mühüm yer tutan motivlərdən biri də öküz ovuna hazırlıq və ov səhnələrində görünən qabarıq geyimli insan fiqurlarıdır. Sonrakı mifoloji görüşdə yaranan *cild dəyişmə* inamının qaynağında duran bu motivi bəzi alimlər düzgün şərh etməyib.

Qobustan qayaüstü rəsmləri üzərində fauna ilə bağlı gərəkli araşdırma aparan paleontoloq N. K. Vereşşagin bu fiqurları qadınlara bənzədib onların amazonkalar olduğunu yazır.[181] Qobustan rəsmləri içində xüsusi yeri olan bu müqəvva şəkillərini amazonka və ya hamilə qadın hesab edən alimlərdən fərqli olaraq, sənətşünas alim

M.Ö. I MİNİLLİKDƏ QAYAÜSTÜ TƏKƏ RƏSMLƏRİ VƏ ƏŞYALAR ÜZƏRİNDƏ TƏKƏ FİQURLARI

1-4. Minisunsk, Taqar çağı
5-6. Tacikistan
7-12. Tuva-Altay şaman takımı
13-21. Tuva eli
22-27. Qırğız eli
28-37. Qazax eli
38-42. Monqol eli
(Маннай-оол 1967)

[181] Верещагин, 58-60; И.Ъяфярзадя бунлары гадын фигуру саймышдыр (Ъяфярзадя 1999, 96).

Nəsir Rzayev bunları ov vaxtı və ov məşqi üçün istifadə olunan «gizləncək» kimi vermişdir.[182] Ov heyvanlarına yaxınlaşa bilmək üçün heyvanların dərisinə bürünmək üsulu geniş yayıldığından belə gizləncəklər təkcə Qobustanda deyil, Avrasiyanın müxtəlif bölgələrində qayaüstü şəkillər sırasında vardır. Güney Sibir petroqliflərini tədqiq edən M. A. Devlet yazır ki, paleolit dövrünə aid rəsmlərə görə, heyvana yaxınlaşa bilmək üçün ovçular maral və bizon dərisinə bürünürmüşlər.

Gizləncək gələnəyinin sonralar da tuva ovçuları içində yaşadığını etnoqraflar təsdiq edirlər.[183] Qobustanda bir neçə daşın üzərində müxtəlif yöndən çəkilmiş gizləncək şəkillərinin görünüşü onların hansı məqsədlə hazırlanması haqqında fikir söyləməyə imkan verir. Belə ki, 1-ci şəkildə (№3) ritual yallı rəqsi ilə ova hazırlaşan ovçulardan biri əlində gizləncək tutmuşdur, 4 №-li rəsmdə isə gizləncəyin hazırlanmasında istifadə olunan kəndir sarğıları və arxadan tutacaq yeri aydın cizgilərlə verilmişdir:



Şəkil 1.
QOBUSTAN GİZLƏNCƏKLƏRİ

1-3. Böyükdaş, yuxarı terras, 76, 42, 46 №-li daşlar
4. Böyükdaş, aşağı terras, 2 №-li daş
5. XVI əsr Təbriz miniatür rəsmi (DKA, 156)

[182] Рзайев 1985, 11-20.

[183] Дэвлет 1980, 248.

Göründüyü kimi, Qobustan daşları üzərində gizləncəklərin müxtəlif yöndən (ön, arxa və yan) görüntüsü əks olunmuşdur. Ona görə də bunları amazonka və ya hamilə qadın adlandırmaq düzgün deyil, çünki qobustanlılar insan fiqurları ilə bu gizləncəkləri ayrı-ayrı görünüşdə vermiş, hətta daş üzərində gizləncəkləri istifadə olunduğu ov öncəsi ritual rəqslə və ov etmə səhnələrilə birgə həkk etmişlər:



Qobustan gizləncəyi.
Böyükdaş rəsmlərində gizləncəyin ön, arxa, yan tərəfdən görüntüləri (42, 49, 78 №-li daşlar)

Heyvan dərilərilə belə forma dəyişmə sonralar mərasim-ritual oyunlarında davam etmiş, daha sonralar meydan tamaşalarına keçərək çeşidli maska taxma ilə zənginləşmişdir. Orta əsrlərdə dərviş oyunlarında, bahar bayramında dəri geyib keçi cildinə girmək gələnəyisə yayğın olmuşdur (Şəkil 1, №5). Hər hansı heyvan dərisinə girib cilddəyişmə sonralar protoazər boylarında mifoloji motivə çevrilmişdir.

Qədim Azərbaycanda hansı dəridən geyimdə istifadə olunması isə ayrı-ayrı türk boylarının fərqləndirici əlaməti kimi bəzi boyadında əks olunmuşdur.[184] Protoazərlərin geydikləri paltarın qoyun, bars və başqa heyvan dərisindən olması qayaüstü cizgi və qabartmalarda aydın görünür:



Asurların Mana bölgələrindən apardığı əsirlər (m.ö. IX-VIII)

Mana-Mada tipləri (m.ö. X-VII)



Lulu tipi (m.ö. XXIII)

гарадолаг, *шишпапаг* вя саир бойлар фяргляндийи кими, гурд дяриси *бюрцляр* бойуну, барс дяриси *барс~барсил* бойуну фяргляндирян эейим формалары иди. Мана яразисиндя протоазяр бойларындан бири дя *кипабюрцтак* адланырды.

4. YAZIÖNCƏSİ İŞARƏLƏR

Yazıyaqədər qədim insanlar fikirlərini başqasına çatdırmaq üçün informasiyanın simvolik işarələrlə saxlanmasında qayaüstü rəsmlərdən, piktoqramlardan yararlanmış, bunların əsasında damğalar, daha sonra isə yazı yaranmışdır. Damğa-yazı olayından daha qədim bəlgələr göstərir ki, yazıdan öncə insanlar «əşya-məktub» və «şəkil-məktub» üsulundan istifadə etmiş, ideoqram və loqoqram vasitəsi ilə istəklərini «yaza» bilmişlər. Belə yazıöncəsi durum türk və protoazər boyları içində də yayğın olmuşdur. Nizami Gəncəvi «İskəndərnamə» əsərində Dara ilə İskəndər arasında «əşya-məktub» xəbərləşməsini vermişdir: Dara İskəndərə *top, cövkən* və bir çüval *küncüt* göndərib demək istəyir ki, sən hələ uşaqsan, top-cövkən oyna, əgər savaş istəsən üzərinə çuvaldakı küncüt sayı qədər əskər göndərərəm. İskəndər isə bu məktubu özünə uğur gətirəcək simvolika ilə yozur: «*Top Yer kürəsidir, cövkənlə onu özünə çəkib Dünyaya sahib ola bilər, küncüt toxumunu isə sarayındakı quşlara dənlədib İran qoşununun sonuna çıxa bilərsən*». Bundan sonra İskəndər cavab olaraq, Daraya toxumu acı olduğundan quşların dənləyə bilməyəcəyi *üzərlik* dolu çuval göndərir. Belə bir məktubu həmin Daranın ulu sələfi Daraya da quş, siçovul, qurbağa və beş ox timsalında saqa bəylərinin göndərdiyini Herodot da yazır. Bu məktubu alan Dara onu uğurlu xəbər hesab edir, lakin yanındakı Qobrya məktubu belə açıqlayır: «*İranlılar, əgər quş kimi uçmasanız, siçovul kimi yerin altına girməsəniz, qurbağa kimi bataqlıqda gizlənməsəniz, bu oxlara tuş olacaqsınız*».[185]

Azər nağıllarında rast gəldiyimiz əşya-nəsnə məktubu motivindən «Bir qalanın sirri» filmində istifadə olunmuşdur. Burada Simnar xan və Qanlıqaya ilə bağlı məlumat vermək üçün sandıqçaya *sim, nar, qanlı daş* kimi nəsnələr qoyulur. Belə məktublarda nəsnə sırası o qədər də mühüm deyil, lakin şəkilli məktubda şəkillərin düzüm sırası həm informasiya baxımından, həm də dilin söz düzümü qaydasından asılı olur. Məsələn, «*Məktubu Günay yazdı*», yaxud «*Aygün məktub yazır*» cümləsi kimi oxunan aşağıdakı şəkil düzümündə «yazmaq» simvolunun əvvəldə gəlməsi azər dilinə xas deyil:

Məktubu Günay yazdı *Aygün məktub yazır*

[185] Herodot, IV. 131-132.

Əşya və şəkilli yazıların ən yaxşı nümunəsi müəyyən nəsnə və mal-heyvan simvollarını bildirən fiqurlarla onların sayını qeyd etməkdir. Məsələn, ♉♉♉ □□□ X X X O O O və sair bu kimi işarələrdən istifadə olunması 3 sayını və həmin sayda müəyyən simvolu bildirən ən asan və anlaqlı üsuldur. Ona görə də, qədim insanlar primitiv də olsa, mühasibat işlərində belə işarələrdən geniş istifadə etmişlər. Belə simvolik işarələrdən indi də müxtəlif sahələrdə istifadə olunur və onların üstün cəhəti budur ki, hər kəs onu öz dilində rahat «oxuya» bilir:

5 IX ½ % ☽ ✍ 🕘 ☠ və sairə.

Protoazər bölgələrində qədim çağlardan əşyanın sayını və ayrıca rəqəm bildirən işarə-simvolların bir qismi sonralar damğaların ortaya çıxmasına səbəb olmuşdur. Damğa gələnəyi isə Azərbaycanda son dövrlərə qədər mövcud idi. Bəllidir ki, yazının yaranması damğa və piktoqrafiya ilə bağlıdır. Dünya şöhrətli Qobustan rəsmləri sırasında tutumlu yeri olan piktoqramlardan bəzisi haqqında ötəri qeydlər nəzərə alınmasa, demək olar ki, onların sistemli tədqiqinə hələ başlanılmayıb. Azərbaycanın başqa bölgələri də petroqlif, piktoqram və damğalarla doludur, bunlar isə yazıyaqədərki dövrün «yazılarıdır». Deməli, Azərbaycanda yazı dövrünə qədər informasiya ötürülməsi üçün istifadə olunan üsullar, əsl yazıya hazırlıq mərhələlərini ehtiva edən əşya və şəkilli yazı, damğa mövcud idi.

Piktoqram

Saxsı və metal qablar üzərində çəkilən və qədim çağlardan qayaüstü rəsmlər sırasında gördüyümüz «şəkilli yazılar» piktoqram və ya loqoqram adlanır. Saatsaz, çəkməçi köşkləri üzərində saat, ayaqqabı şəkili kimi piktoqramlardan bugün də geniş istifadə olunur. Piktoqramın üstün cəhəti hər hansı bir dilin qramatikasından asılı olmamasıdır, hər kəs onu öz dilində «oxuya» bilir. Bəzi piktoqramlar universal simvollara çevrilə bilmişdir: «ölüm-dirim» qarşıdurmasında yırtıcı qartal, qrifon, börü, bars «qışı», dağ keçisi, maral «yazı», dünya, həyat ağacı da «varlığı» təmsil edir. Bugün onlarla növü olan «Yallı» oyununun ilkin semantikası unudulsa da, vaxtilə onun prototürk boylarının, xüsusilə protoazərlərin ritual rəqslərindən olması piktoqramlarda yaşayır.

Qobustan qaya rəsmləri böyük bir xronoloji zamanı əhatə etdiyindən buradakı şəkillərin texnikası fərqlənir. Əvvəllər çəkilən şəkildə real ölçülərə yaxınlıq, statik görkəm əks olunurdusa, getdikcə simvolizə və dinamika artımı hiss olunur. Bu fərqlər Qobustanda müxtəlif çağlarda çəkilmiş ritual rəqslərində aydın görünür. Əvvəlki dövrlərə aid Qobustan

(№1) və Monqolustan (№2) qaya rəsmlərində eyni pozalı maskasız fiqurlar çəkilmişdir, lakin sonrakı dövrlərə aid Tamqalı-say (№3) və Qobustan (№4, №6) rəsmləri sırasında həm maskalı, həm də dinamik hərəkətli fiqurlar verilmişdir. Sonralar «Yallı» adı alan bu ritual rəqslərin Mərəzə xalçası (№5) və Güney Azərbaycan keramikası (№7) üzərində çəkildiyini də görmək olur:



YALLI RITUAL RƏQSLƏRİ

1.Qobustan, neolit dövrü; 2. Monqolustan (SDO, 100); 3.Qazaxıstan, Tamqalı-say (Tarcan, 90); 4.Qobustan, eneolit dövrü; 5.Qobustan (Mərəzə) «əl-ələ» xalça naxışı; 6.Qobustan, eneolit dövrü; 7. Güney-Azərbaycan, Sialk III (Ghirshman, pl.LXXV).

Bir neçə qədim yazının yaranmasında şəkilli rəsmlərin böyük rolu olmuşdur. Belə şəkillərin simvoik işarələrə və onların da sonradan heroqliflərə çevrilməsi yazı sisteminin ortaya çıxmasına səbəb olmuşdur. Piktoqramın qaya rəsmindən məişət əşyaları üzərinə keçməsini göstərən nümunədən biri də Qədim Azərbaycanda yayğın olub «Keçinin nağılı» adlanan süjetdir. Bu şəkil Tehran-Qəzvin yolunda Marliktəpə abidəsində tapılan badə formalı qızıl bardağın (m.ö.VIII) üzərinə də həkk olunmuşdur. Bu piktoqramı tədqiq edən E. O. Negahbana görə, aşağıdan yuxarıya doğru beşcərgəli süjetdə keçi balasının doğulub, həyat ağacı ilə böyüməsi, yırtıcı qaban tərəfindən öldürülüb, yırtıcı quşlar tərəfindən didilməsi verilmişdir, beşinci cərgədə isə yenidən doğulma simvolu embrionun və ya bu nağılı danışan meymunun şəklidir.[186]



«KEÇİNİN NAĞILI»

Qızıl bardaq üzərində dövrələmə təkrar olunan rəsmdən fraqment (Marliktəpə, m.ö.VIII əsr).

Bu cür hər hansı bir süjet ətrafında çəkilmiş şəkillərə xalçaçılıq, dulusçuluq, metaldöymə, daşoyma kimi sənətlərdə çox rast gəlmək olur. Bugün də dekorativ sənətdə davam edən bu gələnək Azərbaycanda geniş yayılmışdır. Onun izi müxtəlif məişət əşyalarında qalmışdır.

[186] Negahban, 54-55; Kiçik fərqlə bu izahı qəbul etmək olar, belə ki, burada ilin dörd fəsli və yazda doğulma, yayda həyat ağacı ilə böyümə, payızda börülərin öldürdüyü, qışda yırtıcı quşların diddiyi keçi leşindən ayrılan embrion - qut (ruh) və onun tutduğu kiçik həyat ağacı təsvir olunmuş, burada «canı çıxma» və «ölüb-dirilmə» motivi şəkilli yazı ilə aydın verilmişdir (AT, 1996,73).

«Həyat Ağacı» və ya «Dünya Ağacı» motivinin Dəclə-Urmu hövzəsində geniş yayılması Ziviyə dəfinəsindən tapılan sinəbənd üzərində və Asur çarı I Tukulti-Ninurtanın sarayındakı bu divar rəsmində aydın görünür.[187] Bu motivin sonralar doğu və quzey yönlərə yayılması isə türk boylarının miqrasiyası ilə bağlıdır. Bu miqrasiyaları izləmək üçün piktoqrafik «yazıların» tipologiyasını da diqqətə almaq lazım gəlir. Təəssüf ki, bugünəcən Qobustan, Gəmiqaya piktoqramlar sistem şəklində tədqiq olunmamışdır.[188]


Qədim bir rəsmdə Dünya Ağacı



Qayaüstü rəsmlərdə olan kimi, müxtəlif məişət əşyaları, özəlliklə keramika üzərində də piktoqramlar vardır. Bu baxımdan, tunc çağının sonlarına aid Kilikdağ və Xanlar kurqanlarından çıxan və üzərində müxtəlif «ov səhnəsi» olan qablar xarakterikdir: [189]

Belə piktoqramlar Alban dövləti çağında da özünü göstərir. Azərbaycan piktoqramlarında istifadə olunan işarələr sırasında dünya ağacı, kurqan, ev, quş, təkə, maral, Günəş, dönərgə (svastika) şəkilləri diqqəti çəkir. Bu işarələrin sırasında Günəş və Ulduz işarəsi Tanrı simvolu kimi sonralar mixi yazıda *Dingir*, yəni



[187] ИДВ, 1988, 113.

[188] Bu sahədə görkəmli mifoloq Mirəli Seyidov və sənətşünas alim Nəsir Rzayevin biriki kiçik yazısı istisna olmaqla, Azərbaycan piktoqramları tədqiq olunmamışdır.

[189] Гусейнова 1989, 126.

«tanrı» sözünə çevrilmiş, buradakı son piktoqramda görünən ev (qədim forması «eb») işarəsi isə sonralar runik yazıda b(*b*) hərfini bildirmişdir.

Prototürk və protoazər boylarınında damğa sisteminin yaranmasına piktoqram «yazılar» da müəyyən imkan açmışdır. Türklərin Altaydan Ön Asiyaya deyil, Ön Asiyadan Altaya getməsini əks etdirən sübutlar sırasında arxeoloji bəlgələrlə yanaşı, bu miqrasiyanı aydın göstərən dekorativ sənət əsərləri, «añ üslubu», piktoqram və xalı-xalça üzərində naxışların tipologiyası, damğalar da vardır.

Damğa

Kür-Araz kulturu çağlarından türk toplumunda etnik bəlgə olan soy-boy damğaları Azərbaycanda son illərə qədər işlənirdi, dəmir, dulus, kilim ustaları düzəltdiyi nəsnələrin üzərinə öz damğasını vurmaqla adını yaşadırdı. Türkmənistanda 3-4 minil əvvəl bənnalar kərpiclərə beləcə damğalar vururdular. Bu gələnək qədim Anadoludakı tikinti daşları üzərində də vardır, Y. Fridrix və İ. Y. Qelb bu damğalardan 125-ini təsvir etmişlər.[190]

Mütəxəssislər damğanın yaranmasını kollektiv mülkiyət dövrünə aid edir, geniş yayılmasını isə atçılıqla bağlayırlar. Doğrudur, ilxıçı boylar başqa boya məxsus atlarla qarışıq düşməməsi və yetişdirilən cins atların tanınması üçün onlara damğa vururdular, lakin eyni qayda digər heyvanlar üçün də keçərli idi. Ona görə də, damğanın atçılıqdan daha əvvəl yayıldığını düşünmək lazım gəlir. Qayaüstü rəsmlərdən tutmuş qoç-qoyun, at, bəlgə daşları, xalı-xalça, xurcun-çuval, qab-qacaq, bayraq və bəzək əşyaları üzərində görünən damğa gələnəyi xüsusi mülkiyətin yaranması ilə bağlı artmış, möhür funksiyası qazanmışdır. Bu qədər yayğın olan damğa gələnəyi türk boylarının yayıldığı yeni ərazilərdə onun ortaya çıxmasına və *damğa* sözünün türklərlə təmasda olan başqa xalqların dilinə damğa, möhür, gömrük anlamında keçməsinə səbəb olmuşdur. Bu baxımdan, sumer və akad dillərində «ticarət üzrə məmur» və «tacir» anlamlı *damqar*//*tamkāru* sözü də diqqəti çəkir. *Damğa* sözü bir sıra avropa, qaf-

[190] Фридрих, 1979? 241 (шякил 15); Гельб, 1982, 45 (şəkil 15); Bəzi Anadolu və Orta Asiya damğaları L. İ. Lavrovun əsərində də verilmişdir (Лавров, 1978, 167, 5-ъи ъядвял).

qaz və monqol dillərinə keçdiyi kimi, rus, ərəb və fars dillərinə də keçmişdir: [191]

Y. T. Solovyov Tiflisdə keçirilən V Arxeoloji qurultayda (1881) «özəl mülkiyət işarələri» olan damğaların toplanıb tədqiq olunması əhəmiyətindən danışmışdır. Onun bu çağırışı cavabsız qalmadı, az sonra kumuk, qaraçay-balkar, noqay, tatar və qafqazdilli xalqlardan çeçen-inquş, abaza, kabarda, meqrel damğaları toplanıb tədqiqata cəlb olundu.

Şamaxıda daş və ağac üzərindəki 200-ə yaxın müxtəlif işarənin rəsmini çap etdirməklə Azərbaycanda bu işi A. P. Fituni gerçəkləşdirdi.[192] Doğrudur, Beş-Barmaq ətəyindəki karvansarayda yazı hesab etdiyi üç damğanı vaxtilə A. Oleari də qeyd etmişdi. Dərbənd qala divarında iki işarənin şəklini köçürən D. Kantemir isə bunları «tatar damğası» adlandırmışdır.[193] Güney Azərbaycanda m. ö. II minilin sonlarına aid bu damğa-işarələri isə İ. M. Dyakonov qeyd etsə də, yaşını üç-dörd əsr cavanlaşdırmış və 3-cü sıradakı runuk hərfləri gözardı etmişdir: [194]



Ancaq bir neçə damğanın etnik bəlgə mahiyətini şərh edən dilçi alim Cəfər Cəfərovun da qeyd etdiyi kimi, epizodik xarakterli qeydlərdən savayı, Azərbaycan damğaları hələlik sistemli tədqiqata cəlb olunmayıb, halbuki bəzi türk boylarına aid damğalar üzrə geniş tədqiqatlar vardır.[195] Başqord soy-boy damğalarını toplayıb sistemləşdirən və bunların

---

[191] Липин, ЫЫ. 1957, 119; Rusca *tabor, tabun, tamqa, tamojnya;* ərəbcə *tamğa, dəmğə, dəməğat* (damğalar); farsca *təmğa, damğə, təmğaçi.* (КЭСРЯ, 435-436, 444; Защиди, 1977, 108-109; Зяринязадя, 1962, 224-225).

[192] Фитуни, 1927, 185.

[193] Олеарий, 1906, 456; Cantemir, 1883, 16.

[194] Yazar Ziviyə qazıntısında üzə çıxan m.ö. XIII-XI əsrlərə aid bu işarələri yanlış olaraq, m.ö.VIII əsrə aid edir (Дьяконов, 1956, 367).

[195] «Azərbaycanın bir sıra rayonlarından tapılmış rəngarəng işarə və damğaların sirri bu günədək açılmamış, onların işarəmi, damğamı olduğu aydınlaşdırılmamışdır. Şamaxıdan, Qobustandan, Gədəbəydən və başqa yerlərdən aşkar edilmiş silsilə işarə və damğaların bir qismi ayrı-ayrı müəlliflər tərəfindən sadəcə olaraq səthi təsvirlə təqdim edilmişdir» (Ъяфяров, 1984, 241).

etnik yozumunu verən Rail Kuzeyev başqord xalqının soykökü haqqında dəyərli bir əsər yazıb ortaya çıxara bilmişdir.[196]

1926-da Bakıda keçirilən Türkoloji qurultay üçün Kırımda qırxa yaxın kənddən, o cümlədən azər xalqının soykökünü təşkil edən *as, xalac* (kalaç), *bağa* adlarını daşıyan Böyük-As, Kiçik-As, Baqa-Sadır kəndlərindən 400-ə qədər damğa toplayan Osman Akçokraklı təkcə qədim Abuzlar kəndi yanındakı qayada 60-a qədər damğa olması səbəbini aramış, keçmişdə buranın ətraf boyların toplantı yeri olduğunu qocaların dilindən qələmə almış, bəzi qəbir daşlarında yazı və tarix əvəzinə yalnız soy-boy damğası olduğunu, bu gələnəyin basırıqda yatan haqqında şəxsi məlumat deyil, onun hansı soy-boydan olması üzərində kökləndiyini qeyd edərək, damğalar haqqında maraqlı fikirlər söyləmiş və bunları çap etdirmişdir.[197]

Akçokraklının Kırımda müxtəlif boylara aid topladığı bu damğaların sırasında

[196] Кузеев 1974; Anadoluda daş-qaya, xalça-kilim üzərində, nəzərlik və sair əşyalarda rast gəlinən naxış, işarə və damğaları geniş şərh edən və bunların digər türk damğaları ilə müqayisəsini verən prof. Tuncər Gülənsoy da damğalara aid gərəkli bir kitab yazıb (Gülensoy, 1989); Türk toplumunda yayılmış damğa və runik yazılar haqqında Dos.Dr. İsmayıl Doğanın iki fundamental əsəri çap olunmuşdur (Doğan, 2000, 2000 a).

[197] Akçokraklı, 1926; Bu əsərə geniş şərh yazan və damğalarla bağlı əlavə məlumatlar verən İsmayıl Otar azər aydını emiqrant Ə. Topçubaşı haqqında bu qeydi də vermişdir: «Əli Əkbər bəy Topçubaşı 1930-da Varşavada nəşr etdiyi 10 səhifəlik *Herolda* (gerb-damğa) adlı məqaləsində Poloniya tatarlarının damğaları ilə qırğız-türk boylarına aid damğaları müqayisə etmişdir» (Otar, 1983, 199).

böyük as, kiçik as boylarının, həmçinin *oğuzoğlu* boyunun damğaları diqqəti çəkir. Belə ki, bu damğaların əksəriyəti Azərbaycanda qeyd olunmuşdur. L. İ. Lavrov Azərbaycan və Quzey Qafqazda tapılmış 1384 damğanı qrafik tipologiya üzrə çeşidləmiş və onların başqa regionlara nisbətən daha çox Qara dənizin quzey yaxaları ilə Volqayaxası arası, Orta və Ön Asiya damğaları ilə analogiya təşkil etdiyini yazmışdır.[198] Bu sıraya Koşay xocanın Sivas-Ərzurum damğalarını da əlavə etmək gərəkir:[199]

Əlbəttə, prototürk boylarının ilkin Atayurdu Ön Asiya və onların sonrakı miqrasiya marşrutu ilə üst-üstə düşən bu coğrafi faktın əldə olunmasına yardım edən damğalar qiymətli tarixi qaynaqdır. Həm etnogenez, həm də tarixi coğrafiya baxımından gərəkli bəlgə olan damğaların işlənmə texnikası müxtəlif olduğu kimi, istifadə olunma sahəsi də fərqlidir.

Damğalar 5-6 minil əvvəl ortaya çıxmışdır. Bunun ilk örnəklərini «bərəkət iyələri» adlandırdığımız gil-daş qadın fiqurları üzərindəki işarələrdə görmək olur. Günəş, taxıl, yağış simvollarını bildirən cizgilərdən doğan işarəetmə üsulu tədricən soy qurumu daxilində soya məxsus işarənin yaranmasına səbəb olmuş, bu işarə-damğalar soya məxsus ərazinin sınırlarını bildirən daş-qaya üzərində həkk edilmişdir. Bəzi damğalarda ocaq (ailə), soy və boylara aid totem-onqon simvollarını görmək olur. Ürətilən məhsulun hesabını aparmaq üçün gərək olan kəmiyət göstəricilərini bildirən işarələr də damğaların artımına təkan vermişdir. Lakin damğadan geniş istifadə, əsasən, kollektiv mülkiyətdən fərdi mülkiyətə keçiddən sonra olmuşdur. Bu çağda gil və daşdan hazırlanmış möhürlərin artımı göstərir ki, artıq fərdə və topluma aid damğalar fərqli funksiya daşımağa başlayır; fərdi damğa mülkiyət, soy-boy damğası isə mülkiyətlə yanaşı həm də etnik atributa çevrilir.

Yazının yaranmasına təkan verən faktorlardan biri kimi, damğa yazı sistemi yaranandan sonra da əvvəlki funksiyasını saxlayır. Bəzi damğalar isə yazı sistemində yeni çalar kəsb edib, liqatur və determinativ kimi işlənir.

---

[198] Лавров 1978, 107.

[199] Koşay, 1984, 49; A. N. Getman qədim Xarəzm (Erk-kala, Toprak-kala, Kaparas, Elxaras) qala kərpicləri üzərindəki damğalardan ayrıca məqalə yazmışdır (Гетман 1979, 70-73).

Məsələn, Güney Türkmənistanda bərəkət iyəsi fiqurları üzərində, Elam-Sumer loqoqramları və Azərbaycanda Altıağac damğaları sırasında rast gəldiyimiz səkkizguşəli ✳ işarə sonralar sumer yazısında ***Dingir*** (tengri) və ***An*** (göy, gün, ulduz) kimi oxunmuş, tanrı adlarının əvvəlində işlənən determinativə çevrilmişdir. Damğa sözü qədim türk yazılarında geniş işlənir.[200] Damğa sözünün ilkin semantikası neolit çağı prototürk toplumunda formalaşdığı üçün onun ilkin forması *dab~tab* kökündən *-qa* şəkilçisi ilə yaranan ***dabqa ~ tabqa** şəklində bərpa olunur. Həmin kökdən *davar* (tavar), *tabor, tabun, tavla* (tövlə) və sair bu kimi sözlər yarandığına görə, onun «mal-heyvan», «mülk, var-dövlət» anlamlı polisemantik kök olduğunu düşünmək olar.

Oğuz boylarının damğaları	M.Kaşqari	Yazıcıoğlu	Azərbaycan damğaları	
Avşar				Gəmiqaya
Alkaevli				Quşçu
Bayındır				Şamaxı
Bəydili				Gəmiqaya
Eymür				Veysəlli
İğdır				Qaşqay
Kayı				Qaşqay
Yazır				Meysəri
Yaparlı				Meysəri
Ulayuntlu				Şamaxı
Çəpni				Meysəri

Türk boylarından bəhs edən Mahmud Kaşğari, Fəzlullah Rəşidəddin, Yazıcıoğlu Əli, Əbülqazi Bahadır xan 24 oğuz boyuna məxsus damğanın şəkilini vermişlər. Bu damğaların əksəri türk xalqları yaşayan ərazilərdə yayılmışdır. Oğuz damğalarından bir qisminin Azərbaycan damğaları ilə müqayisəsi göstərir ki, oğuz dialektli boylar azər türklərinin tərkibində geniş yayılmışlar. Orxon-Yenisey yazısı kimi tanınan türk runikasının yaranmasında damğaların müəyyən rolu olmuşdur. Runik yazının şifrəsini ilk açan V. Tomsen k, y, b, r, l, t, n, ğ, ş hərflərinin ideoqrafik işarələr olması fikrini irəli sürmüşdür. Sonralar türkologiyada bu fikrə dəfələrlə qayıdılsa da, onun sistemli tədqiqi ilə məşğul olmamışlar.[201]

---

[200] *Beg tamğası elgiñdə* «Bəy damğası əlindədir»; *Ötrü etüz küzətgü tamğa tutmış kergək tamğası bu* «Sonra nəzər damğası edin, bədəni qoruyan damğa budur»; *Türgəş kağanda makaraç tamğaçı oğuz bilgə tamğaçı kelti* «Türgəş kağandan Maqaraç damğaçı və Oğuz Bilgə damğaçı gəldi» (ДТС, 530).

[201] Sonralar damğalarla ilgili runik əlifbanın mənşəyindən bəhs edən Y. Polivanov, A. Amanjolov, T. Gülənsoy və başqaları bir neçə nümunə ilə kifayətlənmişlər.

Azərbaycan damğaları

Damğaların *aytamqa, çakmaq, tazıquyruğu, çarpaz, qarnıyarıq, qurdağzı, qazayaq* kimi adları onlardan bir qisminin loqoqram olduğunu göstərir. Şəkilli yazıdan ideoqramların, onlardan da hərflərin yaranması Misir-Çin heroqlifində, Sumer mixi yazılarında da mövcuddur. Ona görə də türk runikasında σ(*s*) hərfinin | «süngü» damğasından, ᴋ (*k, q*) hərfinin ↓ «oq» (ox) damğasından, ψ (*y*) hərfinin ☽ «ay» damğasından törəməsi şübhə doğurmur. Digər damğaların da sonradan hərfə çevrilməsi faktını qramatoloji metodika ilə araşdırmaq mümkündür.[202]

Göründüyü kimi, damğaların öyrənilməsi bir neçə baxımdan gərəklidir. Ayrıca tədqiqata ehtiyacı olan Azərbaycan damğalarının izahını tam vermək hələlik imkan xaricindədir. Əldə etdiyim müxtəlif mənbələrdə ayrı-ayrı yazarların (Kantemir, Oleari, Fituni, Lavrov, Cəfərov, Rzayev, Koşay, Doğan) topladığı Azərbaycan damğalarını burada verməyi gərəkli sayıram, çünki bu örnəyin ayrı-ayrı bölgələrdə işlənmiş damğaların toplanmasına yardım edəcəyinə inanıram.

[202] Türk runik yazısında hərflər heca və yarımheca şəklində oxunur; **zr** [az-ər], **blq** [balıq], **onq** [on oq], **tquz rsn** [toquz ərsən]. Bu yazılış göstərir ki, hərflərin çoxu damğadan törəmişdir. Hərfə çevrilən damğaların bir qismi həm də ayrıca işlənməkdə davam etmişdir ki, bunu Orxon-Yenisey yazılarında mətndən kənarda yazılan damğalar aydın göstərir.

5. YAZI

Bəşəriyət tarixində Yazı kulturu mühüm yer tutduğu üçün dünya xalqları yazısı olan və yazısı olmayan xalqlara ayrılır. Bu bölgüdə minillik yazılı ədəbiyatı ilə yazılı xalqlar sırasına düşən azər türkləri ərəb istilasından sonra ərəb, XX əsrdən isə Quzey Azərbaycanda kiril və latın qrafikalı əlifbadan istifadə etmişlər.Azərbaycanda İslamaqədər işlənən aramey, yunan, parth, «alban» və sasani əlifbalarından örnəklər, mixi və qədim türk runik yazısından isə ayrı-ayrı işarə, qırıq mətnlər tapılmışdır.

Ortaya belə bir məntiqi sual çıxır; nə üçün regionda fars, gürcü, hay əlifbaları geniş yayıldığı halda ayrıca azər dilini əks etdirən özəl əlifba olmamışdır? İlk baxışdan haqlı görünən bu suala cavab vermək üçün adı çəkilən əlifbaların yaranma tarixi, yaranma səbəbi, həmin dövrün siyasi-ictimai durumu haqqında təsəvvür olmalı və azər boylarının kultur tarixi ümumtürk tarixi kontekstində izah edilməlidir. Elə bu başdan deyək ki, xristianlığın yayıldığı çağda hay və gürcü boyları V əsrdə incilin yerli dilə uyğun yayılıb oxunması üçün yunan-aramey əlifbaları əsasında hay, gürcü əlifbaları yaratmışlar, Azərbaycanda xristian türk-alban boyları isə erməni katalikosluğuna tabe olana qədər runik türk əlifbasından istifadə etmişlər.

Finikiya, etrusk, yunan-latın, aramey və bir çox digər əlifbaların yaranmasına təkan verən, həmçinin türk runik əlifbasının qaynağında duran bir əlifba m.ö. II minilin ortalarından sonra Aralıqdənizi yaxalarında geniş yayılmışdı. Türk runikasını Azərbaycan üzərindən Orta Asiya, Altay istiqamətində aparan türk boyları bu yazıdan müxtəlif bölgələrdə istifadə etsə də, kiçik fraqmentlər şəklində bizə gəlib çatan bu yazıların tarixi müəyyən olunmamışdır. Lakin m. ö.V əsrə aid «Issıq» yazısında və m.s.V əsrdən isə Talas, Orxon və Yenisey hövzəsində ortaya çıxan yazıların şifrəsi açılmış, yazılma tarixi haqqında bilgi əldə edilmişdir. Bu əlifbanın batıya aparılan etrusk variantından isə latın əlifbası yaranmışdır. Türk yazı gələnəyinin qədimliyinə əmin olmaq üçün qramatologiya elminin verdiyi bəlgələrlə tanış olmaq lazım gəlir.

Piktoqram və damğalardan yazıya keçmə Sumer, Misir və Çində baş vermiş, lakin Misir və Çin yazıları yalnız heroqlif səviyəsinə qədər qalxa bilmişdir, sumerlər isə yazı sistemini əlifbaya yaxınlaşan mixi yazılara qədər inkişaf etdirmişlər. Çində bugün də həmin heroqlif yazı işlənir. Bu cür protoyazılar bir çox bölgədə də sonralar yaranıb yayılmışdır. Yazını icad edən xalqlar sırasında birinci şərəfli yeri sumerlər tutur. Latın-yunan,

kiril və bir çox əlifbaların kökündə duran və finikiya, aramey, türk runikası kimi əlifbalarla eyni mənşəli olan əlifbanı yaradan xalqın kimliyi isə hələ də cavabını gözləyən suallardandır. Mixi və runik yazıların mənşəyi ayrı olduğu kimi, onların inkişaf yolları və yazılma texnikası da fərqlidir.

Kağız ortaya çıxana qədər yazı materialı kimi ağac, daş, sümük, gil, dəri, perqament, papirus və ipəkdən istifadə olunmuşdur.[203] Yazılar gil lövhə yzərində basma üsulu, ağac, sümük üzərində cızma üsulu, daş-qaya, metal üzərində cızma-döymə üsulu, perqament, papirus, dəri və kağız üzərində isə rəngli boya çəkmə üsulu ilə yazılmışdır. Yazı texnikası yazı formalarının bir-birindən fərqlənməsinə də səbəb olmuşdur. Basma üsulu mixi yazıların, cızma-döymə üsulu runik və bəzi düzxətli yazıların, çəkmə isə dairəvi və əyilən xətləri olan yazıların formalaşmasına yol açmışdır. Kalliqrafik çeşidlərin yaranması sonralar mümkün olmuşdur. Türk runikası yazı texnikası baxımından qədim yazılar sırasına daxildir.

Gil, daş və metaldan fərqli olaraq, ağac, dəri, parça, kağız üzərində yazılan mətnlər uzunömürlü olmur. Münasib saxlanc yerində saxlanmayan belə yazılar aşınmaya uğrayır, rütubətli şəraitdə isə tez xarab olur. Azər və digər türk dillərində yazılan minlərlə abidə bu yolla məhv olmuşdur. Azərbaycanda yazı üçün dəridən geniş istifadə edilməsi qədim mənbələr tərəfindən qeyd olunmuşdur. Perqamonlu Xaraks (II əsr), Antioxlu İoann (VII əsr) ayrı-ayrılıqda qeyd etmişlər ki, Kolxidada Yazonla yoldaşlarının əldə etdiyi «Qızıl dəri» deyildi, üzərində qızıl hazırlamağın kimyəvi üsulu yazılmış adi dəri idi. X əsrə aid yunan lüğətində «*Δέραϛ*» sözü altında arqonavtların oğurladığı dəri üzərində yazılmış kitab haqqında məlumat verilir.[204]

Rus mənbələrinin «Zolotoye runo» kimi verdiyi bu altun dəri əgər yunanca *dera* adlanırsa və hələ Homerin dövründə (m.ö. I minilin əvvəli) Qafqazda dəri kitab olması qeyd olunursa və bu yazılı dəri türk sözü ilə adlanırsa, deməli, o çağda protoazər boylarının yazısı vardı. Herodota görə, Mada dövlətində ərizələr Deyoka yazılı şəkildə verilirdi.

---

[203] Çində I əsrdə kəşf olunan kağız artıq V-VI əsrlərdə türk-uyğur boyları içində geniş istifadə olunurdu, hətta uyğurlar özləri kağız istehsal etməyə başlamışdı. Ərəblər VIII əsrdə Səmərqəndi işğal edəndə oradakı kağız ustalarını əsir götürür və az bir zamanda artıq Xilafətin əksər bölgələrində kağız əsas yazı materialına çevrilir və İtaliya vasitəsilə Avropa ölkələrinə yayılır (Терентьев-Катанский,18-32).

[204] Дзидзигури, 42-43; Геродот, I. 100: Kitaba «dəri» deyilməsi gələnəyinin m.ö.V əsrəcən davam etdiyini Herodot da qeyd etmişdir (Геродот, I. 58).

Ə. Firdovsi iranlıların ilk şahı Təhmurəsin də yazı sənətini turanlı əsirlərdən öyrəndiyini qeyd edir.[205] Təhmurəs (Avestada - *Taxma Urup*) dövründə türk əsgərlərinin yazıdan istifadə etməsi göstərir ki, irandilli boylar qədim türk əlifbası ilə tanış idilər.[206] Qədim türk yazısı haqqında Çin mənbələri də məlumat verir və VI əsrin ortalarında iki müxtəlif türk boyunun (*tuqyu* və *xu*) əlifbasında oxşar hərflər olduğunu qeyd edir.[207]

M. Kaşğari yazır ki, şəhərli Çin və Maçin xalqı türkcəni yaxşı bilir. «*Məktublarını bizə türk yazısı ilə yazırlar*».[208] Böyük türkoloq daha sonra qeyd edir ki, uyğurlar 24 hərfli türk yazısını kullanır. «*Kitab-məktublarını onunla yazarlar. Bundan başqa, uyğurların və çinlilərin bir yazıları daha vardır. Dəftər-sənədlərini bununla yazarlar, bu yazını müslüman olmayan uyqur və çinlilərdən başqası oxuya bilməz*».[209]

Zaxariya Ritor VI əsrin ortalarında yazır ki, «*hunların iyirmi il və ya daha öncə yazısı çıxdı*». Halbuki, ondan bir neçə əsr əvvəl Çin elçisi Kan Tay (III əsr) hun yazısı barədə məlumat vermişdir. Fin alimi Donner parth (arsaq) sikkələri üzərindəki yazılarla Orxon yazıları arasında oxşarlıq olduğunu qeyd etmişdir. Sonralar Cüveyni (XIII əsr), kiril əlifbasını düzəldən Kiril və başqa müəlliflər də türk yazısından bəhs etmişlər.[210]

Göründüyü kimi, Homerdən Mahmud Kaşğariyə qədər keçən iki minil ərzində türk yazısısının mövcudluğu haqqında xeyli bəlgə vardır. Türk yazısı haqqında olan bəlgələr mixi yazıdan tutmuş, runik və uyğur yazılarına qədər müxtəlif dövrləri, müxtəlif bölgələri və müxtəlif boyları əhatə edir. Hətta sumercə ilk mixi yazılı məktubun qasidlə məhz Azərbaycanın Aratta bölgəsinə göndərilməsinə dair qeydlər qalmışdır.

Yazı tarixindən danışarkən *bitik, kitab, kniqa* sözlərinə də toxunmaq lazım gəlir. Əvvəllər *bitik* və *bıçaq* sözlərini eyni kökə bağlayıb, monqolca *biçiq* (kitab), rusca *pisat, pismo, peçat* sözlərinin də buradan törədiyini yazmışdım, lakin sonralar bitiyin *biçmək* feilindən deyil, *bitmək* feilindən yarandığını aydınlaşdıranda əvvəlki fikrimdən daşındım. Etimo-

---

[205] *Научили владыку письменам, Осветили его сердьце знанием* (Короглы, 1983, 38).

[206] «Şahnamə»nin Bombey nüsxəsində «*xəte beyğəvi*» (yabqu) yazısına gözəl xətt deyilir. Əlyazmanın fotokopiyasını mənə verən əlifbaşünas K.Əli bəyə razılığımı bildirirəm.

[207] Бичурин, I, 231.

[208] MK, I, 39.

[209] Eyni qaynaq.

[210] Бекмырадов, 71; Кононов, 1980, 7-8; Дзидзигури, 52.

loji əsərlərdə qeyd olunur ki, slavyanlar «*kniqa*» sözünü türkcə bürmə kağız mənasında işlənən *küiniq* sözündən, türklər də bunu çinlilərdən almışlar.[211] Bəzi alimlər *bitik* sözünün də mənşəyini Çinə bağlamaq istəmişlər, güya çin dilində fırça bildirən *bi* (pir < pjet) sözündən türk dilində bitik sözü yaranıb.[212] Əvvəla, türk yazı texnikası sırasına fırça sonralar daxil olub, ikincisi, türk yazılarının sonunda miditib (*bitidim*) sözünün *bitirdim* anlamında işlənməsi gələnəyi vardır, üçüncüsü, monqol dilinə *biçik* şəklində keçən bitik sözü *bıçaqla* deyil, *bitməklə* homogendir, yəni *bit-* feilinin kökündən *bitirmək, bitər-bitməz, bitik* kimi onlarla söz yaranmışır:

bitik - *kitab, yazı*	bitigü - *mürəkkəb*
piti(k) - *cadu-piti*	bitikçi - *yazıçı və s.*

Dilimizdəki *cadu-piti* ifadəsi göstərir ki, qaya rəsmlərindən, piktoqram və damğalardan simvolik işarəli yazıya keçən türk boyları yazı sənətinə maqik vasitə kimi baxmışdır. Bitik türk əxlaqına uyğun qiymət almış, onun zəruriliyi haqqında qanadlı sözlər yaranmışdır. Didaktik əsər kimi «Qutadğu bilig» də bu sözə biganə qalmamışdır. Orada deyilir:

Bitigsiz işig bek tutamas köñül.
«Kitabsız (yazısız) iş yadda yaxşı qalmaz».

Tarixi, elmi, bədii və dini mövzuda yazılmasından asılı olmayaraq, kitab yazmaq sənətinin ortaya çıxması artıq kitabçılıq kulturundan xəbər verir. Samimənşəli olması şübhə doğursa da, *kitab* sözü bizə ərəblərdən keçmişdir.[213] Əlimizə orta əsrlərdə üzü köçürülmüş nüsxəsi gəlib çatan qədim yazılı abidəmiz «Dədəm Qorqudun kitabı» məhz «Kitab» adlanır. Ərəb variantının təsiri ilə işlənmə tezliyini itirib ilkin anlamından yayınan bitik sözü bir müddət kitab ilə paralel işlənmişdir. «Vərqa və Gülşah»

---

[211] КЭСРЯ, 201; Akad dilindəki *kunukku* (kitab) sözü yorumun cin variantını rədd edir.

[212] ДТС,103; Mümkün olmayan bu cür fonetik dəyişmə bir yana qalsın, anlamaq olmur ki, çin dilində *r* səsi olmadığı halda, pjet >pir əvəzlənməsi necə baş verir?

[213] Sumer dilindəki *dub* (gil lövhə) və *dubšar* (kitab, yazıçı) sözləri akad dilində *duppu, dupšarru* şəklində işlənir. Türkmənşəli *küiniq* (rusca *kniqa*) sözünə bənzəyən *kunukku* deyimi akadca möhür və möhürlü sənəd anlamında işlənmişdir. Sami mənşəyi quşqu doğuran və **btk** (*bitik*) sözünün sağdan oxunuşu ilə (**ktb** - **كتب**) üst-üstə düşən ***kitab*** sözü isə **bitik** ilə *ktb-btk* metateza hadisəsini sərgiləyir (Arif Rəhimovun müşahidəsi). Kitab sözünə Babil-Asur yazılarında da rast gəlmədim. Hər halda bunu araşdırmaq samioloqların problemidir. O ki qaldı sami dillərində btk > ktb kimi metateza dəyişmələrinə, bu barədə S. S. Mayzel kifayət qədər bəlgə göstərir:'kl~'lk «yemək», mkt~tkm «yaşamaq», bkl~lkb «qarışdırmaq», gāmid~dimağ «möhkəm» və b. (Майзель 1983, 175-176).

(XIV) əsərində «*Var bu **bitiyi** Yəmən şahünə ver*» misrası vardır. Lvovda xristian erməni-qıpçaq icması «**Alğış bitiki**» ifadəsini 1618-də işlətmişlər. Bugün azər dilində *piti* və *pitik* şəklində işlənən söz isə artıq əvvəlki kitab anlamından çox, yazı anlamına yaxındır. «**Irk Bitik**» abidəsinin adı göz qabağındadır. «*Uluxan Ata **bitikçinin** sözü*» adlı oğuznamənin hələ VI əsrdə orta fars dilinə tərcümə olunduğunu Əbu Bəkr ibn Abdallah ibn Aybək əd-Dəvadari ərəb dilində Misirdə yazdığı «Dürar üt-tican və tavarix qurar az-zaman» (1309) əsərində göstərib.[214] Bu söz fars qaynaqlarında «yazıçı» بتکچی (betikçi), پتیکچی (petikçi), «pul sənədi» پته (pəte), «uluğ bitikçi» الغبتیکچی (oloğ betikçi) deyimlərində də görünür.[215] M. Kaşğari tərkibində *bitik* sözü olan onlarla ifadəni nümunə kimi vermiş, bitik-yazı ilə bağlı yüzlərlə söz işlətmişdir.

Göründüyü kimi, İslamaqədər azər və digər türk boylarının yazı və bitik (kitab) mədəniyəti vardı. Bunu müxtəlif dilli qaynaqlar təsdiq edir. Bəs türk boyları hansı əlifbadan istifadə etmişdir? Bu suala cavab vermək üçün miladdan öncəki minillikdə prototürk boylarının yayıldığı ərazilərdə işlənən yazı növləri ilə tanış olmaq lazım gəlir. Həmin dövrdə Ön Asiya xalqları əlifbaya yaxınlaşan iki müxtəlif yazı sistemindən istifadə edirdi. Bunlardan biri söz-heca sistemli mixi yazı, digəri isə əsasən samit səsləri bildirən heca-səs sistemli əlifbalar idi.

Mixi yazı

Dilimizdəki *mıx* sözü ilə bildirilən bu yazı növü ərəbcə *mismari*, almanca *keilschrift* (paz hərf), rusca *klinopis* adlanır. Adından da göründüyü kimi, mixi yazı düzcizgili mıxabənzər hərflərdən yaranmışdır. Lakin bu yazı birdən-birə ortaya çıxmamış, onun bu şəkilə düşməsi üçün bir neçə əsr lazım gəlmişdir. Bu yazı sistemini sumerlər yaratmış, akad, het, elam, qut, kassi, hurri, urartu, pers xalqları ondan istifadə etmiş, bunların bəzisi həmin yazını öz dilinə uyğunlaşdıra bilmişdilər.

Azərbaycan ərazisində lulu və qut bəylərinə aid akad dilində yazılmış kiçik həcmli mixi yazılar tapılmışdır. Urartu dilində yazılan mixi abidələrin əksəri isə türk boyları yaşayan ərazilərdə ortaya çıxmışdır.[216]

---

[214] Короглы, 1976, 38.

[215] Зяринязадя, 1962, 152, 183; Orta fars dilində *-dān* şəkilçisilə işlənmiş manixey yazısında «kitab» anlamlı *mātak-dān* ifadəsi *bitik* (btk > mtk) sözünü əks etdirir (ОИЯ, 1981, 74).

[216] Van, Urmu və Göycə yaxası, Mxerqapısı, İrəvan çuxuru, Gölcük, Daşburun, Yoncalu, Yazılıdaş, Keləşin, Polad və sair (ТУ, 1985).

Mana elbəyinin yazılı lövhə hazırlaması mənbələrdən bəlli olsa da, onun hansı əlifba ilə yazılması haqqında məlumat yoxdur. Azərbaycanın tarixi və etnoqrafiyası haqqında oçerk yazan V. A. Ryumin qeyd edir ki, «*1923-də Lənkəran uyezdinin Kosmosyan kəndində qaya üstündə mixi yazı tapılıb, lakin hələ şifrəsi açılmayıb*».[217] Təəssüf ki, indi həmin yazı haqqında heç kimdən bilgi almaq mümkün olmadı. Sonrakı bölmələrdə Azərbaycanla bağlı mixi yazılarda olan məlumatlar üzərində dayanacağıq, burada yalnız nəzərə alaq ki, mixi yazı yarandığı çağdan protoazərlərə tanış idi.

Sumerdə yazının meydana çıxdığı dövrlərdəki sumerdilli qaynaqda Güney Azərbaycan boylarının yazı ilə tanışlığına dolayı işarə var. Belə ki, sumer çarı Azərbaycanın Aratta bölgəsinə qasidlə məktub göndərir. Aratta bəyinə məktub göndərilirsə, deməli, bu yazını orada oxuyan da olmalıdır. S. N. Kramerə görə, sumer qasidinin Aratta ölkəsinə apardığı məktub ilk yazı nümunələrindən idi.[218] Burada söhbət ilk yazıdan yox, uzağa göndərilmək üçün gildən hazırlanan ilk məktub örnəyindən gedə bilər. Maraqlıdır ki, sumer qasidi məktubu Aratta bəyinə verəndə bəy yanındakı *şatammu* ilə gənəşir. Görünür, sumercə gələn məktubları bu şatammu oxuyurmuş.

Qədim insanlara piktoqrafik mərhələdən yazıya keçmək üçün daha bir protoyazı keçid mərhələsi - ideoqram dövrünü yaşamaq lazım gəlmişdir. Bu dövrü gerçəkləşdirən loqoqrafiya Misir və Çindən fərqli olaraq, Sumerdə yazıya doğru daha bir addım irəli getdi. Aşağıdakı *quş, öküz, ayaq, buğda* kimi bəzi piktoqramın sxematik loqoqrama və sonda mixi işarəyə çevrilməsi sumer mətnlərində izlənə bilir, lakin bunu əksər loqoqramlara aid etmək olmur, əvvəlki keçidi əks etdirən yazılar yox dərəcəsindədir.[219]



[217] Рюмин, 1923, 353; Güney Azərbaycanda mixi yazıların məhv edilməsi bilgiləri var.

[218] S.N.Kramer yazır: «Если мы правильно понимаем текст, в нем говорится, что Энмеркар, владыка Куллаба, был, по мнению автора поэмы, первым, кто начал писать на глиняных табличках» (Крамер, 1991,35).

[219] Гельб, 1982, 75; Фридрих, 1979, 255.

Protosumer yazılarına bənzəyən və qədim dünya tarixçilərini şoka salan üzəri loqoqramla yazılı üç gil lövhə Rumıniyanın Tərtər (Terteri) bölgəsində yaşı 5-6 minil olan arxeoloji qatda üzə çıxdı. Dunay yaxasında tapılan bu loqoqramların məhz yerli kultur üçün xarakterik olmayan gil tabletlərdə yazılması, həm də analoji sumer yazılarından min il qədim olması ortaya çoxlu suallar çıxartdı.[220]

Arxeologiya bölməsində həmin çağlara aid prototürk dilinin parçalanması, prototürk boylarının Azərbaycandan quzey və doğu yönlərdə ilk böyük miqrasiyalara başlaması haqqında deyilənləri nəzərə alsaq, onda Tərtər loqoqramlarının Sumerdən çox, Azərbaycan damğalarına oxşamasının səbəbi aydınlaşar. Maraqlıdır ki, belə damğalı piktoqramlar Sumerdə deyil, daha çox qonşu Elam, Türkmənistan və Azərbaycan ərazilərində tapılır. Bu isə protosumer adlanan yazı dövrünün Sumer ərazisində formalaşması fikrinə quşqu yaradır. Lakin sumer yazısının yaranmasında son mərhələ olan simvolların mixi işarələrə çevrilməsini məhz sumerlərin gerçəkləşdirdiyi quşqu doğurmur.

Azərbaycan və digər türk damğaları ilə tipoloji yaxınlığı olmayan sumer damğaları yalnız şəxsi möhür kimi məhdud sahədə işləndiyi üçün mixi yazının formalaşmasında onların yeri görünmür. Ancaq sumer yazı sistemində mixi işarələrdən öncəki mərhələdə görünən işarələrin qonşu bölgələrin damğa və simvolik işarələrinə bənzəməsi diqqəti çəkir, çünki bu işarələr hələ sumerlərdən öncə neolit çağından bu regionda işlənirdi: [221]

Azərbaycan					
Türkmən					
Elam					
Sumer					

İkiçayarasına haradan gəlməsi hələlik dəqiq bilinməyən sumerlər m.ö. IV minildə gəlib Subar ölkəsinin güney qonşuluğu Kəngər (Kiengir) bölgəsinə yerləşmişdi. Tezliklə yerli Ubeyd kulturunu mənimsəyən gəlmə sumerlər onu daha da inkişaf etdirdilər. Artıq 3100-cü illərdən sonra

[220] Кондратов, 43; Bu sualların elmi yorumu yalnız Urmu teoriyası ilə verilə bilir.

[221] Azərbaycan damğaları ilə müqayisə edilən işarələrin qaynaqları: Jensen, 74-92; Гельб, 70-75; Фридрих, 255-257; Кондратов, 47; Массон-Сарианиди,119 вя б.

burada ilk yazı nümunələri ortaya çıxdı. Bu piktoqrafik yazıların əksəri kiçik təsərrüfat sənədləri idi. Bir neçə əsrdən sonra şəkilli yazılara qramatik forma bildirən və heca şəklində oxunan işarələr əlavə olundu. Mixi yazı sistemində köməkçi vasitə kimi oxunmayan «lal» loqoqramlar da vardı, sözlərin əvvəlinə və axırına yazılan bu determinativlərdən açar kimi istifadə olunurdu. Ağac məmulatı bildirən sözlərin qarşısına «giş» (ağac), tanrı adlarının qarşısına «dingir» (tanrı) və sairə açar loqoqramlar yazılırdı. Beləliklə, söz bildirən loqoqramla yanaşı, heca bildirən sillaboqramın da işlənməsi yazı qaydalarının imkanını artırmış oldu və yeni eraya qədər sumer dilində davam edən mixi yazılarda qarışıq söz-heca sistemi dəyişmədi.

Yazının yarandığı dövrdə sumer dili monosillabik olduğundan və eyni loqoqramla bir neçə omonim söz yaza bilmək imkanı olduğundan bu ideo-loqoqram yazı sistemi asan yarandı. Həmin çağda prototürk boylarının dili isə təkhecalı dövrü çoxdan geridə buraxmışdı. Ona görə də, mixi yazını türk dilinə uyğunlaşdırmaq çətin idi. Mixi yazı İkiçayarasına gələn akadların yazısına çevriləndən sonra daha da mürəkkəbləşdi. Çünki onlar sumer loqoqram və sillaboqramlarının əvvəlki oxunuşunu saxlamaqla, öz sözlərinin deyiliş formasını da bu yazı işarələrinə yükələdilər.

Akad dilinin təsiri ilə m.ö.1700-cü illərdən sonra sumer dilinin işlənmə dairəsi azaldı, danışıq dili kimi aradan çıxdı. Lakin sumer yazı dili uzun müddət yaşadı, çünki məktəblərdə dilindən asılı olmayaraq, mixi yazı sistemini öyrənmək istəyənlər sumer loqoqramlarının səslənməsini və bildirdiyi mənanı öyrənmək məcburiyətində idilər. Sumer yazılarının şifrəsini açmaq üçün alimlərə məhz bu məktəb dərslikləri, ikidilli sözlüklər yardım etdi.

Ancaq sumer dilinin fonetik özəlliyi haqqında tam bilgimiz yoxdur, çünki sumer sözlərinin deyilişini sami dilinin səs imkanları ilə öyrənə bilirik, bu isə çoxlu yanlışlıqlara səbəb olur. Məsələn, rus dili fonetikası «gördükcə» tipli türk sözlərinin transkripsiyasında gerçək tələffüzü əks etdirmədiyi (qiordyukdja) kimi, sumer sözünün akad tələffüzü ilə, üstəlik, akad səslərini tam əks etdirməyən latın transkripsiyası ilə verilməsi də müəyyən təhriflərə səbəb olur. Ona görə də bugün bir çox sumer sözünün oxunuşu olduqca şərtidir. Üstəlik, bir çox loqoqramın fərqli oxunuş variantı içindən hansının seçilməsi də müxtəlif ehtimallara yol açır. Nümunə üçün sumer dilində ulduz, göy, tanrı anlamlarını bildirən ✳ loqoqramın-

dan yaranıb *an, ìl, èl, al*$_7$ *li*$_4$ *le*$_4$ şəklində oxunan (SDVG, 69-70) mixi işarənin sumer, azər və akad dilində necə oxuna bilməsini gözdən keçirək:

DİNGİR	-Tenger (tengri, tañrı)	-ilu
AN, tum	-tanrıca (ilahə)	-iltum
AN, Anu	-Göy tanrısı (Anu)	-šamu «səma»
AN	-yuxarı	-elû
AN. TA	-yuxarıda	-eliš
AN.ŠAR	-Asur (yuxarı ölkə)	-Aššur
AN.NA	-qalay (yuxarı *anak*? metalı)	-Annaku
AN.BAR	-dəmir (yuxarı *barseli* metalı)	-parzella

Göründüyü kimi, *Dingir* və *Anu* sözü istisna olmaqla, bu sumer loqoqramının başqa məqamlarda necə tələffüz olunması qaranlıq qalır. Elam ölkəsinə gəlib yerləşən farslar buradakı mixi yazıdan qısa müddət istifadə etsə də, əhəmənilər onu tam heca yazısına yaxınlaşdıra bilmişdi. Büsutun üçdilli yazısında elam dilində yazılan *Qam-Ata* adının oxunuş qaydasına baxsaq, hecaların oxunmasında da müəyyən qaydaların olduğunu görərik:[222]

kam	-	*ma*	-	*ad*	-	*da*	=	(kammaadda)
kam	-	(m) a	-	(a) d	-	(d) a	=	[Kam-Ada]

Belə ki, burada *kam-ma-ad-da* hecaları ilə yazılan sözün düzgün deyimi qoşalaşan *mm, aa, dd* səslərindən birinin ixtisara salınması ilə gerçəkləşir və *Kam-Ada* adı oxunur. Təkcə bir sözdə *a* saitinin ayrı-ayrı işarə (*ma, da*) ilə verilməsi böyük çətinlik yaradır və təbii ki, mixi yazının səkkiz türk saitini bildirmək imkanı yoxdur. Buna görə, mixi yazılarda işlənən türk sözləri çox ağır oxunur. Deyilən çətinlikləri də nəzərə alanda nə üçün türklərin mixi yazı sistemindən istifadə etməməsinin səbəbi aydın olur.

Ön Asiyada m.ö. III-II minillərin qovuşuğunda mixi yazı sistemindən fərqli olaraq, başqa bir yazı sistemi də formalaşırdı. Bu sistem də mixi yazı kimi loqoqramlar əsasında yaranıb get-gedə sillaboqram (hecalı yazı) xarakteri alırdı, lakin söz-heca xarakterini dəyişə bilməyən mixi yazıdan fərqli olaraq, buradakı loqoqramlar tam və yarıheca bildirən

[222] Jensen, 1958, 94.

işarələrə çevrilirdi. Artıq II minilliyin ortalarında Aralıqdənizinin doğu bölgələrində hecalı yazılar yayılır, onların az saitli sami dilləri üçün münasib olan samit hərfli variantları ortaya çıxırdı. Bunlara paralel olaraq, sait səsləri də bildirən türk runik əlifbası **abc** tipində müxtəlif dillər üçün əlifbaları yaranırdı.

Runik yazılar

Türkologiyanın bir nömrəli problemi sayıla bilən türk runik əlifbasının mənşəyi məsələsinə onlarla yazı həsr olunsa da, bugünə qədər doğru həllini tapmamışdır. Türk runik yazıların xronoloji həddinin hələ aydın olmadığını, qaynağı və gerçək yaşı haqqında baxışların yanlış olduğunu vurğulayan A. S. Amanjolov düzgün olaraq qeyd edir ki, türkologiya elminin perspektivi runik yazının mənşəyi və genetik əlaqəsi probleminin düzgün həllindən asılıdır.[223] Bu problemin çözümü prototürklərin ilkin Atayudu coğrafiyasına işıq tutan Urmu teoriyası üçün yeni bəlgələr ortaya çıxarır.

Türk runik əlifbasının daxili strukturu, qrafik fondu onun mənşəyi və genetik əlaqəsini Orta Asiya, Türküstan və Güney Sibirdə deyil, Aralıqdənizi yaxalarında yaranan hecalı yazılar içində axtarmağı zəruri edir. Bu yöndə A. S. Amanjolovun tədqiqatı və apardığı müqayisələr aydın göstərir ki, türk runikasının yaranması birbaşa Aralıqdənizi əlifbaları ilə bağlıdır. Bu regionda yaranıb yayılan hecalı əlifbalar haqqında yazı uzmanlarının verdiyi məlumat diqqətə alınsa, Kiçik Asiyanın batı, Suriyanın quzey bölgələrində və Bibl, Finikiya, Fələstin, Krit, Kipr, Miken, Yunan, İtaliya ərazilərində tapılan qədim yazı örnəklərinin Orxon-Yenisey yazıları ilə eyni mənşəli olub, qarşılıqlı təsirlə formalaşdığını görmək olar.[224] Lakin bu yazıların bir qismi yalnız samit hərfli, bir qismi də əlavə sait işarələri olan fonetik əlifba istiqamətində inkişaf etmişdir.

Yalnız samitləri yazılan sözlərin oxunuşu qarşıya hədsiz çətinliklər çıxarır. Belə əlifba sait səsləri az olan sami dilləri üçün nisbətən yararlı idi, lakin türk dilinə yaramırdı. Xüsusilə hərf düzümündə söz sərhədləri bilinməyən **srdnlslcnxtn** tipli yazıları oxumaq çətin olurdu. Belə yazını həm **srdnl slcn xtn** hissələrinə ayıra bilmək, həm də bu yazının *sarıdonlu selcan xatun* kimi oxumaq üçün xüsusi bilik və vərdiş tələb olunurdu. Bu problemi aradan qaldıran türk runikasında saitlər üçün 4, samitlər üçün

[223] Аманжолов, 1978, 76.
[224] Dunand, 1945; Yensen, 1958; Дирингер, 1963; Кондратов, 1975; Фридрих, 1979; Гельб, 1982; Аманжолов, 1978; Молчанов, 1980.

30-a qədər işarədən, söz sərhədini bildirmək üçün isə ayrıca işarə və nöqtələrdən istifadə olunurdu. Burada da samit hərflərin çoxu həm heca, həm də ayrıca fonem kimi oxunurdu. Məsələn, *azər* və *üzrə* sözlərindən birincisi zr (azər], ikincisi isə ÜzrE [üzrə] şəklində yazılırdı.

Finikiyanın quzeyində qədim Bibl şəhərindən tapılan daş və tunc lövhə üzərində müxtəlif həcmli 10 yazını nəşr edən M. Dünan burada loqoqram və heca bildirən 115 işarə olduğunu aşkar etmişdir.[225] Sonra bir çox əlifbaların törəməsinə təkan verən Finikiya əlifbasının məhz Bibl yazıları bazasında yaranması və bunların türk runikası ilə eyni işarələrə malik olması faktını nəzərə alanda Bibl yazıları böyük əhəmiyət daşıyır.

Bibl yazısı.

Tunc lövhə üzərində yarıloqoqram-yarıhecalı sağdan sola oxunan yazı.





Bibl işarələri.

Bibl yazılarında Göytürk hərflərilə eyni işarələr.

Bu yazılar yaranma tarixi baxımından da maraq kəsb edir. Belə ki, m.ö. III minilin sonu, II minilin əvvəlinə aid arxeoloji qatda tapılan yazılı lövhələrin bəzisi m.ö. XXII əsrə aid edilir.[226] Həmin çağlarda sönməkdə olan Kür-Araz arxeoloji kulturunun lokal variantı məhz bu bölgələrdə ortaya çıxır və maraqlıdır ki, ilk dəfə sami mühitində işlənən *Azər* adına da Bibl yazılarında (‘**Azar**-ba‘l yazısı) rast gəlirik.[227]

Hələlik şifrəsi açılmayan Bibl yazıları şərti olaraq sami dilinə aid edilir. Halbuki, bu yazı texnikasını mənimsəyən və sonralar samiləşmiş finikiyalıların ilkin dil mənsubiyəti də hələ müəyyən olunmayıb. Bibl

[225] Dunand, 1945, 71-185.
[226] Фридрихş 1979, 80; Дирингер, 1963, 195-196.
[227] Гельб, 1982, 154; İ.Y.Qelb, E.Dorm Bibl yazı tarixini m.ö.XIV-XIII əsrlərə çəkir.

heca yazısında işlənən işarələrin çoxu türk runik yazısının qrafik fondu ilə eynidir. Bu oxşarlığa əsaslanıb dil eyniliyi və yaxud eyni hərflərin eyni səsi bildirməsi haqqında fikir söyləmək olmaz.[228] Lakin bu da aydındır ki, hər iki əlifba eyni mənşəli olub, yaranma tarixi baxımından da eyni dövrə aiddir. Bibl yazılarından törəyib, m.ö. XII-I əsrlər arasında Aralıqdənizi adalarına, Yunan və İspan ərazilərinə qədər yayılan finikiya əlifbası müxtəlif bölgələrdə tapılmışdır. Dəniz ticarəti ilə məşğul olan finikiyalılar bu əlifbanı ayrı-ayrı ölkələrə yaymış, Finikiya əlifbasını öz dillərinə uyğunlaşdırmağa çalışan ayrı-ayrı xalqların çeşidli əlifbaları ortaya çıxmışdır.[229]

Finikiya əlifbasının ilkin yayılma çağında İkiçayarasının quzey-batı bölgələrinə gəlib yerləşən samidilli arameylər burada işlənən sumer-akad mixi yazı sistemini yox, Finikiya əlifbasını mənimsədilər və m.ö. IX əsrdən bu əlifbanın samit hərfli variantını inkişaf etdirib bütöv regiona yaya bildilər. Hələb, Zəncirli, Dəməşq, Karkemiş bölgələrində kiçik bəylikləri olan arameylər buradakı sələfləri kimi qüdrətli dövlət qurmasalar da, onların yazısı fonetik əlifbaya yaxın olduğu üçün müxtəlif dilli xalqlar onu asanlıqla mənimsəyir, müəyyən əlavələr edib yerli variantlarını yaradırdılar. Bu əlifbadan törəyən Parfiya (parth), Siriya əlifbaları lokal bölgələrdə işlənsə də, missionerlərin Babildən tutmuş İran, Orta Asiya, Hindistana qədər aparıb çıxardığı soqd əlifbası doğu ölkələrdə daha çox yayıldı və bir çox yeni əlifbaların yaranmasına səbəb oldu. Soqd və ondan törəyən manixey, uyğur əlifbaları ilə türkcə yazılmış abidələrin olması bəzi yazı uzmanlarını türk runik əlifbasının mənşəyini də aramey-soqd xəttinə bağlamağa sövq etmişdir. Halbuki, türk runik əlifbası daxili strukturu, qrafik fondu və yazı texnikası ilə soqd əlifbasından ən azı 1500 il qədimdir.

Qaynağı uzaq keçmişdə olan türk runikası da zaman-zaman geniş ərazilərə yayılmışdır. Müxtəlif dövrlərdə onun izinə Azərbaycan, Quzey Qafqaz, Avropa, Orta Asiya, Sibir və Doğu Türküstan bölgələrində rast gəlmək olur. Bu əlifba əksər türk boylarının gündəlik yazı sisteminə çevrilməsə də, bir çox boylar müxtəlif çağlarda ondan istifadə etmiş, böyük zaman kəsiyini əhatə edən yazıların çoxu məhv olsa da, müəyyən qismi bu günəcən Avrasiyanın ayrı-ayrı bölgələrində qalmışdır. Türk əlifbasını

[228] «Bibl yazılarının dil qohumluğunu müəyyən etmək gələcəyin işidir» (Фридрих, 80).

[229] Türk boyları ilə də Finikiya dənizçi-tacirlərinin kontaktı mümkün idi. Dolayı bəlgələrdən biri Kilikiyanın Əyricətəpəsi bölgəsində qədim Misir mənbələrində *Qaratepe(t)* adlanan indiki Qaratəpədə m.ö. VIII əsrə aid Finikiya yazısının tapılmasıdır.

Aralıq dənizi hövzəsində yayılmış əlifbalarla müqayisə edəndə aydın olur ki, türk əlifbası xeyli ortaq qrafik fondun daha qədim qismini saxlamışdır. Bu sxemdə yarıheca və fonematik əlifbaların yaranmasındakı ardıcıllığı və əlaqələri belə vermək olar: [230]



[230] Məncə, Avropaya türk runik yazılarını hunlardan öncə saqa-qamər boyları aparmışdır, burada german və macar runik yazılarının qrafik fondu türk runikası ilə eyni olsa da, eyni hərflərin bildirdiyi səslər xeyli fərqlənir. Bu təbii olaydır, çünki əlifbanın ifadə etdiyi dil və ya dialekt fərqli olanda və ya eyni dilin daxilində səs quruluşu inkişaf edib dəyişəndə işarələrin bir qismi əvvəlki dildə olmayan səsləri bildirməyə xidmət edir. Hətta Göytürk xaqanlığının bir qolu olmasına baxmayaraq, Xəzər dövlətində istifadə edilən runik əlifbada da bir neçə hərf Orxon-Yenisey yazılarından fərqlidir.

Əlbəttə, bu sxemdə bütün əlifbalar yox, yalnız türk boyları ilə birbaşa və dolayı əlaqəsi olan əlifbaların inkişaf xətti verilmişdir. Sxemdə verilən xətlər boyu biri digərinin yaranmasına səbəb olan və bir-birinə qarşılıqlı təsirlə yeniləşən hecalı, yarıhecalı və fonematik əlifbaların inkişafı üç əsas istiqamətdə inkişaf etmişdir. Sağ və orta cinahda Finikiya əlifbasından törəyən, sol cinahda isə türk runikası və ondan törəyən əlifbalar yer tutur. Yuxarıda deyildiyi kimi, bir əlifbadan digərinə keçəndə müəyyən fərqin ortaya çıxması zəruridir, lakin eyni mənşəli əlifbalar üzərində nə qədər dəyişmə əməliyatı aparılsa da, ümumi qrafik fondun xeyli hissəsi mühafizə olunur. Bunu biz 1991-də bərpa etdiyimiz latın qrafikalı Ortaq Türk əlifbasında gördük. Əslinə baxanda, biz bugün türk runikası ilə eyni mənşəli olan bir yazı sistemindən istifadə edirik.

Finikiya əlifbasının bir qolu da yunan əlifbasının formalaşmasına təkan vermişdi. Əvvəllər bu bölgədə işlənən heca yazılarından fonetik əlifbaya yaxınlığı ilə fərqlənən yeni yunan əlifbası aramey yazısı ilə eyni çağda təşəkkül tapdı. Xristianlığın yayıldığı çağlarda isə yunan və aramey əlifbalarının təsiri ilə gürcü və hay əlifbaları yarandı.[231]

Bir zamanlar uyğur boyları da türk və soqd əlifbalarından istifadə etmişlər. Əlifba dəyişikliyi dövrün siyasi-iqtisadi durumundan asılı olaraq baş verir. Bu olayda yazı texnikasının təkmilləşməyə olan meyli, mədəni səviyə və zamanın tələbi də mühüm rol oynayır. Bu baxımdan, bugün dünya xalqlarının ən çox istifadə etdiyi latın qrafikalı əlifbaların yayılma səbəbi qərb elmi və texnologiyasının müxtəlif ölkələrə ekspansiyası ilə bağlıdır. Ola bilər ki, yaxın gələcəkdə dünya xalqları vahid əlifbaya doğru axtarışlarda bulunacaqlar.

Müasir əlifbalardan çoxunun qaynağında finikiya, onun da qaynağında Bibl yazıları durur. Bibl yazıları ilə eyni qaynaqdan törəyən türk runik əlifbası isə arxaik formasını və əsas qrafik fondunu saxlamaqla ayrı-ayrı lokal bölgələrdə kiçik fərqlərlə işlənmişdir. Bu əlifbanın Azərbaycan üzərindən Quzey Qafqaz və Orta Asiya-Qazaxstan-Güney Sibir istiqamətində aparılma tarixi m.ö.II minilin ortalarından başlanan quzey

[231] Hay əlifbasının mənşəyi barədə müxtəlif fikirlər vardır. M. Maştosun V əsrdə yunanlı kalliqraf Rufanın köməyi ilə tərtib etdiyi bu əlifbanın orijinal olmadığı, türk, yunan və aramey hərfləri əsasında yarandığı barədə ötəri şərh vermişdim («Azər xalqı», 295).

Tanrının yardımıyla vaxt tapsam, gələcəkdə həmin şərhin geniş variantı, alban yazısının mənşəyi, nə üçün gürcü əlifbasının *xutsuri* (kilsə yazısı) qolundan fəqlənən ərən yazı qolunun *mxedruli* (baxadur) adlanması haqqında ayrıca məqalə yazmaq fikrindəyəm.

və doğu köçlərlə bağlı ola bilər. Hər halda, İrtış və İli çaylarının yaxınlığında tapılan sümük toqqa və gümüş qab üzərindəki arxaik türk runik yazısı m.ö.V əsrə aid olduğundan onun bu bölgələrə daşınması həmin tarixdən gec ola bilməzdi.[232] Nəzərə almaq lazımdır ki,Yenisey yazılarının bir qismi m.ö.VII-IV əsrlərə aid olan balıq formalı daşlar üzərində yazılmışdır. Bu əlifba həm də ona görə qədimdir ki, ən qədim cızma-döymə yazı texnikası ilə ilkin ağac-daş yazı materialı üzərində yazılan düzxətli işarələrdir. Türk boylarının yazısı barədə qədim mənbələrin verdiyi məlumat məhz bu runik əlifba haqqında ola bilərdi, çünki m.ö. III-I minillərdə bir sıra türk boyunun Aralıqdənizi qıyılarında görünməsi arxeologiya, tarixi onomastika və başqa qaynaqlarda var. Tutarlı faktlardan biri də elə runik əlifbanın özüdür. Belə ki, türk runikası ilə eyni qaynaqdan yaranmış Finikiya əlifbası əsasında formalaşan Aralıqdənizi bölgələrində **abc** ilə başlanan əlifbaların qrafik fondu xeyli dəyişikliyə uğrasa da, onlardan bir çoxunun türk runikası qrafik fondu ilə eyniliyi və yaxın səsi bildirməsi faktı bu cədvəldəki müqayisədə aydın görünür.

TÜRK RUNİK ƏLİFBASI		Etrusk	Yunan	Finikiya	Aramey	LATİN
Səslər	*İşarələr*					
a ə e						A
ı i						I
o u						O
ö ü		v	u,ü	w	w	U
b						B
p						P
l						L
m						M
n ñ						N
r						R
y y'						
d d'						D
t t'						T
ç						
s ş						S
z						Z
k q						K/C
g ğ		h	h	h	h x	
Qovuşuq səslər	lt, ld nt, nd nç rt	ph kh	ph ks kh			
Ayırıcı işarələr						

[232] Аманжолов 1978, 83.

Müqayisədən görünür ki, türk, etrusk, finikiya, aramey əlifbalarında eyni səsi bildirən çoxlu ortaq hərflər vardır. Bəzi hərflərin fərqlənməsi də təbii haldır, çünki əlifbalar dildən-dilə keçdikcə müəyyən dəyişmələrə məruz qalır. Türk işarələrinin yunan hərflərindən daha çox finikiya hərflərinə yaxınlığı hər ikisinin yunan əlifbasından daha əvvəllər yaranma tarixinin xronoloji yaxınlığı ilə bağlıdır. Türk yazısının sonralar İtaliyaya gedib, əsasən Toskana bölgəsində yerləşən etruskların əlifbası ilə yaxınlığı isə qədim türk (etrusk) boylarından birinin bu əlifbanı Kiçik Asiyadan ora aparması ilə əlaqəlidir. Etrusk əlifbası deşifrə olunsa da, ifadə etdiyi dil hələ açılmamışdır. Etrusk yazılarının yeni açımı və türkcə oxunuşu barədə «Azər xalqı» kitabında məlumat verdiyim üçün burada həmin məsələ üzərində geniş dayanmaq istəmirəm. Lakin bir şeyi burada qeyd etmək vacibdir ki, etrusk yazıları yaxın qonşuluğundakı yunan əlifbasından fərqli olaraq, türk yazılarında olduğu kimi, əsasən sağdan sola və bəzi yazılarda birinci sətir sağdan, ikinci sətir soldan, yəni bustrofedon üsulla oxunur. İndiyə kimi bu yazılarda etruskoloqların duya bilmədiyi imla qaydalarından biri də ∴ işarəsinin sözayırıcı funksiyasıdır. Durğu işarəsi kimi nöqtə ilə yanaşı, həmin işarənin türk runikasından qalan bu imla xüsusiyətini nəzərə alanda bir çox etrusk yazıları rahat oxunur.[233] Tas və gümüş qab üzərində yazılmış bu etrusk və türk yazısı təxminən eyni vaxta (m.ö.VI-V əsr) aid olsa da, türk yazısı əlifba sisteminin daha arxaik forması ilə seçilir: [234]



Etrusk yazısı
(Toskana, m.ö.VI əsr)

Türk yazısı
(Issık, m.ö.V əsr)

[233] «Azər xalqı», 149-153; Bu məsələlər çapa hazırlanan «Etrusk-Türk bağı» bitiyində daha geniş şərh olunmuşdur.

[234] Yazılar bu mənbədən alınmışdır: Немировский, 1983, 69; Аманжолов, 1978, 83. Etrusk qabında mənim oxuduğuma görə, tasın (qabın) üzərindəki yazının qara it ilində çızılması (eşilməsi) və bu tasın yiyəsi Qunum adlı ərin (döyüşçünün?) Tuskak elindən olması məlumatı yazılmışdır («Azər xalqı»,152). Issık yazısını da biz belə oxumuşuq: «*Koçu añısı ağ ebi oğuz ər için Uquzgü çizib*».

Etrusk-türk dil paralelliyi yazı qaydalarında da özünü göstərir. Məsələn, *oğlan* sözünün etrusk dilində sağdan sola oxunan *(o)klan* variantı yazılma qaydasına görə türk yazısından fərqlənmədiyi kimi, bəzi məqamlarda sait səslərin işarə olunmaması da hər iki əlifbada keçmiş yazı gələnəyidir:



n a l k (o) - sağdan oxunuşu [oqlan]

Azərbaycanda türk runik yazıları fraqmentlər şəklində tapılsa da, onların qrafik fondu arxaikliyi ilə diqqəti çəkir.[231] Ə. Şükürlünün nəşr etdirdiyi Cəlilabad bölgəsində tapılmış ağırşak üzərindəki yazıda, həmçinin Yanıqlı kəndində tapıb üzünü köçürdüyüm yazı ilə İ. Doğanın verdiyi Qarakənd abidəsi arasındakı oxşar üslubda bu qədimlik aydın görünür:

Runik yazının mənşəyi haqqında söylənmiş fikirlər üç qrupa ayrılır: Birinci qrup türk runik yazının m.s. IV-VI əsrdə doğuya gətirilmiş parth, aramey və ya soqd əlifbasıından törədiyini, ikinci qrup türk damğalarından yarandığını, üçüncü qrup isə m.ö. II-I minillərdə Aralıqdənizi hövzəsində işlənən hecalı yazıdan törədiyini söyləyir. Birinci fikrin tərəfdarları faktlara deyil, gümanlara söykənir. Damğa xəttini müdafiə edənlər epizodik şərhlərlə kifayətlənməli olurlar. Faktik materiala söykəndiyi üçün əvvəllər

[231] Şükürlü, 1999, 1101-1104; Щямзя Вяли, 1998, 7-20.

tərəfdarı olduğum üçüncü fikri isə ilk dəfə elmi əsaslarla S. A. Amanjolov irəli sürmüşdür. Yuxarıda verdiyim Bibl-Türk işarə paralelliyi və finikiya, etrusk, yunan, aramey işarələri ilə türk runik işarələrinin müqayisəli cədvəli runik yazının Aralıqdənizi bölgəsində yaranması fikrini qüvvətləndirir. Lakin bu, runik əlifbanın türk damğalarından yaranması ehtimalını inkar etmir.

XIX əsrdən üzübəri V. Tomsen, A. Şifner, İ. A. Aristov, N. Q. Mallitski, E. D. Polivanov, A. C. Emre, İ. A. Batmanov, A. Bekmıradov və bir çox başqa alimlər runik əlifbanın qədim türk damğalarından yaranması fikrini bəzən güman, bəzən də qəti şəkildə söyləmiş və bir neçə örnəklə bu fikri əsaslandırmaq istəmişlər. Lakin onlardan daha əvvəl damğa-əlifba xəttini türkmən şairi Əndalıp «Oğuznamə» əsərində qələmə almışdır, çünki xalq arasında qədim çağlardan yazının 24 boyun damğasından törəməsi, boylara isə damğaların Oğuz-xan tərəfindən verilməsi inamı vardı.[235]

Ümumiyətlə, əksər xalqların əlifbası bu və ya digər şəxsin adı ilə bağlanır. Doğrudur, bəzi tarixi şəxslər müəyyən milli əlifbanın yaranması və təkmilləşməsi üzərində işləmişlər. Belə ki, hay əlifbası Maştos-Rufan, kiril əlifbası Kiril-Mefodi və I Pyotr, qot əlifbası Vulfil tərəfindən işlənib cilalanmışdır. Lakin daha qədim çağlarda ortaya çıxan əlifbaların tanrı və ya ulu boybaşı tərəfindən yaranması mifi müxtəlif xalqlarda geniş yayılmışdır.

Bu miflərə görə, Oğuz-xan türk yazısını, Musa peyğəmbər yəhudi əlifbasını, Tot və İside Misir heroqlifini, Hermes yunan əlifbasını yaradıb. Belə miflər bəzən yarıgerçək şəkildə qədim tarixçilərin əsərlərinə də yol tapmışdır. Herodot yazır ki, yunanlılar yazı sənətini finikiyalılardan öyrəndilər, bu məlumatı təkrar edən Tasit etrusk əlifbasının da Demerat tərəfindən yaradıldığını qeyd edir.[236]

Əlbəttə, bütün bu məlumatlar diqqətə alınası qaynaqlardır, lakin gerçəklikdən uzaq olduğu üçün elmi tutalqa ola bilməz. Bu baxımdan, türk runik yazının Oğuz-xan tərəfindən yaradılması fikri yalnız xoş bir

---

[235] *Atası ağıl, Kön,lümqe qetirdim, Yerli-yerində tüzüp, bitirdim,*
Anası nağıl, Kolumdan ötürdüm, Ki yürek sırımnı ilimqe açtı.
Bir qız toğılmış, Bir-birden qaçtı, «Огузнама» (Бекмырадов, 117).
***Yirmiört** şekil. Tirkeşip uçtı.*

[236] Геродот, В. 58; Тацит, «Анналы», ХЫ. 14.

mifik güvəncdən başqa bir şey deyildir. Oğuz-xan türk yazısının yaradıcısı yox, artıq ortalıqda olan bu yazını təkmilləşdirən və ya qədim türk mənbələrində deyildiyi kimi, runik yazı işarələrini 24 oğuz boyuna damğa kimi verilməsini gerçəkləşdirən ulu öndərdir. Məsələyə bu yöndə yanaşanda bəzi boy damğalarının doğrudan da, onların adındakı ilk səsi bildirən runik işarələr olduğunu aydın görmək olur:

Buradakı sxemə damğalara aid əvvəlki bölmədə verdiyim 11 oğuz boyunun damğaları ilə Azərbaycan damğaları arasındakı oxşarlığı əks etdirən bəlgələri də əlavə etsək, Oğuz-xan tərəfindən verilən və Kaşğari, Yazıcıoğlu, Rəşidəddin, Əbülqazi tərəfindən qeyd olunan boy damğalarının runik yazılarla əlaqəsi aydınlaşar. Türk runikasının damğalardan yaranması fikri daha maraqlıdır. Belə ki, Oğuz-xan çağında 24 oğuz boyunun damğasına çevrilən əksər runik işarələr daha qədim çağlarda işlənmiş damğalardan yarana bilərdi. Mindən artıq damğanı araşdıran L. İ. Lavrova görə, Qafqaz, Krım və Orta Asiya damğaları ilə türk runik yazısı arasında birbaşa bağın olduğunu söyləməyə əsas vardır.[237]

Azərbaycan damğaları	Türk runik işarələri	Bildirdiyi səs
		a e ə
		ı i
		o ü
		b
		p
		n
		ñ
		r
		y y′
		d
		t
		ç
		s ş ş′
		z
		k q
		g ğ

Türkmən alimi A.Bekmıradov türk runikası ilə oğuz-türkmən damğaları arasında olan əlaqə haqqında söylədiyi fikri əsaslandırmaq üçün xeyli nümunə vermişdir. Lakin türk runik yazının yaranması tarixini Makedoniyalı İskəndərin yürüşündən sonrakı türk-yunan əlaqələrinin yaranması dövrünə aid etmiş və bunu Oğuz-xanla eyniləşdirdiyi hunların öndəri Mete ilə bağlamaq istəmişdir.[238] Damğa

[238] Бекмырадов, 66.

ilə runik işarələr arasında əlaqə axtaran C. Cəfərov isə Azərbaycan piktoqram və damğalarını oxumağa çalışsa da, vaxtsız dünyasını dəyişən alim tədqiqatın daxili sistemini qurmağa imkan tapmadı.[239]

Türk runik işarələrinin qədim türk damğalarından törəməsi fikri elmi sübutdan hələlik uzaq olsa da, bu sahədə aparılan yeni elmi axtarışa işıq tutmaq üçün türk runik işarələrinə oxşayan və bəziləri də eyni olan Azərbaycan damğalarını verib, onları runik hərflərlə qarşılıqlı müqayisə etməyi gərəkli sayıram. Buradakı müqayisəyə digər türk bölgələrində də tapılan analoji işarələri əlavə edəndə həmin paralelliyin faktoloji dəyəri bir neçə qat artacaqdır:

Beləliklə, ortalıqda oğuz boy damğalarının runik işarələrdən, onların da qədim damğalardan törəməsi fikri vardır, lakin nəzərə alınmalıdır ki, damğaların çoxu daha qədim loqoqramlardan yaranmışdır. Sxemdəki nümunələrdən bəzisi əvvəllər də runik işarələrlə uyğun damğalar arasındakı oxşarlığa görə müqayisəyə cəlb edilmişdir. Böyük ehtimalla, Azərbaycan damğalarından bir qisminin göstərilən loqoqramlardan törədiyini düşünmək olar:

Azərbaycan xalçalarında olan qədim loqoqram, damğa və runik işarələr artıq ilkin ifadə funksiyasını itirib naxışa çevrilmişdir. Lakin onların bugünə qədər donuq şəkildə olsa da, xalçalarda işlənmə gələnəyi göstərir ki, vaxtilə informativ yük daşıyan həmin işarələr Azərbaycanda geniş yayılıbmış. Runik əlifbanın və damğaların yayılma arealını tədqiq edən İ. Doğana görə, mərkəzləri Doğu Anadolu, Azərbaycan və Quzey Qafqazda Elbrusun çevrəsi olmaqla, bu əlifba loqoqram → damğa keçidi dönəmini Qafqazda keçirmişdir.[240] Tanınmış xalça uzmanı L. Kərimovun əksər bölgələri əhatə edən «*Azərbaycan xalçası*» kitabından loqoqram, damğa və runik işarələrə aid seçib verdiyim örnəklər runik yazının Qafqaz mənşəli olması ehtimalı üzərində ciddi düşünməyə sövq edir.

Burada 30-dan yuxarı naxışın runik yazı işarəsi olduğu şübhə doğurmur. Nəzərə alsaq ki, bunlar cəmi 28 xalça üzərindən seçilən işarə-

[239] Ъяфяров, 1999.
[240] İ.Doğan. *Runik yazının gelişim coğrafiyası* (Əlyazması, səh.10).

lərdir, onda xalça sənətində runik işarələrin işlənmə tezliyinin də yüksək olması aydınlaşar. Kitabdakı sıra nömrəsi ilə verilən xalçalar üzərindəki naxışlardan haşiyə içinə alınan 1 №-li loqoqram-damğa düzümü xalçada bir neçə dəfə eyni ardıcıllıqla təkrar olunur, bu da həmin düzümün məhz loqoqram yazı olduğunu göstərir. 99 №-li işarələr sırasında isə haşiyə içinə alınıb, soldan sağa və sağdan sola oxunan işarələr *k, t* runik hərfləridir, çünki bu xalça Azərbaycanda ərəb əlifbasının işləndiyi XIX əsrdə toxunduğu üçün həmin hərflər kiril və ya latın qrafikası ola bilməzdi.

Azərbaycan xalçalarında loqoqram, damğa və runik yazı işarələri



Xalça naxışlarından bir qisminin vaxtilə damğa-hərf olmasını görmək üçün onları runik yazıdakı eyni işarələrlə müqayisə etmək kifayətdir. Xalça naxışlarının tam olmayan bu örnəyi də aydın göstərir ki, runik yazı xalça sənətində geniş işlənmişdir. Digər məişət əşyaları üzərində də runik işarə-damğalar görünür. Mə-

sələn, runik yazıdakı «z» Z hərfinin bir variantı olub, «*dönərgə*» (svastika) adlanan damğa-işarənin şəkli hələ V minilə aid Arpaçı arxeoloji abidəsində (*Xalaf kulturu*) gildən hazırlanmış qadın fiqurları üzərində vardır. Eyni şəkilli gil fiqurlar Şiraz bölgəsində IV minilin ikinci yarısına aid Tali-Bakun abidəsində də görünür. Bu şəkilləri yanlış olaraq, yerli əhalinin güya tatu döymə gələnəyini əks etdirdiyini saymışlar. [241] Lakin nəzərə almaq lazımdır ki, svastika təkcə gil qadın fiqurları üzərində deyil, ayrı sənət əsərləri, o sıradan saxsı qablar üzərində də vardır. Belə ki, Gəncəçay yaxasında m.ö. XIV-XI əsrlərə aid kurqanlardan çıxan keramika bunu aydın göstərir.



Mosul bölgəsində *Arpaçı* və Şiraz bölgəsində *Tali-Bakun* arxeoloji qazıntılarında üzə çıxan gil qadın fiqurları üzərində dönərgə işarəsi
(Массон – Сарианиди, 1973, 57)

Xanlar-Gəncə bölgəsində m. ö. XIV-IX əsrlərə aid kurqanların keramik qablarında *dönərgə* işarəsi
(Гусейова 1989, 99, 112-113)

Prototürk çağından Azərbaycanda bəlli olan *dönərgə* işarəsi Ulduzla bağlı *taleh* anlamında işlənir. «Ulduzu söndü» deyiminin paraleli kimi işlənən «dönərgəsi döndü» deyimi qədim inancla bağlıdır. «Çərxi-fələk» ifadəsi bunun farsca tərcüməsidir. Türk boylarının miqrasiyası ilə ayrı-ayrı bölgələrdə ortaya çıxan dönərgə damğasının ilkin variantı Ulduz-Günəş və Tanrı simvolu olan T işarəsi ilə verilmiş, sonralar onun □ □ B = ≅ Z ζ işarəli variantları yaranmışdır. M. Tantəkin svastikanın və ondan yaranan xaç işarəsinin türklərə aid olduğunu yazmışdır.[242] Bəzi uzmanlar isə xaç şəkilləri üzrə B > ≅ keçidini arxeoloji bəlgələrdə izləyə bilmişlər.[243] Qeyd etdiyimiz kimi, dönərgənin Z variantı runik yazıda «az» hecası ilə oxunan **z** hərfinə çevrilmişdir.

[241] Herzfeld, 1941, 16-18

[242] Tantəkin, 1986, 7.

[243] Массон - Сарианиди, 1973.

Runik yazının Azərbaycanda unudulması məsələsinə gəldikdə isə zaman-zaman bura gətirilən müxtəlif dinlərin və işğalçı yürüşlərin ayrı-ayrı əlifbalarla gəlməsi, yerli mədəni abidələr sırasında ən çox kitabların və digər yazı nümunələrinin məhv edilməsi ilə bağlıdır. Bu haqda tanınmış yazı uzmanı İ.Y. Qelb belə yazır: «*Xalqın görünən simvolu onun dili və yazısıdır. Məhz buna görə, işğalçılar əsarət altına aldığı xalqın kökünü kəsmək üçün öncə onun yazılı söz xəzinəsini məhv edir*».[244] Bu olaylar dəfələrlə təkrar olunmuş gerçəklikdir və Azərbaycanda bunun izi ayrı-ayrı işğalçıların müxtəlif bölgələrdə qoyduğu yazı nümunələridir.

Türk runik əlifbasının yaşını aramey-soqd əlifbalarına bağlamaqla cavanlaşdırmaq istəyənlərin isə siyasi məqsəd güddüyü aydındır. Bəzən bu məqsəd açıq şəkildə söylənir. Hətta V-VI əsrlərə aid türk runik yazılarının tarixini VIII əsrə çəkməyi, əlifbanın yaranma yeri üçün isə Monqolustan versiyasını işləməyi tarixçilərə məsləhət görən İ.V. Kormuşin bunu, güya, türkologiyanın «inkişafı üçün» lazım bilir.[245] Belə təbliğatın nəticəsidir ki, Batı Monqolustanıda m.ö.V-III əsrlərə aid *Ulanqan* abidəsinin 23 saylı basırığında tapılan qab üzərində boya ilə *Elçi Baqu* (və ya *Elçi-başı*) sözünü oxuyan V. A. Livşits bunu gec uyğur (VIII əsr) yazısı hesab etmişdir. Halbuki, arxeoloq E.A. Novqorodova bu basırıqda təkrar dəfn ələməti olmadığını, yazılı qabın həmin m.ö.V-III əsrə aid toxunulmamış inventar içində qaldığını yazır.[246] Müxtəlif yazıların mənşəyini tədqiq edən A. M. Kondratov isə türk yazısının sonralar meydana çıxmış soqd, avesta, pəhləvi (parth) və sair bu tip əlifbalardan törəməsi fikrini rədd edib, onu finikiya-aramey heca əlifbaları ilə ortaq sayır.[247]

Türk dilinin səs və morfoloji quruluşunun qarşılıqlı əlaqəsi əsasında formalaşan türk runik əlifbasının daxili mexanizmi heca-səs sisteminə köklənmişdir. Dilin səs quruluşundakı diaxronologiya və fonemlərin birbirinə münasibəti bu əlifbadakı işarələr sistemində əks olunduğu üçün onun 3-4 minil bundan əvvəl yarandığını düşünmək olar. Fonemin özünü

---

[244] Гелб, 1982, 223.

[245] «Для лингвистов-историков письма и для историков необходимо проработать версию о центрально-азиатском (монгольском) центре изобретения рунического алфавита и в период, не столь отдаленный от начала VIII в. По-видимому, в данных вопросах были допущены ошибки, которые необходимо исправить во имя дальнейшего развития тюркологической науки» (СТ, 1975, №2, 47).

[246] Новгородова, 1989, 269-270.

[247] Кондратов, 1975, 168.

deyil, fonemi fərqləndirən əlamətlər sistemini əks etdirən runik əlifbanın *fonoloji* deyil, *morfonoloji* əsasda yarandığını söyləyən tanınmış türkoloq A. N. Kononov yazır: «Runik yazının yaranma tarixi və yeri hələlik həll olunmamış məsələ kimi qalır».[248]

Təəssüf ki, m.ö.I minillikdə Azərbaycanda qabarıq görünən finuqor boylarının izi hələlik tədqiq edilməyb. Macar qaynaqlarında saqa-hun mənşəli hesab olunan və türk runikasından törəmə vaxtı hələlik aydın olmayan sekel-macar yazıları XVII əsrə qədər işlənmişdir. Vaxtilə macarlara qarışan bu boyun *sekler* (saklar) və *sekel* (sak eli) adlanması da diqqəti çəkir. S. İstvanın 1593-də yazdığına görə, Toskana bölgəsində Etruriya prinsinin kitabxanasında bir cilddə sekel yazısı varmış.[249]

Azərbaycanda «Alban əlifbası» adı ilə təqdim olunan yazılar isə kiçik fraqmentlər olduğundan oxuna bilmir.[250] Əslində, Azərbaycanda ayrıca bir alban dili olmadığından, «alban əlifbası» da ola bilməzdi. Bu ad altında təqdim olunan yazı nümunələri isə Azərbaycanın Arazdan yuxarı ayrı-ayrı dialektlərdə Alban/Aran və hay-erməni qaynaqlarında Alvan/Aqvan adlanan hissəsində istifadə olunan yazılardan biridir və bunun «alban» və ya «qarqar» əlifbası adı ilə yayılmasına səbəb V əsrdə M. Xorenatsinin verdiyi məlumatın düzgün şərh olunmamasıdır.

Hay tarixçilərinə görə, hay, gürcü və alban əlifbalarını guya Mesrop Maştos yaratmışdır. Gürcü əlifbasının aramey əlifbası əsasında formalaşması bəllidir. Hay əlifbası da aramey-yunan və türk runik əlifbalarının qarışığından yaranıb. Maştosun xidməti bundadır ki, kalliqraf yunan Rufanla birlikdə hay əlifbasının hərflərini əvvəlki əlifbalara nisbətən daha uyumlu biçimə salmış-



Elmi ədəbiyatda «**alban əlifbası**» kimi təqdim olunan Dərbənd və Mingəçevir yazıları

[248] Кононов, 1980, 23-57.

[249] Orkun, 663; Дирингер, 372; Macar alimi Eniko Siy sekel runikası haqqında yazır:

«Древнее *врезанное письмо* венгров, имеющее тюркское происхождение и языческий характер, вышло из употребления, так как оказалось негодным для фиксирования связных текстов. Восточные венгры пользовались этим письмом вплоть до XBЫ века» (Энико Сий, 10).

[250] Tarixçi alim Kamal Əliyev bunları türkcə oxusa da, onun fikri elmi dairələrdə hələlik tam dəstək almamışdır.

dır.[251] O ki, qaldı alban əlifbasına, sadəcə bu, hay tarixçilərinin uydurması, sonrakı hay şərhçilərin yozumu və yanlış tərcümələrin nəticəsində ortaya atılmış qondarma bir fikirdir. Bu fikirin geniş yayılıb, elmdə dərin kök salması isə «alban» adı altında türk deyil, qafqazdilli bir tayfa ola biləcəyi ümidi idi. Lakin ömrüboyu udilərlə «Alban əlifbası» arasında bir bağ axtaran rəhmətlik Voroşil Qukasyanın tədqiqatları da ortaya bir şey çıxarmadı. Çıxara da bilməzdi, çünki olmayan şeyi necə tapıb ortaya çıxarmaq olar? Yeri gəlmişkən, deyim ki, hələ Maştosdan çox öncə Part (indiki Türkmənistan) ölkəsindən gələn Anak bəyin oğlu xristian ruhanisi kimi Azərbaycanda və ermən boyları arasında xristianlığın yayılmasına çalışırdı. Sual olunur, udi və hay dilini bilməyən bir türkmən rahib bu təbliğatı hansı dildə aparırdı?

İlkin qaynağa deyil, sonrakı tərcümələrə əsaslanan Azərbaycan tarixçiləri hələ də *hay labirintində* vurnuxurlar. Bu labirinti cızan ilk hay yazarlarından biri Koryun hələ V əsrdə iki dolaşıq cızıq çəkib: birində deyir ki, Mesrop Maştos Alban ölkəsinə getməmişdən öncə əslən alban soylu keşiş Beniamin onun yanına gəlmiş, o da alban dilinin özəlliklərini öyrənib, bu dilin əlifbasını düzəltmiş və onu Alban ölkəsinə gətirmişdir; digər yerdə isə deyir ki, albanlar üçün yazını güya Albaniyaya gələndən sonra yerli ruhanilərin köməyi ilə ortaya qoymuşdur. Əslində isə, Maştosun həyat və yaradıcılığını qələmə alan Koryun yeni əlifba yaratmaqdan yox, mövcud əlifbanı təkmilləşdirmədən bəhs etmişdir. Onun 1854-də nəşr olunmuş əlyazmasında «*albanların ölkəsinə gəlib, onların əlifbasını yeniləşdirdi*» şəklində olan cümləsini sonrakı nəşrlərdə «*albanlara əlifba düzəltdi*» deyimi ilə dəyişmişlər.[252]

Azərbaycanda xristianlığı qəbul etmiş türklərdən biri olan Beniaminin adı «Alban tarixi» kitabında *Beniamin Tarkman* şəklində verildiyi üçün onun tərcüman (tərcüməçi) olduğunu güman edirlər. Ola bilər. Lakin ərəb dilində işlənən *tərcüman* (tarquman) sözünün özünün *türkman* adından yaranması haqqında ərəbdilli qaynaqlarda məlumat verilir. Ancaq Koryunun İslamdan öncə yazdığı əsərinin başlığında həmin ərəb deyimini işlətməsi bir az şübhə doğurur, həm də onun yazdığı kitabın adında *tarkmançi* sözü vardır. Hər iki halda, xristian ruhani Beniaminin türkman və ya tərcüməçi olması o qədər də önəmli deyil. Əsas odur ki, Koryun kimi,

[251] Azər xalqı, 2000, 294-295.

[252] Rusca ilkin tərcümədəki «vozobnovil» sözünü sonrakı nəşrlərdə «sozdal» sözü ilə dəyişmişlər (Тревер 1959, 307).

M. Xorenatsi və M. Kalankatlı da Albaniyada yerli boylardan birinin dili üçün əlifba tərtib edən Maştosa bu işdə Beniaminin kömək etdiyini vurğulayır, çünki A. Perixanyanın dediyi kimi, «alban» dilini bilməyən Maştos özü «alban əlifbası» yarada bilməzdi.[253] Buna əmin olmaq üçün ilkin mənbələrin verdiyi bəlgələrə və onların sonrakı yanlış tərcümələrinə baxaq. Bunu da qeyd edim ki, Koryunun əlyazmasına olan düzəliş və Kalankatlının əsərində «alban əlifbası» məsələsi M. Xorenatsinin yazısını təkrar edir.[254]

M. Xorenatsiyə görə, Ağvan (Alban) ölkəsinə gələn Maştos *alban* dilinə yox, *qarqar* dilinə uyğun bir əlifba düzəltmişdir. Bu, Xorenatsinin yazısında və müxtəlif çağlarda N. Emin və A. Akopyanın biri digərindən o qədər də fərqlənməyən ruscaya tərcümələrində aydın əks olunmuşdur:

> «(Mesrop) sozdal pismena yazıka *qarqaratsi*, yazıka obilnoqo qorlovımi zvukami, bezsvyaznoqo, varvarskoqo, v vısşey stepeni neskladnoqo».[255]

> «(Maştoü) sozdal pismena dlya boqatoqo qorlovımi zvukami, bezsvyaznoqo, varvarskoqo, v vısşey stepeni neskladnoqo *qarqarskoqo* yazıka».[256]

M. Kalankatlının «Alban tarixi» kitabında da həmin cümlə təxminən eyni şəkildə təkrar olunur, burada yalnız «bənzər» anlamlı hayca *aynorik* sözü yoxdur. Bu kitabın başqa bir əlyazmasında isə (b) ·³ñ·³ñ [*qarqar*] əvəzinə ·³Ý·³ñ [qanqar], yəni «*kəngər*» boyadı yazılıb:[257] *steğts nşanaqirs kokordaxos ağxazur xjakan xetsbekazuni lezuin* (*lezun*) *qarqaratsots* (*qanqaratsots*). Bu cümlənin də rus və azər dillərinə tərcüməsini belə vermişlər:

> «Pribıli oni k Mesropu i s nimi vmeste (Mesrop) sozdal pismena dlya izobiluyuşeqo qortannımi, qrubeyşimi, varvarskimi i trudnoproiznosimımi zvukami yazıka *qarqariytsev*».[258]

> «Onlar Mesropun yanına gəlib, onunla birlikdə qırtlaq, qaba, barbar və çətin səslənən *qarqar* dilinin əlifbasını yaratdılar».[259]

Hər iki tarixçinin verdiyi mətndə və həmin mətnlərin tərcüməsində söhbət *qarqar* (bir yerdə isə *qanqar*) dilindən gedir. Göründüyü kimi,

---

[253] ПС, т. II, 1966, 126-127.

[254] Абегян 1948, 140; Тревер 1959, 307-308.

[255] Хоренаци, 1858, 211.

[256] Акопян, 1987, 70-71.

[257] Kalankatlı (Î³Õ³ÝÏ³ïáõ³óÇ) 1983, 117; (Alban tarixi, II. 3).

[258] История страны Алуанк, 1984.

[259] Alban tarixi, 1993, 33.

burada «alban əlifbası» deyimi yoxdur, heç əlifba sözü də yoxdur. Halbuki, hay yazısı ortaya çıxan çağlardan hayca «əlifba» *aybuben* və *alpapet* sözlərilə verilirdi. Buradakı *nşanagir* sözünün hərfi mənası isə «hərfli yazı», «nişanlı yazı» deməkdir. Ola bilər ki, Qafqaza gələn hay tayfaları damğalar əsasında yaranmış və aramey, pəhləvi, yunan, latın əlifbalarından fərqlənən türk runikasına nşanagir demişlər. Bütün bu ehtimal və gümanları bir tərəfə qoyub, əsas məsələyə, hay tarixinin «atası» sayılan M. Xorenatsinin ilkin mətninə qayıdıb, buradakı sözlərə baxaq:

ëï»ÕÍ ½Ýß³Ý³·Çñë ÏáÏáñ¹³Ëûë ³ÕË³½áõñ ËÅ³Ï³Ý Ë»óµ»Ï³·áõÝÇÝ ³ÛÝáñÇÏ ·³é·³é³óõáó É»½áõÇÝ

[*steğts nşanaqirs kokordaxos ağxazur xjakan xetsbekazunin aynorik qarqaratsvots lezun*].[260]

Bu cümlənin qədim haycadan hərfi tərcüməsi belədir:

«*boğazda danışan yabanı* ***ağxəzər*** (³ÕË³½áõñ) *pozuq əlifbasını qarqarların dilinə uyğun düzəltdi*».

Göründüyü kimi, burada söhbət əlifbanın (nşanagir) alban dili üçün deyil, «pozuq» ağ-xəzər əlifbasını qarqarların dilinə uyğunlaşdırmaqdan gedir. Tarixçinin bu deyimi təhrif edildiyindən rus dilinə dəqiq tərcümə olunmamışdur. Bu cümləni «*Maştos ən yüksək səviyədə uyumsuz, vəhşi, pozuq, boğaz səslərilə bol olan qarqar dilinə əlifba yaratdı*» şəklində tərcümə edən A. Akopyan da etiraf edir ki, alban dilinin özəlliyi haqqında tarixçinin istifadə etdiyi spesifik terminlər dəqiq tərcümə oluna bilmir.[261] Əslində, Maştosun işlətdiyi sözlər sırasında hay dili üçün yalnız *ağxazur* (**ağxazir**) sözü yaddır, digərləri isə hayca izahlı lüğətlərdə vardır:

ëï»ÕÍ [steğts] - *yaratdı, düzəltdi*
½Ýß³Ý³·Çñë [nşanaqirs] - *hərfli yazını*
ÏáÏáñ¹³Ëûë [kokordaxos] - *boğazda danışan*
³ÕË³½áõñ [ağxazur] - (?)
ËÅ³Ï³Ý [xjakan] - *yabanı*
Ë»óµ»Ï³·áõÝÇÝ [xetsbekazunin] - *pozuq*
³ÛÝáñÇÏ [aynorik] - *bənzər*
·³é·³é³óõáó [qarqaratsiots] - *qarqarların*
É»½áõÇÝ [lezuin] - *dili*

---

[260] Акопян, 1987, 71; (Хоренаци, III, 54).

[261] Акопян, 1987, 71.

Əgər hay-erməni dilində olmayan *ağxazur* sözünü tərcüməçilər qondarma «*v vısşey stepeni neskladnoqo*» ifadəsi ilə yox, ilk mətndə olduğu kimi *ağ-xəzər* oxusaydılar, onda bu qədər dolaşıqlıq ortaya çıxmazdı. Halbuki, qədim hay qaynaqlarında *xəzər* (xazir) boyadı bir neçə yerdə keçir və bu da bəllidir ki, ağhun-qarahun bölgüləri olduğu kimi, xəzərlərin də ağxəzər-qaraxəzər bölgüsü olmuşdur.[262] Xəzərlərdən bəhs edən İstəxri də bunu qeyd etmişdir.[263] M. Xorenatsi hətta II kitabında xəzərlərlə (*xazir*) bağlı olayları «Xəzərlərlə savaş» adı ilə yarımbaşlıq kimi verir. Xəzər-azər adlarının isə eyni söz olub, müxtəlif dialekt deyimi ilə yaranması bəllidir.[264]

Vaxtilə N. Akinyan Maştosun alban əlifbası yaratması məlumatının doğru olmadığını yazmışdı. Belə ki, mətndə alban dili üçün yox, ağxəzər əlifbasını qarqarların dilinə (dialektinə) uyğun düzəltməkdən danışılır. Təhlil etdiyimiz qaynaqlarda adı keçən *ağ-xəzər*, *qarqar* və *kəngər* etnonimlərinin isə türk boylarına aid olması bəllidir. Maştosla bağlı adı çəkilən ağxəzər əlifbasının qədim türk runik əlifbası olmasına şübhə yoxdur, çünki Xəzər dövlətində yəhudi əlifbasından öncə runik yazıdan istifadə olunurdu.[265] O çağlarda Bibliyanın, özəlliklə İncilin xristian türklər arasında yayılması üçün runik işarələrlə yazılıb-oxunmasına böyük ehtiyac vardı. Xristianlıq isə Alban ölkəsində suvar, xəzər (azər), qıpçaq, qarqar, alban (aran), hun, gögər, kəngər və ümumiyətlə, sonralar «qaradonlu», «qarapapax» adları ilə tanınan boylar arasında geniş yayılmışdı.

O çağlarda *erməni*, *alban* adı etnik anlamdan daha çox «xristian» anlamında işlənirdi. Haylar Azərbaycana gəlməmişdən öncə burada xristian məbədləri (*vəngləri*) olan ermən və alban boyları vardı. Görünür, Mesropun Albaniyada fəaliyəti qutsal kitabın tərcüməsi ilə bağlı idi. Hay ta-

Qımız qabı üzərində
Xəzər runik yazısı

[262] Bəzi yazarlar qaynaqlarda keçən *akatsir* boyadının *akxazir* (ağxəzər) ola bilməsini güman edir (Kestler, 2001, 11-13); Lakin akatsir adı daha çox *ağacəri* boyadına uyğun gəlir.
[263] İstaxri, 1985, 158.
[264] Azər xalqı, 2000, 10-33.
[265] Hələ m.ö. 65-ci ildə Alban çarı Uruzun (Oros) Pompeyə məktub (*epistulae*) yazması, albanların III əsrdə rum sərkərdələrinə yazı (*scripserunt*) göndərməsi bəllidir (Тревер, 1959, 307-308).

rixçiləri isə bunu əlifba yaratmaq kimi vermişlər.

Beləliklə, runik yazıya aid olduğu halda, illərboyu elmi ədəbiyatda dövrə vuran «alban əlifbası» deyiminin «alban yazısı» kimi təqdim olunan yazılara dəxli yoxdur. Həmin yazılar isə Azərbaycanda işlənən bir çox yazı növündən biridir, onun adı yalnız dili açılandan, oxunandan sonra bilinəcək. Azərbaycanda İslamdan öncə türk boylarının ayrı-ayrı dili yox, bir-birindən az və ya çox fərqlənən dialektləri ola bilərdi, ona görə, ayrılıqda bayat dili, tərəkəmə dili, avşar dili olmadığı kimi, alban boyunun da ayrıca dili olmamışdır. Albanlar azər dilinin bir dialektində danışmışlar və bu dialekt hay tarixçilərinin «qaba qarqar dili» dediyi dialekt deyildi, çünki hay yazarı Mixitar Ayrivanlı (XIII-XIV əsr) albanların danışığını «gözəl dil» adlandırır və həmin çağda bir çox hay yazarı şeirini beynəlxalq ünsiyət vasiləsi olan bu gözəlim azər («alban») dilində yazırdı. Azərbaycanda İslamaqədər müxtəlif yazılardan istifadə olunmuşdur. Bunlardan biri də Naxçıvanda sökülən bir evdən tapılan əlyazmadır. Perqament üzərində olan bu yazının hansı dildə və hansı əlifba ilə yazıldığını müəyyən etmək olmadı.[266] Azərbaycanda tapılan aramey, yunan və latın yazıları ilə yanaşı, part (pəhləvi) yazılarına da rast gəlmək olur. Sonralar ərəb işğalı ilə gələn ərəb yazısı kimi, bu yazıların da əksəri, yabançı istilaçıların gətirdiyi yazılardar:



Naxçıvanda tapılan yazı

[266] Respublika Əlyazmalar İnstitutunda saxlanılan bu yazının surətini çıxarmağa imkan yaratdığı üçün institutun direktoru Məmməd Adilova təşəkkür edirəm.

Göycə gölü yaxınlığında tapılan aramey əlifbası ilə olan yazının isə m.ö. II əsrə aid türkcə bir sınır bəlgəsi olması III bitikdə verilmişdir.

Göründüyü kimi, Azərbaycanda müxtəlif qrafikalı və müxtəlif dilli yazılar işlənmişdir.[267] İslamdan sonra isə əsasən ərəb qrafikalı ərəb-fars və türk dilli yazılar olmuşdur. Yuxarıda deyilənləri və əyani subutları nəzərə alsaq, bu bölmənin əvvəlində qoyulmuş suala belə cavab vermək olar ki, Azərbaycanda nəinki türk yazısı olmuşdur, hətta bu yazı burada yaranmış və buradan müxtəlif bölgələrə yayılmışdır. Beləliklə, Azərbaycanda yazı gələnəyi haqqında yuxarıda deyilənləri belə yekunlaşdırmaq olar:

a) Azərbaycanda yazıöncəsi çağlarda əşya və şəkilli yazılardan, yazıya keçid çağlarında isə piktoqram-loqoqram yazısından istifadə edilmişdir;

b) Sonralar loqoqram və damğalardan heca, yarıheca və fonem bildirən runik işarələr yaranmış və runik yazı m.ö. II minilin ortalarından başlayan miqrasiyalarla müxtəlif bölgələrə daşınmışdır;

c) Türk runik yazısının yaranmasını Qafqazda, sonrakı heca yazıları ilə genetik əlaqəsini isə Aralıqdənizi yaxalarında axtarmaq üçün xeyli faktoloji əsas vardır;

d) İslamaqədər Azərbaycanda *bitik* (*kitab*) kulturu olmuşdur.

Azərbaycanda mixi yazı işlənməsinə baxmayaraq, protoazər boyları türkcə yazmaq üçün türk dilinə yaramayan bu yazı sistemindən istifadə edə bilməmişlər. Loqoqram və damğalardan yaranıb daş-qaya, məişət əşyaları və xalçalar üzərində əks olunan runik işarələr göstərir ki, azər-türk boyları runik əlifbadan istifadə etmiş, yazı və kitabı *bitik* adlandırmışlar. Yazının magik qüvvəsinə inanan azər boyları Qobustan piktoqramlarından üzübəri bitik mərhələsinə qədər ondan ovsun və dua kimi də istifadə etmişlər. Runik yazı ilə böyük mətnlərin qalmamasına səbəb isə bir tərəfdən İslamaqədərki siyasi durum və dini, hərbi olaylar idisə, digər tərəfdən də yazıların məhv edilməsi idi. Azərbaycanla birbaşa və dolayı əlaqəsi olan alban, etrusk və protoelam yazılarının açarı tapılandan sonra bir sıra qaran-

[267] Azərbaycanda orta əsr ərəb yazılarında çətin anlaşılan mətnlərdə sətrüstü və sətraltı yardımçı işarələrdən istifadə olunmuşdur. Vaxtilə, İ. Y. Kraçkovski, Q. V. Sereteli və A. M. Barabanovun diqqətini çəkən bu durumu mətnşünas K. Şərifov düzgün dəyərləndirmiş, burada damğalar və ərəb rəqəmləri ilə yanaşı, hələ unudulmayıb yaddaşlarda qalan runik hərflərdən də istifadə olduğunu müəyyənləşdirmiş və əlyazmalardakı runik hərflərin siyahısını tərtib etmişdir (Шярифов, 1991, 176-181).

lıq məqamlar açılacaq. Azərbaycan bölgələrində qədim yazıların aşkara çıxma ehtimalı böyükdür, çünki tarixi qaynaqlar burada zəngin yazı gələnəyi olmasından xəbər verir. İnşallah, bu yöndə axtarışlar yeni yazı bəlgələri ortaya çıxaracaqdır.



Ayrı-ayrı bölmələr üzrə bura qədər nəzərdən keçirilən milli qaynaqlar göstəriri ki, əslində, 9 Bitikdə araşdırılan tarix "Ön Asiyada islamaqədər türk tarixi" başlığı ilə verilməli idi, çünki burada söhbət m.ö. I minilə qədərki ümumtürk tarixindən gedir, yalnız sonrakı protoazər və azər türklərinin yaranma və formalaşma dövrü birbaşa Azərbaycan türklərinin tarixi ilə bağlıdır. Lakin hələlik ümumtürk tarixi kimi daha geniş kapsamlı bir adın böyük məsuliyəti altına girməkdənsə, bitiklərə azər türkcəsində danışan türklərin etnik coğrafiyasını əhatə edən "Azərbaycan türklərinin tarixi" kimi bir adın seçilməsi uyğun görülmüşdür.

Beləliklə, yuxarıda milli qaynaqlara verilən ipucu bir daha aydın göstərir ki, türk etnosunun On Asiyada doğulmasını, türk dilinin burada yaranmasını irəli sürən Urmu teoriyası antropologiya, DNH, arxeologiya, etnoqrafiya, folklor, mifologiya, dil və yazılı bəlgələrə əsaslanır. Belə bəlgələr üzərində aparılan geniş təhlil, yorumlarsa sonrakı Bitiklərin uyğun bölmələrində verilmişdir. Hələlik isə yabançı qaynaqlara baş vurmaq üçün Ön Asiya türklərinin başqadilli xalqlarla yaxın və uzaq əlaqələrinə baxmaq gərəkir.

5. QONŞU XALQLAR VƏ DÖVLƏTLƏRLƏ ƏLAQƏ

Bu bölmədə yaxın və uzaq qonşularla tarix boyu mövcud əlaqələr gözdən keçiriləcək, çünki azər türklərinin bir xalq kimi formalaşmasında belə əlaqələrin müəyyən rolu olmuşdur. Təbii ki, yaxın qonşu olmuş xalqlara və dövlətlərə daha çox diqqət ayırmaq lazım gəlir, lakin uzaq qonşular sırasında elələri də vardır ki, oradan Azərbaycana gələn bəzi boylar azərlərin etnogenezində yaxından iştirak etmişlər. Bunlar, əsasən, quzey və doğu ölkələrdən Azərbaycana qayıdan türklər və müəyyən çağlarda bura köçürülüb, azər türkləri içində ərimiş, ancaq yerləşdiyi kəndlərdə «Ərəblər» toponimi kimi izi qalan azsaylı tayfalardır. İslamaqədər başqa dilli etnosların prototürk Atayurduna gəlib yerləşməsi burada, özəlliklə, Azərbaycanda arxeoloji kultur, etnoqrafiya və dildə müəyyən dəyişmələrə səbəb olmuşdur. Belə dəyişmələri gəlmə və yerli dəyərlər baxımından üç qrupa ayırmaq olar:

a) Gəlmə kultur yerli kulturla yanaşı davam edir;

Bu halda iki dilin qoşa yaşaması (*bilinqvizm*), iki etnoqrafik ünsür və arxeoloji kulturun çarpazlaşması şəklində görünür. Əgər hər iki etnos eyni dinə ibadət edirsə, etnik dəyərlərin oxşarlığı artır, müxtəlif dinlərə tapınırsa, milli özəllik fərqi saxlanır. Birinci hala azər türkləri ilə iç-içə yaşayan qafqazdilli və irandilli müsəlman xalqlardan ləzgi, saxur, buduq, talış, tat və sairləri, ikinci hala isə xristian udi, yəhudi (dağ cuhudu) kimi xalqları nümunə göstərmək olar. Xəzər dövləti çağından izlənə bilən bu durum tarix boyunca Azərbaycanda da özünü göstərmişdir, çünki türklər etnik-dini dözümlülük baxımından unikal etnosdur.

b) Gəlmələrlə yerlilərin əlaqəsində yerli xalq qalib çıxır;

Gəlmə xalq yerli xalqın dil və kulturunu mənimsəyib tədricən milli dəyərlərini itirir. Bu proses daha çox, gəlmələrin sayca az olması və ya yerlilərlə eyni dinə tapınması səbəbilə baş verir. Birinci halı dilini Azərbaycanda itirən ərəblər, ikinci halı isə indiki Bolqarıstanda dilini itirən bulqar türkləri əks etdirir. Hindistan, Pakistan, Misir və Avropada hətta türk dövlətlərini qurmuş saqa, hun, məmlük, etrusk, bulqar, avar, sabir və sair türklər həmin ölkələrdə yerli əhalinin içində ərimişlər. Gəlmə kultur yerli kultur içində ərisə də, yerli xalqın dilində iz (*adstrat*) buraxır.

c) Gəlmələrlə yerlilərin əlaqəsində gəlmə xalq qalib çıxır;

Bu halda yerli əhali başqa yerə köçür (köçürülür) və ya məhv edilir, ya da gəlmə xalqın hakimiyəti altına düşür. Son variantda yerli dilin gün-

dəmdən çıxması prosesi başlayır, kultur və dilini get-gedə itirən yerlilər gəlmələrin içində əriyib, gəlmə dildə danışır. Lakin qalib gəlmiş dildə yerli dilin izləri (*substrat*) qalır. Belə ki, İkiçayarasına gələn sumerlərin dilində subar türklərindən qalma substrat olduğu kimi, daha sonra buraya gəlib yerləşən samidilli akad-asur, aramey və ərəblərin dilində də xeyli sumer substratı vardır.[268]

Prototürklərin Atayurdu və sonrakı miqrasiyalar ilə yaranmış türk xalqlarının ikinci Atayurdları haqqında II Bitikdə geniş bilgi verilmişdir. IV minildən başlanan köçlər Azərbaycanın qonşu bölgələrinə müxtəlif dilli xalqların gəlib yerləşməsi və prototürk Atayurdundan, o cümlədən Azərbaycandan türklərin quzey və doğu yönlərə getməsi ilə nəticələndi. Sumerlər və samidilli boylar daha çox güney-batı və qismən batı qonşuluqda yerləşmişdisə, hindavropalılardan het və haylar Anadoluda, osetlər Qafqazda, farslar güneydə, qafqazdilli sayılan hurri-urartu boyları da batı və quzey-batı bölgələrdə məskunlaşmışdı:

Azərbaycan türklərinin İslamöncəsi tarixi prototürk Atayurdundan yaxın və uzaq ölkələrə gedib yerləşən türk boylarının tarixindən fərqlə-

[268] Bu etnogenez qanununu diqqətə almayan Azərbaycan tarixçiləri (AT, 1998) belə bir elmdən uzaq fikir irəli sürürlər ki, guya Azərbaycanda əvvəllər başqadilli etnoslar yaşamış, sonradan bura gələn türklər yerli əhalini assimilyasiya edib dillərini türkləşdirmişlər. Bu halda bəs o «başqadilli» etnosdan qalan substratlar hanı?

nir. Azər türkləri Azərbaycanda qalmış boylarla sonralar bura qayıdan türk boylarının qovuşması ilə yarandığı üçün yerli mədəniyətin daşıyıcıları kimi formalaşmışlar. Lakin Azərbaycandan qopub, yad mühitə düşən türklərin oradakı yerli etnoslarla mövcud əlaqəsi onların arxeoloji kulturunda, etnoqrafiya və dilində, bəzilərinin isə antropoloji tipində ilkin durumdan fərqlənən əlamətlər yaratmışdır. Hətta belə fərqlərlə sonra Azərbaycana qayıdan yırımköçəri saqa, qamər, hun, qıpçaq, oğuz boyları yerli azər türklərinin genefondunda iştirak edərək, müəyyən izlər qoy-



muşlar.

> Dünya tarixi göstərir ki, qədim xalqların çoxu dilini itirdiyi üçün tarix səhnəsindən silinmişlər. Adətən, xalqlar o vaxt meydandan çıxır ki, başqadilli, başqa mədəniyətli xalqın hakimiyəti altına düşür və tədricən dilini itirir, başqa xalqın içində əriyib gedir. Lakin Avrasiyanın ayrı-ayrı bölgələrində türklərin dalbadal qurduğu qısa və uzunömürlü dövlətlər türklərin əriyib yox olmasının qarşısını almışdır, Hun, Göytürk və Uyğur imperiyaları doğu türkləri Çin təsirindən xilas etdiyi kimi, bəzi çağlarda qeyri-türk hakimiyətləri tabeliyində ikən müəyyən deportasiyalara məruz qalmasına, ölkənin bəzi bölgələrinə başqadilli tayfaların köçürülməsinə baxmayaraq, son dörd minildə Azərbaycanda zaman-zaman qurulan türk dövlətləri azər türklərinin tarixdən silinməsinə imkan verməmişdir.[269]

[269] Tarix boyu qonşu dövlətlərin maraq dairəsində olmuş Azərbaycanın zəif hakimiyət tərəfindən yönətilməsinə çalışan dövlətlər ölkənin başqa dövlətlərdən asılı vəziyətə düşməsi üçün müxtəlif üsullara əl atmışlar. Türklər arasına nifaq salan Çin siyasəti kimi, fars şovinizmi də türkləri zəiflətmək məqsədi güdmüşdür. Belə taktiki üsullardan biri də ölkə daxilində qarşıdurma yaratmaq idi. Azərbaycanı «İran» adı ilə Türkiyəyə qarşı qoymaq siyasəti aparan Avropa dövlətlərinin Uzun Həsənə, yaxud Avropanın bu siyasətinə qoşulan Rusiyanın Şah Abbasa təsiri tarixi sənədlərdən bəllidir (ПОА,179).

Güney və Güney-Batı qonşular

Bugün Həmədandan aşağı İran yaylasını və Bağdaddan aşağı İraq torpaqlarını əhatə edən ərazilərdə vaxtilə sumer, elam, kassi və draviddilli boylar yaşamışlar. İndiki bəlucların da daxil olduğu draviddilli boylar yerli etnos idi. Elam və kassilər də dravidlərə qohum sayılır. Sumerlər isə bura gəlmə xalqdır. İkiçayarasına sumerlərdən sonra samidilli akad-asur, aramey, ərəb boyları gəlmişdir. Azərbaycanın güney qonşuluğu sayılan Elam ərazisinə sonralar farslar gəlib yerləşmişlər. Güney və Güney-Batı qonşularla tarixi əlaqələrin öyrənilməsi Azərbaycan türklərinin tarixi üçün böyük önəm daşıyır, çünki ən qədim yazılı bəlgələrin ortaya çıxması bu qonşularla bağlıdır.

1. Sumer

Tarixçilərin əksəri sumerlərin IV minilin ortalarında İkiçayarasına gəlməsi faktını qəbul edir, lakin haradan gəldikləri haqqında hələlik gerçək bilgi əldə olunmamışdır.[270] Sumer-akad dillərində olan qaynaqlara görə, İkiçayarasının quzeyi *Subar* ölkəsi, güneyi isə *Kengir* (Sumer) ölkəsi idi və bunların arasında qalan *Kiur* bölgəsi sonralar Akad adlandı. Sumerlərdən minil sonra bura sami (akad) boyları gəlib yerləşmişdi.

Qədim dünya sivilizasiyasında önəmli yeri olmasına baxmayaraq, çoxdan unudulmuş «sumer xalqı» və onun dili haqqında tarix elminə ilk məlumatı Jül Oppert 1869-cu ilin 17 yanvarında gətirdi.[271] Prototürk boylarının güney-batı bölgələri haqqında ilk yazılı qaynaqlar məhz sumer dilindədir. Sumer epik əsərlərində Güney Azərbaycanda qurulan Aratta, Lulu və Qut dövlətlərinə aid bəlgələrlə yanaşı, sumer-türk əlaqələrini aşkar göstərən dil paralelləri qədim türk boylarının güney-batı sınırlarını müəyyən etməyə imkan verir.[272]

---

[270] Заблоцка, 1989, 87; Белицкий, 1980, 46; Канева, 1996, 6; ИДВ, 1983, 91.

[271] Белицкий, 1980, 17.

[272] Sumer-türk əlaqələri, sumer dilində işlənən türkizmlər haqqında B.Landsberger kimi yabançı alimlərlə yanaşı, Ş. Günaltay, O. N. Tuna, Y.Yusifof, T. Hacıyev, A. Məmmədov, F. Ağasıoğlu, M. Novruzov və bir sıra başqa türkoloqlar, həmçinin bəzi aydınlar da müəyyən araşdırma aparmışlar (Landsberger, 1937; 1992; Günaltay, 1987; Юсифов, 1983; 1987; Сулейменов, 1975; Щаъыйев, 1983; Məmmədov, 1983; Мамедов, 1984; Celilov, 1985; Ъялилов, 1988; Новрузов, 1984). Bu araşdırmalar sırasında yalnız prof. O. N. Tunanın əsərini sistemli tədqiqat işi saymaq olar, lakin sadalanan

Tarix boyu aqrar ölkə olan İkiçayarasının güneyi əkinçilik və heyvandarlıqla seçilmiş, buradan ixrac olunan əsas mallar da taxıl, yun və dəri olmuşdur. VI-V minllərdə İkiçayarasının güney bölgələrində əhali əkinçiliyi inkişaf etdirmiş, IV minilin ortalarında sumerlər bura gələndə artıq arx və kanallar geniş suvarma şəbəkəsi formasını almışdı. Güneydə V minilin sonunda formalaşan Ubeyd kulturu sumerlərin gəlişinə qədər yaranıb, inkişaf etməkdə idi. İkiçayarası arxeoloji kulturun Sumer öncəsi dövrü Azərbaycanın güney-batı kulturu ilə eyni mənşəli olub, sumerlərin gəlişindən sonra tədricən fərqli təkamül yolu keçmişdir.

III minilin əvvəlində Sumer əhalisi çoxaldı, şəhərlər hasara alındı, məbədlər böyüdü, yazı yarandı. Burada III minilin əvvəlindən ortalarına qədər yazıöncəsi işarə-loqoqramlar yayılmışdı.[273] A. Leo Oppenheim yazır ki, sumerlər özləindən öncə burada mövcud olmuş mədəniyətlə yanaşı, həmin işarələr sistemini də mənimsəyib onu mixi yazıya çevirmişlər.[274]

> İkiçayarasının güneyinə gəlib yerləşən sumerlərin dilində yerli xalqın bəzi toponim və teonimləri əks olunmuşdur.[275] Burada məskunlaşan sumerlər özlərini «*kəngərli*» və «*kəngər ölkəsinin adamı*» adlandırmışlar.[276] Onların *sumer* adlanması isə akadlarla bağlıdır, çünki bura gələn akadlar «sumerləri» də *subar* (suber > sumer) demişlər. Bu adi gerçəkliyi düzgün dəyərləndirə bilməyən sumeroloqlar bu adla bağlı yanlış fikir söyləməli olmuşlar. Sumer (*şu-me-ru-u*) adına yalnız m.ö. XXIII əsrdən sonra rast gəlmək olur, «Sumer» anlamında işlənən *Kengir* sözü isə hələ Uruk çarı Enşakuşanna (təxminən m.ö. 2450) yazısında vardır:
>
> En-šà-kùş-an-n(a) en-Ki-en-gi luqal-kalam-ma
>
> «*Kiengi'nin ağası Enşakuşanna ölkənin* (=Sumerin) *çarı*»[277]

Sumer mətnlərində ke-en-gi, ki-en-gi, ki-en-gi(-r) yazılış formaları olan bu söz hər yerdə Sumer ölkəsinin adını bildirir: nam-luqal Ki-en-gi Ki-uri im-m[a-n]a-si-mu-uš-a «*Sumer və Akadda uyğun səltənət illərini*

---

tədqiqatlarda olduğu kimi, bu tədqiqatda da qarşılaşdırılan səs uyğunluqlarında müəyyən qüsurlar vardır.

[273] ИДМ, I. 1982, 50, 54.

[274] Оппенхейм, 1990, 39.

[275] Eyni qaynaq, 39-40.

[276] Канева, 1996, 8.

[277] Eyni qaynaq.

ona verdikləri zaman»;[278] ^{d}En-lil-bàn-da-Ke-en-gi-ra-ke$_4$ «*Sumerin gənc Enlili*».[279]

Sumer və kəngər adlarının eyni məna daşıması bəzi sumeroloqları çaşdırmış, *Kengir* adının etimologiyası haqqında fərqli fikirlər söylənmişdir. A. Falkenstein sumercə *kengir* sözünün dialekt variantının (?) akadca *sumer* sözü ola biləcəyini düşünmüş, bu yozumda *k >ş* dialekt keçidini mümkün saymayan İ. M. Dyakonov Kİ.EN.Gİ yazılışını *Sumer* şəklində oxunan (?) ideoqram saymış, A.Westenholz *kengir* adını *Ki-eme-gir*$_{15}$ şəklində bərpa etməyi irəli sürüb, adın tərkibini «torpaq» (ki), «sumer dili» (emegir) və bütövlükdə «sumer dilinin torpağı» anlamı olduğunu guman etmiş, W. H. Römer isə bu adda «yer» (ki) və «knyaz» (eği) tərkiblərinin olduğunu düşünüb, bu ölkə və xalq adını bildirən sözə onomastik qanuna uymayan «bölgə bəyi» anlamını vermişdir.[280]

Əlbəttə, bu yozumların heç biri *Sumer* ölkəadının (xoronim) *sumer* etnoniminə dayandığını və eyni paralelliyin *Kengir* etnoxoronimində təkrar olunduğunu açа bilmir. Qazax, qırğız, özbək, qaraqalpaq və başqord xalqlarında olduğu kimi, Azərbaycan türklərinin də soykökündə iştirak edən *kəngər* boylarının Göycə, Qarabağ, Quba, Naxçıvan və Səlmas bölgələrində yaşaması bəllidir. V əsr hay qaynağı da müasir Azərbaycan, Ermənistan və Gürcüstan sınırındakı Kür vadisində *Kəngəras* bölgəsi və burada *Kəngər* dağı olduğunu qeyd etmişdir.[281] Qanq, qanqlı, kəngə-kişi, kəngər, kəngər-as formalarında işlənən bu etnonimi türk dastan gələnəyi araba ilə bağlayır. Dünyada ilk təkər və arabanı türk boylarının icad etdiyini, *qanqlı* boyuna qədər təkərin olmadığını, ilk arabanı onların düzəltdiyini qeyd edən Rəşidəddin yazır ki, gərək olan yükləri, qənimətləri bu

---

[278] Tosun - Yalvaç, 1989, 50, 61.

[279] Cohen, 1973, 128-130.

[280] Falkenstein, 1959, 14-15; Дьяконов, 1956, 36 ; Westenholz, 1979,118; Römer, 1982, 7; T.Yakobsenin verdiyi Ki-Ningir, Ki-Engi variantları qəbul olunmadı (ИДВ, 1983, 143).

[281] «Şahnamə»də Sır-Dəryanın *Gəng* çayı adlanması, İbn Xordadbehin bunu *Gəngər* çayı kimi verməsi, Qanqlı (*kəngər*) boyuna *peçeneq* deyilməsi, Osmanlı dövlətini quran sülalənin kəngərlərin *qayı* boyundan gəlməsi, Xarəzmşahlar sülaləsinin kəngərlə qohumluğu, urgəncli Təkəş xanın (XII əsr) qanqlı Türkan xatunla evlənməsi qaynaqlarda əks olunmuşdur (ЭИАСА, 97; Бартольд, В, 1968, 404-405; Сейидбяйли, 1986, 40-45).

arabalara yükləyib apardılar və bu səbəbdən *«Oğuz onlara **Kanqlı**, yəni arabaçılar, **arabası olanlar** adı verdi*».[282]

Oğuznamələr cahan hökmdarı olmaq amacı ilə yürüşə çıxan Oğuz xanın İkiçayarasında olmasını qeyd edir. Akad və het dillərində yüngül arabaya hansı dildən alındığı bilinməyən *xulu-kanni, xulu-kannum* deyilir.[283] Burada *kann* sözunün **kanq* «araba» ola biləcəyi və *cəng~qanq* eyniliyi ehtimalı vardır. Deyilənləri nəzərə alsaq, onda düşünmək olar ki, türklərin tarixi yaddaşını minillərlə saxlayan «Oğuznamə» məlumatı 5 minil öncə arabanın ilk dəfə Van-Urmu arasında icad edildiyini sərgiləyən arxeoloji bəlgələrlə təsdiq olunur. Həm də bəlli olur ki, sumerlərin gəlib yerləşdiyi ölkə subar türklərinin güney qolu olan kəngərlərin yaşadığı Kəngər ölkəsi idi. Elmi ədəbiyatda sumerlərdən öncə İkiçayarasının güneyində məskunlaşan boyların dili şərti olaraq *protofərat* (protoyevfrat) və *protodəclə* (prototiqrid) dilləri adlanır.[284] Bu haqda İ. T. Kaneva yazır:

> «Protofərat leksik qatının müəyyənləşdirilməsi olduqca etibarsızdır, lakin aydın seçilən protodəclə qatı İkiçayarasının quzey və güney bölgələrində qeyd olunmuş toponimika və onomastikasında müşahidə olunur. Bəzən protodəclə dilini *banana* dili adlandırırlar ki, bu da həmin dildə Bunene, Kubaba, Zababa, Bilulu kimi özəl ad quruluşunun ingiliscənin banana sözünə oxşaması ilə bağlıdır.[285]

Əslində, «protodəclə dili» elmi tutumdan məhrumdur. İkiçayarası boyunca yayılmış onomastikada türk dili layı aydın görünür. Dəclə çayının qədim adından (İti-gələ) tutmuş, bir çox toponimlər *subar* boylarının

---

[282] Рашидяддин, 13; Görünür, Ərbili *kanxar* boyunun (kəngərlərin) mərkəzi şəhəri sayanlar haqlıdır (Günaltay, 1987, 541); Ubeyd kulturunu IV minilin ortalarına yaxın güneydən İkiçayarasının quzeyinə daşıyan kəngərləri (*kiengi*) və təkər-arabanın bu bölgədə (Van-Urmu arası) məhz həmin çağda ortaya çıxdığını xatırlasaq, Rəşidəddinin qələmə aldığı «*Oğuznamə*»də arabaya «*kanq*», arabalı boya «*kanqlı*» deyilməsini nəzərə alsaq, təkər-araba icad edənin kimliyi aydınlaşar. «Dədə Qorqud kitabı» da *Qanqlı* Qoca adını yad edir (AT, 1996, 176); Sumer dilində də cəng arabasına *gigir* (gingir?) deyilmişdir.

[283] Гамкрелидзе - Иванов, 733.

[284] Sumer dilində sami sözləri ilə yanaşı, başqa naməlum dilin də sözləri olduğunu vurğulayan Y. Zablotska yazır ki, həmin naməlum dildən sumer dilinə əkinçi, heyvandar, dulusçu sənətinə aid sözlər, alət adları, Nippur, Şuruppak, Zababa kimi onomastik sözlər keçmişdir (Заблоцка 1989, 86).

[285] Канева 1996, 6.

dilindən qalma yadigardır.[286] (Belə sözlərin qaynağı və etimoloji izahı dil məsələlərini əhatə edən «VII Bitik»də veriləcəkdir). Sumerlərin gəlişinə qədər quzeydə subar, güneydə kəngər boyları yaşayırdı. Sumer dilində yüzdən artıq türkcə söz olduğunu müəyyənləşdirən prof. O. N. Tunanın bu sözləri tarixi gerçəklikdir: «**Bugün yaşayan** dünya dilləri arasında **ən əski yazılı bəlgələrə sahib dil Türk dilidir.** Bunlar mixi yazılı sumercə tabletlərdəki alınma sözlərdir».[287]

F. Ağasıoğlu prof. Osman Nədrm Tuna ilə (1996)

Sumercə «dil» *eme* adlanır. Sumer dilində *eme-gir*$_{15}$ və *eme-sal* dialekti vardır, sonuncuya «qadın dili» də deyilir. Nazik səsli (incə danışıqlı) adama *luru* deyilir ki, bəlkə də azər türklərində *loru dil* deyimi o çağdan qalıb. Sumer epik əsərlərindəki «dirilik suyu» axtarışı, ölümdən qaçma, ölüb-dirilmə motivləri, Oğuz, Əfrasiyab, Qorqud, Domrul, Koroğlu obrazlarının prototipləri sumer epik əsərlərində vardır.[288] Sumer dilində çoxlu türk sözləri və ortaq izoqlosların olması, qabarıq görünən bəzi tipoloji paralellik bəzi yazarların yanlış olaraq, sumer dilini türk dili ailəsinə aid etməsinə səbəb olmuşdur. Son illərdə xeyli sumer-türk paralellərinin tədqiqi bu iki ayrı etnosun sıx əlaqədə olmasını təsdiq etməklə, bu dillərin qohum olmadığını da ortaya çıxarmışdır.

Sumerdə tarix bir neçə dövrə ayrılır: tufanaqədər olan mifik tarix, tufandan sonra yarımifik və gerçək tarix. I Kiş sülaləsində sonuncu çardan əvvəlki En-Menbaraqesi haqqında həm mifik mətnlər, həm də özünün yazıları qalıb. Qaynaqlardan bəlli olur ki, onun oğlu Aqa güneydəki Uruk şəhər-dövlətini nəzarət altına almaq istəyirmiş. Həmin çağlara aid hadisələrdən və Güney Azərbaycanın Aratta bölgəsindən bəhs edən bir neçə sumer epik əsəri qalmışdır: *Luqalbanda və Hurrum dağı*; *Enmerkar və Ensuxkeşdanna* (mətn nəşr olunmayıb); *Luqalbanda və Enmerkar*; *Enmerkar və Aratta kahini.* Yeni sumer dilinə keçid dövründə (2300-2200)

---

[286] Burada istifadə etdiyimiz sumer sözləri sumer mətnlərindən və sumeroloqların əsərlərindən götürülmüşdür: Шилейко, 1916; Deimel, 1925-1947; Jacobsen, 1939; 1976; Labat, 1952; Falkenstein, 1959; Дьяконов, 1967; Wilcke, 1969; Cohen, 1973; Gostony, 1975; SDG, 1981; Струве, 1984; Tosun - Yalvaç, 1989; Tuna, 1990; Канева, 1996 və b..

[287] Tuna, 1990, 47.

[288] «Билгамыс дастаны», 83-89 (*Son söz.* Sumer dünyasına açılan pəncərə); Celilov, 1985.

isə akad istilası çağı olduğundan sumercə mətnlər lap azdır, çünki yazı işləri akad dilində aparılmışdır.[289]

Yeni sumer dilinin inkişaf çağı 2200-2109-cu illərdə Qut dövlətinə tabe olduğu dövrə təsadüf edir. Sumer mədəniyətinin renesans mərhələsi olan bu çağda zəngin incəsənət, tikinti, elm və ədəbiyat abidələri yaranmışdır. XXI əsrdən sonra II-I əsrlərə qədər sumer dili rəsmi yazı dili kimi işlənsə də, akad dili onu sıxışdırırdı. Ölü dilə çevriləndən sonra sumer dili elm və dini kult dili kimi məktəblərdə öyrənilmişdir.

Əgər türk dilindəki bir qisim səslərin (o, ö, ü, ə, ı, ğ, c, ç) mixi işarəsi olmadığını nəzərə alsaq, sumer dilində türkizmləri müəyyənləşdirmə və onların düzgün tələffüz variantının bərpası işinin o qədər də asan olmadığını görərik. Sumer yazısının transkripsiyasında g_4 (ğ) hərfilə verilən səs alınma sözlərdə *n, g, ng* şəklində oxunur.[290] Bu səsə sumercə «qarabaşlar» anlamında işlənən sağ-ğiga (*sang-ngiga*) sözündə də rast gəlmək olur. İkiçayarası sakinlərinə verilən bu ləqəb akad dilinə *tsalmat-kakadi* şəklində tərcümə olunmuşdur. Bunu dilarxası ñ (nazal) səsi kimi bərpa edəndə sumer-türk paralelliyi daha aydın görünür: [291]

dingir [diñir] - *tañrı* (tengeri < *teñ-er-i)
bulug [buluñ] - *buluñ* (bucaq, tərəf)
kalag [kalañ] - *qalıñ* (sıxlıq, qələbəlik)

Bəzi sumer-türk qramatik paralelləri də diqqəti çəkir:[292] İsmin hal şəkilçiləri, bəzi say və əvəzlik arasında oxşarlıq vardır:

Hallar	Sumer	Türk
adlıq	-Ø	-Ø
yönlük	-e	-a, -ə
çıxışlıq	-ta	-dan, (-da-n)

[289] Дьяконов, 1967, 44-45; Канева, 1996, 7.

[290] Дьяконов, 1967, 49; Канева, 1996, 24.

[291] Bu səsə sumercə «qarabaşlar» anlamında işlənən sağ-ğiga (*sang-ngiga*) sözündə də rast gəlmək olur. İkiçayarası sakinlərinə verilən bu ləqəb akad dilinə *tsalmat-kakadi* şəklində tərcümə olunmuşdur.

[292] Bəzi türk dili ədat, qoşma və şəkilçisinin mənşəyi baxımından sumer dili fakt verir. Məsələn, sumer dilindəki *lu* «adam» və *en* «böyük» sözləri türk dilində *-lı* şəkilçisi və *ən* ədatının (kənd-li, dağ-lı, ev-li, ən yaxşı) etimoloji təhlilində yararlı ola bilər. Sumer dilində müqayisə halı *-gim* (*Enlil-gim* «Enlil kimi») və akad dilində *kima* bənzətmə qoşmasının azər dilindəki *kimi* qoşması ilə eyni söz olması isə şübhə doğurmur.

birgəlik	-da, -be-da	-la, (bı-la)
müqayisə	-gim, -gi	-gibi, -kimi

Saylar:	Sumer	Türk
3	uš (weš)	üç
6	àš	al-te (ş~l)
10	u	on
30	uš-u	üç-on

Şəxs	əvəzlikləri:	
I şəxsin təki	ma-e, mà	mə-n (mən)
II şəxsin təki	za-e, za, zé	sə-n (sən)
III şəxsin təki	e-na, a-ne	o, ol, an

Hal şəkilçiləri bəzi sumer deyimlərində türk morfoloji düzümünə uyğun gəlsə də, əksər hallarda təyin edən sözə qoşulduğu üçün fərqlənir:

Sumercə: $šag_4$-ta ursag-me-en; sipad-men
Türkcə: ürək-dən igid-mən «*igid-əm*»; çoban-mən «*çobanam*»

Sumercə: e dingir qal-qal-ene-ak-a
Türkcə: ev tanrı böyük-böyük (+ *yiyəlik hal* + *yerlik hal*)
«*ulu tanrılar(ın) məbəd-in-də*»

Nümunə üçün XIX əsrə aid sumer sənədində keçən bir cümlədə işlənmiş sipa=çoban, dingir=tanrı, itel=itir kimi sumer-türk ortaq sözlərinin aydın görünən qramatik və oxunuş fərqinə baxaq: [293]

u_8.udu.há i-na qá-ti-šu a-wi-il-dingir.iškur sipa i-te-el-a-ni-im
«*çoban Avil-Adad qoyunları əlindən itirdi*»

Sumer və türk dillərində söz sırasının fərqini əks etdirən Kİ.TUŠ (akadca *šubtu*) «oturulan yer» düzəltmə sözü sumer dilində *ki* «yer» və *tuš*- «düşmək» ardıcıllığı ilə, azər türkcəsində isə feil+şəkilçi *tüş*(*ər*)*gə* ardıcıllığı ilə düzəlir. Sumer dilinin söz yaradıcılığındakı sıra fərqi aşağıdakı misallarda aydın görünür:

[293] Козырева, 1988, 76, 185.

sag «baş», *gig* «qara»	>	*sag-gig* (baş-qara)	>	*sag-gig «qarabaş»*
ur «it»	>	*ur-sag* (it-baş)	>	*ursag* «igid»
bara «qır»	>	*ur-bara* (it-qır)	>	*urbara* «börü»
max, qal «böyük»	>	*ur-max* (it-böyük)	>	*urmax* «aslan»
lu «adam»	>	*lu-qal*(adam-böyük)	>	*luqal* «hökmdar»

Sumer dilində elə sözlər var ki, onların azər türkcəsində qarşılığını tapmaq çətinlik törətmir, çünki məna və səs uyğunluğu çox dəyişməmişdir. Məsələn;

Azər dilində	Sumer dilində
duru	dú-ru «*saf*», «*qatışıqsız*»
um-(maq), ümid	ù-ma «*arzu*», «*istək*»
yal (alovlanmaq)	zal- «*alovlanmaq*»
yalın (alov)	zalag «*alov*»
isi-t(mə), isti	izi «*od*», «*atəş*»

Belə sumer-türk paralelləri içində hətta omonim cərgə təşkil edən sözlərin olması da bu dillər arasında yaxın əlaqə olduğunu göstərir:

uş «*uzun*» - «az getdi *uz* getdi», uzun/uzaq, uzatmaq
uş «*izləmək*» - uzlaşmaq (uz-laşma)
uş «*uşaq*» - uşaq (uş-aq)
úr «*özək*» - orta (or-ta)
ur_4 «*biçmək, məhsul yığmaq*» - oraq (or-aq), uralanmaq
ur_6//ur_7 «*artım*», «*kürü vermə*», «*qohumluq*» - ur-va, ur-uq, uruq-turuq

Türk dilləri, özəlliklə, azər türkcəsi söz dağarcığının ağzını müxtəlif nitq hissələri üzrə alınma sözlərə açıq saxlasa da, feillər üçün bu yol həmişə qapalı olmuşdur. Bu baxımdan, dilimizdəki bəzi feillərin sumer dilində işlənməsi diqqəti çəkir.[294]

Azər türkcəsi	Sumercə	Anlamı
burax-	bur-	«azad etmək»
bağla-	pag-	bağlamaq, «hasara almaq»
ver- (ber-)	ba-	vermək
dur-	dúr-//dúrun	durmaq, «rahatlanmaq»
düş- (tüş-ərgə)	túš-	oturmaq, «düşüb-qalmaq»
de-	di-	demək

[294] Müqayisə həm də göstərir ki, bugün sadə quruluşda görünən *dol-, qıl-, qoy-* kimi sözlərin bəzisi tarixən düzəlmə sözdür: do-l, qı-l, qo-y.

dol- (do-l)	du_3-	dolmaq
tök-	dug-	tökmək
eş-	eš-	eşmək
qaç-	$kaš_4$-	qaçmaq, (türkcə: *koş*-)
qal-	qal-	qalmaq, «yerləşmək»
qıl- (kı-l)	ki-	qılmaq, «etmək»
qoy- (ko-y)	ku-	qoymaq
qoru-	kur-	qorumaq
yaz-	sar-//šar-	yazmaq
çaq- (çax-maq)	saq-	çaxmaq
çap-	šap-	çapmaq, vurmaq
tax-	tax-	taxmaq
dəy- (dəgənək)	tag-//te(ga)-	dəymək, toxunmaq
yar-	dar-//tar-	yarmaq
yap-	tab-	yapmaq, örtmək
get-	gid-	getmək
it-	ite-	itmək

Bu feillərdə özünü göstərən r~z, ş~l, g~Ø, d/t~c~y, z(s)/ş~y dialekt fərqləri digər nitq hissələrində də (isim, sifət, say) türk-sumer paralelləri üzrə özünü göstərir:

poz(uq) - *bur*; biş (mək) «yandırmaq» - *bil*; altı - *aššа*, alañ (açıq düzənlik) - *aša*(*g*); ig (xəstəlik) - *gig*; cırıq (yırtıq) - *dirig*; yumru (yumuru) - *dubur*; yarım (yarı) - *šurim*; çağa (uşaq) - *sag*; çibin (milçək) - *zibin* və s.

> Əlbəttə, bu qədim dialekt fərqləri sumer-türk əlaqələrində bir neçə türk dialektilə təmas olduğunu göstərir. Sumer dilində *protodəclə* deyilən dil qatının subarlara, sonrakı paralellərin isə lulu, qut, turuk boylarına aid olduğunu düşünmək olar. Özəlliklə, sumer dilində qut sözləri daha dərin iz buraxmalı idi, çünki bir əsr boyu qutlara tabe olan sumerlər türk boyu olan qutlarla əlaqənin intensiv dövrünü yaşamışlar.

Sumer dilində türk dilləri ilə tipoloji oxşarlıqlar da vardır. Belə ki, ikihecalı sumer sözlərində sinharmonizm qanunu güclüdür, belə sözlərdə eyni sait işlənir: *qaba* «sinə», *uru* «şəhər», *eger* «arxa».[295] Sumer dilində söz kökü dəyişmir, iltisaqi dillərdə olduğu kimi, şəkilçilər sözün sonuna dalbadal qoşula bilir. Lakin türk dillərindən fərqli olaraq, sumer dilində prefikslər (önqoşma) vardır və söz sırası *eme-bal* (dil-manc) tipli deyimlər istisna olmaqla, yuxarıda verilən nümunələdə olduğu kimi türkcədən fərqlənir; təyin edən təyin olunandan öncə deyil (*qara-baş*), sonra işlənir (*baş-qara*).

---

[295] Дьяконов, 1967, 50.

Sumer-türk paralelləri *Türk Dövlətçiliyi tarixi* baxımından gərəkli bilgilər verir. Belə ki, m.ö. IV-III minilliyə aid sosial-siyasi qurumları ehtiva edən terminlərlə yanaşı, bunların sırasında coğrafi durumla, əkinçi, heyvandar, dəmirçi, dulusçu sənətlərilə ilgili sözlər və məişətdə işlənən alət adları aydın göstərir ki, sumer-türk əlaqələri təkcə iki qonşu xalq arasında ticarət əlaqəsi yox, həm də çox yaxın, sıx təması əks etdirir.[296] Bu səpkidə olan bəzi sözləri gözdən keçirək:

Coğrafi durumla (landşaftla) bağlı bəzi azər-sumer paralellərində müəyyən dəyişmələr olsa da (əslində olmalıdır), onları asanlıqla seçmək olur. Belə ki, *qır* (kır, bozqır) sözü sumercə *kiri*$_6$ sözündə, «torpaq» anlamında *quru* (kuru) sumercə *kur* sözündə, *qum* sumercə «*xırdalamaq*», «*çınqıl*» anlamlı *qum* sözündə və *yaxa* (yan) sumercə «kənar» anlamlı *zag* sözündə görünür. Bəzi astroloji terminlərdə də yaxınlıq vardır: Günəş tanrısı ^{d}*UTU* - od/ot, Çoban ulduzu *Şulpae* - Çolpan.

Bəzi türk dillərində qalan *ordu* (qarnizon, düşərgə) və *uram* (küçə, şəhər) sözlərinin or//ur kökü sumer dilində «şəhər» anlamındakı *uru* sözündə görünür. Azər dilindəki *ev* sözü sumer dilində E şəklində və *qapı* sözü də KA şəklində yazılır. Azər dilində *oba* şəklini almış sözə sumer dilində «yaşayış yeri», «sahə, məntəqə» anlamında işlənən *ub* sözündə rast gəlirik.[297]

Qədim türk dilində «qəbilə», «uruq» (ur-oq) anlamında olmuş **oq* sözünə uyğun sumer dilində «insanlar», «xalq» anlamında ÙG, UKÙ sözü işlənmişdir. Həmin *oq* kökü azər dilində *oğul, oğlan* sözlərində olduğu kimi, sumer dilində də *ugú* sözü «doğmaq», «evlad, uşaq» anlamında işlənir. Türk dillərində *urva, uruq* (uruq-turuq) sözlərinin kökü sumer dilində «qohumluq», «artım», «kürü vermə» anlamları olan *ur*$_6$, *ur*$_7$ sözlərində və «icma», «şəhər» anlamlı *uru* sözündə, *torun* (nəvə), *törəmə* sözlərinin kökü isə sumercə «balaca» anlamlı *tur* sözündə əks olunmuşdur.

---

296 Qədim Azərbaycan dili (azər türkcəsi) üçün qədim Ön Asiyanın makroareal olduğunu vurğulayan prof. T. Hacıyev təhlil etdiyi bir neçə sumer-türk paralelliyindən alınmış nəticəni düzgün dəyərləndirir: «Dil elementlərinin uyğunluğu ən azı onu göstərir ki, altı minil əvvəl türkdilli etnos sumerlə (ən çox da Midiya səmtindən) yaxın mədəni, siyasi, iqtisadi əlaqədə olmuşdur» (Щаъыйев, 1983, 32); İstedadlı alim A. Məmmədov da sumer və türk dilləri arasındakı əlaqəni əks etdirən xeyli paralellər ortaya çıxarmış və bu nəticəyə gəlmişdir ki, türk etnosunun batıdan doğuya miqrasiyasının artıq nəzəri baxımdan ortaya qoyulması üçün müəyyən dil faktları vardır (Мамедов, 1984, 20).

297 Gostony, 1975, 13.

Diqqəti çəkən sosial terminlərdən biri də akad dilində *kallatu* kimi oxunan və sumer yazısında É.Gİ$_4$.A (evə gələn?) şəklində verilən «*gəlin*» sözüdür. Dul qadın anlamı NU.MU.SU (akadca *almattu*) işarələrilə verilir, İ. M. Dyakonov *Dulatum* adlı qadını «dul qadın» sayır.[298] Titul bildirən sözlər sırasında türkcənin *damğaçı, ərən, şad, bilgə* sözlərinə uyğun sumer dilində DAM.GÁR (akadca *tamkāru*), ERİM.HÁ «ordu», *erin* «əsgər», *şatam* «nəzarətçi», *bilqa* «görücü», «bilən» sözləri vardır.

Dövlətçiliklə bağlı bəzi türk sözlərinin etimologiyası onun sumer paraleli ilə daha asan açılır. Belə ki, *bayraq* (dialekt vapiantı *baydaq*) sözü sumer dilində *badara* (ba-da-ra) şəklində işləndiyindən onu *bat-ır-aq «sancaq», «bayraq» şəklində bərpa etmək olur. Yaxud C. G. Gastoninin dediyi kimi, «vəzir» anlamlı titul bildirən SUKAL (akadca *sukallu*) sözünün kökündə sumercənin *su* «saqqal» sözü varsa, onda türk dillərində işlənən *saqqal* sözünü sumercədən alınma saymaq olar.[299] Bu halda, qədim ağsaqqallar şurası qurumu öncə başqa terminlə, olsun ki, KDQ-da olduğu kimi, *qoca* sözü ilə verilmişdir.[300]

Sumer yazısında «tarla», «əkinə hazır yer» A.GAR (akadca *ugaru*) və GAN (akadca *eglu*), «əkinçi» sözü isə ENGAR (akadca *ikkaru*) şəklində verilir ki, bunu azər dilində *ək-* feilindən düzəlmiş *əkər* sözü ilə müqayisə etmək olur.[301] Maraqlıdır ki, sumer yazısında «işlənməmiş torpaq», yəni əkinə hazır olmayan *qanqallıq* KANKAL şəklində yazılır.[302] Sumer dilində «biçmək, məhsul yığmaq» anlamında olan *ur*$_4$ sözü azər dilindəki *oraq* (or-aq), *uralanmaq, urvalıq* sözlərində görünür. Əvvəllər taxıl, buğda anlamında işlənən *aş* sözünün «xörək», «plov» mənası *aşxana, aşa-* («ye-») sözlərində qalmışdır. Sumer dilində isə *aş* sözü taxıl tanrısı ^{d}*Aşnan* adında və başçıya məxsus tarla anlamında *aşaq-en* sözlərində görünür.

Heyvanlarlıqla bağlı sumer dilində diqqəti çəkən «buğa», «öküz» anlamlı *gud* sözü q~ Ø dialekt fərqi ilə türk dillərində eyni mənalı *ud* sözündə qalmışdır. Azər dilindəki *sürü* və *çoban* sözlərinə sumercədə eyni

---

298 Дьяконов, 1990, 194.

299 Gostony, 1975, 32.

300 Ялийаров, 1991.

301 Bu baxımdan, əkinlə ilgili bəzi latın terminlərinin başında işlənən *aqro-* sözünü də etrusk//türk-latın əlaqəsinin göstəricilərindən biri olduğunu düşünmək olar.

302 Tosun - Yalvaç, 1989, 306, 308.

anlamlarda işlənən *şurum* və *siba//sipad* deyimlərində rast gəlmək olur. Sumer dilində «quş» anlamında *mušen* ilə yanaşı, *ušan* sözü və «yuva» anlamında *ušub* (quş evi) sözü vardır.[303] Burada hər iki dil üçün ortaq olan *uç*(maq), *quş* və *eb* sözləri vardır.

Sumer çağında müxtəlif sənətlərlə ilgili sumer-türk paralelləri sırasında tikinti və hörgü ilə bağla *urgu - hörgü* (ör-gü), toxuculuqda işlənən *tuku - toku*-(toxumaq), metal və dəmirçiliklə bağlı *tibira - dəmir* (temir), *agar - ağır* «metal» (ağır metal, qurğuşun) sözləri vardır. İraqda çağdaş *Bakır-təpə* (Tel-əs-Sıfr) şəhəri də sumer çağında *Bad-Tibira*^{ki} adlanırdı.

Məişətdə işlənən sözlərin bir dildən başqasına keçməsi iki xalqın yaxın əlaqəsini göstərir: *azgu - asqu* (asqı); *àştar* «qıfıl» - *açar*; *bár* «qab», «səhəng» - bardaq (*parç* Vedi ləhcəsində), *adakur - ayaq* (adak, qədəh), *kabkagak - qabqacaq* (kab-*kadak) və s.

Sumer dilində *bal* sözünün «qazmaq» və «balta» anlamı vardır ki, bu da azərcə *bel* və *balta* (bal-ta) sözlərinin ilkin anlamına işıq tutur. Bu dillər arasında ölçü anlamı, ölçü vahidi kimi işlənən sözlər arasında da yaxınlıq vardır. Belə ki, azər dilində *siləbəsilə* (silə-bə-silə) deyimi sumer dilində *sila* (300 litr) sözündə, *dilim-dilim, bir-iki dilim* deyimi isə sumer dilində *dili* və *dili-dili* (bir-bir, birər) sözündə görünür. Məsələn, sumer dilində *lú-dili-dili* deyimi «dilim-dilim (birər) ayrılmış adamlar» mənasında işlənir.

Maraqlıdır ki, *şeir* (şe'r) sözü dilimizə ərəb dilindən keçmişdir və bu fakt şübhə doğurmur. Lakin sumer-türk paralelləri sırasında «türkü», «qoşma» anlamında *şir - yır* sözləri göstərir ki, söz sənəti ilə bağlı sumer dilindəki *şir* sözü sami dillərə keçmiş, sonralar biz öz bumeranq *yır* sözümüzü yenidən ərəblərdən şe'r kimi almışıq.

Sumer-türk əlaqələri baxımından, Xəzər dənizinin quzey yaxasında sonralar su altında qalmış *Sumer-kənd* yaşayış məskəninin adı da diqqəti çəkir. Akad.V.V. Struve III minilin ortalarına aid (Subar çağı) Laqaşda qul və qulluqçuların adını əks etdirən siyahı tərtib etmişdir. Burada sadalanan *Şubur-Ana, Şubur-Baba, Şubur-Tur* kimi adlarla yanaşı, türk adlarına çox oxşayan xeyli başqa adlar da vardır.[304]

---

303 Tuna, 1990, 13.

304 ^{d}Baba, Kaka, Katar, Ural, Uran-kuş, Uruzi(d), Usar, Urugi, Uri, Urkatur, Urki-qara, Uruka, Uru-kugşe (Uru gökcə?), Turuş, Pirig-kura, Puta-buda, Sag-An-tuku, Sagana-kuş, Sagaru-basum, Lala və b. (Струве, 1984, 91-92, 158, 175-176, 201).

> Beləliklə, sumer-türk paralelləri aydın göstərir ki, İkiçayarasına gələn sumerlər burada müxtəlif çağlarda, müxtəlif dialektli türk boyları ilə təmasda olmuşlar. Öncə İkiçayarası ərazidə subar, kəngər, sonra isə lulu, qut boyları ilə təmasda olan sumerlərin Güney Azərbaycandakı Aratta ölkəsi ilə ticarət və diplomatik əlaqələri də sumer-türk paralellərinin yaranmasında rol oynamışdır. Aratta çağında özünü göstərən bu əlaqə daha çox ticarətlə bağlı olsa da, sumerlər dara düşən kimi yardımı Arattadan umurdular. Qut eli çağında da davam edən bu gələnək bir sıra tarixçilər tərəfindən düzgün dərk olunmamış, Sumerlə-Qut münasibətlərini yalnız «düşmənçilik» kimi vermişlər. Qədim tarix uzmanı M. Mirzəyev düzgün olaraq, belə yanaşmanı tənqid edir.[305]

2. Samilər (akad-asur, babil-aramey, yəhudi, ərəb)

Qədim türk boylarının güney-batı qonşuları m.ö. IV minilin sonu, III minilin ortalarından başlayaraq, Ərəbistan çöllərindən qalxıb İkiçayarasına üz tutan və İslamaqədər müxtəlif çağlarda dəfələrlə Azərbaycan bölgələrinə işğalçı kimi girən samidilli boylar idi. Minillər ərzində birbirinin ardıca Azərbaycana gələn *akad, asur, aramey, ərəb* boyları ilə və Azərbaycana göçürülən *yəhudilərlə* öncə prototürk, sonra isə protoazər boyları sıx təmasda olmuşlar.

Ön Asiyadan türk etnosunun doğu və quzey yönlərə çəkilməsi səbəblərindən biri də öncə prototürk, sonralar isə protoazər və azər türklərinin güney-batı qonşuları sami boyları ilə 3500 il davam edən əlaqə idi. Sami qonşuluğu başqa tarixi qonşulardan fərqli olaraq, Azərbaycan əhalisi üçün ən məşəqqətli illər sayılır. Ərəb istilasına qarşı vuruşan Babək hərəkatına qədər müxtəlif çağlarda Azərbaycan bölgələri müəyyən fasilələrlə akad, asur, aramey, babil adı ilə ortaya çıxan sami tayfalarının hücumlarına məruz qalmış, sami hökmdarlarının cəza tədbiri kimi, zəbt etdiyi bölgələrdən türkləri uzaq ölkələrə köçürməsi, onların yerinə başqa xalqları gətirib yerləşdirməsi nəticəsində bir çox bölgənin demoqrafiyası xeyli dəyişmişdir.

Ərəbistan yarımadasındakı çöllərdən axın-axın İkiçayarasına sızan köçəri sami tayfaları buradakı münbit torpaqlarda məskunlaşırdılar. Kiçik dəstələrlə gəlib, yerli mədəniyətə uyğunlaşan və zaman keçdikcə buradakı sumer, türk və hurrilərlə qaynayıb-qarışan samilərdən fərqli olaraq,

---

[305] «İ. M. Dyakonov yazır ki, Uti-heqala qarşı vuruşan qut qoşunlarına Akad və Sumer mənşəli əyanlar (Nabi-Enlil və Ur-Ninazu) başçılıq ediblər və qoşunun tərkibində sözün həqiqi mənasında qut dəstələri çox olmayıb. Deməli, sumer-akad əhalisinin bir hissəsi qutların tərəfində idi və bu fakt Uti-heqalın onlara qarşı *ümumi üsyan* qaldırması barədə elə İ. M. Dyakonovun özünə məxsus olan fikrini təkzib edir» (Mirzəyev, 2003, 6-8).

çoxsaylı çadırlarla gəlib burada oturan heyvandar samilərin aqressiv axını sürəkli davam etdiyi dövrlərdə onlar yerli əhalini sıxışdırıb yerindən çıxardır, İkiçayarasını bölgə-bölgə mənimsəyirdilər. Buralarda möhkəmlənən sami tayfaları sonralar dövlət qurub, vaxtaşırı ətraf ölkələrə, o cümlədən Azərbaycana hücumlar edirdi.

İkiçayarasına ilk gələn samilər Sumerdən yuxarı yerləşmiş və buradakı Akad şəhərində oturanlar *akad* adlanmış, dillərinə akad dili deyilmişdir. Sonralar gəlib, akadlardan yuxarıda Asur şəhəri civarında yerləşən samilərə *asur* deyilmişdir. Asurlardan sonra Babil ətrafına və Dəclənin aşağı axarındakı sol yaxasına yerləşən *aramey* adlı samilər öz dillərini akad dili saysalar da, asur dili kimi, babil dili də akadcanın dialekti idi. İslamın yayıldığı çağlarda isə bu ərazilərə *ərəb* köçləri olmuşdur. Akadlardan sonra gələn amorey (*amurrú*) samiləri güneydə Babil, quzeydə isə Asur dövlətini qurdular.

Akad-Asur. Sami adları sumer yazılarında XXV əsrdən görünməyə başlayır. İkiçayarasında subar türklərini sıxışdırıb çıxaran, güneydə isə Sumer şəhər-dövlətlərini zəbt edən akadların dili get-gedə burada ortaq (ümumi) danışıq dilinə çevrildi, sumerlərin dili isə dəftərxanalarda işlənməkdə davam edirdi. Sumerlərin mixi yazı sistemini mənimsəyib öz dillərinə uyğunlaşdıran akadlardan çoxsaylı yazılı abidələr qalmışdır.

XXIV əsrin sonunda Akad hökmdarı Sarqonun (buna Ulu Sarqon da deyilir) qurduğu Akad dövləti qısa zamanda İkiçayarasında kiçik qala-şəhər bəyliklərini, şəhər-bölgə dövlətlərini öz təsir dairəsinə sala bildi. İkiçayarasının quzeyində Hat, Kaniş, Ullubi, Arman, Tourki və sair bölgə bəyləri birləşib Akada hücum etsə də, Sarqon onları geri oturda bildi.[306] Bu boyların başında duran Pampa, Zipan (*Çoban*), Mudakin (*Budak*) adlarına sonrakı türklərdə rast gəlmək olur. Koalisiyada tourki (*türk*) boyuna *İlşunail* (Elçu-nail) başçılıq edirdi. Qısa müddətdə çoxlu ərazi tutmasına baxmayaraq, Akad dövlətinin ömrü qısa oldu; Sarqonun nəvəsi Naram-Suen 2201-də türk boylarından olan qutlarla savaşda öldürüldü. Akad dili isə sumer dililə yanaşı rəsmi dövlət dili kimi davam etdi. Beləliklə, akadlar Azərbaycanın batı bölkələrində və batı qonşuluğunda *subar, arman, tourk* boyları ilə qarşılaşmışlar. [307]

İkiçayarasına XXI əsrin sonunda «batılı» anlamında akadca *amurrú*, sumercə *lu-mártu* adlanan yeni sami boyları gəldi.[308] Akadlardan yuxarı ərazilərə girib, yerli subar boyları ilə gündəlik təmasda olan bu sami tayfalarının dili tədricən akad dilindən fərqlənən bir dialekt forması alırdı. Bu dialektdə danışan samilərin *asur* adlanması onların *Asur* (məbud, iyə) tapınağı ilə tanınan subar şəhəri ətrafına yerləşmələri, Asur məbədində sitayiş etmələrilə bağlı idi.[309]

Əvvəllər «çadırda yaşayan» ilk asur çarları öncə samicə olmayan Apiaşal (*api-asal*), Uşpia /Auşpia, Kikkia kimi adlar, sonralar isə samicə adlar daşımışlar. [310] XX əsrin ortalarından sonra İluşuma və oğlu I Erişum ölkəyə gətirilən malları vergidən azad etməklə, qısa zamanda Asuru regionun ticarət mərkəzinə çevirdilər. Batı samilərdən olub, otuz ildən yuxarı hakimiyətdə qalan I Şamşi-Adad (±1813-1781) Asur dövlətini gücləndirsə də, turuk boyunun dirənişini qırıb, Azərbaycana girə bilmədi, ondan sonra Asur zəifləyib, Babil və Mitan dövlətlərinin nüfuzu altına düşdü.

---

306 ИДВ, 1983, 239; Memiş, 2002, 70.

307 Akad çağında sami-türk яlaqяsinя Qut Eli bölümündя tяkrar qayıdacağıq.

308 ИДВ, 1983, 284-286.

309 Sonralar pers toplumunda *Hörmüz* (Ahura + Mazda) adının tərkibində qalan və Dəclənin sağında Asur, solunda isə Qasur şəhərlərinin adına çevrilən *Asur* (Asar) teonimi barədə «Teonimlər» bölməsində (V Bitik) geniş məlumat verilir.

310 I Puzur-Aşşur, Şallimaxum, I Erişum, İkunum, I Sarqon, II Puzur-Aşşur və s.

Gəlib yerləşdiyi bölgə əhalisilə öncə mülayim davranıb, yerli gələnəklərə uyğunlaşmağa çalışan, burada metallurgiya, arxitektura və şirəli keramika texnologiyasını mənimsəyən, «geyim adlarından tutmuş, vəzifə və qurum adlarına qədər» xeyli sözlər alıb mənimsəyən asurlar müəyyən vaxtan sonra ticarət sahəsində böyük başarılar əldə etdilər.[311] Bu təpərli etnik qüvvə ticarət yollarına nəzarəti əllərinə almağa çalışır və getdikcə aqressivləşərək güclü ordu yaradıb, ətraf bölgələrə hücumlar edirdilər. Asurlarda milli ovqatın yüksək olması qurduqları dövlətin uzun sürməsini təmin edirdi. Asurlar zaman-zaman zəifləyib başqa dövlətin vassalına çevrildiyi dövrlərdə də milli ruhu saxlaya bilmişlər. Onlar İkiçayarasında orta və yuxarı bölgələrin karvan yollarını ələ keçirməklə ticarət sahəsində xeyli irəlilədilər. Artıq XIX-XXVIII əsrlərdə qonşu ölkə və bölgələrdə, özəlliklə metalişləmə sənəti gəlişmiş Anadolunun bir neçə şəhərində asur tacirlərinin *karum* (koloniya) adlanan məhəlləsi yaranmışdı. Bu karumlar şəbəkəsinin mərkəzi Kaniş şəhərində yerləşirdi.[312]

Ön Asiyada ən qüdrətli və ən zülmkar imperiya quran asurlar dörd tərəflərində yaşayan xalqlara vaxtaşırı hücum edərək yeni torpaqlar zəbt etmiş, tutduqları bölgələrdə deportasiya siyasəti aparmışlar. Azərbaycanın güney-batı bölgələri müəyyən fasilələrlə 1500 il (!) Asur ekspansiyasına məruz qalmışdır. Akad siyasətini İkiçayarasının yuxarı bölgələrində daha qəddarlıqla gerçəkləşdirən asurlar buradakı subar boylarından bəzilərini sıxışdırıb yer-yurdundan çıxarmışlar. Həmin bölgədə qalmış son Subar bəyliyini də m.ö.VII əsrdə tutub dağıtmışlar. Asurlar bütün bu aqressiya ilə yanaşı, tarix üçün qədim türklərlə bağlı əvəzsiz bəlgələr də vermişlər. Belə ki, *asurdilli* qaynaqlarda subar, qut, zəngi, kuman və sair qədim türk boyları haqqında xeyli bəlgə vardır, Mari şəhərinin xarabalığında tapılan yazılar isə asur-türk (turuk) savaşlarını geniş əks etdirir.[313]

Asur dövlətinin tarixi bir neçə dövrə bölünür.[314] Əski Asur dövrü I İsme-Daqanla (±1797-1755) bitir. İlk çağlarda asurlar Dəcləni keçib, Azər-

---

311 Оппенхейм, 1990, 54.

312 Buradakı ticarət sənədlərində *Panak, Aquz, Saklı, Ata, Tarxun, Tuman* kimi türk şəxs adlarına rast gəlmək olur (КТИК, 1968).

313 Azər xalqı, 2000, 34-46, 58-59, 123-134.

314 XX əsrdən I Puzur-Aşşurla başlanan Əski Asur dövrü I İsme-Daqanla (±1781-1742) bitir. Orta Asur dövründə Aşşur-ubalit (±1365-1330) Asur dövlətini yenidən toparlayıb dirçəldir. Sonralar bir ara yenidən Babilin təsiri altına düşən Asur IX əsrin başlarından güclənib Babili də öz nüfuz dairəsinə salır.

baycanın batı bölgələrinə soxulmaq istəyir, lakin turuk boyları XIX-XVII əsrlərdə bu ekspansiyanın qarşısını ala bilirlər. Orta çağlarda da asur çarlarının yürüşləri nəticəsiz olur.[315] Tarixdə I Tiqlatpalasar (1115-1077) adı ilə tanınan güclü siyasətçi Tukulti-apal-Eşşara işğal etdiyi ölkə və bölgələrin əhalisini kütləvi şəkildə köçürürdü ki, yad mühitdə onların toparlanıb birləşmə imkanları olmasın. H. Sever yazır ki, tarixdə «*deportasyon*» adı verilən bu olayı ilk dəfə I Tiqlatpalasar gerçəkləşdirmiş, ondan sonrakı asur çarları da bu siyasəti davam etdirmişlər.[316] Bu çağda Asur dövlətinin regionda möhkəmlənməsi üçün əlverişli şərait yaranmışdı: Het dövləti dağılmış, arameylər Babili gücdən salmış, Misir zəifləmişdi. Bu fürsətdən istifadə edən Asur XII-XI əsrlərdə Ön Asiyada qüdrətli dövlətə çevrilsə də, aramsız aramey köçlərilə zəiflədi, bir əsr boyunca asur yazısı da görünməz oldu. Yeni Asur dövrü X-VII əsrləri, II Asurnasirpaldan Asur dövlətinin yıxıldığı ilə qədərki zamanı (884-612) əhatə edir. II Sarqonla başlanan Sarqonidlər sülaləsi (721-626) çağında Asur imperiyası Misiri, Suriyanı və Anadolunun bəzi, Azərbaycanın isə güney-batı bölgələrini tutmuşdu.

Asurlar Güney Azərbaycana vaxtaşırı yürüş etdikcə, Urmu hövzəsi bölgələr haqqında xeyli məlumat verirlər. Bunun örnəyini II Sarqonun yürüş marşurutunu təhlil edərkən (II Bitik) görəcəyik. Təkcə bu yürüşlə bağlı ölkənin siyasi-iqtisali durumu haqqında bilgi əldə etməklə yanaşı, onlarla bölgə üzrə toponim və etnik adları öyrənmək olur. Belə ki, həmin yürüşü əks etdirən sənəddə *Kullar* dağı (müasir *Qollar*), *Aratta* çayı, *böyük* titulu, *urika* (uruq) və *but* (boy) terminləri, *qızıl, karalu, dəli, kanzabakan, barikan, sangi, karzi (koruz), bars, subar/sabar, saq, qarqar* kimi çoxlu etnonim və etnotoponim əks olunmuşdur.

Babil-Aramey. Sumerdə III Ur sülaləsinin sonundan Kassi hakimiyəti çağına qədərki dövr (m.ö. XX-XVII) şərti olaraq, Əski Babil çağı

---

315 Asur çarlarının hakimiyət illəri ədəbiyatda bir neçə il aşağı-yuxarı fərqi ilə belə verilir: Enlil-nirari (1329-1323), I Adad-nirari (1307-1275), I Salmanasar (1274-1245), I Tukulti-Ninurta (1244-1208), I Aşşurdan (1179-1134), Aşşurreşişi (1133-1116), I Tiqlat-palasar (1115-1077), Aşşurbelkalı (1074-1057), IV Şamşi-Adad (1054-1051), II Aşşur-dan (932-912), II Adad-nirari (911-890), II Tukuli-Ninurti (890—884), II Aşşurnasirapal (883-859), III Salmanasar (859-824), V Şamşi-Adad (823-810), III Adadnerari (810-782), IV Salmanasar (781-772), III Aşşurdan (772-754), Aşşurnerari (753-745), III Tiqlatpalasar 745-727), V Salmanasar (727-722), II Sarqon (721-705), Sinaxxerib (704- 681), Asarxaddon (680-669), Asurbanipal (668-626).

316 Sever, 1987, 426.

adlanır. Bu çağda İkiçayarası şəhərləri sırasında Babil yüksək inkişafı ilə önə çıxmış və Asurdan aşağı ərazilərin başkəndi statusunu qazanmışdı. Əski Babil çağının ilk dövründə *batılı* (amurru) samilər Sumerə və onun Elamla olan sınır bölgələrinə sızmışdı. Bu durumda yerli şəhər və bölgə bəyləri onlara arxlalanıb, yarımüstəqil kiçik dövlətlər qururdu. Bəzi bölgələrdə isə hakimiyət bu yeni gələnlərin əlinə keçirdi. I Şamşi-Adadın yürütdüyü quzeydəki Asur dövlətindən fərqli olaraq, Sumer və ona yaxın bölgələrdə kiçik dövlət və bəyliklər vardı. Burada batılı samilərdən olan Babil sülaləsinin (1894-1595) on bir çarı sırasında özəl yeri olan Hammurapi ətraf bölgələrdəki kiçik siyasi qurumları birləşdirdi və «Hammurapi qanunları» adı ilə tarixə düşən böyük qanunlar sistemini hazırladı. Onun vaxtında Babilin şöhrəti o qədər artdı ki, sonralar burada müxtəlif sülalələr hakimiyətə gəlsə də, dövlət Babil, ölkə Babilonia adlanırdı.[317]

XII əsrdə aramey (*ârâmi*) adlanan samilərin yeni axını intensivləşdi, Fəratla Aralıqdənizi arasındakı ərazilərə aramey dilində danışan boylar gəlib yerləşdi.[318] Çox vaxt xaldey (*kaldu*) adlanan arameylərin bir qismi isə Babil ətrafı bölgələrdə oturub, yerli kulturun təsiri altına düşsə də, mixi yazını deyil, daha asan olan öz yazı sistemini inkişaf etdirdi. Mixi yazıdan fərqli olaraq, Aralıqdənizi hövzəsində meydana çıxan runik əlifba əsasında yaranmış aramey yazısı çox asan olduğu üçün tədricən saraylara yol tapdı və az sonra Azərbaycanda da yazı nümunələri qalmış aramey dili regionda ortaq anlaşma dilinə çevrildi. Azərbaycanda xristianlığın yayıldığı ilk çağlarda rahiblər Suriyada aramey (suriya) dilində təhsil alırdılar.

Yəhudi. Sami tayfalarından olan yəhudilərin tarixi əfsanələrlə dolu olsa da, onların Fələstinə güneydən Misir əsarətindən və quzeydən Babil sürgünündən qayıtması tarixi həqiqətdir. Quzeydən daha öncə gələn bəzi sami boyunun da onlara qarışması mümkündür, çünki *yevrey* etnoniminin (samicə *`ibri* «çayın o tayından gələn») İbrahim peyğəmbərə şamil edilməsi buna əsas verir. İbrahim soyundan *İsrail* (Yisra'el «tanrı vuruşur») ləqəbi ilə tanınan patriarx Yakov 12 yəhudi boyunun soybabası sayılır.

Misir əsarətindən m.ö. XIII əsrdə xilaskar Moşenin (Musa peyğəmbərin) başçılığı ilə çıxan İsrailoğulları Sina dağlarını keçib, Fələstində oturmuşlar. Bu çağlarda Fələstinə quzeydən *hurri* (və ola bilər ki, subar) tayfaları da sızmışdı. Bibliyada boy başçıları kimi adı çəkilən *Seruq*, *Ha-*

317 Babildə 1741-1171-ci illər arasında kassi sülaləsi hakimiyətdə olmuşdur.

318 Оппенхейм, 1990, 48.

ran, əslində, İkiçayarasının quzeyindəki bəlli Saruq və Aran bölgələrinin adlarıdır.[319] Bibliyada *Ketur* (=Kantura), *Aser, Eli-azer* kimi adlar da diqqəti çəkir. Bu baxımdan, qədim yəhudi dilində Dəclə çayı adının aramey *Diqla* forması və hətta, əski akad *İdiqla(t)* formasıını deyil, daha qədim «*iti gələ*» anlamlı türk forması *İdegel* (Hidegel) şəklini saxlaması dəyərli tarixi bəlgədir (*Tekvin*, 2. 14). Yəhudi boylarının gəlib yerləşdiyi bölgənin yerli sakinləri fələstinlilərin dili haqqında isə elmdə bilgi yoxdur.[320]

Musa peyğəmbərin adından yazılan Tövrat və sonralar bura əlavə olunan İncil birlikdə «Bibliya» adlanıb, ilk qutsal kitablardan sayılır. Əslində, Musa peyğəmbərin kitabları Torá (*qanun*) adlanır ki, bu da qədim türkcə «qanun» anlamlı *törə/törü* sözü ilə paralellik yaradır. Hələ m.ö. IX əsrdən müəyyən əlavələrlə davam edən Tora m.ö.VI əsrdə yazıya alınıb, iki əsr sonra redaktə olunmuşdur. Burada yəhudi boy başçıları Davud və Süleymanın (Solomon) arameylərlə vuruşu, Misir və Babildən qayıtmalar kimi tarixi hadisələrlə yanaşı, *xalqların şəcərəsi* formasında etnoloji bəlgələr də yer almışdır. Əvvəllər *kənan* (xananey) dili kimi verilən Bibliyanın dili sonralar *ivrit* adlanmışdır. «Tanrı elçisi İbrahim» bitiyində yəhudi qaynaqlarındakı türklərə aid bəlgələrdən geniş bəhs etmişik.

Azər-yəhudi əlaqələrinin tarixi baxımından, bəzi xəzər boylarının yəhudi dinini qəbul etməsi azər (xəzər) xalqının inanc tarixində musəvi dinin müəyyən yeri vardır. İslamaqədər yəhudilər bir neçə dəfə türklərlə qarşılaşıb. Bu xalqlar arasında əlaqənin tarixi və yeri diqqətçəkən məsələdir. Belə ki, asurlar tərəfindən öncə Babil və Mada əyalətlərinə sürgün edilən yəhudi boyları ilə türklərin ilk əlaqələri gerçəkləşmişsə, sonralar Sasani çağında onların bir qismi Quzey Azərbycana köçürülmüş və ikinci əlaqə burada yaranmışdır. 583-də Babil sürgünündən vətənə qayıdan yəhudilər qutsal «Bibliya» kitabına Babildə eşitdikləri tufan əfsanəsini və yerli mifləri əlavə etmişlər. Özəlliklə Bibliyadakı «xalqların şəcərəsi» Yafəsoğulları haqqında qiymətli qaynaqdır və Avropa elmi uzun müddət xalqların tarixini bu şəcərə daxilində öyrənməyi üstün tutmuşdur. Ancaq nəzərə almaq lazımdır ki, öz çağına köklənən bu şəcərə yazıya alınanda artıq türklərin çoxu quzey və doğu ölkələrə köçmüşdü.

---

[319] ИДВ, 1988, 272.

[320] Bibliyada fələstinlilərin kökü *kasluxi* adlı boyla bağlanır (Tekvin. X b. 14.); KDQ-da *Kazlıq* (dağı) sözünə bənzəyən bu *kaslux*(*i*) boyunun kimliyi bəlli deyil.

Hər halda, Oğuznamələrdəki Türk soykökü mifləri ilə Yafəsoğulları arasında paralellik vardır. Bunu yəhudi dinini qəbul etmiş xəzər kağanı İosifin məktubunda aydın görmək olur. Bibliya Yafəsoğulları sırasında türk boylarından qamər, mada və tiras adını çəkib, saqa (aşkenaz) və türk (toqarma, torqom) boylarının da qamər soyundan törədiyini verirsə, İosif kağan bura uqur, turis, avar, oğuz, xəzər, bulqar, sabir və sair türk boylarını əlavə edir. Məncə, yəhudi-türk əlaqəsi onların Babil sürgünündən çox öncə baş vermişdir, çünki İbrahim peyğəmbərin İkiçayarasından yəhudi elinə getdiyi çağlarda batı subar boylarının bir qismi Fələstin tərəflərinə köçüb, orada yerli xalqın içində ərimişdi.[321]

Musəvilərin Azərbaycanda və Quzey Qafqazda, özəlliklə Xəzər dövləti çağında böyük etkisi olmuşdur. Xəzər dövlətinin başçısı Tanrıçılıq dininə tapınsa da, dövlətdə baş nazir vəzifəsini daşıyanların soyu yəhudi dinini qəbul etmişdi. Azərbaycanın quzey-doğu bölgələrinə Sasani çağında İrandan köçürülən tayfaların bir qismi də (*dağ cuhudu*) musəvi dininə tapınmışdır.

Ərəb. Samilərin ilkin Atayurdu olan Ərəbistan yaylasında yaşayan ərəb boyları Məhəmməd peyğəmbərin İslam dininə çağrışını qəbul edəndən sonra Babilistana, oradan da İran və Azərbaycana yol açdılar. «Artıq 633-cü ildə Sasani imperiyasının sərhədlərini keçən ərəb qoşunları 637-ci ildə bu imperiyanın paytaxtı, ərəblərin Mədain adlandırdıqları Ktesifonu, ilin axırında isə bütün Babilistanı fəth etdilər».[322]

> Azərbaycanda ərəb istilası, işğala qarşı Babək hərəkatı və bir neçə əsr davam edən islamlaşma haqqında çoxlu elmi ədəbiyat və geniş bilgi vardır. Ona görə də, burada İslamaqədər sami-türk əlaqələrinin son mərhələsi olan ərəb-türk ilişkilərində etnik tarixlə bağlı bəzi cəhətləri ötəri də olsa, diqqətə almaq lazım gəlir. Çünki ərəb istilasının genişlənməsi o çağlarda Avrasiyanın müxtəlif bölgələrinə səpələnmiş müxtəlif adlarla tanınan türk boylarının ümumi adıla tanınmasına səbəb oldu; ərəblər *türk*

---

[321] Olsun ki, batıya köçən subar boylarından biri də İbrahim peyğəmbərin evləndiyi yəhudi qızı Sara, ərəb qızı Həcərlə yanaşı, İslam qaynaqlarında *qantura* qızı, Bibliyada isə *ketur* qızı şəklində verilən qantura boyu imiş. Yəhudilər özlərini İbrahim soyundan saysalar da, əslində, soyanası kimi Saranı qəbul edirlər. Ona görə də, bugun də Ön Asiya xalqlarından fərqli olaraq, yalnız anası yəhudi olanları «yəhudi» sayırlar. Bibliya və İslam gələnəyinə görə, İbrahim peyğəmbərin Aqardan (Acar/Hacar) olan oğlu İsmayıldan *ərəblər*, Saradan olan oğlu İshaqdan *yəhudilər*, Keturadan olan altı oğlundan isə *türklər* törəmişdir. İslam qaynaqları azərlər türklərini *bəni-Kantura* adlandırır.

[322] Vəlixanlı, 1993, 18.

etnoniminə yeni, ümumiləşdirici məna çaları verdilər.[323] Müxtəlif tarixi çağlarda belə funksiyanı *subar*, *qut, saqa*, *hun* etnonimləri daşımışdır.

Azərbaycana gələn ərəblər buradakı türk boylarına «*bənu-qantura*» demişlər.[324] Haydilli qaynaqlar da yəhudi gələnəyinə uyğun olaraq, *alban* boylarını *ketur*, *xetturu* soyu ilə bağlamışlar.[325] M. Xorenatsi xetturuoğlu Yemrandan *part*, ondan da *ərsaqın* törədiyini yazır.[326] Görünür, ərəblərin Azərbaycanda rast gəldiyi xristian *alban, ərsaq, saqa* (part) türklərinin öz içində yayğın olan Bibliyia rəvayətinin xristian türklərin Qanturaoğulları kimi verilməsində etkisi olmuşdur. Hər halda, Dədə Qorqud eposunda bu soy şəcərəsi «*Qanqlı* (boy) *kantura* (soy) *qoca* (şura üzvü) *oğlu*» şəklində «şifrələnmiş**» Qañlı Qoca oğlu Qanturalı** deyimində əks olunmuşdur.

Azər türklərinin tarixi demoqrafiyası və etnik tarixi haqqında ərəb qaynaqlarında gərəkli bəlgələr vardır.[327] Təbəri qədim qaynaqlarda Azərbaycanın **türk ölkəsi** (məmləkəti) kimi verildiyini yazır və m.ö. XIII əsrə aid (Musa peyğəmbərin vaxında) olaylardan danışarkən «*Şəmir Azərbaycana sahib olan türklər üzərinə yürüdü*» deyimini işlədir.[328] Z. Bünyadov başqa ərəb və farsdilli qaynaqlarda rast gəldiyi «*Azərbaycan - qədimdən türklərin yaşadığı ölkədir*», «*Azərbaycan qədimdən türklərin əlində olan bir ölkədir*» kimi deyimləri örnək verir.[329]

Tarixdən bəllidir ki, 652-dən başlayıb, yüz ildən artıq davam edən ərəb-xəzər müharibələri, əsasən, Azərbaycan ərazilərində gedirdi. Yerli əhalinin islama keçməsi üçün təbliğat aparmaq və ərəb ordularına yardım etmək məqsədilə Azərbaycanın müxtəlif bölgələrində strateji əhəmiyət daşıyan məntəqələrdə, özəlliklə Şirvan-Dərbənd tərəflərdə yerləşdirilən ərəblərə böyük imtiyazlar verilirdi. Artıq əhalisi türkləşən Ərəbli, Ərəblər, Ərəbuşağı kimi tərkibində «ərəb» etnonimi olan xeyli kəndlər var.

Azərbaycanın islamlaşdığı çağlarda Xilafət ordusu, demək olar ki, türklərin əlində idi. Afşin, İtax, Böyük Buğa kimi türk ordu başçıları xilafətdə söz sahibi idisə, Misir, Suriya, Yəmən, Dəməşq, Hicaz və sair ölkələri də çox vaxt türklər idarə *edirdi*. Bəzi xəlifələrin də (*Mə'mun, Mö'təsim*) anası türk idi.[330] Abbasilər dövlətinə yardım edənlər əsasən,

---

323 Türk adını daşıyan boylar, əsasən, m.ö. XIX-XVII əsrlərdə Urmu gölünün güneyindəki Turuk bəyliyində, V əsrdən sonra isə Göytürk kağanlığında yaşayırdılar.

324 Гукасян - Асланов, 1986, 113.

325 Акопян ,1987, 264.

326 Хоренаци, 1958, 136-137.

327 Şeşen, 1985; *Cahiz*, 1988; Бцнйадов, 1989; Asadov, 1993.

328 Taberi, II. 540.

329 Бцнйадов, 1989, 174.

330 Защиди, 1977, 20.

qanqlı, qalac (xələc), *ağhun, türkmən* və başqa türk boyları idi.[331] Ərəblər türk hərbi terminologiyasını mənismsəmiş, bəzilərini günümüzə qədər dillərində yaşatmışlar: [332]

Alay - الای [alāy], Bölük - بو لوك [buluk], Ordu - اور دی [urdī]
Tabur - تا بور [tābūr], Taqım - طا قم [tāḳim], Elçi - الجی [ilcī]
Onbaşı - اون با شی [unbaşi], Yüzbaşı - یو ز با شی [yūzbāşī]
Minbaşi - بمبا شی [bimbaşi], Sübaşi - سبا شی [səbāşi]
Bayraq - بیر ق [bəyrəḳ], Sancaq - سذجق [səncəḳ]
Yaraq - یا ر ق [yarəḳ], Yarlıq - یر لیغ [yərlīğ]

Türk dilinin ərəb dilinə təsirini geniş tədqiq edən prof. N. H. Onat yazır: «İslamiyətdən öncə cahiliyə dövrü şairlərinin şeirlərində türklərdən bəhs etmələri də iki millət arasında tanışmanın qədimliyini göstərən bəlgələrdəndir».[333] VI əsr ərəb şeirində *yaraq* (bəzək) sözünün işlənməsi göstərir ki, ərəb-türk əlaqəsi də İslamdan öncə olmuşdur.[334] Quranda *ğulam* (qulam), *ğassaq* (qusma), *talaq* kimi türk sözlərinin olduğunu vurğulayan ərəbşünas V. Məmmədəliyev ərəb-türk əlaqələrinin İslamdan öncə olduğunu yazır. İslamlaşma çağlarından başlayaraq, Azərbaycanla bağlı daha çox bilgi verən *ərəbdilli* qaynaqlar təkcə ərəbsoylu yazarların deyil, VIII əsrdən sonra ərəbcə yazan türk və farssoylu müəlliflərin əsərlərini də əhatə edir.[335] Etnoqrafik məlumat və onomastik informasiya baxımından Azərbaycanda islamlaşma çağının ictimai-siyasi və etnik durumu, tarixi olayları əks etdirən əsərlər böyük əhəmiyət daşıyır. Ərəb əlifbası yerli yazıları, özəlliklə, qədim türk runik əlifbanı gündəmdən çıxarsa da, min ildən artıq azər türklərinin yazı kulturunun göstəricisi olmuşdur. Dünya uyqarlığı tarixinin önəmli səhifələrini təşkil edən İslam mədəniyəti bütün qitələrə yayılmış, orta əsrlərdə önəmli dillərdən birinə çevrilən ərəb dilinin dünya dillərinə böyük təsiri olmuş, *admiral, almanax, alqebra, alkoqol, maqazin* kimi yüzlərlə ərəb sözü uluslararası ortaq leksemlərə çevrilmişdir.

---

331 Eyni qaynaq ,1977, 22.

332 Eyni qaynaq, 1977.

333 Onat, I, 1944, 17.

334 Мащмудов, 1983 a, 94- 99.

335 Мяммядялийев 1983, 92.

Beləliklə, protoazər və azər boylarının güney-batı qonşuları olmuş akad-asur, babil-aramey, yəhudi və ərəb boyları ilə əlaqə azər və sami dilləri arasında müəyyən paralellərin yaranmasına səbəb olmuşdur:

akad-asur	anlamı	azər-türk	anlamı
âqû	*daşqın, axın*	ak-	*ax-, axın*
bit, bitu	*ailə, soy; ev, ölkə*	bod, but	*boy*
bit asakki	*zirzəmi*	aşağı	*alt tərəf*
gabbu	*bütöv; hamı*	qamu	*hamı*
kezertu	*hörüklü qız (rahibə)*	kız	*qız*
kidinu, kâdu	*qarovul, qoruma*	güd-	*güdmə*
kâbaru	*şişmək, qabarma*	kabar-	*qabarmaq*
dikû	*dik, qaldırma*	dik-	*dikəlmək*

Hələ Ulu Sarqonun «toplumun çarı» anlamında *şar kişşátim* ünvanını qəbul etməsi diqqəti çəkir, çünki sumercənin *luqál Kíşi* deyimi əvvəllər «Kiş çarı» kimi tərcümə olunurdu.[336] Doğrudur, xeyli *Kiş* toponimi də Azərbaycandan Orta Asiyaya qədər türk boylarının yaşadığı yerlərdə işlənir, lakin buradakı titul qədim türk dilində «insanlar», «toplum» anlamında *kişilər* sözü ilə bağlı ola bilər. Məbədlərdə tacir və digərlərindən alınan vergi akadca *sattukum* (şumecə *saduq*)[337] adlanır ki, bu da *sattıq mal* deyimindəki *sat-* (satmaq) feilinə bənzəyir. Sosial terminlrdən *elat* sözü yunan (*ilot*) dilinə keçdiyi kimi, akad dilinə də keçib, «klan» və «tacirlərin birliyi» anlamında *ellat* (um) şəklində işlənmişdir. Rus dilində *tamqa* və «kömrük» anlamlı *tamojnya* sözlərində olduğu kimi, akadca «damğaçı» anlamındakı *tamkāru* (sumercə *damgar*) sözünün də türkcə olması şübhə doğurmur. Ancaq ortaq çözlər sırasında azərcə *əsmər* və akadca «metal rəngi» anlamında işlənən *eşmarû* kimi onlarla söz vardır ki, onların türk və ya sami mənşəli olmasını müəyyən etmək özəl tədqiqat tələb edir. Akad-asur qaynaqları ortaq sözlərlə yanaşı, İkiçayarasındakı qədim türk onomastikasından onlarla *Subar, Basar* (müasir *Cebel-Bişri*), *Turuq, Kuman* kimi etnotoponimi və *İtiqla, Balıq* kimi bir neçə çayadını saxlamışdır. Burada maraqlı bir cəhəti də qeyd edək ki, türk dillərindəki qədim l~ş dialekt fərqi akad dilində də görünür: *kultaru~kuştaru* «çadır evi», *baltu~baştu* «güc, qorxu», *iltaxxu~iştaxxu* «qamçı».[338] Paralellər-

336 ИДВ, 1983, 141.

337 Eyni qaynaq, 331.

338 Липин, ыы, 1957, 45, 54, 105.

dəki «bulqarizm» təsiri akadların təmasda olduğu subar boyları içində bulqar boyunun da varlığına işarə edir.[339]

Azər dilində minlərlə sami sozü işlənir və bunların çoxu İslamdan sonra alınmış dini, elmi mahiyətli sözlərdir. Lakin alınmaların hamısını ərəb dilinə bağlamaq düzgün deyildir. Tutaq ki, fransızca *mesquen* «kasıb» sözü roman dillərinə aramey və ya ərəblərdən keçib, çünki onların Hammurapi çağında saraya məxsus torpaqda işləyən muzdurlara *muşkenum* deyən Babil əhli ilə əlaqəsi olmamışdır, azərlər isə *miskin* sözünü yaxın əlaqədə olduğu qədim samilərdən ala bilərdi.[340] Yaxud, azər dilinə *məlik* sözü aramey dilindən keçdiyi kimi, bir sıra sami sözlərinin də akad-asur dillərindən aldığını istisna etmək olmaz:

samicə	anlamı	azər dilində
asirum	«əsir»	*əsir*
esirtu	«əsir qadın»	*əsir*
aqrabu	«əqrəb»	*əqrəb*
şibūtum	«sübut»	*sübut*
qabru	«məzar»	*qəbir*
kurbânu	«ərməğan»	*qurban*
kursu	«kətil»	*kürsü*

İlkin Atayurddan daha erkən çağlarda çıxıb uzaq ölkələrə köçən türk boylarından fərqli olaraq, Atayurddan çıxan sami boylarının soydaşları ilə əlaqəsi kəsilməmişdir. Ərəbistan yaylasından çox da uzağa getməyən samilərsə ortaq İslam dini kulturu üzərində yaranan yaxın etnoqrafik yaşam ilə və mənəvi birliyi təmin edən Quranla millətə çevrilə bilmişlər. Bura qədər baxdığımız akadlardan üzübəri sami-türk əlaqələrinin verdiyi bəlgələrdən bizim çıxaracağımız bir nəticə var: Samilər prototürk Atayurdu olan İkiçayarası və Güney-Doğu Anadolu bölgələrinə, yəni protoazər və azər türklərinin güney-batı qonşuluğuna gəlmə etnosdur və onlar türklərin burada yerli xalq olmasına tanıq olmuş, tarix üçün bunu sübut edən bəlgələr qoymuşlar.

---

339 Elə yuxarıda adını çəkdiyimiz və bugün də həmin adı saxlamış *Balıq* çayı (Fəratın sol qolu) «balqar»/«bulqar» etnoniminin yaranması üçün əsas verir. Belə ki, *balıq* sözünün türk dilində «şəhər», «çay» anlamı vardır və *karaçay-balkar* adları kimi, *sub-ar* bir dialektdə, *balıq-ar* isə başqa dialektdə «çay adamı» anlamında işlənən etnonimdir.

340 Ona görə də, alınma sözün daşıdığı məna önəmlidir. Belə ki, əgər *din* sözü ərəbcə «din, inanc», akadca «hakim», ivritcə «qanun, məhkəmə», arameycə «hüquq, qanun» anlamında işlənmişsə, deməli, azər dili «inanc» anlamlı bu sözü ərəblərdən alınmışdır.

Beləliklə, akadla başlanıb, ərəblərlə sona çatan 35 əsrlik sami işğalları Azərbaycanda yalnız İslam dini oturuşandan sonra və İslam bayrağını daşımaq şərəfi, İslamı bir cahan dininə çevirmək missiyası türklərin əlinə keçəndən sonra ərəb istilaları səngidi. Azərbaycan yeni Türk-İslam mədəniyətinin sintezini yaradıb-yaşadan türk ölkələrindən birinə çevrildi.

3. Elam

Prototürklərin güney qonşusu olan elamlar m.ö. III-I minillərə aid qədim dünya tarixində önəmli yer tutur. İndi Xuzistan adlanan mahalda yerləşən Elam buradan keçib Fars körfəzinə qovuşan Karun və Kerxe çaylarının orta axarlarındakı dağlıq və aşağı axarlarındakı düzən yerləri əhatə edirdi. Elamın siyasi-inzibati ərazisi zaman-zaman böyüyüb kiçilmiş, III minildə ilk Sumer dövləti ilə eyni vaxtda burada Aban, Baraxse, Elam, Adamşul (Adamdun), Simaş, Şuşan (Suz), Ançan adlı kiçik dövlətlər yaranmışdı.

İ. M. Dyakonov yazır ki, bu ölkənin elam dilində yazılıb, tərkibində *hal* «ölkə» sözü olan Hatamti (*Hal-tamti*) adının anlamı bəlli olmasa da, adın sumercə *nim* «uca» oxunan $NİM^{ki}$ işarəsi ilə yazılışı, sonralar bura gəlib yerləşən perslərin dilində *(H)uca* adlanması akadca '*Elamtum* deyiminin də «uca» anlamı daşıdığını düşünməyə əsas verir. *Xuzistan* adı da *huca* sözündən yaranmışdır.[341] Maraqlıdır ki, m.ö. IX-VIII əsrlərdə bura gələn perslər ölkənin sumer, elam, akad dillərindəki adını deyil, türkcə olan *Uca* variantını qəbul etmişlər.[342]

Elam IV minilliyin əvvəlində müəyyən gecikmələrə baxmayaraq, Sumerlə oxşar inkişaf yolu keçmiş, burada heyvandar-əkinçi təsərrüfatla yanaşı, metalişləmə və sənətkarlıq formalaşmışdır. Karun-Kerxe yaxalarında çoxlu yaşayış məskənləri yaranırdı. Bu minilliyin ikinci yarısında artıq əkinçiliklə sənətkarlığın ayrılması, Suzda bu dövrə aid məbəd qalıqlarının aşkar olunması toplumda sosial-iqtisadi qurumların yarandığını göstərir. Sumerdən fərqli olaraq, Elam əhalisi tikinti materialını uzaqdan deyil, İran yaylasını əhatə edən dağətəyi ərazilərdən əldə edirdi. Elam-Azərbaycan əlaqələri arxeoloji bəlgələrdə daha aydın görünür. Türkmənistana qədər uzanan bu əlaqə Azərbaycanın iç bölgələrilə deyil, güney və güney-doğu sınır bölgələri ilə məhdudlaşır. Elam izlərini protoelam pik-

---

341 Дьяконов, 1967, 85.

342 Yanlış olaraq, *uca* sözünü etnonim sayan R. Fray yazır ki, perslər elamları dağlı tayfa kimi, *uca*//*huca* adı ilə tanıyırdılar (Фрай, 1972, 90).

toqrafik yazıların III minildə Sialk-təpəyə qədər yayılması əks etdirir. Ola bilsin ki, bəzi yerlərdə elam tacirlərinin koloniyaları olmuşdur.

Sumerlə eyni vaxtda siyasi arenaya çıxan Elam şəhər-dövlətlərinin siyasi qurumu o qədər aydın olmasa da, burada üçlü sistemin varlığına şübhə yoxdur. Belə ki, 1-ci yerdə elamca *sunkik* «çar» adlanan *sukkal-max* (böyük elçi), 2-ci yerdə Elam və Simaşki sukkalı, 3-cü yerdə Suzun çobanı, işşakkumu, sukkalı və çarı titullarını daşıyanlar dururdu. Uzun müddət davam edən belə iyerarxiyanı təmsil edən sülalələr ana (qadın) xəttilə eyni soydan olma gələnəyini saxlayırdı. Ölkənin çarı sülalənin bir üzvünü «ata» anlamlı *atta* titulu ilə görəvləndirib hakimiyətin bir qolunu ona tapşıra bilirdi, necə ki, Epart öz oğlunu Ançan və Suz bölgəsinə *Ata* təyin etmişdi. Elamşünaş Y.Yusifova görə, hökmdar öləndə sülalə üzvləri öz içlərindən yeni sukkalmax seçirdi.[343] İkiçayarasının Mada tərəfindən işğalına qədər Elamın buradakı Sumer, Akad, Asur və Babil dövlətləri ilə apardığı müharibələr müəyyən fasilələrlə iki minil boyu davam etmişdir. Hələ Kiş çarı En-Menbaraqesi (təxminən 2600-cı illər) tərəfindən «*Elam silahını* (*qüvvəsini*) *dağıtdım*» deyimli yazı qalmışdır.[344]

XXIII əsrin son illərində Elam çarı I Kutik-İnşuşinakın akadlarla dostluq müqaviləsi olsa da, əslində o, Akaddan asılı durumda idi. Akad dilinin təsiri İkiçayarasında olduğu kimi, Elamda da böyük idi. Elam çarı Simaşkinin sumer və akad dilində yazısı qalmışdır. Suzda XIX-XVI əsrlərə aid xeyli akaddilli yazılar tapılıb. Elam-türk əlaqələri isə qutlarla gerçəkləşmişdir. XXII əsrin əvvəlində Qut dövlətinə tabe olan Elam əsrin sonunda qutların Sumerdən qovulması ilə azadlıq qazanır.

Müəyyən çağlarda Sumer-Akad və Qut dövlətindən asılı duruma düşən Elam XXI əsrin əvvəlində yenidən toparlanıb müstəqil dövlətə çevrilir. Lakin həmin əsrin ortalarından buranı işğal edən Sumer çarları yerli bölgə bəyləri ilə qohumluq əlaqələri qurub, Elamda hakimiyətlərini möhkəmlətmək siyasətinə üstünlük verirdi.[345] Həmin əsrin sonunda quzey qonşuları olan subar turklərinin *su* boyu ilə birləşən elam ordusu 2003-də sumerlərin Ur şəhərini tutub dağıdır. «Elam qarnizonu Ur şəhərində 7 il qaldıqdan sonra oranı tərk etdi».[346] II minilin sonunda

---

343 ИДВ, 1983, 394-396.

344 МОД, 10.

345 ИДВ, 1983, 392.

346 Eyni qaynaq, 287-288.

elamların yuxarı ərazilərə, Azərbaycana yürüşləri artır. Mada dövlətinin tərkibinə daxil olana qədər isə m.ö. 620-550-ci illər arasında avtonom bölgə olması haqqında söylənmiş fikrləri təsdiq edəsi bəlgələr yoxdur.

Əvvəllər heroqlif yazıdan (protoelam dili) istifadə edən elam xalqı sonralar şümerlərdən mixi yazı sistemini mənimsəmişdi. Elam dilində təsərrüfat, tikinti, hüquq, müqavilə və dəftərxana mətnləri xeyli yazı nümunələrilə Əhəməni sülaləsi çağına qədər davam edən 2500 illik böyük bir dövrü əhatə etsə də, az bir qismi nəşr edilib, qalanı isə oxunmayıb.[347]

Elam ərazilərinə gəlib yerləşən ari (pers) boylarından Əhəməni sülaləsi də hakimiyətə keçəndən sonra dövlətin paytaxtı Persida şəhərində elam dili və elam yazı sistemindən istifadə etmişdir. Arxeoloji qazıntılar əsas hissəsi m.ö.V əsrə aid minlərlə elamdilli tabletlər ortaya çıxardı. O çağın elam mətnlərində türkcə olan bəzi boy, yer-yurd və şəxs adları türk onomastikası haqqında gərəkli bəlgələrdir.

Sumer dili kimi, hələlik elam dilinin də hansı dillərə qohum olması məsələsi həllini tapmamışdır. Ancaq son dövrlərdə onların dravidlərlə qohumluğu gündəmə gətirilir. Ş. Günaltay Elam əhalisini Orta Asiyadan və Afrikadan (neqroid) gələn iki xalqın qovuşması kimi vermişdir.[348] XX əsr elam çarlarından biri *Tanru-hurater* adlanır. Elam yazılarında *Adabilir, Dingir-Banu, Temti-turk-taş* (te-em-ti-tu-ur-ka-taş), *Urtaki/Urtaqu*, *Zari* (sarı) kimi adlara rast gəlmək olur.[349] Onomastik vahidlərlə yanaşı, elam-türk paralelləri kimi diqqəti çəkən sözlər də vardır:

Azərcə	Elamca
ata	*ata, ada, atta* «ata»
ana	*amma* «ana»
kök (göy)	*kik(i)* «göy», «səma»
el «ölkə»	*hal* «ölkə»
güd-	*kuti* «güdmək», «gorumaq»
par- (bar-) (varıb getmək/çatmaq)	*pari* «yetmək», «çatmaq» *pari-k* «çatdı», *pari-s* «yetdi»

[347] Əski və yeni elam mətnlərinin dili arasındakı əlaqə öyrənilənə qədər bu dilin adı elmi ədəbiyatda yanlış olaraq, *turan, saqa* (skit), *mada* (midiya) və *suz* dili kimi verilirdi.

[348] Günaltay, 1987, 129.

[349] Zadok, 1984, 7, 53, 82; Bəzi adlar qulağa tanış gəlir: Ku-iz-za-lu (gözəl), At-ta-halki (*el-atası*?). Bəzi adlar da Göytürklərdən tanıdığımız şəxslərin adını xatırladır: *Teoman* (te-um-man), *Aşina* (Daraya qarşı üsyana başçılıq edən elamlı).

Beləliklə, protoazər boylarının güney qonşusu elamlar qut, subar (su), mana, mada boyları ilə kontaktda olmuşlar. Elam dilinin bəzi məsələləri öyrənilsə də, onun qramatikası hələ sistemli şəkildə tədqiq olunmamışdır. Əgər elam dilinin dravid dillərinə qohumluğu sübut olunsa, onda elam-türk dil əlaqələrinin öyrənilməsi qədim dravid-türk əlaqələri baxımından da əhəmiyət kəsb edə bilər. Elam mətnləri həm prototürk çağına, həm də qədim dil əlaqələrinə işıq tuta bilən qaynaqlardandır.

4. Kassi

İranda indi Luristan adlanan bölgədə vaxtilə elamlarla protoazərlər arasında yaşayan və m.ö. XVIII əsrdə aktivləşib ortaya çıxan kassilər də İkiçayarasında hakimiyəti ələ alıb, tarixdə iz qoymuş qədim xalqlardandır. Ölü dillər sırasına düşən kassi dilini bəzi yazarlar elam kimi, dravid dillərindən sayır.[350] Hər halda, bugünkü *lurlar* əgər qədim *lulu* (lu-ər) boylarının farslaşmış qalığı deyilsə, onları farslaşmış kassi boyları saymaq olar.[351]

Kassi boyları 1742/1740-cı illərdə Dəcləni keçib İkiçayarasını tuturlar.[352] Onlar İkiçayarasının güneyində və Azərbaycanın bəzi güney-batı bölgələrində hakimiyəti ələ alıb, altı əsrə yaxın (m.ö. XVII-XII) burada hökmranlıq etmişlər.[353] Vaxtaşırı Asur və Elamla müharibə edən kassilər XIV əsrin sonunda Elamı tutmuşdur. Misir fironları ilə kassilərin dostluq əlaqəsi

---

350 Kassi və elam dillərinin qohum olduğunu qeyd edən İ. M. Dyakonov müasir lurları farslaşmış kassilər sayır (Дьяконов, 1956, 121-122).

351 Antik çağ yazarları kassilərin adını *kissi* şəklində verir. Bu adı *kaspi* və *qaşqay* etnonimi ilə müqayisə etmək istəmişlər, lakin bu etnonimlər oxşar olsa da, ayrı-ayrı xalqların adını bildirir (Azər xalqı, 200); Kaspi adı *xəzər* sözünün dialekt variantı, *qaşqay* isə kassilərlə eyni çağda tarix səhnəsinə çıxan (Kiçik Asiyada) türk boyudur və onların Fars bölgəsinə gəlişi kassi tarixindən sonrakı çağlara aiddir.

352 ИДВ, 1988, 66

353 Balkan, 1954; Мирзоев, 1997, №1-2.

qurması haqqında yazı nümunələri qalmışdır. XIII əsrin sonlarında Babilə dalbadal Asur-Elam hücumları başlayır, kassi sülaləsinin burada hakimiyətinə 1157-də son qoyulur. Kassi hakimiyəti illərində Elamdan yuxarı kassi ərazilərində silahlar, bəzəkli qab-qacaq çeşidləri, cizgi-rəsm sənətində «an» üslubunun ilk nümunələri formalaşır. Hər halda, kassilər İkiçayarasında böyük mədəniyətə əliboş qoşulmamışdılar.

Kassi çağında metalişləmə sənəti gəlişmiş və gözəl bəzək əşyaları ortaya çıxmışdır. Olsun ki, «Luristan sənət əsərləri» də həmin çağda formalaşıb. İkiçayarasında kassilərdən öncə mövcud olan kudurru gələnəyi kassi çağında geniş yayıldı. Əslində, *kudurru* bölgə bəylərinə və iri feodallara aid ərazilərin sərhəddinə qoyulan sınır *bəlgə* daşları idi. Üzərinə müxtəlif simvol və damğa həkk olunan kudurruların özü qalmasa da, çoxlu kiçik kopiyaları qalmışdır.[354] Kudurrulardan birinin üzərindəki qaval və saz çalanlar dəstəsi diqqəti cəlb edir:



Kudurru üzərində müxtəlif rəsmlər

Başqa bir kudurru üzərində isə akadca yazıda hədiyələr sırasında *sattuk* sözü və «*Şamaş* (= Günəş) *tanrının gəlini*» türkcə *Ay* sözü ilə verilmişdir. Sumercə *Utu*, akadca *Şamaş* adlanan Günəşin xanımı (arvadı) *Nanna* İkiçayarasının güneyində olan Sippar şəhərində də *Aya* adlanırdı.[355]

> Azərbaycanın güney bölgələrindəki lulu boyları ilə təmasda olmuş kassilər qonşularından at bəsləmə, atçılıq sənətini öyrənmişdilər. Onlar İkiçayarasına gələndən sonra burada öncə yük və cəng arabalarına qoşulan eşşək və qatırlar atla əvəzləndi. Qarabağ atı, Ərəb atı deyimləri kimi, atçılıqla bağlı bir kassi yazısında Kaşakti, Urzi-qadadi, Kurukşe-buqaş, Timiraş, A(g)kriyaş, Xam-atti sözləri (adları) işlənir.[356]

---

354 Günaltay, 1987, 530, 555-556.

355 ИДВ, 1983, 281, 433.

356 Balkan, 1954; Burada *qaşqa* (*kaşka-atı*? və ya *urzi-qadadi* modeli ilə *Kaş-akdı*?), *temir, kurukça, buqaş, ayqır* (aykri) və ya *aq-kır* (ağboz), *xam at* kimi sözlər görünür.

Kassilər bir neçə əsr tabeliyində saxladığı İkiçayarası xalqlarından mədəni inkişaf baxımından aşağı səviyədə olduğu üçün sumer və akad dilinə təsir edə bilməmiş, əksinə, vaxtilə qutların Sumerdə üzləşdiyi durum kimi, həmin dillərdə yazıb-oxumağa məcbur olmuşdur. Ona görə də, kassi dövrünə aid yazılar azdır. Bu sənədlərdə kassi çarlarının adına, bəzi kassi sözlərinə və toponimlərinə rast gəlmək olur. Yalnız sözlük kimi tərtib olunmuş ikidilli kiçik bir yazıda 50-yə qədər kassi sözü və bir neçə tanrı adının akadca qarşılığı verilmişdir: [357]

daqiqi	-	*göy, səma*	simbar	-	*oğlan, gənc*
yaşu	-	*yer*	maşxu	-	*tanrı*
yanzi	-	*çar*	marxu	-	*baş*
kukla	-	*qadın qul*	naşbu	-	*adam, xalq*
kuri	-	*çoban*	mali	-	*adam*
kadaşman	-	*etibar*	meli	-	*qul*

Kassi çağında yazılmış akaddilli sənədlərdə Azərbaycanla bağlı bəzi məlumatlara rast gəlmək olur. Kassi-türk paralellərinin müqayisəsi isə azər türklərinin (protoazərlərin) dili baxımından maraq kəsb edir. Belə ki, kassi dilində önqoşma olsa da, sözlərdə bitişkən (iltisaqi) quruluş görünür, şəkilçilər söz kökünə qoşulur; *kuri* və *kaş* kökünə qoşulan şəkilçiləri örnək üçün ayıraq:

kuri-turqu	kaş-ak
kuri-yani	kaş-ti
kuri-qalzu	kaş-til-li
kuri-maş	kaş-til-yaş

Bəzi yazarlar bir neçə elam-kassi ortaq sözlərinə əsasən bu dilləri qohum sayır. Lakin həmin paralellərə turk sözlərini də əlavə etmək olar: «səma» - *kiki* (elam), *da-gigi* (kassi), *gög* (türk); «qorumaq» - *kuri* (kassi), *qoru* (türk) və s. Doğrudur, elam-türk, kassi-türk paralelləri vardır və bu təbii sayılmalıdır, əgər belə ortaq sözlər olmasaydı, bu halı qəribə saymaq lazım gələrdi, çünki lulu, qut, turuk, subar və sair türklərlə kontaktda olmuş elam və kassilərin dilində «türkizm» normal haldır. Ancaq bir neçə türk-kassi ortaq sözünə əsaslanıb, bu dillərin qohumluğundan yox, onların əlaqəsindən danışmaq olar, çünki bu dillər arasında tipoloji fərq qabarıqdır. Türk dillərindən fərqli olaraq, kassi dilində *da-gigi* (səma), *da-kaş* (ulduz) kimi önqoşma ilə işlənən sözlər vardır və söz birləşmələrində təyin edən söz, təyin olunandan sonra gəlir:

Kuri-Turqu (çoban turqu) - «*Turqu çobanı*»

[357] Balkan, 1954; Celilov, 1997; Azər xalqı, 2000, 119-121.

Me-Turqu (qız-turqu) - «*Turqu qızı*»
Kadaşman-Turqu (etibar turqu) - «*Turqun* etibarı»
Meli-Şixu (qul-Şixu) - «*Şixu* (*tanrının*) *qulu*»

Kassi-türk münasibətində də qohumluq görünmür. Belə ki, kassilər qut, lulu, turuk ərazilərinə hücumlar etmiş, Azərbaycanın güney-batı bölgələrində tutduqları yerlərə kassi boylarını yerləşdirmişlər. Bu baxımdan, özünü «Şukamun tanrının işıqlı soyundan» sayan kassi çarı II Aqumun ünvanı (titulları) diqqəti çəkir: [358]

LUGAL Kaš-ši-i u_3 Ak-ka-di-i LUGAL $^{KUR}KA_2$ DİNGİR.RA^{Kİ} ra-pa-aš-tim mu-še-ši-ib $^{KUR}Aš_2$-nu-na-ak UKU^{MEŠ} DAGAL^{MEŠ}-tim LUGAL Pa-da-an u Al-ma-an LUGAL ^{KUR} Gu-ti-i UKU^{MEŠ} sak-la-a-ti LUGAL maš- ta-aš-kin kib-rat ar-ba-`i mi-gir DİNGİR GAL.GAL.LA a-na-ku	Akad və kassi çarı, Babil ölkəsinin çarı, çoxlu xalqı geniş Aş- nunak məmləkətinə yerləşdirən, Padan və Alman çarı, ağılsız qutların çarı, dünya- nın dörd tərəfini idarə edən, böyük tanrıların arzusu - mən.

Bu titulaturada işlənən **«ağılsız qut xalqı»** deyimi onu göstərir ki, kassilər türk (*qut*) deyil və həm də bəzi qut bölgələrini işğal etmişlər. Burada işlənən Alman (əslində, *Alban*) adını Forrer müasir Süleymaniyə bölgəsindəki *Xolvan* ilə eyniləşdirir. Bəzən bu adı Dəclənin doğusunda, Diyala çayının yuxarı axarında olan *Yasubudakı Arman* şəhəri ilə də qarışıq salırlar.[359] Kassi çağında həmin Armandan güney-batıda *Uqarsaludakı Arman* dağı da vardır və hər iki toponimin olduğu ərazi qədim Azərbaycan boylarından olan lulların güney-batı bölgələri idi. Kassilərin köçüb yerləşdiyi ərazilərin toponimləri sırasında Akriyaş, Bit-Buritaş (Burutaş), Bit-Albada yeradları, Arman, Kaştila və «qartal» anlamı bildirən Xaşmar dağadları vardır. Kassilər Sumeri Kardunyaş (Karadunyaş) adlandırırdı.[360]

---

358 Balkan, 1954.

359 Дьяконов, 1956, 126, 129 (2-ci qeyd).

360 luqal Kā. dingir.qa^{Kİ} lugal Ki.en.gi^{Kİ} lugal Uri^{Kİ} (.bi) lugal ka-aş-şi-ú lugal ka-ru-du-ni-ya-aş (Balkan, 1954, 96); Kassicə *kara-dun-yaş* adının tərkibindəki sözlərdən yalnız birin mənası - *yaş* («yer») bəllidir. Əgər müəyyən olunsa ki, *kara-dun* kass

Kassi çar adları sırasında Qandaş, Aqum, Kaştiliaş, Kadaşman, Urşi-qurumaş, Karaindaş kimi adlar işlənir. Belə ki, son adın (ka-ra-in-ta-aş) qədim türkcə *qarın-da-eş* (qardaş) modelinə uyğun gəlməsi diqqəti çəkir. Qaynaqlarda rast gəldiyimiz Burra-Alban, Buritaş, Karintaş, Sibar-Buqaş, Ulam-Buriyaş, Karzi-Yabku, Me-Turqu, Kuri-Turqu, Amma-ana Marduk, Albada kimi kassi şəxs adlarının tərkibində türk antroponimiyasında işlənən sözlər vardır: alban, alp-ata (alb-ada), ata-ana, qardaş (karintaş), subar (sibar), yabqu, börü (buri), qoru (kuri), turuq (turqu), ulam.[361]

Kassi dili üzrə tanınmış uzman K. Balkan yazır ki, kassi çarı Kuri-qalzunun adı ikidilli sözlükdə akadca «kassi çobanı» (^{m}Re-`e-i kaş-şi-i) kimi tərcümə olunmuşdur, burada kassicə *qalzu* akadca *kaşşu* adı ilə verilmişdir.[362] Deməli, kassilərin özadı *qalzu* imişsə, onda *kassi* adı onlara kənardan verilən etnonim ola bilər.[363] Kassi boylarından *bazi, xaşmar* (qartal) adları bəllidir. İ. M. Dyakonov *karziyabku* soyunu da kassilərdən sayır.[364] Lakin Rəşidəddinin qələmə aldığı «Oğuz» dastanında Tokuz-Yabku, Dib-Yabku adlarında olduğu kimi, Karzi-Yabqu adında da türkcə *yabqu* titulu *karzi* (qars) boyadına qoşulmuşdur. Madada *karsi-but* (karzi-boyu) etnonimi Həmədandan yuxarıda göründüyü kimi, sonralar Azərbaycanın müxtəlif bölgələrində təkrar olunur. Kassi çağında *Karzi-bara-taş* etnotoponimində olan karzi boyadı «karzi yabqusu» anlamındakı Karzi-Yabqu (^{m}Kar-zi-Ya-ap-ku) adında da işlənmişdir.[365]

Dur-Kuriqalzuda
Kassi bəyi.

dilində «qara-don» anlamındadır, onda Sumerə kassilərin «qaradonlu yeri (ölkəsi)» anlamında bir ad verdikləri ortaya çıxar.

361 Buradakı *alban, subar, börü, turuq* etnonimləri, *alp, ata, ana, qardaş* sözləri, *yabqu* titulu hər bir türk üçün aydındır. *Meli-Şibaru* «Şimal adamı (=Subar)» kimi verilir: ^{m}LU-^{d}Şi-i-ma-li-ya (Balkan, 1954, 70); Ulam-Buriyaş «*Buriyaşın dayağı*» adındakı *ulam* sözü də qədim türk dillərində «dayaq», «arxa» anlamında işlənmişdir (ДТС, 608).

362 Balkan, 1954, 2.

363 Əgər sübut olunsa ki, *qalzu* boylarının dravidlərlə qohumluğu var, o halda qalzuların Elamdan doğuda yerləşən dravid Atayurdundan gəlib, indiki Luristana yerləşəndə yerli *kas* etnonimi daşıdıqlarını düşünmək olar. Tarixdə belə hallar çox olmuşdur.

364 Дьяконов, 1956, 137.

365 Balkan, 1954, 61.

Kassi dilində «çar» anlamında *nula* və *yanzi* sözləri vardır. Olsun ki, bunlardan birincisi kassilərin öz sözüdür, ikinci yanzu isə yabqu sözü kimi, qut və ya lulu boylarından alınmışdır. Çünki bu titulu daşıyanlara sonralar kassi məskənlərindən çox uzaqda və Urmu-Van hövzəsində rast gəlinir. Kassi çarları soyunun himayədarı kimi verilən *İmmiria* teonimi də diqqəti çəkir.[366]

Şəxs adlarının tərkibində işlənən *kuri* (kuru) sözünün kassi dilində «çoban» (qoruyan) anlamı daşıdığını nəzərə alsaq, Kuriuş, Kuruş (ilk pers çarı da bu adı ləqəb kimi götürmüşdür), Kuri-yani adlarındakı «qoruyan» anlamının Kuri-Turqu (Durqu) adında da «Türkün çobanı», «Türkü qoruyan» mənası labüddür, çünki adın semantikası *türk* etnonimini yox, *Türk* teonimi ortaya qoyur.[367] Anadoluya gələn haylar burada Tork tanrı tapınağına sitayiş etdiyi kimi, buradan gedən etrusklar da Tarku tapınağı gələnəyini İtaliyaya aparmışlar.[368] Kassi-akad sözlüyündə *turuxna* «küləк» və «göyüzü» kimi tərcümə olunmuşdur. Bu ikinci anlam doğuya gedən türklərdə Göytürk deyimində də görünür.

Günəş tanrısı kimi kassi dilində işlənən *Şuriyaş* və *Sax* teonimlərindən ikincisi həm də Q. Ksenofontovun 1929-da nəşr olunan yazısında qeyd edildiyi kimi, saxa türklərinin (yakutların) baş tanrısıdır.[369] Kassi teonimləri sırasında savaş tanrısı *Gidar* və *Alban* yeradı diqqəti çəkir. Azərbaycanda geniş işlənən bu teonimin bir neçə *Gedar-çay* adında izi qalmış, həm də Azərbaycandakı *alban* boylarının soybabası sayılmışdır.[370] Kassi teonimi *Xudha* isə türklərin Qut, Quday teonimidir və Elam ərazilərinə gələn perslər bu adı alıb, kassi formasına uyğun (*Xoda*) işlətmişlər. Əhəməni çağına və İskəndərin yürüşünə qədər Babil ilə Həmədan arasındakı

---

366 Дьяконов, 1956, 134; Bu, qut elbəyi İmranum adındakı türkcə *imrə* sözünü və *imir* türk boyadını xatırladır.

367 Doğrudan da, m.ö.II-I minillər boyu bu teonim ^{d}*Turqu*, ^{d}*Turxu*, ^{d}*Tarqu* şəklində Anadoluda və İkiçayarasında geniş yayılmışdı. Ona görə də kassi çağı yazılarda işlənən Turqu teonimi kassi sözü deyil, həmin çağlarda Urmu yaxasındakı turuq (türk) boyadı ilə bağlıdır. Ümumiyətlə, həmin çağlarda Ön Asiyada teonimin etnonimə və əksinə, teonimin etnonmə çevrilməsi olayı dəbdə idi: Asur asurların, Kaşşu kassilərin, Hurroxe hurrilərin, Amurru amoreylərin tanrısı sayıldığı kimi, Xuda (Qut) qut boyunun, Azar azər boyunun, Turuk/Turqu da turuk (türk) boyunun himayədarı kimi qəbul olunurdu.

368 Хоренаци, II, VIII; ИА, 1980, 71; Немировский, 1983, 214-215.

369 Ксенофонтов, 1929, 100.

370 Kalankatlı, 1983, Акопян, 1987, 264.

Zaqros dağlarında qalmış güclü kassi tayfaları vardı. Hətta, İran şahları buradan keçəndə onlara hədiyə adı ilə torpaqbasdı vergisi verirdi.

Urmu gölündən batıda Kilizi bölgəsində baş verən asur-kassi vuruşu göstərir ki, kassilər bəzi çağlarda Ərbilə qədər yuxarı qalxmışlar. Ona görə də, Azər xalqının etnogenezində bəzi türkləşmiş kassi boylarının iştirak etməsi istisna olunmur. Hətta, ola bilər ki, m.s. XIII əsrdə Sibirin Udi mahalında qeyd olunan *kara-kas*, *sarıq-kas* və *kaş* etnonimləri doğuya köçən türk boylarına qoşulan və onlara qarışıb türkləşən bəzi kassi boylarının adını əks etdirir. Bu baxımdan, kassilərin Gün tanrısı *Sax* ilə yakut (saxa) xalqının baş tanrısı *Sax* arasında da əlaqə ola bilər. Hər halda, doğu türklərlə olmasa da, protoazər boyları ilə qonşuluqda olan kassilərin sıx əlaqəsi onların dilində xeyli türk sözlərinin işlənməsinə səbəb olmuşdur.

5. Dravid

Bugün, əsasən Hind yarımadasının güney bölgələrində yaşayan 25 qohum xalq draviddilli etnos kimi tanınır. Dravidlər vaxtilə Hindistanla İran arasındakı ərazilərdə formalaşmış, protodravid dili IV-III minillərdə dağılanda bu tayfaların bir qismi ilkin Atayurda yaxın bölgələrdə qalsa da, əksəri m.ö. II minildə Hind yarımadasına köçmüşdür.[371]

Protodravidlərin bu bölgədə qalmış quzey-batı qolundan *brauilər* bugün Əfqanıstanda, Pakistanda, İranda yaşayır. Verilən sxemdən göründüyü kimi, dravidlərin ilkin Atayurdu Elama yaxındır. Bu baxımdan, elam dililə dravid dili arasında qohumluq əlaqəsinin olması mümkündür. Dravidlərdən kiçik bir qrupun Türkmənistanın güneyinə köçməsi arxeoloji və antropoloji bəlgələrdən bəllidir, onların Azərbaycana gəlməsi haqqında isə bəlgə və bilgi yoxdur.

Çox güman ki, dravid-türk əlaqəsi qədim

371 Андронов, 1978, 9.

çağlarda birbaşa olmamışdır, olsa da, dolayısı ilə elamlar vasitəsilə mümkün idi. Dravid dili ilə türk dilləri arasında ortaq paralellərsə sonralar, yəni türklərin Hindistana gedib, orada dövlətlər yaratdığı çağlarda ortaya çıxmışdır. Bəzi dravid dillərində rast gəlinən sĩpur (*süpürgə*), urukĩ(*kəndə*), es-(*əzmək*), cūṛ- (*görmək*), cūṛemen (*baxıram*), karan (*qara*) sözləri təsadüfi oxşarlıq da ola bilər. Yalnız tipoloji baxımdan, azər dilindəki *uşaq-muşaq* modeli ilə düzələn sözlər kimi, dravidcə *apaṛ* (ev) və *apaṛ-mupaṛ*, *ĩt* (danışıq) və *ĩt-mĩt*, *kūṯel* (inəklər) və *kūṯel-mūṯel* tipli sözlər işlənir.[372] Elam-kassi və sonrakı lurların dravid boylarından sayılması fikri guman şəklində irəli sürülsə də, brauilər kimi, İranın güney-doğusunda yaşayan farslaşmış bəlucların da draviddilli boylardan qalması şübhə doğurmur.

6. Pers (Ari boyları)

Bugün pers (fars) adı ilə tanınan xalqın türklərlə əlaqəsini şərti olaraq üç mərhələyə ayırmaq olar: Azərbaycanın güney qonşuluğunadakı Elam və Bars ərazisinə gələnə qədərki dövr; Mana çağından İslamaqədərki dövr; İslamdan sonrakı dövr. Əlbəttə, mövzumuzla bağlı bizi ikinci dövr maraqlandırır, lakin pers-türk əlaqəsinə aydınlıq gətirmək üçün ön və son dövrlərə də azacıq ekskurslar etmək lazım gəlir.

Bu xəritə-sxemdə göstərildiyi kimi, «pers köçü» Qara-dənizin quzeyindən başlanıb, Xəzərin yuxarı yaxasından keçərək, Əfqanıstanın *Herat* (Areya) bölgəsinə, oradan da o çağda *Qırmızı* dəniz adlanan Fars boğazı yaxasındakı *Bars* (Fars) bölgəsinə və Elamın ərazilərinə gəlib çatan marşrutla irəliləmişdir.[373] Sxemdə çıxış və son duraq (qırmızı dairələr) arasındakı məsafəni təxminən 1000 ilə

[372] Андронов 1978, 104, 286, 303, 305, 440; Görkəmli türkoloq K. M. Musayevin verdiyi türk-dravid paralelləri isə sanskrit dili vasitəsilə dravid dillərinə keçmişdir. Dravidlər bəzi türk sözlərini Hindistanın quzey-batısında yaşadıqları çağlarda bura gələn saqa boylarından da ala bilərdi (Мусаев, 1984 149-153).

[373] İ. M. Dyakonov Midiyanın (Mada) doğu bölgələrinə irandilli tayfaların Orta Asiyadan gəldiyini qeyd edir (Дьяконов, 1956, 139).

(m.ö. II minilin əvvəlindən I minilin əvvəlinə qədər) keçən bu maldar köçərilər nəhayət gəlib, Azərbaycanın güney bölgələrinə qonşu olan Kassi ərazilərindən güneydə yerləşdilər.

Riçard Fray yazır: «Perslər ilk dəfə Yaxın Şərqdə görünəndə artıq babillilər və misirlilərin çiynində çoxəsrlik keçmiş tarix vardı».[374] Həmin tarixdən sonrakı dövrü isə Strabon belə şərh edir: «Perslərin yaşayış məskənlərinin böyük hissəsi Babil və Susilərdən aşağıda *Qırmızı* dəniz yaxalarında idi. Mada dövlətinin süqutundan sonra isə perslər bu dövlətin sınır bölgələrini də özlərinə tabe etdilər».[375]

Bu ərazilərə perslərin gəlmə xalq olması fikrini heç kim inkar etmir, Azərbaycanın güney bölgələrinə onların sızması isə m.ö. IX əsrdən sonra başlanmışdır.[376] Artıq həmin çağdan asur yazılarında da pers onomastikası görünməyə başlayır. Ancaq perslər bura gəlib çıxana qədər, yuxarıda deyildiyi kimi, on əsrlik yol boyu nəsillər dəyişə-dəyişə mürəkkəb bir tarix yaşamışlar. Bu qədim tarixi nəzərə almadan türk-pers əlaqələrinə düzgün yozum vermək çətindir. Həm də, siyasətdə olduğu kimi, elmdə də *arilər* adının spekulyasiya vasitəsinə çevrildiyini diqqətə almaq lazım gəlir.[377]

Herat bölgəsinə gələnə qədər protoperslərin hansı adı daşıdığını yazılı bəlgə olmadığı üçün bilmirik. Yalnız Herat bölgəsinin *Areya*, bura gəlib yerləşən tayfaların isə ari (*arya*) adlanması bəllidir. Bir neçə əsr Areyada yaşayıb çoxalan bu ari boyları m.ö. XIII əsrin sonlarında iki əsas qola ayrıldı və bu qollardan biri Qəndəhar üzərindən dravid xalqlarının ərazilərinə girdi. Dravidlərin çoxu Hind yarımadasına çəkildi, bir qismi də bu gələnlərə qarışdı. Areyadan çıxan və «hind» (hindli) adlanan həmin qol artıq m.ö. XII-XI əsrlərdə Hindistanın quzey-batı və mərkəzi bögələrinə yerləşmişdi. Areyadan çıxan ikinci ari qolu isə güney-batı istiqamətində gəlib, Bars bölgəsinə yerləşəndən sonra «pars» (barslı) adı ilə tanınmışdır. Sonralar bu adı yunanlar *pers*, ərəblər isə *fars* şəklinə salmış-

---

374 Фрай, 1972, 86.

375 Strabon, XI. 13. 9.

376 Оранский, 1988, 55, 67; ОИЯ, 1979, 45.

377 İran alimi N. Purpirar doğru olaraq, guya yüksək ari irqinin İrana mədəniyət gətirdiyini deyənlərə etiraz edərək yazır ki, əsrlər boyu uyğun coğrafi şəraitdə yaşayan yerli tayfalar nədən öz inkişaf və qalxınmaları üçün Rusiyanın orta steplərindən gələn, savaş və qan tökməkdən başqa heç bir mədəni, ziraət, kultur və yaradıcılıq təcrübəsi olmayan axınçı mühacirləri gözləməli imişlər? Bu fərziyələr yalnız təəssübkeş «Avropasentrik» görüşlərin ürünü idi və nasistlərin cinayətlərinə zəmin yaradan bu arilər əfsanəsini halhazırda heç bir tədqiqatçı məqbul saymır (Purpirar, 2002, 115, 121).

lar. Perslər özadı olan *ari* etnonimi ilə öncə kiçik bir bölgəni *İran* (Aryan) adlandırmışlar. Beləliklə, hazırda *hind-iran dilləri* deyəndə, Areya çağından sonra müxtəlif dialektlərə ayrılmış *ari* dili nəzərdə tutulur. İndi *irani* dillərin Pakistan, Əfqanıstan, İran, Azərbaycan və sair ölkələrdə müxtəlif qolları və dialektləri vardır.[378]

Azərbaycanda ilk dəfə *ari* boyunun adı m.ö.VIII əsrin sonuna aid asur yazısında «*doğudakı aribi*» şəklində çəkilir. Bu ifadədəki *aribi* deyiminin türkcə lulubi, ellipi, kasbi, tatabi, telebi, syanbi, barabi, turabi və sair etnonimlərə qoşulan *-bi* (ari-bi) formantı ilə verilməsi normal haldır, çünki asurlar Həmədan ilə Xorasan arasına gəlib yerləşən bu ari tayfaları haqqında ilk məlumatı Mada türklərindən eşidə bilərdilər. Artıq sonrakı çağlarda Herodotun bu ariləri Mada tayfalarından biri kimi Ἀριζαντοί şəklində verməsi də irani dilin formasını əks etdirməsi baxımından (*arizantu* «ari-boyu») normal haldır, çünki yazar bu sözü persdən eşitmişdi.

> Beləliklə, protohindiran dilində danışan ari tayfaları Qara dənizin quzeyindən çıxıb, Azaq və Xəzər dənizlərinin quzey yaxaları ilə doğuya hərəkət etmişlər. Xəzərin quzeyində bu maldar tayfaların nə qədər qaldığını bilməsək də, buradan keçdiklərini dəqiq bilirik, çünki finuqor boylarının yaşadığı bu bölgədə yerli xalqla olan kontaktın izi finuqor dillərində qalmış ari sözləri ilə görünür.[379] Bu boyların Orta Asiyaya m.ö. II minilin ortalarında Xarəzm quzeyindən keçdiyini isə arxeoloji bəlgər göstərir. Belə ki, həmin çağlarda ari tayfalarının keçdiyi yolboyu yaşayış məskənləri xarabalıqlara çevrilmişdir. Həmin minilin son əsrlərində Areyadan «hind», «iran» qolları ayrılandan sonra irandilli boylar zaman-zaman yaxın bölgələrə yayılırdı. Areyada onların çoxalıb, ətraf bölgələrə yayılması m.ö. I minilboyu davam etmişdir.[380] Artıq həmin minilliyin sonunda Areya adı-

---

[378] Elmi ədəbiyatda işlənən *iran dilləri*, *hind dilləri* yanlış termindir, çünki bu deyimlərin əsasında etnik yox, ərazisində çoxlu qeyri-ari dillər olan coğrafi adlar (İran, Hind) durur. Heç olmasa, bu terminləri *hindi dillər*, *irani dillər* kimi işlətmək daha münasibdir.

[379] ETHNİC Pr., 84-89.

[380] Ari boylarının I minildə dörd tərəfə ekspansiyası başlayır (ОИЯ, 1979, 235); Quzeyə qalxanlar Ural-Dunay arası bölgələrə gedir, daha doğrusu, neçə əsr əvvəl gəldikləri yolla geri qayıdır. Ancaq bu yolu doğuya arilər kimi gedənlər artıq irani dillə batıya qayıdırdılar və ola bilsin ki, bu qayıtmada əsas səbəb onların saqa türklərinə qoşulması idi. Bu iranilər Azaq və Qara-dəniz yaxalarında yunan kaloniyaları içində görünür və sonralar iron və diqor boylarının qovuşuğundan yaranan osetlər (osetinlər) isə Qafqazın dağlıq bölgəsinə çəkilmişlər. İrani və hindi qollara ayrılmadan öncə arilərin ikinci Atayurduna çevrilmiş Areyadan yeni göçlərin başlaması, görünür, tunc dövrünün sonu və dəmir dövrünün əvvəlində Azərbaycanın qonşu güney bölgələrindən Sialk «B» və ona yaxın kultur dalğasının Orta Asiya və Altaya doğru miqrasiyası ilə

nın coğrafi sınırları da böyümüşdü. Bu haqda Strabon yazır ki, Persiya və Midiyanın bir hissəsinə qədər uzanan *Ariana* adı doğuda İnd çayına çatır, quzeydə baktriya və soqdiyalıların ərazilərini də əhatə edir, belə ki, buradakı xalqlar azacıq fərqlərlə bir (eyni) dildə danışırlar (Strabon, XV. 2.1). Əlbəttə, hələ Strabonun vaxtından neçə əsr qabaq 220 il davam edən böyük Pers (Əhəməni) imperiyası çağında irani dillərin belə geniş əraziyə yayılması doğal idi.

İrandilli boyların yerləşdiyi Xarəzm-Xorasan və Herat-Sistan zolağı quzeydən güneyə uzanan arakəsmə kimi, vaxtilə doğuya gedən türklər ilə Azərbaycanda qalmış türklər arasında bufer zonaya çevrilirdi. Areyanın coğrafi tutumu genişləndikcə batı türklərlə doğu türklərin birbaşa əlaqəsi zəifləyir, bir-birindən uzaq düşürdü. Turanın batı tərəfləri olan Xorasanla Xarəzm arasında ikidilli mühitdə qalan saqa (sak) türkləri isə pers təsiri altında get-gedə iran dilinə keçirdilər. İlk iran-türk qarışığı məhz burada part dilinin ortaya çıxmasına səbəb oldu. Sonralar part boyundan çıxan türksoylu Ərsaq sülaləsi böyük Part (Parfiya) imperiyasını qurdu. Alban dövlətinin başında da müəyyən çağlarda ərsaqlar durmuşdur.

Areyadan güneyə enib Bars bölgəsində yerləşən irani dilli tayfalar isə zaman-zaman Elam ərazisinə sızıb, Azərbaycanın güney bölgələrinə yaxınlaşırdı. Yerli elam boylarının içində nüfuzunu artıran pers feodalları güclənib, bölgələrdə hakimiyəti ələ alırdı. Artıq Mana dövləti çağında bəzi pers boylarının Həmədan yaxınlığında görünməsi, Mada çağında isə siyasi hakimiyət uğrunda mübarizə aparması Azərbaycan dövlətçilik tarixində yeni səhifələr açdı. Mada dövlətində hakimiyəti ələ alan perslərin Əhəməni sülaləsi imperiyanın sərhədlərini genişləndirdi. Arada Qam-Ata adlı bir madalı *qam* (maquş) çevriliş edib, imperiyanın mərkəzini yenidən Həmədana köçürsə də, onun hakimiyəti bir il çəkmədi. Onu öldürüb, hakimiyəti ələ alan perslərin hegemonluğu İskəndərin yürüşünə qədər davam etdi. Altı əsr sonra İranda Ərsaq sülaləsini devirib, yenidən hakimiyətə keçən perslərin Sasani sülaləsi İslamaqədər İranı və Azərbaycanın bir çox bölgəsini idarə etdi.

Etnik-siyasi tarixə bu qısa ekskursdan sonra həmin tarixə işıq tutan qaynaqların türk-pers əlaqələrinə aid verdiyi bilgiləri nəzərdən keçirmək lazım gəlir. Türk, pers, yunan, latın, hay və ərəbdilli qaynaqların bir qismi qədim çağlardan bəhs edən mifik rəvayətlər, o biri qismi isə tarixi olaylarla bağlı yazılardır. Aryrı-ayrı bölmələrdə bu bəlgələrdən bəhs edildiyi üçün burada, ötəri də olsa, türk və irani dilli qaynaqlara toxunaq.

Türk dilində türk-pers əlaqələrinə aid bəlgələr nağıl və dastanlarda, divan ədəbiyatı və İslamdan sonra qələmə alınmış tarixi, coğrafi, etnoqrafik əsərlərdə, izahlı və ikidilli sözlüklərdə vardır. Bununla yanışı, xalqın qan yaddaşını, söz yatırını əks etdirən dilin verdiyi etnoqrafik, onomastik, bəlgələr və qarşılıqlı alınma sözlər əvəzsiz qaynaqdır. Mifik çağlara aid olayları nəsil-nəsil dastanlarda yaşadan türk Oğuznamələrində «pers»

---

bağlı olmuşdur (Jettmar, 1956, 330-342); Batıdan doğuya yönələn bu köç ari toplumunu ikiyə parçalamışdır.

yoxdur, çünki o zaman perslər yox, arilər vardı və onlar da uzaqlarda idi. Koroğlu, Dədə Qorqud boylarında tək-tük bəlgələr isə həmin abidələrin yazıya alındığı çağlara aiddir. Nağıl və dastanlarda Xosrov, Fərhad, saqa soylu Zaloğlu Rüstəm, xristian türkü Şirin, anası türk olan Siyavuş kimi obrazlar, Simurq quşu və devlər kimi mifik varlıqlar artıq ari birliyinin dağılmasından sonrakı irandilli boylarla türklərin əlaqəsini əks etdirir.[381] Türk-iran əlaqələri baxımından, M. Kaşğarinin verdiyi məlumatları da diqqətə almaq lazım gəlir. Çünki yazar hansı türk boyunun düzgün dil ilə danışdığını, hansının ikidilli olduğunu, hansının da iran-türk qarışığı ilə danışdığını göstərmişdir.[382] Türk və pers dilini müqayisə edən böyük Nəvai hələ 1499-cu ildə yazırdı ki, türk əyanları pers kulturuna və pers dilinə böyük həvəs göstərir, saraylarda türk hökmdarları pers dilini üstün tutur, lakin türk dili ifadə zənginliyi, sözlərin çoxlu məna çalarları ilə pers dilindən daha üstündür. Yazar bu dediklərini sərgiləyən yüzlərlə örnəyi şairanə yozumlarla ortaya qoyur.[383] Göründüyü kimi, Mahmud Kaşğari, Əlişir Nəvai kimi Ulutürklər öz soydaşlarının necə iraniləşməsi olayını yaxından izləmişlər.

İrani dillərdə olan qaynaqların əksəri İslamdan sonra qələmə alınmışdır. Lakin üzü köçürülüb redaktə olunan bu qaynaqlardan bir neçəsinin orijinalı daş və lövhə üzərində qalmışdır. Bunlar Bisutuna mixi yazı ilə həkk edilən böyük həcmli üçdilli yazı və kiçik həcmdə olan Nəqşi-Rüstəm, Suz və Persopol yazılarıdır. Arada 6 əsr boşluqdan sonra bir də Sasani çağında pəhləvi və manixey yazısı ilə daş, möhür, sikkə və qab üzərində bir neçə kiçik epiqrafik yazı var. Bu çağın ədəbi əsərləri sırasında Karnamaq, Ayatkar-Zareran, Artaviraknamak və Zərdüştiliyə aid bir neçə abidənin adı çəkilsə də, onlar ortalıqda yoxdur, yalnız İslamlaş-

381 İrani boylarla türklərin əlaqəsini əks etdirən ədəbiyat üçün bax: Кoрoглы ,1976; 1983.

382 M. Kaşğari qeyd edir ki, ən doğru türk dili farslara qarışmayan və yabançı ölkələrə gedib-gəlməyənlərin dilidir. İkidilli soğdak, kəncək və arquların dili pozuqdur. Köçəri xotan, tübüt (tibet) və bəzi tanqut boyları yabançılara qarışmışdır (MK, I, 29); Görünür, yazar yabançı deyəndə irani dilli boyları nəzərdə tutur, çünki Xotan və Toxar bölgələrində sonralar irani dildə yazılar tapılmışdır. Dini mövzularda olan bu yazıları iranistlərin, az qala, ən qədim ari dili kimi verməsi və özlərindən «toxar», «sak», «xotan» adlı qondarma irani dillər uydurması elmdə böyük dolaşıqlıq yaratmışdır. Əlbəttə, bu yazıların dili klassik irani dillərdən fərqli olmalıydı, çünki tibet və ya türk boyunun yeni keçdiyi irani dilin «qol-qabırğasını» sındıra-sındıra qələmə aldığı yazı yeni bir ləhcə idi və M.Kaşğarinin gözü qabağında gedən bu proses nəticəsində yaranmış irani (soğdak?) dilin yeni ləhcələrini qədim dil saymaq mübahisəli olduğu qədər də, onlara türk boylarından toqar, kotan və saqaların adını verməkdən siyasətdən elmə ikili standart gətirməkdir.

383 ML, 1996.

madan sonrakı çağlarda yazıya alınmışlar. Əlimizə gəlib çatan Avestanın bəzi hissələri İslamdan sonra yazıya alınmış mətnlərdir. Təbii ki, burada ilkin mətnlərin arxaik dili Əhəməni çağında pers, Sasani çağında pəhləvi dili süzgəcindən keçmiş, hər dəfə üzü köçürülən yazılara zamanın ovqatı əlavə olunmuşdur. Avestada işlənən toponimlər Madanın doğu Raqa (Rey) bölgəsindən başlayıb, Xorasan üzərindən Əfqanıstan və Orta Asiyayacan uzanır, Əhəmənilərin ölkəsi (Persia) isə bu sırada yoxdur. Avestada toponimlər sırasındakı *Urva* (Yasna XIX. 18) isə Urmu ola bilər.

Öncə bunu vurğulayaq ki, müasir çağda Avesta abidəsi birmənalı qarşılanmır, bəziləri bunu qədim türk abidəsinin tərcümə olunmuş variantı sayırlar. Lakin diqqətə almaq lazımdır ki, əlimizdə olan Avestanın yaşı 700 ildən o yana getmir və bugün də Avesta dinini yaşadan zərdüştilər onu qədim irani dillərinə bənzəyən iki dialektdə qələmə almışlar. Doğrudur, atəşpərəstliklə zərdüştiliyin qarışığı olan Avesta mətnlərində yerli *Ahura* (Asar) və Mazda tanrılarına sitayiş edilir və xeyir işlərlə uğraşan Ahura-Mazda (Hörmüzd) şər qüvvələrin başında duran Anqhro-Manyuşa (Əhrimana) qarşı qoyulur. Hörmüzd irandilli etnosun təmsilçisi kimi, turları (turanlıları) təmsil edən Əhrimana qarşıdır. Bu turlar vaxtilə Azərbaycandan Orta Asiyaya köçüb, orada böyük Turan yaradan türklər və Azərbaycanda qalmış Azər türkləridir. İrani kahinlər köçərilikdən əl çəkib, oturaq yaşama keçməyin, əkinçiliyin üstünlüyünü təbliğ etmək və bu istəyə maneə olan turanlıları pisləmək üçün ari olmayan xalqlara, daha doğrusu, müxtəlif məxluqlar (devlər) obrazında verdikləri türklərə nifrət aşılayan ideologiyanın təbliğində ən münasib vasitə kimi qapalı doqması ilə fərqlənən Zərdüştiliyi seçmişlər. Təsadüfi deyil ki, hələ xristianlığı qəbul etməmişdən əvvəl, yəni erməni olmamışdan öncə, Suriyanın quzeyindən Ərmən bölgəsinə soxulan hayların içində Zərdüşt dini dərin kök salmışdı.[384] Beləliklə, öncə yerli tanrıya və yerli Od kultuna köklənsə də, əhəməni və sasani çağlarının dünyagörüşü süzgəcindən keçib, irani boyların ovqatı əks olunmuş əlimizdəki Avesta türk mifik təfəkkürünə yad olan bir abidədir. O ki qaldı, öncə zərdüştiliyin əleyinə çıxan Mada qamlarının (maqların) atəşpərəslikdən zərdüştiliyə transferi məsələsinə, bu barədə mifologiya və dinlərə aid V Bitikdə geniş söhbət açacağıq.

> Qədim pers qaynaqları (Avesta, Bundahişna və b.) yerli xalqlarla arilərin savaşlarını əfsanələrlə bəzəmişdir. Hindavropa köklü «tanrı» anlamlı *deus* sözünü iranilər *dev* şəklində mifik obrazlara çevirib və onlara yerli

[384] Бойс, 1987, 103-104.

boyların adını vermişlər. Bunlardan biri, sadəcə, türkcə «boy» anlamında olan *but* sözü ilə *But* (But-div) adlanır, başqaları asur-urartu qaynaqlarının da Azərbaycanda qeyd etdiyi «polad» boyunun (Polad-div), «zəngi» boyunun (Zəngi-div) adını bildirir. Düşünmək olar ki, bu model Aqaş-div (*ağac-əri* boyu), Akuman-div (*kuman* boyu), anarxiya devi kimi verilən Savar-div (*suvar* boyu) və Azar tanrıya qarşı savaşan «doymaz», «ac» Az-div (*az* boyu) adlarında da vardır.[385] Bu baxımdan, qaynaqlardakı *kamara-divan* (qamər devləri) deyimi də diqqəti çəkir.

İran bahadırları əsasən Sistan (Sakastan) bölgəsindən çıxanlardır. Əhəməni soyundan başqa, İran şahlarını yetirən peşdadi və kavilər soyu vardır. Avestada *kavay*, pəhləvi dilində *kay* titulunun mənşəyi iranistlərə bəlli deyil.[386] Məncə, bu titul madalı Qam-Ata adında olduğu kimi, Mada türklərinin «şaman» anlamında işlətdiyi *qam* (kam) sözüdür və kəyanilər (kavilər) sülaləsi «Avesta»da Kav-ata, Kav-i-apivaxu, Kav-i-Siyavarşan kimi adlarla təmsil olunur, sonralar Key-Kavus, Key-Xosrov adları da bu ilkin anlamı müəyyən qədər saxlamışdır. Qədim hind dilində *kaví* «bilgə», «şaman» anlamında işlənmişdir.[387] Göründüyü kimi, *qam* (kam) sözü hələ ari-türk əlaqələri çağında turklərdən alınmışdır.

Qədim çağlarda Dəclə yaxalarından tutmuş, Azərbaycanın müxtəlif bölgələrində yayğın olan *Asar* məbudunun Asur şəhərində və başqa yerlərdə tapınağı vardı. Madanın güneyindəki *Azari* məbədi isə Strabonun vaxtına qədər qalmışdı.[388] Bu teonimi tibetlilər doğuya gedən türklərdən aldığı kimi, ari boyları da onu hələ irani və hindi qollara ayrılmadığı çağda turanlı türklərdən almışdı. Sonralar hindi dilində *Asura*, irani dildə isə *Ahura* kimi işlənən bu teonim zərdüştilik dinində əsas tanrı mövqeyinə çıxdı. İrani toplumun hələ hindilərdən ayrılmadığı çağda ortaq teonimləri vardı: İrani *Mitra, Andra, Yima;* hindi *Mitra, İndra, Yama.*[389]

Perslər tarix səhnəsinə çıxandan sonra türk dövlətçtlik gələnəyindəki «qut», «qutlu» sözünün irani dilində qarşılığı kimi *hvarnah* sözünü daima dövlət və xoşbəxtlik simvolu kimi işlətmişlər. Lakin bu sözün əski

---

[385] Eyni qayda sonralar gürcü «Rusudaniani» eposunda xəzər-gürcü savaşlarının əks-sədası kimi *Xazaran-dev* adında özünün göstərir.

[386] Фрай, 1972, 63.

[387] Герценберг, 1972, 31.

[388] Strabon, XVI, 1. 18.

[389] İrani xalqlar türklərdən *Qud* (Quday) və *Baqa* teonimini də alıblar. Onlar Madada Həmədan civarındakı yerlərlə tanış olandan sonra burada Mana çağından işlənən **baqa** teonimi ilə qutsal sayılan tanrılar dağını *Baqastan* (> Büsutun) adlandırmışlar. Qud teonimi də kassi deyiminə uyğun *Xoda* şəklinə düşəndən çox sonra, Sasani çağında *Xuda* şəklində bumeranq söz kimi yenidən azər türklərinin özünə qayıtmışdır.

mətnlərdə GDH ideoqramı ilə yazılışı diqqəti çəkir.[390] Deməli, iranilərin «xoşbəxtlik» anlamında işlətdiyi bu termin yazı gələnəyilə birgə alınmışdır, çünki *qut* (qudh) yazıb, onu irani dildə *hvarnah* oxumaq daha öncəki yazı gələnəyi ilə bağlıdır. Şəkildəki sasani çağı bulla-damğaların birində *kol-damğa*, digərində *Ardaşir-qut* deyimi də vardır. İranın ilk şahı Təhmurasın yazını turanlılardan öyrənməsi isə «Şahnamə»də qeyd olnmuşdur.[391]

Part dilində manixey dini mətnlərinin türk runikası ilə yazılması da bəllidir.[392] Elə part yazıları da var ki, mənası çox aydın görünür, lakin onu yanlış yozurlar. Belə ki, part damğası üzərindəki yazıda çox aydın oxunan «baş xanım» anlamlı *paš bānūk* (baş banu) deyimində guya *Paş* adlı («qospoja Paş») xanımdan bəhs olunur.[393]

Firdovsinin «Şahnamə» əsərində iran-türk əlaqəsi iranilərin VI mifik şahı Firidunun çağından başlayır. O, ölkələri üç oğlu (Salm, Tur, İrəc) arasında paylaşdırır, payına bərəkətli İran düşən kiçik oğlu İrəci öz qardaşları öldürür, sonra İrəcin oğlu Mənuçöhr də əmilərini öldürür və bundan sona İranla Turan arasında savaşlar davam edir. Yazıldığı çağdan min ildən artıq vaxt keçməsinə baxmayaraq, bu əsər hələ də pers millətinin «altun» kitabı sayılır. İrani xalqları üstün tutan, pers milli hissini coşduran bir ovqatla yoğrulmuş və klassik Şərq ədəbiyatına güclü təsiri olmuş bu əsərdə türkləri alçaldan ibarələr, sətraltı kinayələr vardır. Bu baxımdan, turlara (türklərə) qarşı «Avesta» münasibəti, türklərə qarşı «Şahnamə» ovqatı ilə uyğun gəlir. Lakin buna baxmayaraq, Xorasanda yaşayan yazar türkləri yaxından tanıdığı üçün onlarla bağlı diqqəti çəkən bilgilər verir.

Firdovsi türklərdən danışanda Basanc, Gulbad, Pulad, Piran, Demur, Karaxan, Tarxan adlarını çəkir, qarluq, çigil, quz, türkmən, tatari, türk və tur boylarını sadalayır, Ganq, Bərdə, Kıpçaq-taşı, Kaçkar-başı kimi topo-

390 Bailey, 1943, 1-78.

391 Короглы, 1983, 38.

392 Le Goq, 1909, 1054 və s.,1061.

393 ОИЯ, 1981, 154.

nimləri qeyd edir, *kağan* titulunu işlədir, ən əsası isə, türkləri Təktanrılı xalq kimi verir. III əsr olaylarını pəhləvi dilində verən «Karnamak» əsəri də «*ud Hindūqān şāh ud Turk xākān*» (və Hind şahı və Turk kağanı) deyimi ilə bu titulu qeyd edir.[394] Firdovsiyə görə, irani dili bilməyən türklər kimi, tükcəni bilməyən iranilər də var: «Xomanla savaşda türkcəni yaxşı bilən bir tərcüman seçdi» və ya «Qürurlu Tarxan tərcümanı ilə qala yönündən qoşaraq gəldi».[395] Bəzi ikidilli türk boylarının iraniləşməsi olayı Firdovsinin də diqqətini çəkmişdi.[396]

Yazılı qaynaqlara görə, Azərbaycanda bars, barsil adlı boylar vardı və Mana, Mada çağının barelyef cizgilərində bars dərili başçıların rəsmi əks olunmuşdur. «Şahnamə»də yazılır ki, türk böyüklərinin çadırı *bars* dərisindən idi (V. III, 1283). Bütün bu bəlgələr Bars bölgəsinə gələndən sonra ari tayfasının *pars* (pers) adlanmasına aydınlıq gətirir.[397] Çünki arilərdən öncə Azərbaycanda bir-birindən aralı bir neçə Bars bölgəsi vardı.

Əlbəttə, «Şahnamə» Turanın (türkün) əsas simvolu kimi Əfrasiyabı verir. Onun Qunduz (sonrakı Baykan) adlı başkəndində atəşgah olması qeyd olunur. Firdovsi versiyasına görə, Əfrasiyabı təqib edən iranilər onu Azərbaycanda, Bərdə bölgəsindəki qalasında (xange-Afrasiyab) öldürürlər. Əfrasiyabın Azərbaycanda öldürüldüyünü qeyd edən Təbəri də yazır ki, o çox vaxt Babil və Mihrican-Kazıkta otururdu.[398] Əfrasiyabın (Alp Ər Tunqanın) ölümünə yazılmış ağıtı isə M. Kaşğari verir. Ərəb, pers və türk qaynaqlarında verilən Əfrasiyab mifik obrazdır, lakin Kaşğarinin yazıya aldığı ağıt onu mifik kontekstdən çıxarıb gerçək tarixi şəxsə çevirir. Bu baxımdan, Əfrasiyabın ilk ari-türk əlaqələri çağında (m.ö. XIII-X əsrlər) yaşaması aydınlaşır. Təbəri də onu təxminən həmin vaxtda yaşadığını və Musa peyğəmbərin çağdaşı olduğunu yazır. Hər halda, bir neçə əsr aşağı-yuxarı zaman fərqini buraxıb da, ortada olan ağıtın yaranma tarixindən ən azı iki min il sonra yazıya köçürülməsi faktı üzərində ciddi araşdırma aparmağın vaxtıdır. Ancaq bu mövzuya VI

---

394 Karnamak, (XVIII, 22).

395 Kowalski, 1984, 296-297.

396 Türk-iran qarışmalarından danışan polyak alimi Tadeuş Kovalski yazır: Bu durum özəlliklə zəngin sinifləri, idarəçiləri və daha alt səviyədə qalmış, ilkəl halını davam etdirən köçəbələri ilgiləndirirdi. Firdovsinin Xorasanda oturduğu zaman durum belə olmalıydı. Şübhə yox ki, onunla qarşılaşan ikidilli türklər geyimlərinə, savaş yaraqlarına, gələnk və görənəklərinə, günlük məşğuliyətlərinə varıncaya qədər böyük oranda iranlılaşmışdılar (Kowalski, 1984, 290).

397 İ. M. Dyakonov qeyd edir ki, Herodotun verdiyi Madada yaşayan *bousai, paretakenoi, stroukhates, arizantoi, boudioi, maqoi* adlı boylardan yalnız *arizant* (*arya-zantu* «*ari boyu*») adının irani dildə aydın mənası vardır (Дьяконов, 1956,146-147).

398 Taberi, II, 649, 744-745; «Avesta» Əfrasiyabın adını *Faranqrasyan* kimi verir.

bitikdə qayıdacağıq.

İrani dillərin doğu dialektləri isə Türküstan və Orta Asiyada irani (soqd) boylarının yerləşdiyi bölgələrdə formalaşmışdır. Burada türklərin irani dilə keçməsi və ya əksinə irani boyların türkləşməsi olayı ikidilli mühitdə tarixi şəraitdən, dillərdən birinin üstün mövqeyə keçməsindən asılı idi. Belə dəyişmələrin Orta Asiyada müxtəlif çağlara aid örnəkləri vardır.[399] İranşünasların tədqiqatı göstərmişdir ki, Orta Asiyada Surxan, Şirabad, Kafirniqan ovalarında yaşayan türklər tacik dilinə keçmişlər, Əfqanıstanda isə cağatay, teymuri, xəzər, qızılbaş türkləri dillərini itirib, irandilli olmuşlar.[400] Ola bilər ki, orta əsrlərdə özbək dilinin təsiri ilə Karşi, Səmərqənd ətrafındakı bəzi kəndlərdə də türkləşmə olmuşdur. Lakin Azərbaycanda olduğu kimi, doğuda da əks proses daha çox baş vermişdir. Bunu Xorasan-Xarəzm arasında prototürkmən boylarından ərsaq soyunun qurduğu Part dövlətinin timsalında aydın görmək olur.

İranda yaşayan yerli xalqların hələ əhəmənilər çağından başlanan iraniləşməsi prosesi sasani çağındakı ikidilli mühitdə daha da artdı və Mazandaran, Gilan, Talış, Luristan və başqa bölgələrdə yerli əhali irani dilə keçsə də, fars dilindən fərqli yeni dialektlər yarandı. Azərbaycan bölgələrində tat, talış, dağ cuhudu, kürd və sair toplumlar içində indi irani dillə yanaşı, azər dili də işlənir.

Azər dilində yüzlərlə pəhləvi sözü vardır: *bədbəxt, mərd, mirvari, niyaz, namaz, sitayiş, şəhər, şəkər, padşah, həmkar, dərman, zəhər, tənha, ziyankar, ciyər, vay-şüvən, xahiş, xoş* və s. Bu sözlərin əksəri Sasani çağındakı alınmalardır və ola bilsin ki, bunlardan bəziləri İslamdan sonrakı çağlarda yeni fars dilindən alınmışdır. Lakin III əsrdən İslamaqədər olan dövrü əks etdirən pəhləvi dilində yazılmış əsərlərdə türk sözlərinin işlənməsi türk-pers əlaqəsinin vaxtını geri çəkir: [401]

---

[399] Xarəzmdə *alan-as* boylarının ikidilli olmasını Biruni qeyd etmiş, M. Kaşğari ikidilli türk və soqd boylarından söhbət açmışdır. İranist alimlər isə Xarəzm kulturunda yalnız irani qat axtarmışlar. Halbuki, XIII əsdə Zahidi yazırdı ki, «əgər xarəzmlisənsə, türkcə *ər-oğlu* deyək». Bu bölgədə olmuş Plano Karpini də Xarəzmdə «koman dilində danışırlar» deyimini işlətmişdir. Əslində, Xarəzm Xorasanın Aral gölünə uzanan uc bölgəsi idi və vaxtilə Mada ərazisindən doğuya gedən *xorus* boyunun adı ilə adlanmışdı. Antik çağ yazarları Soqdianada da Χωράσμιοι (xorasmi) boyunun yaşadığını qeyd etmişlər (Ptolemey, VI, 12. 4). Ona görə də, *Xorasan* (xoras-an) ilə *Xorasmi* (xoras-mi) adının mənşəyi eynidir, sadəcə, Χωρασμίη (Xorasmi) variantı etnonimlərə qoşulan *-mi* formantı ilə yaranmışdır.

[400] ОИЯ, 1979, 50.

[401] PB, 1965; Karnamaq, 1987.

türk	pəhləvi	anlamı
aba	ab	«ata»
astar	astar	«astar»
almaz	almāst	«almaz»
banu	bānūk	«xanım»
döşək	dūşak	«döşək»
çay	cōy	«çay», «kanal»
çəkiç	çakoç	«çəkiç»
çoban	şubān	«çoban»
qara	kārān	«qara-camaat»
toxum	tōxm	«soy», «toxum»
xaqan	xākān	«kağan»
xoruz	xoros	«xoruz»

İrani dillərlə türk dili arasında qarşılıqlı əlaqə birtərəfli olmamış, hər ikisi bir-birinə təsir etmişdir. Bunu aydın görmək üçün təkcə inkarlıq kateqoriyasının iki formasına baxmaq kifayətdir. Belə ki, azər dilində «nə» inkarlıq ədatı irani dilin təsiri ilə, pəhləvi dilində isə «mā» inkarlıq önqoşması türk dilinin «-ma» inkarlıq formantının təsirilə yaranmışdır:

Azər dilində:	Pəhləvi və fars dilində:
nə yedi, nə içdi	*nə xord, nə nuşid*
aparma (apar-ma)	*māpar* (mā-par) «aparma»

İslamdan sonra da kəsilməyən pers-azər əlaqələri hər iki dildə bir-birindən alınma sözlərin sayını çoxaltmışdır. Pers dilində türk sözləri geniş işlənir, bu dildə türk şəkilçiləri də vardır. Pəhləvi dilində *vāžār-gān* «bəzirgan», *mardohm-ag* «insanlar», *tam-īg* «qaranlıq», *drāv-ānag* «yalan», *zēn-gēn* «silahlı» kimi sözlərdə şəkilçi türkcə (*-gān, -anag, -ag, -īg, -gēn*) işlənir. Azər dilində də yüzlərlə pers sözü vardır. Artıq şəkilçiləşmiş bəzi pers sözü *ev, quş* kimi azər sözlərinə qoşula bilir (evdar, quşbaz), hətta, azərcənin *kişi* sözü pers önqoşması ilə *nakişi* şəklində işlənir. Pers dilinə sonralar da çoxlu türkizmlər daxil olmuşdur.[402]

[402] Зяринязадя, 1962; İranistlər part, oset dilində «mənim» anlamında işlənən *manān, mænon* deyiminin haradan gəldiyini bilmirlər (ОИЯ, 1981, 23; Halbuki, bu, part dilinin qaynağında duran türkmən dilinin *meniñ* sözüdür (meniñ kitabım). Farscada feilin ilkin durumunu itirib, türk dili modelinə uyğun şəxs göstəriciləri ilə işləndiyini görmək olur: *rəft-əm* (getdi-m), *rəft-i* (getdi-n), *rəft-Ø* (getdi-Ø). Bu model qədim hindi

Beləliklə, azər türkləri ilə perslərin əlaqəsi 26 əsr arası kəsilmədən davam etmişdir. Mada dövləti çağında Azərbaycana gələn «perslər» öncə Fars körfəzinə yaxın bölgələrdə yerləşmiş, çox sonralar isə Urmu hövzəsinə yaxınlaşmışlar. Yerli kulturu mənimsəyən bu boylar müxtəlif zamanlarda hakimiyəti ələ alıb, imperiya və başqa dillərə dözümsüzlük siyasəti yürütmüşlər. Pers hakimiyəti illərində bəzi türk boyları kimi, elam, kassi, kadusi, bəluc kimi bir çox yerli xalqlar dilini dəyişib, irani dilə keçmişdir. Bu assimilyasiya olayları hələ Əhəməni dövlətinin vaxtında başlamışdı.

Elamın Barsa yaxın olan Ançan bölgəsində irani əhəməni soyu yerli hakimiyəti ələ alsa da, Ançan öncə Elam və Mada dövlətinin tərkibində idi. Burada Əhəmən (Haxamaniş) adlı boy başçısı, sonra onun soyundan gələnlər Mada canişini sayılırdı. Bars bölgəsinə yerləşib, bir neçə nəsil dəyişəndən sonra bunlar pars (pers) etnonimini mənimsəmişlər.[403] I Daranın ulu babalarından birinin Aria-biqna (’Αριαβίγνης) adı daşıması da diqqəti çəkir, çünki adın ikinci hissəsi pers sözü deyil. Ançanda yerli deyimlə ilk ari bəylərindən biri *Ari-beq* adlana bilərdi.[404]

Qədim yazarlara görə, Mada çarı Astiyaq qızını Kambis adlı persə verir, onlardan olan nəvəsi Kuruşu (Kiri) yanında saxlayıb böyüdür. Perslər Kuruşu babasından hakimiyəti almağa sövq edir, savaş m.ö. 550-də Kuruşun qələbəsi ilə başa çatır. Beləliklə, Mada dövlətinin başına keçən perslər paytaxtı Həmədandan öz bölgələrinə köçürür, həmin ildən Mada torpaqlarında Əhəməni sülaləsinin hakimiyəti başlayır.[405] Kuruş 20 il



I Dara (Bisutun qayası)

dilində də ari-türk əlaqəsi çağında ortaya çıxa bilərc
feili şəxslər üzrə belə dəyişir: *bhara-mi, bhara-si, b*

[403] Hələ I Dara çağının ilk dövrünə qədər arilər öz
yazısında deyilir: «Pars, Mada və ya bizim Haxam
pılmadı ki, şahlığı maq Qam-Atanın əlindən alsın»
və pers ayrı-ayrılıqda verilmişdir. «Avesta» pers b
boyu m.ö.VIII əsrdə Homerə də tanış deyil. O ki,
arilərin bura gəlməsindən öncəyə aiddir və burada (
olması (Strabon XV. III. 6) göstərir ki, bura öncə g
bars (barsil?) boyu Azərbaycandan gəlmişdir. O
çağdan Bars bölgəsində yaşayır.

[404] Bu soydan *Kuruş*, şah olandan sonra II Dara adını daşıyan *Ox* yerli adlar daşımışlar.

[405] Kuruşun əhəməni soyu üçün etdiyi xidmət tək bu soyu hakimiyətə gətirməklə bitmir, o, vaxtında elə bir addım atır ki, nəticəsi bugün də öz «bəhrəsini» verir. Belə ki, Kuruş hakimiyətə gələndən sonra vaxtilə Babilə köçürülmüş yəhudilərin öz vətənlərinə geri qayıtmasına icazə verir. Onun bu tarixi xidmətini unutmayan yəhudi yazarlar Əhəməni dövlətinin təəssübkeş təbliğatçısı olmuş, belə demək mümkünsə, İranın qədim tarixində

sonra başçısı Tomiris xatun olan massagetlərlə döyüşdə öldürülür. Kuruşun yerini oğlu Kambiz tutur. I Dara (Darayavuş) 522-də hakimiyətə gəlir, sonra daha iki Dara, üç Artakserks adlı pers şahlıq edir.[406] Beləliklə, İskəndərin yürüşü ilə m.ö. 330-cu ildə tarixdən silinən əhəmənilər o çağlarda dünyanın ən böyük imperiyası olan Pers dövlətini iki əsrdən artıq yaşada bildilər.

İskəndərdən sonra Part dövləti yaranana qədər Selevkilər İran və Orta Asiya bölgələrində müxtəlif canişinlikləri əllərində saxlamaqda davam edir. Selevkilərin romalılara uduzması Roma imperiyasının sınırını Azərbaycana yaxınlaşdırır, lakin Xorasanda güclənən partlar Van gölünə qədər İkiçayarası əraziləri nəzarəti altına alır. Sınır bölgələrdə, özəlliklə, Ərmən bölgəsində zaman-zaman Part-Roma müharibələri gah bu, gah da digər tərəfin üstünlüyü ilə davam edir. O çağlarda ərsaq soyunun bir qolu da Azərbaycanda hakimiyətdə idi.[407] İlk dəfə xristianlıq Part dövləti çağında Azərbaycada yayılmağa başlayır. Zərdüştiliyin təbliği isə sasanilər çağında artır və Urmu gölü hövzəsinə yayılır.[408] Əhəməni soyundan olmayan Sasanilərin hakimiyətə gəlməsi haqqında müxtəlif rəvayətlər vardır. Ərsaq sülaləsindən V Ardabanı devirib, hakimiyəti ələ alan I Ərdəşir (226-240), onun oğlu I Şapur (240-272) və nəvəsi I Hörmüzd (272-273) haqqında məlumatı «Karnamaq» verir.[409] Dörd əsrdən artıq hakimiyətdə olan Sasani sülaləsinin (226-651) paytaxtı İstəxr şəhəri idi.[410]

---

türk izlərini ört-basdır etməklə «əhəməni lobbisi"» rolunu oynamışlar. Son əsrlərdə isə Amerika, Rusiya və Avropa iranistlərinin əksəri yəhudi kökənli olduğundan Əhəməni sülaləsinin tarixini böyük simpatiya və şişirtmələrlə verirlər.

406 Kuruş (550-529), I Kambis (529-522), I Dara (522-486), I Kserks (486-465), Artakserks (465-425), II Dara (424-405), II Artakserks (404-359), III Artakserks (358-338), Arses (337-336), III Dara (336-330).

407 Part şah adlarından bir neçəsinin yazılış və oxunuşu diqqəti çəkir: *wrwd* Orod və ya Urud, *gwtrz* Qotarz (qut-ərs), *sntrwk* Sanaturuk və ya Sanatruk.

408 Yerli atəşpərəst məbədlərində olan maqların bu dini doktirinanı qəbul etməsi zərdüştiliyin imkanlarını genişləndirir, onu yayan kahinlər, maqlar artıq zərdüşti rahibi kimi Arazdan yuxarı bölgələrdə görünməyə başlayırlar. Zərdüştilər bu çağlarda yayılmaqda olan xristianlıqla kəskin rəqabət aparırdı.

409 Sasanilərin soy şəcərəsi əfsanələrlə bəzənmişdir. Bizanslı tarixçi Aqafi (VI əsr) də bu soyu aşağılayan məlumat verir. Yazır ki, Ərdəşirin anası çəkməçi Papakın arvadı idi. Ulduz falından başı çıxan Papak arvadını evində qonaq olan Sasanın yatağına salır və beləliklə, İranın gələcək şahı Papakın oğlu sayılsa da, Sasan soyundandır (Karnamaq, 13)

410 Sasani şahlarından IV Hörmüzd (579-590) «türkzadə» adlanırdı.

Part-Roma savaşları sasanilərin vaxtında Pers-Bizans adı ilə davam edir. Hər iki tərəf Azərbaycan, Quzey-Qafqaz və Dağıstanda yaşayan türklərin hərbi qüvvələrindən istifadə etməyə çalışır. Azərbaycanda artıq bir hissəsi xristianlığı qəbul etmiş gögər, azər (xəzər), alban, qarqar, kəngər və başqa oturaq türklərdən fərqli olaraq, quzeydəki yarımköçəri yaşamlı suvar, barsil, hun, kuman, bulqar boylarının atlı qoşunları aldıqları ödənc müqabilində gah Pers, gah da Bizans ordularına yardım edirdi.

İslamöncəsi çağlarda sasanilər Azərbaycanın quzey bölgələrini içinə alan Xəzər dövlətilə və doğu Turan bölgələrindən gələn türklərlə savaşmalı olurdu. Amu-dərya dəfinəsindən çıxan gümüş qabda yarım Ay içində verilən Türk kağanının təsviri savaşlardan birini əks etdirir. Nəhayət, İrana girən İslam orduları sasani sülaləsinin hakimiyətinə son qoydu. L. N. Qumilyov yazır ki, Persiyanı VII əsrin ortalarında zəbt edən ərəblər artıq VIII əsrdə sasani sülaləsinin törəmələrinə yolçu, dilənçi anlamında *bənu-sasan* deyirdilər.[411]

> Beləliklə, m.ö. II minilin ortalarından başlayan ari-türk və sonralar davam edən irani-türk (azər) əlaqələri nəticəsində bunların biri-birinə qarşılıqlı təsiri hər iki dildə dərin iz buraxmışdır. Günümüzə qədər təxminən 3500 il davam edən bu əlaqənin İslamdan sonra mahiyəti dəyişmiş, yalnız islamlaşma ilə dini, mədəni, elmi-ədəbi sahələrdə ortaq milli dəyərlər formalaşmağa başlamışdır. Bu əlaqənin İslamaqədərki dövrü isə tamam başqa xarakterdə olmuşdur. Belə ki, ari tayfaları gəlmə xalq olduğu üçün bu toplumdan ayrılan irani boylar Orta Asiyaya, Əfqanıstana, İranın güney bölgələrinə, sonralar isə Azərbaycanın güney bölgələrinə yerləşmişlər.[412]
>
> Tarixi təcrübə göstərir ki, təbiətən tolerantlı olan türk etnosu ikidilli şəraitdə üstün siyasi-sosial mövqeyini itirəndə assimilyasiyaya tez uğrayır. Ona görə də, Azərbaycan tarix elmində «türklər gəldi, Azərbaycanı türkləşdirdi» kimi elmdən uzaq bir tezisin dərin kök salması, sadəcə, irani və türk etnosunun milli özəlliklərini bilməməkdən irəli gəlir. Ən qəribəsi də budur ki, belə tarixçi «alimlər» Azərbaycanda türkləşmənin IX-XIII əsrlərdə baş verdiyini irəli sürürlər, çünki başqa tarixlərdə bunu söyləməyə əsas yoxdur. Əslində isə, İslamdan sonra Monqol istilasına qədər həmin

411 Гумилев, 1990, 60.

412 Təbii ki, belə yerləşmələr qansız-qadasız ötüşmürdü və bu savaşların əks-sədası irani dillərdə yazılmış Bisutun yazılarından tutmuş «Avesta» və «Şahnamə» kimi müxtəlif abidələrdə yerini almışdır. Bu da təbiidir ki, həmin yazılarda yerli xalqlara edilən zülmə haqq qazandırmağa səy göstərilmiş, zərdüştilik ideologiyasından istifadə edilmişdir. İrani boyların Azərbaycan bölgələrinə ekspansiyası sasani çağında artmış, hətta bu tayfalar Dağıstana qədər Xəzərboyu lokal bölgələrdə yerləşdirilmişdir. Belə bölgələrdə yaranmış ikidilli mühit çox vaxt yerli boyun irani dilə keçməsilə nəticələnmişdir.

əsrlərdə Azərbaycanda gedən islamlaşma prosesində əhali arasında türk deyil, ərəb dilinin terminologiyası və ərəb əlifbası yayılır, doğulan uşağa ərəb adı verilməsi gələnəyə çevrilirdi. Məhz həmin əsrlərdə pers dili ən dəbdə olan dilə çevrilmişdi, hətta, türksoylu hökmdarlar türkcə yox, pers dilində yazıb-oxumağa üstünlük verirdilər və bunlar tarixi faktlardır. Saraylarda olan bu ovqat türk şair-alimlərinə, zadəgan və feodallara da keçmişdi, əli qələm tutan «Şahnamə» ovsunu ilə «persomaniya» xəstəliyinə tutulurdu. Bu şəraitdə hansı «türkləşmə»dən söhbət gedə bilər? Bəs, nə üçün sasani çağından Azərbaycanda yaşayan və dörd tərəfdən türklərlə əhatə olunan irani dilli boylar, kiçik kəndlərdə belə, bugünə qədər türkləşmədi? Hətta, ömrü boyu pers məmləkətinə ayağı dəyməyən Nizami kimi dahi bir yazar Azərbaycanın perslərdən uzaq bölgəsi olan Gəncədə yaşasa da, ortalığa türkcə bir yazı çıxartmadı? Böyük türk oğlu Nəvai bu durumun monqol istilasından sonra da davam etməsindən şikayətlənirdi.

Batı və Quzey-Batı qonşular

Prototürk və protoazər boylarının batı və quzey-batı qonşuları deyəndə, İkiçayarasının quzeyindən tutmuş, Anadolu yarımadası və Avropada slavyan (slav) toplumunun, onlardan batıda yaşayan xalqların əraziləri nəzərdə tutulur. Əlbəttə, belə geniş coğrafiyada bəlgələri yaxın və uzaq bölgələr üzrə xronoloji baxımdan tutumlu sistemlə vermək asan deyil. Çünki prototürk toplumunun dağıldığı çağdan türklər İslamaqədər hindavropa xalqları ilə müxtəlif dövrlərdə müxtəlif regionda qarşılaşmalı olmuşlar. Belə ki, bəzi prototürk boyları müxtəlif çağlarda həm Qafqaz və Orta Asiya, həm də Anadolu üzərindən Avropaya çıxmışlar. Atayurddan uzaqlaşan as, saqa, hun, avar, bulqar, peçeneq, kuman boyları kimi bəzisi yerli xalqların içində əriyib getmiş, bir qismi isə bugünə qədər Avropada dilini saxlaya bilmişdir, bir qismi də vətənə qayıtmışdır. Təbii ki, müxtəlif çağlarda baş vermiş miqrasiyalarda türklər ayrı-ayrı xalqlarla əlaqədə olmuş və hər iki tərəfin mədəniyətində, folklorunda və dilində bu qarşılaşmanın izi qalmışdır. Müxtəlif bölgələrdə belə qarşılaşmalar təkcə türk köçləri ilə deyil, başqa xalqların göçü ilə də, özəlliklə, hindavropa boylarının Qara-dəniz (Pont) yaxaları boyunca hər tərəfə irəliləməs *sirkumpont* adlanan yayılma ilə gerçəkləşmişdir.[413]

Anadolu yarımadası batı qonşularla əlaqədə önəmli yer tutur. Belə ki, prototürk çağından sonra Güney-Doğu Anadolu və İkiçayarasının quzey

[413] Черных, 1988, 37-54.

bölgələrində qalan türk boyları həm Balkanlardan gələn hindavropa dilli het, yunan, friq və haylarla, həm də Qafqaz dağlarının ötəsindən gələn hurri-urartu boyları ilə Anadoluda qarşılaşmışlar. Anadolu üzərindən batı ölkələrə keçən türk boylarının əksəri, demək olar ki, yad mühitdə ərimiş, yalnız içində əridiyi xalqın dilində müəyyən izləri qalmışdır. Belə ki, II minilin ortalarından Troya bölgəsinə yerləşən türk boylarının bir bölümü oradan Avropanın quzeyinə gedib, german boylarına qarışmışlar. İsland saqaları onlardan *as* boyadı ilə bəhs edir.[414] Troya yaxınlığından İtaliyaya gedən etrusklar latınlara qarışıb, dilini tam itirdi. Ola bilsin ki, Misirə tərəf gedənlər də olmuşdur, çünki hiksosların yürüşündən sonra orada bəzi türk izləri görünür. İkiçayarasına sami axınları artdıqca ümumi subar adı ilə tanınan türk boylarının bəzisi Orta Anadoluya keçdi. Belə boylardan biri də het yazılarında adı daima hallanan qaşqaylardır. Qaşqay dilindən hat və het dillərinə xyli söz keçmişdir. Vaxtilə Azaq yaxalarına getmiş saqa-qamər boyları Anadoluya qayıdanda burada hələ xeyli türk boyları vardı. Türklərin qədim tarixində Anadolu əlaqələri gərəkli bəlgələr verir.

Anadolu VII-V minillərdə artıq Ön Asiyanın neolit mədəniyəti mərkəzlərindən birinə çevrilmişdi. VII-VI minilləri əhatə edən şəhər tipli Çatal-höyük kimi məskənlərdə eneolit və erkən tunc çağında xeyli irəliləyiş olmuş, bu inkişaf IV-III minillərdə Alaca-höyük, Alişar-höyük, Xoruz-təpə yaşayış məskənlərində davam etmişdir. Burada metal (mis, qurğuşun, qızıl-gümüş) istehsalı qonşu ölkələrin diqqətini çəkmiş, artıq II minilin başlarında burada asur tacirlərinin koloniyaları yaranmışdı.

Anadoluda II minilə qədər bir neçə arxeoloji kulturun olması, etnik demoqrafiya burada bir neçə etnosun varlığını göstərir. Anadoluda aparılan antropoloji araşdırmalar haqqında O. R. Gurney yazır: «Anadolunun müxtəlif bölgələrində tapılan kəllələr göstərir ki, III minildə uzunbaşlı və ya

414 Azər xalqı, 2000, 16-17.

dolixokefal tip üstünlük təşkil edir, braxikefal azdır. II minildə braxikefal tip 50 faizə qədər artır, ***armenoid*** tip isə yalnız I minildə görünməyə başlayır».[415]

Dağ silsilələri ilə çevrəyə alınmış Anadolu daxildə də sıra dağlarla dilim-dilim bölünmüşdür. İqdır, Ərzurum, Bolu və sair ovalıqlar da dəniz səviyəsindən çox yüksəkdə yerləşir. Prototürk coğrafiyasının bir parçası (batı bölümü) olan Doğu-Anadolu bütövlükdə yüksək ərazi kimi diqqəti çəkir. Kür-Araz kulturunun söndüyü çağda (m.ö. III minilin sonu) Qafqaz dağlarının quzeyindən gəlib Doğu Anadoluya yerləşən və müxtəlif dövrlərdə Anadolunun güney bölgələrinə və İkiçayarasının quzeyinə sızan qafqazdilli boylardan *hurrilər* buradakı subarların *matien* (mitan) boyları ilə iç-içə yaşamışlar.[416] Qədim çağlarda prototürk Atayurdundan Anadolu bölgələrinə köçən *subar, mitan, qaşqay, urum, şadılı, kuman, kumuq, xorus, qamər* və başqa türk boyları, türklərlə qarışmış (qovuşmuş) *hat, etrusk* və ya *tursa* boyları, hindavropa kökənli *het, latın, yunan* və *hay* boyları, qafqazdilli xalqlardan sayılan *hurri-urartu* boyları müxtəlif çağlarda prototürk və protoazər boylarının batı qonşuları kimi onlarla müəyyən əlaqə və təmasda olmuşlar.

Qara-dənizin güney-batı tərəfində uzanan *Koroğlu* sıra dağlarının *Bolu* (qədim *Pala*), *Eregli* (keçmiş *Hirakle*) bölgəsində olması göstərir ki, yunan mifologiyasında *Herakl* obrazının prototipi (Koroğlu) ilə bağlı rəvayətlər burada *qaşqay* eli vaxtında yayılmışdır.[417] Təpəgöz, amazonka, ilan-qız və Troya ilə bağlı əfsanələrin burada yayğın olması sonralar Homerin (m.ö. VIII) qələmə aldığı dastanlarda əks olunmuşdur. Ərzurum, Trabzon, Tokat, Tuman (*Tumanın qalası*), Bolu kimi yerlər Dədə Qorqud boyları və Koroğlu qolları coğrfiyasının batı bölgələridir.

---

[415] Герни, 1987, 188.

[416] Təəssüf ki, Güney və Quzey Azərbaycana aid arxeoloji ədəbiyatla tanış olmayan bəzi Türkiyə tarixçiləri Kür-Araz kulturunu yanlış olaraq, *Hurri kulturu* adlandırırlar (Erzen, 1984, 16-17); Halbuki, hurrilərin Doğu Anadoluya gəlmə xalq olması elmdə mübahisə doğurmur, mübahisə yalnız onların gəlmə tarixi ilə (III minil, yoxsa II minilin əvvəli) bağlıdır. Hətta Kür-Araz kulturunun dağılmasını da hurri boylarının axını nəticəsində baş verdiyini düşünmək olar, çünki XX-VIII əsr Kültəpə yazılarında tək-tük hurri adlarına rast gəlmək olursa, artıq Hett dövlətinin qüdrətli çağında belə, Boğazköy arxivində (XV-XIII əsrlər) hett dilinin hurri sözləri ilə dolması, hurri mifik-epik süjetlərinin yer alması, hett kral və kraliçalarından bəzisinin hurri adı daşıması görünür.

[417] Azər xalqı, 2000, 75-76, 82.

Kayseri yaxınlığında *Kültəpə* (Kaniş) qazıntıları burada XX əsrin ortalarından akad dilində yazılar olduğunu aşkar etdi. Bu yazılar, əsasən Asura metal göndərməklə məşğul olub, burada koloniya təşkil edən asur tacirlərindən qalmışdı.[418] 1780-ə qədər davam edən yazıların birdən-birə kəsilməsi göstərir ki, burada siyasi durum qəfil dəyişmişdir. Uzmanlar bu olayı hurri axını ilə izah edirlər.[419] Anadoluya gələn hindavropa dilli nesit (het), luvi boylarından mixi və heroqlif yazılar, sonralarsa nesitlərdən *lidi* dili, luvi boylarından isə *liki* dili adı ilə hərfli yazı nümunələri qalmışdır.

1. Hat. Qaşqay

Hindavropa boyları gəlməmişdən öncə Orta-Anadoluda yaşayan xalqın adı qaynaqlarda *hat*, dilləri *hattili*, mərkəzi şəhərləri isə *Hattuşa* adlanırdı. Özlərini öncə *nesit* adlandıran hindavropa dilli boylar Hattuşa şəhəri ilə digər hat ərazilərini zəbt edəndən sonra özlərini hatların varisi kimi *hat* adlandırmağa başlamışlar. Bunları dolaşıq salmamaq üçün uzmanlar sonra gələnləri *het* adı ilə fərqləndirir.

Alacahöyük kultury (Массон 1989, 113; ИДВ, 1988, 36-37)

Boğazköy qazıntısı hetcə yazılmış bəlgələr ilə yanaşı, xeyli hatdilli mətni də aşkara çıxardı, lakin bu yazıların əksəri nəşr olunmayıb. Ona görə də bəlli hat mətnləri bu dilin mahiyətini tam açmağa imkan vermir. Hər halda, hat dili bura gələn türk boyunun dili deyil, lakin hat dilində xeyli türk sözləri vardır. Hatlar bu türk sözlərini bura köçüb, qonşuluqda

418 Orta Anadolu m.ö.III minilin sonu-II minilin başlarında
419 Маккуин, 1983, 16

və onlarla iç-içə yaşamış qaşqaylardan ala bilərdi.

Hatlara aid edilən Alacahöyük kulturu ilə Maykop kulturu arasında tipoloji oxşarlıq çoxdur. Quzey Qafqazda ortaya çıxan Maykop kulturu ilə Troya arasında da əlaqə olduğu söylənir.[420] Şəkildə verilən buynuzlu heyvan fiqurlarının pozası və hazırlanma üsulu, həmçinin dönərgə (svastika) qədim türk sənətinin ayrılmaz hissəsidir. Təxminən III minilin yarısından sonra ortaya çıxan Maykop və Alaca-höyük lokal kulturları biri digərindən yox, hər ikisi üçüncü bir ocaqdan yarana bilərdi. Maykop kurqanında görünən qırmızı oxralı və bükülü ölü basdırma gələnəyinin türklərə aid olduğunu I Bitikdə şərh etmişdik. Belə düşünmək olar ki, III minilin ortalarında Güney-Doğu Anadoludan iki istiqamətdə çıxan boylar həmin kulturu karaçay-balkar boylarının yaşadığı Quzey Qafqaz bölgəsinə və Orta Anadolunun quzeyinə daşımışlar. Ona görə də, eyni vaxtda biri-birindən uzaq iki müxtəlif bölgədə biri-birinə çox bənzəyən basırıq kulturu ortaya çıxmışdır. Orta Anadoluya gələn və ya əvvəldən burada yaşayan hatların dilinə və etnoqrafiyasına daxil olan türk elementləri yalnız bura gələn qaşqaylarla izah oluna bilir. Türk-hat paralellərindən bəzisi əvvəllər də qeyd olunmuşdur.[421] Bu sıraya sonralar müəyyən etdiyimiz sözləri də əlavə etmək olar:

azər	hat	anlamı
acıq(lı)	*aşag*	acıqlı, yaramaz
belə	*pala(-x)*	bənzər
el-təbər	*tabar-na*	hökmdar titulu
katun	*kattax*	xatun, kraliça
kut	*kut*	qut, ruh, can
koru-	*kuru*	qorumaq, baxmaq, qaravul
gör-	*ku-*	görmək
şapşap	*şepşep*	səndəl, ayaqqabı
eşik	*aşka-(ştipa)*	qapı astanası, (hetcə «qapı»)
yak-	*yax-*	(yandırıb)-yaxmaq, parıltı
qızan	*kuzzan*	ocaq

Tufan tanrısı *Taru* ilə ilan arasındakı savaşdan bəhs edən hat mifi ilanı *illuyan-kas* (ilan-qız?) şəklində təqdim edir.[422] Kültəpə, Boğazköy

[420] ИНСК, 1988, 50.

[421] Мяликов, 1984, 100-105; Ъялилов, 1988, 39.

[422] ИДВ, 1988, 156.

yazılarında xeyli hat və qaşqay onomastikası əks olunmuşdur. İkidilli hat-het mətnində bəzi türk sözləri vardır, het dilindəki türkizmlər də görünür, onların içində ərimiş hatlardan qalan substratlardır. Lakin hetlərin bəzi türk sözlərini kontaktda olduğu subar, qaşqay və sair türk boylarından da birbaşa ala bilməsi istisna deyil. Beləliklə, ən qədim etnos kimi Anadoluda adı tarixə bəlli olan hatlar onların torpağını zəbt etmiş nesit (het) boylarının içində əriyib dilini itirdi.[423] Lakin quzey qonşuları qaşqayların adı hetlərdən sonra da yaşadı.

Hatlardan quzeydə təpərli döyüşçülər kimi tanınan *qaşqay* boyları Çorux çayının başlanğıcından tutmuş, indiki Ərzincan, Tokat, Gümüşhacıköy, Samsun istiqamətində qədim Bolu (Pala) bəyliyinə qədər uzanan geniş ərazidə məskunlaşıb, əkinçilik və maldarlıqla məşğul idi.[424] Onların dili haqqında müxtəlif fikirlər söylənsə də, bu sahədə sistemli tədqiqat aparılmamışdır.[425] Qədim qaşqayların etnik və dil mənsubiyəti barədə ortaya çıxan fikir müxtəlifliyi ondan irəli gəlir ki, tədqiqatçılar bir-iki oxşar sözü müqayisə etməklə fikir yürüdür, lakin het yazılarının bizə çatdırdığı onlarla qaşqay onomastikasının dil xüsusiyətinə fikir vermirlər. Qaşqay probleminin mübahisəli qalması bu sahədə sistemli tədqiqatın olmaması ilə bağlıdır. Doğrudur, Q. Qiorqadze qaşqaylar haqqında ayrıca məqalə yazmışdır, lakin həmin yazıda daha çox qaşqayların yayılma coğrafiyası tədqiq olunur və bir neçə qaşqay-hat paralelləri təhlil edilir.[426]

Hat-qaşqay əlaqələri göstərir ki, qaşqaylar III minilin ortalarından gec olmayaraq hatlarla bir bölgədə idi, çünki burada yaranan Alacahöyük kulturunda qaşqayların payı vardı. Belə ki, prototürk Atayurdundan çıxan

---

[423] *Hatay* və Lice qəzasında *Hataro* (hat-ər?) adlarının açımı maraqlı ola bilər.

[424] Гиоргадзе, 1961; Маккуин, 1983; Onların adı müxtəlif dilli qədim qaynaqlarda kiçik fərqlərlə *kaska*, *kaskey*, *kaşkay*, *qaşqay*, *qaşqa* şəklində xatırlanır.

[425] Qr.Kapansyan və M. Seyidov bu qaşqaylarla indi İranda yaşayan qaşqayları eyni xalq sayır (Капанцян, 1947, 113; Seyidov 1985, 42); Vaxtilə mən də bu yozumu əlavə arqumentlə genişlədib, Anadolu qaşqaylarını türk boyu kimi vermişdim (Cəlilov, 1990; Azər xalqı, 2000, 47-59); Lakin qaşqayları gürcü və Bizans mənbələrində *kaşaq*, *kasoqi* şəklində verilən çərkəz, adıq və abxazlarla eyniləşdirənlər də (Q. A. Melikişvili, İ. M. Dyakonov) vardır. Qaşqayların Kiçik Asiyaya m.ö. II minilin ortasında gəldiyini söyləyən E. fon Şulerə etiraz edən Q. Qiorqadze qaşqayları Kiçik Asiyanın ən qədim yerli sakinləri hesab edir və onları *hatlarla* qohum sayır (Гиоргадзе 1961, 199-200).

[426] Гиоргадзе, 1961.

iki qohum boyun biri bura, digəri Quzey Qafqaza gedəndən sonra Alacahöyük-Maykop kulturu ortaya çıxmışdı. Hatların quzey qonşuluğunda yaranan **Qaşqay bəyliyi** ilə hatların sıx əlaqəsi olmuşdur. Hat məskənlərini işğal edib, onları öz içində əridən nesit (het) boyları burada böyük imperiya qursa da, quzey qonşuluqda yaşayan qaşqaylara bata bilmədi.

Het çarı I Xantilinin (1590-1560) vaxtında qaşqaylar Het dövlətinin bir sıra vilayətini tutmuşdu, XIV əsrin sonunda isə qaşqaylar indiki Kayseriyə qədər enmişdilər. C. Q. Makkuin yazır ki, qaşqay dəstələri Halis çayının şimalındakı əraziləri talan etməklə bərabər, bəzən də çayı keçib Kanesə (Kayseri) yürüş edir, hetləri doğu ilə bağlayan əsas yolları qorxu altında saxlayırdılar.[427] Kiçik Asiyada ərdəmli döyüşçü kimi tanınan qaşqaylar hetlərin batı qonşuluğundakı Arsav çarlığı ilə müttəfiq idi. Hətta Misir fironu III Amonxotep (1552-1524) Arsav hökmdarına göndərdiyi məktubla öz ordusunda qaşqay döyüşçülərindən istifadə etmək istəyini yazmış və ona qaşqay dəstələri göndərməyi xahiş etmişdir.[428] Nəhayət, bir neçə əsr sonra (1200) qaşqaylar «dəniz xalqları» ilə birlikdə qüdrətli Het imperiyasını darmadağın etdilər.[429] Sonralar Qızıl-İrmaq və Kelkit çaylarının yuxarılarında yaranmış kiçik **Qaşqay çarlığı** (bəyliyi) m.ö. VIII əsrə qədər davam etdi.[430] Həmin əsrin ortalarından sonra Azaq yaxasından bura qayıdan soydaşları saqa-qamər boylarına qarışan qaşqaylar artıq yeni yaranan Qamər ölkəsinin sakinlərinə çevrildilər.

Tarix elmində qaşqayların qafqazdilli xalq sayılmasına səbəb asur qaynağının, sadəcə, «diqqətsiz» oxunuşu ilə bağlıdır. XII əsrin sonunda Fərat çayının yuxarı axarında qaşqaylarla qarşılaşan Asur çarı I Tiqlatpalasarın yazısına əsalanan bir çox müəlliflər (İ. M. Dyakonov, Q. A. Melikişvili, Q. Qiorqadze, İ. Əliyev) bu yazıda *urum* və *qaşqay* boyadının guya başqa bir variantda *urum* və *abeşla* boyları kimi verildiyini irəli sürür və qaşqay ilə abeşla adının eyni boyu bildirdiyini iddia edirlər. Yəni *qaşqay* (abeşla) ilə *kasoq* (çərkəz, adıq) boylarını eyniləşdirirlər. Əvvəla, *kazaq* adının fonetik variantı olan kasoq etnoniminin qaşqayla əlaqəsi yoxdur, ikincisi də, mətni oxuyanlar nəzərə almır ki, söhbət həmin asur çarının müxtəlif yürüşlərindən gedir. Tiqlatpalasarın 2-ci yürüşündə Subar bəy-

---

427 Маккуин, 1983, 92.

428 Гиоргадзе, 1961, 194.

429 Арзинба, 1983, 157; Misir yazısında (m.ö.XIII-XII) keçən «Dəniz xalqları» ittifaqına Kiçik Asiyanın batısında yaşayan *turşa* (sonralar İtaliyaya köçən *tirsen-* etrusk), güneydəki *Saqalas* şəhərindən olan *şakalaşa* uruqları da daxil idi.

430 ИДВ,1988, 107.

liyində məğlub etdiyi 4 min *qaşqay-urum* boylarından, 3-cü yürüşündə isə adı mətndə oxuna bilmədiyi üçün yeri boş buraxılan (çox guman ki, *qaşqay*) bir etnonimdən sonra *urum* və *abeşla* boylarının adı çəkilmiş və 4 min yox, 22 min əskərin məğlub olması verilmişdir.

> (*II yürüş*) Subar ölkəsinin kəndlərini zəbt etən Hat ölkəsi adamlarından **kaşkey** və **urume** boylarından 4000 adamı məğlub etdim (АВИИУ, №10); (*III yürüş*) Onların geniş ölkəsinin 22000 min əsgərini döyüşdə məğlub etdim, onların meyidi […], mənim iti nizəmlə […] **urume** və **abeşla**, Het ölkəsinin bu yenilməz adamlarını tutdum (АВИИУ, №11); [uru]**me**, **abeşla** […] köçürdüm (АВИИУ, №12).

Göründüyü kimi, tekstoloji təhlilin düzgün aparılmaması qaşqayların qafqazdilli xalq kimi qələmə verilməsinə səbəb olmuşdur. Halbuki həmin mənbələrdə Subar bəyliyinin quzeyində yaşayan protoazər boylarından olan *urum* (ayrım!) boyu ilə yanaşı adı keçən *qaşqayların* Azərbaycana doğru çəkilmə prosesinin başlanğıcını görmək olur. Het dövləti dağılandan sonra qaşqayların Anadolunun güney-doğu bölgələrində görünməsi düşünməyə əsas verir ki, onların bir hissəsi doğuya çəkilib və sonralar Orta Asiyaya keçmişdir. Asur hökmdarı II Sarqonun yazısında *Kaşka* ölkəsi Tabal, Xilakku, Muşku ilə yanaşı verilir, bu çarın Madadan Kaşka ölkəsinə qədər bac aldığı göstərilir. Qaşqaylar haqqında son məlumatı III Tiqlatpalasarın yazıısnda (m.ö.728) görürük.[431] Bugün adının türkcə olması şübhə doğurmayan *qaşqay* türkləri əsasən İranın güneyində yaşasa da, keçmişdə daha geniş coğrafiya daxilində görünmüşlər.[432]

Türk dillərində heyvanların alnındakı ağ xala **qaşqa** deyilir, *qaşqa*, *kaska* şəklində işlənən bu sözün qaynayıb-kükrəmək, ulduz, ay, xoşbəxtlik anlamları ilə yanaşı titul anlamı da vardır.[433] Aralıqdənizi ətrafında yaşayan xalqlarda heyvanın qaşqalı doğulması qədim *qut* (xoşbəxtlik)

---

431 Burada qaşqay bəyi *Dadimu* adlanır (АВИИУ, №44); Zaqatalada *Qaşqatala*, Vedidə *Qaşqa*, Gürcüstanda orta əsrlərdə *Qaşqaçay* və sair bu kimi toponimlər onların izini yaşadır. M. Kaşğari də *Kaşka-boğra* adlı iki toponim göstərmişdir.

432 Савина, 1980, 154; СИ, 1957; İran almanac, 1961; V.V.Trubetskoy qeyd edir ki, qaşqay boylarının bir qismi *kaqali, xazari, quşari, mamali, qamər* və sair soylarla birlikdə çoxsaylı *bəxtiyar* qəbilələrinə qarışmışdır (Трубецкой, 1963, 165). İranda «döyüşkən xalq» (Qr.Kapansyan) kimi tanınan qaşqaylar son zamanlara qədər tayfa-nəsil bölgüsünü saxlasa da, əkinçilik və maldarlıqla məşqul olurlar. İndi də qaşqay boy birləşmələrinin başında qəbilə başçılarının seçdiyi *ilxan* durur (СИ, 1957, 28).

433 M. Seyidov «ay» anlamını qaşqay sözünün sondakı *ay*-la bağlayır (Сейидов,1985, 42).

rəmzi sayılırdı. Həmin nişanənin ulduzla, ayla əlaqəsi *qaşqay* sözünün «ay» anlamında əks olunmuşdur. Sonrakı dövrlərdə *qaşqay* sözünün titul mənası da yaranmışdır. V.V. Bartolda görə, qırğızlar bəylərinə *kaşka* deyirmiş və həmin *kaşka* titulunu sonralar kalmıklar da işlədirmişlər.[434]

Issık-kul yaxasında yaşayan qırğız boylarından birinin soykökü ilə bağlı rəvayətdə deyilir ki, **Ay damğalı** bu boyun ulu babası **Çulum-Kaşka** sayılır, boyu himayə edən (*kamba-ata*) qutsal Toru-ayğır at isə **Toru-Kaşka** adlanır. Bu ilxıçı qırğızlar «ay damğalı» Toru-Kaşkadan böyük sevgi ilə danışır.[435] Görünür, Anadoludakı qədim qaşqaylar da aya sitayiş edirmiş, çünki hat dilinə keçən *qaşqay* sözü həm Ay planetini, həm də Ay tanrısını bildirir; het mətnində ^{D}*Kaşka* «Ay tanrısı» kimi verilir.[436]

Asur tacirləri Boğazköydən quzeydə, bəlkə də, hat-qaşqay qarışığı olan Alacahöyükdə, mis ticarəti məntəqəsi olan *Turxumit* (*Tu-ur-xu-mi-it*) toponimini yazılarında tez-tez təkrar edirlər.[437] Akad dilində müxtəlif formada yazılması da aydın göstərir ki, bu *turuk-but* (türk boyu «türklər») sözü get-gedə ilkin formasını itirmişdir, çünki sonrakı het yazıları bu boyları Turxumit məntəqəsi ilə əlaqəsi olan qaşqayların içərisində *turmitta* şəklində verir[438] Hər iki halda qaşqay ərazisində qalan Turxumit etnotoponimin kökündə *türk* elementi aydın görünür.

Yaxud qaşqaylarda tərkibində *suv* «su» sözü olan *Suvaxu, Suv* çayları, *Suvatar* (su atar), *Karassuv* (qara-su) kimi yeradları onların dil mənsubiyəti barədə tutarlı faktdır. Belə ki, Fərat çayının qaşqay ərazisinə daxil olan Ərzincan bölgəsində axan hissəsi indi *Kara-su* adlanır və *Karassuv* toponimi həmin bölgəyə yaxın olmuşdur. Boğazköy mətnlərində işlənən türkcə dağ adlarının tərkibində *təpə, daş, dağ* sözləri seçilir: Galiş-tapa,

---

434 Бартольд, V, 1968, 216; Bu söz oyrot yazılarında da titul bildirir (ИПВФ, 1974, 115).

435 Toru-Kaşka, u kotoroqo na bedre bıla belaə otmetina v forme lunı (*ay tamqa*), a na lbu beloe pətno, skakal posredi besçislennıx tabunov (Абрамзон,1966, 166).

436 Гиоргадзе, 1961, 199.

437 КТИК, 1968, 123; Bu yer adının *Turuxmiid, Turxumiid, Turuuxmiid* variantları da vardır (Гиоргадзе, 1961, 173),

438 Гиоргадзе, 1961, 173; Ertem, 1973, 147; Y.Qarstanq isə Turmittanı müasir Sivas bölgəsində yerləşdirir, çünki bəzi het yazılarında Turmitta ilə *Samux* adı yanaşı çəkilir.

Daşa, Daxaruva, Daxa, Daq-qurqa.[439] Buradakı *Kapaş* dağadı da sonralar *Kəpəz* şəklində müxtəlif türk bölgələrində görünür.

Kültəpə yazılarındakı şəxs adları sırasında Ata, Akuz, Azu, Uzu, Dalaş, Kukran, Kura, Panak, Tarxun, Takil, Tarşi kimi onlarla türk dili modeli ilə seçilən sözlər vardır.[440] Bunlardan bəzisi sonralar Mana, Mada bölgələrində də təkrar olunur. Başqa türk dillərində olduğu kimi, burada da **-lı** şəkilçisi ilə işlənən şəxs adları vardır:

Arkili, Buzili, Tulu, Tubtulu, Sakli. Bəllidir ki, türk dillərindəki **-lar** şəkilçisi cəmlik bildirən **-la, -ar** morfemlərinin qovuşmasıdır.[441] Görünür, qaşqay dilində daha qədim *-la* forması işlənmişdir: *Taxankul-la, Kassu-la, Xaysex-la, Timuxa-la* və sair.

Göründüyü kimi, qaşqay-türk paralelləri leksik və morfoloji qatda mövcuddur. Urmu teoriyası baxımından bura fonetik uyğunluğu da daxil etmək olar. Belə ki, uzmanlar Qaşqay onomastikasında ***n, l, v*** səslərilə başlanan sözlərin olmadığını qeyd etmişlər.[442] Bu sıraya ***r*** səsini də əlavə edib, deyə bilərik ki, bu fonetik özəllik Ön Asiya dillərindən ancaq türk dilinə məxsusdur.[443]

Beləliklə, Orta Anadoluda arxeoloji bəlgələrə görə, m.ö.III minilin ortalarından məskunlaşan qaşqay türkləri burada yerli hatlarla qonşuluqda yaşamış, dil və etnoqrafik baxımdan hatlara böyük təsiri olmuşdur. Hatlar

---

[439] Ertem, 1973; Sadalanan dağ adlarının bir qismi qaşqaylar yaşayan ərazilərdə olmaya bilər, çünki onların yeri mənə bəlli deyil, lakin hər halda Qaşqay bəyliyi çağında bölgədə yazıya alındığı üçün diqqəti çəkir.

[440] КТИК, 1968;

[441] Ъялилов, 1988, 193-196.

[442] Гиоргадзе, 1961, 209.

[443] Ъялилов, 1988, 45-46; Azərbaycanda *-ma* şəkilçili toponimlər (Yalama, Qızılqazma, Quruzma, Yaşma) işləndiyi kimi, qaşqaylarda da *Tarku-ma, Xursa-ma, Kalas-ma, Kurusta-ma* toponimləri vardır. Qaşqay toponimikasında maraqlı xüsusiyət-lərdən biri də budur ki, Azərbaycan yeradlarında rast gəldiyimiz qoşa köklü model (Dağdağan, Düldül ocağı, Qamqam piri, Xalxal, Batabat) burada da vardır: *Qapaqapa* (dağı), *Xanxana, Parpara.* Yaxud ortaq *-ka* topoformantı *Tarukka, Tapikka, Kaska* kimi toponimlərdə özünü göstərir. Q. Qiorqadze qaşqay dilindəki *-xa* şəkilçisini *-ka* ilə bağlamaqda haqlıdır: *Kummesma-xa, Tasma-xa, Samma-xa, Kumma-xa* (Гиоргадзе, 1961, 202);

Qaşqay dilində *-sa//-şa* (Qurtalissa, Tamettasa, Qakiussa), *-ta//-da* (Takkumitta, Kis-mitta, Taqqasta), *-ra* (Kannuvara, Tivara) kimi topoformantlar da vardır.

bura gələn nesitlərin içində dilini itirib ərisə də, qaşqaylar etnik özəlliyini və adını m.ö.VIII əsrin ortalarına qədər qoruya bilmişlər. Həmin çağda bura gələn, daha doğrusu qayıdan, *qamər* boylarına qarışmışlar. Onların böyük bir hissəsi isə Azərbaycana qayıtmışdır. Qaşqay-qamər əlaqələri türk etnik tarixi baxımından çox önəmlidir, çünki Anadolu qaşqaylarında *qamər* etnoniminin işlənməsi diqqəti çəkir. Belə ki, bu söz hələ qamər boyları Azaq yaxasından Anadoluya gəlməmişdən çox qabaq burada görünürsə, deməli, qamərlər vaxtilə saqa boyları kimi, bu bölgələrdən quzeyə getmişlər. *Kapperi* sözünü isə *Kammeri* şəklində də oxumaq olar, çünki het yazısında qaşqay sözlərinin *p/m* səsləri bəzən dolaşıq salınır.[444]

Anadoluda ilk asurdilli və sonrakı hetdilli yazılı qaynaqlardan bəlli olan qaşqay onomastikasının, *qaşqay* adının və qaşqay dilindən hat və het dillərinə keçib, dini ritual mətnlərində işlənən ^{D}*Kaşka* «Ay tanrısı», *qut* «ruh» kimi sözlərin dilçilik yozumu aydın göstərir ki, 3-4 minil bundan öncə adı minil boyu tarixi sənədlərdə hallanan qaşqaylar türk boyu idi.

2. Het

III minilin sonunda və ya II minilin başlarında Kiçik Asiyanın batı bölgələrinə girən hindavropa dilli het, luvi boyları burada sürətlə inkişaf etməkdə olan mədəniyəti xeyli geri saldı.[445] Yuxarıda deyildiyi kimi, *het* adını yerli hatlardan mənimsəyən nesit boyları az sonra burada qüdrətli dövlət qurdular. Het dövlətinin tarixi 1740-dan I Tutxaliya (1460-1440) adlı çara qədər «qədim çarlıq» dövrünü əhatə edir, 1200-cü illərə qədər davam edən sonrakı dövr isə imperiya kimi səciyələnir.[446] Məhz bu dövr Het dövlətinin ətraf ölkələri zəbt etməsi ilə seçilir.

---

[444] Гиоргадзе, 1961, 208; Bu baxımdan, *Kammeri* adı *Qamər* (Kimmer) ilə bağlıdır, çünki Boğazköy qaynaqlarında bu ad *Kamari-pi* şəklində işlənir (Ertem, 1973, 64); Buradakı *-pi* şəkilçisi isə kaspi, lulubi, ellipi kimi etnonimlərdə gördüyümüz topluluq bildirən şəkilçidir. İranda yaşayan indiki qaşqayların tərkibində də *qamər* adlı tayfalar vardır (Trubeükoy, 1963). Bu fakt irəli sürdüyümüz ehtimalın tutumunu bir daha artırır.

[445] ИДВ, 1988, 38.

[446] Герни, 1987, 190.

Hetlər hurrilərin yaşadığı *Haleb* (Hələb) şəhərini almaq və Misirə gedən yola nəzarət etmək istəyirlər.[447] Bu bölgədə onların 1650-1630-cu illər arasında buraxdığı dağıntı izləri çağdaş arxeoloqların diqqətindən yayınmamışdır. Həmin çağda Halebin quzey müttəfiqi Urşu bölgəsi hetlər tərəfindən tutulmuşdu. Hetlər batı qonşuları Arsava çarlığı ilə də müharibə edib, dəniz limanlarını öz nəzarətləri altına almaq istəyirdilər. Onlar hətta çox uzaq məsafədə yerləşən Babilə hücum edib, Hammurapi hakimiyətinə son qoymuşlar, lakin bu birdəfəlik yürüş idi. Beləliklə, hetlər Orta Anadoludan Suriyanın quzey bölgələrinə qədər geniş əraziləri ələ alıb, qurduqları dövləti II minilin ortalarından sonra Ön Asiyanın qüdrətli dövlətinə çevirmişdilər.

Het dilində m.ö. XV-XII əsrlərə aid xeyli heroqlif və mixi yazılı qaynaq vardır.[448] Prototürk boylarının batı qonşuluğunda baş verən müharibələr haqqında bilgi əldə etmək, o dövrün tarixi çoğrafiyasını bərpa etmək, dövlətlərarası münasibətləri öyrənmək üçün bu sənədlərin böyük əhəmiyəti vardır. Arxeoloji kulturda görünən əlaqələrin yazılı qaynaqda axtarılmasına yardım edən bəlgələr, burada işlənən hər bir türk sözünün tarixi əhəmiyəti vardır. Hat mədəniyətini mənimsəyən hetlər burada işlənən sosial terminləri də qəbul etmişlər: *tabarna* (çar), tavannana (xatun), *tuxkanti* (prins). Hat folklorundakı tufan tanrısı ilə ilanın (*illuyan*) qarşıdurma motivini əks etdirən het mətnində İnara tanrı *Tarukke* qayasında ev tikdirir. Buradakı *taruk* sözü və het mətnlərində teonim kimi işlənən *Tarxu, Tarku* sözü önəmlidir.[449] Tufan tanrısının *Taru* adını, guman ki,

---

[447] Haleb sonralar Aleppo şəklində işlənmişdir. Bu toponimin hurrilərlə ittifaqda olan mitan və ya başqa bir türk boyunun *alıp* (alp) sözü ilə ortaya çıxdığını düşünmək olar, çünki həmin bölgələrdə türklərlə bağlı *Oğuz-evi* (Bit-Aqusa), *Qarqar*, bir az yuxarıda *Kumuq, Koman* və ora yaxın olan Kilikiya tərəfdə *Qaratepa, Tarsus* yeradları yayğın idi. Anadolunun quzey-doğu bölgələrində *alp* adı məşhur dəmirçilər kimi tanınan *halıb* (xalib) boylarının adında da görünür. Bu bölgədə Qara-təpə toponiminin yerini dəqiqləşdirmək çətindir, çünki Misir heroqlifi ilə m.ö.IV əsrdə yazılmış sənəddə Karatepe(t) adı iki dəfə çəkilsə də, dəqiq yeri bəlli deyil (ХПИДВ, 1980, 139); Boğazköy yazısında keçən Kara[tapa] toponimi də (Ertem, 1973) onu müəyyən etməyə imkan vermir.

[448] Дунаевская, 1969, 19-21; Маккуин, 1983; Герни, 1987; Ертем, 1973.

[449] Bu sözün önəmini yaxşı anlayan «avropasentristlər» onu luvi sözü kimi verməyə çalışırlar. Bəs bura Avropadan gəlmə luvilərin ayağı dəyməyən Sibirə qədər yayılmış bu teonimin luvilərdən öncə İkiçayarasında işlənməsinə necə göz yummaq olar?

hatlardan almışlar. Het mətnlərində işlənən türk sözü, daha doğrusu, het dilində alınma türkizmlər bunlardır:

türk	het	anlamı
ad	*atima*	heroqlif yazıda (Дунаевская, 1969, 67)
ara(maq)	*aria*	qeybdən xəbər vermə, peyğəmbərlik
ata	*atta*	ata
ana	*anna*	ana (Anadoluda *anne* deyimi saxlanıb)
pir	*pir*	bir soya aid ailə, «ocaq»
bars	*parşana*	bars (leopard)
de-	*te-*	danışmaq, demək
karı, qarı	*karuili, karili*	qarı, qoca
kap, qab	*kapi, qapi, gapi*	qab
kañ, kanq	*xuli-kanni*	araba
ilan	*illuyan*	ilan (hat > het)
təbər	*tabarna*	çar, hökmdar (hat > het)

Het dilində xeyli türkizmlər vardır, lakin uzmanlar bu alınmaların üzərindən sükutla keçməyi üstün tuturlar. Belə ki, S. L. Nikolayeva het dilində qafqazdilli sözlər axtaranda avar, çeçen, inquş, rutul, qırız və sair dillərdəki «qab» sözü ilə (əslində, bu dillərdə türkcədən alınmadır) het dilindəki *kapi* (qab) sözünün paralelliyini örnək verir, lakin türk dilinin adını belə çəkmir.[450] Başqa bir uzman isə, türk olmasına baxmayaraq, öz əli ilə yazdığı «parfüme dolu *kappi kabı*» və ya «göründügü gibi, *kappi kabını* kullanan görevli» kimi deyimlərdə hər iki dilin *qab* sözünü yanaşı işlətsə belə, bunların eyni söz olduğunu görmək üçün «Avrosentrizm» ovsunundan çıxa bilmir. Halbuki, *kapi* sözünün urartularda ölçü vahidi kimi işləndiyini də bilir.[451] Bax, atalar burada deyib - «get əlindən gələni beş qaba çək».

3. Hurri

Kür-Araz kulturu dağılandan sonra Qədim Azərbaycanın batı sınırlarının ötəsində Doğu-Anadolu torpaqlarına *hurri* adlı yeni etnosun gəlib məskunlaşması arxeoloji və yazılı bəlgələrlə müşahidə olunur. Hurrilərin qurduğu Mitan dövləti ərazilərindən müasir Ermənistanın batı və Güney Gürcüstan sınırına qədər II minil boyu oxşar tikintilər, keramika və silah

[450] ДА, 1985, 63.

[451] Coşkun, 1979, 34.

tipləri göstərir ki, burada etnik baxımdan yaxın boylar yaşamışdır.[452] Əslində, belə də olmalıydı, çünki hurrilər qafqazdilli xalq idi və Gürcüstan üzərindən onların Anadoluya axını prosesində bəzi tayfaların əlverişli yerlərdə qalıb məskunlaşması təbii idi. Görünür, het mətnlərində adı çəkilən xay-azzi boyları da həmin köçdən qırılıb, *Çorox* (Çoruk) çayı hövzəsində qalmışdılar. Sonralar burada yaranmış Kolxida dövlətini quranların kökü də Quzey Qafqazdan gələn qafqazdilli boylarla bağlı ola bilər. İkçayarasının quzeyində isə hurrilər türk boyları matienlərlə konfederasiya təşkil edib, m.ö. II minilin ortalarında böyük Mitan dövlətini qurmuşlar.

Hurrilərin Ön Asiyaya gəlişi Türk tarixi baxımından böyük önəm daşıyır. Belə ki, böyüməkdə olan Het dövləti ilə Azərbaycan arasında hurri boylarının yerləşməsi hetlərin Azərbaycana doğru yayılmasının və Asur dövlətinin isə quzey yöndə böyüməsinin qarşısını aldı. Yerli subar boyları hurrilərə xilaskar qüvvə kimi baxır, subar məskənlərində onların yerləşməsi üçün şərait yaradırdılar. Hurrilər subar boylarından olan matienlər (sonrakı *müytenlər*) ilə birləşib konfederativ dövlət qurdular. Bu dövlətin adı Mitan olsa da, onu yönətən hurrilər idi. Mitan qısa vaxtda İkiçayarasının və Suriyanın quzey bölgələrini əhatə edən güclü dövlətə çevrildi.

Mitan dövləti ilə sərhədi olmayan bəzi bölgələr də onun hakimiyəti altına girirdi. Görünür, *Nuzi* (Kərkük) şəhəri də ətraf yaşayış məskənləri ilə birlikdə buradan xeyli aralıda olan Mitanin canişinliyi idi və burada hurri koloniyası yaranmışdı. Nuzi arxivindən çıxan mixi yazılarda hurri feodal ailəsinin təsərrüfatı haqqında geniş məlumat vardır. Burada həm də lulu, hurri, akad və kassi dillərini bilən dilmancların *tarquman* yox, *tarqumanzu* (tərcümə-çi) adlanması diqqəti çəkir.[453] Həmin yazılarda maraqlı qadın adları vardır: Tulbunaya, Tilunaya, Xinzuraya. Azər qızları *Tulunay* adını bugün də daşıyır, *Xinzuraya* isə hurricə qız adı üçün çox uyumlu olan *Alma* adının tərcüməsidir.[454] Kərkük bölgəsində sonralar izi görünməyən hurrilərin sayı burada çox deyildi. Mitan dövləti dağılandan sonra burada hurri koloniyasını təşkil edən məmur, feodal və tacir hurri ailələri geri qayıtmış, ya da yerli əhaliyə qarışıb dilini itirmişdir.

---

[452] ИДВ, 1988, 90.

[453] ПС, IV, 1986, 37-68.

[454] Nuzi yazılarında Sini-kişi, Ar-Teşub, Xud-Teşub, Kibi-Teşub, Xudi-Buryaş, Xudi, Xudiya kimi adlara rast gəlmək olur ki, bu adların tərkibində türk sözləri *kişi, ar* (ər), *kibi* (kimi), *xud* (qut), ortaq kassi-türk adı (*Xudu*) və kassi adı (*Buryaş*) işlənmişdir.

Hetlər 1360-da Mitan dövlətini dağıtdı. Bir əsr sonra isə Mitan dövlətinə tabe olan ərazilərin çox hissəsi artıq asurların əlində idi. Het-Asur nəzarətindən kənarda qalan bölgələr isə kiçik siyasi qurumlara çevrilmişdi. Hurri-Mitan dövləti dağılandan sonra asur qaynaqları Van hövzəsində yaranmış çoxlu kiçik bölgə bəyliklərinin ümumi adı kimi Nairi deyimini işlədirdi. Sonralar burada Urartu dövləti yarandı. Hurri-urartu tayfalarının bir qismi isə daha sonralar bura gələn haylara qarışdı.

Hurrilərin Doğu Anadolu və Azərbaycanda məskunlaşma tarixinin dəqiqləşməsi Azərbaycanın etnik tarixi baxımından çox önəmlidir, çünki bir neçə əsr də olsa, bu tarixin qədimə çəkilməsi elmdə böyük dolaşıqlıq yaratmış, subar sözləri hurrilərə aid edilmişdir.[455] Hurrilərin İkiçayarasına gəlmə xalq olması, ən azı, özünü onda göstərir ki, bütün Ön Asiya xalqlarından fərqli olaraq, hurrilər Dəclə çayına *Arantsax* deyirdilər.

İkiçayarasında hurrilərin III minilin sonunda olmasını guya XXIV-XXIII əsrlərə aid olan iki yazı təsdiq edir. Bu yazılardan biri Dəclənin orta axarındakı Samarrada tapılan və üzərində *«Urkiş və Navar çarı Ariseni»* yazılmış lövhədir. Əvvəla, bu yazı akadcadır, ikincisi də, *Arijena* kimi oxunan bu subar şəxs adı sonralar *Arcan, Ərcan* kimi türklərdə yayılmış addır, üçüncüsü də, buradakı Navar sonra akad-asur yazılarında adı keçən Diyala çayı yaxasındakı Namru (bunu heç kim inkar etmir) bölgəsidir ki, bu da əvvəllər lulu, sonralar kassi tayfalarının məskunlaşdığı ərazidir. Yazının aid edildiyi çağlarda bu ərazilər lulu və qutların nəzarəti altında idi, bura meydanda olmayan hurri çarına tabe ola bilməzdi. Urkiş bölgəsi isə İkiçayarasının quzeyindədir. Hurrilərə aid edilən ikinci yazı Luvr muzeyindəki daş kitabədir. Neçə illərdir ki, buradakı 3-4

---

[455] Tarixçilərimiz hələ də yazır ki, eradan əvvəl III minilin son rübündə hurrilər Güney Azərbaycan bölgələrində olmuşlar, çünki onların Dəclə yaxasında qədim dövrlərdən yazısı qalmışdır. Əlbəttə, Q. A. Melikişvilinin qafqazdilli xalqın tarixini İkiçayarasında qədimə çəkməsini başa düşmək olar, bəs bizim tarixçilərin bu mövqeyini necə qəbul edək? Mitan dövləti zamanında hurrilərin indiki Kərkük bölgəsində koloniyasının olduğunu heç kim inkar etmir, lakin bunun göstərilən minilliyə dəxli yoxdur. Hətta ilk asur çarları Kikia və Uşpianın subar adı daşıdığını və hurrilərin bu ərazilərə III minildə yox, II minildə gəldiyini «Midiya tarixi» (səh. 57) əsərində söyləyən akademik İ. Əliyev indi subarlara aid bəlgələri hurrilərə aid etməklə hansı məqsədi daşıyır? Məqsəd aydındır, subarlardan qafqazdilli etnik tarixə çıxış yoxdur, hurrilər isə qafqazdillidir. Həm də tarixçilərimiz üçün «Mana dövründə hurrilərin üstün etnik qrup olması» (AT, 1998, 167) fikrini söyləməyə, hurri-urartu yazılarından utilərə, onlardan da Albaniya ərazilərinə çıxmağa, hətta qut və etruskları da qafqazdilli etməyə (AT, 1998, 168) imkan açılır. Bu məsələ üzərində ona görə dayandım ki, hurri tarixinin 5-6 əsr əvvələ çəkilməsi fikrini yazılarına hörmət etdiyim türk alimi Ş.Günaltay İkiçayarası tarixinə aid kitabında (1937) və Y.Yusifov da Moskvada çap olunan məqaləsində fərqinə varmadan qəbul etmişlər (ВДИ, №1, 1987).

cümləlik yazını zorla hurricə oxumaq istəyirlər. Bunun nə dərəcədə hurricə olmasını görmək üçün, heç olmasa, birinci cümləni nəzərdən keçirək:

Tişari endan Urkiş^{ki} purli ^{d}Piriqal bahaştum.[456]

Əvvəla, burada *Tişari, Urkiş, Piriqal* kimi onomastik sözləri çıxanda, yerdə qalan *endan, purli, bahaştum* sözləri hurri dilində yoxdur, ikincisi də, cümlənin mübtədası hesab edilən Tişari adında hurricə işlənməli olan erqativ halın şəkilçisi yoxdur. Bəs bu cümləni hurricə necə oxuyurlar? Əslində, oxumurlar, fal açırlar; madam ki, onomastik sözlərin şəxs-ölkə-tanrı ardıcıllığı var, deməli, filan adam filan ölkədə filan tanrıya məbəd ucaldıb. Ancaq müəyənləşdirə bilmirlər, bu adam çardır (İ. M. Dyakonov), yoxsa yüksək rütbəli rahibədir (E. Lyarş). Dəxli yoxdur, təki Azərbaycanda hurrilərin tarixi qədim olsun, bizim tarixçilər də bunu dəstəkləyib, «*e.ə.II minillikdə hurrilər Urmiya ətrafı ərazidə yaşayırdılar*» deyimi kimi, elmi əsası olmayan bir fikir söyləsin.[457]

Hurri damğasında insan qurbanı səhnəsi

Qızıl cam üzərində cizgi rəsmi

Hörmətli tarixçilərimizin iddiasını təsdiq edən əsas fakt guya m.ö. XVII-XVI əsrlərdə Güney Azərbaycan ərazisində mövcud olmuş hurri-ari kontaktıdır. Həmin çağda Azərbaycanda olmayan arilərlə hansı hurri boyu əlaqədə ola bilərdi? Əgər belə bir əlaqə olmuşsa, Het ölkəsində və ya Fərat çayı qıyılarında baş tuta bilərdi, bunun Güney Azərbaycana nə dəxli var? Kərkük bölgəsində hurri koloniyası ilə də belə kontakt mümkün deyildi, çünki irani dildə danışanların ayağı buralara ilk dəfə göstərilən tarixdən minil sonra dəymişdir.

Hurri çarı Tuşrattanın XIV əsrin əvvəlində Misir fironu III Amenxotepə yazdığı geniş mətnli məktubu qalıb, onun ilk 7 sətri akad, sonrakı 490-a qədər sətiri isə hurri dilindədir. Het arxivlərindən də bir neçə hurri mətni tapılıb. Mitan-Het dövlətləri arasında qarşıdurmalar olsa da, hurri kulturunun hetlər arasında yayğın olduğunu görmək olur. Dünyada ilk

[456] Нозадзе, 1978, 29.

[457] AT, 1998, 167.

boyalı şüşə qablar hurrilər olan ərazilərdə ortaya çıxıb.[458] Bizə gəlib çatan sənədlərdə hurri sözlərinin sayı az olduğundan, burada hurri-türk paralelləri də azdır:

türk	hurri
ata	*attai* «ata»
indi	*undu* «bu çağ» (Дьяконов, 1967, 158)
daş	*taşe* «heykəl» (Капанцян, II, 1975, 308)
eşşək	*eşşi* «at»

Lakin türkizmlərin azlığına baxmayaraq, hurri-türk əlaqələri baxımından bunlar əhəmiyətlidir, çünki hurri dilinin öz sözləri də çox deyil. Hurri dilində *eni* «tanrı», *Kuşux/Kuşax* «Ay tanrısı», *tarşuanni* «adam», *ibri* «çar», *aşti* «qadın», *eşe* «göy/səma», *arte* «şəhər», *ammati* «baba» və sair bu kimi sosial və inanc terminləri işlənir, bu dilin qramatik qanun və qaydaları türk dilindən fərqlənir. Hurrilərdə insan qurbanı gələnəyi də vardı. Bunları ona görə vurğulayıram ki, hurri tarixini bilməyən bəzi türk yazarları onları türk sayır.[459] Ancaq hurri-türk əlaqəsini öyrənmək çox önəmlidir, çünki Mitan dövləti çağında hürrilərlə sıx işbirliyində olan və hətta, dövlətin adında izi qalan, sonralar isə Azərbaycan üzərindən Orta Asiyaya keçən *müyten* (mitan) boyunun qədim tarixi hurrilərin tarixi ilə bağlıdır. Bundan başqa, hurrilərin at oynatdığı ərazilərin çoxunda türk boyları vardı və bu boylardan bəzisi artıq hurri-türk qarışığına çevrilirdi. Hurrilərin Ön Asiyada türk boyları ilə yaxın əlaqəsi bir az sonra haqqında danışacağımız Anadoludan İtaliyaya köçən etruskların dilində əks olunmuşdur. Belə ki, V.V. İvanov xeyli hurri-etrusk paralelləri verir: hurricə *allai* «xanım», etruskca *ali* «xanım», *Uni-ali* «Venera xanım»;

---

458 ИДВ, 1988, 88.

459 Bu gedişlə nə vaxtsa türklərlə kontaktda olmuş xalqların onca faizini türk saysaq, dünyada türk olmayan çox az xalq qalar. Hurri dilini öyrənmək isə türkoloqlar üçün vacibdir. Məsələn, türkcənin *daş* sözü hurri dilində «heykəl» (*taşe*) anlamında işlənirsə, deməli, qədim qaynaqlarda rast gəldiyimiz ^{d}Kuara-taşe toponimi qarşımıza hunlarda işlənən Quər adlı iyənin heykəli və ya daş tapınağı olan yeradını çıxarır. Bəzi yazarlar III Ur sülaləsi çağına aid sənədlərdə keçən Ba-qa-r'i, Ki-la-ri, Beli-a-ri-ik, Ari-meme, Ankişatal, Aripatal, Putuk kimi şəxs adlarını hurri sayır, halbuki bunlar subar adlarıdır və *Beli-arıq* (İncəbel) adında olduğu kimi, digərlərinin də subar-türk dilində yozumu vardır. Başqa yazılarda da hurri adı kimi verilən Arijen, Daşuk, Kaltuk, Siluk, İkit(a), Puta, Dada, Umbin-Api, Tigin-ari, Tigin-atal, Dati-giza və sair adlar da hurricə deyil, türkcə yozula bilir.

hurricə *puri* «qul», etruskca *pura* qul adlarının tərkibində və latın dilində etruskdan alınma *puer* «oğlan»; hurri-urartu dillərində *hari//hare* «yol», çeçencə *ūram* «küçə», etruskca **arn-* (>latınca *arena*); hurricə *ese* «göy», «tanrı», etruskca *eis* «tanrı», *aiser* «tanrılar», *usil* «Günəş»; hurricə *sawali* «il», etruskca *awil* «il» və b. [460]

Göründüyü kimi, qafqazdilli hurrilər Ön Asiyaya gəlib, Suriyanın quzey bölgələrinə yerləşəndən sonra buradakı türk boyları ilə sıx əlaqə qurmuşlar. Əgər etrusk-hurri paralelləri dərindən tədqiq edilib, müsbət nəticə əldə olunarsa, onda bugünəcən müəmmalı qalan etrusk problemi də aydınlaşar. Türk dilinə aid əlamətlərin daha qabarıq göründüyü etrusk dili belə nəticə çıxarmağa imkan verir ki, türk soylu etruskların İtaliyaya köçməmişdən öncə hurrilərlə qarışması türk dili ağırlığı ilə yeni qarışıq bir dildə danışan etrusk (tursa) xalqının formalaşmasına səbəb olmuşdur. Bu prosesin nə vaxt və hansı bölgədə başlandığını bilməsək də, m.ö. X-IX əsrlərdə Troyadan uzaq olmayan Ege sahili bölgəsində başa çatdığını söyləmək olar. Cünki etrusklar həmin çağda buradan İtaliyaya köçmüşlər.

Mitan dövləti dağılandan sonra hurrilər də müxtəlif bölgələrə səpələnmişlər. Hurrilərin Teşub adlı tanrısı sonralar hurrilərlə dil qohumluğu olan urartular içində populyar olsa da, hurrilərlə qarışan subar türklərinin şəxs adlarında, özəlliklə, İkiçayarasının quzeyində yaranan Subar bəyliyi hökmdarının soy adlarında işlənmişdir. [461] Het çarı III Mursili (1296-1289) də Urxi-Teşub ləqəbini daşımışdır.

4. Urartu

Urmu gölünün batı və quzey-batı bölgələri ilə Van gölü hövzəsi asur yazılarında bəzən *Nairi* ölkəsi kimi verilirdi. [462] Van gölü

---

[460] Иванов, 1988, 208-218.

[461] Urartu dilində bu teonimin *Teyşeba* kimi işlənməsi Teşub/Teyşeb prototipini ortaya çıxarır ki, bu da yerli əhalinin dilində tapınaq yeri anlamında işlənə bilən *Taş-eb (*daş-ev) deyimi ola bilər. Altayda da Taşeb kurqanları vardır. Hurrilərin baş tanrısı Kumarve idi, lakin yerli Kubaba, Ujxara və U.GUR şəklində yazılıb, oxunuşu bilinməyən tanrılara da sitayiş edirdilər.

[462] Qaynaqlarda Van gölü «Nairi ölkəsinin yuxarı dənizi» (*tamtu elitu ša matāti Nairi*), Urmu gölü isə «Nairi ölkəsinin aşağı dənizi» (*tamtu šaplitu ša matāti Nairi*) adlanırdı. Əgər *nairi* söznün samicə *nəhr* ilə əlaqəsi varsa, onda bu söz türkcənin *Su* (*Sub*) *ölkəsi* deyiminin asurca tərcüməsidir.

yaxınlığında Urartu ölkəsinin adı ilk dəfə *Uruatri* bölgəsi kimi m.ö. XIII əsrdə I Salmanasarın yazısında qeyd olunmuşdur. Hurri dövləti dağılandan sonra bu ərazilərdə çoxlu kiçik bəyliklər yaranmışdı. Sonralar Van gölü hövzəsinə qafqazdilli boyların ikinci böyük axını başlayır və guman ki, bu yeni gələnlər çeçen-inquş xalqının ulu əcdadı idi.[463] Onlar hurri boylarından qalmış qohum əhali ilə burada qarışıb, m.ö. IX əsrdə Ön Asiyanın qüdrətli dövlətlərindən birini qura bildilər. Urartu adlanan bu dövlət m.ö.VII əsrə qədər yaşadı. Doğu-Anadolu və Göyçə gölü ilə Urmu gölü arasında türk torpaqlarını zəbt edən urartu çarlarının çoxlu yazıları qalıb.[464] Türk boylarının Urartu çağındakı tarixi çoğrafiyasını bərpa etməyə yardımçı olan urartudilli yazılardakı onomastik material və türk-urartu leksik paralelləri, urartu dilinə keçən türk sözləri gərəkli qaynaqdır.[465]

Haylar keçmişdə özlərinə erməni demədiyi kimi, urartular da heç vaxt özlərini *urartu* adlandırmamışlar. O çağlarda yerli türk dialektlərinin birində *Bia* adlanan Van gölü yaxalarında yerləşdiyi üçün özlərini yazılarında *Biainili* «Vanlı» kimi təqdim edirdilər.[466] Urartuların dilində *Biain* şəklində işlənən bu gölün adı sonralar *Van* formasına düşmüşdür. *Urartu* sözü isə yerli subar türklərinin dilində *ur-artı* tərkibi ilə işlənən coğrafi addır.[467] İlk dəfə asur qaynağında yanlış (*Uruatri*) yazılan bu ad

---

[463] Urartu dili daha çox udilərin dili ilə müqayisə olunmuşdur (Пайазат, 1936), lakin İrəvan-Naxçıvan arası toponimlərlə Çeçen onomastikasındakı çoxsaylı paralellik (Vedi-Vedeno, Arqu-Arqun, Naxçıvan-naxçı boyu və s.) urartu-çeçen ilişkisini ortaya qoyur.

[464] Yazılar tapılan bəzi yeradları *Karmir-blur* (Qırmızıtəpə), *Arin-berd* (Qanlıtəpə) şəklində sonradan dəyişdirilsə də, əksəri türk adını saxlamışdır: *Topraxkala, Mher-qapısı, Taştəpə, Yazılıdaş, Xotanlı, Dəlibaba, Başbulaq, Ördəkli, Daşkörpü, Qızılqaya, Adıyaman, Topuzava* və b. (АВИИУ, 1951; Мещанинов, 1978).

[465] Ъялилов, 1988, 40-41.

[466] Əslində, *Bia* adına mənsubiyət (-ini) və cəmlik (-li) şəkilçisi qoşulduğundan Biainili «vanlılar» anlamı verir (Меликишвили, 1954, 22);

Qədimdə Urmu hövzəsində *Buya* adlı çay da vardı (АВИИУ, № 49, 6); «Su anbarı» anlamında bulqar-tatar dili və dialektlərində *biya, bua, buy* və *Bi-küle* (Bi-gölü), kumuk və başqord dilində *bıya, buvqan* sözləri işlənir (Гарипова, 1991, 30-32, 50, 63, 74); *Bia*, *Bua* axarsu adlarını bulqarlar İtil hövzəsinə, doğuya miqrasiya edən türklər də onu Yenisey hövzəsinə aparmışlar (ЕАМТИЛ, 71-72); Cağatay dilində isə *buy* sözü sahil anlamında işlənmişdir (Мурзаев, 1984 , 99).

[467] Türk dillərində *ur//or* sözü «çuxur» anlamından «təpəcik» anlamına qədər müxtəlif məna çalarları ilə toponimlərdə işlənir, toponimlərin tərkibində *art* sözü də «aşırım»,

sonrakı yazılarda düzgün verilmişdir. Bisütun yazısının pers variantında *Uraştu* Ermən bölgəsini bildirir. Bu adın *Ararat* variantı isə Bibliyada ’RRT [*urartu*] yazılışının yanlış [*ararat*] oxunuşu ilə yayılmışdır.

Beləliklə, Qafqaz dağlarının arxasından gəlib, Van yaxasında yerləşən urartular buradakı hurrilərə qarışıb gücləndilər və m.ö. IX əsrdən artıq kiçik urartu bəyliklərinin birliyi - Urartu çarlığı şəklində asurların yazısında qeyd olunur və həmin əsrin ortalarında Arame urartuların çarı kimi verilir. Urartuların baş şəhəri *Tuşpa* (Van şəhəri) idi. Qaynaqlar bu çardan sonra Lutipri oğlu I Sardurun və onun oğlu İşpuininin adlarını çəkir.[468] İşpuinidən sonra oğlu Menua (810-787), sonra onun oğlu I Argişti (786-764) və onun oğlu II Sarduri (764-735) çar olur. Son üç çarın çoxlu yürüşləri olmuş və ətraf ölkələrin işğalı ilə yekunlaşan bü yürüşlərə aid yazıları qalmışdır. Əvvəllər Urartu çarlarının yazısı asur dilində idi, sonralar isə mixi yazını urartu dilinə uyğunlaşdırıb, bu dildə yazmışlar. Urartu çarı I Rusanın (735-714) özünü öldürməsi ilə nəticələnən Asur-Urartu müharibəsindən «II Sarqonun Azərbaycana yürüşü» başlığı ilə geniş bilgi vermiş, yürüş marşrutu boyu türk bölgələri haqqında danışmışdıq. Azərbaycan bölgələrini ələ keçirmək və ya asılı bölgəyə çevirmək uğrunda çox vaxt Asur və Urartu dövlətləri bir-biri ilə qanlı müharibələr aparırdı. Bu savaşların acısını isə azər boyları çəkirdi.

I Rusa asurlara məğlub olana qədər o və ondan əvvəlki Urartu çarları ətraf ölkələrə dəfələrlə boyük yürüşlər edib, qənimətlə qayıtmış və yaxın bölgələrin çoxunu zəbt edib, Urartu ərazisinə çevirmişdilər. Doğu-Anadolu bütövlükdə onların nəzarəti altında idi. Urmu ilə Göycə gölləri arasındakı ərazilər də çox vaxt Urartudan asılı duruma düşürdü. I Rusanın ölümündən sonra urartulara II Argişti (714-685), II Rusa (685-645), III və IV Sardur, Erimen və oğlu III Rusa başçılıq etmişdir. Lakin bu çağlarda gəlib Doğu Anadoluya yerləşən qamər (kimmer) boyları, onların ardınca gəlib, Urmu ilə Göycə gölləri arasında oturan saqalar (skit) urartuları zəbt etdiyi torpaqlardan qovaraq, Van yaxalarına sıxışdırmışdılar.

«bel», «arxa» anlamları ilə iştirak edir (Murzaev, 1984, 56, 415-416). Urartu ölkəsindən aşağıda Ərbil şəhərinin adı da həmin model ilə yaranmışdır; onun akad dilində yazılışı bunu açıq göstərir: *Urbili-um* (Ur-bel-i > Erbil).

[468] Bəzi yazarlar Lutipr ilə o çağlarda Urartudan xeyli uzaqda olan Kaşiyar dağı tərəfdə bölgəbəyi Tubusi (oğlu) Lapturi adını qarışıq salır (Çilingiroğlu, 25); Əski subar yurdu olan bu bölgədə həmin adın *Topuz oğlu Alpturı* ola bilməsi (Ş.Günaltay) yozumu da var.

Əsasən Van gölünün quzey və doğu yaxalarında məskunlaşan urartu toplumunun bir hissəsi də Urmu gölündən batıda yerləşmişdi. Böyük və Kiçik Zab çaylarının yuxarı axarında olan bu bölgəyə urartular Ardini deyir, asurlar isə yazılarında onu Musasir «ilan çıxan» adı ilə verirdi. Urartu boylarının Haldi adlı baş tanrısına məxsus məbəd də burada idi. Musasir müəyyən çağlarda Urartu hakimiyətinə tabe olsa da, çox vaxt asur yazılarında ayrıca bəylik kimi qeyd olunur. Bu iki bölgəyə yerləşən urartu boyları arasında dialekt fərqi ola bilərdi, belə ki, asur yazılarında urartuca eyni Rusa adını daşıyan urartu çarı *Ursa*, Musasir bəyi isə *Urzan* kimi verilir.

Urartu ordularının yürüşlərini əks etdirən yazılar aydın göstərir ki, urartu toplumu hər yandan türk boyları ilə əhatə olunmuşdur. Urartular «*düşmən Aza ölkəsi*» adlandırdığı İrəvan çuxurunu işğal edəndən sonra burada hərbi qarnizon yerləşdirmək üçün qala və şəhərlər tikdilər. İndiki Qanlı-təpə (Arin-berd) üzərində əskərlər üçün qarnizon qalası (*er-ebi*) «ərən evi» kimi tikilən Erebuni (*İrəvən*) qalası da m.ö.782-də salındı.[469] İrəvan çuxuru Urartudan öncə Kuər çuxuru, Saqa dövləti çağından isə Saqat çuxuru adlanır. Ona görə də, türkcə çox qədim yaşı olan İrəvan adının bir neçə əsr bundan öncə yaşamış, özü türk olsa da, adı farsca olan Rəvanquluya heç bir dəxli olmadığı kimi, Çuxur-Saqat adının qondarma

[469] Yeri gəlmişkən deyim ki, bizim bəzi «alimlər» m.ö. 780-ci illərdə salınan İrəvanın adını burada 2500 ildən sonra yaşamış Rəvənqulu xanın adı ilə «izah» edirlər. Halbuki müasir İrəvanın «Qanlı-təpə məhəlləsində *ərən* (əskər) qarnizonu üçün salınmış, bir əsr sonra saqa ordusu tədəfindən dağıdılıb-yandırıldığı üçün xarabalığı *qanlıtəpə* adlanan Er-ebu-ni (İrpuini) qalasının mənası «Ərən-qala» deməkdir; qədim azər türkcəsində *er-ebi* «ər-evi» (ərən evi), adın sonluğu isə urartu dilində yeradlarına qoşulan şəkilçidir. Bura gələn haylar yerli deyimi hayca *Arin-berd* «Ərin qalası» şəklində işlətmişlər. Yerli türklər urartuların işlətdiyi qədim *İrebuni* adını *İrəvan* şəklində günümüzəcən yaşatmışlar.

Çuxur-Sə'd şəklində yazılması da yanlışdır, bu ad rus, hay qaynaqlarında *Sakat* kimi qeyd olunur. Sakat adı isə sonrakı saatlı boylarının adında və Pir-Sahat yeradında təkrar olunmuşdur. Hurri dili kimi, urartu dili sözlərinin az olmasına baxmayaraq, bəzi türk-urartu paralellərini seçmək olur:

türk	urartu	anlamı
baba-(dağ)	*baba*	dağ
mən	*me(n)*	mən (I şəxs əvəzliyi)
su	*tsu*	su, göl, dəniz
sıra	*şer-i*	sıra
tut-	*tu-*	tutmaq, əsir almaq
de-	*ti-*	demək, danışmaq
apar-	*par-*	aparmaq (*al-par >apar)
ər (kişi)	*ir, er-i, eir*	xalq
ərsə (ərçə)	*ar-şe*	gənc
uruq	*urudan-i*	soy, nəsil
qab	*kap-i*	qab, ölçü, çəki vahidi
çən	*şan-i*	qab
eb (ev, oba)	*eb-an-i*	bölgə, ölkə
abad	*abad-i*	məbəd, yaşayış məskəni
gözəl	*gazul-i*	gözəl, yaraşıqlı

O çağlarda urartu yazılarının qeyd etdiyi kimi, Arazdan yuxarıda *az* (sonrakı *azər*), *ulduz* (ultuza) boylarının yaşadığı ərazilər «Kuarli ölkəsi» adlanırdı.[470] Ola bilsin ki, *kuərli*, *kuarçi* (kuarzi) sözləri etnonim yox, lulu və hunlar kimi, Kuərə (*Kuər*) tapınan boylara verilən ümumi addır. Arame vaxtında çarın əsas şəhəri kimi *Arzaşku* şəhərinin adı çəkilir. Araz çayı ilə Mərənd arasında olan bu şəhərin adı sonralar Arazboyu rast gəldiyimiz Araz-barı, Araz-dəyən modeli ilə yaranmış *Araz-aşku* sözüdür. O çağlarda *Araz* sözü Azərbaycanda tanrı, boy və çay adı kimi işlənirdi.

Uduri-etiuni adlanan Göycə hövzəsinə bir neçə yürüşü olan urartuların burada yazıları qalıb. Yazılardan bəlli olur ki, urartular buradan doğu tərəfdə yerləşən dağlıq bölgələrə də hücum etmişlər. Sadalanan adlar sırasında *Ku-Albani* adı diqqəti çəkir, çünki bir neçə əsr sonra burada Alban dövləti qurulmuşdur. Göycənin batısında qeyd olunan *luer* boyadı sonralar

[470] Меликишвили, 1954, 57, 65-66.

burada *Loru* (Pənbək) adında görünür.[471] Kürün yuxarı axarında *Kuriani* bölgəadı hələ o çağlarda bu çayın *Kür* (Kur) adlandığını bəlli edir. Türk-urartu paralellərinin məna çaları mətn daxilində daha aydın seçilir. Məsələn; «Sarduri oğlu İşpuini **gazuli urişxi** (*yaraşıqlı vuruş silahı*) və **niribi gazuli** (*gözəl heyvan*) ərməğan verdi». Burada urartu dilindəki *gazuli* sözü asur dilinə *damqu* (gözəl, təmiz, yaraşıqlı) sözü ilə tərcümə edildiyindən bəlli olur ki, urartuca *gazuli* bizim *gözəl* sözümüzdür.[472]

Urartu qaynaqlarında xeyli türkcə şəxs adları vardır: Başat (Basat), Batu, Ata, Dada, Tsinalibi (Çin-Alp), Qapur. Bu baxımdan, son urartu çarı Rusanın atasının türkcə *Erimen* (e-ri-me-na) adı diqqəti çəkir. Bəzi hurri-urartu tanrıadları (Teşub-Teyşeba, Şimiqi-Şivini) eyni olsa da, fərqli urartu teonimləri vardı; baş və savaş tanrısı *Haldi*, Günəş tanrısı *Ardi*.

Tanrı **Xaldi** və tanrıca **Arubani** (Van muzeyi)

Urartu yazılarında sadalanan tanrılar sırasında yerli türk boylarının tapınaq və iyə adları da yer tutur.[473] Belə ki, Urartu çarı Menuanın urartu tanrısı *Haldi* (Xaldi) ilə yanaşı, *Kuera* tanrısına da anıt yazısı vardır.[474] Ən qədim türk boylarından olan lulu dilində ki-ú-ru-um (*kiur*) sözü «tanrı» anlamı bildirir.[475] Qaynaqlardan bu da bəllidir ki, həmin sözü (*kuər*) eyni anlamda hunlar da işlətmişdir. Araz çayı qırağına gələn urartular burada yerli boyların tapınaqlarında eşidib gördüyü *Araz* (^{D}a-ra-za-a), *Xudu* (Xutu-ni) teonimlərini yazılarında əks etdirmişlər. Urartu tanrıcası Arubani adında *arı-banu* «təmiz-saf xanım» anlamı

[471] Loru bölgəsində xristianlaşma çağlarında haylaşan luərlərin türkizmlərlə dolu olan *loru* dialekti hay dilindən çox fərqlənir.

[472] УКН, 126-126.

[473] Bunların sırasında ^{D}İrmuş (*ermiş*), ^{D}Alaptuş (*alıb-düş*), ^{D}Taraini (*tarı, tanrı*), ^{D}Elipri (*alıp əri =Alpər*) kimi təkibi türk sözlərinə oxşayan adlar da vardır (УКН, 145-147).

[474] ВДИ, 1951, №3, 181.

[475] Меликишвили, 1954, 125.

görünür, *Atbini* tanrıadında isə *at-bin* tərkibi (ata minən), «süvari» anlamı mümkündür.[476] Urartuların *Turanu* teoniminin *turan* sözü olması isə quşqu doğurmur, çünki etrusklar həmin çağda buradan *Turan* teonimini İtaliyaya aparmışlar. Göründüyü kimi, təkcə teonimlər sırasında bir neçə urartu-türk paralelləri aşkar etmək olur, ancaq türklər bunları iyə, urartular isə tanrı adı kimi işlədir:

^{D}Araza, ^{D}Atbini, ^{D}Arubani, ^{D}Kuera (Que'rā), ^{D}Xutuini, ^{D}Turanu.

Quzey və Güney Azərbaycan bölgələri arasında əlaqə hər iki tərəfdə eyni adlı boyların yaşaması və bölgələrarası gediş-gəliş ilə görünür. Belə ki, Gümrü bölgəsində *işgi-qul* boyundan Saqaştar adlı başçının Manaya getməsinə aid məlumat verilir.[477] Urartu qaynaqları təkcə *kuman* boyunun adını əks etdirən bir-birindən xeyli uzaq üç yer və boyadı çəkir: Göycə gölü hövzəsində *kaman boyu;* Musasirlə Asur arasında *Kuman bəyliyi*; Orta Anadoluda sonralar Komaniya adlanan *Kuman bölgəsi*. Urartuların getdiyi ən uc bölgələrdə belə, türk onomastikası vardır; bunun örnəyini Diyarbakırdan batıda *Kumuq* və Xəzərə yaxın, Əhərdən doğunda *Polad* bölgələri, quzeydə *Kur* (Kür), güneydə isə *Bars* bölgələri əks etdirir.

Beləliklə, IV-I minillərboyu prototürk Atayurdunun sınır bölgələrinə gəlib yerləşən sumer, akad-asur, het və irani etnoslardan fərqli olaraq, II minilin başında və sonlarında bura gələn qafqazdilli hurri-urartu boyları daha yaxın qonşuluqda yerləşmişlər. İkiçayarasının quzeyi və Van hövzəsində məskunlaşan bu boyar sonralar başqa xalqlar tərəfindən assimilyasiya olunub dilini itirmişdir. Lakin kompakt yaşadıqları quzey-batı bölgələrdə dillərini saxlamışlar. Herodotun vaxtında Doğu Anadoluda ermən, matien, subar (*sa-sper*) türkləri ilə yanaşı, qafqazdilli *alarodi* boylarının da yaşadığını görürük. Urartu yazılarında adı keçən Kulxa sonra qafqazdilli Kolx bölgəsinin əsasında durur.

5. Yunan. Bizans

Əsl yunan tarixi m.ö.VIII əsrdən başlasa da, bəzi yunan boyları bir neçə əsr öncə Balkan yarımadasının quzeyindən enib, güney bölgələrdə yerləşmişdi. Onların keçdiyi yollar boyu arxada qalan xarabalıq və yanğın

---

[476] Troya -Türk əlaqələri üzrə tanınmış yazar Rəşid Saffət *Atabinən* soyadı daşıyırdı.

[477] Təəssüf ki, 27 sətirlik bu yazının kiçik bir parçası verilib: ^{İ}sa-ga-aş-tar-a LUGAL ^{İ}iş-gu-qu-ul-xi-e u-la-bi KUR ma-na-i-di ^{İ}a-ta-'a-a… «İçgiqul boyunun bəyi Saqaştar Manaya getdi, Ata…» (УКН, 286).

izləri göstərir ki, bu miqrasiya Ege və Krit-Miken kulturu adı ilə bəlli olan mədəniyətinin dağılması ilə nəticələnmişdi. İnsan yaşayışının izi Yunanıstanda m.ö. IV minildən o yana getmir. Burada m.ö. III minildən üzübəri başlanan mədəniyətin yaradıcılarının hansı xalqa mənsub olması bəlli deyil.[478] Lakin onların bu regionda m.ö. II minilin əvvəlindən yaratdığı mədəniyət, özəlliklə, m.ö.XV əsrdə güclü zəlzələ ilə sona çatan Krit adasındakı yüksək Minoy kulturu dağılmamışdan bir-iki əsr öncə yüksək mərhələsinə çatmışdı. Arxeoloqların tapdığı yazı nümunələri, əşyalar, yüksək zövqlə tikilmiş binalar heyrətedici estetik gözəlliyi və mükəmməlliyi ilə seçilir. Egey mədəniyətinin aparıcı qollarından biri də Kiçik Asiyanın batı yaxasında salınmış Miken şəhəri idi. Yunan boylarının m.ö. XIII əsrin sonundan başlanan Makedoniyadan güneyə miqrasiyası müxtəlif çağlarda bir neçə dalğa ilə gerçəkləşmiş və buradakı yerli mədəniyəti məhv etmişdir. Hətta buradakı yazı-əlifba 4-5 əsr gündəmdən çıxmışdır.

Öncə materikdə, sonrakı əsrlərdə isə yaxın adalarda yerləşən yunan boyları bir neçə əsr ərzində Anadolunun batı yaxalarında koloniyalar qura bildi. Artıq m.ö. V-VI əsrlərdə Qaradəniz sahilləri yunan koloniyaları ilə şəbəkə yaratmış və Azov dənizi yaxalarına qədər çatmışdı. Məhz burada yunan-türk əlaqəsi daha qabarıq şəkildə saqa boyları ilə təmasda görünür. Lakin yunan-türk əlaqəsi daha əvvəllər Aralıqdənizi hövzəsində olmuşdur, çünki mifoloji və qədim dil paralelləri saqa-yunan əlaqəsindən öncə vardı və görünür, bu əlaqədə Troya və Etrusk boyları içində olan türklər vasitəsilə yaranmışdı. Sonrakı əlaqələrsə Makedoniyalı fateh İskənlərin (Aleksandr) yürüşü ilə bağlı ellinizm çağı, daha sonra isə Bizans çağına aiddir.

Yunan elində m.ö. I minilin ilk əsrlərində hansı siyasi qurumların olması tam aydın deyil, lakin yunan köçlərinin *pilon* (filon) şəklində gəlib yerləşməsi məlumdur. Yunanca «uruq», «boy» anlamında *phylon* sözü, Spartada isə həmin anlamda *oba* sözü işlənirdi, bu sözün «kənd» mənası da vardı.[479] Maraqlıdır ki, bu bölgələrdə «klan», «uruq» anlamında *oikos*

---

[478] Сергеев, 1948, 65.

[479] Oliva, 1971, 78; Sparta 5 *obadan* ibarət idi (Сергеев, 1948, 151); Hələ antik çağda Hesix (Hesych) yunan sözlərini izah edərkən, *oba* sözünün «kənd, qəsəbə» anlamını qeyd etmişdir (Яйленко, 1990, 11).

sözünə də rast gəlinir ki, bu da türkcə *ok* (>oyk) ilə uyğundur.[480] Bu çağlarda «başçı» anlamında yunan dilinə keçmiş *basil* sözü yunanca eyni anlamlı *patrike* sözünü üstələyirdi. Hətta soy-uruq başçıları basil adlanırdı. Belə ki, Afinada 4 *filobasiley* (uruq başı) vardı. Homer çağına (m.ö.VIII) qədər yunanlar möhtəşəm sivilizasiyanın xarabalıqları üzərində hələ kənd və şəhərin fərqlənmədiyi *polislərdə* tikilən çiy kərpiç evlərdə yaşayırdılar. Yunan toplumunda yaşayış yerilə bağlı işlənən sözlər sırasında *koma* və *demos* (əvvələr *dam-os*) terminləri də diqqəti çəkir, çünki bunlar azər və yunan dillərində ortaq söz kimi işlənir.

Yunan kəndləri böyüyüb şəhərə çevrildikcə, ətraf bölgələrlə iqtisadi, mədəni və ticarət əlaqələri genişləndikcə toplumda əkin-biçin, heyvandarlıq, sənətkarlıq, tikinti yüksək templə inkişaf edirdi. Söz sənəti və dini tapınaqlar sistemə düşür, elmi biliklər artırdı. Bu inkişafa təkan verən amillərdən biri də ətraf ölkələrdə yaranan yunan koloniyaları ilə sıx əlaqə, həmin ölkələrdə yunan «lobbisi» idi. Artıq m.ö. VIII-VII əsrlərdə yunan şəhərləri kiçik dövlət şəklini almışdı. İki-üç əsr sonra isə Misir və Mesopotamiya mədəniyətindən yaradıcı şəkildə bəhrələnəmiş yunanlar qonşu ölkələrin həsəd aparacağı mədəniyətə sahib idi.

Pers çarı Daranın m.ö. 515-514-də Avropa saqaları (skitlər) üzərinə yürüşü uğursuz olsa da, Trakiya və Kiçik Asiyanın batı bölgələri perslərin nəzarəti altına düşdü. Bölgə bəyləri (tiranlar) persyönlü siyasət aparmaq zorunda idi. Bu durum yunan şəhərlərində həm tiranlara, həm də xarici müdaxiləyə qarşı demokratik idarə uğrunda mübarizəyə təkan verdi. Birbirilə daima çəkişən yunan şəhər-dövlətləri m.ö. 500-478-ci illər arasında davam edən pers-yunan savaşında birləşib, qüdrətli dövlətə çevrildi.

Afina dövlətində aparılan yeni reforma uğurlu oldu. Belə ki, püşkatma ilə seçilən strateqlər, 500-lük şura (*bule*), xalq məclisi (*ekklesia*), çoxlu üzvü olan xalq məhkəməsi (*geliea*) əsl xalq suverenitetinin təntənəsi idi. Qadınlar və təbii ki, çoxsaylı qullar bu səsvermədə iştirak etmirdi. Əgər arxont daha çox sosial məsələləri idarə edirdisə, strateq hərbi və dövlət məsələlərinə baxırdı. Bu çağda Afinanın ətraf bölgələrlə ittifaqı genişləndi, xüsusilə Perikl strateq olanda (m.ö. 443-430) mədəniyət sahəsində quruculuq işləri xeyli irəli getdi. Ancaq Afina ilə Sparta arasında davam

---

480 Azər dilində *koma, daş koma, dam* sözləri vardır. Antik dövr yazarlarının əsərlərində də «kənd, qəsəbə, məskən, bölgə» anlamlarında *tas koma, koma, dem* (demus) sözləri işlənmişdir (Яйленко, 1990, 11-13); Ola bilər ki, azər dilində *koma* və *dam* sözləri hindavropa kökənli dildən alınmadır.

edən Peloponnes müharibəsi (m.ö. 431-404) Afinanın məğlubiyətilə qurtardı. Az sonra nüfuzunu itirən Sparta perslərlə müharibəyə cəlb olunub zəiflədi. Artıq Makedoniya güclənməkdə idi. İskəndərin Asiya ölkələrinə yürüşü yunan toplumuna yeni imkanlar açdı.

Antik çağın ən qüdrətli cahangiri olub, bir çox xalqların mifik-epik qəhrəmanına çevrilən İskəndər Misirdən Hindistana, Orta Asiyaya qədər böyük ərazini az müddətdə işğal etmiş, ellinizmin bu ərazilərə təsir etmə imkanı yaratmışdır. Lakin İskəndər öləndən sonra bu nəhəng imperiya Misir, Suriya və Makedoniya kimi üç böyük dövlətə parçalandı. Suriyada Selevkilər, Misirdə Ptolemeylər sülaləsi hakimiyəti yürütdü. Selevk çarı III Antiox Roma ordusuna məğlub olandan sonra Selevk dövləti parçalandı və getdikcə doğu bölgələr Part, batı bölgələr Roma imperiyasının nüfuzu altına düşdü. Nəhayət, m.ö. 63-də Suriyada son Selevk bölgəsi də romalıların əlinə keçdi. Özünü Roma imperiyasının varisi sayan Yunanıstan IV-VII əsrlərdə Bizans imperiyasının siyasi mərkəzini bura köçürmüşdü. Vaxtaşırı davam edən Sasani-Bizans müharibələri Anadoluda getsə də, bu savaşlara Azərbaycan türklərindən cəlb olunanlar gah bu, gah da digər tərəfə yardım edirdi. Bu illər ərzində yunanlar doğu ölkələrlə həmişə əlaqədə olmuş, hunlardan Altaya qədər elçi göndərmişlər. Bizans qaynaqları türklərin tarixi üçün əvəzsiz bəlgələr verir.[481]

Troya bir növ türk dünyası ilə yunanlar arasında körpü rolunu oynamışdır. Yunan yazarlarının əsərlərində Troya ilə bağlı məqamlarda türk sözləri ortaya çıxır. [482] Homerdən üzübəri əldə olan epik, mifik, epiqrafik, yol qeydləri, bioqrafik, fəlsəfi, tarixi və coğrafi əsərlərdə bu və

---

[481] İskəndər və Selevkilər çağında yunan-makedon əskərlərinə ayrılan torpaqda onların yerlilərlə qarışması görünür. Olsun ki, vaxtilə Muğan-Xəzər arasında olmuş *Yunan-şəhər* də o çağlarda yunan koloniyası imiş. Vaxtilə pers çarının Xəzərin güneyindən Anadoluya köçürüb, sonralar Lidiyada *Hirkan-çuxuru* adlanan bölgədə yerləşdirdiyi hirkanlılarla burada oturan makedonialı əsgərlərinin qovuşması buranın «makedon-hirkan polisi» adlanmasına səbəb olmuşdur (ИДВ, II, 1983, 336); Görünür, bu cür qarışıq yaşayanlara «qatılmış» anlamında *qatıq* (katık) demişlər. Lakin Roma imperiyası çağında Asiyanın bəzi bölgələrində sosial termin kimi işlənən *kateq* (κάτοικοι) sözünün anlamını müəyyən etməyə çətinlik çəkən tədqiqatçılar, hər halda, onun kənddən kənarda yaşayan əskərlərdən fərqli olaraq, kənd camaatı ilə birgə yaşayanlara aid olduğunu güman etmişlər (Бикерман, 1985, 95-98).

[482] Təkcə Apollodorun «Bibliothekh» kitabında *Piriam* (Piri) və oğlu Aleksandrın ikinci adı *Paris* (Barıs), *Sandok* (Sandak), *Oyma* (qız adı) kimi xeyli türkcə adlar vardır. Burada troyalı Peleqonun oğlu Asteropey Aksiy çayının oğlu kimi verilir (Аполлодор, 86);

ya digər türk boyu haqqında bəlgələr vardır. «Koroğlu *dədədir*, çıxma sözündən» deyimi Herakl-Koroğlu paralelliyindən, bu obrazın ilkin mifik dövründən xəbər verir.[483] Homerin təsvir etdiyi Təpəgöz «Dədə Qorqud» kitabında təkrar olunur. İki-üç minillik tarixi olayları uzlaşdırıb eyni zamana salan Oğuz dastanları kimi, «İliada» və «Odisseya» poemaları da XIII-VIII əsr tarixi hadisələrini sıxıb bir zaman kəsiyinə salmışdır. Antik çağ ədəbiyatında geniş yer tutan Apollonun kahini müdrik Abar (Abaris) saqa boyundan idi. Ovidi onu qafqazlı sayır.[484] Abaris kimi, yeddi müdrikdən biri, saqa şahzadəsi Anaxars haqqında da gərəkli bəlgələr vardır. Qədim türk bilgəsi Anaxarsdan IV bitikdə geniş bəhs olunmuşdur.

6. Etrusk. Latın (İtaliya)

Balkandan fərqli olaraq, Aralıqdənizinin ortasında çəkmə formasına bənzəyən Apennin yarımadasında sivilizasiya bir az keç başlamışdır. Burada əkin üçün yararlı torpaq Yunan elindən çox olsa da, Ön Asiya mədəniyətindən uzaqda yerləşməsi və metallurgiyanın gec mənimsənilməsi İtaliyanın ikişafını ləngitmişdi. Ümumi *ellin* adı ilə tanınan yunanlara nisbətən, buranın əhalisi m.ö. I minildə müxtəlif dilli boylardan ibarət idi. Dunay çayı yaxalarından m.ö. II minilin sonunda qalxıb, buraya gələn italik boylarından *yapiq, osk-umbr, sabin* və *latınlar,* İlliriyadan gələn *venet* (Venetsiya bölgəsi) və daha sonralar gəlib quzeydə yerləşən *qallar* (kelt), m.ö.VIII-VI əsrlərdə Balkandan gəlib güneydə, Siciliyada oturan *yunanlar* hindavropa kökənli boylar idi. Lakin buraba dili bilinməyən *rutul* kimi bəzi boylar da vardı. Bura Troyadan və Lidiyadan gələn boyların içində isə türkdilli uruqlar vardı. Bunlardan biri də yeni yurda Ön Asiya gələnəklərini gətirən *etrusklar* idi.

Yunan və Roma mədəniyətinin tarixi axarından Avropa uyqarlığı yarandısa, vaxtilə Roma uyqarlığı da etruskların kultur alanları üzərində qurulmuşdu. Ən azından, avropalıların yazı kulturu latın əlifbasına borcludur ki, onun da kökü qədim türk runik əlifbası ilə eyni olan etrusk əlifbasına dayanır. Bunu hər iki əlifbada istifadə olunan qrafik işarələrin müqayisəsində aydın görmək olur:



[483] *Polad* kəndindən (İcevan rayonu) toplanan «Qıratın qaçırılması» qolunda söylənmişdir (Вялийев, 1979, 4).

[484] Подосинов, 1985, 153.

Etrusk dilindəki türkizmlərdən danışarkən vaxtilə etrusklardan latın dilinə keçmiş sözləri də nəzərə almaq lazımdır. Latin dilindəki *pedis* (bit), *urbis, orbis* (uram, ordu, şəhər, dairə), *sero* (sarımaq), *balte* (beldə, kəmər), *curia* (kurum), *curulis* (dövlət taxtı), *veto* (bitmək), *konsilium* (konuşma, gənəşmə), *camillus* (kam, gənc rahib) və bu kimi onlarla sözün etrusk dilindən qalması mümkündür.

Tarixi ədəbiyatda Etruskların İtaliyaya haradan gəlməsi, onların soykökü mövzusu 2500 il bundan öncə gündəmə gəlməsinə baxmayaraq bugünəcən öz həllini tapmamışdır. XIX əsrin sonunda artıq etrusk dili bir çox dünya dillərilə müqayisə edilmiş, lakin qohum dil axtarışı hələlik bir nəticə verməmişdir.

Vergilinin qədim Roma tarixindən bəhs etdiyi «Eneida» əsərində bu şəhərin əsasını qoyan etrusk soyköklü Romul və Remin troyalı Eneyin törəmələri olduğu bildirilir. Romanın məşhur Qay sülaləsi də özünü troyalı Eneyin soyuna bağlayırdı. Məşhur Roma imperatoru Qay Yuli Sezar senatda ilk çıxışında «Mən əsilzadəyəm, troyalı Eneyin nəslindənəm» deyərək özünü təqdim etmişdir. Etruskların Tarkvini soyunun Romada hakimiyəti (616-510) yüzil sürdü. Roma imperiyasının təməl daşlarının qoyulduğu bu çağda romalılar mənimsədiyi mifoloji tarixlə, dövlətçilik gələnəyilə sonralar Asiya və Avropada tanındı.

Qədim etrüsk əfsanəsinə görə, Eneyin törəmələri Romul və Rem sahibsiz qaldıqda onları bir dişi börü (qurd) əmizdirir, ölümdən xilas edir. Sonralar bu ekizlər Roma şəhərinin əsasını qoyurlar. Bu baxımdan, türklərin *qayı* boyunun dişi qurd əfsanəsi etrusklarda da vardı. Roma şəhərində etrusk kvartalının (*Tuskus vikus*) olması, *Yugarius vicus* (yuxarı) və *Yanikul* (yeni qol) məhəllələri, qədim subar boyadı ilə *Subura* adlanan etrusk kvartalı göstərir ki, şəhər sakinlərinin yalnız bir qismi etruskardan, digər qismi isə başqa etnoslardan (latın, sabin və b.) ibarət imiş. Bu türk adları sanki Romanın simgəsi sayılan Bozqurdun ünvanını göstərən keçmiş tarixin yaddaşı kimi qalmaqdadır. Bizə düşən bu yaddaşı oyatmaq, yeniləməkdir. Etruriyanın özündə də etrusklar müxtəlif yerli və gəlmə boylarla qarışıq yaşayırdılar.

Etrusk xalqı, etrusk dili deyimlərinin gerçək anlam tutumu o çağların etnik demoqrafiyası, gəlmə-yerli boyların ayrı-ayrı və iç-içə yaşaması ilə bağlıdır. Etnik gələnəklərini saxlayan boyların dini inancları sintezindən yaranmış yeni etrusk dinilə paralel ortaq ünsiyət vasitəsinə çevrilmiş etrusk dili də Etruriyada yaşayan müxtəlif boyların mədəni birliyi idi. Bu birlik siyasi birliyə, etrusk toplumu da superetnosa çevrilmədi. Bu baxımdan, etrusk dilinə burada yaşayan bir-iki boyun doğma dili, başqa boylarınsa ikinci dili kimi baxmaq gərəkir. XX əsrə qədər Qafqazda azər türkcəsinin rolu nə idisə, etrusk dili də Etruriyada həmin rolu oynamışdır. Lakin vahid etnos olan azər türklərindən fərqli olaraq, etrusklar qarışıq etnos idi və bu durum onların İtaliyada latınlaşmış bir xalq kimi yeni eraya daxil olmasına münbit şərait yaratmışdı.

Etrusk yazıları üzərində araşdırma bizdə belə bir qənaət yaratdı ki, etrusk dili də çuvaş, hay, alban dilləri kimi qarışıq bir dildir. Bu dildə türkizmlərlə yanaşı başqa bir-iki dilin də izi görünür. Bu izləri leksik qatda aramaq nə qədər asan olsa da, qramatik qatda o qədər çətindir. Etruskologiyanın uğuru isə bu problemin düzgün çözülməsindən asılıdır. Bu baxımdan, etrusk dilini açmaq üçün bir açar yetmir, etrusk dünyasına girmək üçün qapıya iki açarla yaxınlaşmaq gərəkir.

Beləliklə, türk dili etrusk dilini açа bilən açarlardan biri sayıla bilər, qalır o biri açarın tapılması. Bunun üçün etrusk əlifbasında bir-iki hərfin bildirdiyi səslərə yenidən baxmağa ehtiyac vardır. Uzun və çətin bir yol keçmiş etruskologiya elmi üçün əlifbada kiçik düzəlişlər aparmaq o qədər də çətin olmayacaq. Yetər ki, etrusk əlifbası ilə eyni qaynaqdan olan türk runik əlifbasının özəl orfoqrafik qaydalarından yardımçı vasitə kimi istifadə olunsun. [485] Öncə etrusk onomastikasında geniş yer tutan türk adlarından bir neçəsinə baxaq.

Kiçik Asiyanın qədim dillərindən bəhs edən V.V. Şevoroşkin kari adlarının sonunda görünən *alp* sözünün burada işlənmiş *Alpos* adı ilə bağlan-

[485] Xocam Bəxtiyar Vahabzadə 1985-də dedi ki, Sumerlə bağlı sənin məqaləni tərcümə edib çapa verən alman dostumuz Ə. Şmide Bakıdadaır, görüşmək istəyir. Biz Bəxtiyar müəllimgildə görüşdük və söhbət etrusklardan düşəndə o maraqlı bir söz işlətdi, dedi ki, almanlar etrusklara *turx* deyir. Təkcə bu *turx* sözü o zaman mənim üçün əsas ipucu oldu və bir müddət etrusk yazıları ilə ciddi məşğul oldum. Sonralar bəzi yazılarımda etrusk dili, əlifbası və teonimlərindən bəhs etmiş, türkcə oxuduğum bir neçə etrusk deyimini «Azər xalqı» (2000) bitiyində vermişdim. Keçən bu müddət ərzində topladığm xeyli etrusk-türk paralelləri artıq "Etrusk-Türk bağı" adlı ayrıca bitik şəklində çapa hazırdır.

tısını mümkün sayır və müqayisə üçün etruskcadan *cul-alp* sözünü sual işarəsilə örnək göstərir.[486] Əlbəttə, *alp* sözünün "igid" anlamı onun türk adlarına qoşulmasına imkan vermişdir və etruskların tale tanrısı kimi təqdim olunan ***Kul-alp*** adında türkcə "şanlı igid" anlamı vardır. Bu baxımdan, uzmanların etruskların ***Alpan*** teonimini cəsarətli tanrıca kimi deyil, onun adında *həvəslə, istəklə* (willingly) sözlərini axtarması əbəsdir. Bir etrusk yazısının sonluğunda *alpan turke* (alpan sunağı) sözləri işlənir ki, burada da *alpan* sözü igid, cəsur anlamındadır. Doğu türklərdə Ulgen tanrının epitetlərindən biri ***Ayaz*** adıdır. A. İnan qeyd edir ki, bəzi şaman dualarında Ulgenə *aqayaz* (ağ ayaz), *ayazkan* deyimlərilə müraciət olunurdu.[487] Etrusk yazısında bahadır adı kimi keçən Ayvaz yunanların Ayaks (Ayaz) adı ilə qarşılaşdırılır. Hər halda, ***Eyvaz*** variantı da qeyd olunan bu adların Koroğıu-Herekle bağı fonunda etimoloji baxımdan araşdırmaq yararlı ola bilər. Etrusk yazılarında işlənən ***lukumon*** titulu baş kahin və hökmdar sanı bildirir, yəni etrusk toplumunda lukumon həm *başqam*, həm *başqan* sayılırdı. Etrusk inancına görə yeraltı qüvvələrlə təmas qurma bacarığı olan lukumonlar qutsal sayılırdı. Romalı yazar Festə görə, lukumon hara yanaşırdısa, ora təhlükəli məkana çevrilirdi. Yunanların *basilevs* dediyi lukumonların yaşamı o qədər rituallaşmışdı ki, onlar dini törələrin quluna çevrilirdi. Sözün anlamını açmaq üçün onun hansı məna çalarları olmasına baxmaq lazım gəlir. Lukumon sanına bu kontekst daxilində baxanda onun "ulu qam" anlamı ilə işlənən *ulukam* (ulukam-an) sözü olduğunu görmək olur.

İtaliya dilçisi prof. Mario Alineyi etruskların baş tanrısı ***Tinia*** (Tin) ilə türklərin Tengri teonimi arasındakı əlaqəni qeyd edib bunlarda eyni söz kökü olduğunu yazır.[488] Roma elbəyi (carı) ***Tiberi*** adında qədim türk el (dövlət) qurumunda "vali" anlamında *təbər, eltəbər* titulu durur. Titul bildirən bu söz vaxtilə het diniə də keçmiş və burada sonralar *labarna* (hökmdar) formasını almışdır. Romulun ulu babası kimi verilən ***Eney*** yunanca *Afrodita*, latınca *Venera* adlanan tanrıcanın oğlu idi. Etrusklarda bu tanrıca ***Turan*** adlanırdı.

Appian m.ö.V əsrdən sonrakı keltlərlə romalıların savaşlarından bəhs edərkən Romada tanınmış Fabiy soylu bir qamın adını *Qay Fabiy*

---

[486] Шеворошкин, 1965, 232.

[487] İnan, 1972, 32.

[488] Alinei, 2005.

Dorson, Tit Liviy isə onun adını *Qay Fabiy* ***Dorsuon*** kimi verir.[489] Azər türklərində və başqa türk xalqlarında *Dursun, Tursun* adı geniş işlənir.

Troya şəhəri İdı dağının ətəində yerləşir. Homer Heranın bu dağın zirvələrindən biri olan Qarqar üzərinə qalxmasını yazır.[490] Buradakı *İdı, Qarqar* toponimləri qədim türk ***qarqar*** boyunun və türk onomastikasında yayğın "qutsal" anlamlı ***İdı*** dağadı ilə bağlıdır. Güney Azərbaycanda İdı dağadı, Qarqar bölgəsi m.ö. I minilin əvvəllərindən, Quzey Azərbaycanda isə qarqar boyları Alban eli çağından bəlli idi, Qazaxıstanda Qarqar dağı indi də vardır. Bu baxımdan, İtaliyaya köçənlər içində hansısa türk boyunun olması quşqu yaratmır.

Uzmanlar etrusk dilinin güney və quzey dialektləri olmasını söyləyirlər. Yazı örnəkləri olsa belə, şifrəsi açılmamış bir ölü dilin dialekt özəlliklərinə şərh vermək zor işdir. Doğrudur, Toskanada yaşayan etruskların bioloji-genetik varisləri bugün italyan dilində danışakən sözləri fərqli tələfüz edə bilər, lakin bunun etrusk dilinə yox, italyan dilinə dəxli var. Adilə xanım Aydanın yazdığına görə, bu bölgədə *c* (*k*) səsi *x* kimi deyilir və bu özəllik *gorgia toscana* (toskana qırtlağı) adlanır.[491] Etrusk yazılarında eyni adın, sözün müxtəlif yazılış fopmaları aydın göstərir ki, bunların müəyyən hissəsi dialekt fərqlərilə bağlıdır.

Uzmanlar etrusk yazılarında işlənən ***ais*** (sonralar ***eis)*** və cəm halda ***aisar*** sözünün "tanrı" anlamı daşıdığını söyləyir. Maraqlıdır ki, eyni durum Skandinav xalqlarının saqalarında da özünü göstərir. Özəlliklə, island dilində "tanrı" anlamında **æs** [au:s], cəmdə **æsir** sözü işlənir.[492] Doğrudur, skandinav dillərindəki *as* sözü Avropanın quzey-batı bölgələrinə Asiyadan gəlmiş qədim *as//az* boyları, həmin boyların baş tanrısı Odinin və digər ***as*** tanrılarının ilk məskəni ***Aser*** (Azər) yurdu ilə bağlanır.[493] Ancaq etruskcada *ais//eis, aisar* sözlərinin skandinav saqalarındakı *as, aser* sözlərilə əlaqəsinin olub-olmaması hələlik bəlli deyil. Belə ki, aser//asar tanrıadını Skandinav ölkələrinə aslar, İtali-



489 Аппиан, 2004, 237.

490 «İlliada», XIV. 292-283.

491 Ayda, 1987, 232.

492 Исландско-русский словарь. М. 1962, 49.

493 Azər xalqı, 2005, 11-24.

yaya da etrusklar Asiyadan (Azər ölkəsindən) aparmışlar.

Etrusk-türk əlaqəsindən danışmaq üçün türkologiya elmi *Altay teorisinə* istinad edə bilmir, çünki etruskların İtaliyaya Altaydan getməsini ortaya qoya biləcək bəlgələr yoxdur. Bu baxımdan, türklərin Atayurdunu Ön Asiyada verən yeni *Urmu teorisi* isə etrusk-türk ilişkilərini tarixi gerçəkliyə dayanan elmi ölçülərlə ortaya çıxara bilir.

II minilin sonlarında Kiçik Asıyanın batısından köçərək Apennin yarımadasının Arno-Tibr çayları arasında Etruriya (Toskana) bölgəsində yerləşən etrusk boyları artıq I minilin başlarından İtaliyanın önəmli xalqlarından birinə çevrilmiş, 8-ci əsrin ortalarından 6-cı əsrə qədər etrusk ekspansiyası ətraf bölgələri və adaları bürümüşdü.

Etrusk varlığı İtaliyada miladdan öncəki minil boyu davam etdi, ancaq bu varlıq 500 il üzüyuxarı yüksəlişlə, 500 il də üzüaşağı enişlə davam etdi. Etrusklar Yeni eraya latınca danışan bir toplum kimi keçdi, arxada böyük mədəniyət buraxsa da, öz keçmişini itirdi.

Miladdan öncə III-I əsrlər ertuskların asimilyasiya olunma dönəmidir. Etruskların sonu çatdı, bu acı sonluq İtaliyanın mərkəzində Yuli Sezar və Oktavian Avqust dönəmində tarix yazarlarının gözü önündə baş verdi, ancaq bu acımasız olayı qələmə alan olmadı, oldusa da, it-bata düşdü, gəlib bizlərə çatmadı. Roma imperiyasını yönətən latın siyasi elitası və latın yazarları hər vəchlə etrusk adının tarixdən silinməsinə çalışırdılar. Bu duruma münasibət bildirən Q. Müleşteynin gerçəkliyi yansıtan belə bir deyimi var: *Etruriya Romanın beşiyi, Roma etruskların məzarı oldu.*

Yunanlarla cavaşda ölən Troyanın son çarı Priamın və bu savaşda ona yardım edən Eneyin soybabaları Dardan idi. Dardan, Troy (Tur), Eney və Priam şəxsadları kimi, Troya ilə bağlı bir sıra toponimlər də türk onomastikasına yad deyildir. Həmin çağlarda batı türklərindən olan subar, er-

mən, mitan, tiras (tirsa), qaşqay və urmu boylarının, daha əvvəllər dilində xeyli türk sözləri görünən hat boylarının Troya (İlion) ilə əlaqəsini mümkün saysaq, onda belə türkizmlərin gerçək varlığı doğaldır. Troya-Lidiya yörələrindən İtaliyaya köçən etruskların da buradakı türkizmləri və yaxud türk dilini yeni yurda aparması doğal sayılmalıdır.

Dilin leksik qatında şəxs adları (antroponimlər) önəmli yer tutur. Etruskoloqların verdiyi etrusk adları sırasında türk onomastikası üçün yad olmayan elementlər də görünür. Belə ki, *Hathli* soyadında *hat-lı* modeli, latınlarda *Caius//Gaius* şəklində işlənən etruskların *Cae//Cai* adında oğuz boyadı *kayı* (qayı), Churchle [Xurxle]-Koroğlu, Pleku-Pelek, Tute-Tutu, Ulthes-Ulduz, Karkana-Karakan şəxs adlarının paralelliyi vardır. Alfiya, Atiliya, Perca, Culni, Cainei, Sarsinaia, Peci, Araziya, Pinariya, Tanusa, Suana kimi etrusk qadın adlarında Sarsın Ay, Bikə adları seçildiyi kimi, sonda sadalanan adlarda da axarsu ilə bağlı Araz, Pınar, Dəniz və qutsal Su-Ana adları görünür.

Əgər *Arnth* adının *Arnza* [Arnca] forması kiçiltmədirsə, onda türk dillərindəki *-ca* (Qaraca) şəkilçisi görünməkdədir. Şəxsin adında hansı soydan-boydan olmasını (koqnomen) göstərən müxtəlif şəkilçilər vardır. Örnəyin, turs boyundan *Tursikina* etrusk adında *-ki* morfemı *onunki, bizimki* sözlərində olan *-ki* şəkilçisilə yaxındır.

Etrusk dilinin hansı dil ailəsinə mənsub olmasını müəyyən etmək üçün bu dildə qohumluq bildirən terminlərin düzgün tapılması gərəkir. Uzmanlar etrusk dilində qohumluq bildirən sözlər sırasında əmi, dayı, bibi, xala, bacı mənasında işlənən sözlərin olmadığını qeyd edib *apa, ati, klan* (oqlan), *sex* (qız), *neftis* (nəvə), *ruva* (qardaş), *puya* (arvad, qadın), *nene* (nənə, dayə), *papa* (baba) kimi sözlərin bildirdiyi mənaları verirlər ki, bunların da çoxu türk dillərində özünü göstərir.[494]

İtalya dilçisi prof. M. Alineyi etrusk dilində işlənən *tarxon, camthi, zilax* kimi titul bildirən sözlərin vaxtilə macar dilinə də keçmiş (*kende, dyula*) türk sözləri (*tarkun, kende, yula*) olduğunu yazır.[495] Müəyyən sahələr üzrə sənətkarları bildirən terminləri və peşə-sənət bildirən sözlərin bir qismini başdaşı yazılarından öyrənmək olur. Belə epitafiyalardan bəzilərinin iki dildə yazılması isə çözümə yardım edir. Örnəyin:

---

[494] Latıncanın *nepōs* (h.a. **nepōts*) terminilə əlaqəsi görünən etrusk dilindəki *neftis* sözünün *nəvə* və ya *qardaş*//*bacı uşağı* anlaminda olması hələ dəqiq müəyən edilməyib.

[495] Alinei, 2003.

TLE 541: (latın): **ar. trebi. histro**
(etrusk): **ath: trepi: thanasa**

Trebi adının latın variantından həm də aydın olur ki, etrusk yazılarında [**p**] səsini bildirən p hərfi bəzi sözlərdə [**b**] səsini də bildirir. Latın dilində teatr aktyorlarına *histr(i)o* deyilir və yazının etrusk variantında onun qarşılığı *tanasa* sözüdür. Deməli, etrusklar aktyora *tanasa* demişlər. Görünür, tanasa sözünün qarşılığı kimi verilən histro sözü sonralar latın dilində aktyor (artist) anlamı ilə işlənmişdir. Buradakı ***tanasa*** sözü bədiz (surət, şəkil) anlamında ola bilər. Bu halda bütöv yazı belə oxunur: *Arnt Trebi(nin) bədizi.*

Əgər bu ikidilli yazıda semantikası və morfoloji quruluşu ilə diqqəti çəkən *tanasa* sözünün güman etdiyimiz "bədiz" anlamı doğrudursa, onda etruskcanın bu sözü türkcənin *tanış, taniq* (şahid) sözləri kimi *tanı-* feilindən yaranmışdır. Burada *Turab* adını xatırladan Trebi antroponimi də maraqlıdır. Bu ada başqa bir ikidilli (TLE 462) yazıda *Kay Trebu* şəklində rast gəlirik ki, kayı (qayı) soyundan da yuxarıda bəhs olunmuşdu.

O çağlarda etrusk dili kimi başqa qarışıq dillərin də olmasına dair bəlgələr var. Örnəyin, Herodot qrek (yunan) kökənli sayılan gelonların yarı qrek, yarı skitçə bir dildə danışdıqlarını yazırdı. Müəyyən tarixi şəraitdə bir xalqın ikidilli duruma düşməsini göstərən bəlgələr çoxdur. Bilinqvizm adlanan bu durum dillərdən birinin üstünlüyü, sonra da qələbəsilə nəticələnir. Etrusk dilinin latın dililə əvəzlənməsindən öncəki ikidillilik başdaşı yazılarında geniş əks olunmuşdur. Yeri gəldikcə belə yazılardan əldə olunan bilgilər üzərində dayanacağıq, çünki bəzi etrusk hərflərinin etruskologiyada yol verilmiş yanlış yorumuna bu bilgilərlə düzəliş verilir.



Paris Milli kitabxanasında saxlanan qədim etrusk zəri üzərində saylar rəqəm və nöqtə ilə deyil, sözlərlə verilmişdir. Etruskologiyada say bildirən sözlər 1-*thu*, 2-*zal* (*esal*), 3-*ci* (*ki*), 4-*ša*, 5-*max*, 6-*huth* kimi oxunur, geniş yayılmışdır, lakin zərlərdə kubun qarşı tərəflərində olan rəqəmlərin cəmi üstündəki nöqtələrə uyğun olub yeddi sayını verməlidir: 1+6=7; 2+5=7; 3+4=7. Bəzi uzmanlar isə *huth* sözünü 4 sayına, *ša* sözünü isə 6 sayına aid edirlər.

Bu say bildirən sözləri sırası ilə Polat Kaya (*pr, ki, zal, mak, ma, hut*), Selahi Dikər (*thu, ki, huth, ça, mal, zal*) və ola bilsin ki, mənim bilmədiyim kimsələr də türkcə oxumaq istəmişlər. Vaxtilə zərin üzərində olan sözlərin transkripsiya rildiyini,



təxmini ilə vezərin *pr* yazılan üzünü isə başayaq tutaraq *tu* oxuduqlarını görüb, bəzi düzəlişlər (*şa* əvəzinə *pla*, *huth* əvəzinə *hlth*) vermişdim.[496] Bu müqayisələrdə həmin fərqlər aydın görünür:

etruskoloqların oxuması	bizim variant
1 tu	1 pr (bir)
2 zal (esal)	2 ki (iki)
3 ki	3 ?
4 ša	4 ?
5 max	5 pla (bilək)
6 huth	6 hlth (haltı)

Etruskoloqların oxuduğu variantla (yuxarı sıra) bizim variant (aşağı sıra) arasındakı fərqləri nəzərə alanda 1, 2, 5, 6 sayları zər üzərindəki düzümə uyğun gəlir, 3 və 4 sayları isə düzgün transkripsiyası ilə bağlıdır, zəri yzxından görmədiyim üçün tam oxunuş acıq qalır. Lakin etruskca say bildirən sözlərdən dördünün bilinməsi də önəmlidir

Etrusk əlifbası üzərində bir az geniş dayanmağa ehtiyac var, çünki bugün dünya xalqlarından çoxunun istifadə etdiyi latın qrafikalı əlifbanın kökündə duran etrusk əlifbası qədim türk əlifbası ilə eyni qaynaqdandır. Avrasiyaya yayılmış runik hərflərin qədim tük damğalarından yaranma yollarını I bölmədə örnəklərlə göstərmişdik.[497] Vaxtilə Əhməd Çəfəroğlu, Muharrem Ergin və başqa dilçi alimlər də göytürk əlifbasının türk toplumunda yarandığını söyləmişlər.

---

[496] Azər xalqı, 2000, 152-153; Etruskca *pila* (beş) sayının çuvaş dilindəki *pilĕk* (bilək) variantına uyğunluğu göstəriri ki, çuvaş sayları (pĕr, ikĕ, viç, tăvată, pilĕk, ult) başqa etrusk saylarının da müəyyənləşməsinə yardımçı ola bilər.

[497] Vaxtilə Mirzə Fətəli Axundov latın qrafikalı əlifba tərtib etsə də, onu Azərbaycan Demokratik respublikasını quranlar gerçəkləşdirdi, biz də onu 1991-də bərpa etdik. O vaxt Dövlət Əlifba Komissiyasının rəhbəri idim. Mənə irad tutanlardan bəzisi deyirdi, madam ki əlifbanı dəyişirsiniz, elə Göytürk əlifbasını qəbul edin. Mən yarızarafat cavab verirdim ki, elə latın əlifbası da bizim qədim əlifbadan yaranıb.

Yazıdan istifadə edən qədim xalqların toplumda yazıb oxuya bilən mirzələrə ehtiyacı vardı, ona görə də bitikçi (katib) və dilmancların hazırlanması üçün məktəblər yaranırdı. İlk dəfə sumerlərin yaratdığı belə məktəblər sonralar Ön Asiyada yayğınlaşdı, bu gələnəyi etrusklar da İtaliyaya gətirmişdi. Etrusk yazıları kətan parçaları və üz tərəfinə mum çəkilmiş ağac lövhələr üzərində öyrənilirdi. Kətan üzərində quş qanadından, ağac üzərində qamışdan düzəldilmiş qələmdən, mürəkkəb kimi doğal boyadan istifadə olunurdu. Romalılar da uşaqlarını yazıb-oxumağı öyrənmək üçün etrusk məktəbinə göndərirdilər.

Etrusk əlifbası **abc** sıralanması ilə yazı lövhəsində, keramik qablar və başqa nəsnələr üzərində tapılmışdır. Belə nümunələrdə əlifbanın soldan sağa düzülüşünə də rast gəlmək olur. Elə örnəklər var ki, orada hərflərin sıralanmasında və ya sayında yanlışlıq görünür:

Etrusk əlifbasında bəzi hərflərin fərqli şəkilləri və eyni səsi bildirən fərqli hərflərin olması doğaldır. Belə ki, minil boyunca işlənən yazının mərkəzi hakimiyəti olmayan xalqın yaşadığı bölgələr üzrə fərqlənməsi, həm də bu zaman içində inkişaf edən dilin fonetik sistemində baş verən dəyişmələrə uyğunlaşması ilə ortaya çıxan fərqləri təbii saymaq gərəkir.

Zaman axarında etrusk və göytürk əlifbasında olan işarələrin bəzisi dəyişikliyə uğrasa da, hər iki dilin yazılarında görünən eyni cizgili hərflər daha çoxdur. Minil davam edən etrusk yazı gələnəyində dilin inkişafı, dialektlərin bölgələr üzrə fərqlənməsi yazı qaydalarına təsir etdiyi kimi, əlifbadakı hərflərin sayında və cizgisində də iz buraxmışdır. Lakin bu fərqlər Orxon yazıları ilə Yenisey yazıları arasında olan qrafik fərqlərdən azdır. Türk və etrusk runik əlifbalarının bir qaynaqdan olması eyni səsin hər iki əlifbada eyni işarə ilə verilməsində daha aydın görünür:



Əvəllər ellinlərin yazı gələnəyi olmadığını vurğulayan və Elladada əlifbanın ortaya çıxmasını finiklərə bağlayan, yunanların dəri üzərində yazılan kitabələrə *dephtera* (dep-deri) deməsini, istifadə edilən əlifbaya *finik yazısı* deyiminin isə uzum müddət yunan dilində davam etməsini yazan Herodot kadmelərin yunanlara gətirdiyi əlifbada yaranan fərqləri belə izah edir: "Öncə başqa finikiyalılar kimi kadmelərin yazısı finik əlifbasında idi. Sonralar dillərində baş verən dəyişmələr əlifbaya sirayət etmiş və bəzi hərflərin fərqli formaları yaranmışdır." [498]

Etrusk hərfləri	Latın hərfləri	Bildirdiyi səslər
A	A	[a]
B	B	[b]
C	C G	[k]
D	D	[d]
E	E	[e]
F	F	[w]
I	Z	[z]
H	H	[h]
I	I	[i]
K	K	[k]
L	L	[l]
M	M	[m]
N	N	[n]
O	O	[o]
P	P	[p]
Q	Q	[q]
R	R	[r]
S	S	[s]
T	T	[t]
V	V	[u]

Siciliyalı Diodora görə, Homerdən öncəki yunan şairləri pelask əlifbasından istifadə etmişlər, bu əlifbaya dayanan yazı türləri Avropaya da yayılmışdır. Belə əlifbanı İtaliyaya pelasklar gətirmişlər. Diodorun fikrinə Böyük Pliniy də tərəfdar çıxmışdır. Bu yorumlar etruskların pelask sayılması ilə bağlıdır, çünki Latın əlifbası etrusk əlifbasından yaranmışdır.

Etrusk əlifbsı əsasında Latın əlifbasının yaranması quşqusuzdur. Artıq bunu etiraf edənlərin sayı artmaqdadır: "Latın əlifbası üzərində illərlə davam edən mübahisə artıq çözülmüşdür. Bəzilərinin iddia etdiyi kimi, latınlar əlifbanı Kumedə yerləşən yunanlılardan deyil, quzey qonşuları etrusklardan almışlar". [499] Skandinav runlarının da etrusklardan alınması ensiklopediyalarda qeyd olunur. [500] Lakin skandinav runlarının mənşəyi məsələsi hələlik mübahisəlidir.

Latın əlifbasına girməyən etrusk hərfləri

⊞	[s]
⊗ ⊙	[t^h]
X	[ks]
Φ Θ	[p^h]
Y Ψ	[k^h]
8	[f]

Burada verdiyimiz etrusk əlifbası uzmanların

[498] Herodot, V. 58; Buradakı *depdera* (dep-deri) da *dəri* sözü ilə bağlıdır.

[499] Bloch, 1963, 120.

[500] Britannica, XIX t., 1970, 755.

ümumi rəyinə görə etruskologiyada qəbul olunmuş variantdır. Lakin bu variant qüsursuz deyildir, çünki buradakı yanlışlıq bəzi sözlərin düzgün oxunmasına imkan vermir. Doğrudur, etruskologiya elmi etrusk əlifbasındakı hərflərin bildirdiyi səsləri düzgün müəyyən etməsilə uğur qazanmışdır, lakin bəzi hərflərin oxunuşu hələ tam aydınlaşmayıb. Bizcə, belə hərflərin hansı səsi bildirməsini dəqiqləşdirmədən etrusk yazılarını oxumaq bir sıra yanlışlıqlara yol açır, həm də etrusk dilinin səsləri quruluşunun dəqiq təsvir edilməsinə mane olur. Belə mübahisəli hərflərin fonetik dəyərini burada müəyən etmək iddiasında olmasaq da, bəzisi haqqında müşahidəmizi açıqlayıb uzmanlarla paylaşmağın yararı vardır.

Etrusk yazılarında [f] səsi kimi oxunan *8* hərfi əslində [b] səsi kimi oxunmalıdır. Bunu ***Tebariy*** adının Pirqi lövhələrində aramey və etrusk yazılış variantlarında görmək olur:

arameycə		- TBRY>
etruskca		- THEBARİEİ

Bu adın yanlış olaraq etruskca *Tefariy* kimi oxunmasının bir səbəbi də etruskologiyada dərin kök atmış "etrusk dilində [b], [d], [g] samit səslərinin olmaması" fikrindən doğur. İki dilli yazılar belə mübahisəli məsələlərin aydınlaşmasına yardım edir. Yenə [b] səsilə bağlı bir adın latın və etrusk dilində yazılışını əks etdirən ikidilli yazıya (TLE 462) baxaq.

etrusk: *cae trepu*
latın: *c. treboni*

Bu yazıda *Cae* (Kay) *Trepu* adının latınca *C. Treboni(us)* şəklində yazılması p//b, u//o qarşılığını ortaya çıxardır. Bəlli olur ki, etrusk yazısında *p//b* və *u//o* qoşa səsləri eyni hərflə verilə bilir. Bu *p//b* qarşılığını *Trebi* adının keçdiyi başqa bir ikidilli yazı (TLE 541) da təsdiq edir:

etrusk: *ath: trepi: thanasa*
latın: *ar. trebi. histro*

Göründüyü kimi, etrusk dilində [b] səsinin olmadığını söyləmək doğru deyildir. Düşünmək olar ki, əvvəllər etrusk yazılarında ***B*** hərfilə verilən bu səsi sonrakı çağlarda ***8***, bəzi yazılarda isə p [p] hərfilə bildirmişlər. Etrusk əlifbasında işarələrin doğru oxunması çox önəmli məsələdir. Özəlliklə, dilarxası samit səsləri bildirən hərflərin dəqiqləşməsinə ehtiyac vardır. Türk dili kimi etrusk dilində də səsuyumu (sinharmonizm) qanunu olduğu üçün bu samit hərflərin dilönü (incə) və dilarxası (qalın) saitlərlə işlənməsi diqqətə alınmalıdır. Türk runikasında sait-samit harmoniyası

etrusk yazılarında da özünü göstərməlidir. Nəzəri baxımdan dilarxası samitlərə aid hərflər etrusk dilində bu səsləri bildirə bilər:

türk	k	q	g	ğ	etrusk	k	q	g,ğ,v	x,h
	𐰴	𐰾	𐰽	𐰺		𐌊	𐌒	𐌂	𐌇

Bu baxımdan, etrusk yazılarında 𐌘 hərfinin yalnız [v] samit səsi kimi, 𐌒,q hərfinin isə [x] samit səsi kimi oxunması yanlışdır.Yeri gəldikcə, bəzi yazıların oxunuşunda bu işarələrin bildirdiyi səslər üzərində dayanacağıq. Burada yalnız 4 hərfin etrusk yazısında 4, türk runikasında isə 9 səs bildirməsi faktına önəm verməkgərəkir, çünki bu durum səs harmoniyasını etrusk dilində əks etdirmir. Bu baxımdan, etrusk hərfləri də ən azı 6 saiti bildirməlidir.

etrusk	a	e	i	u	
	𐌀	𐌄	𐌉	𐌅	
türk	a ə e	e	ı i	o u	ö ü
	𐰀	𐰆	𐰋	𐰇	𐰍

Yunan-latın hərflərilə yaxınlığı olan etrusk əlifbasında əksər hərflərin hansı səsi bildirməsini müəyən etmək etruskoloqlar üçün o qədər çətin olmamışdır. Belə ki, etrusk yazılarında yunan-latın dillərindən alınmış bəzi yer, şəxs və tanrı adlarını bildirən onomastik sözlərin yazılışında hərflərin səs dəyəri, az da olsa, bir neçə latın-etrusk ikidilli kiçik mətnlərin varlığı etrusk əlifbasının düzgün müəyyənləşməsi üçün imkan vermişdir. Doğrudur, artıq etrusk əlifbası əksər tədqiqatçılar üçün mübahisə doğurmayan bir məsələyə çevrilmişdir, lakin bir neçə hərfin hansı səsi bildirməsi hələ dəqiq öyrənilməmişdir. Çünki yunan-latın dillərində olmayan bəzi səslər etrusk dilinin özəlliyini təşkil edir, onların əlifbada hansı hərflərlə ifadə olunduğunu tapmaq üçün ciddi araşdırmalara ehtiyac vardır. Buradakı hərflərdən yalnız *s, z* səslərini bildirənlər quşqu doğurmur.



Etrusk dilinin fonemlər sistem sait səsləri bildirən hərflərin doğru müəyən edilməsindən çox asılıdır. Bu nədənlə, etrusk əlifbası ilə eyni qaynaqdan olan göytürk runuk əlifbasında özünü göstərən eyni işarənin, yuxarıda deyildiyi kimi, işləndiyi sözdən asılı





olaraq dilarxası və dilönü saiti ifadə etməsi etrusk dilində saitləri bildirən hərflər üçün də keçərli ola bilər.

Uzmanlar müxtəlif sözlərdə işlənən **κ**, **Κ**, **Γ** hərflərini [k] səsi kimi oxuyurlar. Halbuki, elə etrusk yazıları var ki, bu hərflərin üçü də orada işlənir. Örnəyin, Toskana (Tarquini) adlanan bölgədə m.ö.VII əsrə aid bu yazıya baxaq: [501]

mивелелтщускакригунумесиесипутескраитиле стщиспутес

Ми вел ел Тускак яри Гунуме(с) иеси пу те(с). Кара іт ил еşти(с) пу те(с)



Bu yazıdan bəlli olur ki, **κ** hərfi *ka* və *kak* hecalarının başında, **Κ** hərfi *kak* hecasının sonunda, **Γ** hərfi isə *qu* hecasında işlənə bilir:

thuskac
qunumes
kra [kara]

Troya savaşına aid bu şəkildəsə Aicas [Aykas] ilə Axillesin [Aqle] adı yazılmışdır. Burada **Κ**[k] və q[q] işarələri ***kas*** və ***aq*** hecalarında görünür:

Etrusk yazılarında q hərfi hər yerdə [x] səsi kimi oxunur ki, bu da gerçək durumu əks etdirmir. Doğrudur, həmin hərfin bildirdiyi [q] səsinin fonetik inkişafda [x] səsinə keçməsi azər türkcəsində olduğu kimi (*oq* > *ox*) normal haldır, lakin bu fonetik dəyişməni bütün sözlərə şamil etmək doğru deyildir. Eyni yozum **ϖ** hərfi üçün də keçərlidir. Belə ki, etrusk yazılarında bu hərfin yalnız [v, w] səsi, bəzən hətta [f] səsi kimi oxunması da fonetik sistemin inkişafında *g* > *ğ* > *v* dəyişmələrinin gözardı edilməsi ilə bağlıdır.

[501] Bəzi etrusk yazılarında durğu işarəsi kimi nöqtələr verilməmişdir. Belə yazıların oxunuşunda sözlərin sınırını doğru tapmaq çətindir. Durğu işarəsi olmayan bu yazını da etruskoloqlar belə yanlış transkripsiya edirlər: **mi velelthus kakriqu numesiesi putes kraitiles this putes**

Səs quruluşu baxımından etrusk dili ilə çuvaş dili arasında bənzərlik vardır. Azər türkcəsindən fərqli olaraq, bu dillərdə samit səslər cingiltili və kar əlamətə görə zəif fərqlənir. Bu baxımdan, p/b, t/d, s/z, x/q səsləri etrusk yazılarında işlənmə yerinə görə fərqli oxuna bilir.

Etrusk mətnlərini oxumaq üçün öncə runik əlifbanın işlənmə özəlliyi, istifadə olunduğu dilin yazı qaydaları tədqiq olunmalıdır. Doğrudur, etruskologiya elminin bu shədə müəyən araşdırmaları, uğurları vardır, lakin etrusk dilinin orfoqrafiyasında hələ cavabını tapmamış xeyli suallar da vardır. Belə suallardan bir-ikisinə burada aydınlıq gətirməyə çalışaq.

Etrusk yazıları ilə məşğul olanlar bilir ki, bu dildə bir sıra sözlərin yazılışı bir-birindən fərqlidir. Örnəyin, Ön Asiya mənşəli *Goroqlu* adı etrusk yazılarında *Herecele, Hercle, Xurcles, Kuruqile, Xurxles, Heracle, Herxle* variantları ilə görünür. Bu etrusk güzgüsünün arxasında Herakl və Atlant motivindəki rəsmdə isə Heraklın adı **Kuruqile** kimi yazılmışdır:

HERAKL və ATLANT motivi
Etrusk güzgüsü (fraqment)

Adların yazılışındakı fərqləri görmək üçün bir neçə örnəyə baxmaq kifayət edər:

Troya kralı Priamın oğlu Aleksandrın adı: *Alexsantre, Alcsentre, Alaxsantre, Elaxšntre, Elcsntre, Elxsntre.* Menerva tanrıcanın adı: *Merva, Meneruva, Menrva, Menrua, Mnrva.*

Belə yayğın və hamının bildiyi bu adların yazılışında görünən müxtəliflik, təbii ki, o qədər də bilinməyən sadə apelyativ sözlərin yazılışında da vardır və bu durum etrusk yazılarının oxunuşunda nəzərə alınmalıdır:

apurthe - apurte, aule - afle, mulach - malak - mlach
mlacaš - mlakaš - mlaxas, larth - lart, kara - cara
kape - cape, zicu - zixu,

Türk el qurumunda titul olub bir sıra Avrasiya xalqlarının da dilinə keçmiş *tarkan, tarxun* sözləri həm də şəxsadı kimi işlənmişdir. Tarqun (Tarxun) adının etrusk yazılarında bu variantları vardır: *Tarquenna, Tarquinii, Tarxunies, Tarxun, Tarxunie, Tarxunus*. Etruriyada tapılan yazılarda etruskların hətta öz etnik adı olan *rasena* (aras-ena) etnonimi də *rasna, rašna, rašne, rašneš, rasnea* formalarında yazılmışdır.

Göründüyü kimi, etrusk yazılarında eyni sözün müxtəlif cür yazılışı var və bunların hamısını imla (orfoqrafiya) xətası saymaq olmaz. Belə sözlərin yalnız bir qismi yazarın savadı üzündən yanlış yazıla bilərdi. Əsas cəbəb isə etrusk dilinin bir neçə dialektə ayrılması ilə bağlı idi. Əslində, burada söhbət bir ədəbi dildən (etrusk) ayrı-ayrı dialektlərin yaranmasından deyil, ortaq dili formalaşdıran müxtəlif kökənli boyların dialektlərindən gedir. Deməli, etrusk dilinin açarını tapmaq üçün öncə bu dilin dialektlərini əks etdirən yazıların qruplaşdırılıb sistemə salınması da gərəkir.

Etrisk sözlərində bəzi saitlərin yazılmaması əlifbanın fonetik və sillabik (hecalı) yönlərilə qarışıq xarakter daşıması ilə bağlıdır. Ona görə, müəyən sözlərdə samitlər, daha çox sonor samitlər (r, l, m, n) yazılmayan saitərlərlə heca şəklində oxunanda sözün etrusk dilindəki anlamı türkcə qarşılığı ilə ortaya çıxır.

lupu [olupu] "olüb", *klan* [oklan] "oğlan",

rth [erti] "erti//idi", *rth* [erat] "ər adı", *ril* [eril] "ər il"

Göytürk və etrusk yazılarında *a/ə* və *s* kimi oxunan **|,** a hərfi hər iki yazıda bəzən sözlər arasında durğu işarəsi (ayırıcı) vəzifəsini daşıyır. Bu halda **|,** a durğu işarəsi nöqtə və vergül kimi ayrıca səs bildirmir. Ona görə də belə orfoqrafik qaydaları bilməyən etruskoloqlar, özəlliklə uzman olmayan həvəskar araşdırıcılar bir çox mətnin transkripsiyasını yanlış verir. Örnəyin, lemni yazısında **ssgas : agss** sözlərini P. Kaya ***ssaqas : aqass*** şəklində oxumaq istəmişdir, halbuki həmin deyim (Z) ***sugas*** : ***agıs*** (Z) şəklində oxunmalıdır.

Etruskoloqlar kimi bəzi türkoloqlar da eyni yanlışlığa yol verir. Örnəyin, bugün Rusiya türkoloqlarının öndəri sayılan türkoloq S. Q. Klyaştornı mry a kÜÇ a mrht yazısında a durğu işarəsini ayrıca söz kimi oxuyur: *tanrım a öçük a yerim*. [502] Halbuki, burada "*tanrım öçük yerim*" deyimi yazılmışdır.

Bugün soy-şəxs adlarının yazılışında geniş istifadə olunan **M**(irzə) **F**(ətəli) Axundov kimi **qısaltmalar** etrusk çağından işlənir. Etrusk yazılarında, özəlliklə başdaşı epitafiyalarında yayğın olan bəlli adların, çoxişlənən sözlərin baş hərfi yazılır. Belə qısaltmaların bütöv forması ikidilli yazıda asan bərpa oluna bilir. Örnəyin;

TLE 514.

[502] Кляшторный, 1976, 68-69.

(latınca): **lart cae caulias**

(etruskca): **l. cae. caulias** (*Lart Kayı Kaulias*)

Bu ikidilli yazıdan öyrənmək olur ki, etrusk variantında yalnız baş hərfi (*l*) yazılan söz *Lart* adı imiş. Deməli, epitafiyalarda rast gəldiyimiz *l* hərfli qısaltma *Lart* kimi oxunur. Etrusk yazılarında qısaltmalar əsasən epitafiyalarda, başdaşı yazılarında özünü göstərir.

Bəzi qab-qacaq, nəsnələr üzərindəki yazılar ***mi*** (*mən*), ***mini*** (*məni*) əvəzliyilə başlanır və yazılı nəsnənin kimə məxsus olması, kim tərəfindən yapılması və ya kimə sunulması bildirilir. Bu tür yazılara başdaşı üzərində də rast gəlmək olur:

TLE 247: **mi larises telathuras suthi** (*Mən - Laris Teletura qəbri*)

TLE 154: **mi lartha** (*Mən Lartınam*)

ETP 341: **mi cailes cutus** (*Mən - Kaylenin qutusu*)

TLE 338: **mi mamerces: artesi** (*Mən Mamerkenin artesiyəm*)

TLE 35: **mini muluvanece Avile Vipiiennas** (*Məni ərmağan etdi Avile Vibiyenna*)

Başdaşı yazılarının əksərində ölənin yalnız adı və soyadı qeyd olunur. Belə epitafiyalar adətən ***th, ath, arth*** hərflərilə başlanır ki, bunun qədim türk epitafiyalarında olduğu kimi ***ad, ər ad*** olacağını düşünmək olar. Bu baxımdan, bəzi yazıların başında gələn ***arnth*** sözünü də ***ərən ad*** kimi yozmaq mümkündür. Örnəyin,

ETP 236: **ath : sethrna : cracias** (*Adı Seturna Kraki-as*)

ETP 237: **ath : sethrna : clanti** (*Adı Seturna oqlan-ti*)

ETP 313: **arnth · vipina · cuφre** (*Ərən adı Vipina Kubre*)

Bəzi başdaşı yazıları bütöv cümlə şəklində olur. Örməyin, m.ö.VI əsrin sonuna aid epitafiya (ETP 333) belə yazılmışdır: **larth laucies thamequ larecesi ka iserithesi celeniarasi mini zinece vethur kam artethi** (*larth ? laukiesl ? tama qulare keşika içeritesi keleni arasi, məni ineke getur, kam ər tedi*).

Bir saxa (yakut) məktəbə *uşukula* deyirsə, deməli onun ana dilində rusca *şkola* sözündəki səs düzümü yoxdur. O, tələffüz edə bildiyi vərdişlə bu sözü ana dilində sözlərin səs-heca quruluşuna uyğunlaşdırır, dilcilikdə buna *interferensiya* deyilir. Etrusk dilində də alınma sözlərin yazılışı göstərir ki, onlar bəzi yunan-latın sözlərini tələffüz etməkdə çətinlik çəkir-

mişlər, belə sözləri ana dilinin fonotaktikasına uyğunlaşdırıb deyirmişlər: *Apollon > Apulu, Axilles > Aqil* və s.

Etrusk yazılarında fleksiya kimi görünən *usil//uselna* tipli sözlərdə sait əvəzlənmələri vardır. Lakin bilmək olmur ki, burada *i/e* əvəzlənməsi usil sözünə şəkilçi qoşulanda baş verir, yoxsa *usil//usel* fərqi dialekt özəlliyi və ya ayrı nədənlə bağlıdır. Eyni sözü *clan //clenar* kimi a//e əvəzlənməsini əks etdirən örnəklər haqqında da demək olar.

Etruskoloqlar tipoloji baxımdan etrusk dilini aqqlütinativ (*eklemeli*) saysa da, sözlərin tərkibində görünən səs əvəzlənmələrini flektiv dillərdəki duruma bənzədir və müxtəlif formalı şəkilçilərin eyni qramatik funksiya ilə bir sözdə işlənə bilməsini, belə durumun qoşma və bağlayıcılarda da görünməsini *inflected* və *uninflected* terminlərilə verirlər. Əlbəttə, etrusk dilinin morfonoloji quruluşundan yalnız bu dilin açarı tapılandan sonra danışmaq olar, çünki sadalanan özəlliklər morfonoloji qaydalar deyil, sadəcə dialekt fərqlərilə də bağlı ola bilər.

Etrusk yazılarında bəzi saitlərin yazılmaması əlifbanın tam fonetik deyil, hecalı (*sillabik*) yazı növü ilə qarışıq bir əlifba olduğunu düşünməyə əsas verir. Bu baxımdan, morfonoloji özəllikləri əks etdirən sillabik yazı qaydalarını dəqiqləşdirməklə etrusk dilinin morfonoloji quruluşunu ortaya çıxarmaq olar.

Etrusk dilinin hansı dil ailəsinə aid olması onun morfoloji quruluşundan asılıdır. Tipoloji baxımdan etrusk dili bitişkən (aqqlütinativ) dillərdəndir, yəni türk dili kimi söz kökünə qoşulan şəkilçilər ona yeni leksik və qramatik məna verir. Belə dillərdə önqoşma olmur. Məsələ burasındadır ki, etrusk yazılarında şəkilçiləri müəyyən etmək o qədər də çətin deyil, lakin onların qramatik yükünü, hansı vəzifə daşımasını ayırd etmək isə çətinlik yaradır. Örnəyin, yazılarda çox işlənən oğlan anlamındakı *clan* sözünə bu şəkilçilər qoşula bilir:

clan [klan] "oqlan"

- iu
- iu-s-a
- iu-š
- ti
- te-š
- in-š-l

Tipoloji baxımdan etrusk dili *eklemeli* dil olduğu üçün türk dillərindəki kimi, burada da söz kökünə bir neçə şəkilçinin dalbadal qoşulması doğaldır:

türk: ***göz**-əl-lik-lə*; etrusk: ***larth**-al-iş-la*

Bəzi etruskoloqlar etrusk dilinə hindavropa dillərindən biri kimi baxdığından bu dilin morfologiyasını o dillərin qramatik kateqoriyaları ilə yoz-

mağa çalışırlar. Etrusk dilində olmayan çins bildirən morfemlər axtarır, hətta onların hallanma formalarını "tapır", bəzi adların sonluğunu isə adlıq hal forması kimi verirlər.

Etrusk dilində isimlərin hallanması haqqında müəyyən bilgilər əldə edilmişdir, lakin bu sahədə uğurlar etruskoloqların güman etdiyi qədər də deyil. Hər halda, hələlik uzmanların hallara aid qəbul edib razılaşdıqları ortaq fikirləri gözdən keçirəndə etrusk dilində sözlərin hallanması ilə türk dili hallanma sistemi arasında müəyən bənzərlikləri görmək olur.

Türk dilləri kimi etrusk dilində ***adlıq halın*** (*nominativ*) şəkilçisi yoxdur: *apa* (apa, ata), *klan* (oğlan), *spur* (şəhər). Uzmanlar etrusk dilində ***yiyəlik halın*** (*genitiv*) iki cür (*-s//-ş* və *-l*) şəkilçı ilə yarandığını yazırlar: *apa-s* (apa-nın), *spur-al* (şəhər-in), *Laris-al* (Laris-in), *Ramtha-ş* (Ramtanın). Etruskologiyada cəmlik şəkilçisi ilə işlənən yiyəlik halın *-ra-s* (canlı), *-xva-l* (cansız) formalarını qeyd edirlər. Əgər bu yorum doğrudursa, onda türk morfoloji sistemindən kənarda qalan bu qramatik göstəricinin (canlı-cansız) etrusk dilində hansı dilin qalığı olması araşdırılmalıdır. Bəzi uzmanlar *-is, -(a)ls* şəkilçilərini ikiqat yiyəlik (*dubl genitiv*), bəziləri də ***birgəlik halı*** kimi I ablativ, II ablativ adlandırırlar.

M. Pallottinonun etrusk dilində yiyəlik halın iki şəkilçisi olması haqqında yozumunu A. Ayda xanım dolaşıq və yanlış sayır, doğru olaraq, bu şəkilçilərdən birini (*-s*) mənsubiyət bildirən morfem kimi dəyərləndirir və həmin şəkilçiyə aid bu örnəyi verir: [503]

Avileska apas - "*Avileska(nın) apa-sı*"
Avileska-l apas - "*Avileska-nın apa-sı*"

Göründüyü kimi, etrusk dilində yiyəlik, birgəlik halları və mənsubiyət bildirən şəkilçilərin dəqiqləşməsinə ehtiyac vardır. Əvvəla, nəzərə almaq lazımdır ki, eklemeli dillərdə olmayan ***erqativ*** halın etrusk dilində axtarılması əvəzinə bu dildə olması gərəkən ***mənsubiyət*** şəkilçisi tapılmalıdır. Bunun ipucu söz sırasıdır: təyin olunan sözün sonra gəlməsi, mənsubiyət bildirən şəkilçinin də ona qoşulması diqqqətə alınmalıdır. Bir nəsnənin kimə məxsus olması onun üzərindəki yazıda mənsubiyət göstəricisinin işlənməsi ilə bəlirlənir. Örnəyin, "Mən Mamerkenin artesiyəm (sancağıyam)" deyimi olan bu yazıda (TLE 338) mənsubiyət bildirən *-si* morfemi belə verilmişdir: mi mamerces arte-si (*mən mamerke-nin arte-si*)

[503] Ayda, 1992, 235-236.

Etrusk dilində ***təsirlik halı*** (*akkuzativ*) qıpçaq qrupu türk dillərində (*ev-ni*) olduğu kimi *-ni* şəkilçisilə bildirilir. Bunu I şəxsin təkini bildirən *mi* (mən) əvəzliyi aydın sərgiləyir: *mi-ni* (məni). Həmin formada şəkilçi samitlə bitən sözlərə də qoşulur: *spur-ni* (şəhər-ni). Azər türkcəsində isə *-ni* şıkilçisi saitlə bitən sözə qoşulur: *evi-ni, quyu-nu.* Bəzi etrusk yazılarında *mini* ilə yanaşı *mine//mene* sözlərində də təsirlik halın morfemi (*-ne*) olduğunu söyləyirlər. Bununsa doğru olub-olmadığını mətn daxilində yoxlamaq gərəkir.

M. Pallottino əski etrusk yazılarında ***yönlük hal*** (*dative*) şəkilçisinin *-a* formantı ilə bildirildiyini qeyd edir.[504] Türk dillərində həmin şəkilçinin *-a//-ə, -qa//-gə* kimi bir neçə fonetik variantı vardır.

Etrusk dilində ***yerlik halın*** (lokativ) *-thi//- ti* şəkilçisilə işlənməsi söylənir: *spur-ti* (şəhər-də), *klan-ti* (oğlanda). Bəzi türk dillərində bu morfemin *-te* variantı etrusk deyiminə çox yaxındır: *el-te* (eldə).

Bəllidir ki, türk dillərində ***cəmlik*** bildirən *-lar* şəkilçisi topluluq bildirən *-la, -ar* şəkilçilərininqovuşması ilə (la + ar = lar) yaranmışdır. Vaxtilə həmin *-ar* morfeminin türk və etrusk dillərində cəmlik bildirən eyni şəkilçi olduğunu göstərmişdik.[505] Bəzi uzmanlar *-r* şəkilçisini canlı, *-xva//-cva//-va//-ua* şəkilçilərinisə cansız məfumlar bildirən sözlərə qoşulduğunu söyləyirlər: *ais* (tanrı), *ais-er* (tanrılar); *marunu-xva* (marunular).

Beləliklə, etrusk və türk dillərində hal və kəmiyət göstəricilərinin bu qısa və ötəri müqayisəsi də göstərir ki, əlifbada olduğu kimi, qramatik qatda da bu dillərin ortaq elementləri vardır. Örnəyin, hər iki dildə eyni anlamlı *apa* sözünün hal və mənsubiyət şıkilçilərilə işlənməsini belədir:

İsmin halları	**tək və cəmdə**	**türkcəsi**
adlıq (nominativ)	*apa*	*apa*
	**apa-(a)r*	*apa-(la)**r***
yiyəlik (genitiv)	**apa-(a)l*	*apa-(n)**ın***
	**apa-r-al*	*apa-**lar-ın***
təsirlik (akkuzativ)	**apa-ni*	*apa-**nı***
	**apa-r-ni*	*apa-**lar-nı***
yönlük (dative)	**apa-a*	*apa-(g)**a**//-(y)**a***
	**apa-r-a*	*apa-**lar-a***

[504] Pallottino, 1975, 215.

[505] Ağasıoğlu, 1988, 195.

yerlik (locativ)	**apa-**ti***	*apa-**ta***
	apa-r-ti***	*apa-**lar-ta***
çıxışlıq (ablativ)	?	*apa-tan*
		apalar-tan
birgəlik	?	*apa-(y)nan//la*
		apalar-nan//la
Mənsubiyət	**apa-**s**(i)*	*apa-**sı***
	apa-r-si***	*apa-**lar**-(*s)**ı***

Etrusk dilində ***əvəzlik*** kimi işlənən sözlərin olmasına heç kim şübhə etmir, lakin bunların şəxs, işarə, sual əvəzlikləri üzrə müəyyənləşdirilməsi hələlik tam başa çatmayıb. Bəzi işarə əvəzliklərinin fonetik dəyişmələrə uğraması söylənir: *ita* > *eta* > *ta*, *ika* > *eca* >*ca*. I, III şəxs əvəzliyini bildirən sözlər və bəzi işarə əvəzlikləri etrusk və türk dillərində oxşardır:

şəxs əvəzliyi	**etrusk**	**türk**
I	mi	mən
II	?	sən
III	an	an, o
	vil	ol, vil (*çuvaş*)
işarə əvəzliyi	pi, pul	bu(l)
	an, in	an, in, ol

Etrusk dilində qoşma, bağlayıcı, ədat, inkarlıq morfemi bəlirlənməyib. Bəsit sintaktik quruluşlu bu dildə önqoşma, cins kateqoriyası yoxdur. Köməkçi feillər, feilin zaman, növ formaları hələlik o qədər də aydın deyil. Uzmanlar keçmiş zamanı bildirən *-ce* (*-ke*) şəkilçisini göstərirlər:

sval-ce [sağalke] - *yaşadı, sağaldı;* lupu-ce [ölupuke] - *öldü, ölübdü*
muluvani-ce [muluvanike] - *yapdı, qayırdı*

Beləliklə, etrusk dilinin müxtəlif qatlarına ötəri baxış bir daha bu dilin qarışıq olduğunu, burada türk dili ilə yanaşı başqa bir (və ya iki) dilin özəlliklərinin də yer aldığını göstərir. Etrusk əlifbası göytürk əlifbası ilə eyni mənşəlidir və bu dil fonetik, leksik, bəzi qramatik göstəricilərə görə çuvaş dilinə yaxındır. Tipoloji baxımdan bitişkən (aqqlütinativ) dillər qrupunda olan etrusk dili ilə türk dilləri arsındakı bağlantı 3 minil öncəyə dayanır. Birləşik dillərin morfonoloji quruluşundakı konservatizm etrusk-türk əlaqələrinin ortaya çıxarılmasına imkan verir. Bu imkan isə etrusk dilinin daxili dialekt özəllikləri öyrənildikcə daha da artacaqdır.

Bunun üçün ilk növbədə etrusk yazılarının bölgələr üzrə, həm də mövzulara görə qruplaşdırılması gərəkir.

XIX əsrdə Etruskların mənşəyi problemi qabarıq şəkildə gündəmə gəldi, çünki bu dönəmdə hindavropa dilli xalqların vahid dil ailəsinə mənsub olması yeni yaranmış tarixi-müqayisəli diçilik elmilə sübut olunmuşdu. Avropa mədəniyətinin kökündə duran etrusklarin dilisə bu ailəyə girmirdi. Buna görə, etrusk sorununu çözmək istəyi aktuallaşmışdı. Həllini gözləyən məsələlərsə etruskların mənşəyi və etrusk yazılarını oxumaq idi. Etruskologiyada daban-dabana zidd yorumlar nəticəsində etruskların dili kimi, soykökü də çözülməz hala gəlmişdir. Ancaq ziddiyətli yorumlar arasında gerçək durumun çözümünə yardım edən fikirlər də vardır. Hələ XIX əsrdə Corc Dennis etruskları *qarışıq etnos* kimi öyrənməyin əhəmiyətli olacağını qeyd etmiş, ən azından, yerli uruqlarla qaynayıb-qarışmasının quşqu yaratmadığını söyləmişdir. Etruskların soykökü probleminə bu yanaşma doğrudur, çünki etruskca yazılmış mətnlərin qramer özəlliyi də qarışıq dil elementlərilə diqqəti çəkir. Bu qarışmanın etrusklar hələ Anadoluda ikən başlandığını düşünə bildiyimiz kimi, onların İtaliyaya köçündən sonra gerçəkləşə biləcəyini də gözardı etmək olmaz.

Herodot İtaliyaya etrusk (*tirsen*) boylarının Lidiyadan köçdüyünü yazır. Belə bir köçün daha öncə Troyadan olması haqqında da bilgi vardır. Olsun ki, Anadolunun batı bölgələri sayılan Troya və Lidiyadan olan köçlərdə bir neçə yaxın qonşu və qohum boylar iştirak etmişlər. Bunlar eyni və ya fərqli dildə danışan boylar ola bilərdi, ancaq bunların içində türklərin olması və onların da Anadolunun batı bölgələrinə doğudan, Anadolunun doğusundan və Qafqazın güneyindən gəlməsi quşqu doğurmur.

Etruskların Qafqazla bağlı olmasını S. Ferri Etruriyanın onomastikası ilə yorumlamışdır. Yazar Etruriyada mövcud olmuş *rutul, kaska* etnonimləri və Aqill, Sovan toponomlərinin qaynağını Qafqaz xalqlarından *rutul, aqul, svan, kaska* boyları ilə bağlayır.[506] Əslində, qədim kaskaylar (*qaşqay boyları*) Qafqazda deyil, hatların quzey-doğu qonşusu kimi m.ö. II minilin başlarından Anadolunun orta bölgəsilə Qaradəniz arasında yaşayan türk boyları idi.[507]

---

[506] Ferri, 1964, 497-498.

[507] Qədim kaskay (qaşqay) boyu haqqında geniş bilgi üçün bax: Ağasıoğlu, 2005, 54-62.

Qafqaz-Etrusk paralelləri sırasında daha çox etnotoponim diqqəti çəkir, çünki boyadı ilə yaranmış toponimlər adını daşıdığı boyun həmin yerdə yaşadığını göstərən tarixi tutalqa sayılır. Bu baxımdan, Qafqazda olan boyadları İtaliyada da görünürsə, bunların içində *alban, araz, ermen, qamər, kaspi, kayı, qapan, qaradon, ərsaq, subar* kimi türk etnonimləri və *aqul, udi, çeçen, silv, rutul* kimi qafqazdilli boyadlar da varsa, deməli, miqrasiyada türk və qafqazdilli boylar iştirak etmişlər.

Əgər Qafqaz-İtaliya paralelləri kimi görünən *silv-silviya* (soyadı), *rutul-rutul* etnonimlərini, *Çeçen-Çeçina* və *Udi-Udin* etnotoponimlərini, *Aqul-Aqill* toponimlərini qafqazdilli saysaq, aşağıdakı qarşılaşdırmada türkcə olan örnəklərdən yalnız *Tarqu* şəhərinin Dağıstanda, *Tiberda* çayının Karaçay elində (Tatarstanda *Timer* çayı var) olduğunu nəzərə alsaq, yerdə qalan adların Azərbaycanda, Xəzərdən Doğu Anadoluyacan uzanan bölgələrdə olduğunu görərik:

QAFQAZ-AZƏRBAYCAN	İTALİYA
Alban (yeradı, boyadı)	**Alban** (yeradı, boyadı)
Albana (çayadı)	**Albina** (çayadı)
Arpa (toponim)	**Arpi** (toponim)
Araz (çayadı, teonim)	**Arezzo** (etnotoponim)
Aras-pican (etnotoponim)	**Aras-ena** (etnotoponim)
Arsaq (etnotoponim)	**Artsak-ena** (Sardinyada yeradı)
Ermen (etnotoponim)	**Arimin** (toponim)
Çiloy (ada)	**Cilo** (ada)
Tiber (çayadı)	**Tibr** (çayadı)
Kamər (yeradı, boyadı)	**Kameriya** (şəhər)
Kapan (etnotoponim)	**Kapen** (şəhər)
Karadon-lu (etnotoponim)	**Kortona** (şəhər)
Kaspi (etnotoponim)	**Kasperia** (şəhər)
Kür (çayadı)	**Kuri** (şəhər)
Ordu-bad (yeradı)	**Orte** (şəhər)
Subar (etnotoponim)	**Sibaris** (şəhər)
Tarqu (etnotoponim)	**Tarquini** (şəhər)

Göründüyü kimi, həm Qafqaz (Azərbaycan), həm də İtaliyada eyni etnotoponimlər var, bunların kökündə yuxarıda sadalanan türk boyadları durur. Yuxarıda bugünkü durumla bağlı qafqazdilli kimi verilən Çeçen və Udi etnotoponiminin və rutul etnoniminin o dönəmlərdə qafqazdilli söz olduğunu sübut edəcək əlavə bəlgələr yoxdur, əksinə, Udi, Çeçen adları

daha çox doğu türklərdə işlək addır. Eneyin də rutul boyları ilə savaşda ölməsini yazan Appian rutulu *tirren* boylarından biri kimi verir (΄Ρουτούλων τών Τυρρηνών). Bəzi antik çağ yazarlarına görə isə, İtaliya əhalisi içində ən çox etrusklarla barışda olub dostluq edənlər *sibar* boyları idi.[508]

Etruskların, daha doğrusu, protoetruskların Azərbaycandan Anadolunun batı bölgələrinə, oradan da İtaliyaya köçməsini təsbit etmək üçün öncə köç olayının tarixini və həmin köçün hansı adı daşıyan boylara aid olmasını ortaya çıxarmaq gərəkir. Etruriyaya miqrasiyanın Troyadan və Lidiyadan müxtəlif tarixdə olması Qafqaz-Troya və Qafqaz-Lidiya yolunu keçən köçlərin də fərqli tarixlərə aid olmasını ortaya çıxarır. Belə ki, Troya savaşından öncə baş vermiş Qafqaz-Troya köçünün tarixi m.ö. XIII əsrdən əvvəlki çağlara aiddirsə, Qafqazdan Lidiyaya köçün tarixi də m.ö.VIII əsrdən əvvələ aiddir.

Strabon qeyd edir ki, yunanlarla savaşdan öncə 9 sancağa bölünən Troya Priamın vaxtında vahid ölkə kimi idarə olunurdu.[509] Savaşdan sonra burada Eneyə qoşulub İtaliyaya üz tutan köçmənlərin içində türklərin ola biləcəyini göstərən bəlgə əsasən onomastik sozlərdir. Belə ki, burada türk izini əks etdirən *İdı*, *Qarqar* dağları (oronimləri), türk ellərində yayğın olan Dardan, Eney, Priam (*Pirim, Piryam*), Askaniy (*Azkan*), Amuliy (*Amulca*), Paris (*Barıs*), Alber (*Alpər*), Prok (*Pörük*) və sair bu kimi antik çağ yazarlarının əsərlərində geniş işlənən şəxsadları (antroponim) vardı.

Troyadan gedən etrusklarda ***as//asar*** teonimi olduğunu yuxarıda demişdik. Bu sözlərin Skandinaviyaya aparılması da Troyadan gedən türksoylu aslarla bağlıdır. Snorri Sturluson "Kiçik Edda" (1225) əsərini Skandinav saqaları əsasında yazmış, Avropanın quzeyinə ***as*** boyunun Troyadan gəlməsini özəllikə vurğulamışdır. Yazar əsərində Troya ilə bağlı bu deyimləri işlədir: [510]

Troya **türk ölkəsidir** (səh.10); **Türklərin olkəsini** tərk edib (səh.11);

---

508 Немировский, 1983, 57.

509 Strabon, XIII. I. 7.

510 Младшая Эдда, 1970; Azərbaycan tarixi elmində bu İsland qaynağını ilk dəfə 1988-də gündəmə gətirəndə mənə irad tutan bəzi tarixçilər bu bəlgələrin hun çağına aid olacağını deyirdilər, lakin Urmu teoriyasının ortaya qoyduğu bəlgələr artdıqca, etiraz edənlərin də fikri dəyişdi, artıq həmin Skandinav bəlgələri müxtəlif məqalə, kitablarda əsas arqumentlər sırasında yer tutur. Geniş məlumat üçün bax: Ъ я л и л о в , 1988 a; Azər xalqı, 2000.

Avropaya gələn **aslar** buraya **türk gələnəkləri** gətirdi və burada **türk törələri** tətbiq olundu (səh.12).

Göründüyü kimi, həm etrusk, həm də island dilində olan ais//as teonimi Troyadan gedən *as* boyadı ilə bağlıdır. Bu boy isə *azər* etnoniminin və *Azər* teoniminin kökündə duran qədim *as* boylarıdır ki, bunlar da Göytürk yazılarında adı keçən (*az*) türk boyudur. Dolayısı ilə, Azərbaycandan Troyaya, oradan da İtaliya və Avropanın quzeyinə *as, aser* sözlərini aparan türklərdir.[511]

Troya və Lidiyadan İtaliyaya köçən türk boyunun və ya boylarının adını öyrənmək üçün öncə etruskların öz adına və onlara kənardan verilən adlara baxmaq lazımdır. Hələ antik çağ yazarlarından Halikarnaslı Dionisi etruskların özlərinə *rasena* (ρασεννα) dediklərini qeyd etsə də, adın yozumunu, sözün anlamını verməmişdir. Dionisinin İki minil öncə yazdığı bu məlumata müxtəlif yorumlar yazılmış, lakin rasena adının gerçək açımı hələ bulunmamışdır. A.Trombetti bu adın *rasena* deyil, *arsena* olacağını yazmışdır.[512] Yazar gerçək duruma doğru bir addım atsa da, ikinci addımı atmayıb yarıyolda durmuşdur. Belə ki, *arsena* (*arasena*) sözü etruskların boyadını yox, yurdlarının adını bildirən ***Arasena*** toponimidir, boyadları isə ***aras*** etnonimidir. Deməli, etrusk yazılarında *Raśna* sözünü "aras eli" anlamında Arasna (Arasena) şəklində oxumaq lazımdır.

Azərbaycanda isə aras//araz boyadı bir sıra toponimin kökündə durur, hətta qədim çağlarda boyadları bildirən lulu-bi, azər-bi, tras-pi, kas-pi etnonimləri kimi aras-pi boyadı ilə də düzələn *Arospican* (aras-pi-can) toponimi vardı və bu bölgə Araz çayının orta axarı yaxalarına yaxın idi. Buradakı Arazboyu bölgələrdə *Arazdəyən* toponimi, musiqi adı *arazbarı* deyimi olduğu kimi, Urartu çağında da yuxarıda qeyd etdiyimiz *Arzaşku* (*Araz-aşqu*) toponimi və *Aras* teonimi (^{d}a-ra-za) vardı. Göründüyü kimi, Azərbaycanda qədim çağlardan araz sözü teonim, etnonim, etnotoponim kimi işlənmişdir.

---

511 Heredot Asiya qitəadının Prometeyin arvadı Asiyanın adından yarandığını qeyd edir və bir Lidiya rəvayətinə görə də Asiya adının Kotinin oğlu, Manesin torunu Asienin adından törədiyini və Sardda bir kvartala Asiad deyilməsini yazır (Herodot, IV. 45).

512 Trombetti, 1934, 46: Bizanslı Stefan araz boyunun Pont yaxasında da bir Ἄραζος (Arazos) adlı şəhərindən bəhs etmişdir (Гиндин-Цымбурский, 1987, 29). Görünür, bu araz//aras adlı boyların batıya miqrasiyası müxtəlif zamanlarda ayrı-ayrı dalğalarla baş vermişdir. Onların adına sonrakı bölmədə Lemni yazısında da rast gəlmək olur.

Deməli, etruskların özadı olan *aras* etnonimi protoazərlər içində *aras* (araz) boyadı kimi işlənirmiş. Türkdilli aras boyunun dili və əlifbası kimi, adı da müxtəlifdilli protoetrusk boylarının qovuşmasından yaranan etrusk toplumunun ortaq özəlliyi kimi dəyər qazanmışdır. Ancaq etruskların öz içində baş verən bu sosial olayla yanaşı, bir də etrusklara dışarıdan verilən ***etrusk*** adı və o adla tanınması durumu vardı. Bəzi uzmanlar *etrusk* adının *turski* etnonimindən *e-* önqoşması (prefiksi) ilə yarandığını söyləyirlər, lakin sami dillərində *etrak* (türklər), *ekrad* (kürdlər) deyimi *turusk* > *etrusk* dəyişməsini mümkün edir, yəni *etrusk* deyimi aramey və ya başqa bir sami boyunun dilində *turusk boyadının cəmlik forması kimi ortaya çıxa bilərdi. Bu baxımdan, öz içindən deyil, dışarıdan verilmə *etrusk* adının etimologiyası üçün qədim qaynaqlarda keçən *tirsen, tiras, turis, turşa* boyadlarına baxmaq gərəkir.

"Dəniz xalqları" adı ilə anılan boylar iki dəfə, biri Firon Merneptax (1225), digəri III Ramses (1192) çağında Misirə yürüş etmişlər. Troya da bu son yürüş dönəminə yaxın çağda yunanlılar tərəfindən dağıdılmışdı. Misir yürüşünə qatılmış *turuş* boyunu etrusklar olduğunu güman edən alimlər vardır. Vaxtilə biz də *turşa//turuş* etonimilə *turk//turuk* paralelliyini vurğulayaraq bu boylardan bir qisminin *tirsen//etrusk* adı ilə İtaliyaya köçdüyünü yazmışdıq.[513] Belə ki, Herodotun verdiyi bilgiyə də uyğun gələn köçün səbəbinin Kiçik Asiyada başlanan aclıqla bağlı olması həm də Merneptaxa aid bu yazıda əksini tapmışdır: "*Onlar Misirə aclıq üzündən gəlmişdi*".[514]

Herodot *tirsen* (etrusk) boyadını Lidiya elbəyi Atisin oğlu *Tirsenin* adı ilə bağlı yarandığını və tirsenlərin İtaliyaya köç nədənini quraqlığın gətirdiyi aclıq fəlakəti ilə bağlayır.[515] Etruskların öncə Sardiniya adasına, sonralarsa oradan İtaliyaya köçməsini əsaslandırmaq istəyənlər Sardiniyada olan *Tirsus* çayadına dayanırlar. Lidiyada da Sard şəhəri vardı. Antik çağ yazarları buradakı tirren boylarının *tirsis* (tyrsis) adını "qala", *tirsen* boyadını da "qalalı" anlamında yozmuşlar.[516] Herodotun saqa boyu kimi verdiyi *traspi* (*tiras-pi), *Tiras* çayının adı, X əsrdə Xəzər xaqanının məktubunda, Təbərinin yazdığı kitabda türk boyu kimi adı çəkilən *tirs* (turis)

513 Azər xalqı, 2000, 47 (59); 2005, 55-56.

514 Римшнейдер, 1977, 17.

515 Herodot, I. 94.

516 Немировский, 1983, 58.

boyu haqqında Skandinav tarixi bəlgələrində də "Türklər Nuhun torunu *Tiras* soyundan törəmişlər" deyimi keçir.[517]

Etrusk yazılarında (Kortona yazısı) keçən *tarsminaśś* və *tersna* sözlərini İtaliyadakı *Trasimeno* gölünün adı ilə bağlayanlar var. Dədə Qorqud kitabnda *Dirsəxan, Tərsuzamış,* Trakiyada *Teres* adlarında *ters* sözünə, Anadolunun Kilikiya, Mersin, Dersim bölgələrində *Tars*(*us*) adına rast gəlirik. Bir Asur qaynağında və Bibliyada keçən *Tarsis, Tarşiş* yeradının Lidiya və Troyaya yaxın olan Lesbos, Lemnos adalarında yaşamış *tirsen* (tirren) boylarının adı ilə bağlı olması da elmi ədəbiyatda qeyd olunur.[518] Beləliklə, Lidiya bölgəsindən İtaliyaya köçən tirsen (tirren) boyunun adındakı ***tirs*** (tirs-en) sözü ters//turs fonetik variantları ilə qarşımıza çıxır.

Latınların çətin tələffüz edilən *tursk* adını *tusk* şəklinə salıb etruskların bölgəsini *Toskana* adlandırması vaxtilə Dağıstanda olan *tusk* boyunu yada salır. Klavdiy Ptolemey Qafqaz-Kerav dağları arasında Xəzər dənizi yönündə *tusk, didur* boylarının yaşadığını yazır. Bəzi uzmanlar bu tuskların Pomponiy Melanın adını çəkdiyi *turk* boyu olacağını qeyd edirlər.[519]


Etrusk başdaşı, fraqment (Çertoz, m.ö.VI)

Beləliklə, etruskların özadı ***aras*** və onlara dışarıdan verilən *tirs-en/ turs-k* adının ***etrusk*** variantı ilə etrusk yazılarında *raśna,* latınca *etrusci,* italyanca *etruschi, tusci,* yunanca *τυρσηνοί, τυρρηνοί* şəklində ortaya çıxması normal haldır. Hər iki etnonimin (aras, tirs) türklərlə bağlı olması da tarixi qaynaqlarda qeyd olunmuşdur. Lakin protoetruskların ümumi adına çevrilən bu iç-dış (aras, etrusk) boyadlarından başqa etruskların içində *qamər, qayı, urum* kimi başqa türk soy-boyların olması da istisna deyil.

Latın çağında Romulus adlanan, italyanlarınsa *Romolo* dediyi adın *Urumulu* (Urmulu) şəklində bərpası mümkündür. Anadoludan gələn etruskların içində asur-urartu qaynaqlarından bəlli olan *urumu* (*urme*) boyu Van gölünün quzey-batısında yaşayan boylardan idi. İndiki Muş ovalığında olan Urman kəndinin adını Subar bəyliyi çağından qaldığını vurğulayan N. V. Arutyunyan yazır: "Düşünmək olar ki, Urartu qaynaqlarında Urme,

---

517 Мельникова, 1986, 65.

518 Немировский, 1983, 34.

519 АИОСК, 1990, 150.

Asur qaynaqlarında isə İç Urumu kimi verilən ölkə-bölgə *urum* boyunun adından yaranmışdır". [520]

Türk mifologiyasında qurdla bağlı motivləri, özəlliklə dişi qurdun atılmış oğlan uşağını əmizdirməsi olayı etrusk sənət əsərlərində görünməkdədir. Azərbaycan-Etruriya və türk-etrusk əlaqələri təkcə mifoloji motivlərdə deyil, dil və onomastika ilə paralel, etnoqrafik bəlgələrdə də görünür. Örnəyin, başqa xalqların inancına görə göy 3, 7, 9 qatlara bölünür, lakin etrusklarda və şamanist (qamçı) türklərdə isə göy 16, 17 bölümə ayrılır ki, bunlar da yaxın rəqəmlərdir. Etrusk və türk inancında evrənin vertikal üç bölgüsü də uyğun gəlir: göy, yerüzü, yeraltı dünya. Bunların birindən o birinə keçid qapıları olan yol etrusklarda və altun (dəmir) kazıq isə türklərdə eyni mifik görüşlə bağlıdır. Etruskların baş tanrısı Tin mühüm qərar verərkən 12 tanrı ilə gənəşir. İbn Fadlan başqord türklərinin baş tanrısı olan Göy tanrısının yaz, qış, su iyələri kimi 12 iyə ilə anlaşmada olduğunu qeyd edir. Oğuzların 12-lik sağ-sol boy sistemi etruskların 12 boy və şəhər-dövlət qurumuna uyğun gəlir. Papaqları qırmızı olan türk qamlarının qızılı rəngi qutsal sayması etrusk gələnəyində təkrar olunur, zəfər simvolu sayılırdı. Burada *qızılbaşlar* yada düşür. Azərbaycandan doğuya gedən türklərdə Baq (bağa) iyəadı zamanla Bağa, Bayat teoniminə çevrilmişdir. Etruskca *Paxa* teonimini göytürk yazılarındakı *Bağa tengri* deyimilə müqayisə etmək olar. Hər iki teonimin qaynağı bugünəcən Büsutun (qədim Baqastan) adında qalan Man, Mad elləri çağında qədim Azərbaycanda işlənmiş Baq (Baqa) teonimidir. Baqa adı ilə bağlı etrusklarda bir də tanrılarla ilgisi olan Beqoya// Peke adı vardır ki, bu da Bəyim, Bikə anlamına uyğun gəlir. Bəzi ədəbiyatda bu xanımı etrusk törələrini təbliğ edən peyğəmbər kimi verilir, lakin o, baş rahibə ola bilərdi, çünki heç bir eldə qadın peyğəmbər olmamışdır.

[520] Арутюнян, 1970, 169-170.

Bu etrusk güzgüsündə olan yazını A. İ. Nemirovski belə verir: *Tarxunas, Pava Tarxies, Veltune, Rathlth.*[521] Başqa etruskoloqlar kimi yazar burada yalnız şəxsadları yazıldığını düşünür. Halbuki burada adlar cümlə daxilindədir. Atların başından aşağı, baxıcının başı üzərində *pava tarqias* (bağatargias) və güzgünün çevrəsindəsə dairəvi yazıda ***veltune uvernvi avle tarqunus rthlth*** sözləri vardır. Bu son sözdə buraxılan saitləri yerinə qoyub, yazını g/v fərqilə belə transkripsiya etmək olur: **PAGA TARQIAS VELTUNE (GELTUNE) UGERNGI AGLE TARQUNUS ARATHILTH.**

Yazını güzgüdə təvsir olunan səhnəyə uyğun oxusaq, bizcə, burada etruskların milli tanrısı Veltune tapınağının bu gənc haruspiki Bağa Targiasın bağır (ciyər) üzərində baxıcılıq edib verdiyi yoruma daha təcrübəli Agle Tarqunus düzəliş edir:

Paga Tarqias Veltune ugerngi Aqle Tarqunus aratılt
(*Bağa Targias Veltune oxuduğunu Aqle Tarqun arıtladı*)

Tit Liviy yazır ki, rəvayətə görə Romada seçkidən öncə başına qartal qonmuş Lutsiy Tarkviniy elbəy seçilmişdir. Azər türkcəsində "başına dövlət quşu qondu" deyimi vardir. Qartalın qam deyimlərində *tanrı quşu* adlanması göstərir ki, qartal tanrının iradəsini, istəyini insanlara çatdıran qutsal quş sayılmışdır. Yeni il tanrısı *Nortia* uğur və taleh hamisi idi. Hər Yeni il gələndə onun adına divara bir mıx çalarmışlar. Azərbaycan türk boylarında evə bir müddət görünməyən yaxın adamın gəlməsini sevinclə "durun divara bir çöp (mıx) çalın"- deyə, qarşılayırlar.

521 Немировский, 1983, 213-214.

Etrusk boyları hər il mart ayında gənəşmək üçün bir yerə toplaşaraq toy-bayram (qurultay) keçirirdi.[522] Bu törən qədim türk törəsinə, azər türklərinin Yaz (Yeni ıl) bayramına uyğun gəlir. Etrusk ölübasdırma gələnəyində kurqan kulturu, öləninin əlində kasa-cam və sair özəlliklər türk gələnəyilə üst-üstə düşür. Etrusk heykəl və rəsmləri inceləyən tatar yazarı F. Latıpov onların görkəmcə azər türklərinə oxşadığını yazır.[523]


Etrusk

Saqa (Türk)

Urmu hövzəsinin güney bölgələrində m.ö. II minilin ortalarında yaranan atçılıq nəsnələrini ətraf ölkələrə yayan saqalar onları daha da təkmilləşdirdi. Örnəyin, yüyənin öncə tək olan ağızlığı (gəm) sonra bozqır yaşamına keçən saqalarda qoşa gəm forması almışdır, lakin etruskların İtaliyaya apardığı gəmin ilkin forması orada uzun müddət davam etmişdir.

Marliktəpə, m.ö.XI-X

Tarkvini, m.ö.VI

Saqa təsviri sənətində añ üslubu adlanan motiv öncə Urmu yaxasında formalaşıb, buradan Sibirə, Altaya, Azaq dənizi yaxalarına daşınması yozumu artıq sənətşünaslıq elmində mübahisə doğurmur. Artıq bu da bəllidir ki, Urmu hövzəsindən İtaliyaya da añ üslubu ilə yanaşı bir sıra başqa motivlər aparılmışdır. Örnəyin, türklərdə Tulpar, avropalılarda Peqas adlanan ***qanadlı at*** motivi Azərbaycanda (Marliktəpə) m.ö.XI-X əsrə aid qab üzərində varsa, Etruriyada ona Ara Della Regina məbədinin bəzəyi kimi 5-6 əsr sonra rast gəlinir.

Güney Azərbaycan

Etrusk

Etrusk adı altında İtaliyaya köçən türk boyu buraya nəsnə bəzəkləri üzərində añ üslubunu, kurqan kulturunu, metalişləmə, zərgərlik sənətini də aparmışdır. Arxeoloqların İtaliyada və Azərbaycanda üzə cıxardıqları üzüm salxımılı qızıl sırğalar, quş və təkə fiqurlu su qabları, nəsnələr üzərindəki qrifonlar bir-birini təkrar edir. Bu baxımdan, türk ellərində

[522] Немировский, 1983, 112.

[523] Латыпов, 1991, 116.

gördüyümüz sənət əsərlərinin sanki İtaliyada ekiztayı çıxır qarşımıza. Bunlar nəsnələrin müqayisəsində aydın görünür.

Alban Etrusk

Alban Etrusk

Bəzi etrusk nəsnələri üzərindəki yazılarda birbaşa təsvir olunanı bildirən sözlər təmiz türkcədir və belə bəlgələr etrusk-türk paralelliyini quşqusuz təqdim edir. Bunlardan bir-ikisini burada gözdən keçirməyə dəyər.

Ermitaj muzeyində saxlanan m.ö. IV əsrə aid bir güzgünün üzərində lazlarla (mələklərlə) əhatə olunmuş Turanla Atunisin sevişmə səhnəsi təsvir edilmişdir. Turanın atributu sayılan, burada adı tusna (*turna*) şəklində yazılmış durna şəkili də vardır.

A.İ.Nemirovski Sardinyanın doğu bölgəsində boğazın Artsakena adını *arts// arz* sözü ilə izah edərkən belə yazır: "Etrusk leksikasında *arslan* mənasında *arz, araz* sözkökü geniş işlənir. Dil tərkibi baxımından *Artsakena* toponimi də təmiz etrusk sözüdür. Sardinyada tirrenlərin məskunlaşması izini etruskların hələ antik çağ yazarlarına bəlli olan *eisar* "tanrı" sözünə dayanan *aisarensas* buradakı *aisar* etnoniminin köküdür"[524] Yazarın məsələyə baxışı doğru olsa da, sözlərin anlamına düzəliş vermək gərəkir. Belə ki, burada *araz* "arslan" deyil, boyadıdır, *aisar* (azər) sözü isə tanrı, həm də boyadıdır.

Fil sümüyündən yapılmış kiçik arslan və ya börü fiquru üzərində başından quyruğunacan etrusk əlifbası ilə nöqtəli durğu işarələri olmayan belə yazı vardır:

a r a z s i l g e t e n a s s p u r i a n a s

Yazının əvvəlində "aslan" anlamında *araz* sözünü ayıran etruskoloq M. Pallottino cümləni axıra qədər açа bilməmiş, A. Nemirovski isə azacıq fərqlə həmin oxunuşu təkrarlayıb ilk araz sözünün türk dillərində

524 Немировский, 1983, 58.

arslan şəklində işləndiyini qeyd etmiş, lakin sonrakı hissələri ağ fiquruna aid olmayan *zilx* (titul), *etenas* (titula əlavə) və *spurianas* (xalq) sözlərilə izah etmək istəmişdir. [525]

Hər iki etruskoloqun bu yazıda müəyyən etdiyi söz sərhədi düzgün sınırlanmayıb, çünki nəzərə alınmayan **σ** durğu işarəsi bir neçə yerdə ***s*** səsi kimi sözlərin tərkibində verilmişdir: **araz silg etenas spurianas.**

İmla qaydalarını diqqətə alanda bu yazı belə sıralanıb transkripsiya olunur: **araz** (S) **ilge tenas** (S) **puri ana** (S). (*Araz elinə tenas Börü-Ana*)

Göründüyü kimi, yazının belə oxunması ortaya çıxan bir neçə dolaşıqlığı aradan götürür: yazının məzmunu kiminsə titulu, vəzifəsilə deyil, Araz (*etrusk*) elində bozqurd (*börü-ana*) kultu ilə bağlıdır və bu kulta sunulan nəsnənin özünə, ağ fiquruna aiddir; bu halda, *araz* boyadını yanlış olaraq *arslan* kimi oxumağa da ehtiyac qalmır.

Etrusklardan qalma rəsm və kiçik fiqurlar sırasında qrifonlar kimi, qanadlı aslan bədəni olan adam başlı sfinkslər də vardır. Tutacağı sfinks fiqurlu bir bıçağın İtaliyada tapılıb Milli muzeyə verilməsi haqqında məlumatı Leypsik qəzetindən (6 fevral 1846) oxuduğunu deyən rus yazarı F.Volanski onu tanrıya qurban verilən heyvanı öldürmək üçün istifadə olunan *qurbanlıq xəncəri* adlandırmış və adam başlı, aslan bədənli, quş qanadlı bu yaratıqdan aşağı yazıda son sözü *Ariman* (Əhriman) şəklində, başqa bir rus yazarısa *Arsdan* kimi oxumuşdur. Əslində, yazının həmin son sözü fiqurun şəkildə görünən tərəfinə düşdüyü üçün onu oxumaq çətin deyil. Belə ki, etrusk yazısında **arslan** kimi çox aydın görünən və rahat oxunan bu sözün Armiman şəklində təqdim olunması yanlışdır.

Bu daşqutu (sarqofaq) üzərində qurban verməyə hazırlaşan adamların təsviri verilmişdir, birinin qucağındasa kəsiləsi qurbanlıq quzu

[525] Немировский, 1983, 95.

vardır. Yuxarıda sağdan sola yazılmış “*eg tite gesi ge kuzi thi al*” və ya “eg/v titeg/v esi kuzi-thi al” sözləri sırasında *kuzi* (**quzu**) sözü aydın oxunur.

Bildiyimə görə, tapılan qədim türkcə yazılar içində ən qədimi hələlik Lemni yazısıdır, bu nədənlə həmin yazı üzərində bir az geniş dayanmağa ehtiyac vardır. Bugün Ege dənizində Türkiyə ilə Yunanıstan arasındakı Lemni (*Lemnos*) adası vaxtilə Troya sınırına yaxın idi. Antik çağ yazarlarının qeyd etdiyinə görə, burada ellinlərdən öncə pelasklar yaşamışlar. Balkanlardan, Yunanıstandan və Anadoludan vaxtaşırı gələn işğalçı orduların hücumlarına uğrayan Lemni qədim Aralıq dənizi ətrafında yayılmış mədəniyət mühitində inkişaf edirdi. Bu adadan tapılan bəzi kiçik yazı örnəkləri burada m.ö. I minilin ortalarına qədər finik və türk əlifbaları ilə eyni mənşəli yazıdan istifadə olunduğunu göstərir.



A (1-ci yazının sıra düzümü)

Adanın güney-doğu Kamini bölgəsində kilisə divarında hörgü daşı kimi istifadə olunmuş daşlar arasından 1885-də tapılan “Lemni bəngüdaşı” və onun yaxınlığında üzə çıxan başqa yazılı daş şərti olaraq lemni əlifbası adlandırdığımız yazı növü ilə yazılmışdır. Hazırda m.ö. VII-VI əsrlərə aid edilən bu yazılar Afina Milli muzeyində saxlanır və onların yazılma tarixi adanın yunanlaşmasından öncəyə aid edilir, bu da Lemnosun Afinaya birləşdirildiyi 510-cu ildən öncədir.

Basırıqla bağlı epitafiya xarakterli bu yazılar sağdan sola başlasa da, sətirlərdən bəzilərinin soldan sağa yazılması 2-ci (B) yazıda aydın görünür. Şəkil boyunca yuxarı uzanan üç vertikal sıra sağdan sola, onların arasında yerləşən orta yazıda beş horizontal sətir isə hər iki istiqamətdə bustrofedon üsulu ilə yazılmşdır. Belə bustrofedon üsulla yazılmış 1-ci

(A) yazıda sıralanma həm də ilk sətirlə sonrakı iki sətirin başayaq düşməsinə səbəb olmuşdur:

Lemni yazılarının tapılmasından bir əsrdən artıq vaxt keçsə də, onun şifrəsi açılmamışdır. Doğrudur, elmi ədəbiyatda Lemni yazısında istifadə olunan əlifbanın etrusk əlifbası ilə eyni olması qənaəti vardır. Bu, bir-iki hərf istisna olmaqla məsələyə düzgün yanaşmadır, lakin bu yanaşmada yazıların oxunma qaydası yanlış yöndədir. Belə ki, etrusk yazılarının oxunuşunda özünü göstərən qüsurlar, etrusk yazı qaydalarının (imla qaydası) nəzərə alınmaması lemni yazılarının oxunmasında da təkrar olunmuş və hər kəs öz bilik dağarcığı ilə yazıları oxumağa çalışdığından iki-üç sətirlik bu yazının ortaya çıxan oxunuş variantları onu "oxuyanların" sayı qədərdir. Lemni yazısından bəhs edən yazarlar onun transkripsiyasını fərqli verdikləri kimi, onu müxtəlif dillərdə oxumağa da cəhd etmişlər.[526]

Son vaxtlar daha çox yayılıb qəbul edilən və etrusk dilinə aid dərsliklərdə yer alan transkripsiya isə belə verilir. (Asan oxunması üçün sözlər soldan sağa sıralanmışdır):

A) hopa svss: f oks assa pe: sero nash: evss ho: tove roma ssvas: avss: ssa px vss: **mara** kn: avss: **atmas** rom: harapso: ssvas: ep tesso: **aras** tss: f oke



B) hopase: s: navthth: ssass: **mara**.s:mav: ssa px ves. s: avs: evssth: sero nas th: ssvas: **aker**: tavarssth: van: **apa**. ssap: sero nas morsnas p



Doğrudur, burada sıralanma düzgün müəyyən edilmiş və qara hərflə verdiyimiz *apa, mara, aker, atmas, aras* sözlərinin transkripsiyası doğru

[526] Bréal (1886), Bugge (1886), Deek (1886), Pauli (1886 & 1894), Lattes (1894), Torp (1903), Corsten (1930), Friedrich (1932), Nachmanson (1908), Hammarström (1926 & 1928), Kretschmer (1929), Pallottino (1947; 1989), Scullard (1967), Bonfante L. (1990) Steinbauer (1999), son illərdə N.V. Falaschi və başqaları. Lemni yazısını türkcə oxumaq istəyən P. Kaya isə buradakı *aras, kam//qam, aker, apa* kimi sözləri düzgün oxusa da, o biri etruskoloqlar kimi ***s*** dolanbacından çıxa bilməmiş, türk morfonolojisinə uymayan *epetesste, sçekess, hatapasaqss, ssaqas, aqass* kimi anlamsız yanlış sözlər ortaya çıxarmışdır.

tapılmışdır, lakin bütün öncəki variantlarda olduğu kimi yazıların buradakı oxunuşu da gerçək durumu əks etdirmir, çünki sözlərin sınırını bəlirləyən durğu işarəsi (Z) səs kimi sözün tərkibində verilmşdir. Bu qədər fərqli oxunuşları ortaya çıxaran araşdırıcıların əksəri sanki müxtəlif mətnlər üzərində işləmişlər.[527]



Hər iki yazıda işlənən hərflər əsasında tərtib olunan lemni əlifbası etrusk əlifbasındakı hərflərlə eynidir, yalnız etrusk yazılarında *kh* [x], *i* səslərini bildirən hərflər burada göytürk yazılarında olduğu kimi *ç, s/ş* səslərini bildirir:

Göründüyü kimi, lemni yazısı etrusk və göytürk yazıları arasında olan bir əlifba ilə, həm də etrusk-göytürk yazılarında zəif görünən, lakin lemni yazılarında daha qabarıq olan orfoqrafiya (imla) qaydası ilə yazılmışdır. Belə ki, burada söz və söz birləşmələri birdən üçə qədər nöqtələrlə və Z işarəsilə ayrılmış, hətta bir neçə yerdə bu işarə iki tərəfdən nöqtələrlə ⋮**Z**⋮ şəklində yazılmışdır. Lakin yuxarıda verilən nümunələr göstərir ki, lemni yazılarını oxumaq istəyənlər bu durğu işarəsini yanlış olaraq sözün bir hissəsi kimi z//s səsilə oxuyurlar, ona görə də etruskologiyada hələ də davam edən həmin metod yazıların şifrəsini açmağa mane olur.[528] Belə yazılarda yalnız *a, e* saitlərinin verilməsi yazıda qeyd olunmayan başqa saitlərin bərpa olunmasını zəruri edir. Deyilənləri nəzərə alanda lemni yazılarının tranckripsiyası, fonetik oxunuşu belə olur:

A) xthpase Z⋮ phthksa Z sape ⋮ Z erthna sd : egs Z dth : tthgerthma Z sgas : ags Z : Z sapçgs Z : mara qm: ags Z athmas rthm ⋮ xarapsth : Z sgas : elte Z sth aras ⋮ l 41 : phthke .

ğıtpaşe pitiksa sape eratma şd egis dut tetig eratıma sugas agıs sapçı ges mara qam agıs atmas ertim harapustu sugas elte şat aras il 41 bitke

---

527 Son vaxtlar lemni yazılarını belə transkripsiya edənlər də var: **A)** hulaieš : naφuθ : šiaši maraš : mav sialχveiš : aviš evisθu : šerunaiθ šivai aker : tavaršiu vanalasial : šerunai : murinail; **B)** hulaieši : φukiasiale : šerunaiθ : evisθu : tuveruna rum : haraliu : šivai : eptešiu : arai : tiš : φuke šivai : aviš : sialχviš : marašm : aviš : aumai.

528 Azər xalqı, 2005, 190.

B) xthpase ⁝Z⁝ napthd ⁝Z sap ⁝ mara Z⁝ mag Z sapçges Z: ags Z⁝ egs Z dth ⁝Z er athna sd . Z sgas aker : tagar . Z sth . qam. apa Z sap ⁝ Z erthna tm thrsn alp .

ğıtpaşe na pitid sap mara mag sapçı ges ags egis dut er atına şat suqas aker tagar şat qam-apa sapı eratna atm tursun alp

Adətən dili məlum olmayan yazıların şifrəsini açmaq üçün etimoloji ya da kombinator metoddan istifadə olunur. Lemni yazılarını oxuya bilmək üçün hər iki metodu sınaqdan keçirməyin yararı vardır. Bunun üçün kombinator üsulla bir neçə sözün semantikasını müəyən edəndən sonra etimoloji yozuma keçmək gərəkir.

Hər iki yazıda boy və şəxs adları kimi bəzi onomastik sözlər (*sqas, sape, aras, qam-apa, aker, tagar*) diqqəti çəkir. Belə ki, *sqas* sözü hər iki yazıda keçir, hələlik bu sözün çuvaş boyadının qədim *sugas* formasında [sugaş//şugaş] olacağını ehtimal etmək olar. Çünki çuvaş dilində sugaş > çuvaş fonetik dəyişməsində baş verən g//ğ > v, s//ş> ç səsdəyişmələrinin bənzəri *bağır* (baqır) > *pĕver* və *baş//bas* > *puç* kimi başqa çuvaş sözlərində özünü göstərir. Əslində etrusk orfoqrafiyasına görə *sgas* sözü *svas* kimi oxunur. Bu yozum yazıdakı *suqas aker* (çuvaş Aker), *sugas ags* (çuvaş ağzı), *sugas elte* (Çuvaş elində) deyimlərinə aydınlıq gətirir və buradakı *ags* (ağız) sözünün semantikası aydınlaşır.

Hər iki yazıda bir neçə dəfə işlənən *ags* sözünü *avs, aviš, afiz, aqas, αFıζ* şəklində oxuyub ona müxtəlif mənalar vermişlər. Kombinator metodla bu sözün "dil" anlamına uyğun gəldiyini görmək olur: *suqas ags* "suqas dili", *ags atmas* "dildən düşməz". Etimoloji metod da *ags* şəklində yazılan leksemin *ağız* sözü olduğunu ortaya qoyur. Bu yazılarda dil, nitq, danışıq mənasına uyğun gələn *agıs* (ağız) sözü bugün də Anadoluda "dialekt" anlamında işlənir.

Birinci yazıda *ağızatmaz* deyimindən sonra yazılmış *rthm* sözü qədim türk yazılarında işlənən "idi" köməkçi feilinin *ertim* formasıdır: *ağızatmaz ertim* "dildən düşməz idim".

Hələlik yazılı daş üzərində şəkili çəkilən adamın adının Aker Tagar olduğunu düşünmək olar. Etrusk (Toskana) elindən danışan antik çağ yazarı *Ager* adını çəkir. [529] Məşhur Çanaqqala savaşında 27-ci alay komutanı Yarbay Şefik də *Aker* adı ilə tanınırdı. Göründüyü kimi, lemni yazısında keçən Aker adı etrusk və türk şəxsadları üçün yad deyildir.

[529] Varro. *Lingua Latina.* V, IX.

Etruskların özlərinə *rasen* (əslində, *aras-en*) deməsi 1-ci yazıda etrusk anlamında olan *aras* sözündə əks olunmuşdur: *xarapustı suqas eltə şat aras.* Yazıdan aydın olur ki, *aras* boyundan bu ərdəmli, cəsur (*sat//şad*) döyüşçü o çağlarda yerini müəyyən edə bilmədiyim Suqas (Suvas) elindən imiş. Suqas elinin "qaradumanlı" təyini isə *xarapustı* sözüdür.[530]

Qədim türk yazılarında "kitab" və "yazı" anlamında olan *bitik* sözünün kökündə duran *bit-* (bitmək) feili epitafiyalarda geniş işlənir. Vaxtilə aramey dilinə keçən *petqa* sözü o dildə "abidə" anlamında işlənirdi. Bəngüdaş yazıları çox vaxt *bitdi, bitidim* (bitirdim) sözlərilə yekunlaşır. Lemni (A) yazısı da *bitke* sözü ilə bitir. Etrusk dilində III şəxsin təkini bildirən *-ke* şəkilçisilə işlənmiş *pitke* sözü lemni yazısında "bitdi" anlamındadır. Etrusk yazılarında da *biti* sözü görünür. "Latına Tin (tanrının) yazısı" anlamında belə epitafiya vardır: (TC 338) LATINA : PITI TINAL (*Latın-a biti Tin-al*).

Lemni yazsında *bitke* sözündən başqa, bir də *pitiksa sape* deyimi keçir. Buradakı sape sözünün hansı anlamı daşıması onun pitiklə yanaşı işlənməsi ilə aydınlaşır. Bunu yoxlamaq üçün başqa sözlərə də baxmaq olar. Sevmək sözünün qədim *səb* forması, birləşdirib-bağlamaq mənasında *səp* sözü, sıra, sıralama anlamında *sap* sözü vardı. Antik çağda Lemnosda Trakiya kökənli boyların *sape* adlanması da qeyd olunmuşdur.

Azər türkcəsində sinonim qoşa söz kimi *söz-sav* deyimi var. Qədim "Irk Bitik" əsərində söz, dua anlamında *sab,* xəbər gətirən, sözçü anlamında *sabçı* sözləri işlənir. Lemni yazısnda *sap, sape, sapçı, sp* formasında yazılmış sözlərin kombinator metodla yozumunu vermək üçün onların hansı sözlərlə yanaşı işlənməsinə baxmaq gərəkir: *pitiksa sape; sapçı ges; qam-apa sap; sna sp.* Başqalarının oxuduğu bu son deyimdə *suna* sözü ilə işlənən *sp* da "söz" və ya çuvaşca *sănă sıp* (süngü sapı) deyimi kimi tutaçağa (sap) aid ola bilər, ancaq bu, *trsnalp* (tursun alp) adının bir hissəsidir.

Hər iki yazının müqayisəsi göstərir ki, onları eyni adam yazmamışdır, çünki bəzən həm eyni sözün yazılışında, həm də eyni sözlərin sıralanmasında fərq görünür. Bu durum yazıların müxtəlif sabçı tərəfindən yazılmasını ortaya qoyur, hər iki yazıda eyni anlamlı 12 sözün sıralanması bunu açıq-aydın göstərir: A) *sape er adıma şad egiz dut .... sugas agız*

[530] Qarabağlı dostum Ovçu Səfərov kəndlərində "çən-çiskin" anlamında *püsəngi* sözünün işləndiyini söyləmişdi. Homer yazıların tapıldığı Lemnos adasının özünü dumanlı, limansız epitetlərilə verir (*İl.* XXIV, 753).

sapçı ges mara qam... B) *sap mara maq sapçı ges agız egiz dut er adına şad sugas ....*

A) ... ***sapçı ges*** *mara qam* A) ... **er adıma şad** egiz dut

B) ... *mara maq* ***sapçı ges*** B) ... egiz dut **er adına şad**

Hər iki yazı eyni sözlə (*xthpase*) başlanır. Yazıların bu ilk sözünü *hulaieš, hatapase, eolai, hopase* və başqa şəkillərdə oxumuşlar. Lemni yazısında çuvaş dilinin qabarıq görüntüləri *xthpase* sözünün çuvaşca *xăt* (qut) və *puç* (baş) sözlərindən ibarət olub, qutlu başlıq anlamında işləndiyini düşünmək olardı. Lakin yazıların başında gələn bu sözün tərkibində sami dillərdən alınma *xətt* sözü olacağı da istisna deyil və bütöv sözün *xətbaşı* deyimi olması mətnə daha uyğundur. Çünki xətt sözü "yazı" anlamında işlənmişdir. Firdofsinin "Şahnamə" əsərinin Bombey əlyazmasında yabqu (türk) boyunun əlifbası anlamında *xətte yabğu* deyimi keçir. Bu baxımdan, Lemni yazılarının *xətbaşı* sözü ilə başlanmasında bu sözün yönəltici rolu ola bilər, lakin *ağıt başı* deyimi mətnə daha uyğundur.

Lemni yazılarının birində *mara qam,* digərində *mara maq* deyimində mar//maq//qam sözlərinin üçü də "kahin" anlamı ilə Ön Asiyada işlənən sinonim sözlərdir. Azərbaycanda maq boylarından çıxan *maqlar* və türk xalqlarında olan *qamlar* bəllidir. Arameycə də din xadiminə *mar* deyilirdi. Dədə Qorqut qəhrəmanları başqa dindən olanlara *mərə kafir* deyimilə müraciət edir, bəzən bu deyimlə özləri də bir-birinə sataşırdılar. Görünür, lemni yazılarını daşa yazan sabçı kahin imiş, çünki sabçıya *mara qam, mara maq* deyə xitab olunur. 2-ci yazıda Qam-Apa deyimi də var. Aker bəyə şad titulu onun adından, onun sözü ilə (*Qam-Apa sabı*) verilməsi göstərir ki, *qam-apa* deyimi Suqas elində başqam və ulu xaqana aiddir. Dədə Qorqut eposunda Bayındır xan da belə bir ulu xaqanın (Qam qanın) oğludur.

Qədim türklər ada çox böyük önəm verirdilər, ərdəmli igidlər şanlı-şöhrətli ad qazanmaq üçün savaşlarda inadla vuruşur, aldığı əradla qürur duyurdu. Qədim türk yazılarında *ər adı* deyimi çox işlənir. Örnəyin, Barık (Yenisey) yazısında keçən *"er erdəmi atım tabtım"* (ərdəmli ər adımı tapdım) deyimi lemni yazısında bir neçə dəfə təkrar olunan "*er atım*" və "*titig er atım*" (anlaqlı ər adım) ilə eyni ovqatı sərgiləyir.

Lemni yazılarının mətni göstərir ki, hər iki yazıda Aker Tagarın bəngüdaşı (başdaşı) üzərinə yazılası epitafiyada ər adına şad titulunun ekiz tutulması (əlavə olunması) vurğulanır. Birinci yazı I şəxsin (ölənin)

adından, ikinci şəkilli yazı isə Qam-Apanın sözü kimi III şəxsin adından (Tursun Alp) yazılmışdır. Görünür, Aker Tagar öləndə öncə onun adından birinci yazı adi daşa, ikinci yazı isə sonra düzəldilmiş bəngüdaşa yazılmışdır, həm də bunları müxtəlif sabçılar (sözçülər) yazmışlar. Lemni yazılarının dili göytürk yazılarının dilinə, üslubu qədim türk epitafiyalarına, əlifbası türk runuk əlifbasına yaxınlığı ilə diqqəti çəkir. Hər iki yazıda *mar* və *xətt* sözündən başqa, sözlərin hamısı qədim türk sözləridir. Tam oxunan 1-ci yazının məzmununu müasir dilimizə belə çevirmək olar:

Ağıt başı: *Sıralayıb yaz ər adıma şad, ekiz tut anlamlı ər adıma, suqas dililə sözçü kəs (kişi). Mərə qam, dildən düşməzdim qaradumanlı Suqas eldə. Şad araz, 41 il. Bitdi.*

Beləliklə, lemni yazılarının "dili açıldı", ancaq dili açılan bu yazılar ortaya Aker Tagar şadın kimliyi, yazının hansı türk boyuna aid olması kimi bir neçə yeni sual çıxartdı. Bu sualların cavabı həm də yazının yazılma tarixinə uyğun tarixi olaylarla uzlaşmalıdır.

Herodot yunanlardan öncə Lemni adasında pelaskların (Πελασγοι), Fukidid isə tirsenlərin (Τυρσενοι) yaşadığını yazmışdır. O çağın yunan yazılarında *tirsen* və *etrusk* adı sinonim işlənirdi. Görünür, "dəniz xalqları" sırasında hər iki boyun (*plst, trs*) adı keçdiyi üçün pelasklarla tirsenlər eyni boylar olmasa da, onların qohum boylar olması quşqu doğurmur. Lemni yazısı bunlardan birinə aid ola bilər. Lakin bu ümumi adlar altında hansı türk boyunun olması da önəmlidir, çünki həmin çağlarda hansı türk boyunun Lemni adasına gedə bilməsi tarixi bəlgələrlə təsdiqini tapmalıdı.

Tövratda Yafəsoğulları sırasında qomer (qamər//kimmer) ilə *trs* (tiras) qardaş sayılır.[531] Təbəri də türk-xəzər boylarının *tiras* (tireş) soyundan törədiyini yazır.[532] Başqa bir ehtimala görə, lemni yazısı qamər boylarının Anadoluda m.ö.7-ci əsrin ortalarında apardığı savaşlarla bağlı ola bilər. Çünki 8-ci əsrin sonlarından Kiçik Asiyaya gələn qamərlər burada bir neçə bölgəni ələ keçirmiş, 674-də Friqiya dövlətini dağıtmış, 20 il sonra Lidiya çarını öldürmüşdülər. Həmin ildə (654) Asur çarı Aşşurbanipala aid yazıda qamər elbəyi Tuğdamenin oğlu Sandak Şat haqqında belə deyilir: "Mən Tugdammenin qüvvəsini dağıdacağam,

531 Təkvin, 10-11.

532 Təbəri, I. 272.

meydanda onu əvəz edən, onun belindən gələn oğlu Sandakşatru əzəcəyəm”. [533]

Bilindiyi kimi, qədim türk törəsinə görə elbəyin, xaqanın oğulları (teginlər) qoşun və ya bölgə başçısı təyin olunanda onun ər adına *şad* ünvanı (titulu) əlavə edilirdi. Asur çarının yazısında belə bir elbəy oğlu olan *Sandak-şat ərin* adı keçir. Lemni yazılarında da Aker Tagarın ər adına *şad* titulu əlavə edilməsindən bəhs olunur. Bu baxımdan, lemni yazılarını qamər boyu ilə bağlayıb, Aker Tagar şadı qamər elbəylərindən birinin oğlu saymaq olar, çünki hər iki yazıda onun ər adına şad titulunun əlavə olunması qeyd edilir. Görünür, 41 yaşında Lemni adasında savaşda yaralanıb ölən bu elbəy oğluna şad ünvanı həmin savaş günlərində verilmişdi. Ona görə, hər iki yazıda *mara qam* (*mara maq*) deyimilə müraciət olunan sabçıdan *ər adıma şad ekiz tut* (*ekiz tut ər adına şad*) sözlərinin suqas dilində yazılması tələb olunur.

Lemni yazısının yazılma tarixi Aker Tagar şad üçün son döyüş olan savaşın tarixilə bağlıdır. Hər halda, Lemni adasında bu savaş qamərlərin Kiçik Asiyadakı hegemonluğunun ilkin çağlarında deyil, son çağlarında baş vermişdir. Lidiya çarı Aliata yenilən qamərlər 7-ci əsrin sonunda artıq Anadolunun doğu bölgələrinə çəkildilər. Görünür, Aker Tagarın son savaşı da m.ö. 620-610 arasında olmuş, Lemni yazısı o çağda yazılmışdır.

Beləliklə, qədim türk tarixinə yeni bəlgə verən lemni yazıları Suqas elinin, suqas (çuvaş) dilinin və Aker Tagarın mənsub olduğu araz boyunun da qamərlərlə bağlı olmasını ortaya qoyur. Bu yozum qamər-etrusk əlaqələrinə işıq tutur, etrusk dilinin türk qatında çuvaş dilinə məxsus elementlərin varlığına, özlərini rasen (*aras-en) adlandıran etrusk toplumunda qamər kökənli araz boyunun önəmli çəkisinə aydınlıq gətirir.

Lemni yazısı üzərində verilən yorumlar bir daha etruskların Anadoludan İtaliyaya getdiyini yazan Herodotun haqlı olduğunu aydln göstərir. Lemni yazısı göytürk və etrusk runikası arasında yer tutsa da, daha çox etrusk yazılarına yaxınlığı ilə diqqəti çəkir.

Lemni yazısındakı türk sözləri etruskcadakı türkizmlərdən daha anlaqlıdır. Belə ki, burada işlənən *bitik, sab, sabçı, el, il, ər ad, ağız, qam, apa, tetik, tut, şad* kimi turk sözləri çox aydın oxunur. Lakin qarışıq, yəni hibrid etrusk dilində olan sözlərin içindən türkizmlərin seçilməsi hələlik müəyyən çətinliklərlə bağlıdır, mövcud olan yanlış baxışların, yazılara yan-

[533] Дьяконов, 1956, 285.

lış orfoqrafik yorumlarla yanaşmanın nəticəsində etruskologiyada bir sıra maneələr yaranmışdır. Deyilən problemi gözardı etmədən, etrusk yazılarında türkizmlərin araşdırılması davam etməlidir.

Beləliklə, *tirsen* adı ilə tarix səhnəsinə çıxan, özlərinə *araz* deyən etruskların və etrusklarla birbaşa əlaqəsi olan, lakin onların içində alt qatda o qədər də qabarıq görünməyən *urum, qayı, subar* və sair boyların dilindən etrusk yazılarında qalan türk sözlərinin bir qismini belə sıralamaq olar.

etrusk	**türk dilləri**	**azər**	**ingilis**
alpan [alpan]	**alpan**	*alpan, igid*	*brave*
an (III şəxs)	**an**	*an, o,* (III şəxs)	*he, she*
apa [apa]	**apa**, **aba**	*əbə* (dialekt)	*father*
arslan [arslan]	**arslan**	*aslan*	*lion*
ath [ath]	**at, ad**	*ad*	*name*
avil [awil]	**yıl**	*il*	*year*
axrum [axrum]	**aqrı**(ma)	*ağrıma, xəstəilk*	*affliction*
camthi [kamthi]	**kende**	(titul)	*magistrate*
capra [kapra]	**kap**	*qab*	*urn*
cap [kap]	**kap**	*qab*	*container*
cela [kela]	**kil** (çuvaş)	*-gil, ailə, otaq*	*room*
cupe [kupe]	**küp**	*küpə, cam*	*cup*
clan [oklan]	**oklan**	*oğlan*	*son*
clenar [oklenar]	**oklanlar**	*oğlanlar*	*son`s*
lucair [*ulukayr]	**ulukər**	*ulu(q) ər*	*to rule*
lucumo [*ulukumo]	**ulukam**	*ulu qam*	*king*
lupu [olupu]	**ölüp**	*ölüb*	*died*
macte [makte]	**makta**	öygü	*praise*
mlac [mulak]	**belek, bülək**	*ərmağan, hədiyə*	*offering*
mi [mi]	**men, (me-n)**	*mən*	*me*
nac [nak]	**neke**	*necə, niyə*	*how*
nene [nene]	**nene**	*nənə, dayə*	*nurse*
paqathur [paxathur]	***baqa-tura**	*baxıcılıq*	*augury*

papa [papa]	**baba**	*baba*	*grandfather*
puia [puya]	**bayan**	*bəyim, qadın*	*wife*
pla [pila]	**pilĕk** (çuvaş)	*beş*	*five*
pr [pir]	**pĕr** (çuvaş)	*bir*	*one*
purth [purte]	**purte** (çuvaş)	*balta*	*axe*
rath [erath]	**erat**	*ər ad, özəl ad*	*name*
ril [eril]	**eril**	*ər il, yaş*	*aged*
sakni [sakni]	**sak, sakın**	*saxlanc, qoruq*	*sanctuary*
suth [suth]	**süt, süd**	*süd*	*milk, sheep?*
suc [suk]	**çuk, çük** (çuvaş)	(qurban törəni)	*ritual akt*
sval [sagal]	**sağal**	*sağ olmaq*	*alive*
tana [tana]	**tanı**	*tanımaq*	*to recognize*
tam [tam]	**tam**	*dam*	*house*
thap [thap]	**tap**	*tapınmaq*	*to find*
tarchon [tarxon]	**tarkan** (titul)	*tarxan*	*ruler, lord*
tiberi [tiberi]	**təbər** (titul)	*təbər, eltəbər*	*ruler*
tul [tul]	**tul** (çuvaş), **tış**	*dış*	*out, stone?*
tular [tular]	**tışarı** (l~ş)	*dışarı, sınır*	*border*
uke [uke]	**oku**	*oxumaq*	*to read*
une [une]	**an**(ta)	*onda, o vaxt*	*then*
vel [vel]	**văl** (çuvaş)	*o, ol* (III şəxs)	*he, she*
zila [zila]	**yula** (başqord)	(titul)	*magistrate*

7. Hay

Hindavropa mənşəli haylardan II Bitikdə Armeniya və Hayastan adlarının açımından danışarkən geniş bəhs edib, *ermən* boyunun subar türklərindən qalma və *Ermən* ölkəsinin türk yurdu olduğunu sübut edən xeyli tarixi-linqvistik və tarixi-coğrafi bəlgələr göstərmişdik. Bununla yanaşı, Balkandan gələn hindavropa kökənli haylarla yerli ermən boylarının antropoloji və dil baxımından ayrı-ayrı xalq olduğunu, ermənlərin daima hurri-mitan federasiyasından qopmuş

mitanlarla qonşu olduğunu yazmış və bu barədə Antik müəlliflərin verdiyi bəlgələri sərgiləmişdik.

Hay etnosunun Anadoluya gəlmə tarixi üzərində aparılan mübahisələr, əsasən, m.ö.XII-VII əsrlər arası çağı əhatə edir. Bu mübahisələrə qoşulmadan, yalnız bunu söyləmək olar ki, m.ö. I minilliyin son əsrlərinə qədər haydilli bəlgələr olmadığı kimi, həmin minildən əvvəl Anadoluda «armenoid» tip də olmamışdır.[534] Əslində, hayları Friqiyanın kaloniyası saymaq da şərtidir, çünki Herodotun bəhs etdiyi armenlərin haylara aid olub-olmaması bəlli deyil. Yalnız Strabon və ondan sonra gələn yazarların qeydlərində erməni adı altında bəzən haylar da nəzərdə tutulur.

Urartu dövləti dağılandan sonra Muradsu yaxalarında subar, ermən, mitan, şadılı, urum, qamər türkləri və urartuların yaşadığı ərazidə Ermən bölgəsi yarandı. Burada verilən xəritə-sxemdə hayların sonralar həmin Ermən bölgəsinə gəlməsi göstərilmişdir. Ermən bölgəsi yarandığı çağdan İslamaqədər daim doğu və batı qonşuluqda yaranan imperiyalar arasında tampon ölkə kimi hərb meydanı olmuşdur. Bu ölkədə gedən tükənməz müharibələr əhalinin demoqrafik tərkibinə təsir edirdi; savaşdan bezənlər rahat ölkələrə köçür, onların yerini yeni gələnlər tuturdu.

Ermən ölkəsinə gəlib yerləşən hay etnosu ilə qədim türk boylarının, o cümlədən, azər türklərinin əlaqəsi böyük tarixə malikdir. Lakin bu tarix birtərəfli yazıldığından gerçəkliyi əks etdirməyən yozumlara rast gəlmək olur. Ona görə də, bu bölgədə ermən türklərinin tarixilə hayların tarixini ayırmaq lazım gəlir, çünki XII əsrdə mərkəzi Van gölünün batısında Axlat şəhəri olan Ermənşahlar dövlətini quran Sökmənlər sülaləsinə qədər burada müxtəlif çağlarda türk, part, pers və hay kökənli hökmdarlar, cani-

[534] Герни, 1987, 187.

şinlər bir-birini əvəz etmişlər. Haylar Ermən ölkəsinə gələnə qədər buranın əhalisi uzun və keşməkeşli tarix yaşamışdı.

Belə ki, subar-mitan türkləri ilə qonşu olan *ermi* (armi) boyunun adı ilə urartuların *ermi-ni* dediyi əhalinin m.ö.VI əsrdə məskunlaşdığı əraziyə Bisutun yazısında Arminiya deyilməsi normal idi. Yeri gəlmişkən, qeyd edək ki, Arman, Ermen adları daha qədim çağlardan türklər yaşayan ərazilərdə vardı; *ermi* (er-mi), *ermen* (er-me-n) boyları da müxtəlif türk ölkələrinə yayılmışlar. [535]

Ermən ölkəsinin qısa siyasi tarixi belədir: prototürk Atayurdunun batı bölgəsi olan bu əraziyə öncə hurrilər, sonra urartular gəlib yerləşmişlər. Bölgəyə gələn saqa-qamər boyları bir-birinin ardıca urartu qalalarını alıb, urartuları Van yaxalarına sıxışdırır. Bu olayların amansız savaşlarla baş verdiyini Qanlıtəpə, Çavuştəpə kimi abidələr aydın göstərir.[536] Urartu dağılandan sonra, hay tarixçilərinə görə, Mada çarı Ərbak Ermən ölkəsinə *Sak oğlu Parur* adlı birini ilk hökmdar təyin edir. Əslində, saqa soylu Parur bəy kimi, Ermən hakimləri sonralar da çar yox, müxtəlif çağlarda Mada, Əhəməni, Selevk, Roma-Bizans, Part, Sasani dövlətinin vassalı idi. Yalnız Tiqranın vaxtında müstəqil olan Ermən ölkəsi, onu da çox saxlaya bilmədi, yenidən romalılardan asılı vəziyətə düşdü. Tiqran adının perslərə aid olması hələ Əhəməni çağından bəlli idi (Herodot, VIII. 62). Roma ilə Part, sonra Bizans ilə Sasani dövlətləri arasında tampon bölgəyə çevrilən Ermən ölkəsi m.ö. 190-da III Antioxun romalılara məğlub olması ilə müstəqil siyasət yeritsə də, yenidən Ərsaq sülaləsinə tabe olur. Bu çağlarda Ermən coğrafiyası İrəvan çuxuruna qədər genişlənir. Artaşes *Artaşat* şəhərini, Tiqran isə m.ö.77-də Van gölü ilə Diyarbakır arasında *Tiqranakert* şəhərini salır. Lukul m.ö. 68-də, iki il sonra isə Pompey Tiqran və oğlunu

---

[535] Tuna bulqarlarında ermi boyuna məxsus Ermiç (ermi-ç) və Ermiar (ermi-ər) şəxs adı qaynaqlarda əks olunmuşdur (Tekin, 1987, 59).

[536] Belə ki, *Ararat* (Urartu), *Aşkenaz* (Saqa) və *Minni* (Mana) çarlıqlarının adı son dəfə Bibliyada 593-də çəkilir (Yeremiya, 51, 27) və bu çağda həmin ölkələr artıq Mada dövlətinin əyalətləri idi. Bundan da bir neçə əsr sonra (m.ö. III-II əsrlər) Bibliyanı yunan dilinə çevirənlər buradakı *Ararat* (Urartu) adını *Armeniya* adı ilə əvəz etdikləri kimi, bundan 7-8 əsr sonra «hay tarixinin atası» da müxtəlif mənbədən istifadə etdiyi üçün qədim ermən türklərinin tarixini sonrakı hay tarixinə qoşmuşdur. Bisutun yazısında adı çəkilən ermәniləri akad. V.V. Struve haqlı olaraq, hay deyil, saqa sayır.

cəzalandırır. Ermən ölkəsi yeni eraya bu durumla daxil olur, lakin həmin durum İslamlaşma çağına qədər davam edir.[537]

Friqiya dövlətinin koloniyası şəklində yaşayan haylar bu dövlət dağılandan sonra Suriyanın quzey əyalətlərinə səpələnmişlər.[538] Hindavropa mənşəli hayların Ermən ölkəsinə gələnə qədər konkret hansı bölgələrdə olmasını göstərən dil faktı yoxdur, ona görə də, hayşünaslar indiyə qədər heç olmasa, bunu arxeoloji kulturla, antropoloji bəlgələrlə müəyyən etməli idilər. Bu, bizim mövzudan kənarda qalan məsələdir, bizi hayların Ermən bölgəsinə gəlişindən sonrakı əlaqələr maraqlandırır.

> Tiqranın Kappadokiyadan əhalini gətirib, Tiqranakertə yerləşdirməsi bəllidir, lakin ola bilər ki, əvvəllər də Ermən ölkəsinə haylardan gələn olub, çünki hay qaynaqları Suriyadan gəlmə olaylarından bəhs edir. Hər halda, hayların «ermənileşməsi» prosesi artıq başlamışdı. Bölgədə hakim sinifin (öncə part, sonra pers) zərdüştiliyə meyl etməsi, irani inancların haylar arasında geniş yayılması *Aramazda* (Hörmüzd), onun «qızı» saydıqları *Anahitə* və bəzən *Haramana* (Əhriman) da sitayiş edirdilər.[539] Bu çağlarda hay dilinə xeyli pəhləvi sözü daxil oldu. Hay dilində təxminən 4 min alınma sözdən minə yaxını pəhləvi sözüdür.[540]
>
> Haylar xristianlığı qəbul edəndən sonra, kilisə ədəbiyatı yunan və suriya dillərində yayılırdı. Yeni hay əlifbasının tətbiqi hay xalqının milli ovqatını xeyli yüksəltdi, hay yazısı dini mövzuya qapanmayıb, didaktik və tarixi əsərlərin yazılmasına təkan verdi, hay toplumunda savadlanma kütləvi xarakter aldı; V-VII əsrlərdə hay xalqının tarixinə aid bir neçə kitab yazıldı. Azərbaycan və Ermən ölkəsində xristianlığı yayan Qriqorius bugün azər türklərinin yaddaşında müqəddəs Cərcius kimi yaşayır. O, hay deyildi, Part ölkəsindən qaçan Anak bəyin oğlu idi, Kayseridə yepiskopdan katalikos sanı alıb, Güney Qafqazda missionerlik edirdi. Hayların din xadimləri monofizist yönümə üstünlük verib, 451-də Romadan ayrılırlar. Beləliklə, Ermən ölkəsində yaşayan ermənlər (türklər) xristianlığı qəbul etdiyi çağlarda burada yaşayan haylar da tədricən zərdüştilikdən

---

[537] Hay və rus dilində çap olunmuş qaynaqların özü də kifayət qədər bilgi verir. Aqafangelos, Moisey Xorenatsi, Sebeos, Favstos Buzand, Yegişe, Movses Kağankatlı, Lazar Parpetsi və başqa tarixçilərin əsərlərinə yazılmış şərhlər və mətnlərin tekstoloji təhlili də müəyyən nəticənin əldə olunmasına yardım edir (Адонц, 1971; Акопян, 1987; Мамедова, 1986; Тер-Мкртичян, 1979, 1985; Алб.Т. 1993; Мамедов, 1993, və b.).

[538] Balkanda ikən *briq* adlanan (Herodot, VII, 73) friqlərin Ankara civarında məzarları, tipik basırıq üsulu və nəsnələri VIII-VI əsr arasındadır (Çapar, 1987, 46); Əgər friqlər XII əsrdə gəlmiş olsaydı, onda asurlar muşklarla yanaşı friqlərdən də bəhs edərdi.

[539] Бойс, 1987, 104.

[540] Туманян, 1978, 26.

uzaqlaşıb, xristian olurdular. Hayların ermənileşməsi bu çağlarda geniş vüsət aldı. Artıq *erməni* adında get-gedə etnik anlamdan çox, «xristian» anlamı möhkəmlənirdi.

506-da Duvan (Dvin) kəndində Güney Qafqaz xristianlarının (türk, hay və bəzi qafqazdilli boylar) zirvə toplantısı «qriqoryan» xəttini tutmağı qərara alır. Bu görüş siyasi və etnik deyil, dini birlik amacı güdürdü. VI əsr Suriya qaynağı «bu quzey ölkədə» 24 yepiskopu olan beş xristian xalqın yaşadığını, həmin çağda Pers dövlətinə tabe olan Gürcüstan və Aranın öz dilləri və xristian hökmdarları olduğunu qeyd edir və bunların katolikosu Qriqorun Pers Ermənistanında Duvan şəhərində oturduğunu yazır.[541]

İslamlaşma çağında xristian türklərin çoxu xristianlığın daşını atdı, lakin bəzi kiçik bölgələrdə xristianlıq hələ davam edirdi. Azər türklərinin «dinayrı qardaş» deyimi o çağların yadigarıdır, «erməni-müsəlman davası» deyimi də erməni sözünün etnik anlamdan çox, dini anlam daşıdığını göstərir. Sonralar hay kilisəsi alban vənglərini sıxışdıranda bəzi Qarabağ məlikləri hay dilində ibadətə keçdilər. İrəvan hayları belələrinə bugün belə «dönmə» (şurdvats) deyir.[542]

Hay katalikosu Yegiya VII əsrin əvvəlində əl-Məmuna yazır ki, albanlar xilafətin əleyhinə Bizansla ittifaqa girir. Bunun qarşısını almaq üçün xilafət Alban katalikosunu haylara tabe edir. Monofizit-nestorian («Suriya») kilisələri Sasani imperiyasını, diofizit-xalkedon («yunan») kilisələri isə Bizansı dəstəklədiyindən, hər iki cərəyan arasında manevr edən Qriqorian hay kilisəsi Bizans və Sasani dövlətinə qarşı istifadə etmək üçün ərəblərə sərfəli idi. Xilafət çağında haylaşma geniş vüsət aldı, islamı qəbul etməyən ermən-alban (ağvan) türklərinin bir qismi haylaşdı. XIII əsrdə Girakos Qanzaketsi yazır ki, albanların yalnız elitası (rəislər) hay dilini bilirdi.[543]

Qafqaza gəlməmişdən öncə Ermən bölgəsinə gələn hayların durumu haqqında Qr. Kapansyan deyir: «Urartu əhalisi kimi, subar-arimelərin də *haylaşması* prosesi başa çatdığı üçün biz artıq yunanca formalaşmış yeni *armen-oi, Armen-ia,* həm də mümkün qədər hay dili dominantı ilə ***armen***

---

541 ПОА, 461.

542 Beləliklə, müəyyən çağlarda müxtəlif Erməni bölgəsi ortaya çıxmışdır. Hətta bir müddət Gürcüstan və Quzey Azərbaycanın da xeyli hissəsi Böyük Armeniya sınırları içində sayılmışdır. Bunun səbəbi, bir tərəfdən *erməni* adının etnik tutumdan çıxıb, dini anlam (xristian) daşıması ilə bağlı idisə, digər tərəfdən Ermən ölkəsinin bu və ya digər imperiyanın tərkibində canişinin oturduğu bölgə kimi, ətraf bölgələrin də Armeniya adlanması idi.

543 Канзакеци, 1946, 99.

adı altında yeni etnik keyfiyət düşünməliyik».[544] Q. A. Melikişvili bu münasibətlə yazır:

> «Qədim yerli əhalinin dili ilə qarışan hay (erməni) dili qalib çıxdı, lakin qalib dilin tərkibində, əsasən leksikasında, assimilyasiya etdiyi məğlub hurri dili qalib dili zənginləşdirdi. Sonralar erməni tayfaları qədim Urartu rayonlarına yayıldı… onların da bir hissəsi ermənilərə qarışdı».[545]

İki müxtəlif dildə danışan xalq əgər qaynayıb-qarışırsa, bir müddət ikidilli şərait, bilinqvizm yaranır və tədricən bu dillərdən biri üstünlük qazanıb, ümumişlək dilə çevrilir. Ümumiyətlə, iki dilin birləşib qarışıq dilə çevrilməsi mümkün deyil, ona görə də, həmin dillərdən birinin üstünlüyü ilə yeniləşmiş dildən söhbət gedə bilər. Amma bu yeniləşmə bəzən o dərəcədə olur ki, dil əvvəlki formasından xeyli fərqlənir. G. Kapansyan hay-erməni dilinin təbiəti barədə bunları deyir:

> «Erməni dilindəki qeyri-hindavropa elementləri ilə het, urartu, qismən hurri və gürcü dilləri arasında apardığım müqayisə xeyli material verir ki, bu, iran, suriya, asur-babil, yunan, gürcü və başqa dillərdən alınma sözləri, həmçinin təmiz hindavropa (məncə, 400-450) köklərini çıxandan sonra erməni dilinin əsasını, özəyini təşkil edən 5 minə qədər söz, 30-a qədər sözdüzəldici və sözdəyişdirici şəkilçi qalır».[546]

Müəllif *başqa dillər* deyəndə, yəqin ki, türk dillərini nəzərdə tutur, çünki digər dillərə nisbətən türk dillərinin hay dilinə təsiri daha qüvvətli olmuş, bu təsirin altında hayların dili hətta hindavropa dilləri üçün xarakterik olan bir sıra əlaməti itirmişdir. Məşhur dilçi akademik H. Açaryan hay dilində türk sözlərinə aid 300 səhifəlik lüğət yazmışdır.[547] Tanınmış alman alimi Mordman hələ 1870-də yazırdı:

> «Məlumdur ki, ermənilər hindavropa mənşəli xalqdır, amma onların dili turan (türk) dillərinin güclü təsirinə məruz qalmışdır. Bu ifadə ilə mən heç də çoxəsrlik əlaqə nəticəsində Osmanlı dilindən alınmış sözləri yox, eramızın IV-VII əsr erməni dilindəki turan sözlərini nəzərdə tuturam. Bu o dövr idi ki, səlcuqlar, osmanlılar və başqa türklər barəsində hələ heç kimə heç nə məlum deyildi».[548]

---

544 Капанцян, 1947, 209.

545 Меликишвили, 1954, 419.

546 Капанцян, 1947, 79.

547 Açaryan, 1902.

548 Мяммядов, 1986, 6.

Van gölü yaxınlığında m.ö. II-I əsrlərdə protohayların dilinə hurri-urartu sözlərilə yanaşı, türk sözləri də daxil olmuşdur. Bu, hay toplumunun yerli tayfalarla qovuşub, Part dövlətinə sığındığı çağlar idi. Hay dilinə bu çağlarda keçən türk sözləri azər və Anadolu türkcəsindən fərqli formada olub, sonralar azər-xəzər dilindən alınma və İslamaqədər hay qaynaqlarında əks olunan *avçı, yuğ* (yağ), *tel* kimi sözlərdən də fərqlənir. Ola bilər ki, bu çağda hay dilində görünən türkizmlər alınma yox, haylara qarışmış hurri-urartu və ya part dilindən qalma adstratlardır:

türk	hay	anlamı
aş	caş	xörək, (*aşxana - caşaran*)
ot	xot	ot, (*xotma* «kiçik ot tayası»)"
ozan	qusan	aşıq, ozan
varsaq	varsağ	aşıq, ozan
soğan	soğ	soğan
dolu	qarkut	qar dənəsi, dolu
qazan	qızğan	qazan
yarma	yermuk	yarma
yeñi bar	yengibar	təzə bar verən (şəxsadı)

Burada qədim Ø~k dialekt fərqini əks etdirən *aş-caş, ot-xot, ozan-qusan* paralellərində samitli variantlar hay dilinin özəlliyini yox, həmin variantların işləndiyi türk dialektinin əlamətini daşıyır. Belə ki, *ot* sözü azər dialektlərində *xotma* (ot tayası) deyimində göründüyü kimi, *aş* sözünün də *xaş, kaş* variantları vardır.[549] Hay dilinə keçən türk sözləri bəzən ilkin formanı daha yaxşı mühafizə edir. Məsələn, *körpü* sözünün qədim *kabur/*köbür forması yunan dilində *γέφυρα* (ğephura), hay dilində isə *kamurc* şəklində qalmışdır.

Hayların təkcə dili deyil, kulturu da türk gələnəklərilə zəngin çalarlar qazanmışdır. Sonrakı çağlarda ortaya çıxan mənbələrdən aydın görünür ki, hələ səlcuqlar Anadoluya gəlməmişdən yerli türk geyim, mətbəx, sənət və söz-musiqi kulturu yeni ermən-hay etnosunun mədəniyətində dərin iz buraxmışdır. Bu barədə etnolinqvistik bəlgələr, müxtəlif kultur sahələrinə aid alınma terminlər (musiqi, geyim, xörək adları) aydın mənzərə yaradır. Hayların xristianlıqdan öncə *Hayk, Ara, Astğik* və *Anahit*

549 Ъялилов, 1988, 122-124.

adlı dörd tanrısı vardı, onlar Arme-Subar bölgəsinə gələndən sonra buradakı *Tork* (Türk) adlı tanrıya da tapındılar və hay tanrılarının sayı beşə çatdı. Erməni tarixçilərinin yazdığı bu məlumatı bir az dəqiqləşdirək və bu *Türkün* kim olduğunu aydınlaşdıraq.

Mitan dövləti dağılandan sonra Diyarbakırın quzey-doğusunda vaxtaşırı Asur-Urartu hücumlarına məruz qalan subar-mitan və hurri əhalisi ayrı-ayrı dərəbəyliklər şəklində yaşayırdı. Burada yaranmış Subar bəyliyi m.ö. 673-ə qədər müstəqilliyini qoruya bilsə də, həmin ildən asurlar tərəfindən dağıdıldı.[550] Arme-Subar bölgələri iki asur canişinliyinə çevirildi. Asurların Fərat çayı yaxalarında əsir alıb, bu əyalətdə yerləşdirdiyi muşklar içində hay tayfalarının da olması mümkündür. Hayların Suriya ərazilərindən Subar bölgəsinə köçməsi haqqında hay tarixçisi M. Xorenatsi və hayların «Sasunlu David» eposu məlumat verir.

Asur çarı Sinaxxeribi 681-də ibadət vaxtı öz oğlanları öldürür və onlar yaranmış qarışıqlıqdan qorxub Subar bəyliyinə qaçırlar. Bu hadisə haqqında o çağın asur mətnləri məlumat verir. Həmin olay bir əsr sonra Bibliyanın da iki müxtəlif səhifəsidə öz əksini tapmışdır: «Və vaqe oldu ki, öz tanrısı Nisrokun evində ibadət edərkən Adrammelek və Şaretsar onu qılıcla vurdular; və Ararat diyarına qaçdılar».[551] «Sasunlu David» eposu həmin olayı belə verir ki, Bağdadda oturan Sinekerim şahın Sanasar və Bağdasar adlı iki oğlu gecə ikən qaçıb hay hökmdarı Tevadorosun yanına gəlir, bu da ona 300 ailə verir və bu əhali Sasun adlı yeni yaşayış məskəni salır. Göründüyü kimi, bu mənbələrdə bəzi hay boylarının Van hövzəsində məskunlaşması tarixi qaçqın asur şahzadələri ilə əlaqələndirilir. Hər halda, sonrakı çağlarda da tanınmış hay sülalələri (Mamikon, Baqrat, Smbat və b.) doğudan gələn türk, ərsaq (parfiyalı) soylu bəylərin və ya güney-batıdan gələn aramey və yəhudilərin nəslidir. «Bizim ərdəmli soybabamız *Skayordidir*» - deyən M. Xorenatsi başqa bir hay soyu haqqında da bunu yazır: «*Anqeğ-evi* Haykın hansısa nəvəsi *Paskamdan* törəmişdir».[552]

M. Xorenatsinin qədim mənbələrdən köçürdüyü *Paskam, Tork* və *Skayordi* adları diqqəti çəkir. Belə ki, tarixçi bu adların mənasını bilmədiyi üçün sonrakı tədqiqatçılara xeyli problem yaratmışdır. O qeyd edir ki,

---

550 Azər xalqı, 2000, 129-134.

551 Biblia. II Çarlar, bar. 19, 37 və İsayi, bar. 37, 38.

552 Хоренаци, I. XXIII.

Vağarşak Haykakın nəvəsi *Paskamın* soyundan idbar görkəminə görə *Angeğ* adlanan Torku batı tərəfin hökmdarı təyin etdi. «Vağarşak idbar görkəminə görə ***Tork*** soyunu *Angeğ-Tun* adlandırdı. Əgər istəsən, sənə onun haqqında ağlasığmaz hekayələr danışaram, necə ki, perslər Saqcik Rüstəmdə 120 fil gücü olduğunu deyir. Onun haqqındakı nəğmələrdə elə igidlik, qoçaqlıqdan bəhs olunur ki, bunu Samson, Herkules nə də Saqcig haqqında demək olmur» (II.VIII).

Tarixçi bu hekayəsini davam etdirir və Tork adlı bahadırın azmanlığını təsvir edərkən Təpəgöz haqqında Homerin yazdıqlarını təkrar edir. Əsəri ruscaya çevirən N. Emin bu bənzərliyi görüb, Homerin Polifemi ilə müqayisə aparmışdır. Lakin tarixdən məlumdur ki, nə hayların, nə də ermənilərin Türk (Tork) adlı hökmdarı olmayıb. Ona görə də sonrakı tədqiqatçılar tekstoloji araşdırma ilə müəyyən ediblər ki, M.Xorenatsinin istifadə etdiyi mənbədə **Türk** hökmdar yox, tapınaq adıdır; onun kifirliyi haqqındakı təsvir isə hayca «angeğ-tun» (idbar evi, kifir soyu) sözünün mənasına uyğun tarixçinin şərh vermək istəyinin nəticəsidir. F. Buzand «Angel çox qədimdən hayların baş şəhəridir» deyir və hay mənbələrində işlənən Angel (sonralar Angeğ-tun) şəhərinin Arme-Subar bölgəsində olduğunu qeyd edən Qr. Kapansyan *Tork* və *Paskam* haqqında bunları yazır:

> «Sonra bu şəhərin kultla bağlı əhəmiyətini də xüsusi qeyd etmək lazımdır, çünki burada bütpərəstlik dövründə atası **Paskam** olan **Tork** *Angeğlinin* tapınağı vardı. Əlbəttə, bunlar tanrı adlarıdır; birincisi (Torkh) əsasən Kiçik Asiyada əksər qədim xalqların tapındığı *Troko, Tarku, Tarxu* formalarında işlənən və yunanlara *Tarchon,* etrusklar vasitəsilə romalılara *Tarquinius,* likiyalılara *trqq* formasında keçən «*tanrı*» anlamlı addır. Bu **Paskam** (Paskham) adı isə, əgər yazılışı təhrif olunmayıbsa, hələlik izah oluna bilmir. Sonundakı *-am* elementi ilə bir çox hurri adlarına yaxınlaşır, lakin Aitakama, Tarxigama adlarında olduğu kimi, burada *-kam* şəkilçisini də ayırmaq olar».[553]

Kapansyanın sözlərinə Armedən doğuda Subar bəyliyində *Turxu* şəhər-bölgəsinin olduğunu da əlavə edək və alimin linqvistik fəhmlə Ayta-kama, Tarxi-kama və Pas-kam adlarında *-kam* elementinin ayrıldığını görməsini də xüsusi qeyd edək. Ancaq alimin özü də etiraf edir ki, «отец» kimi təqdim olunan *Paskam* adı hələlik izah oluna bilmir. Halbuki

---

553 Капанцян, 1947, 201.

burada çətin yozula bilən bir şey yoxdur; sadəcə, **Tork** tapınağının baş kahini **Pas kam** (baş kam) adlanır və bütün bu müəmmalı şərhlər vaxtilə M.Xorenatsinin özündən min il əvvəlki subar-ermən tarixi ilə bağlı mənbədə rast gəldiyi *Türk tapınağı* və bu tapınağın baş şamanı *Pas-Kam* adını Haykın soyuna bağlamaq cəhdinin ortaya çıxardığı dolaşıqlıqdan başqa bir şey deyildir. Hay-erməni tarixçi kollektivinin yazdığı son «Erməni xalqının tarixi» (1980) adlı kitabda bu fakt bircə cümlə ilə verilmişdir: «Erməni panteonu sırasına **Türk tanrı** da daxil oldu». [554]

Göründüyü kimi, qədim subar-ermən kultunu da mənimsəyən haylar əsl həqiqəti dolaşığa salmışlar. Hətta, Torkun tapınaq deyil, M. Xorenatsinin yazdığı kimi, bölgə bəyi olduğunu qəbul etsək belə, yenə onun qədim ermən boyu içində ulu şaman (*başkam*) soyundan olan *Türk* adlı bir bəy olduğunu qəbul etmək zorundayıq; hər iki halda qədim türk sözləri olan Paskam və Tork adları haylara aid deyil. Tarixçi özü də etiraf edir ki, istifadə etdiyi «mənbələrdə hadisələr başqa cür təsvir olunub».[555]

Beləliklə, Ermən bölgəsinə gələnə qədər hurri-urartu boylarına qarışan haylar 301-də xristianlığı qəbul etdi. V-VII əsrlərdə hay milli ruhu çox inkişaf etdi və bu çağlarda yazılan tarix kitablarında hayların qədimliyini əsaslandırmaq üçün gəlmə hayların tarixi yerli ermən boyunun tarixinə calandı. [556] Hayların Qafqaza gəlişi isə İslam çağına aiddir. Hay-türk əlaqələrindən danışarkən bu olayların diqqətə alınması gərəkir.

Quzey və Quzey-Doğu qonşular

1. İber-Qafqaz

Böyük-Qafqaz sıra dağlarının quzeyi və Qaradənizin batı yaxalarından gəlib, Azərbaycanın quzey və quzey-batı bölgələrində yerləşən, bəzi hallarda protoazər boyları ilə qonşuluqda, bəzi hallarda isə iç-içə yaşayan qafqazdilli xalqlarla tarixi əlaqələr onların dilində, mifologiya, folklor və etnoqrafiyasında türk tarixi üçün qiymətli bəlgələr sərgiləyir.

«Qafqazdilli xalqlar» deyimi elmi baxım-

[554] «В состав армянского пан
[555] Хоренаци, I. V; I. XXI.
[556] Haylar Ağrı ətəyinə gələnd
Kaşiyar dağının adı ilə *Ağrı* dağ

dan qüsurludur, çünki neçə minildir ki, «Qafqaz xalqları» deyimi özündə *qaraçay-balkar, azər, kumuq* kimi türk , *hay, oset* kimi hindavropa və *kartvel, avar, ləzgi* kimi iber-qafqaz dilli xalqları ehtiva edir. Lakin qüsurlu olmasına baxmayaraq, bu ifadənin elmdə möhkəmlənmiş gələnəyindən imtina etmək də müəyyən dolaşıqlıq yarada bilər. Ona görə də, *iber-qafqaz xalqları* (və ya *dilləri)* ifadəsi ilə yanaşı, bəzən bu deyimi də işlətmək zorundayıq.

Üç bölümə (batı, güney, doğu) ayrılan qafqaz dillərinin bir-birilə qruplararası qohumluğunun hələ sübut olunmadığını qeyd edən qafqazşünasların əksəriyəti bu dillərin tipoloji yaxınlığı məsələsində həmrəydirlər.[557] Belə tipoloji yaxınlığın *hurri-urartu* dillərində də olduğunu görən uzmanların bəzisi həmin ölü dilləri də qafqazdilli sayırlar. Hazırda bütöv Qafqaza yayılan qafqazdilli xalqların batı qolunu *abxaz-adıq*, doğu qolunu *nax-dağıstan,* güney qolunu isə *kartvel* dilləri təşkil edir. Elmi ədəbiyatda artıq hər üç qolun ümumi adı kimi *iber-qafqaz xalqları* (*dilləri*) termini möhkəmlənməkdədir. Bugün üç bölümə ayrılan 40-a yaxın *iber-qafqaz* xalqlarının (dillərinin) qruplar üzrə bölgüsü sxemini və yayılma arealının xəritəsini belə göstərmək olar:



[557] Климов, 1986.

İber-qafqaz xalqlarının ilkin Atayurdu, onların etnogenezi haqqında bir-birinə zidd fikirlər söylənmişdir. Gürcülər istisna olmaqla, iber-qafqaz xalqlarının əksəriyəti yazısızdır və neçə ki, bu dillər elmi baxımdan geniş tədqiq olunmamışdı, etnik mənşə problemi də gerçək yozumdan kənarda qalmışdı. Müəyyən qədər bu problem protokartvelləri *kolx*, *iber* adlandıran antik çağ yazarları və orta əsrlərin gürcü yazarları tərəfindən dolaşdırılmışdır. Belə ki, gürcülərin Misir (Herodot, m.ö. V) və ya İspaniya (Meqasfen, III əsr) mənşəli olub, oralardan Gürcüstana gəlməsi fikri və qədim gürcü qaynaqlarında da onların hansısa mifik Arrian-Kartli ölkəsindən gəlmə, yaxud Bibliyadakı *tubal* boyunun gürcü sayılması elməqədərki yozumlardır.[558]

İber-qafqaz xalqının tarixi elmi aspektdə öyrənildikcə onun mənşəyi haqqında ciddi bilgilər əldə olundu.[559] Tarixin müxtəlif çağlarında bu və ya digər xalqın təsir dairəsinə düşən iber-qafqaz xalqlarının dilində fərqli əlamətlərin ortaya çıxması təbii idi. Bunu diqqətə almadan iber-qafqaz dillərini *hindavropa*, *sami* və ya *ural-altay* dil ailəsinə aid edən (N.Y. Marr,

[558] Дзидзигури, 1968, 13-14.

[559] Qafqazdilli xalqlar antropoloji və arxeoloji bəlgələrə görə, onların qədimdə yaşadığı yerlər Böyük Qafqaz dağları ilə Qaradəniz arasındakı bölgələrdə əsasən dağ silsiləsinin quzey ətəkləri idi. Əgər əvvəllər qafqazdilli xalqların güney ölkədən, xüsusilə, Azərbaycandan Qafqaza köçməsi fikri yayılmışdısa, tanınmış gürcü tarixçisi S.N.Canaşianın kartvel boylarının Qafqaza gəlmə xalq olmadığını sübut edəndən sonra qafqazdilli xalqların Qafqazda avtoxton olması fikri elmdə aparıcı mövqeyə çıxdı (Canaşia,1949; 1952; Абдушелишвили, 1964, 90; Джапаридзе, 1976, 340)

F. Bopp, M. Müller və b.) alimlərdən fərqli olaraq, iber-qafqaz dillərinin kənardan gəlmə olmadığını söyləyən qafqazşünas A. Dirr bu dillərin vahid və ya yaxın üç anadildən törəməsi fikrini irəli sürmüşdür.[560] Həqiqətə uyğun gələn bu ehtimala azacıq düzəliş verməklə onu nəzəri baxımdan mükəmməl tabana oturtmaq mümkündür. Belə ki, yetgin protodil mərhələsini yaşayandan sonra parçalanmış sami, finuqor, türk, hindavropa dil ailələrindən fərqli olaraq, Quzey Qafqazın üç yaxın bölgəsində formalaşan protodialektin qovuşub mükəmməl vahid protodilə çevrilməsi prosesi yarımçıq qalıb.

Görünür, bu ana dilin hələ təkmilləşmədən dağılması IV minilin ortalarında Qaradənizin quzeyindən Qafqaza doğru enən bəzi hindavropa boylarının və Azərbaycandan quzeyə keçən prototürk boylarının miqrasiyası ilə bağlıdır. Xəzər və Qaradəniz arasındakı Atayurdda həm güney həm də quzeydən sıxışdırılan yerli *kavkasion* antropoloji tipli protoiber-qafqaz boyları Qafqaz dağlarına sığınmışdır. O çağdan qohum boyların birbirilə əlaqəsi zəiflədiyi üçün get-gedə Qafqazın dağlıq bölgələrində çoxlu dillər ortaya çıxmışdır. Bu səbəbdən, ilkin tipoloji strukturu saxlayan bu dillər artıq III minildən başlayaraq, lokal bölgələrdə yeni və fərqli inkişaf yolu keçmişlər.

Dağıstanın IV minildə arxeoloji kulturu Azərbaycandan fərqli olub, Kür-Araz kulturu ilə əlaqəsi yox idi.[561] Güney-Qafqazda yaşayan Aralıqdənizi antropoloji tipinə məxsus insanların IV minilin ortalarında yaratdığı Kür-Araz kulturunun minildən sonra Çeçen-Dağıstan bölgələrində göründüyünü, həmin kulturu bura miqrasiya edən boyların gətirdiyini qeyd edən Y. A. Frolov yazır: «Yerli əhali ilə qarışan gəlmə kür-arazlılar öz kulturunu onlara verdiyi kimi, onların kulturunu və dilini də mənimsədilər».[562] Bu yozum həqiqətə uyğundur, belə ki, həmin çağda Çeçen-Dağıstan bölgəsində öncə iki fərqli kulturun izi görünürsə, tədricən Qayakənd-Xoroçoy kulturu çağında artıq fərqlər aradan çıxır. Deməli, quzeyə gedən ilk prototürk dalğası orada yerlilərə qarışıb dilini itirmişdir, əks halda, naxdağıstan dilləri türkləşərdi. Sonrakı türk dalğaları da (saqa, subar, xəzər, hun və s.) yerli əhalinin dilini dəyişmədi, sadəcə, «Qafqaz evi»ndə xalqların ikinci dilinə çevrilən azər dili ümumi ünsiyət vasitəsi kimi işləndi.

---

560 Dirr, 1928.

561 ИД, I. 82.

562 Федоров, 1983, 33-34.

Artıq III-I minillərdən kartvel boylarının Anadolunun quzey-doğu bölgələrində görünməsi, Kolx bölgəsində məskunlaşması mümkün idi. II-I minillərdə subar, qaşqay, ermən, mitan, saqa, qamər və başqa Doğu Anadolu türkləri ilə yaxın qonşuluq əlaqələri olan protokartvel boylarının özlərinə məxsus kultur gələnəkləri saxlanmışdı. Hələ paleolit çağından Qaradəniz yaxası (Kolx) ilə Borçalı-Qazax abidələri fərqlənirdi və bu fərqin sonrakı arxeoloji qatlarda da davam etməsi göstərir ki, bu iki qonşu bölgə arasında əlaqə olsa da, əhalinin qarışması olmamışdır. Bu qonşular Urartu, Əhəməni, Selevk, İran və sair imperiyaların boyunduruğunu birgə çəkmişlər. Böyük dövlətlərin təcavüzü qarşısında duruş gətirmək üçün gürcü böyükləri dəfələrlə qonşu bölgələrdə qoyunçuluqla məşğul olan yarımköçəri türk boylarından istifadə etmiş, onların sınır və iç bölgələrə yerləşməsi üçün şərait yaratmışlar. Bu tip kartvel-türk əlaqələrində isə bəzi qarışmalar olmuşdur, necə ki, Kaspi şəhərinin türk əhalisi dilini son əsrlərə qədər qoruya bilsə də, gürcülərin əhatəsində yaşadığından artıq ana dilini unutmaqdadırlar. Türk boylarının kompakt yaşadığı Tiflis və Borçalı bölgələrində isə bu cür qarışmalar görünmür.

Artıq m.ö. I minildə Asur-Urartu və Yunan-Latın yazılarına düşən Qaradənizin güney-doğu yaxaları haqqındakı bəlgələr burada yaşayan boyların adını sadalayır. Qaradəniz yaxasında gürcü xalqının etnogenezində əsas yer tutan kolxlar və onlardan doğuda iberlər yaşayırdı. İberlər haqqında məlumat hələ m.ö. IV əsr yazarları Platon və Aristotelin, iki-üç əsr sonra isə Apolodor, Strabon və başqa yazarların əsərlərində vardır.[563]

Orta əsrlərdə Kolxida və İberia əhalisinin birliyi ilə Gürcü feodal dövləti yaranır. Yazılı qaynaqlar içində əsas yeri dini ədəbiyat tutsa da, ayrı-ayrı boylara, tarixi şəxslərə, dövlətə, tarixi xronologiya və olaylara aid abidələrdə türk-azər tarixi üçün qiymətli bəlgələr vardır.[564] V əsrdən

---

563 Didi-Turkoba, Didi-Qomareti mahallarının adındakı *didi* sözü «böyük» anlamındadır. Bu bölgələrin böyük türk və qamər el-obası kimi tanınması etnik demoqrafiyanı əks etdirir. Qoridə I-III əsrlərə aid Axrisi kəndində basırıq yerinin *Turkebuli* adı kimi, Gürcüstanda qədim abidə və qəbrlərin olduğu yerlərin bir qismi türkcə adlanır.

564 VII əsrin ortalarına qədərki tarixi əhatə edən «Moktsevay Kartlisay» abidəsi, müxtəlif dövrlərə aid tarixi əsərlərin toplusu «Kartlis sxovreba» abidəsi, Leonti Mrovelinin (XI əsr) «Kartli çarlarının həyatı» kitabı, gürcü epik əsərlərində, mifologiya, nağıl və folklorunda, ən əsası, kartvel dillərindəki qədim türkizmlər, azər-kartvel ortaq Qafqaz izoqlosları, etnolinqvistik bəlgələr, qafqazşünasların qələmə aldığı yazılardakı türkizmlər İslamöncəsi tarixə işıq salır (Багратиони, 1848; Джавахишвили, 1939; Джапа-

sonrakı gürcüdilli qaynaqlarda Azər tarixi üçün gərəkli bəlgələrdən az-çox istifadə olunmuşdur.[565] Kartvel (gürcü) dilinin bir neçə dialekti vardır: *kartli, xevsur, tuş, imer, acar*. Kartvel dillərində işlənən türkizmlərdən müəyyən qədər bəhs olunmuşdur.[566] Güney-doğu kartvel toplumu içində azər türkcəsi o qədər yayğın olmuşdur ki, hətta Sulxan Saba Orbeliani 1685-dən başlayaraq, otuz ilə tamamladığı gürcü dilinin izahlı lüğətində (Kartuli leksikoni) bir çox gürcü sözünün mənasını türkcə olan qarşılığı ilə izah etmək məcburiyətində qalmışdır.[567]

Kartvel dillərindən azər dilinə *talvar, cəcə, çala* kimi sözlər keçdiyini qeyd edən gürcü alimləri azər dilindən də kartvel dillərinə daha çox mətbəx kulturu (*dolma, buğlama, qavurma, xizilala* «kürü») və qoyunçuluq təsərrüfatı (*toxli, şişaqi, qoçi, ialağı* «yaylaq») ilə bağlı sözlər keçdiyini yazırlar.[568] Əlbəttə, bu alınmalardan bəzisi İslamaqədər, bəziləri də İslamdan sonrakı çağlara aid ola bilər, lakin şəxs əvəzliyi və əkinçiliklə bağlı bu sözlərin kartvel dillərinə keçmə tarixi çox qədimdir:

azər	kartvel	anlamı
mən	*men*	I şəxs
sən	*şen*	II şəxs
tamada	*tamada*	masabəyi
kotan	*qutani*	kotan
toxa	*toqi*	toxa «motıqa»

Kür-Araz kulturu dağılandan sonra hurri boylarının Azərbaycanın batı sınırları ilə Doğu Anadoluya enməsi görünür. III-II minilllərin qovuşuğunda baş verən bu olay bir də II minilin son əsrlərində urartular tərəfindən təkrar olunur. Bu son miqrasiyaya qoşulan bəzi nax-dağıstan dilli boyların Azərbaycanın quzey bölgələrinə gəlib yerləşməsi protoazər və qafqazdilli izoqlosların, ortaq etnoqrafik dəyərlərin, xüsusilə türkizmlərin çəkisini bu dillərdə xeyli artırmışdır. İber-qafqaz dillərində (çeçen-inquş, kartvel, avar, ləzgi, rutul, udi, qırız, saxur, xınalıq, buduq və b.) qədim

---

ридзе, 1976; Меликишвили, 1959; Мровели, 1979; Şanidze, 1983; Аласания, 1986; Арвеладзе, 1996. Климов, 1965; 1986).

[565] Киланава, 1983; Гукасян - Асланов, 1986.

[566] Baitchura, 47-48; Климов, 1986, 191,192; Ъялилов, 1988, 37; Каграмансой, 1992.

[567] Абуладзе, 1964.

[568] Зидзигури, 1968, 74-75.

türkizmlərin daşıdığı etnolinqvistik informasiya olduqca əhəmiyətlidir. Bu boylardan bəzisinin etnik adı da türkcədir: *avar, çeçen, buduq, xınalıq* və s.[569] B. İ. Kilanava yazır ki, kartvel-i adındakı *kart* sözü hindavropa (**qard* «şəhər», «hasar») etimologiyası ilə açıla bilirsə, *egr-i*, və *iber-i* adlarının yozumu da türk dillərində eyni anlam daşıyan və heyvanların yaylaqda yataq yeri ilə bağlı binə, ağıl, xalxal sözlərinin sinonimləri ilə açılır.[570] Qafqazda yaşayan xalqların bir özəlliyi də var ki, müəyyən olay, münasibət və sair səbəbdən bu və ya başqa xalqın adını (etnonimi) yeni doğulan uşağa verirlər. Belə ki, çeçenlərdə Mada, Maday, Daqa, Qebarto (kabarda), Qumki (qumuq) adları olduğu kimi, azər türklərində də Özbək və Çərkəz adlarına rast gəlmək olur.

Miladdan sonrakı minillik boyu güney, həm də quzey tərəfdən türk boylarının əhatəsinə düşən qafqazdilli xalqlar türk boylarının dili və etnik kulturunun təsiri altında idilər. Bu çağda qonşu xalqların dilinə türk dilinin çox böyük təsiri olmuşdur. Belə ki, beş əsr boyu Quzey Qafqaz xalqlarının Xəzər imperiyasının tərkibində qalması onların İslamaqədərki tarixini türk tarixi ilə sıx bağlamışdır. Tengiz, Bekpulad, Yengibar, Arslan kimi onlarla qədim türk adı artıq ümumqafqaz statuslu antroponimə çevrilmişdir. Ona görə də bir gürcü, avar və ya çeçen kəndində iki minil boyu nəsildən-nəsilə ötürülən Arslanbek adının onlara aid olmadığını heç kim ağlına belə gətirə bilməz.

İber-qafqaz dillərinin mürəkkəb mexanizmindən fərqli olaraq, türk dili morfologiyasının sadə sxemi bu dilin asan mənimsənilməsinə imkan verir. Məsələn, türkcə (*mənə*) *bax-dır-ma* deyiminin abxaz dilində qarşı-

[569] Quzey-Qafqazda adları türkcə olan *adıq, çərkəz, kabarda, abxaz* qafqazdilli boylar ilə saqa, hun, bulqar, xəzər, peçeneq, kuman-qıpçaq türkləri arasındakı əlaqələr Azərbaycandan kənarda olmuşdur.

[570] Киланава, 1983, 101-125.

lığı «sən qoyma, o mənə baxsın» anlamı ilə *siumırban* tərkibli deyimlə verilir:

mənə	*sən*	*qoy-*	(zaman şəkilçisi)
| *onu* |	*-ma* |	*bax*	|
s - i - u - mı - r - ba - n			

Türk dilinin fonetik, morfoloji, sintaktik quruluşundakı mükəmməl sadəlik qonşu xalqların bu dildən uluslararası ünsiyət vasitəsi kimi istifadə etməsinə imkan açmışdır. Qafqaz xalqlarının dilinə keçən türkizmlərin semantik arxaizmi və bazis leksikaya aid olması diqqəti çəkir. A. K. Şaqirovun «Abxaz-adıq dillərinin alınma leksikası» adlı əsərində abxaz-adıq dil qrupunda türkizmlərin bolluğu deyil, onların konkret sahələr üzrə çoxluğu maraq kəsb edir.[571] Təbii ki, bunların əksəri qaraçay-balkar dilindən alınmışdır. Abxaz-adıq dillərində atçılıqla bağlı sözlər:

türk	abxaz-adıq	anlamı
alaşa at	*alaşe, laşa*	at türü
arkan	*arkcın, arkcen*	arkan, kəndir
borlu	*bırulg, brul*	boz, boru, atın rəngi
gəzənək	*qvazanakc, qvəznəkc*	örüş
yem	*yem*	ot, yem
kamçı	*kcamış, a-kcIamçı*	qamçı
kunan	*kcvınan*	üçəm yaşlı dayça
dunan	*dunan*	3-4 yaşlı dayça
katır	*kcıdır, kxcatır*	qatır
çul	*çul*	çul, tərlik
yal, cal	*cal, cğal*	atın yalı

Dağıstanda 20-dən artıq qafqazdilli xalq yaşayır. Tarix boyu türk xalqlarının quzey-güney yolu üzərində yerləşən bu bölgənin türk əhalisi üçün Dağıstan ikinci Atayurd olmuşdur. Xəzərboyu zolağın daima türk yurdu olduğunu və müxtəlif çağlarda buradakı sabir, barsil, xəzər, hun, maskut, kumuq, tərəkəmə boylarınıın azər türklərinə qarışdığını nəzərə

571 Шагиров, 1989, 90, Belə ki, burada flora-fauna adlarının, dəmirçilik, heyvandarlıq terminlərinin xeyli hissəsi türkcədir; qaplan, buğa, qunduz, taşbağa, donquz, qaz, samır (ov iti), auci (ovçu) sözləri də türkcədir. Sözlüklə tanışlıq elə təəssürat oyadır ki, sanki taxtabiti sözündən tutmuş aslana qədər bütün zoonimlər türk dilindən alınmadır.

alanda bugünkü durumu əks etdirən bu sxemdə Xəzərboyu azər, padar (tərəkəmə) və kumuqların sıralanması qəribə görünməməlidir.



Əslində, Xəzər yaxası bu zolağın bugünkü durumu, proto-azər Atayurdunun quzey-doğu bölgəsində uc sınır olan Dağıstan və bu bölgənin tacı Dərbənd azər türklərinin qədim yurdlarındandır. Dərbəndi Atayurdu sayan azərlər burada Xəzər eli çağında da yaşayırdı. Ona görə də, digər iber-qafqaz dillərinə nisbətən, nax-dağıstan dil qrupunda danışan xalqlar (ləzgi, qırız, budux, xınalıq, udi və s.) azər boyları ilə daha sıx təmasda olmuş və onlar azər dilinin təsirinə daha çox məruz qalmışlar. Dağıstan xalqlarından bir neçəsi (ləzgi, qırız, saxur, avar, budux, xınalıq, udi) hələ İslamdan öncə Azərbaycanda yaşayırdı, bunların bir qismi isə orta əsrlərdə Azərbaycanın quzey bölgələrinə enib məskunlaşmışlar. Ola bilsin ki, nax-dağıstan boylarından bəziləri m.ö. VII əsrdə Saqa-Qamər axınına qoşulub, quzey bölgələrə gəlmişlər.

Urartulardan qalma qafqazdilli boylardan sayılan udi boylarının dili ilə urartu dili arasında Abqar Payazat xeyli paralellər aşkar etmişdir.[572] Bu yöndə aparılan araşdırmaya urartu-çeçen paralelləri cəlb olunsa, məncə, daha çox oxşar elementlər ortaya çıxar, çünki çeçenlər yaşayan ərazilərdə Vedi-Naxçıvan arasındakı toponimlər təkrar olunur. Avar, tabasaran, lak, ləzgi, çeçen-inquş dillərində atçılıqla bağlı türk sözləri, ayğır, alaşa tipli zoonimlər geniş işlənir. Nax-dağıstan dillərində daha çox yemək, geyim adları, heyvandarlıq terminləri türk dilindən alınmışdır. Bəzən, bu dillərdə azər dilində çoxdan unudulmuş sözlərə rast gəlinir. Məsələn, *toğanaq* sözü inqloy və udi dillərində «iynə», «ilgək»(qarmaq) anlamını saxlayıb.

Bəzi dağıstan dillərində türk dili şəkilçilərindən aktiv istifadə olunur. Belə ki, udi dilində *bul* «baş» sozü azər dilinin qramatik şəkilçiləri ilə işlənə bilər: *bulçu* «başçı», yiyəlik halla (*-ın*) *bulın* «başın», *bulsuz* «başsız», *bulluq* «başlıq», yaxud *-ıncı* şəkilçili sıra sayları qırız, buduq,

572 Payazat, 1937.

xınalıq dillərində aktiv işlənir: *beşinci, altıncı* və sairə.[573] Hətta, lak dilində bir neçə türk dili şəkilçisi (-çi, -kar, -luğ, -mal, -siz, -lu, -dan, -içun) işlənir.[574]

M. C. Saidovun Avar dilinin Buynak, Kazbek, Qızılyurt və Qumbet bölgələrində işlənən *salatav* dialektinə aid topladığı sözlər sırasında bizi türkizmlərin sanballı çəkisi yox, burada Aybikə, Altunqız, Aruqız adlarında olduğu kimi, sözlərin qədimliyi və estetik gözəlliyi ilgiləndirir. Belə ki, azər ədəbi dilində işlənməyən *tavuş* «şanlı», *urluk* «toxumluq», *başbu* «yüyən», *aytıv* «deyim», *belgili* «müəyyən» kimi sözlər avar dilinə qonşuları kumuqlardan keçmişdir. Burada türkcə alınmalar sırasında qab adları da çeşidlərinə görə diqqəti çəkir:[575]

avar dilinin salatav dialekti	anlamı
aşlav	tas
baqcir	bakır tas
bojen	zəmbil
qcap	torba
qcutxca	kiçik mis bardaq
çelek	çəllək, çən
çoen, çoqcenxcaq	çuqun qab
yalqcab	tava, (yal qabı)
tava	tava
qcapqcaç	qapaq
silabçı	böyük mis qab

Azər türklərinin dilində çoxdan arxaikləşmiş *tarkan* (*turkan*) titutu müasir dargin dilində məna və forma fərqi ilə (*talxan*) işlənsə də, tarxan şəklində onu çeçenlər XVIII, gürcülər isə XIX əsrə qədər saxlamışdı. Bu kimi dövlətçilik terminlərinin qonşu xalqların dilində araşdırılması qədim türk dövlət sisteminin özəlliklərini öyrənməyə yardımçı olur. Məsələn, bu terminin daşıdığı mənaları öyrənməklə Azərbaycanda hələ 4200 il əvvəl qurulmuş Qut dövlətinin son hökmdarı Tirikanın adında *diri-kan* və ya *türk-an*//*tar-kan* sözlərindən birini müəyyən etmək asanlaşır.

---

573 Гукасян, 1974, 258-297; ЯАИА, III. 1979, 98.

574 ТДЯК, 1982, 77; Lak dilində «Qavaya (havayı) ssirka (sirkə) baldan şirin» tipli atalar sözü, *aşşak* (eşşək), *kupayuğlı* kimi söyüşlər canlı danışıqda aktiv işlənir.

575 ТДЯК, 1982, 136-155

Nəzərə almaq lazımdır ki, minillər ötdükcə cəmiyətdə sosial inkişaf nəticəsində bir sıra əşyalar məişətdən çıxdığı kimi, bəzi məfhumlar da köhnəlir və dəyişiklik onları bildirən sözlərin arxaikləşib danışıqdan çıxması ilə nəticələnir. Keçmişdə yazılı ədəbiyatı olmayan nax-dağıstan dillərində yüzlərlə türkizmin unudulması təbiidir. Bugün üçün də arxaik olan sözlər danışıqdan çıxmaqdadır. Dağıstan alimi A. A. Abdullayev yazır ki, artıq lak dilində *batağa* (balıq vətəgəsi), *qarabaş* (qul-qaravaş), *tamak* (taxta tabaq), *başlıq* tipli arxaik türkizmlər danışıqda işlənmir.[576]

Beləliklə, Quzey Qafqazda formalaşan iber-qafqaz dillərinin hər üç qolu ilə türklərin kontaktı olmuşdur. Bu dillərdə *aslan, bars, qaplan* kimi yabanı heyvan adlarının türk dilindən alınması göstərir ki, onlar bu sözləri Quzey Qfqaza Ön Asiyadan gələn türklərdən almışlar. Tarix boyu Qafqaz türk boylarının yolunda körpü rolunu oynamış və bu körpüdən keçən türk boyları istər-istəməz iber-qafqaz xalqları ilə yaxın təmasda olmuşlar.

2. Oset (Osetin)

Qafqaz dağlarının quzey və güney yaxalarında iki bölgə təşkil edən Osetiya irani dildə danışan oset (osetin) xalqının yurdudur. Əsasən, *iron* və *diqor* dialektlərinə ayrılan oset dilində türkizmlər daha çox diqor dialektindədir. Ola bilsin ki, vaxtilə Daryol keçid bölgəsində məskunlaşmış *dügər* türk boyundan bəzi tayfalar osetlərə qarışıb. V. İ. Abayevə görə, osetlərin formalaşmasında hansısa türk boyunun iştirak etməsi şübhəsizdir.[577] Çünki oset folkloru və dilində türkizmlər dərin iz buraxmışdır. Özəlliklə, nartlar haqqındakı rəvatətlərin qəhrəmanları türk adları daşıyır. Oset dilində yazılı qaynaqlar olmdığından onların qədim dövrü haqqında bilgi də yoxdur.

---

576 ТДЯК, 1982, 82-83; Bu baxımdan, iber-qafqaz dillərinin qədim əlaqələrinə işıq tuta bilən hər bir söz dəyərlidir. Təəssüf ki, ölkəmizdə Dilçilik İnstitutu, onlarla dilçilik kafedrası, yüzlərlə dilçi alim olmasına baxmayaraq, hələ bir dəfə də quzey qonşularımızın dilində işlənən türkizmləri toplamaq üçün ekspedisiya təşkil edilməmişdir.

577 Абаев, 1935, 93; Oset dilində *Dzorqa* //corqa (yorğa at) tipli alınmalar qıpçaq dili ilə kontakta işarə edir (Abdullaev, 1982, 39); İranşünas alimlərin bəzisi «oset» kartını elmi spekulyasiya vasitəsinə çevirib, onları böyük skit toplumunun Qafqazda qalığı kimi verməyə cəhd edirlər. Onlarla skit boyları içində bir-iki irani tayfanın olması təbiidir, lakin bunu şişirdib, skitlərin hamısını irani xalq saymaq elmi gerçəklikdən uzaqdır.

3. Fin-uqor

Xəzər dənizindən quzeydə yerləşib, doğu sınırı Ural dağlarını əhatə edən, batıda isə sınırları Oka çayına qədər uzanan bölgələrdə, İtil çayının orta axarlarında və Kama çayı boyu yaşamış tayfalar Ural dil ailəsinə mənsub olub, sonralar *finuqor* və *samodi* qollarına ayrılmışdır. Finuqor protodilinin parçalanma dövrünü uzmanlar 4-5 minil öncəyə aid edərək, türk və finuqor xalqlarının kontaktını da həmin çağla bağlayırlar: «Finuqor və türk dilləri arasındakı ortaq sözlər aydın göstərir ki, bu dillərin yaxın əlaqəsi şübhəsiz finuqor kök dilinin hələ dağılmadığı çağda olmuşdur».[578]



Ola bilsin ki, finuqor boylarının ayrı-ayrı qollara ayrılmasına türklərin m.ö. IV minilin ortalarından başlanan ilk böyük köçləri səbəb olmuşdur. Hər halda, artıq III minildə quzeyə gedən türklər finuqor Atayurdunda yerli xalqla qarşılaşmışdır. Finuqor dillərində *meşə* (metsə) sözünün hətta fin və eston dillərində işlənməsi də göstərir ki, bu sözü finuqor yurduna aparanlar Azərbaycandan getmişlər. Finuqorların məskunlaşdıqları bölgələrdə bir neçə *Kür* çayadı da özünü göstərir.[579]

Tarix boyu Xəzərin quzeyindən batı və doğu yönlərə hərəkət edən köçlər istər-istəməz finuqor xalqlarının atayurdundan keçməli olurdu. Bu bölgədən keçib doğuya gedən hindiran boyları ilə təmasda olmuş yerli xalqın dilində *murt//mort* «adam» kimi bəzi hindiran sözləri qalmışdır. Müxtəlif çağlarda buradan istər batıya, istərsə doğuya keçən türk boyları (subar, saqa, hun, qıpçaq və s.) yerli dildə dərin iz qoymuşlar. Qədimdən burada məskunlaşan protoçuvaş, protobulqar (prototatar), protobaşqord boyları isə bəzi yerli boylarla qaynayıb qarışsa da, dillərini saxlamışlar.

---

[578] ЯН СССР, III. 1966, 9-10; Maraqlıdır ki, qədim türklərin tarixi yaddaşını əks etdirən Oğuznamə gələnəyi də eyni tarixi verir: «*Oğuz xanın zamanında Çingiz xan zamanıqaça Tin və Etil, Yayık - bu üç suvun yakasında Qıpçaqdan özgə il yox erdi. Tört mün yılqaça ol yerlərdə olturdılar*» (Oğuznamə).

[579] Кобычев, 12.

Finuqor birliyi dağılandan sonra onların əsas kütləsi Atayurda yaxın bölgələrdə qalmış, bir qismi (fin, eston, karel) quzeyə, macarlar isə m.s.V əsrdə Etelközə, oradan Karpat istiqamətində batıya çəkilmişdir.[580] Quzey Qafqazda *uqor, macar* etnonimlərinin işlənməsi bəzi finuqor boyunun güneyə enməsini də göstərir. Bu köçlər nəticəsində finuqorların dörd qolu yaranmışdır:

Baltikyanı-fin qolu: *fin, eston, ijor, karel*
İtilyaxası qolu: *moşka-mordov, erzya-mordov, mari*
Perm qolu: *udmurt, komi-zıryan, komi-permyak*
Uqor qolu: *xantı (saam), mansı, macar*

Bu dillərin çoxu yazısız olmuş, macarlarda yazılı qaynaqlar yalnız XII-XIII əsrlərdən sonra başdaşı yazıları və xristian ədəbiyatı şəklində ortaya çıxmışdır. Batıya gedən türklərə qoşulub, Mərkəzi Avropada məskunlaşan macar xalqının böyük bir qolunu onların içində əriyən *bulqar, hun, sekel, kuman* türk boyları təşkil edir. Macarlar türk runik yazısından və latın əlifbasından istifadə etmişlər. Qədim çağlardan ayrı-ayrı türk boyları ilə kontaktda olmuş finuqor xalqlarının dilində qədim yazılar olmasa da, onların dilində, folklorunda keçmiş əlaqələri əks etdirən istənilən qədər bəlgə qalmışdır.

Tipoloji təhlil ilə Andronovo kulturunun İranla və arilərlə əlaqəsi olmadığı nəticəsinə gələn K.Yettmar bu kulturun hətta Türkmənistanın güney bölgələrinə də gəlib çatmadığını yazır və qeyd edir ki, Andronovo kulturunun yaranması, inkişaf etməsi və yayılması iran və ya hindiran boylarına aid deyil.[581] Bu fikri başqa mütəxəssislərin də müdafiə etməsi bəllidir.[582] Əvvəllər Andronovo kulturunun Yenisey yaxasında yaranıb, Xəzərin quzeyinə doğru batıya yayıldığı güman olunurdu, lakin son tədqiqatlar bu miqrasiyanın əks istiqamətdə getdiyini ortaya çıxarmışdır. Bu isə o deməkdir ki, m.ö. II minilin ortalarından sonra finuqor yurdundan heyvandar-əkinçi boylarının Altaya doğru miqrasiya etməsi 5-6 əsr öncə Afanasyevo kulturu daşıyıcılarının marşrutunu təkrar etmişdir və hər iki köçdə finuqor boyları ilə türk boylarının birgə köçü istisna deyil.

---

[580] Энрико Сий, 1981.

[581] Jettmar, 1956, 330-342.

[582] Сарианиди, 1977, 149; Гамкрелидзе - Иванов, 918.

4. Slav boyları

Qaradənizin quzey-batısı hindavropa xalqlarının Atayurdu sayılır. Protohindavropa dili burada dağılandan sonra balto-slav, roman-german, hind-iran kimi bir neçə qola parçalanmış, sonralar bu qolların daxilində də ayrılmalar baş vermişdir. Ön Asiyadan qalxıb Azərbaycan üzərindən Quzey-Qafqaza keçən prototürk boylarından bəziləri buradan Orta Avropa bölgələrinə də sızmışlar. Bunların protoslav və protogerman boyları ilə qarşılaşması türk-slav və türk-german əlaqələrinin yaranmasına səbəb olmuşdur. Belə əlaqələr sonralar Avropaya gedən saqa-qamər, as, hun, avar, peçeneq, kuman-qıpçaq və sair türk boyları ilə də davam etmişdir.

Türklərin hindavropa xalqları ilə əlaqəsi təkcə Avropada deyil, Orta və Ön Asiyaya miqrasiya etmiş hindavropalılarla da olmuşdur. Ön Asiyaya gələn het, hay və perslərlə əlaqədən yuxarıda bəhs etmişdik. Franklin Folsomun protohindavropa Atayurdu və buradan miqrasiya yönlərini verdiyi bu cxemdə arilərin (hindiran) Hindistana və İrana gəlişi, slavların doğuya və quzey-doğu bölgələrə yayılması əks olunmuşdur:



Hindavropa etnosunun Orta Avropa və Balkanda **Atayurdu.** (Folsom 1963, 82)

Qədim balto-slav və german-slav əlaqələri göstərir ki, hindavropa ailəsindən qopan protoslav boyları öncə Avropanın quzey bölgələrində məskunlaşmış, sonralar güney və doğu yönlərə köçmüşlər.[583] Protoslav boyları ilə protogerman boylarının təmas xətti m.ö.V-III əsrlərdə Oder hövzəsi idisə, artıq qot (vestqot) boyları ilə əlqə m.s. I-IV əsrlərdə Visla və Dnestr hövzələrində görünür.[584] Hun çağına aid tarixi sənədlərdə nə

[583] Bu köçlərin nəticəsində parçalanan protoslavlardan törəyən batı, güney və doğu slavlardan sonralar serb, xorvat, makedon, çex, slovak, bolqar, polyak, rus, belorus, ukrayna və sair slav xalqları yaranmışdır.

[584] Мартынов, 1983, 15.

slav adı, nə də slav boyları xatırlanmır, onlar yalnız Avropada hunları əvəz edən avarlar ilə tarix səhnəsinə çıxır.[585] Avropada Hun imperiyası çökəndən sonra Dnepr, Erdel və Tuna çayının aşağı yaxalarından Balkana köçən slav boyları VI-VII əsrlərdə yarımadanın orta, doğu və güney bölgələrində məskunlaşmışlar.[586] Avar türk dövlətinin zəiflədiyi 630-dan sonrakı çağlarda isə protoserb-xorvat boyları da batı bölgələrdə yerləşmişdir.

İlk dəfə III minilin ortalarında quzeyə qalxan prototürk boyları Maykop kulturu çağında yerli qafqazdilli boyların içində ərimişlər, lakin II minilin ortalarından sonra həmin yolu keçən *qamər, saqa* türklərindən fərqli olaraq, *as* boyları Azaq və Qaradəniz yaxalarından daha quzey bölgələrə qalxıb uzun müddət protoslav və protogerman boyları ilə iç-içə yaşamışlar. Ümumiyətlə, Güney Rusiya stepləri - Qıpçaq çölü Monqol istilasına qədər saqa, hun, avar, bulqar, xəzər, oğuz, peçeneq, qıpçaq-kuman və başqa türk boylarının ən azı iki minil tapdağı altında qalan torpaqlardır. Ancaq bu türk boylarından çoxu zaman-zaman slavlar içində əriyib dilini itirmişdir. Bu cür assimilyasiya Altun Ordu dağılandan sonra da özünü göstərir. Belə ki, tanınmış rus zadəgan sülalələri sırasında türksoylu nəsillərin önəmli yer tutması buna əyani sübutdur.[587] Y. R. Daşkeviç monqol istilasına qədərki türk-slav əlaqələrini əks etdirən qaynaqların əhəmiyəti haqqında yazır: «Türk xalqları haqqında məlumat verən qədim rus bəlgələri korpusunun elmi səviyədə tərtibi türklərin dilini, kulturunu, məişət və tarixini dərindən öyrənməyə yardım edə bilər».[588] İslamaqədər türk-slav əlaqələri slavların da mifologiya, folklor və dilində dərin iz buraxmışdır. Görünür, kiril əlifbasının yaranmasında runik yazı gələnəyi olan bulqar türklərinin təsiri böyük olmuşdur.[589]

---

585 Менгес, 1979, 40-43.

586 Feher, 1984, 37.

587 Prof. N. A. Baskakovun tanınmış rus soyadları sırasında müəyyən etdiyi üç yüz türk soyadını daşıyanlar rus elmi, ədəbiyatı, mədəniyəti və hərb sənətinin Bulqakov, Şeremetyev, Daşkov, Tuxaçevski, Uşakov, Suvorov, Timiryazev, Raxmaninov, Karamzin, Aksakov, Turgenyev, Buxarin, Piroqov kimi tanınmış simalarıdır (Баскаков, 1992).

588 Дашкевич, 1984, 68.

589 Kiril əlifbasını IX əsrdə yaradan Konstantinə (=Kiril) Venesiyada verilən «dini ədəbiyat yəhudi və yunan-latın dillərində olduğu halda, nə üçün slav dilinə yeni əlifba düzəldirsən?» sualına belə cavab verir: «Biz bilirik ki, tanrıya dua edən erməni, pers, iver,

> Avropada bugün önəmli çəkisi olan slavdilli xalqların ulu əcdadları ilə türklərin İslamöncəsi əlaqəsi birbaşa mövzumuzla bağlı olmadığından burada yalnız qədim slav-türk əlaqələrini bolqar, rus xalqlarının əcdadları ilə türklərin əlaqəsi üzərində gözdən keçirəcəyik, çünki türklüyünü itirən ayrı-ayrı türk boylarının assimilyasiyaya uğraması olayına «Doqquz Bitik» boyu dəfələrlə *bulqar* türklərinin *bolqar* slavlarına çevrilməsi faktı örnək kimi verilir. Belə ki, xristianlığı qəbul edən bulqarların slavlaşması olayı tarixi sənədlərdə əks olunmuşdur.

Son üç əsrdə *slav* və *rus* adları üzərində aparılan araşdırmalarda bu sözlərin mənşəyi, etimologiyası tam izahını tapmamışdır. Həmin sahədə hələ də davam edən mübahisələrə qoşulmasaq da, qeyd etməliyik ki, hər iki etnonim kənardan verilən addır. İlk dəfə *slav* (*saklab*) etnoniminə VI əsrin sonunda Tuna (Dunay) çayının quzeyində yaşayan və avarlara tabe olan boyların adında *sklab* (Σκλαβιν) şəklində avar kağanı ilə bağlı olayda rast gəlmək olur, VII əsrin sonunda isə slav adı II Yustinianın yürüşü ilə bağlı bulqarlarla yanaşı çəkilir (κατά Σκλαυινίας καί βουλγαρίας).[590] Sonrakı türk, ərəb və fars dilli qaynaqların *saqlab* şəklində qeyd etdiyi boylar da İtil bulqarlarına aid bölgədə yaşayırdı.[591]

İlk rus eli «Kiyev Rus dövləti» (X-XII) sayılır. Belə ki, qədim rus qaynaqlarında Novqorod və ya Vladimir şəhərlərindən Kiyev bölgəsinə getmək «Rus elinə» getmək sayılırdı.[592] Kiyev bölgəsi isə ilk rus dövləti yaranana qədər Xəzər imperiyasının əyaləti idi. Azaq yaxalarında slav boyları yalnız X əsdən görünməyə başlasa da, bəzi qaynaqlar X əsrin ortalarında yağma məqsədilə bir bölük rusun gəmilərlə Azərbaycana gəldiyini və Xəzərdən Kür çayına keçib Bərdəyə girdiyini qeyd edir.[593]

---

avazq, soqd, qot, obr (*avar*), turk (*türk*), kozar (*xəzər*), aravlı (ərəb), misir və başqa xalqların öz yazıları vardır» (Дзидзигури, 1968, 52).

590 ЭНБИСП, 195.

591 Bəzi mütəxəssislərə görə, əvvəllər *rus* adı Skandinav varyaqlarına aid idi. Qaynaqlar göstərir ki, varyaqlara slavlar *rous*, bizanslılar *oí ρώς*, ərəblər *rūs* deyirdi. Bulqar türkləri kimi slavlar içində əriyən varyaqların da adı indiki rus xalqının adına çevrilə bilərdi. Bu da mümkündür ki, Tuna slavları türk boyu olan *bulqar* (bolqar) adını saxladığı kimi Xəzər dövləti dağılandan sonra doğuya sızan slavlar da İtil yaxasındakı finuqor və ya türk boylarından olmuş *saqlab* və *rus* (urus) adını mənimsəmişlər.

592 Покровский, 1933, 119.

593 «Ruslar Marağa tərəfə də getmişdilər. Orada onlar çox meyvə yemiş və vəba xəstəliyinə tutulmuşdular. Onlarda xəstəlik və ölüm çoxalmışdı… Mərzbanın əskərləri isə ruslarla vuruşur və rusların arasında vəba xəstəliyi get-gedə artırdı. Ruslar ölülərini silahı ilə birlikdə basdırırdılar. Ruslar qayıtdıqdan sonra müsəlmanlar qəbirlərdən çox şey çıxartdılar» (Ибн ял-Ясир, 118-119).

Azərbaycana gələn həmin rusların slav, varyaq (vikinq) və ya türk mənşəli olması bəlli deyil. Rusların öncə *ant* adlanması və ya Norman mənşəyi haqqında çox yazılsa da, rusların türk və finuqor layı az tədqiq olunmuşdur. Halbuki, digər protoslav boyları kimi, rusların əcdadları da, I minil boyu Avropaya gedən türklərlə iç-içə olmuşlar. Monqol istilasına qədər XI-XII əsrlərdə də Qıpçaq çölünün batı bölgələrində Tuqorkan və Bonyakın, doğudasa Şarukan və Konçakın başçılıq etdiyi qıpçaq xanlıqları ilə rus knyazlıqları arasında sıx əlaqə vardı. Kiyev knyazları hakimiyətdə ortaya çıxan problemləri *çyornıe klobuki* (qaraqalpaq) adlanan boyların yardımı ilə çözür, qonşu knyazlarla aparılan savaşlarda onlara güvənirdilər.[594] Kiyevin Sv.Sofia məbədində XI əsrə aid türkcə belə bir yazı vardır:

Tatük Küc popin Belovejskiy Bökə çuası İvan çurabi bojue ölti.
Ölti alba bu.

Qədim rus salnamələrində isə türk şəxs, boy və oymaq adları bolbol işlənir. «İqor polku haqqında söz» dastanında xeyli türk sözləri vardır.[595] Belə ki, knyaz İqorun yürüşü haqqındakı «İpatevski» salnaməsində belə deyimlərə rast gəlmək olur :

> «Və onda Köbək Karlıyeviçi iki oğlu ilə, İzay Bilükoviçi və onun qardaşı Bokmışı, Osaluku, Barakı, Tarxı, Danili və həmçinin Sodvak Kulobiçi də əsir aldılar və orada Koryaz Kalatanoviçi, Tarsuku və hədsiz sayda başqalarını öldürdülər»; «Və İqor dedi: Düşünürəm ki, bütün Polovets torpağını (elini) - Konçakı və Koz Burnoviçi (*burunoba*) və Toksobiçi (*tokuzoba*, Kolobiçi (*koloba*) və Yetebiçi (*yetioba*) və Tertrebiçi (*dörtoba* və ya *terteroba*) üzərimizə qaldırmışıq».[596]

---

[594] Rus dövlətində bir neçə əsr sonra ayrı-ayrı boylardan seçmə süvari alaylarındakı döyüşçülər *kazak* adlandığı kimi, görünür, *çyornıe klobuki* adı altında da peçeneq, tork, berendey (baranlı), koyu, kaspiç, polovets (kuman), turpey və başqa türk boylarından olan döyüşçülər vardı.

[595] Сулейменов, 1975; Менгес, 1979; Баскаков, 1985.

[596] «И взяли в плен тогда Кобяка Карлыевича, с двумя сыновями, Билюковича Изая, и брата его Бокмыша, Осалука, Барака, Тарха, Данила и Содвака Кулобичского также пленили, и Коряза Калатановича тут убили и Тарсука, а прочих - без счета»; «И сказал Игор: Вот думаю, что собрали мы на себя всю землю Половецкую - Кончака, и Козу Бурновича, и Токсобича, Колобича, и Етебича, и Тертробича» (ПЛДР, 347, 355).

Miladdan sonrakı minillikdə Doğu Avropanın geosiyasi durumunu turk boylarının ardıcıl olaraq qurduğu siyasi qurumlarsız təsəvvür etmək mümkün deyil. Bölgədə hökmranlıq edən türk boyları burada bir-birinin ardınca qüdrətli Hun, Avar, Bulqar, Xəzər və sair dövlətlərini qurmuşdu:

Tarix kitablarında türk boylarının Avropaya köç tarixi adətən «xalqların böyük köçü» adı altında verilir və güya bu köç II əsrdən başlanır. Əslində, bu, Avropadakı yerli xalqları II əsrdən hərəkətə gətirən türk boylarının daha öncə başlanmış böyük köç dalğasının təsiri idi. Bəzi prototürk və türk boylarının (as, qamər, saqa, ağacəri və s.) Avropaya köç tarixi eradan əvvəlki minillərə aiddir. Sonralar bura gələn türk boyları ulu dədələrinin yolunu təqib etmişlər. Belə ki, bulqar boyları I minilin ortalarında Böyük Bulqar (Μεγάλη Βουλγαρια) dövlətini gələnəksəl olaraq Azaq dənizi yaxasında hələ m.ö.VIII-VII əsrlərdə qamər-saqa boylarınn oturduğu bölgədə qurdu. Türklərin sayı Avropada çox idi. Belə ki, uzmanların yazdığına görə, təkcə aparıcı boyu kəngərlər olan peçeneq boyları konfederasiyasının 400 min süvari döyüşçüsü vardı.[597]

Avropaya axınla gələn türk boylarının tərkibində başqa dilli boylar da olurdu. Azərbaycan üzərindən quzeyə qalxan türk boyları konfederasiyasında qafqazdilli boyların, Orta Asiya, Güney Sibir bozqırlarından Avropaya gələn türk boylarının tərkibində isə iran, finuqor və monqoldilli tayfaların olması təbii idi. Bu baxımdan, Çin sınırlarından qalxaraq batıya yönələn və Avropanın göbəyində böyük imperiya quran hunlar da istisna təşkil etmirdi. Belə ki, Atillanın birinci xanımı *Arıkan*, oğulları *İrnek, Ellak, Dengizik*, atası *Muncuq*, əmisi *Oktar* təmiz türk adı daşısa da, hunların türk-monqol qarışıqlı mələz bir xalq olması da mümkündür. Atillanın digər əmisi *Rua* qerman adı daşıyır. Qaynaqların *Oibars, Basıq, Kursıq,*

[597] Pritsak, 2000, 513.

Eşkam, Atakam kimi qeyd etdiyi hunların adları türkcədir. Son iki addakı *kam* sözü isə *Qamata* adında olduğu kimi kahin anlamı daşıyır.

Qədim dünya cahangirlərinin sırasında şərəfli yeri olan Atillaya qədər hun başçıları Balamer, Uldin Karaton, Rua artıq hunların gücünü Avropada tanıtmışdı. 434-də hunların başçısı Rua Bizansa böyük yürüş hazırlığına başladığı dönəmdə ölür, lakin onu əvəz edən qardaşı oğulları Bleda və Atilla Bizansdan alınan vergini ikiqat artırmağa nail olurlar.[598]



İtil çayını II əsrdə keçən hunlar öncə Xəzər yaxalarında oturdular və IV əsrin ortalarından sonra Azərbaycan üzərindən Anadoluya bir neçə yürüş etdilər, V əsrdə isə Avropanın orta bölgələrinə üz tutdular. Hələ 412-də hun kağanının Xəzər yaxasında olan qərargahı 430-da artıq Tuna yaxasında idi. Atilla öləndən sonra hunlar başqa türk boylarına qarışdılar. Bizans qaynağı 482-də Atillanın oğlu İrnekin başçılıq etdiyi kutriqur və utiqur boylarını da içinə alan bir *bulqar* konfederasiyasından bəhs edir.[599] VI əsrdə İtil-Don hövzəsində görünən bulqar adı altında macar (μάζαροι), onoqur (ονόγουροι, ωνόγουροι) və uturqur (ουτούργουροι, ουτίγουροι) hun boyları idi. Onoqur və kutirqur hunlarını da içinə alan avarlar isə başçıları Bayan kağan (558-582) dönəmində xeyli güclənmişdilər.

Avropanın göbəyində avar türklərinin qurduğu dövlət çox qüdrətli idi, hətta Bizans o çağın nəhəng dövləti sayılsa da, imperator Tiberiusun vaxtında Avar dövlətinə

598 Менгес, 1979, 38.

599 Tekin, 1987, 1; Менгес, 1979, 47.

ildə 80 min som qızıl verirdi. Sonralar bu rəqəm 580-623-cü illər arasında vaxtaşırı artaraq 200 minəcən qalxmışdı.[600]

> Kuvrat (Kubrat) xanın qurduğu Qara (Böyük) Bulqar dövləti avar boylarının hücumları ilə zəifləmiş, Xəzər elinin böyüdüyü çağlarda isə süqut etmişdi. Kuvrat 642-də öləndən sonra yerinə keçən böyük oğlu Batbayan (Bezmer) Xəzər kağanına tabe oldu. Bulqarların bir qismi batıya Tuna çayı yaxalarına, bir qismi də doğuya İtil çayı yaxalarına köçdülər və sonra Tuna və İtil bulqarlarının yeni iki dövləti yarandı. İtil bulqarlarının başçısı Şilkoğlu Almuş xan 900-cu illərdə İslamı qəbul etdi və Caffar bin Ablullax adını aldı. Xəzər kağanlığına bağlı olan İtil bulqarları ticarətlə geniş məşğul olurdular. Onlar saxladığı orduya «saklab (slav) deyirdilər».[601] Kuvratın kiçik oğlu Asparuxun idarəsində olan kutriqur boyları isə bir bölük onoqur boyu ilə birlikdə batıya çəkilib slav torpağı Besarabiya bölgəsinə və Tuna yaxalarına keçdilər.

Avar və Bizans kimi qüdrətli dövlətlərin sınırındakı müasir Macarıstan ərazisində Tuna Bulqar dövləti yarandı. 681-də Asparux ilə Bizans imperatoru arasında bağlanan müqaviləyə görə Bizans bir il müddətində bulqarlara vergi verməli idi. Bu çağlarda Balkan dağlarındakı keçidlərdən tutmuş Qaradəniz yaxası, Besarabya, Dobruca və bəzi quzey bölgələr Bulqar dövlətinin sınırları daxilində idi. Bulqarların yerləşdiyi Trakiya (müasir Bolqarıstan) artıq VII əsrin sonlarından *Bolqariya* adlanmağa başlayır. Bolqariya şəhərlərində əsasən yunan, kəndlərində slav mənşəli əhali yaşayırdı, hakim təbəqə isə bulqar türkləri idi. Necə ki, m.ö. XXII əsdə Qut elbəylərinin türkcə adı üçüncü nəsildə sami adlarına, m.ö.VI-III əsrlərdə Azaq yaxasında saqa dövlətinin başında duran elbəylərin nəsilləri dəyişdikcə onların türk adı yunan adına çevrilirdisə, eləcə də bulqar dövlətinin başındakı xanların adı Kurum xanın oğlu Omurtaqdan sonra türklüyünü itirirdi: [602]

Dulo soyu (680-740): *Asparux (İsperix), Tervel, N.., Sevar;*
Vokıl (Ukıl) soyu (740-762): *Kurmış, Vinex;*
Boyar soyu (762-803): *Telec, Sabin, Umar, Toktu, Paqan (Bayan), Teleriq, Kardam;*
Kurum soyu (803-986): *Kurum, Omurtaq, Malamir, Presyan Zviniça, I Boris Mixal, Vladimir Rasate, I Simeon Velki, Anna, Piotr, II Boris, Roman.*

---

[600] Pritsak, 2000, 511; Avar dövləti yalnız VIII əsrin sonunda frank kralı Böyük Karlın (768-814) bir neçə hücumundan sonra dağıldı.
[601] Pritsak, 2000, 512.
[602] HB, 1988, 289-290.

Bulqar-slav ilişkilərindən bəhs edən macar alimi Geza Feher yazır ki, slavların maddi-mənəvi kulturunun təşəkkülünə təkan verən Tuna bulqar türklərinin qurduğu dövlət onların bir xalq halını almasına yardım etdi və bu durumun təsiri bütün slav toplumunun mədəniyətində dərin iz buraxdı.[603] Lakin Tanrıçılıq dininin xristianlıqla əvəzlənməsi, dini ədəbiyatın qrek və əski slavca yayılması, qarışıq evlənmələr və bu kimi sair səbəblər bulqar türklərinin dilini dəyişməsi ilə nəticələndi.

Avropaya tanrıçılıq dini ilə gedən türk boylarının çoxu orada xristian dininə keçdi. Məhz bu din dəyişmə ilə milli gələnəklərini və dilini itirən türk boylarının əksəri slavlaşdı. Bəzi qaynaqlara görə, dulo soyundan olan bulqar xanı Kuvrat hələ 619-da vaftiz olmuşdu. Qafqaz türkləri arasındakı bəzi boylarda xristianlıq daha əvvəllər yayılsa da, Avropada türklərin xristianlaşması bir neçə əsr sonra başlandı. Türk boylarının Avropada xristianlaşması səbəblərindən biri də xristian qadınlarla evlənmək idi. Uzmanlar yazır ki, belə ailələrdə böyüyən uşaqlar Bizans gələnəklərilə tərbiyə aldığından onların vaftiz olması problem yaratmırdı və nəsil dəyişdikcə xristianlaşma olayı da kütləvi hal alırdı. «Avar kağanlığında xristianlıq artıq VII əsrdə yayğınlaşmışdı».[604] Tuna bulqarları isə daha sonralar xristianlığı qəbul etdi. I Boris xan 864-də Bizans ortodoks xristianlığını rəsmi dinə çevirdi və Mixail adını aldı.[605] Dini ədəbiyatın əski kilisə slavcası ilə yayılması, öncə yunan, sonra kiril əlifbasından istifadə olunması da türk runik əlifbasını unutdurdu. Borisin oğlu Vladimir (889-893) əski tanrıçılıq dininə qayıtmaq istəsə də, onu əvəz edən və uzun müddət dövləti idarə edən qardaşı Simeon (893-927) xristianlaşmanı başa çatdırdı.

Slav boyları ilə türklərin əlaqəsi öncə Orta Avropa və Balkanlarda baş vermişdirsə, sonrakı ruslarla əlaqə Doğu Avropada olmuşdur. Rus xalqının, rus dövlətinin formalaşmasında xəzər, peçeneq, kuman-qıpçaq və sair türk boylarının böyük rol oynaması və Qədim Rusiyada məşhur knyazların kumanlarla qohumluğu bir çox tədqiqatçının diqqətini çəkmişdir.[606] Yelizaveta Şipovanın iki minə yaxın sözü əhatə edən «Rus dilində

---

603 Feher, 1984, 4.

604 Harmatta, 1988, 23-24.

605 Ruslarda geniş yayılan *Boris* adının *bars//barıs* olduğunu düşünürdüm, lakin bu adın etimologiyasını *barış* sözü ilə bağlayan prof. Mustafa Önərin mənə göndərdiyi məqaləsinin əlyazması ilə tanış olandan sonra onun yozumunu daha doğru saydım.

606 Менгес, 1979, 67.

türkizmlər sözlüyü» aydın göstərir ki, rus dilində türk sözlərinin önəmli çəkisi vardır.[607]

Avropadakı rus və digər slav boylarının sosial-siyasi yaşamında bir sıra yeni kultur gələnəyinin formalaşması burada bir-birinin ardınca qurulan türk dövlətlərinin təsiri ilə gerçəkləşmişdir. Belə ki, slav dillərində qoyunçuluq, atçılıq, metalişləmə sənəti, yemək və geyim kulturu, ticarət, gömrük, savaş və dövlətçilik gələnəyi ilə bağlı bəzi termin və sözlərin türkcə olması bu sahələrdə slav xalqlarının mədəni inkişafında türklərin oynadığı rolu açıq sərgiləyir.[608]

Avropaya atçılıq sənətini qədim saqa-qamər (skit-kimmer) türkləri gətirmişdi. Avropalılara üzəngini də avarlar tanıtdı.[609] D. S. Setarov qədim və əski rus qaynaqlarında at cinslərinə aid xeyli türkizm olduğunu aşkar etmişdir.[610] Rus dilində rəng bildirən sözlərin çoxu türkcədir: al > alıy, bakır >baqr//baqrovıy, bor > burıy, çal > çalıy, bulanıy və s.

Verilən örnəklər də göstərir ki, monqol istilasına qədər Doğu Avropada rus-türk əlaqələri davamlı olmuş, geniş bölgələri əhatə etmişdir. Özəlliklə, m.s. I minilin ortalarından sonra qədim rus və ukrayna boylarının avar, bulqar, xəzər, peçeneq və kuman boyları ilə əlaqələri ardıcıl şəkildə və daha intensiv olmuşdur. Lakin bu iki slav xalqının folklor və mifologiyasında, dilində elə qatlar var ki, onlar protoslav çağını əks etdirir və bu çağda alınan türkizmlər m.ö. I minilə aiddir.[611]

---

607 Шипова, 1976, 22-444.

608 Otara, tovar (davar), tovariş, arxar, baran, tamqa, tamojnya, dengi, yaponça, kalpak, serqa, arkan, ataman, cigit, baqatır, boyar, karaul, tolmaç, kapkan, baxça, oçaq, utyuq, ayran, kolbasa, kumıs, piroq, şaşlık, dolma, kirpiç, kişlak, koçevat, kurqan, orda və s.

609 Pritsak, 2000, 511.

610 Burada *katır, kulan, işak, loşad, tabun, tarpan* kimi bəlli sözlərlə yanaşı *aktaz, arqamak, balaban, baxmat, bityuq, bulanıy, burıy, qunan, daqan, dunan, ciqitay, iqrenevıy, imnyuşka, kaltarıy, karabair, karakovıy, karıy, kaurıy, kobıla, kosyak, lonşak (loşak), maştak, merin, oqer (ayqır), savrasıy, xalyunıy, çaqravıy, çalıy, çankarıy, çubarıy* kimi terminlərin etimologiyası da verilir (Сетаров, 1981, 16-30).

611 Belə ki, rus və türk dillərində *komu* (kimə), *mne* (mənə) əvəzlikləri, *pervıy* tipli sözlərdəki *bir* sayı, danışıq dilində *prixodi da* (gəl də), *beri da* (al da) kimi işlənən *da* ədatı, *papin sın* (atanın oğlu) sözündə olduğu kimi *-in* morfemi (*meşşanin, dvoryanin, qorojanin, selyanin, slavyanin*), türkcədə *gələn, vuran* kimi sözlərdə olan *-n* feili sifət morfemi (*sdelan*) və bir çox sözdüzəldici və qramatik şəkilçilərin paralelliyi vardır.

Slav mifologiyasındakı Yarilo, Kupalo, Lel, Kostroma, Perun kimi panteonlar sırasında özəl yeri olan Mokoş finuqor, Xors və Simarql isə türk mənşəli kimi qeyd olunur.[612] Başqa Avropa xalqlarından fərqli olaraq, slavlar qədim Azərbaycanda «tanrı» anlamı daşıyan *baq* (Göytürk yazılarında *bağa*) sözünü də Avropadakı türklərdən protoslav çağında alıb *boq* və *boğ* şəklində işlətmişlər. Eyni durum m.ö. I minilin əvvəlində Azərbaycana gələn irandilli boylarda da özünü göstərir.[613] Yalnız fərq bundadır ki, slavların dilində bu qədim söz onların içində əримiş gəlmə türk boylarıdan qalmış *adstrat*, qədim pers dilində isə yerli türk boylarından alınmış *substrat* sözdür. Slav dillərində belə alınmaların qədimliyini (m.ö. I minil) sübut edən faktlardan biri də *qırx* və *köpək* kimi sözlərin slav dillərində «s» ilə işlənməsidir.

Hindavropa dillərinin *kentum//satem* dialekt bölgüsündə satem qrupuna aid olan slav dillərində k > s dəyişməsinin tarixi türklərdən alınmış köpək > sobak(a), *kırık > sorok dəyişmələrində aydın əks olunmuşdur. Bizcə, hər hansı bir türk və ya prototürk boyundan alınan *kırk* və *köpək* sözlərinin də uğradığı k > s dəyişməsi protoslav dilində m.ö. I minildə baş vermişdir. Sonralar slav-kuman əlaqələri çağında isə rus salnamələri kuman bəyinin Köpək (Kobyak) adını olduğu kimi saxlamışdır, çünki slav dillərində artıq «satemləşmə» prosesi çoxdan dayanmışdı.

> Slav toplumu həmişə içinə aldığı başqa dilli əhalini çox asanlıqla assimilyasiya etmişdir. Tarix boyu başqa dilli xalqların (german, finuqor, türk və b.) ruslarla qaynayıb-qarışdığı çağda yaranmış ikidilli (*bilinqvizm*) şəraitdən rus dili qalib çıxmışdır. Görünür, bu olayın özəl səbəblərindən biri də rusların başqa dili öyrənməyə meylli olmaması, başqa dildə danışanları «dilsiz» (nemoy, nemets) saymasıdır. Kontaktda olduğu xalqın dilini çətin mənimsəyən ruslardan fərqli olaraq, qarşı tərəf rus dilinə keçib daha tez assimilyasiyaya uğrayır. Rus toplumu içində minillər boyu türk boylarının beləcə ərimə olayı sürəkli davam etmişdir. «Başqa boyların qədim rus etnosu içində əriməsi doğu slavların yayıldığı quzey və güney bölgələrdə daha intensiv olmuşdur».[614]

Təsadüfi deyildir ki, bugün rus dili dünyanın ən zəngin dillərindən biridir. Bu dildə həm rusların içində əriyən xalqın dil özəllikləri, həm də

---

612 СИКР, 1978, 168.

613 Geniş məlumat üçün bax: «Azər xalqı», 2000, 241-243 və Ъялилов, 1988, 111-113.

614 СИКР, 1978, 60; H. Qalton hətta slav dillərinin təkmilləşib inkişaf etməsində qədim türklərin böyük rol oynadığını yazır (Galton, 1997, 14).

kontakda olduğu xalqların dilindən alınan çoxlı sözlər vardır. Çox vaxt rus dilinə daxil olan söz elə dəyişir ki, onun ilkin formasını müəyən etmək çətin olur. Məsələn, «yükləmək» anlamında işlənən *navyuçivat* sözündə türkcənin *yük* sözünü bərpa etmək üçün rus dilinin morfonoloji və qramatik (*на-вюк/ч-ивать*) qaydalarını bilmək gərəkir. Azər dilində də rus dilindən sonrakı alınmalardan fərqli olaraq, qədim slav dillərinə aid sözlərin alınma tarixi İslamaqədərki çağlara aiddir. Belə ki, Avropa xalqları ilə təmasda olmuş saqa, hun, subar, avar, qıpçaq kimi boyların bəzi dəstələri Azərbaycana qayıdanda həmin xalqlardan mənimsədiyi *muzd* (mzda), *tünük* (tonkiy), *dam* (dom) kimi sözlərlə qayıtması təbii idi.

Azərbaycan türklərinin etnogenezindən danışarkən vaxtilə Avropada protoslav və slav boyları ilə əlaqədə olmuş türk boylarının köç yönlərini də diqqətə almaq lazım gəlir. Çünki Azərbaycana Quzey Qafqaz üzərindən qayıdan həmin boyların bir qismi Avropaya Azərbaycandan gedən protoazər və azər boyları idisə, bir qismi də oraya Altay tərəflərdən gələn - boylar idi. Belə ki, Ön Asiya mənşəli as, qamər, saqa türklərindən fərqli olaraq, vaxtilə doğuya getmiş və monqol qarışığı qabarıq olan saqaların bir qismi və hunlar doğu türkləri idi. Avropaya m.ö.VIII əsrdə doğudan gedən saqaların yolunu sonralar hunlar (ola bilsin ki, həm də avarlar) təkrar etmişlər. Hunların İtil (Volqa) çayını keçib, Xəzər yaxalarında görünməsi m.s. II əsrə aid qaynaqlarda yer almışdır.[615] Bəzi doğu türk boylarının Azərbaycana gəlib yerləşdiyi bölgələrdə onların etnoqrafik, mifoloji və dil özəllikləri müəyyən iz buraxmışdır. Sonrakı bitiklərin uyğun bölmələrində bu izlərdən söhbət açılacaqdır.

> Beləliklə, İslamaqədər minil boyunca Ural-Karpat dağları arasında böyük bozqır çölünün ayrı-ayrı lokal bölgələrində gerçəkləşən türk-slav boylarının siyasi, iqtisadi və hərbi əlaqələri bütöv bölgənin demoqrafik transformasiyasına səbəb oldu. Türk boylarının çoxu (hun, avar, bulqar, xəzər və s.) slav toplumu içində əridi, batıda yalnız xəzər boylarından yəhudi karaimlər (karaylar), xristian qaqauzlar, krımçaklar kimi azsaylı boylar günümüzəcən dilini və etnik kimliyini saxlaya bildi. Avropadakı hun, avar, bulqar, suvar və başqa türk boylarının bir qismi də müxtəlif çağlarda Azərbaycana gayıtdı. İtil-Ural hövzəsindəki doğu bulqar-subar boyları isə, əksinə, öz içində finuqor boylarını əritdi və onlardan çuvaş, tatar,

615 Джафаров, 1993, 11-15.

başqord xalqları yarandı.[616]

5. German boyları

Hindavropa xalqlarının bir qolu olan germanlar quzey (skandinav), doğu (ostqot) və sonralar formalaşan alman xalqının özəyini təşkil edən batı boylara (vestqot) ayrılmışdır. Avropada hunların hegemonluğuna qədər vestqot və ostqot boyları Avropanın böyük bir hissəsinə yaylmış və Roma imperiyasının bir çox əyalətlərini zəbt etmişdi. Ermanarixin başçılığı ilə Qaradəniz-Azaqdənizi yaxalarına gəlmiş ostqotlar hunlara məğlub olur. Bir əsr boyu hunlara tabe olub, bəzi savaşlarda onların müttəfiqi kimi iştirak edən doğu german boyları ilə türklərin əlaqəsi intensiv olmuşdur. Daha sonra german-türk əlaqələri Avropanın göbəyində dövlət quran avar türkləri ilə gerçəkləşmişdir və doğu german boyları sonralar bulqar, xəzər və daha sonralar peçeneq, kuman-qıpçaqlarla da qarşılaşmışlar.

Avropada IV əsrin son rübündən başlayaraq, Atilla çağı və ondan sonrakı dövrlərdə türk-german əlaqələri bəllidir və bu barədə xeyli ədəbiyat vardır.[617] Lakin hunlara qədərki türk-german əlaqələri haqqında isə indiyə kimi elmi araşdırma aparılmadığından mövcud bəlgələr diqqətdən kənarda qalmışdır. Halbuki belə bəlgələr sırasında germandilli Skandinav xalqlarının saqaları mühüm yer tutur. Qədim türk-german kontaktı saqalarda, german runik əlifbasında, german dillərində, folklor və mifologiyasında əks olunmuşdur.[618]

Norveçdən 870-930-cu illər arasında İslandiyaya köçən germanlar arasında nəsildən-nəsilə ötürülən qədim soy yaddaşını qələmə alanlar da vardı. Skandinav xalqları arasında geniş yayılan İsland saqalarını ərsəyə gətirənlər həmin soy yaddaşına uyğun yarımifik, yarıtarixi olayları dastan şəklinə salmışlar. Öğuznamələri xatırladan İsland saqalarında *as* boylarının Skandinav bölgəsinə Asiyadan gəlməsi qeyd olunmuşdur. Öncə saqa və tarixi-coğrafi əsərlərdə, həm də Bibliya gələnəyilə yazılan abidələrdə türklərlə bağlı bir neçə epizodu gözdən keçirək.

Saqalarda «türk» motivinin izi o qədər dərindir ki, hətta İsland tarix elminin əsasını qoyan Ari Thorgilsson (1067-1148) «İslandlar haqqında kitab» adlı əsərində islandların formalaşmasında iştirak edən boylardan

---

616 Avropada macar və başqa finuqor boylarına qarışan bəzi türk boyu assimilyasiyaya uğramışdır. Udmurt elinin quzey-batısında yaşayan *besermən* boyu da yerli udmurtlara qarışıb dilini itirən bulqar uruqlarından sayılır (Теплящина, 1970, 243).

617 Pritsak 2000, 509.

618 Bəzilərinə görə, germanlar runik yazını etrusklardan almışdır (ИДМ, II, 1983, 420). Lakin nəzərə almaq lazımdır ki, etrusk, finikiya və türk runik yazısı eyni mənşəlidir.

danışarkən *sviar* boylarının konunqu Nyerdin adını *türklərin konunqu* kimi qeyd etdiyi İnqvi adından sonra vermişdir.[619]

«Ölkələrin təsviri (III)» adlı əsərdə türklərin Skandinaviyaya gəlmə tarixinin çox qədim olduğu vurğulanır və bu faktın «həqiqəti əks etdirən əksər abidələrin giriş hissəsində olması» qeyd olunur.[620] Həmin qaynaqda Trak (Frak) ölkəsinin adı da qədim türklərlə bağlanır:

«Quzey [skandinav] dilindəki bütün ***doğru*** hekayələrin əvvəlində deyilir ki, quzeydə ***türklər*** və Asiyadan [gələn] insanlar məskunlaşmışdı…»; «Trakiya həm də Grek ölkəsi adlanır, orada əvvəllər Yafəs oğlu **Tiras** yaşayırdı. ***Türk*** adlanan xalqlar ondan törəmişlər. Trakiyanın yanında [indi] Unqar ölkəsi və Bolqar ölkəsi yerləşir».[621]

Bibliya gələnəyi ilə yazılmış «Nuh oğullarının məskunlaşması» adlı əsərdə də Norveç ölkəsi Yafəs oğlu *Qamər* ilə bağlanır. Azərbaycan isə bu abidədə Alban-Aran ölkəsi kimi verilir.[622]

Skandinav abidələrində *as* adlı boyların Asiyadan gəlməsi fikri geniş yer tutur. Belə ki, əksər abidələrdə *Odin* adlı tanrının Troyadan, yaxud As ölkəsindən çıxıb, Azaq dənizi yaxasındakı Skitiyaya, oradan da Skandinav elinə gəlməsi əks olunmuşdur. Kiçik Asiya - Skitiya (Saqa eli) - Skandinaviya yolu isə Qafqazdan keçir.[623] Güney Qafqaza aid ən

---

[619] *İngvi Tyrkja konungr* «конунг тюрков Ингви» (ДГНТ, СССР, 1991, 113, 21-ci qeyd).

[620] Vaxtilə latın dilinə çevrilmiş həmin hissə «*Fragmentum vetus Islandicum Historico-Geographicum de rebus Dano-Norvegicis*» adlanır.

[621] «Urrhaf allra frasagna i Norrænni tungu þeirri er sanindi fyilgia, hofz, þa er Tyrkir ok Asia menn bygdu nordrit…»; «Trakia þat er alt eitt ok Grikland, þar bygdi fyst Tiras son Japhets Noa sonar. Fra honum er komin þiod su er Tyrker heita. Hia Tracia stendr Ungera land ok Bolgera land» (SRD, t. II. 34-37).

[622] ДГС, 133-134.

[623] Saqaların birində Qafqaz adı *Kapaqus* (oğuz qapısı?) şəklində keçir (ДГС, 66).

qədim yazılı qaynaq olan Urartu yazısında isə *Az ölkəsi* qədim oğuz yurdu olan indiki İrəvan çuxurunu əhatə edir.[624]

Qədim island dilində As, *Æsir* sözləri «tanrı» anlamında işlənmişdir. [625] Yuxarıda etrusk-türk əlaqələrindən danışanda ***aisar*** sözünün etrusk dilində də "tanrılar" anlamı daşıdığını demişdik. Nəzərə alsaq ki, *as* və *aiser* şəklində tələffüz olunan bu sözlərdə Skandinav ölkəsinə gələn *as* boyunun adı əks olunmuşdur, onda onların Azərbaycan türklərinin qədim boyları ilə *as//az* və *aiser//azər* paralelliyi ortaya çıxır. Dünya şöhrətli norveçli alim Thur Heyerdal bu asların məhz azər eli Azərbaycandan Norveçə getdiyini dəfələrlə gündəmə gətirmişdir.

Azər ölkəsindən İslandiyaya qədər gedib çıxan *as* boylarına aid maraqlı tarixi məlumat XIII əsrin əvvəlində yazılmış «Kiçik Edda» əsərində verilmişdir.[626] Müəllif burada yazır ki, İsveçdə yerli əhali indiyəcən gördüyü insanlara bənzəməyən Asiyadan gəlmiş bu gözəl görkəmli qərib *asları* maraqla qarşıladı, onlara ərazi verdi. Yerlilərlə evlənmələr asların sayını artırdı və Odin oğlu İnqvi ilə buradan Norveçə keçdi. S. Sturluson qeyd edir ki, o dövrdən çox zaman keçsə də, hələ də yazılı qaynaqlar asların Asiyadan gətirdiyi adları saxlayır.[627] Həmin saqada Troyanın «**türk ölkəsi**» olması, Avropaya «**türklərin ölkəsindən gələn asların**» buraya «**türk adət-ənənəsi** gətirməsi» və burada **türklərin** vərdiş etdiyi qanunların tətbiq olunması kimi ifadələr vardır.[628]

Göründüyü kimi, təkcə bir İsland abidəsi 3 minil əvvəl qədim Troyadan Avropaya gedən və özü ilə türk adlarını, türk törə-qanunlarını aparan *as* boyu haqqında nə qədər fakt verir. Ona görə də öz ulu babalarının

---

624 ХПИДВ, I, 1980, 303-304; ТУ, 1985, 22-23.

625 Исландско-русский словарь. М. 1962, 49.

626 Snorri Sturlusonun 1222-1225-ci illər arasında İslandiyada qədim saqalardan istifadə edərək qələmə aldığı bu əsərdə göstərilir ki, *as* boyu Troya (*Tur-ova*) şəhərindən çıxıb Avropanın quzeyindəki Saks ölkəsinə gəlir, sonra yerli əhali ilə qaynayıb-qarışan aslar çoxalaraq, daha quzey bölgələrə, indiki İsveç və Norveç ərazilərinə yayılırlar.

627 Bu saqada as boyunun adı ilə ortaya çıxmış *Asqard* (As yurdu, As kəndi) toponimi, *Aslauq, Asdis* şəxs adları vardır. Buradakı bəzi şəxslər türk adlarına bənzər adlar daşıyır: *Anar, Torkel* (Türkel), *Atlı, Qamlı, Yekul, Eqil, Elli, Eyrik, Qanqleri, Buri (Börü), Qunn, Qunlauq, Eynar*, və s. Burada tanrı Odinin 12 epitetindən biri də island dilində «qoşun başçısı» anlamında işlənən *ərən* (herən//herran) sözüdür (MƏ, 1970, 15).

628 MƏ, 1970, 10-12.

izini Qobustan qayalarında axtaran məşhur norveç alimi Thur Heyerdala baxanda, azər türklərinin kökünü Monqolustan çöllərində axtaran tarixçilərimizi və türkoloqlarımızı anlamaq olmur.

Bəzi mütəxəssislər türklərin Skandinav xalqları ilə İslamaqədərki əlaqəsini hun və xəzər boyları ilə bağlamaq istəmişlər. Doğrudur, hun, avar, bulqar və xəzər boylarının germanlarla sıx əlaqəsi olmuşdur və saqalarda həmin çağlara aid bəlgələr də (Bulqar, Alban, Aran və s.) vardır. Hun çağından başlanan german-türk əlaqəsinin İsland saqalarında öz əksini tapması təbiidir. Belə ki, saqalarda bir çox türkizmlər «Xakon oğlu Xakon» adlı saqadakı *kağan* titulu kimi aydın görünür.[629] Lakin yuxarıda *aslar* haqqında verilən bəlgələr Troya çağına aiddir. Troya tarixi isə Homerin qələmə aldığı səviyədə İsland qaynaqlarına bəlli idi. Ona görə də german-hun əlaqəsindən minil əvvəl protogerman boyları ilə as bayları arasında baş vermiş əlaqənin saqalarda buraxdığı izi german dillərinin daha dərin qatında axtarmaq lazım gəlir. Bu baxımdan, türk dillərindəki *-man* (qoca-man), *-ar//-ər* (tat-ar, az-ər) kimi şəkilçilərinin german dillərində eyni funksiya daşıması (biznes-men, svi-er, ais-er), «alp» sözünün german dillərində mifik anlam qazanması və bu tip digər *adstrat* elementlər asların Avropada germandilli xalqların içində əriməsinin izidir. Belə örnəklər sırasında sosial və inanc terminlərinin görünməsi protogerman çağından xəbər verir:

Türk dilləri	German dilləri
Qud(ay) «tanrı»	Qod «tanrı»
kut-lamaq «salam»	qut-entaq «salam»
börü «qurd»	börük «qurd» (MG, 89)
man «adam»	mann «adam»
Man-qışlaq (toponim)	Mann-heym «insan məskəni»
ərən «döyüşçü, əsgər»	herən//herran «qoşun başçısı» (MG, 15)
kun «xalq»	konung «xalqın başçısı»

Göründüyü kimi, müəyyən saqalarda əks olunan bəzi deyimlərin tarixi qədim olduğu kimi, burada təsvir olunan olaylar da qədim çağlara aiddir. Saqa yaradıcılarına tarixi yaxşı bəlli olan Troya çağından Böyük Skitiya çağınacan olan dövr m.ö. XII-VII əsrləri əhatə edir. Bu baxım-

629 Belə adı Norveç konunqu *Xakon Maqniusson* (1299-1319) da daşıyır.

dan, Urartu qaynağında *Az ölkəsi* adının yazıldığı tarix də (m.ö.VIII əsr) xronoloji ardıcıllığa uyğun gəlir.[630]

Əslində bu başlıqdakı «qonşular» sözünü «əlaqələr» sözü ilə əvəz etmək daha doğru olardı, çünki azər türklərinin bugünkü doğu sınırları Xəzərlə qapanır və burada «qonşu» yoxdur, güney-doğu sınırlar isə nəinki Əfqanıstan-Pakistana və ya Türkmənistana, heç Xorasana da çatmır. Lakin tarixi coğrafiya və tarixi əlaqə, həm də azər dilinin yayılma arealı baxımından sadalanan bölgə və ölkələr haqqında qısa bilgi əldə etməyin faydası vardır, çünki həmin ölkələrə səpələnmiş türk boylarının ulu əcdadları Azərbaycandan doğuya gedən prototürklər idi. Bundan başqa, kore və yapon dillərində türk sözlərinin varlığı və kore boylarının yaratdığı Koqure kulturuna türk gələnəklərinin təsiri aydın göstərir ki, Göytürk imperiyası çağlarında qədim Ön Asiya (Azərbaycan)-Altay əlaqələrinin dalğası Koreya və Yapon elinə qədər daha geniş dairəyə yayılmışdır.[631] Bu əlaqələrin ötəri də olsa,

---

630 Belə ki, İsland saqalarına görə, as boyu Troyadan və ya Az ölkəsindən Skit (Saqa) ölkəsinə və oradan Skandinaviyaya qalxır. Bəllidir ki, Böyük Skit dövləti Azaq yaxasında m.ö.VIII-VI əsrlərdə mövcud idi (sonralar burada skit boylarının başçılıq etdiyi lokal və kiçik dövlətlər m.s. II əsrəcən davam etmişdir), m.ö.VII əsrdə isə ikinci Saqa dövləti Azərbaycanda məhz Urartu yazılarında adı keçən Az bölgəsində qurulmuşdu. Deyilənləri nəzərə alsaq, Az ölkəsindən as//az boyunun Azaq yaxasındakı Skit elinə köçü m.ö.VIII əsrdən öncə, Skit elindən Skandinaviyaya köçü isə m.ö.VII əsrdən sonrakı çağlarda olmuşdur. Hər halda, bu köç Miladdan öncə baş vermişdir.

Miladdan öncə Azərbaycandan Avropaya gedən boyların içində *kaspi*lər də varmış. I əsrdə yaşamış Ovidiy Nazonun yazdığına görə, Dunayın deltasında müasir Tulça şəhərinin yerindəki qədim qalanı kaspi soylu *Egiz* və ya *Ögüz* (Caspios Aegisos) tikmiş və ona öz adını vermişdir (Publii Ovidii Nasonis. «Epistulae ex Ponto», I. 8 (10-14).

631 Hətta, dilində xeyli türk sözləri olan bəzi *hindu* (qızıldərili) tayfaların Qafqazdan və ya Orta Asiyadan gedib Beringq boğazından Amerikaya keçdiyini yazırlar. Doğrudur, Amerikanın quzeyində məskunlaşan tilingit, eskimos kimi bəzi Uzaq-Şərq xalqları bu boğazı baydarkalarla yaxın çağlarda, Orta və Güney Amerikada məskunlaşan hindular isə həmin yolun 8-10 minil öncə hələ quru torpaq olduğu çağlarda keçmişlər. Lakin siu, keçua kimi bəzi hindu boylarının dilindəki çoxlu türkizmlər sırasında tarixi o qədər də qədim olmayan *baldız*, *bayal* (varlı), *baka* (bağa), *yaşçılan* (cavan ilan), *yotanka* (yataq) tipli sözlərin varlığı göstərir ki, bu sözlərin Amerikaya aparılma tarixi 1500 ildən çox deyil. Həmin çağlarda isə Amerikaya Skandinav ölkələrindən miqrasiyalar olmuşdur. Belə ki, İslandiya, Qrenlandiya kimi ölkələrə gedə bilən vikinqlər eyni məsafədə olan Amerikaya da gedə bilərdilər. Bu baxımdan, yuxarıda haqqında danışdığımız Azərbaycandan Norveç və İslandiyaya gedib çıxan *as* boylarının həmin vikinq yürüşlərində iştirak etməsi mümkündür. Bəzi hindu dillərində görünən türk sözlərinin linqvistik təhlili

gözdən keçirilməsi həm də ona görə lazımdır ki, Ön Asiyadan vaxtilə doğuya gedən prototürk boylarının bir qismi sonralar saqa, hun, oğuz və başqa adlarla Azərbaycana qayıdıb azər türklərinin bir xalq kimi formalaşmasında iştirak etmişlər.

Arxeoloji bəlgələrdən bəllidir ki, Altayda m.ö. III minilin ortalarından görünməyə başlayan Afanasyevo və m.ö. II minilin son əsrlərində ortaya çıxan Andronovo kulturu batıdan doğuya miqrasiya etmişdir. Ola bilsin ki, bu köçdə Ön Asiyadan çıxıb Orta Asiya üzərindən Altaya keçən prototürk boylarından da bəziləri iştirak etmişlər. Lakin afanasyevolular və andronovolular içində zəif görünən türk izlərindən fərqli olaraq, Tuvada m.ö.VIII əsrdən sonra *Aldıbel*, m.ö.V-III əsrlərdə *Saqlı* kulturunun türklərə aid olması şübhə doğurmur. Həmin çağlarda Azərbaycanın güney bölgələrinə aid arxeoloji özəlliyi əks etdirən Taqar kulturu daşıyıcılarının batı türk boyları ilə yaxın əlaqədə olması da şübhəsizdir.[632] Tuvada *Arjan*, Altayda *Pazırıq* kupqanları da Ön Asiya mənşəli saqa türklərinin basırıq kulturunu əks etdirir. Bu baxımdan, doğuya gedən türklərin ən azından m.ö. I minilin başlarından Altay bölgəsində məskunlaşdığını söyləmək olar. Həmin minilliyin ortalarından isə monqol-türk birlikləri şəklində formalaşıb, vaxtaşırı Çinin quzey bölgələrinə axınlar edən hun boyları haqqında artıq Çin qaynaqlarında yazılı bəlgələr vardır.

nəticəsində irəli sürdüyüm bu fərziyə etnoqrafik bəlgələrlə də təsdiq olunur. Hindu dillərindəki türkizmləri əvvəlki kitablarımdan birində vermişdim (Cəlilov, 1988, 105).

[632] Arxeoloji bəlgələr üzərində aparılan son tədqiqlər göstərdi ki, *Karasuk* kulturunun davamı kimi m.ö. IX-VIII əsrlərdə formalaşan bir neçə mərhələli *Taqar* kulturu lokal bölgələrdə m.ö. I əsrə qədər davam etmişdir (Боковенко, 2002, 519).

Öncə Turan, sonra Türküstan adlanan Orta Asiya və Çinin quzey-batı (Doğu-Türküstan) bölgələri, həmçinin Monqolustanın quzey-batısı doğuya gedən türklərin zaman-zaman məskunlaşdığı bölgələrdir. Batı türklərdən fərqli olaraq, ümumi «Altay türkləri» adı ilə verdiyimiz doğu türklərin müəyyən bölgələrdə məskunlaşması yerli çin, monqol, tunqus-mancur boyları ilə sıx əlaqə və bəzən də qaynayıb-qarışma ilə müşayiət olunurdu. Türk dilini saxlayan saqa və hunlarda müəyyən monqoloid cizgilərin ortaya çıxması, saxa (yakut) xalqının tunqus fiziki görkəmi alması həmin qarışmaların nəticəsi idi.

Çin muzeyində saxlanan mumiyalanmış bu adamın qumaş paltarı Qafqaz türklərinə aiddir.
(Doğan 2002, 2-3)

Doğrudur, m.ö. I minil boyu Saqa və Hun çağlarını əhatə edən çin-türk əlaqələri yazılı qaynaqlarda əks olunmuşdur, lakin daha öncəki çağların arxeoloji və etnoqrafik kultur bəlgələri bu əlaqələrin qədimliyini göstərir. Ön Asiyadan prototürk boylarının doğu yöndə ilk miqrasiyasının m.ö. IV minilin ortalarında baş verdiyini nəzərə alsaq, onda Macar yazarının bu şəkildəki paltarla bağlı verdiyi Çin-Qafqaz əlaqəsinin tarixi şişirdilmiş görünməz.[633]

[633] Macar yazarının Budapeştdə dərc olunmuş məqaləsində deyilir ki, Çində m.ö.3000-ci illərə aid mumiyalanmış adamın əynindəki qumaş paltar Qafqaz mənşəlidir. İ.Doğa-

Cin dövlətinin elmi tədqiqinə yasaq qoyduğu yüzlərlə kurqan-piramidanın həmin köç olayı ilə ortaya çıxmasını da guman etmək olar. Qədim türk- çin əlaqəsi doğu türk boylarının mədəniyətində dərin iz buraxdığı kimi, Çin mədəniyətində türklərin təsiri də qabarıq görünür. Hətta, tanınmış sineloq Volfram Eberharda görə, «Türk kulturunun təsiri olmasaydı, Çin kulturu yaranmayacaqdı».[634]

Ön Asiyadan doğuya miqrasiya edib Çinin yaxın qonşuluğunda yerləşən türk boylarının yaşam tərzi, etnoqrafiyası, siyasi durumu haqqında çin qaynaqlarında xeyli bəlgələr vardır. Çindən batıda yerləşən türk ölkələri haqqında bilgilər isə, əsasən m. ö. II-I əsrlərdən başlanır və bu çağda Çjan Tsyan adlı Çin elçisinin batı ölkələrdən əldə etdiyi məlumatlar yer tutur. Digər çinli Syuan-Tezan isə VII əsrdə geniş məlumatlı «Qeydlər» əsərini batı ölkələrdə yüzdən artıq bölgəni 17 il (629-645) gəzəndən sonra yazmışdır.[635] Çindən quzey və quzey-batıda yerləşən türk bölgələri və türk xalqları haqqında isə bilgi birbaşa çin-türk əlaqələrindən əldə olunurdu. Hun-Çin savaşlarında Batı qapıları çinlilərin üzünə açılır, batı ölkələr haqqında məlumatlar çoxalır və həm də dəqiqləşir.

Çinlilər hunları «acıqdı qullar» (*syun-nu*) adlandırsalar da, bu quzey qonşularından çox şey öyrəndilər. Belə ki, çin ordusunda reforma, silah və hərbi geyim «hunsayağı» savaşa kökləndiyi üçün bu sahədə türklərin çin kulturuna böyük təsiri oldu. Çində ilk süvari alayları da m.ö. III əsrdə yarandı.[636] Beləliklə, atçılıq gələnəyi olmayan çinlilər süvariliyi hunlardan

---

nın kitabından (Doğan, 2002, 2-3) alınan bu şəkil və məlumatın qaynağı belə göstərilmişdir: *László Bárdi, A xinjiangi sırleletek, Turan, A Magyar Östörteneti Kutató es Kiadó folyóirata,* 4 c. Budapest, 1998, 84.

634 Eberhard , 2002, 537.

635 Тугушева, 1991; Sonralar bu əsər uyğur dilinə də tərcümə olunmuşdur.

636 ИДМ, I. 1983, 494.

öyrəndilər. Çin qaynaqları üzrə tanınmış uzman Bahaəddin Ögəl yazır ki, «qədim Çində atlı dəstələrin olmadığını kifayət qədər dəqiq bilirik».[637]

Türk mədəniyətindən bəhrələnmə Göytürk və Uyğur dövlətləri çağında da davam etmişdir.[638] Tañ sülaləsi (m.s. 618-907) çağında türk kulturu, özəlliklə musiqi sahəsində orkestr qurumu və hərbi marşların bu sahədə çin musiqisinə təsiri böyük olmuşdur. «*Hun kimi saz çalmaq məharət sayılır*» deyən bu dönəmin çinli şairlərindən Yuan Zhen bir şeirində yazırdı ki, ata *hular* (hun-uyğur) kimi minmək, bər-bəzək taxmaq, dil öyrənmək dəb halını aldı. Həmin çağın başqa bir çinli şairi də şeirində «hər kəs öyrənir *hu* sazını» deyirdi.[639]

Bugün Çin adının sinonimi olan *Kitay* adı da türklərdən qalmadır. Belə ki, öncə Mancuriyanın batısında yaşayan bir boya türkcə verilmiş *kıtay* adını sonralar rus coğrafiyaçıları Çinin quzey bölgələrinə, sonralar isə bütöv Çinə aid etmişlər.[640] Kıtay adlı boyların sonralar başqord xalqı içində yayıldığını görmək olur.

Beləliklə, çin-türk əlaqələrinin tarixi doğuya getmiş prototürk boyları ilə başlansa da, yazılı qaynaqlar m.ö. I minildən İslamaqədər davam edən saqa, hun, göytürk, qırğız, uyğur boylarının qurduğu dövlətlərlə olan əlaqələrdən bəhs edir. Göytürk yazılarında da çin-türk əlaqələrinə geniş yer verilmişdir. Batı ölkələrlə doğu ölkələr arasında Altay türklərinin yaratdığı əlaqənin «İpək yolu» ilə gerçəkləşməsi Çinə batı ölkələrin qapısını açdığı kimi, batı ölkələr üçün də Çinin qapısı açıldı. Bu əlaqələrdən təkcə çinlilər deyil, digər doğu xalqları kimi monqollar da yararlana bildi. Belə ki, sonralar Avrasiyanın önəmli hissəsini bürüyən Çingiz xanın qur-

---

637 Юэялл, I. 1992, 129.

638 Çin qaynaqlarında türkizmləri araşdıran uyğur alimi Alimcan İnayət son vaxtlara qədər çinmənşəli sayılan bir sıra sözlərin (inci, çin «doğru», kök, tanrı, tuğ) çin dilinə türk dillərindən keçdiyini göstərmiş, uyğur bilgini Arslan Abdullah isə bəzi tədqiqatçıların yanlış olaraq, uyğur dilində çinmənşəli sözlər kimi verdiyi onlarla sözün (ayamaq, tik, kiçik, tokumak, yamamak, yeñ, tañ, yanmaq və s.) çin dilinə aid olmadığını göstərmişdir (İnayet, 1999; Abdullah, 1999).

639 Abdullah, 1999, 210-211; İnayet, 1999, 196-197.

640 Türk dillərində iki omonim *çin* sözü vardır: biri etnonim (çin xalqı) və etnotoponim (Çin ölkəsi) anlamında işlənən çinmənşəli *çin* sözüdür, digəri əksər türk dillərində həqiqət, doğru, düzgün, gerçək anlamında işlənən türkmənşəli *çin* sözüdür. Birinci *çin* sözü türk dillərinə keçdiyi kimi, ikinci *çin* sözü də türklərdən çin dilinə keçmişdir. A. İnayət yazır ki, əski çağlarda [çin] şəklində tələffüz olunub «gerçək, doğru, açıq» anlamı bildirən bu söz çin dilində *zhēn* şəklində yazılmışdır (İnayet, 1999).

duğu Monqol imperiyasının yürüşləri türk və monqol əskərlərilə gerçəkləşdiyi kimi, daha əvvəllər Saqa və Hun yürüşlərində də monqol əskərlərinin iştirak etməsi təbii idi. Çünki Altay türklərinə qoşulan monqollar Monqolustanın quzey-batısında və Minusinsk ovalarında, ən azı, Taqar kulturu çağlarında türklərlə qaynayıb qarışmışdı.[641] Bu əlaqələrin sürəkli davamı və intensivliyi xeyli ortaq dil elementlərinin yaranmasına səbəb olmuş, hətta Altayşünaslıqda bu dillərin tipoloji yaxınlığını və ortaq vahidlərin çoxluğunu görüb, türk və monqol dilini yanlış olaraq, qohum dil hesab etmişlər.[642] Monqol-türk dil əlaqələri üzərində sonra geniş dayanacağıq.

Ön Asiyadan çıxıb, Orta Asiya üzərindən Altaya gedən prototürk boylarının bir qismi həmin yolu geri qayıtmışlar və bu gediş-qayıdış yollarının Xorasan və Herat bölgələrindən keçməsi bəzi türk boylarının indiki Quzey Əfqanıstanda oturması və oradan da Pakistan və Hindistanın quzey-batı bölgələrinə keçib məskunlaşması ilə müşayiət olunur. Bugün Əfqanıstanda yüzlərlə türkmənşəli toponim və onların sırasında xeyli türk boyadı (saqa, hun, şad, kuş, əfşar, kınık, xəzər, oğuz, qıpçaq, xələc, tatar, türkmən) ilə düzələn etnotoponimlər vardır.[643] Əfqanıstan hökmdarlarından Əhməd şah Baba Abdalın soyu da XVIII əsrə qədər *abdalı* (eftalit) adını Herat-Qəndəhar bölgəsində saxlayan ağhun boyudur.

Səmərqənd və Buxaradan Bəlxə (qədim *Balıq*) gedən yol *Dəmirqapı* adlı keçiddən keçirdi. Öncə Göytürk imperiyasının sınırı sayılan Bəlx artıq VII əsrdə bu dövlətin batı qanadına tabe bölgə idi. Daha əvvəllər isə bu bölgəyə ağhunlar və kuşanlar hakim idi. Ona görə də Orta Asiya ilə bərabər Əfqanıstanın böyük bir hissəsi *Turan* eli sayılırdı. Buradan Kabil-Bamyan və Herat-Qəndəhar yolu ilə keçib müasir Pakistanla Hindistanın quzey-batı bölgələrində məskunlaşan türk boyları bu regionun siyasi tarixində önəmli rol oynamışlar. Bugün Kəşmir, Pəncab, Racputa

---

641 Ola bilsin ki, Taqar kulturuna adı verilən Altaydakı Taqar adası da vaxtilə Ön Asiyadan Altaya gedən *daqar* (sonrakı *toqar//toxar* və *dügər*) boyunun adı ilə adlanmışdır.

642 Türklərin monqollarla dolaşıq salınması münasibəti ilə prof. Bahaəddin Ögəlin hunlara aid dəyərli kitabında söylədiyi iradı burada yada salmaq lazım gəlir: «Türk tarixini çeşitli spekulyasiyalardan qurtarmaq üçün nə qədər vəsiqə varsa, bir araya gətirib incələmək gərəklidir. Yeni bir vəsiqə bula bilənlər əlbəttə ki, konuşa biləcəklər. Vəsiqələri olmayanların isə kəndi hisslərinə görə Moğolu Türkə, Türkü Moğola karışdırmaya haqları olmayacaqdır» (Ögel, 1981, 266).

643 Ейвазова, 1995.

bölgələrində avropoid dolixokefal tiplərin üstünlük təşkil etməsi təsadüfi deyil, çünki m.ö. I minillin əvvəllindən başlayaraq İngilis istilasına qədər Hindistanın quzey-batı bölgələrində müxtəlif çağlarda saqa, kuşan, ağhun, səlcuq, qəznəvi, xələc, timurilər və sair türk soyları hakimiyətdə olmuşdur. «Hindistan tarixi» kitabında yüzlərlə türk hökmdarının adı çəkilir.[644]

Saqa boylarından bir qisminin m.ö. II əsrdə hunların təzyiqi ilə Hindistan tərəfinə getməsi bəllidir. Lakin qaynaqlar m.ö.VI-V əsrlərdə burada yaşamış budizm dininin banisi Budanı saqa (*sakya*) boyundan olan bir zadəgan soyundan sayır ki, bu da həmin çağlarda Orta Asiyada yaşayan və ya daha əvvəllər doğuya üz tutan saqalardan bir qolun Hindistana mühacirət etdiyini düşünməyə əsas verir. Doğrudur, ticarət əlaqələri səviyəsində olsa da, İnd çayı yaxalarında m.ö. III minilin ortalarında yaranıb m.ö.1700-əcən davam edən Harappa-Moxencodaro kulturu ilə Sumer-Elam kulturu arasında bir bağ görünür və bu əlaqə protodravid boylarının və ya prototürk boylarından olan subar, yaxud saqa boyunun Hind yarımadasına köçü ilə də yarana bilərdi. Belə ki, doğuya gedən prototürklər özlərilə İkiçayarası mədəniyətinin atributlarını da aparırdılar. Harappada ortaya çıxan şəkildəki kirəmit üzərindəki işarələr də qədim Azərbaycanda olan «protoelam» yazılarına və azər damğalarına bənzəyir.[645]

Harappa qazıntılarında üzə çıxan yazılı kirəmit (Doğan 2002, 3)

Əfqanıstan, Pakistan və Hindistanın haqqında danışdığımız bölgələrində bir-birinə qarışmış dravid, hindiran, türk, monqol və yunan izlərini ayırd etmək bəzən çətin olur, çünki buraya gəlib yerləşən etnoslar bir-biri ilə qaynayıb qarışdığı kimi, zaman-zaman dəyişən hakimiyət sülalələrinin kimliyi də qarışıqdır. Hətta, türklüyü şübhə doğurmayan sülalələrin farsca danışıb-yazması da diqqəti çəkir. İslamaqədər bu bölgələrin etnodemoqrafik durumunu göz önünə gətirmək üçün buranın siyasi tarixində önəmli rolu olan xalqlar haqqında bəzi bilgiləri xatırlamağa lüzum vardır.

644 Bayur, 1987.

645 Riçhard Meadow 1999-da Harappa qazıntısında tapılan kirəmit parçası üzərindəki runik yazıya bənzər işarələrin tarixini m.ö. III minilin ortalarına aid edir (Doğan, 2002, 3).

Yuxarıda hindiran (*ari*) boylarından danışarkən onların m.ö. II minilin sonunda Areya bölgəsində iki qola ayrıldığını, birinin Hindistana, digərinin sonra Fars əyalətinə getdiyini demişdik.Hind yarımadasına doğru gedən arilər artıq m.ö. I minilin əvvəlində burada formalaşan *kasta* sosial qurumunda «irq» anlamında özlərini *arya varna* (ari rəngi) adı ilə *dasa varna* (düşmən rəngi) dedikləri yerli dravidlərdən üstün tuturdular. Həmin minilin ortalarında yalnız quzey bölgələrdə onlarla kiçik «dövlət» vardı, VI-IV əsrlərdə isə bu bölgələr İnd çayına qədər Əhəməni imperiyasının doğu sınırları içində idi. Əhəməni dövlətini darmadağın edən makedoniyalı İskəndər İrandan sonra Hindistana girənə qədər üç il (m.ö.330-327) *Balika* (Bəlx) və qonşu bölgələrdə müharibə apardı. İskəndərin yürüşündən sonra burada qalmış yunan-makedon qarnizonları, sənətkar və tacirləri sonrakı Selevki dövlətinin doğu əyalətində bir neçə əsr davam edən *ellin* kulturunu yaşatdılar.[646] Burada Selevki hökmranlığını m.ö. II əsrin ortalarında quzeydən gələn saqalar, sonra isə Part dövləti əvəz etdi.[647] Doğuda isə hindlilərin bir əsr yarım davam edən Morya dövləti m.ö. III əsrin ortalarından sonra hökmdar Aşoki çağında böyüyüb Hindistanın bir çox bölgələrini əhatə etmişdi. Lakin m.ö. II əsrdə hunların təzyiqi ilə Sistana (Sakastan), sonralar oradan da Hindistana

[646] İskəndərin yürüşündən sonra salınmış (m.ö. IV əsrdə) və iki-üç əsr davam etmiş *ellin* tikinti gələnəklərinin izini Göycə çayının Amudərya ilə qovuşuğunda yerləşən Ay-xanım şəhərində aparılan arxeoloji qazıntılar aşkara çıxardı. Selevkilər doğuda müasir Əfqanıstanın quzeyini və Amudəryanın sağ sahillərini əhatə edən Baktriyanı və Türkmənistanın Kopetdağa qədər güney-batı əraziləri ilə İranın quzey-doğu ərazilərini əhatə edən Part ölkəsini m.ö. III əsrin ortalarında itirdilər. Həmin çağda Selevkilərin tabeliyindən çıxan Yunan-Baktriya dövləti müasir Əfqanıstan, Orta Asiya, Pakistanın müəyyən bölgələrini və Hindistanın quzeyində böyük bir bölgəni nifuzu altına almışdı.

[647] Prototürkmən part (saqa) boyundan olan *Arşak* (Ərsaq) Xorasan-Xarəzm zolağında yaşayan partların dövlətini qurmaq üçün təxminən m.ö. 238-də Baktriyanın quzey qonşuluğundakı *daxi* boylarının köməyindən yararlandı. Ola bilsin ki, *daxi* adı altında «dağlı» anlamında *taqar* (toxar) boyu idi. I Mitridatın (m.ö.171-138) vaxtında böyük «Part» imperiyası Hindukuş dağlarından Fərat çayına qədər uzanırdı. Beş əsrəcən davam edən Part dövlətində müxtəlif bölgələr yerli sülalələr və Ərsaq, Karen, Suren, Mihran adlı part soy sülalələri tərəfindən idarə olunur, bölgədən asılı olaraq, saraylarda dəftərxana dili kimi yunan, aramey, pəhləvi dillərindən istifadə edilirdi, xalq yaradıcılığı isə *qoşan* adlanan ozan-aşıqlar vasitəsilə yayılırdı (İDM, II. 1983, 472); Part və Roma imperiyası arasında m.ö. I əsrdən başlanan müharibə müəyyən fasilələrlə son part hökmdarı V Artabana (213-227) qədər davam etmişdir.

keçən saqa boyları və onlardan sonra kuşanlar və ağhunlar bu bölgələrdə hökmranlıq etdilər. Beləliklə, müsəlman türklərinin Hindistanı işğal etdiyi X əsrəcən burada zaman-zaman saqa, kuşan, ağhun boylarının hegemonluğu olmuşdur.

Göründüyü kimi, Əhəməni, Selevki və Sasani hakimiyəti çağları istisna olmaqla, qədim Azərbaycanın doğu və güney-doğu ölkələrlə və bölgələrlə əlaqəsi əsasən türk boyları ilə gerçəkləşmişdir. Təsadüfi deyil ki, Azərbaycan dövlətçiliyində önəmli yeri olan Nadir şah dövlət qurultayını Muğanda keçirsə də, qərargahı Turanın mərkəzi sayılan Məşhəd və Heratda idi.[648] Çünki m.ö. II minilin ortalarından Turanın bu bölgələrinə yerləşən ariləri həmin minilin sonundan başlayaraq güney və güney-doğu yönlərə sıxışdıran Saqa, Hun, Ağhun (Eftalit), Kuşan, sonra Göytürk, Uyğur dövlətlərini quran Altay türkləri idisə, İslamdan sonrakı çağlarda da Qəznəvilər, Səlcuqlar, Eldənizlər, Atabəylər və Nadir şaha qədər daha bir neçə türk sülaləsi bu bölgədə hakim idi.

Altay türklərinin siyasi təşkilatlanması müxtəlif adlı boyların birliyi ilə baş tuturdu. Adətən, belə siyasi birliklər başçının mənsub olduğu boyun adı ilə tanınırdı. Belə ki, müxtəlif türk-monqol boylarının birliyi ilə ortaya çıxan Hun dövlətinə tabe olan ərazilər genişləndikcə qaynaqlar buradakı müxtəlif dilli xalqları da ümumi *hun* adı ilə vermişdir.

Təbiətən mühafizəkar və qapalı xalq olan çinlilər quzey qonşuları tərəfindən vaxtaşırı davam edən yağma axınlarının qarşısını ala bilmək üçün qədim dünyanın möcüzələri sırasında olan Çin səddini tikmişdilər. Lakin bu möhtəşəm qala divarları da çox vaxt quzeydən gələn yarımköçəri maldar boyların süvariləri üçün keçilməz manea deyildi. Belə axınları təşkil edən boylardan biri də hunlar idi. Çin qaynaqları

[648] Tahirzadə, 2002.

m.ö. 318-də Çinin daxilində gedən savaşa cəlb olunmuş hunları artıq siyasi quruma malik bir xalq kimi təqdim edir, m.ö. III əsrin sonunda isə *şanyü* (tanhu) titulu olan Tuman (*T'ou-man*) və onun oğlu Mətə (*Mao-tun*) haqqında geniş bilgi verir. Doğu Hun imperiyasının qurucusu sayılan və adı *Bağatur* şəklində bərpa olunan Mətənin (m.ö. 209-174) şöhrəti bir neçə əsr sonra batı hunların başında Avropanı fəth edən Atilladan az deyildi. Çinin quzeyindən I əsrdə batıya hərəkət edən hunların bir qolu Aralın quzeyilə İtil yaxasına keçdi, Orta Asiyada qalan başqa bir qolu da Fərqanə-Toxarıstan yönündə güneyə hərəkət etdi.

Çin qaynağından bəllidir ki, m.ö. 170-də hunların (*syun-nu*) təzyiqi ilə batıya çəkilən toxarlar (*da-yüeçjilər*) beş boydan ibarət idi. Bu boylardan biri kuşan (*quyşuan*) adlanırdı.[649] Fərqanədən Amudəryanın güney yaxalarına hərəkət edən *toxar* boyları burada m.ö. I əsrdə bir neçə bəylik (*yabquluq*) şəklində təşkilatlanmış və bir əsr sonra Baktriyada Kuşan dövlətini qurmuşdular.[650]

Kuşan sülaləsi II əsrə qədər davam edən Yunan (Qrek)-Baktriya dövlətinin bir sıra ellinsayağı tikinti, heykəltəraşlıq, sikkə kəsdirmə gələnəklərini mənimsəmişdi.[651] Yabqu (*yavuqa*) titulu daşıyan Kuşan hökmdarı Kanişka və oğlu Huvişka dövründə Kuşan dövləti Kəşmir-Pəncab, Soğd bölgələrini də içinə almışdı. Sonra daha çox əraziləri əhatə edən Kuşan dövləti IV əsrin ortalarına qədər davam etdi.

Qaynaqlarda kuşanların toxar (dügər) soylu olması, onlarda qabarıq görünən türk gələnəkləri, hökmdarların *yabqu* titulu və türklərə məxsus soy damğası diqqəti çəkir. Kuşan hökmdarı *Kucula Kara Kadfizin* adında *güclü, qara* sözləri də türk titulları ilə açılır. Oğuzun atası *Qara-xan*, islamı ilk qəbul edən *Qaraxanlı* sülaləsinin adındakı *qara* sözü «böyük» anlamındadır. Kuşan dövləti dağılandan sonra onlara tabe olan Turan böl-

649 Bəllidir ki, Part dövləti çağında ozanlara *q*
şəklində keçmişdi. Ola bilsin ki, kuşan//quşan
qədim Ön Asiya qaynaqlarında toqar//taqar,
keçən və KDQ-da *dügər* forması alan *toxar* bo
sənətçilərlə bağlı idi. Çin yazıları bunu *quyşua*
türkcə adlar da vardır. Elbəy soyu damğası isə

650 Kuşanları türk sayan M. Tantəkin onların
dövləti haqqında «Kuşan-Azərbaycan mədəni
fikirlər söyləmiş və Azərbaycanda «quşçu» etn
şan boylarından qaldığını yazmışdır (Məqaləni

651 Ellin təsirini əks etdirən sikkə şəkilləri bu

gələri *ağhun* boylarının əlinə keçdi.[652]

Orta Asiyanın batısı IV əsrin ortalarına yaxın Ağhun, doğusu Juan-juan hegemonluğu altında idi. Lakin VI əsrin 20-ci illərində göytürklərin kağanı Bumın Juanjuan dövlətinə sarsıdıcı zərbə vurdu və juanjuanlar siyasi səhnədən çəkildi, 560-cı illərdə isə İstemi kağan ağhunları Buxara-Daşkənd bölgələrindən çıxardı. Qovulan ağhunların çoxu Sasanilərin idarə etdiyi İran torpaqlarına, o cümlədən Azərbaycana keçdi. Bir qismi isə Heratda qaldı. Sasani dövlətinin doğu sınırlarında boşalan Əfqanıstanın quzeyindəki ağhun ərazilərinə isə irandilli boylar girdi.

Bəzi qynaqlarda *eftalit* (abdal) adlanan ağhunlar Göytürk dövləti tərəfindən pərən-pərən salınana qədər V-VI əsrlərdə Türküstan, Soqdiya və Əfqanıstanda ağalıq edirdi. Hindistanın quzeyində kuşanlardan sonra hökmranlıq edən ağhunların adı buralarda uzun müddət yaşadı. Toxarıstan və Qəndahar bölgələri V-VII əsrlərdə ağhunların idarəsi altında idi. Pəncaba keçənlər isə yerli əhali içində VIII əsrdə ərisələr də, türk mənşəli olduqlarını unutmadılar. Belə ki, 500-cü illərdə «Huna Raca» ləqəbilə bir müddət bölgəni idarə edən qüdrətli *Toramana tigin* böyük şan-şöhrət qazanmış və ağhunların məskəni kimi *Huna-desa* tipli toponimlər bir neçə əsr hind qaynaqlarında işlənmişdir.[653] Hindli yazar Upendra Thakur hətta bir neçə əsrdən sonra 30 il (1290-1321) Hindistanı idarə edən türksoylu *xələcləri* də ağunların qalığı sayır.[654]

Xorasan kuşanlardan sonra V əsr boyu Sasani dövləti ilə gah savaş, gah da barış durumunda olmuş ağhunların əlinə 455-də keçdi. Firdovsinin yazdığına görə, onlar Bəhram Gurun vaxtında Reyəcən (Tehrana yaxın) gəlmişlər. Xorasana yerləşən ağhunların iki il bütöv İrana hakim olduğu da qeyd olunur.[655] Yəzdigird öləndən sonra Firuz (459-484) ağhun kağanı Ağsunqurun köməyilə taxta çıxıb şahlıq edir, lakin dönüklük edib ağhunlara qarşı vuruşur və Ağsunqur tərəfindən öldürülür.[656] Şah Firuzdan sonra taxta çıxan Kavad da Məzdəki hərəkatı ilə üz-üzə qalanda ağhunlara sığınır və onların yardımı ilə hakimiyətini geri qaytarır. Ağhunların da böyük bir qismi kuşanlar kimi budizmə tapınırdı.

«İpək yolu» üzərindəki əsas məntəqələrə nəzarət edən ağhunları strateji bölgədən uzaqlaşdırmaq üçün göytürk kağanı Mukan sasani şahı I Xosrov Anuşirəvanla (531-579) ittifaqa girmiş və batıdakı nümayəndəsi

652 Olsun ki, *Ağ-Hun* adı «batı hun» anlamın idi.

653 Biswas, 1973, 56-67.

654 Thakur, 1967, 55.

655 Procopius, 1967, I. 4.

656 Litvinsky, 1996, 140.

İstemi xanla birləşən sasanilər ağhunları Hindistana tərəf sıxışdırmışlar. Ərəb qoşunları isə VIII əsrin əvvəlində Toxar elində ağhun hakimiyətini darmadağın etdi.

Doğu Hun imperiyasından sonra meydana çıxan Ağhun dövləti türk toplumunun çox olduğu doğu ya batı yönlərə deyil, hindiran boylarının məskunlaşdığı güney bölgələrə önəm verdiyi üçün hunlar kimi dövlətin sınırlarını böyüdə bilmədilər. Bu missiyanı Bumın və İstemi qardaşlarının mənsub olduğu türk boyu gerçəkləşdirdi. *Göytürk* (doğu türk) boyu VI əsrin ortalarında Baykal gölündən Xəzər dənizinə qədər böyük bir ərazidə Turan dövlətini qura bildi. Bəzən bu sınır batıda Azaq dənizinəcən uzanırdı. Asiyada yaranmış ən böyük Türk dövlətini meydana gətirən bu boyun adı sonralar türksoylu xalqların ümumi adına çevrildi.

Bir sıra tarixçilər *türk* adının ilk dəfə güya Göytürk dövləti ilə eyni vaxta ortaya çıxdığını yazırlar. Əlbəttə, türkologiyada dərin kök salmış bu yanlış fikir elmi əsasa söykənmir. Qədim forması *türük* və daha qədim forması *turuk* olan bu *türk* etnonimi het, elam, akad-asur yazılarında və antik çağ yazarlarının əsərlərində yer almışdır. Hətta, m.ö. XIX-XVIII əsrlərdə Urmu gölünün güneyində *Turuk* bəyliyi vardı.[657] Turuk bəyliyi və asuroloqların yanlış olaraq, mixi yazılarda bu bəyliyin adını *Turukki* şəklində oxuması haqqında III Bitikdə geniş bilgi verilir. Buradaca qeyd edək ki, *turuk* adı asur yazısında bir neçə qaynaqda belə yazılmışdır:



Urmu gölünün güney-doğu bölgələrində yaşayan *turuk* boyunun adı m.ö. XIX - XII əsrlər arasında Asur qaynaqlarında çəkilir. Görünür, burada Mana dövləti qurulana qədər turukların böyük bir hissəsi Turana keçmiş və böyk Hun imperiyasının etnik tərkibini təşkil edən onlarla türk boyu kimi, «hun» adı altında görünməz olmuşdur. Yalnız ağhunlar çağında bir araya gəlib toparlanan *turuk* boyu artıq *göy-türk*, yəni «doğu türklər» adı ilə siyasi səhnəyə çıxmışdır. Bu adın özü aydın göstərir ki, həmin türklər

[657] Azər xalqı, 2000, 34-38; Bu adın *turuk* forması Anadoludan Doğu Türküstana qədər müxtəlif bölgələrdə və müxtəlif zamanlarda işlənmişdir. Belə ki, hələ m.ö. II minildə Kiçik Asiyada Turuxmid (*Turuk-bud*) şəhəri vardı, M. Kaşqari isə Fərqanə ilə Qaşqar arasında *Arık-Turuk* toponimi qeyd edir (MK, I, 66; 380); Əndicandan güneydəki dağlarda *Turuk-Şayan* boyunun yaşaması da bəllidir (Vekayi, 1987, 64-65).

batıdan (Azərbaycandan) doğuya getmişlər.[658] Ön Asiyadan doğuya getmiş türk boylarının dilində rəng bildirən sözlərin cəhət anlamı da saxlanmışdır: *ağ* (batı), *göy* (doğu), *qara* (quzey), *qızıl* (güney), *sarı* (orta).[659]

İstemi öləndə (576) artıq Göytürk imperiyasının təsir dairəsi batıda Qaradənizə, doğuda Mancuriyaya qədər uzanırdı. Göytürklərin yaratdığı dövlətin ilbəil böyüməsi Çini narahat edirdi. Bu çağlarda türklərin adi boy bəylərinin hücumları qarşısında aciz qalan Çin böyükləri bu dövləti daxildən dağıtmaq uçun müxtəlif vasitələrə əl atır, ayrı-ayrı boyların birbirilə savaşa bilməsi üçün diplomatik gedişlər edirdi. Çinin bu uğurlu siyasəti yarım əsrdən sonra öz bəhrəsini verdi. Belə ki, iki qola (batı-doğu) bölünən Göytürk dövlətinin doğu və batı qanadları arasında başlanan iç savaşlar nəticəsində siyasi iqtidarını doğu Göytürk kağanlığı 630-da itirdi, batı Göytürk kağanlığı da zəifləyib, 659-da çökdü. Bu çağlarda artıq keçmiş Göytürk dövlətinin əsas əyalətləri Çinin kontrolu altına düşmüşdü.

Yalnız VII əsrin sonunda dirçələn göytürklər 682-də yenidən müstəqil siyasi hakimiyət əldə etdilər. Kutluq kağanla Kapağan kağan dönəmində Göytürk dövləti gücləndi və hakimiyət uyğurların əlinə keçənəcən, yəni 745-ə qədər davam etdi. Beləliklə, iki əsrə yaxın (193 il) müəyyən parçalanma və fasilə ilə davam edən Göytürk imperiyası Ön Asiyadan doğuya getmiş türklərin Saqa və Hun imperiyasından sonra qurduqları ən böyük dövlət idi.

Tarixboyu istər batıda, istərsə doğuda böyük imperiyalar qurmuş öncəki, həm də sonrakı türk dövlət başçılarından fərqli olaraq, Göytürk kağanları yaşadıqları olayları anıt (*böngü*) daşları üzərində türk yazısı ilə yazmışlar. Günümüzəcən bir hissəsi qalmış bu yazıları ünlü türkoloqlar

[658] Türk adı yalnız turuk//türük//türk formalarında deyil, *tu* etnonimlərində də işlənmişdir. «Avesta» türklərdən *tur* şək türklərdir. Hələ nəşr olunmamış «Enki və Ninxursaq» adlı *kəsi* deyimi vardır (Kramer, 2002, 310); Z.V.Togan m.ö. səfərində iştirak etmiş türkmən əskərləri haqqında yunan, papiruslarında olan bəlgələri qeyd edir, bu əskərlərdən biri (türkman) adlandığını göstərir (Togan, 1981, 416, 124-cü qeyd).

Akad çarı Naram-Suenə qarşı koalisiyada m.ö. XXIII əsrdə iştirak etmiş *subar* boylarının tərkibində *Quşu*, *Türki*, *Kaniş* bölgə və boy adları, bu boylara başçılıq edənlər sırasında Zipan (*Çoban*), Mudakin (*Budak*), Buman-ailu (*Bumın*), İlşun-ailu (*Elçün*) adları sanki haqqında danışdığımız kuşan boyunun yabqusu *Kanişka* və göytürk kağanı *Bumın* adında və digər türk onomastikasında təkrar olunur.

[659] Gabain, 1962, 115; Кононов, 1978, 160; Bəzi türk bylarının adında işlənən bu sözlər rəng deyil, cəhət bildirir: ağxəzər-qaraxəzər, ağqoyunlu-qaraqoyunlu, ağhun, qaratatar, göytürk, qızılbut (qızıl boyu), sarıuyğur və s.

icələyib nəşr etmişlər. Son vaxtlar isə bu yöndə Türkiyənin tanınmış türkoloqları ardıcıl iş aparırlar.[660]

İslamöncəsi *böyük dördlük* (Bizans, İran, Göytürk, Çin) deyə biləcəyimiz dünya dövlətlərindən biri olan Göytürk (552-745) dövlətinin geosiyasi marağı ticarət yolları keçən bölgələri öz nəzarəti altına almasına yönəlmişdi. Yarandığı ilk çağlarda batı sınırları ağhunların ərazilərinə çatan Göytürk dövlətinin kağanları Sasani şahları ilə əlbir olub, ağhunları Hindistana tərəf sıxışdırdılar. Ağhunların Orta Asiyadakı quzey bölgələri və Doğu Türküstandakı quzey-doğu bölgələri (Kaşqar, Xotan) Göytürk dövlətinin, Amudəryaya qədər batı və güney-batı bölgələri isə Sasanilərin əlinə keçdi. Beləliklə, *Dəmir-qapı* keçidi Göytürk və Sasani dövləti arasında sınır keçidi oldu. Hindistana qovulan ağhunlar isə zaman-zaman buradakı siyasi olaylarda ön plana keçsələr də, türk dilini itirib bütövlükdə yerli hind xalqlarının içində əridilər.

Göytürklər strateji bölgələri ağhunların əlindən alandan sonra İran ilə olan siyasəti dəyişdi. Sasani hakimiyətini zəif salmaq üçün Bizansla əlaqə quruldu, bir neçə dəfə qarşılıqlı elçi heyətləri danışıqlar apardı və İstemi kağanın Bizansa göndərdiyi ismarışla 571-də İran-Bizans savaşı yenidən başlayıb 20 il davam etdi. Farslara qarşı Göytürk-Bizans ittifaqı VII əsrin ortalarına qədər Qafqazda da mühüm rol oynadı. Belə ki, ərəblərin gəlişinə qədər Orta Asiyadan və Azərbaycandan İrana təzyiq edən türk boyları Sasani dövlətinin süqutu üçün zəmin yaratmışdı.

Saqa, Hun, Kuşan və Ağhun dövlətlərinin etnik tərkibində başqa dilli boylar olsa da, əsas kütləni müxtəlif türk boyları təşkil etdiyi kimi, Göytürk dövlətinin tərkidində də müxtəlif adlı onlarla türk boyları vardı. Bunların sırasında Azərbaycandan getmiş *az* boyunun bir bölümü hətta Yenisey çayına qədər gedib çıxa bilmişdi.[661] Daxildə hakimiyəti ələ keçirmək üstündə türk boyları arasında vaxtaşırı savaşlar da olurdu. Göytürk dövlətinə tabe olan bir neçə uyğur boyu Bilgə Kağanın ölümündən sonra 745-də Uyğur dövlətini qurdular. Soydaşları yarımköçəri bozqır göytürklərindən fərqli olaraq, uyğurlar oturaq yaşama önəm verirdilər.

Ona yaxın boyu birləşdirən Boyla kağan Orxun çayı hövzəsində Uyğur dövlətini möhkəmləndirdi. Kutluq Bilgə və Bayançor (Moyençor) kağanların vaxtında bu dövlətin sınırları böyüyüb, Yeniseydən Kaşqara qədər uzandı. Öncə Göytürk dövlətinin doğu əyalətləri olan bölgələr artıq uyğurların əlində idi. Təxminən bir əsr sonra Yenisey yaxalarından qalxan qırğızlar 840-da Uyğur dövlətinin paytaxtı Qarabalsaqun şəhərini tutdu. Güneyə çəkilən uyğurların bir hissəsi Qansu-Ordos, bir hissəsi də Tanrı dağları, Turfan və Beşbalıq bölgələrində məskunlaşdı. Qansu əyalətində

---

660 Bu şəkillər tanınmış türkoloq dostum Prof. Dr. Osman Fikri Sərtqayanın kitabından alınmışdır (Sertkaya, 1995, 183, 186, 190).

661 Göründüyü kimi, daha öncə Azərbaycandan Avropaya gedən azlar orada dilini itirib norveçlilərin içində əridiyi halda, doğuya gedən az boyu türk mühitində olduğundan öz dilini saxlaya bilmişdir.

uyğurların müstəqil dövləti Çinin quzeyində şatolarla qonşuluqda davam etdi.[662] Beşbalıqda isə 856-da uyğurların yenidən qurduğu dövlətin başına Menqli keçdi. Uyğur kağanları «*Uluq//Gün//Ay tanrıda kut bulmuş, il tutmuş alp külüg bilgə*» tipli titullar daşıyırdı. Siyasi hakimiyətini X əsrin ortalarında itirən uyğurlar Kidan, sonra Tanqut, daha sonra isə Monqol hakimiyətinə tabe oldular.

Uyğurların əksəriyəti şəhərlərdə yaşadığı üçün yazı kulturu sürətlə inkişaf etdi. Dini, didaktik və ədəbi əsərlərin yazıldığı Xaqaniyə türkcəsi türk dilləri sırasında zənginliyilə seçilən uyğur ədəbi dilinin yaranmasına zəmin hazırladı. Uyğurların qonşu xalqlara, özəlliklə monqollara mədəni təsiri böyük idi. Monqollar göytürk yazılarından fərqlənən yeni uyğur əlifbasını da qəbul etdilər. Ərəblər də kağızı ilk dəfə uyğurlardan alıb, Avropa xalqlarına tanıtdılar. Qədim türk Tanrıçılıq dinindən uzaqlaşan uyğur boyları budizm, manixeizm və bəzi bölgələrdə xristian (nestoriyan) dininə tapınırdı. Nəhayət, Orta Asiyada ilk müsəlman türk dövləti quran Qaraxanlılar (940-1040) ilə təxminən eyni çağda, 934-də İslamı qəbul etdilər.

Bu bölmədə Altay türkləri dediyimiz doğu türk boylarının zaman-zaman qurduğu yalnız böyük dövlətlərin adını xronoloji ardıcıllıqla yad etdik. Təbii ki, doğuda adını çəkdiyimiz və çəkmədiyimiz onlarla türk boyunun qurduğu kiçik dövlətlər və bəyliklər də olmuşdur. Lakin Altay türklərinin siyasi tarixi mövzumuzdan kənar olduğu üçün yalnız ümumi mənzərəni təsəvvürə gətirmək üçün vaxtilə Ön Asiyadan doğuya getmiş türklərin oradakı qonşu xalqlar və dövlətlərlə əlaqəsinə toxunduq. Çünki sonralar batıya, o cümlədən Azərbaycana qayıdan bəzi türk boylarının fiziki görkəmində, dilində, etnoqrafiyasında, mifologiyasında, folklorunda həmin əlaqələrin az və ya çox dərəcədə görünən izi vardır.

Göründüyü kimi, Azərbaycan türklərinin birbaşa yaxından və ya dolayısı ilə uzaqdan əlaqədə olduğu doğu və güney-doğu qonşuluğunda m.ö. I minildən İslamaqədərki dövrdə baş verən olaylar Azərbaycanda Mana, Mada, Saqa, Atropat, Alban dövlətləri çağına aiddir. Əhalisinin əsas kütləsi müxtəlif adlar daşıyan azər türkləri olan Azərbaycanın bir çox bölgələrinin Əhəməni (fars), Part (türk-fars), Sasani (fars), Xilafət (ərəb) dövlətləri tabeliyində olduğu çağlarda strateji bölgələrə irandilli, qafqazdilli, həmçinin hay və ərəb tayfalar yerləşdirilsə də, həmin çağlarda quzeydən və doğudan qayıdan bir sıra türk boyları Azərbaycanın etnik demoqrafiyasında türklərin sayını azalmağa qoymamışdır.

*
* *
*

[662] Fərqanədən VII əsrdə çıxan *şad* (şato) boyu VIII-X əsrlərdə Çinin quzeyində yerləşmiş və siyasi arenada önəmli rolu olmuş türk boylarından idi (Azər xalqı, 2000, 56).

Türk boylarının Azərbaycandan getməsi və Azərbaycana qayıtması olayları ümumtürk tarixinin önəmli səhifələridir. Belə ki, bu miqrasiyalar təkcə türk xalqlarının deyil, hələ on minil öncədən başlanmış və bütöv Avrasiya xalqlarının demoqrafiyasını formalaşdıran tarixi köçlərin 4-5 minil öncəki davamıdır. Lakin bu son miqrasiyalar artıq formalaşmış və siyasi qurumu olan toplumun yerdəyişməsidir ki, bunun da öz özəllikləri vardır.[663] Aşağıdakı sxemlərdən göründüyü kimi, ən qədim miqrasiyalar Ön Asiyadan əkinçilik və heyvandarlıq kulturunun ətrafa yayılması ilə müşayiət olunur. Son 4-5 minildə buradan doğu və quzey yönlərə olan köçlərin səbəbi də iqlim dəyişməsi, yaranmış böyük quraqlıq dönəmilə bağlıdır. Yarımköçəri türk boyları bu çağlarda daha çox Xəzər ətrafında dövrə vurmuşlar. Bunun örnəyini saqa boylarının miqrasiyasında aydın görmək olur. Belə ki, Ön Asiyadan doğuya gedən saqalar Azərbaycan-Orta Asiya-Altay-Azaq dənizi-Azərbaycan dövrələmə yolunu bir neçə əsrdə keçsələr də, əsas dolandıqları bölgələr Xəzər hövzəsidir.



İslamaqədər Ön Asiya türklərinin qonşu ölkələr və xalqlarla olan əlaqələri göstərir ki, buradan batı və quzeyə gedənlərin çoxu başqa dilli xalqların içində əriməşlər, doğuya gedənlər isə nəinki əriməş, hətta içinə aldığı tunqus, monqol, finuqor dilli boyların da bir hissəsini türkləşdirmişlər. Bizcə, bu etnodemoqrafik olayın əsas səbəbi «doğma» və «yad» mühitlə bağlıdır. Batı ölkələrdən fərqli olaraq, hələ prototürk çağından Orta Asiya və Altaya gedən türk boyları burada ikinci böyük Atayurd sala bilmiş və tarixi Turanı, Türküstanı «doğma» mühitə çevirmişdilər. Doğrudur, doğuda da türklərin əriməsi olayı baş vermişdir, lakin belə olaylar Çin və Hind ölkələrində, yad mühitdə olmuşdur. Əgər biz Avropa Hun imperatorluğu ilə Asiya Hun imperatorluğunu quran hunların sonrakı taleyini müqayisə etsək, görərik ki, bu imperiyalar dağılandan sonra Avropada qalan hunların çoxu bir neçə əsr başqa adlarla görünsə də, sonda başqa dilli xalqların içində əriyib «görünməz» olur, lakin Asiyda qalan hunlar da sonra başqa adlar daşımasına baxmayaraq, burada etnik kimliyini itirmir. Urmu teoriyası bunun örnəyini türk boylarının batı və doğuya miqrasiyaları ilə göstərir:



Ön Asiyadan ovçu-yığıcı bölgələrə əkinçi və heyvandarlıq kulturunun (10-7 minil), (7-5 minil) və (5-4 minil) öncə miqrasiyası (B.V. Andrianovun sxemi)

İslamaqədər son 3-4 minildə türk boylarının Xəzər ətrafında dövrə vurması

Batıda	Doğuda
əriyən türk boyları	başqa türk boylarına qarışanlar
az	az
subar	subar
saqa	saqa
etrusk	araz
hun	hun
bulqar	bulqar
avar	avar
kuman-qıpçaq	kuman-qıpçaq və s.

(*I Bitiyin sonu*)

ƏDƏBİYAT

Абаев В. И. О языке южных осетин. ЯСКД, 1935

Абегян М. История древнеармянской литературы. I т. Ереван, 1948

Абибуллаев О. А. Энеолит и бронза на территории Нахичеванской АССР. Б.1982

Абуладзе Ц. А. Тюркский лексический материал в словаре Сулхан-Саба Орбелиани «Картули-лексикони». АКД, Тбилиси,1964

Абдуллаев И. Х. Тюркский зооним *Тулпар* на Северном Кавказе. ТДЯК, 1982

Абдушелишвили М. Г. Антропология древнего и современного населения Грузии. Тбилиси, 1964

Абдушелишвили М. Г. К кранологии древнего и современного населения Кавказа. Тбилиси, 1966

Абрамзон С. М. Из этнической истории киргизов. ТС, 1966

Авдиев В. И. История Древнего Востока. Л.1948; 1953

Авдусин Д. А. Археология СССР. М.1977

Агафий. О царствовании Юстиниана. М.-Л. 1953

Адонц Н. Армения в эпоху Юстиниана.СПб.1908; Ереван, 1971

Адонц Н. История Армении. Ереван, 1972

Акишев К. А. Курган Иссык. Искусство саков Казахстана. М. 1978

Акопян А. А. Албания - Алуанк в греко-латинских и древнеармянских источниках. Ереван, 1987

Аласания Г. Г. Классификация грузинских письменных исторических источников. Тбилиси,1986

Алексеев В. П., Гохман И.И. Антропология Азиатской части СССР. М.1984

Алексеев В. П. Этногенез. М.1986

Алексеев В. П. География человеческих рас. М.1974

Алексеев В. П. Палеоантропология земного шара и формирование человеческих рас. Палеолит. М. 1978

Алиев И. История Мидии. Б. 1960

Алияров С. С. Об этногенезе азербайджанского народа (к постановке проблемы). «К проблеме этногенеза азербайджанского народа», Б. 1984

Аманжолов А. С. Руноподобная надпись из сакского захоронения близ Алма-Аты. «Вестник АН Казахской ССР», №12 (320), 1971

Аманжолов А. С. «Шумеро»-тюркские соответствия и изобразительные логограммы. «Schriften zur Geschichte und des Alten Orients», №5, Берлин, 1974

Аманжолов А. С. К генезису тюркских рун. ВЯ, №2, 1978

Андронов М. С. Сравнительная грамматика дравидийских языков. М.1978

Антонова Е. В. Обряды и верования первобытных земледельцев Востока. М.1990

Антонов Н. К. Лекции по тюркологии. Якутск, 1976

Антонов Н. К. Лекции по тюркологии. Новотюркская эпоха. Якутск, 1984

Антропологические типы древнего населения на территории СССР. М. 1988

Арвеладзе Б. «Армянские» или грузинские церкви в Грузии ?! Тбилиси, 1996

Арибжанов М. Некоторые лексические параллели в языке древних индейцев Мая и тюркских языках. ВТЯ, 1976

Арзинба В. Г. Послесловие о некоторых новых результатах в исследовании истории, языков и культуры древней Анатолии. (бах. *Маккуин*), 1983

Армянская география VII века по Р.Х. СПб. 1877

Арутюнов С. А. Народы и культуры . Развитие и взаимодействие. М.1989

Арутюнян Н. В. Биайнили (Урарту). Ереван, 1970

Аппиан. Римская история. С.-Пб. 2004.

Арриан. Поход Александра. М.-Л. 1962

Археология Венгрии. Конец II тыс.до н.э. - I тыс.н.э. М. 1986

Арцеховский А. В. Основы археологии. М. 1955

Асадов Ф. М. Арабские источники о тюрках в раннее средневековье. Б.1993

Атаниязов С. Словарь туркменских этнонимов. Ашхабад, 1988

Афанасьева В. К. Гильгамеш и Энкиду. М.1979

Ахмеров Р. Б. О клеймах керамических мастеров эллинистического Херсонеса. ВДИ, №3, 1951.

Ахундов Д. А. Архитектура древнего и раннесредневекового Азербайджана. Б.1986

Бабаев И. А. Города Кавказской Албании в IV в до н.э. - III в н.э. Б.1990

Бабаков О. Антропологической состав туркменского народа в связи с проблемой этногенеза. Ашхабад, 1977

Багратиони Т. История. (История, написанная сыном царя Грузии Георгия XII). СПб. 1848

Багрянородный К. Об управлении империей. М.1989

Бакиханов А. Гюлистан-и Ирам. Б.1991

Бар-Эбрей. Всеобщая история. (Пер. Р.А.Гусейнова). Б.1960

Барроу Т. Санскрит. М. 1976

Бархударов А. С. Развитие индоарийских языков и древнеиндийская культурная традиция. М. 1988

Баскаков Н. А. Тюркская лексика в «Слове о полку Игореве». М. 1985

Баскаков Н. А. Русские фамилии тюркского происхождения. М. 1970; Б. 1992

Бейлис В. М. К вопросу о конъектурах и о попытках отождествления этнонимов и топонимов в текстах арабских авторов IX-XIII вв. о Восточной Европе. «Восточное историческое источниковедение и специальные исторические дисциплины», вып.1. М.1989

Белицкий М. Забытый мир сумеров. М. 1980

Бикерман Э. Государство Селевкидов. М. 1985

Бичурин Н. Я. (Иакинф). Собрание сведений о народах обитавших в Средней Азии в древние времена. М.-Л. (I-II том) 1950, (III том) 1953

Бузанд Ф. История Армении Фавстоса Бузанда. Ереван, 1953

Бунак. В. В. Человеческие расы и пути их образования. СЭ. №1, 1956

Буниятов З. М. Государство Хорезмшахов-Ануштегинидов (1097-1231). М. 1986

Богданова В. И. Антропологический состав и вопросы происхождения современных тувинцев. АКД, М. 1979

Богушь С. С. История царства Херсонеса Таврийского. СПб.1806

Бойс М. Зороастрийцы. Верования и обычаи. М.1987

Бромлей Ю. В. Очерки теории этноса. М.1983

Брук С. И. Население мира. Этнодемографический справочник. М. 1981

Вавилов Н. И. Избранные труды (в пяти томах). М.-Л.1959-1965

Вадецкая Э. Б. Археологические памятники в степях Среднего Енисея. Л.1986

Вайнштейн С. И., Крюков М. В. Об облике древних тюрков. ТС, М. 1966

Верещагин Н. К. Записки палеонтолога. Л.1981

Виноградов А. В. Тысячелетия, погребенные пустыней. М.1966

Виноградов В. Б., Дударев Л. С., Рунич А. П. *Киммерийско-Кавказские связи. «Скифия и Кавказ», Киев, 1980*

Войтов В. Е. Каменные изваяния из Унгету. ЦА, М.1987

Гадло А. В. Этническая история Северного Кавказа IV-X вв. Л.1979

Гаджиев А. Г. Древнее население Дагестана. М.1975

Галонифонтибус И. Сведения о народах Кавказа (1404 г.). Б. 1980

Гамкрелидзе Т.В., Иванов Вяч.Вс. Индоевропейский язык и индоевропейцы. I-II т. Тбилиси. 1984

Гашимова У. Ф. Одонтологическая характеристика современного населения Азербайджана. ВА, вып.60, 1979

Гельб И. Е. Опыт изучения письма. М.1982

Герни О. Р. Хетты. М. 1987

Геродот. История в девяти книгах. Л.1972

Герценберг Л. Г. Морфологическая структура слова в древних индоиранских языках. Л. 1972

Гёр-оглы. Туркменский героический эпос. М.1983

Гетман А. Н. *Некоторые особенности маркировки сырцовых кирпичей Средней Азии. ЭИАСА, 1979*

Гиндин Л. А., Цымбурский В. Л. О Езеровской надписи и фрако-этрусских связях: Проблемы мнимые и подлинные. М.1987

Гиоргадзе Г. Г. К вопросу о локализации и языковой структуре каскских этнических и географических названий. ПС, 1961

Гранде Б. М. Введение в сравнительное изучение семитских языков. М.1972

Грач А. Д. Вопросы датировки и семантики древнетюркских тамгообразных изображений горного козла. ТС, 1972

Грач. А. Д. Центральная Азия как историко-археологический регион. «ИИКЦА», 1983

Грач. А. Д. Золотая композиция скифского времени из Тувы. «ЦА», 1987

Гричан Ю. В. Новые материалы по изобразительному искусству Горного Алтая. ТВИБИС, 1987

Гукасян В., Асланов В. Исследования по истории азербайджанского языка дописьменного периода. Б. 1986

Гумбатов К. Н. Забытые курганы. (Происхождение азерб. тюрков). Б. 1998

Гумилев Л.Н. География этноса в исторический период. Л.1990

Гусейнова М. А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа XIV-IX вв. до н. э. Б. 1989

Гусейнов М. М. Древний палеолит Азербайджана. Б.1985

Гусейнов Р. А. Сирийские источники об Азербайджане. Б.1964

Даниелян О. А. Бронзовые кинжалы из памятников Ходжалы-Кедабекской культуры. АММ, X т. 1987

Дашкевич Я. Р. Армянские колонии на Украине в источниках и литературе XV-XIX веков. Ереван,1962

Дашкевич Я. Р. О создании корпуса древнерусских сообщений, посвященных тюркским народам. СТ, №6, 1984

Дебец Г. Ф. О принципах классификации человеческих рас. СЭ, 1956, №4.

Деведжян С. Г. Лори-берд. Ереван, 1981

Диринггер Д. Алфавит. М.1963

Дзидзигури Ш. В. Грузинский язык. Тбилиси.1968

Документы на половецком языке XVI в. М.1967

Доманский Я. В. Древняя художественная бронза Кавказа. М. 1984

Дьяконов И. М. История Мидии. М.-Л. 1956

Дьяконов И. М. Языки древней Передней Азии. М. 1967

Дьяконов И. М. Восточный Иран до Кира. ИИГК, 1971

Дьяконов И. М. К методике исследований по этнической истории («киммерийцы»). ЭПИЦАД, 1981

Дьяконов И. М. К праистории армянского языка. ИФЖ, №3, 1983

Дьяконов И. М. Значение Эблы для истории и языкознания. ДЭ, М. 1985

Дьяконов И. М. Люди города Ура. М.1990

Джавахишвили А. И. Строительное дело и архитектура поселений Южного Кавказа V-III тысячелетий до н.э. Тибилиси, 1973

Джавахишвили И. А. Основные историко-этнологические проблемы истории Грузии, Кавказа и Ближнего Востока древнейшей эпохи. ВДИ, №4, 1939

Джапаридзе О. М. К этнической истории грузинских племен: По данным археологии. Тбилиси.1976

Джафаров Г. Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Б.1984

Джафаров Ю. Г. Гунны и Азербайджан. Б. 1985; 1993.

Дёрфер Г. Проблема родства алтайских языков с позиции индоевропеистики. ВЯ, №3, 1972

Дёрфер Г. Базисная лексика и алтайская проблема. ВЯ, №4, 1981

Дунаевская И. М. Язык хеттских иероглифов. М. 1969

Дэвлет М. А. Петроглифы Мугур-Саргола. М. 1980

Елизаренкова Т. Я. Грамматика ведийского языка. М.1982

Елизаренкова Т. Я. Ведийский язык. М.1987

Есаян С. А., Погребова М. Н. Скифские памятники Закавказья. М.1985

Есаян С. А. Древняя культура племен Северо-Восточной Армении. Ереван, 1976

Заблоцка Ю. История Ближного Востока в древности. М.1989

Закиев М. З. Татары. Проблемы истории и языка. Казань, 1995

Закиев М. З. Этногенез и основные вехи развития булгаро-татар в контексте «Запад-Восток». «Очерки по истории татарской культуры», Казань, 2001

Захиди А. И. Слова тюркского происхождения в современном арабском языке. АКД, Б. 1967

Зифельдт-Симумяги А.Р. Урало-Алтаиъа. Кн. I. ООИА, Б.1928

Ибн Хордадбех. Книга путей и стран. Б.1986

Ибрагимов Н. Ибн Баттута и его путешествия по средней Азии. М.1988

Иванов Вяч. Вс. Об отношении хаттского языка к северозападнокавказским. ДА, 1985

Иванов В. В. Древневосточные связи этрусского языка. ДВ, 1988

Иессен А. А. Кавказ и Древний Восток в IV и III тысячилетиях до н. э. КСИА. № 93. М.1963

Исмаилов Г. С. Археологическое исследование древнего поселения Баба-Дервиш. Б.1977

Исмагулов С. Этническая антропология Казахстана. Алма-Ата, 1982

Йакут ал-Хамави. Му'джам ал-Булдан. (Сведения об Азербайджане). Б. 1983

Каграмансой М. Грузинско-азербайджанские языковые параллели. Б. 1992

Казвини Х. Нузхат ал-Кулуб (Пер.*З. М. Бунятова и И. П. Петрушевского*). Б. 1983

Казиев С. М. Альбом кувшинных погребений Мингечаура. Б. 1960

Калоев Б. А. Осетины. М. 1971

Каланкатуаци М. История страны Алуанк. Ереван, 1984

Калинина Т. М. Сведения ранних ученых Арабского халифата. М. 1988

Калмыков И. Черкесы. Черкесск, 1974

Канакерци З. Хроника. М. 1969

Канзакеци К. История. Б. 1946; *Киракос Ганзакеци*. История Армении. М. 1976

Канева И. Сумерский язык. Санкт-Петербург. 1996

Каримуллин А.. О возможном родстве отдельных индейских языков с тюркскими. ВТЯ, 1976

Каримуллин А. Прототюрки и индейцы Америки. По следам одной гипотезы. М. 1995

Касимова Р. М. Антропологические исследования современного населения Азербайджанской ССР. Б. 1975

Капанцян Гр. Хайаса - колыбель армян. Этногенез армян и их начальная история. Ереван, 1947

Керам К. Боги, гробницы, ученые. М. 1986

Кигурадзе Т. В. Периодизация раннеземледельческой культуры Восточного Закавказья. Тбилиси, 1976

Киланава Б. И. К этногенезису грузин. (Роль фактов индоевропейских и тюркских языков в изучении этнонимов *kartvel-i, eqr-i, iber-i, kolx-i*). АФМ, I, 1983

Киселев С. В. Древняя история Южной Сибири. М.1951

Кызласова И. Л. Новые материалы по Енисейской рунической письменности. СТ, №4, 1981

Кленгель-Брант Э. Вавилонская Башня. М. 1991

Климов Г. А. Кавказские языки. М.1965

Климов Г. А. Введение в кавказское языкознание. М. 1986

Клинописные тексты из Кюл-тепе. М. 1968

Кляшторный С. Г. Руническая эпиграфика Южной Сибири. «СТ», №4, 1976

Кобычев В. П. Некоторые вопросы этногенеза и ранней этнической истории народов Кавказа: Финно-угры на Кавказе. КЭС, IX, 1989

Кожин П. М. К проблеме происхождения колесного транспорта. ДА, 1985

Козинцев А. Г. Антропологический состав и происхождения тагарской культуры. Л.1977

Козырева Н. В. Древняя Ларса. М. 1988

Койкырылган кала. М. 1967

Коковцов П. К. Еврейско-хазарская переписка в X в. Л.1932

Кондратов А. Книга о букве. М. 1975

Кононов А. Н. Семантика цветообозначений в тюркских языках. ТС (1975), М.1978

Кононов А. Н. Грамматика языка тюркских рунических памятников. Л.1980

Кораблев И. Ш. Ганнибал. М. 1981

Короглы Х. Г. Огузский героический эпос. М.1976

Короглы Х. Г. Взаимосвязи эпоса народов Средней Азии, Ирана и Азербайджана. М.1983

Котвич В. Л. Исследование по алтайским языкам. М. 1962

Крупнов Е. И. Древняя история Северного Кавказа. М. 1960

Крамер С. Н. История начинается в Сумере. М. 1965; 1991 (II basqı)

Крамер С. Н. Сумеры. Первая цивилизация на Земле. М. 2002

Ксенофонтов Г. Хрестес. Шаманзм и христианство. Иркутск, 1929

Ксенофонт. Киропедия. М. 1976

Кубарев В. Д. Древнетюркские изваяния Алтая. Новосибирск, 1984

Кубарев В. Д. Курганы Уландрыка. Новосибирск, 1987

Лавров Л. И. Историко-этнографические очерки Кавказа. Л. 1978

Латыпов Ф. Элементы морфонологии этрусского языка в свете пратюркской гипотезы. АФМ, III, 1991

Латышев В. В. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. Ч. I-II, СПб., 1904-1906; ВДИ, 1947-1949; №2, 1952

Липин Л. А. Акадский (Вавилоно-ассирийский) язык. Вып. II, Словарь. Л. 1957

Ллойд С. Археология Месопотамии. М. 1984

Лермонтов М.Ю. Полное собрание. Т. 4. Л. 1940

Луконин В. Г. Культура Сасанидского Ирана. М. 1969

Луконин В. Г. Древний и ранневековый Иран. Очерки истории и культуры. М.1987

Мавродин В. О появлении огнестрельного оружия на Руси. «Вестник Ленинградского университета», №3, 1946

Майзель С. С. Пути развития корневого фонда семитских языков. М. 1983

Маккуин Дж. Г. Хетты и их современники в Малой Азии. М. 1983

Малов С. Е. Древние и новые тюркские языки. «Известия АН СССР», ОЛЯ, т.XI, вып. 2, 1952

Мамедов А. Теоретические проблемы восстановления первичных корней в тюркских языках. АФМ, II, 1984

Мамедов Т. М. Албания и Атропатена по древнеармянским источникам. Б 1977

Мамедов Т. Кавказская Албания. Б.1993

Мамедов С. А. Исторические связи азербайджанского и армянского народов. Б.1977

Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании. Б. 1986

Маннай-оол М. Х. Тываныӈ археологтуг тураскаалдары. Кызыл, 1964 (tuva dilində)

Маннай-оол М. Х. Древнее изображение горного козла в Туве. СА, №1, 1967

Марлинский А. Полное собрание сочинений. Том I, ч. II, СПб. 1847

Мартиросян А. А. Раскопки в Головино. Ереван, 1954

Мартиросян А. А. Город Тейшебаини. Ереван, 1961

Мартынов А. И. Археология СССР. М.1982

Мартынов В. В. Язык в пространстве и времени. М.1983

Массон Е. М. Ахангеран. Археолого-топографический очерк. Ташкент, 1953

Массон В. М. Древнеземледельческая культура Маргианы. МИАС, №73, 1959

Массон В. М. Историческое место среднеазиатской цивилизации. СА, №1, 1964

Массон В. М. Средняя Азия и Древний Восток. М-Л. 1964 а

Массон В. М. Поселение Джейтун. Л. 1971

Массон В. М. Первые цивилизации. Л. 1989

Массон В. М.,Сарианиды В.И. Среднеазиатская терракота эпохи бронзы. М.1973

Мезолит СССР. М. 1988

Меликишвили Г. А. Наири-Урарту. Тбилиси, 1954

Меликишвили Г. А. К истории древней Грузии. Тбилиси, 1959

Меликишвили Г. А. О некоторых наименованиях металлов в древневосточных и Кавказских языках. ВДИ, №4, 1968

Мелларт Дж. Древнейшие цивилизации Ближнего Востока. М. 1982

Мельникова Е. А. Древнескандинавские географические сочинение. М. 1986

Мейе А. Основные особенности германской группы языков. М. 1952

Менгес К. Г. Восточные элементы в «Слове о польку Игореве». М. 1979

Мен-да бэй-лу. М. 1975

Мещанинов И. И. Халдоведение. История древнего Вана. Б. 1927

Мещанинов И. И. К анализу имени Эримена. «Язык и мышление», I т. Л. 1933

Мещанинов И. И. Аннотированный словарь урартского (биайнского) языка. Л. 1978

Мизиев И. М. История рядом. Нальчик, 1990

Микеладзе Т. К. Исследование по истории древнейщего населения Колхиды и юго-восточного Причерноморья XV-IV вв. до н. э. (АДД),Тб.,1969

*Минорский В. Ф.*История Ширвана и Дербенда X-XI веков. М.1963

Мирзазаде Ч. Х. О некоторых названиях Каспийского моря. ОК, 1976

Мирзоев М. К ранней истории касситско-вавилонского царства (нач. XVI -сер. XV вв до н.э.). ТП, №1, 1997

Мирзоев М. Взаимоотнешения касситской Вавилонии с соседними государствами в XIV-XII вв.до н. э. ТП, №2,1997

Михаил Сириец. Хроника. (пер. *Р. А. Гусейнова*). Б. 1960

Младшая Эдда. Л. 1970

Молчанов А. А. Таинственные письмена первых европейцев. М. 1980

Моммзен. Римская история. I-III т. М. 1887.

Мровели Леонти. Жизнь картлийских царей: Извлечение сведений об абхазах, народах Севернего Кавказа и Дагестана. (Перев. и коммент. *Г. В. Цулая*). М.1979

Мукитанов Н. К. От Страбона до наших дней. М.1985

Мунчаев Р.М., Мерперт Н.Я. Раннеземледельческие поселения северной Месопотамии. (Исследования советской экспедиции в Ираке). М. 1981

Немировский А. И. Этруски. От мифа к истории. М. 1983

Неру Дж. Взгляд на всемирную историю. 1 т. М. 1981

Новгородова Э. А. Древняя Монголия. М. 1989

Нозадзе Н. А. Вопросы структуры хурритского глагола. Тбилиси, 1978
Овидий. Скорбные элегии. Письма с Понта. М. 1978
Окладников А. П., Окладникова Е. А. Древние рисунки Кызыл-келя. Новосибирск, 1985
Оранский И. М. Введение в иранскую филологию. М. 1988
Оппенхейм А. Древняя Месопотамия. М. 1990
Пайазат А. Ключ халдского языка. Эривань 1936 (*hay dilində*)
Паничкина М.З. Палеолит Армении. Л. 1950
Палеолит и неолит Монгольского Алтая. Новосибирск, 1990
Палеолит СССР. М. 1984
Пигулевская Н. В. Сирийские источники по истории народов СССР. М.-Л. 1941
Пиотровский Б. Б. О происхождении армянского народа. Ереван, 1946
Пиотровский Б. Б. Кармир-Блур. I-II, Ереван, 1950-1952
Пиотровский Б. Б. Ванское царство (Урарту). М. 1959
Плетнева С. А. На славяно-хазарском пограничье. М. 1989
Плано Карпини. История монголов. М. 1957
Плутарх. Сравнительные жизнеописания. II т. М. 1963
Плутарх. Сочинения. М. 1983
Плутарх. Избранные жизнеописания. I-II тт. М.1987
Плутарх. Застольные беседы. М. 1990
Погребова М. Н. Закавказье и его связи с Передней Азией в скифское время. М.1984
Подосинов А. В. Произведения Овидия как источник по истории Восточной Европы и Закавказья. (Тексты, перевод, комментарий). М.1985
Покровский М. Н. Русская история с древнейших времен. I т. М.1933
Потанин Г. Н. Очерки Северо-Западной Монголии. СПб. 1881
Потапов Л. П. Лук и стрела в шаманстве у алтайцев. СЭ, 1934
Прокопий Кесарийский. О постройках. ВДИ, 34, 1939
Рагозина З. А. История Востока. СПб.-Петербург.
Расим Эфенди. Каменная пластика Азербайджана. Б.1986
Руденко С. И. Исскуство Алтая и Передей Азии. М. 1961
Рюмин В. А. Краткий исторический и этнографический очерки Азербайджана. АНК, 1923
Сарианиди В. И. Древние связи Южного Туркменистана и Северного Ирана. СА, №4, 1970
Сарианиди В.И. Древние земледельцы Афганистана. «Материалы советско-афганской экспедиции 1969-1974 гг.». М. 1977
Сергеева В. Г. Вопросы заселения Америки и трансокеанских контактов в трудах Хуана Комаса. «Пути развития зарубежной этнологии», М. 1983
Сергеев В. С. История древней Греции. М. 1948.
Сетаров Д. С. Тюркизмы в русских названиях лошадей. СТ, №6, 1981
Соссюр Ф. де. Труды по языкознанию. М. 1977

Страбон. География в 17 книгах. М. 1994
Струве В. В. Ономастика раннединастического Лагаша. М. 1984
Сулейменов О. Аз и Я. Алма-Ата, 1975
Сумбатзаде А. С. Азербайджанцы - этногенез и формирование народа. Б. 1990
Суник О. П. К актуальным проблемам Алтаистики. «ВЯ» №1, 1976
Сэмюэльс Р. По тропам еврейской истории. М. 1991
Тацит К. Анналы. Малые произведения. Л. 1969
Тацит К. История. Л. 1969
Тепляшина Т. И. Язык бесермян. М. 1970
Терентьев-Катанский А. П. С Востока на Запад. М. 1990
Тер-Мкртичян Л. Х. Армянские источники о Средней Азии V-VII вв. М. 1979
Тер-Мкртичян Л. Х. Армянские источники о Средней Азии VIII-XVIII вв. М.1985
Техов Б. В. Скифы в Центральном Кавказе в VII-VI вв. до н.э. М. 1980
Тит Ливий. История Рима от основания города. I т. М. 1989
Трубачев О. Н. Названия рек правобережной Украины. М. 1968
Трубачев О. Н. «Старая Скифия» (Ἀρχαίη Σκυθίη) Геродота (IV, 99) и славяне. Лингвистический аспект. ВЯ, №4, 1979
Трубачев О. Н. İNDOARİKA в севернеом причерноморье. «ВЯ», №2, 1981
Трубецкой В. В. Бахтияры (расселение, хозяйство, общественные отношения). «Этнические процессы и состав населения в странах Передней Азии», М. 1963
Тугушева Л. Ю. Уйгурская версия биографии Сюань-Цзана. М. 1991
Туманян Э. Г. Структура индоевропейских имён в армянском языке. М. 1978
Федоров Я. А., Федоров Г. С. Ранние тюрки на Северном Кавказе. М. 1978
Федоров Я. А. Историческая этнография Северного Кавказа. М. 1983
Феофилакт Симокатта. История. М. 1957
Фитуни А. П. История народных легенд о кладе Александра Македонского в Ширване. «Известия О-ва обслед. и изуч. Азерб.» №4, Б. 1927
Фрай Р. Наследие Ирана. М. 1972
Фридрих И. История письма. М. 1979
Халилов Дж. А. Материальная культура Кавказской Албании. Б. 1984
Хачатрян Т. С. Древняя культура Ширака. Ереван, 1975
Хожение за три моря Афанасия Никитина. Ленинград, 1986
Хоренаци М. Исторіа Арменіи Моисея Хоренскаго. М.1858
Чагдуров С. Ш. Происхождение Гэсэриады. Новосибирск, 1980
Чайлд Г. Древнейший Восток в свете новых раскопок. М. 1956
Черных Е. Н. История древнейшей металлургии Восточной Европы. М.1966
Черных Е. Н. Циркумпонтийская провинция и древнейшие индоевропейцы. ДВ, 1988
Чебоксаров Н. Н., Чебоксарова И. А. Народы. Расы. Культуры. М.1985
Членова Н. Л. Происхождение и ранная история племен тагарской культуры. М.1967

Членова Н. Л. Тагарские лошади. (О связах племен Южной Сибири и Средней Азии в скифскую эпоху). КИСА, 1981

Цитланадзе Г. Культура племен горной части Центрального Кавказа VI-I вв. до н.э. по археологическим памятникам. АКД, Тбилиси, 1967

Шагиров А. К. Заимствованная лексика абхазо-адыгских языков. М.1989

Шаниязов К. Ш. К этнической истории узбекского народа: Историко-этнографическое исследование на материалах кипчакчкого компонента. Ташкент, 1974

Шеворошкин В. В. Этимологические заметки. "Этимология", 1965

Шер Я. А. Петроглифы Средней Азии и Центральной Азии. М. 1980

Шилейко В. К. Вотивные документы надписи сумерийских правителей. П.град, 1916

Шипова Е. Н. Словарь тюркизмов в русском языке. Алма-Ата, 1976

Ширакаци А. Космография. Ереван, 1962

Широкогоров С. М. Этнос. Исселование основных принципов изменения этнических и этнографических явлений. Шанхай, 1923

Шишкин И. Б. У стен великой Намазги. М.1981

Шифман И. Ш. Угаритское общество XIV-XIII вв. до н.э. М.1982

Щербак А. М. О характере лексических взаимосвязей монгольских и тунгусо-маньчжурских языков. ВЯ, №3, 1966

Эдельман Д. И. Сравнительная грамматика восточноиранских языков. Фонология. М. 1986

Энеолит СССР. М. 1982

Энико Сий. Курс венгерского языка. Будапешт, 1981

Эпоха бронзы лесной полосы СССР. М.1987

Эпос о Гильгамеше. М.-Л. 1961

Яйленко В. П. Архаическая Греция и Ближний Восток. М. 1990

Юсифов Ю. Б. Элам. Социально-экономическая история. М.1968

Юсифов Ю. Б. О языках древнейших насельников Азербайджана. АФМ, 1983

Юсифов Ю. Б. Ранние контакты Месопотамии с северо-восточными странами. Приурмийская зона. ВДИ, №1, 1987

Аббасов И. Азярбайъан фолклору XIX яср ермяни мянбяляриндя.Б. 1977

Антонов Н. К. Былыргы тюрк тыла (VI-VIII цэлэр) [Bılırqı türk tıla, VI-VIII yeler]. Якутскай, 1970 (saxa dilində)

Бекмырадов А. Андалып хем огузнамачылык деби. Ашгабат,1987 (türkmən dilində)

Билгамыс дастаны. (çevirən *İ. Ömərоğlu*,«Sonsöz» - *F.Ağasıoğlu*). Б. 1999

Бцнйадов З. Азярбайъан VII-IX ясрлярдя. Б. 1989

Вялийев В. Фолклоршцнаслыьын бязи мясяляляри. ЕЯ, №6, 1979

Вялиханлы Н. М. ЫХ-ХЫ яср яряб ъоьрафийашцнас-сяййащлары Азярбайъан щаггында. Б.1974

Гашгай С. Манна дювляти. Б.1993

Гейбуллайев Г. Азярбайъан тцрклярининн тяшяккцлц тарихиндян. Б. 1994

Гош М. Албан салнамяси. (*Z. Bünyadovun* tərcüməsi). Б.1993

Гукасйан В. Л. Удинъя-азярбайъанъа-русъа лцьят. Б. 1974

Гурбан Р. Азяри, Атропатен, Азярбайъан сюзляри щаггында. ЕА хяб.,1968

Дямирчизадя Я. М. Азярбайъан ядяби дили тарихи. Б. 1947

Ейвазова Р. Яфганыстанда тцрк мяншяли топонимляр. Б. 1995

Ялякбярли Я. Гярби Азярбайъан. Ведибасар мащалы. Б. 2000

Ялибяйзадя Е. Азярбайъан халгынын мяняви тарихи. Б.1998

Ялийаров С. С. «Китаби-Дядям Горгуд»: Ялйазмалары цзяриндя чалышмалар. (Ы мягаля). АФМ, ЫЫЫ, 1991

Ялийева Н. Азярбайъан Йагут ял-Щямявинин ясярляриндя. Б.1999

Ялийев В. Археоложи мядянийятляр. «Ядябийат вя инъясянят» гяз. 25 август, 1989

Ялийев В. Эямигайа абидяляри. Б.1992

Ялийев К., Ялийева Ф. Азярбайъан антик дюврдя. Б.1997

Яшмядов Р. С. Сами вя тцрк дилляриндя бязи лексик паралелляр. АФМ, Ы, 1983

Защиди А. И. Мцасир яряб дилиндя тцрк мяншяли сюзляр.Б.1977

Зякиев М. З. Тюрки-татар этногенезы. Казан-Мяскяц, 1998, (татар дилиндя)

Зейналов Ф. Р. Тцрколоэийанын ясаслары. Б.1981

Зяринязадя Щ. Фарс дилиндя Азярбайъан сюзляри. Б. 1962

Ибн ял-Ясир. Ял-Камил фи-т-Тарих. Б. 1959

Ибращимов Т. Я. (Шащин). Гашгайлар. Б. 1988

***Йереванлы Я.* Щованес Туманйан вя Азярбайъан ядябийаты. Йереван, 1974**

Йусифов Й. Гядим Азярбайъан тарихинин тарихшцнаслыьы: Аратта дювлятинин тарихшцнаслыьы. (Ы-ЫЫ мягаля), ТП, №1, №2, 1997

Каланкатуклу М. Албанија тарихи. (*Z. Bünyadovun* tərcüməsi). Б. 1993

Кяримов Л. Азярбайъан халчасы. Б.1985

Эюйцшов Р. Азярбайъан археолоэийасы. Б.1986

Юэял Б. Бюйцк Щун империйасы. Ы-ЫЫ ъ. Б. 1992

Машмудов М. Ярябъя йазмыш азярбайъанлы шаир вя ядибляр (ВЫЫ-ХЫЫ ясрляр). Б.1983

Машмудов Ф. Р. Астара районундакы илк тунъ дюврц курганлары щаггында. АММ, Х т. 1987

Мяликов И. С. Гядим хетт вя азярбайъан дил уйьунлуглары. АФМ, Ы, 1983

Мяликов И. С. Хатт - цмумтцрк дил паралелляри. АФМ, ЫЫ, 1984

Мяммядялийев В. М. Гуранда цмумтцрк мяншяли сюзляр. АФМ, Ы, 1983

Мяммядов А. М. Азярбайъан дилинин еркян тарихиня даир материаллар. (Шумер-тцрк лексик паралелляри. АФМ, Ы, 1983

Мяммядов М. Диллярин гаршылыглы ялагяси. Йереван. 1986

Мурадова Ф. М. Гобустан тунъ дюврцндя. Б.1979

Мурзаев Э. М. Словарь народных географических терминов. М.1984

Мусаев К. М. Лексика тюркских языков в сравнительном освещении. М.1975

Мусаев К. М. Лексикология тюркских языков. М.1984

Мухаммадиев А. Г. Древние монеты Поволжья. Казань, 1990

Новрузов М. Мякани щаллар. АФМ, ЫЫ, 1984

Рамазанов Й. Азярбайъан дилиндя йазыб-йарадан ермяни ашыглары. Б.1977

Ряшидяддин Ф. Оьузнамя. (*Рящиля Щкцрованын* тяръцмяси). Б.1992

Рзайев Н. Мюъцзяли гяриняляр. Б.1984

Рзайев Н. Гайалар данышыр. Б.1985

Рцстямов Ъ. Гобустан дцнйасы. Б.1994

Сейидбяйли Е. М. Кянэярли елинин мяншяйи щагтында тарихи-етнографик мялумат. «Ялйазмалар хязиняси», ЫЫ ъилд, Б. 1986

Сейидов М. Азярбайъан-ермяни ядяби ялагяляри. Б. 1976

Сейидов М. Азярбайъан мифик тяфяккцрцнцн гайнаглары. Б. 1983

Сейидов М. Азярбайъан халгынын сойкюкцнц дцшцняркян. «Улдуз», №12, 1985

Сейидов М. Азярбайъан халгынын сойкюкцнц дцшцняркян. Б. 1989

Тантякин Щ. «Гилгамыш» дастанынын наьыл версийасы. «Улдуз», №8, 1980

Сцмяр Ф. Оьузлар. Б. 1992

Фяттах Н. Шяж,яря. Казан, 1990 (татар дилиндя)

Худийев Н. Азярбайъан ядяби дили тарихи. Б. 1995

Щаъыйев Т. И. Азярбайъан ядяби дили тарихи. Б. 1976

Щаъыйев Т. И. Азярбайъан дилинин йазыйагядярки изляри щагтында. АФМ, Ы, 1983

Щямзя Вяли. Нцвяди китабяляри. Б. 1998

Щцсейнов М., Исмайылов Г., Гулийев Н. М. Азярбайъанын археоложи абидяляри. Б. 1981

Ъащанэиров М. Азярбайъан милли ядяби дилинин тяшяккцлц. Ы щисся. Б. 1978

Ъялилов Ф. А. Азярбайъан дилинин морфонолоэийасы. Б. 1988

Ъялилов Ф. А. Протоазяр теонимляри «Азярбайъан тарихи цзря гайнагларын юйрянилмя проблемляри», Б. 1988 а

Ъялилов Ф. А. Гядим аз~ас етноними. АОП, ЫЫ, 1988 б

Ъялилов Ф. А. Дил аиляси вя дил иттифагы. «Цмумидилчилик фянляринин тядриси проблемляри», АПИ няшри, Б. 1989

Ъялилов Ф. А. Гядим *гашгай* етноними. АОП, ЫЫЫ, 1990

Ъяфяров Ъ. И. Азярбайъан халгынын улу сойкюкц. Аслар кимдир? Б. 1999

Шярифов К. Гядим рун йазылары Орта яср мятнщцнаслыьында. АФМ, ЫЫЫ, 1991

Ширялийев М. Азярбайъан диалектолоэийасынын ясаслары. Б. 1968

Abdullah A. Uygurcadakı çince kelimeler üzerine. TD_1 №7, 1999

*Abrahamyan R.*Pahlaveren-parskeren-hayeren-ruseren-anqleren bararan. Yerevan,1965

Abû'l-Farac Gregory. Abû`l-Farac tarihi (Türkceye çeviren *Ö.Doğrul*), I-II c. Ankara, 1987

Açaryan Hr. Hay dilində türkcə alınma sözlər. Moskva-Vağarşabad, 1902 (hay dilində)

Aqatangełay. Patmutun Hayots. Tphłis, 1909 (hay dilində)

Aqatangełos. Hayots patmutyun. Yerevan, 1983 (hay dilində)

Ağasıoğlu F. (Cəlilov). Azərbaycan dilinin morfonologiyası. Bakı, 1988

Akbulut Y. Bingöl tarihi. Ankara, 1995

Akinyan N. S. Maştots vardapet. Vienna, 1949 (hay dilində)

Akçokraklı O. Kırımda tatar damğaları. Krım, 1926; İstanbul, 1983

Alinei M. Etrusco. Una forma arcaica di ungherese. Bologna, 2003

Alinei M. Addenta Etrusco-Turco-Ugrici. 9 L`etimologia altaica del teonimo etr. Tinia: turcico Täng-ri dio del cielo. "Quaderni di Semantica", 51, 2 (2005)

Ataniyazov S. Turkmenistannın qeoqrafik adlarının düşündirişli sözliqi. Aşqabat,1980

Ayda.A. Türklerin ilk ataları. Ankara,1987

Ayda.A. Etrüskler (Turksakalar) türk idiler. Ankara, 1992

Azər xalqı. (*Firidun Ağasıoğlu*. Seçmə yazılar). B. 2000; 2005

Bailey H. W. Zoroastrian Problems in the Ninth-centuri Books. Oxford, 1943

Baitchura U. On some principles of etymology. «Annali del Seminario di Studi dell-'Europa Orientale», Edizioni dell'Ateneo, №1, 1982-1983

Balkan K. Die Sprache der Kassiten. New-Haven, 1954

Balkan **K. Eski Önasyada *kut* (veya *gut*) halkının dili ile eski türkce arasındakı benzerlik. ERDEM, cilt: 6/1, sayı 16, 1990 (ayrıbasım, 1992)**

Barton **G. A. The Royal İnscriptions of Sumer and Akad. 1929**

Bartucz. **A magyar ember. Budapest, 1938**

Barth F. Nomads of South Persia: Vasseri Tribe of the Khamseh Confederacy. N.-Y., 1964

Bayram S. Kaynaklara göre Güney-doğu Anadoluda prototürk izleri. İstanbul, 1988

Bayur Y. H. Hindistan tarihi. I cilt. Ankara, 1987

Belck C. Das Reich die Mannëer. «Verhandlungen der Berliner Gesellschaft für Anthropologie, Ethnologie und Urgeschichte», 1884

Berger B., Protsch R. The Domestication of Plants and Animals. «Orientalia. Nuova Series», Roma, 1973

Berghe V. L. Archeologie de l'İran ancien. Leiden, 1959

Berlin A. Enmerkar and Ensuchkeshdanna. Rhiladelrhia, 1979

Betham W. Etruria celtica. I-II, Dublin, 1842

Bonfante L. Etruskan. London, British Museum Publication. 1990

Biswas A. **The Political History of the Hunas in İndia. New Delhi, 1973**

Bloch R. Le origini di Roma. II Saggiatore, Milano, 1963

Blok R. The Ancient civilization of the Etruscans. Barrie and Rockliff. London, 1969

Bokovenko N. Tagar kültürü. «Türkler», I cild, 2000

Brandenstein W. Die Herkunft der Etrüsker. Leipziq, 1937.

Butzer K.W. Patterns of environmental change in the Near East during late Pleistocene and Levant. Dallas, 1975

Canaşia S. N. Əsərləri. I c. Tbilisi, 1949; II c. Tbilisi, 1952 (gürcü dilində)

Candar A. Kimmerler. «Ülkü» dergisi, şubat, 1935

Cahiz (*Ebû ´Osmân ´Amr b. Bahr Maxbûb el-Câhiz*). Manâkib Cund el-Xilâfa ve Fażâ-'il el-Etrâk (Çevirən: *Ramazan Şeşen*), Ankara,1988

Celilov F. A. Dastanın tercümesi. «Türk edebiyatı» dergisi, sayı 145, İstanbul, 1985

Celilov F. A. Kassi dilinde türkizmler. «Atatürkçü düşünce», sayı 44, 1997, Ankara

Cəfərzadə İ. M. Qobustan. Qayaüstü rəsmlər. B. 1999

Cəfərov Ə. İnsanlığın səhəri. B. 1994.

Coşkun Y. Boğazköy metinlerinde geçen bazi seçme kap isimleri. Ankara,1979

Çay A. M. Türk milli kültüründe hayvan motifleri. I (Koyun ve keçi etrafında oluşan gelenekler), Ankara, 1990

Çapar Ö. Phrigia ve Demir devrinde Anadolu kavimleri. «Ankara universitesi Dil ve Tarih-Coğrafya fakültesi dergisi», c.XXXI, sayı 1-2, Ankara, 1987

Çeçen A. Türk devletlei. İstanbul, 1986

Çetinkaya N. Iğdır tarihi. İstanbul 1996

Çilingiroğlu A. Urartu krallığı tarihi ve sanatı. İzmir, 1997

Gabain A. von. Vom Sinn symbolischer Farbenzeichnung. AO, t.15, №1-3. Budapest, 1962

Gadd J.C. The Dynasty of Agade and the Gutian İnvasion. «The Cambridge Ancient History», Revised edition of volumes 1-2, Cambridg University, Press, 1963

Galton H. Der Einfluss des Altaischen auf die Entstehung des Slawischen. Wiesbaden, 1997

Garstang J., Gurney O. R. The geography of the Hittite Empire. London, 1959

Geschichte der Ugresellschaft. (von einem Autorenkollektiv unter Leitung von *Henz Grünert*). Berlin, 1982

Gelb J. Hurrians and Subarians. Chicago, 1944

Göyalp Z. Türkçülügün esasları. İstanbul, 1976

Göyalp Z. Türk töresi. İstanbul, 1977

Gürün K. Türkler ve Türk devletleri tarihi. (II baskı), Ankara, 1984

Günaltay Ş. Türk tarihinin ilk devirlerinden Yakın Şark. (Elam ve Mezopotamiya). Ankara, 1987

Ghirshman R. Fouilles de Sialk pres de Kashan 1933, 1934, 1937 vv. I-II. (Musee du Louvre, Ser. Arch.), Paris, 1938-1939

Grayson A.K. Assyrian Royal İnskriptions. Wiesbaden, vol.I, 1972; vol.II. 1976

Godard A. Le Trésor de Ziwiye. Haarlem, 1950

Godard A. L'Art de l'İran. Paris, 1962

Golden P. B. Khazar studies. Vol.1. Budapest, 1980

Gostony C. G. Dictionnaire d'étymologie sumérienne et grammaire comparée. Paris,1975

Cameron G.G. History of Early İran. Chicago, 1936

Codex Cumanicus. Edit by G.Kunn. Budapest, 1981 (təkrar nəşri)

Cohen S. Enmekar and the Lord of Aratta. (Dissertation). University of Pennsylvania, 1973

Conteneau G. La Civilisation des Hittites et des Hourrites du Mitanni. Paris, 1948

Cooper J. S. Reconstructing History from Ancient İnscriptions: The Lagash-Umma Border Conflict Sources from the Ancient Near East. Vol.2 F.1. Undena Publications. Malibu, 1983

Chapot V. La frontière de l `Euphrate de Rompèe à la conquête arabe. Raris, 1907

Décsy G. The Turkic Protolanguage. A Computational Reconstruction. Bloomington, İndiana: Eurolingua, 1988

Deimel A. Sumerishes Lexikon. Rom. 1925-1947

De Groot J. M. Die Hunnen der vorchristlichen Zeit. Berlin-Leipzig, 1921

Diakonoff İ. M., Kashkai S. M. Geograpihical Names According to Urartian Texts. «Réportoire Géograrhique des Textes Cuéiformes», Band 9. Wiesbaden, 1981

Dirr A. Einführung in das Studium der kaukasischen Sprachen. Leipzig,1928

Divitçioğlu S. Kök türkler. İstanbul, 2000

Doğan İ. Doğu Avropadaki Göktürk (runik) işaretli yazıtlar. Ankara, 2000

Doğan İ. Kafkasyadaki Göktürk (runik) işaretli yazıtlar. Ankara, 2000 a

Dunand M. Biblia Grammata. Beyrouth, 1945

Durmuş İ. İskitler (Sakalar). Ankara, 1993

Dyson R. H., Young T. C. The Solduz Valley, İran: Pisdelitepe. «Antiguity», №133, Cambridge,1960

Dyson R.H. Archaeological Serap Glimpses of History of Ziwiye. «Expedition»,v.3.1963

Dyson R.H. Problems in the Relativ Chronology on İran. «Chronologies in Old Wold Archaeology». Chicago-London. 1965.

Eberhard W. Çinin Şimal komşuları. Ankara,1942

Eberhard W. Eski Çin kültürü ve türkler. «Türkler», I c. 2000

Ebü Dülef. Ebü Dülefin risalesinden türk ülkeleriyle ilgili kısmın tercümesi (hazırlayan *Ramazan Şeşen*). «İbn Fadlan» kitabına əlavə.

Ertem H. Boğazköy metinlerinde geçen coğrafya adları dizini. (Çivi yazılı metin yerleri ve Biblioqrafya ile birlikte). Ankara, 1973

Erzen A. Doğu Anadolu ve Urartular. Ankara, 1984

Ələkbərli Ə. Qərbi Azərbaycan. I c. (Vedibasar mahalı). B. 2000

Ələkbərli Ə. Qərbi Azərbaycan. II c. (Zəngibasar, Gərnibasar, Qırxbulaq mahalı). B. 2002

Əskər R. Qutadğu bilig. B. 2003

İbn el-Fakîh. Kitâb el-büldan. İCGT, 1985

İbn Havkal. Sûret el-arz. İCGT, 1985

İbn Rusteh. el-aʿlâk el-nefîse. İCGT, 1985

İdrîsî. Nüzhet el-müştâk fî ihtirâk el-âfâk. İCGT, 1985

İbn Fadlan Seyahatnamesi (hazırlayan *Ramazan Şeşen*). İstnbul,1975

İnan A. Tarihte ve bugün Şamanizm. Ankara, 1972

İnayet A. Türkçede çnce kaynaklı gösterilen bazı kelimeler üzerine. TD_1 №7, 1999

İstaxri. Mesâlik el-memâlik. İCGT, 1985

Halil C. İslam ve Osmnlı hukukunda evlenme. Konya, 1988

Halis (Ataksoy). Diyarbakır tarihinde Komuk Eli. İstanbul, 1988

Hančar Fr. Kaukasus - Luristan. «Eurasia-Septentrionalis antiqua», IX. Helsinki, 1934

Harmatta J. Avarların dili sorununa dair. Doğu Avrupada türk oyma yazılı kitabeler. (Türkceye çeviren *Hicran Akın*). Ankara, 1988

Hinz W. Das Reish Elam. Stuttqart, 1964

Herodotos. Herodot tarihi (çeviren *Muntekim Ökmen*). İstanbul,1983

Herzfeld E. İran in the Ancient East. London - New York, 1941

Həsənov H. Ə. Türkşünaslığın bəzi problemləri. «Azərbaycan» jurnalı, №8, 2002

Hübschmann H. Die altarmenischen Ortsnamen. Mit einer Karte. «Zeitschrift für İndo-germanische sprach und Altertumskunde». Bd.16. Strassburq, 1904

Xudiyev N. Xalqın tarixi haqqı: dilimiz, varlığımız. B. 2003

Falkenstein A. Das Sumerische. «Handbuch der Orientalistik». Abt.1. Bd.2. Leiden, 1959

Feher G. Bulgar türkleri tarihi. Ankara, 1984

Ferri S. Opuscula. Firenze. 1962

Folsom F. The language book. New York, 1963

Forrer E. Die Provinzeinteilunq der Assyrischen Reiches. Leipzig, 1920

Friedrich J. Hethitisches Wörterbuch. (C.Winter. Universitëtsverlag). Heidelberg, 1952

Jacobsen T. The Sumerian King List. AS, 11. Chicago,1939

Jensen H. Die schrift in vergangenheit und gegenwart. Berlin, 1958

Jettmar K. Zur Wanderungsgeschichte der İranier. «Wiener Schul der Völkerkunde. Festschrift», Horn-Wien, 1956

Johnson D. L. The Nature of Nomadism: A Comparative Study of Pastoral Miqrations in Southwestern Asia and Northern Africa. Chicago, 1969

Justi F. İranisches Namenbuch. Marbupg, 1895

Kalankatlı. (*Î³Õ³ÝÏ³ïáõ³óÇ Ø.* ä³ïÙáõÃÇõÝ ²Õáõ³ÝÇó ³ßËñÑÇ. ºñ»í³Ý, 1983); (*Каланкатуаци М.* История страны Алуанк. Erevan, 1984)

Kafesoğlu İ. Türk milli kültürü. (VI baskı). İstanbul, 1989

Kaya P. Reading of the etruscan Pirgi tablets."TDA", sayı 119, 1999

Kaya P. Etruscan-turkish connection chapter II. The etruscan orator inscription. "TDA", sayı 118, 1999

Kınal F. Eski Anadolu tarihi.(II baskı), Ankara,1987

Kırzıoğlu M. F. Kars tarihi. I c. İstanbul, 1953

Kırzıoğlu M. F. Osmanlı Fethinden önceleri Ardahan-Çıldır-Posof bölgesinin türklüğü. Kİ, 1965

Kırzıoğlu M. F. Kürtlerin türklügü. Ankara, 1968

Kırzıoğlu M. F. Yukarı-Kür ve Çoruk boylarında kıpçaklar. Ankara,1992

Kitapçı Z. Orta Doğuda türk askeri varlığının ilk zuhuru. İstanbul, 1987

Koca S. Eski türklerde devlet geleneyi ve teşkilatı. «Türkler», II, 2002

Kopečný F. Základní všeslovanská slovní zasobá. Praha, 1981, (çex dilində)

Kotwicz W. l. O chronologji mongolskiej. «Rocznik Orjentalistyczny», t.4. Lwow, 1928

Koşay H. Z. Erzurum ve çevresinin dip tarihi. Ankara, 1984

Kowalski T. Les Turks dans le Šāh-nāme. «Rocznik Orientalistyczny», tom. XV, Krakóv, 1949; (Şahnamede türkler. Çeviren *H.Güngör*), «Erciyez Univ. dergisi»,№1,1984

König F. W. Die Elamischen Königsinschriften. Graz,1965

Köçərli T. Qarabağ. B. 2002

Kuzgun Ş. Hazar ve Karay türkleri. Ankara,1993

Labat R. Manuel d'épigraphie akadienne (siqnes, syllabaire, idéoqrammes). Paris, 1952

Landsberger B. Ön Asya kadim tarihinin esas meseleleri. (İkinci Türk Tarihi Kongresi, bildiriler), İstanbul, 1937; (Almancadan tərcüməsi: *Balkan*, 1992).

Łazaray Pharpetsoy Patmutun Hayots ev Tułt ar Vahan Mamikonean.Tphłis,1904 (hayca)

Le Goq A. Köktürkische aus Turfan. Manuskriptfragmente in Köktürkischen Runen aus Toyoq und İdi-qut-Schahri (Oase von Turfan). SPAW, Berlin, 1909

Litvinsky B. A. The Hephthalite Emprie. Paris, 1996

Liu Mau-Tsai. Die Chinesischen Nachricten zur Geschichte der Ost-Türken (T'u-küe). I., Wiesbaden, 1958

Livia K. Sz. Az Etruszkok nyomaban. Corvina Kiado, (macar dilində)

Mackerras C. The Uighur Empire according to the T`ang dinagtic Histories. Canberra, 1972

Maşkur M. J. The history of Urartu nation and the discovery of an Urartu inscription in İranian Azerbaijan. Tehran, 1953

Mellart J. The neolitic of dhe Near East. L.1975

Memiş E. Eskiçağda türkler. Konya, 2002

Merçil E. Müslüman-Türk devletleri tarihi. Ankara, 1991

Mirzəyev M. Qədim Azərbaycan-Mesopotamiya əlaqələrinə dair (Mesopotamiyada kuti hakimiyətinin başlanğıcından III Ur sülaləsinin sonuna qədər). TP, №2, 2003

Movsesi Xorenatsoy Patmutun Hayots. Tphłis,1913 (hay dilində)

Moravcsik G. Bizantinoturcica. I-II. Berlin, 1983

Monguş B. Kenin-Lopsan. Tuvaların eski gelenekleri. (II), TD_1 sayı 8, 1999

Muscarella O.W. Hasanlu in the Ninth Centry B/C. And its Relation with other cultural centers of the Near East. «Chronologies in Old World Archaeology», AJA, 75, 3, 1971

Mühlmann W.E. Rassen, Ethnien, Kulturen. Berlin, 1964

Nagel W., Strommenger E. Kalakent Früheiseitliche Graberfrunde aus dem Transkaukasischen Gebiet von Kirovabad/Jelisavetopol. Berlin, 1985 (F.Abbasovanın azər dilinə tərcüməsi. B.1999)

Negahban E. O. A Preliminary Report on Marlik Excavations. Tehran, 1964

Niederle L. La Race Slave (Statistique, demographie, antropologie). Paris, 1911

Nyberg N. S. Die Religionen des alten İran. Leirzig, 1938

Oliva P. Sparta and Her Social Problems. Pragua, 1971

Onat N. H. Arapçanın türk diliyle kuruluşu. I c. İstanbul, 1944

Orkun H. N. Eski türk yazıtları. Ankara, 1994

Otar İ. O. Akçokraklının «Kırım tatar tamğaları» kitabı vesilesi ile notlar. İstanbul, 1983

Ögel B. Türk kültürünün gelişme çağları. (III baskı),İstanbul, 1988

Ögel B. İslamiyetden önce Türk kültür tarihi. (Orta Asya kaynak ve buluntularına göre), III baskı, Ankara, 1988 a

Pallotino M. Testimonia linguae etruscae. Firenze, 1968

Pallotino M. The Etruscans. «Penguin Books». 1975

Pallotino M. Rivista di epiqrafia etruska. «Studi Etruschi», 47, Firenze, 1979

Perkins A.L. The Comparative Archaeology of Early Mesopotamia. Chicago, 1957

Phavstos Buzandatsoy Patmutun Hayots. Venetik, 1933 (hay dilində)

Pfiffig A. Studien zu den Agramer Mumienbinden. Wien, 1963

Planhol X. Les nomades, la steppe et la forêten Anatolie. «Geoqraphische Zeitschrift», t.LIII. 1965

Porfirogent K. (*Baqrənorodnıy Konstantin.* Ob upravlenii imperiey). M.1989

Priskos. Grek seyyahı Priskosa (V asır) göre Avrupa hunları. (Tərcümə edən *Ali Mehmetoğlu*), İstanbul, 1995

Pritsak O. Orientierung und Farbssymbolik. «Sekulum» Bd.5, №4, 1954

Pritsak O. Türk-slav ortak yaşamı: Güney-doğu Avrupanın türk köçebeleri. «Türklər», II.

***Procopius.* History of the Wars. Secret Nistory and Buildings. New York,1967**

Pulleyblank E. The Wu-sun and Sakas and the Yüeh-chih migration. BSO(A)S, Vol. 37. Pt.1,1970

Purpirar N. On iki əsr süküt. Əhəmənilərin zühuru. I kitab, (Farscadan çevirən: *Güntay Cavanşir*), B. 2002

Rasonyi Laszlo. Tarihte türklük. (IV baskı), Ankara, 1996.

Ramazan Şeşen. «İbn Fadlan» kitabına əlavə.

Rathbun T. A. An analysis of the skeletal material excavated at Hasanlu, İran. «Universiti of Kanzas», 1964.

Rësënen M. Versuch eines etymologischen würterbuchs der Türksprachen. Helsinki.1969

Rəşidəddin F. Oğuznamə. (Hazırlayan *Osmanlı İ.*). B. 2003

Römer W.H. Ph. Einführung in die Sumerologie. Nijmegen, 1982

Sebeosi yepiskoposi patmutyun. Yerevan, 1939 (hay dilində)

Sever H. Asur siyasi tarihinin ana devreleri. «Ankara universitesi Dil ve Tarih-Coğrafya fakültesi dergisi», c.XXXI, sayı 1-2, Ankara, 1987

Sertkaya O. F. Göktürk tarihinin meseleleri. Ankara, 1995

Sousa A. History of Mesopotamian civilization. Vol.1. Baghdad, 1983

Speiser E. A. Mesopotamian Origtns. The Basic Population of the Near East. Philadelphia,1930

Stawiski B. Kunst der Kuschan. Leipzig, 1979

Şanidze A. Q. Hin vratseren gerakanutyun. Yerevan, 1983 (hay dilndə)

Şecere-i Terākime. Ebulgazi Bahadır Han. Türkmenlerin Soykütüğü (haz. *Z. K. Ölmez*), Ankara,1996

Şəcərei-Tərakimə. Əbulqazi Bahadır xan. Türkmənlərin soy kitabı. (haz. *Osmanlı İ. M*.), B. 2002

Şeşen R. İslam coğrafiyaçılarına göre türkler ve türk ülkeleri. Ankara, 1985

Şeşen R. Ebu Dülefin «Risale»sinden türk ülkeleriyle ilgili kısmın tercümesi. («İbn Fadlan» kitabında, 1975)

Şeşen R. Mervezinin eserinin türklerle ilgili babının tercümesi. («İbn Fadlan», 1975)

Şükürlü A. Azerbaycanda bulunan bir eski yazıt haqqnda. «III (1996) Uluslararası türk dili qurultayı», Ankara, 1999

Shiratori K. Kağan ünvanının menşeyi. «Belleten», IX, 36. 1945

*Schermerhorn R.*A. Comparativ Ethnik Relations. A Framework for Theory and Research. New York, 1970

Taberi. Milletler ve hükumdarlar tarihi. I-III t. İstanbul, 1991

Tanrıverdi Ə. «Kitabi-Dədə Qorqud»da şəxs adları. B. 1999

Tantəkin H. Sehirli nağılların onqon və əsatiri surətləri. (*Əlyazma*), B. 1984

Tantəkin H. Kuşan-Azərbaycan mədəniyət birgəliyi. (*Əlyazma*) B. 1986

Tantəkin H. Tarixi saxtalaşdıranlara tutarlı cavab. «Qurtuluş» qəzeti, №3, 1991

Tarcan H. Ön-Türk tarihi. İstanbul, 1998

Tahirzadə Ə. Nadir şah Əfşar. B. 2002

Tahirzadə Ə. Ağaməhəmməd şah Qacar. B. 2002

Tekin T. Tuna bulqarları ve dilleri. Ankara, 1987

Togan A. Z.V. Umumi Türk Tarihine giriş. I c. (III baskı), İstanbul,1981

Tosun T., Yalvaç K. Sumer, Babil, Assur kanunları ve Ammi-Şaduqa fermanı. Ankara, 1989

Tuna O.N. Sümer ve türk dillerinin tarihi ilgisi ile türk dilinin yaşı meselesi.Ankara, 1990
Turan O. Doğu Anadolu Türk devletleri tarihi. (II baskı), İstanbul, 1980
Turan O. Türk cihan hakimiyeti mefkuresi tarihi. I c. İstanbul,1998
Thakur U. **The Hunas in İndia. Varanasi, 1967**
Trombetti A. Ancora sulla parentela dela lingua etrusca. Roma, 1934
Yavuz E. Tarih boyunca türk kavimleri. Ankara, 1968
Varro. Lingua Latina. V, IX.
Vəlixanlı N. Ərəb Xilafəti və Azərbaycan. B.1993
Westenholz A. The Old Akadian Empire in Contemporary Opinion. «Rower and Propaganda: A Simposium on Ancient Empires». Paris, 1979
Wilcke C. W. Das Lugalbandaepos. Wiesbaden, 1969
Woolley L. A Forgotten Kinqdom. Penguin Books. 1953
Zadok R. The Elamite Onomasticon. Napoli,1984
Zeynalov Ə. Azərbaycan bayatıları Qafqaz regionunda. B. 2001
Zehtabi M. - (İran türklərinin əski tarixi) دوقتور محمد تقی زهتا بی . ا یرا ن تورکلریذین ا سکی تا ر یخی. تبریز-۱۳۷۷

QISALTMALAR

АВ	- Археология Венгрии. М.1986
АВИИУ	- *Дьяконов И.М.* Ассиро - Вавилонские источники по истории Урарту. ВДИ, №2-3, 1951
Акты	- Акты, собранные Кавказскою Археографическою Комиссиею. (Архив Главного Управления Наместника Кавказского), Тифлис
АДД	- Автореферат докторской диссертации
АИОСК	- Античные источники о Северном Кавказе.(Сост. *В.Аталиков*). Нальчик, 1990
АИПИА	- Античные источники по истории Азербайджана. (Сост. *К.Алиев*). Б.1986
АЗА	- Археология зарубежной Азии. М.1986
АКД	- Автореферат кандидатской диссертации
АНК	- Азербайджанский настольный календарь. Б.1923
АПИОТН	- Арабо-персидские источники о тюркских народах. Фрунзе, 1973
БТВ	- Бараба в тюркское время. Новосибирск, 1988
ВА	- Вопросы антропологии
ВДИ	- Вестник древней истории
ВИПИД	- Восточные источники по истории Дагестана. Махачкала, 1980
ВТЯ	- Вопросы тюркского языкознания. Казань, 1976; Алма-Ата, 1985
ВЯ	- Вопросы языкознания
ДА	- Древняя Анатолия. М.1985.

ДГНТ СССР - Древнейшие государства на территориии СССР. М.

ДГС - *Мельникова Е. А.* Древнескандинавские географические сочинения. М. 1986

ДД - Древность Дагестана. Махачкала, 1974

ДЭ - Древняя Эбла. М. 1985

ДТС - Древнетюркский словарь. Л.1969

ИАН - История армянского народа. Ереван, 1980

ИД - История Дагестана. I т. М.1967

ИДВ - История Древнего Востока. М.

ИДВ II - История Древнего Востока. Часть II. (Передняя Азия). М.1988

ИДМ - История Древнего мира. I-III т. М.1982-1983

ИИ - История Ирана. М.1977

ИИГК - История Иранского государства и культуры. М. 1971

ИИН СССР - История искусства народов СССР. Т.1. М.1971

ИЛ - История Латвийской ССР. Рига, 1955

ИНСК - История народов Северного Кавказа с древнейших времен до конца XVIII в. М.1988

ИПВФ - Исследования по Восточной филологии. М.1974

ИПО 1983 - История первобытного общества. Общие вопросы. Проблемы антропосоциогенеза. М.1988

ИПО 1988 - История первобытного общества. Эпоха классообразования. М.1988

ИПОДГ - Искусство первобытного общества и древнейших государств на территории СССР. М. 1971

ИФЖ - Историко-филологический журнал. АН Арм. ССР, Ереван

ЖС - Живая старина. СПб.

КИСА - Кавказ и Средняя Азия в древности и средневековье. М.1981

КСИИМК - Краткое сообщение института истории материальной культуры. М.

КСИА - Краткие сообшения Института Археологии. М

КТИК - Клинописные тексты из Кюль-тепе. Письма и документы торгового объединения в Малой Азии XIV в. до н. э. (Транскрипция, перевод, вводная статья, комментарий и глоссарий *Н.Б. Янковской*). М.1968.

КЦ - Картлис цховреба. I т. Тбилиси, 1955

КЭС - Кавказский этнографический сборник. ЫХ (Вопросы исторической этнографии Кавказа). М.1989

КЭСРЯ - Краткий этимологический словарь русского языка. (*Шанский Н.М., Иванов В.В., Шанская Т.В.*). М. 1971

МИАС - Материалы и исследования по археологии СССР. М.-Л.

МОД - Межгосударственные отношения и дипломатия на древнем Востоке. М.1987

МПИКНК - Материалы по истории кочевых народов в Китае II-V вв. (Перевод с китайского, введение и примечания *В.С.Таскина*). Вып.1. Сюнну. М. 1989; Вып. 2. Цзе. М. 1990

МЭ - Младшая Эдда. Л.1970

ОИТИИЯ - Опыт историко-типологического исследования иранских языков. 1 т. М. 1975

ОИЯ - Основы иранского языкознания: Древнеиранские языки. М.1979; Среднеиранские языки. М. 1981

ООИА - «Общества обследования и изучения Азербайджана», Б.

ПИА - Палеобалканистика и Античность. М. 1989

ПЛДР - Памятники литературы древней Руси XII век. М. 1980

ПОА - Путешественники об Азербайджане. I т. Б. 1961

ПСДК - По следам древних культур. От Волги до Тихого океана. М. 1954

ПС - Переднеазиатский сборник. М.

САКИЗВ - Средняя Азия, Кавказ и зарубежный Восток в древности. М. 1983

СА - Советская археология

СИ - Современный Иран. Справочник. М. 1957

СТ - Советская тюркология

СЭ - Советская этнография

СДО - Семантика древних образов. Новосибирск, 1990

СЕВЭС - Степи Евразии в эпоху средневековья. М. 1981

СЕЧСССР - Степи европейсской части СССР в скифо-сарматское время. М. 1989

СИКР - Советская историография Киевской Руси. Л. 1978

СМОМПК - Сборник материалов для описания местностей и племен Кавказа

ТВВСЯ - Тюркизмы в восточнославянских языках. М. 1974

ТДЯК - Тюркско-Дагестанские языковые контакты. Махачкала, 1982

ТИ - Тюркологические исследования. М. 1976; М.-Л. 1963; Фрунзе, 1986

ТС - Тюркологический сборник. М.

ТУ - Топонимика Урарту (*Арутюнян Н.В.*). Ереван, 1985

УКН - Урартские клинообразные надписи (*Меликишвили Г.А*). М. 1960

Хоренаци - Исторiа Арменiи Моисея Хоренскаго. М.1858

ХПИДВ - Хрестоматия по истории Древнего Востока. М.1963; (I-II) 1980

ЦА - Центральная Азия. (Новые памятники письменности и искусства). М. 1987

ЭИАСА - Этнография и археология Средней Азии. М. 1979

ЭНБИСП - Этногенез народов Балкан и Северного Причерноморья (Лингвистика, история, археология). М. 1984

ЭПИЦАД - Этнические проблемы истории Центральной Азии в древности (II тысячелетие до н.э.). М. 1981

ЭПС - Этнокультурные процессы в юго-восточной Сибири в средние века. Новосибирск, 1989

ЭСТЯ - Этимологический словарь тюркских языков. М. 1974-1980

Этимология - «Этимология» (АН СССР). М. 1965-1987

Этнонимы - Этнонимы. М. 1970

Этнос - Этнос в доклассовом и раннеклассовом обществе. М. 1982

ЯАИА - Языки Азии и Африки. М. (II т.)1978; (III т.) 1979

ЯН СССР - Языки народов СССР в пяти томах. (II т. Тюркские языки); (III т. Финно-угорские и самодийские языки); (IV т. Иберийско-кавказские языки). М. 1966-1967

ЯСКД - Языки Северного Кавказа и Дагестана. М.-Л. 1935

Алб.Т - *Моисей Каланкатуклу*. Албанија тарихи. *Мхитар Гош*. Албан салнамяси. (Тяръцмя вя шярщляр акад. *З.Бцнйадовундур*). Б.1993

АММ - Азәрбајҹанын мадди мәдәнијјәти

АОП - Азярбайъан ономастикасы проблемляриня даир конфрансын материаллары. АПУ няшри, Б. Ы (1987), ЫЫ (1988), ЫЫЫ (1990), ЫВ (1992)

АТ 1994 - Àзярбайъан тарихи. Ян гядим заманлардан XX ясрядяк, Ы ъ. (ред. *З.Бцнйадов, Й.Йусифов*). Á. 1994.

АТ 1998 - Азярбайъан тарихи. I ъ. «Елм», Б. 1998

АТГ - Азярбайъан тарихи цзря гайнаглар. (ред.*С.Ялийарлы, Ф.Мащмудов*), Б.1989

АФМ - Азярбайъан филолоэийасы мясяляляри. Азярб.ЕА-нын няшри.

ГБ - *Баласагунлу Й.* Гутадгу-Билик (Хошбяхтлийя апаран елм). Б.1994

ЕАМТИЛ - Ермянистанда Азярбайъан мяншяли топонимлярин изащлы лцьяти (*Будагов Б.Е., Гейбуллайев Г.*). Б.1998

ЕА хяб. - Азярб. ЕА-ын хябярляри. (Ядябийат, дил вя инъясянят серийасы).

ТП - Тарих вя онун проблемляри (Елми-нязяри, методик журнал), Бакы

УАРЛ - Уди нъя-азярбайъанъа-русъа лцьят (*Ворошил Гукасйан*). Б.1974

AO - Acta Orientalia. Budapest

ARAB - Ancient Records of Assyria and Babylonia (*Luckenbill D.*). I-II. Chicago, 1926-1927

ARI - Assyrian Royal İnscriptions (*Grayson A.K.*).Vol. I-II. Wiesbaden, 1972, 1976

ARM - Archives Royales de Mari.

AT 1996 - Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. (red. *S. Əliyarov*). B. 1996

Azer.MKS - Monuments of Azerbaijan material culture series. №1-9 (History museum)

BA - Belträge zur Assyriologie und Semitischen Sprachwissenschaft (*Billerbeck A., Delitzsche F.*). Band VI, Leipzig, 1909

Belleten - Türk Tarih Kurumu, Belleten.

Qalakənd - Kalakent früheisenzeitliche grabfrunde aus dem Transkaukasischen gebiet von Kirovabad/Jelisavetopol (*Nagel W., Strommenger E.*). Berlin, 1985; (azərcə tərcüməsi) B. 1999

GNAUT - Geographical Names According to Urartian Texts (*Diakonoff İ. M. and Kashkai S. M.*). «Repertoire Geograpihique des Textes Cuneiformes», Band 9. Wiesbaden, 1981

EƏ - Elmi əsərlər.Dil və ədəbyat seriyası. Bakı Dövlət universiteti.

EG - Etruscan Glossary. (Compilation and translations from French, İtalian and Latin by *Rick Mc Callister* and *Silvia Mc Callister-Castillo*), 1999

ERDEM - Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu yayınları. Ankara.

ETHNİC Pr. - Ethnic problems of the history of Cental Asia in the early period. (Proceedings of the international symposium. Dushanbe, 1977). Moskva, 1981

DAFİ - Cahiers de la «Delegation Archeologue Française en İran». №4, 1974

DKA - Die Kunst Aserbaidshans vom 4. bis zum 18. Jahrhundert (*Bretanizki L., Weimarn B., Brentjes B.*). Koehler & Amelang. Leipzig, 1988

İA - İslam Ansiklopedisi. İstanbul, (Milli egitim basımevi)

İCGT - İslam coğrafyaçılarına göre türkler ve türk ülkeleri (*Şeşen R.*). Ankara, 1985

Karnamaq - Kārnāmaq ī Ardaxşīr ī Pabaqān. (Kniqa deyaniy Ardaşira, sına Papaka). (Transkriptsiya teksta, perevod so srednepersidskoqo, vvedenie i kommentariy *O. M. Çunakovoy*). M. 1987

KB (Çeviri) - Kutadgu Bilig. II. Çeviri (*Arat R.R*). Ankara, 1988

KB (Metin) - Kutadgu Bilig. I. Metin. (*Arat R.R*). Ankara, 1991

KDQ - Kitabi Dədə Qorqud (*Araslı H.*) B.1938; 1962; (*Ergin M.*) I-II c. Ankara

HB - Historia Bulgarii (*Tadeusz Wasilewski*). Wroclaw,1988

HG - Historia Gruzji (*Baranowski B., Baranowski K.*). Wroclaw,1987

HWC - Hanyu Wailaici Cidian. (*Çin dilində alınma sözlər lüğəti*). Şanxay, 1984

MK - *M. Kaşgari*. Divanü lugat-it-türk tercümesi (çeviren *Besim Atalay*). I-IV t.

ML - 'Ali-Şir Nevāyi. Muhākemetü'l-Luğateyn (haz. *F.S.Barutçu-Özönder*)

PB - Pəhləvi-fars-hay-rus-ingilis lüğəti.İrəvan,1965 (hay dilində)

SDG - *Tosun M., Yalavaç K.* Sumer dili ve grameri.1 c. Ankara, 1981

SRD - Scriptores rerum danicarum medii aevi. - Ed. J. Langebek et al. Hafniae, 1773-1878; (I-X tomların latın dilinə tərcüməsi ilə)

TDA - Türk Dünyası Araştırmaları. İstanbul

TDAY - Türk dili araşdırmaları yıllığı - Belleten. Ankara

TD - Türk dili. (Türk Dil Kurumunun «Dil ve Edebiyat Dergisi»), Ankara

TD_1 - Türk dünyası. (Türk Dil Kurumunun «Dil ve Edebiyat Dergisi»), Ankara

TLE - *Pallottino M.* Testimonia Linguae Etruscae. Firenze. 1954; 1968

ThLE - Thesaurus Linguae Etruscae, I Indice lessicale.Roma,1978; I Supplemento, 1984; Ordinamento inverso dei lemmi, 1985; II Supplemento, 1991

TMBİDA - Türk milli bütünlüğü içerisinde Doğu Anadolu. (Hazırlayan: *B. Ögel, H. D. Yıldız, M. F. Kırzıoğlu, M. Eröz, B. Kodaman, M. A. Çay*) Ankara, 1986

TP - Tarix və onun problemləri. (Nəzəri, elmi, metodik jurnal), B.

Türkler - I-XXVI cild. (Yeni Türkiye Araştırma ve Yayın Merkezi), Ankara, 2002

Vekayi - *Gazi Zahirüddin Muhammed Babur*. Vekayi (Baburun hatiratı). I-II c. Ankara, 1987

ZDMG - Zeitschrift der Deutschen Morgenlandischen Gesellschaft. Leipzig - Wiesbaden.